# ELÇİN

Seçilmiş
əsərləri **5**

Redaktor:
**Dilsuz**

**ELÇIN**

E46 **«Seçilmiş əsərləri» (10 clddə), V-ci cild.** Bakı,
**«ÇINAR-ÇAP»** nəşriyyatı, 2005, – 494 səh.

E $\frac{4702060200}{122}$

**© «ÇINAR-ÇAP», 2005**

# ROMANLAR



# ÖLÜM HÖKMÜ



## 1

## GƏLƏCƏYƏ DOĞRU

Axşam düşmüşdü, Bakının aşağısından – Xəzər tərəfdən yüngül bir yaz mehi əsirdi və həmin meh o aprel axşamı Tülkü Gəldi Qəbiristanlığında Qəbiristanlıq Idarəsinin həyətindəki xartut, əncir, gilas ağaclarının təzə-tər yarpaqlarını güclə eşidiləcək bir xışıltıyla səsləndirirdi, o xışıltı həyətə yayılırdı və elə bil ki, o böyük həyətin həmin anlardakı müvəqqəti sakitliyinə, kimsəsizliyinə bir məhrəmlik gətirirdi.

Əlbəttə, Gicbəsər o yarpaq xışıltısını eşidirdi, amma ağaclara tərəf baxmırdı; qarovulçu Əflatunun köşkünün damında dal ayaqlarını altına yığıb, qabaq ayaqlarını irəli uzadıb, o yüngül yaz mehinin əsdiyi səmtə – axşamüstü uzaqda qaralmağa başlayan dənizə tərəf baxırdı.

Qarovulçu Əflatunun köşkünün damından üzüaşağı bütün Bakı görünürdü – Tülkü Gəldi Qəbiristanlığı şəhərin dağlıq hissəsində idi – və o vaxt ki, gecə düşəcəkdi, o görünən binaların, küçələrin, dənizkənarı bulvarın işıqları yanacaqdı, onda Bakının bu görünüşü dünyanın ən böyük möcüzəsi olacaqdı, sirlərlə dolu naməlum bir aləmə çevriləcəkdi və yenə də neçənci gecə olacaqdı ki, Gicbəsər gizlincə qarovulçu Əflatunun köşkünün damına qalxıb, beləcə çöməlib gözlərini sirlərlə dolu o naməlum aləmdən çəkməyəcəkdi, o işıqlar bir-bir sönənəcən baxacaqdı, gecəyarısı Qəbiristanlıq Idarəsinə gəlib-gedən maşınlara, girib-çıxan, ora-bura vurnuxan adamlara fikir verməyəcəkdi, qaranlıq çökmüş Bakıda o uzaq və naməlum binaların, küçələrin, oradakı insanların və itlərin qoxusunu duymağa çalışacaqdı.

Son günlərin bütün gecələri belə keçirdi.

Amma bu gün dama tez qalxmışdı; bəlkə də gecəyə kimi elə beləcə burada qalacaqdı, bəlkə də düşüb gedib fırlanıb, gecə təzədən bura qalxacaqdı... Hər halda, bu axşam nəsə əvvəlki axşamlara oxşamırdı, bu axşam Gicbəsər daha artıq narahat idi, düzdü, gözlərini şəhərə zilləmişdi, başqa heç nəyə fikir vermirdi, amma hərdənbir diksinirdi, elə bil ki, nə barədəsə fikirləşirdi və fikirləri onu diksindirirdi.

Tülkü Gəldi Qəbiristanlığında Gicbəsərə fikir verən yox idi; hərgah fikir verən (və başa düşən adam!) olsaydı, görərdi ki, bu itə nəsə olub, əvvəllər həyətdə sülənən it deyil və ümumiyyətlə, axır vaxtlar nəsə gözə az dəyir; fikir verən (və başa düşən adam!) olsaydı, görərdi ki, bu itin qara və həmişə qəmgin gözlərində nəsə elə bir ifadə yaranıb ki, bu ifadə təkcə yemək axtarmaq, təpikdən qorunmaq, soyuqda isti yer, istidə sərin yer axtarmaq qayğılarından xəbər vermir...

Gicbəsərin bütün ömrü Tülkü Gəldi Qəbiristanlığında keçmişdi. Taleyi bu iti necə gətirib bu qəbiristanlığa çıxarmışdı – bunu heç kim bilmirdi və təbii ki, heç kim bu barədə düşünmürdü; amma Gicbəsəri Qəbiristanlıq Idarəsinin həyətində ilk dəfə görən adam Əbdül Qafarzadə olmuşdu.

Onda – Gicbəsər üçün çox-çox uzaq bir zamanda – çiskinli bir sentyabr səhəri idi və o payız çiskinində Tülkü Gəldi Qəbiristanlığındakı ağacların xəzan sarısında qəmdən, qüssədən, ömrün sonu ümidsizliyindən əsər-əlamət yox idi, elə bil ki, o

payız çiskini həmin qəmi, qüssəni, ömrün sonu ümidsizliyini yuyub aparmışdı və o narın çiskin Əbdül Qafarzadənin sifətinə dəydikcə, elə bil, kişinin bütün içinə bir qayğısızlıq, nikbinlik yayılırdı, özünü sağlam, gümrah hiss edirdi və bu hiss həmin payız səhəri Əbdül Qafarzadəni nəsə yaxşı bir iş görməyə, kimisə sevindirməyə, kiməsə bir xeyir verməyə (həm də gözlənilməz bir xeyir!) səsləyirdi. Belə vaxtlarda Əbdül Qafaqzadə dünyanın bütün bəd işlərini, pis əməllərini, saxta oyunlarını, riyakarlığı, ikiüzlülüyü, pozğunluğu – hər şeyi yaddan çıxarırdı (hər halda, kişiyə belə gəlirdi) və elə bil ki, bu adamın bütün içi, fikri-zikri də o payız çiskini kimi, tərtəmiz olurdu, paklaşırdı.

O çiskinli sentyabr səhəri daxilindən baş qaldırmış o coşğun nikbinlik və xeyirxahlıq hissləri içində Əbdül Qafarzadə əllərini adəti üzrə arxasında birləşdirib geniş sinəsini daha da irəli verdi, üzünü yuxarı tutub bomboz payız səmasına baxdı, narın çiskin çeşməyinin şüşələrinə səpələndi və belə bir narın damcılı şüşə arxasından dünyaya baxmaq da o dəm Əbdül Qafarzadəyə ləzzət verdi, hətta Tülkü Gəldi Qəbiristanlığının dəmir darvazasının bala qapısından Qəbiristanlıq Idarəsinin həyətinə girəndə qarovolçu Əflatunu görəndə də, bu balacaboylu, arıq, sir-sifəti günün altında, tozun-torpağın içində illərdən bəri yanıb qaralmış, balaca, yaşıl gözləri həmişə səksəkə içində oynayan adam – qarovolçu Əflatun da Əbdül Qafarzadənin gözünə dünyanın gözəl bir məxluqu, qüsursuz bir bəndəsi kimi göründü, düzü, Əbdül Qafarzadənin özünün də qarovulçu Əflatunu beləcə görməyinə gülməyi tutdu, amma, hər halda, həyat gözəl idi və Əbdül Qafarzadə də bu gözəl həyatın sahiblərindən biri idi.

Qarovulçu Əflatun köşkünün balaca pəncərəsindən Əbdül Qafarzadəni görən kimi, o saat bayıra sıçradı və çevik addımlarla özünü kişiyə tez yetirmək istədi; qarovulçu Əflatun Əbdül Qafarzadəyə o qədər bələd olmuşdu ki, lap uzaqda qaraltısını da görəndə sövq-təbii duyurdu ki, kişinin kefi kökdü, yoxsa qanı qaradı; müdirin qanı qara olanda, qarovulçu Əflatun çalışırdı ki, hörmətini, ehtiramını, səcdəsini kənardan-kənara bildirsin, amma hiss edəndə ki, müdirin kefi kökdü (yəni bu o deyən şeydi ki, qarovulçu Əflatun əlavə pul qoparda bilərdi, gözlənilmədən əlavə bir imtiyaz əldə edərdi), yaxınlaşıb hal-əhval tuturdu, yeri düşsəydi sözü fırladıb gətirib Xıdırın üstünə çıxarırdı, Xıdıra rəhmət oxuyurdu, bir balaca ağlamsınıb və gözlərini yerə dikib Xıdırın belə bir gözəl zəmanəni görmədiyinə dönə-dönə təəssüfünü bildirirdi və Əbdül Qafarzadənin o gözəl ovqatının maddi bəhrələrini görürdü.

O payız səhəri də yəqin belə olacaqdı, amma birdən-birə hardan peyda oldusa, balaca bir küçük sərçə kimi civildəyə-civildəyə qarovulçu Əflatunun ayaqlarına dolaşdı, az qaldı ayaqlarının altında qalsın və qarovulçu Əflatun ayağı ilə o balaca küçüyü bir kənara itələdi ki, bu gözəl payız səhəri fürsəti əldən verməsin, özünü növbəti məqsədinə çatdırsın. Çiskinin altında qəhvəyi-qara tükləri islanmış küçük, qarovulçu Əflatunun ayağı ilə təmasdan sonra, cır və nazik səsi ilə zingildədi və Əbdül Qafarzadə narazılıqla başını buladı. Qarovulçu Əflatun, əlbəttə, bu narazılığı o saat hiss etdi və dayandı, bir müdirə, bir də qəflətən peyda olmuş o küçüyə baxdı, bilmədi ki, nə eləsin.

Əbdül Qafarzadə:

– Götür onu gətir bura, – dedi.

Qarovulçu Əflatun dünyada ən çox sevdiyi bir varlıq kimi, o küçüyü o saat ehmalca qucağına aldı və müdirin qabağına yüyürdü. Qəhvəyi-qara tükləri bədəninə yapışmış o küçük hardan gəlib Tülkü Gəldi Qəbiristanlığına çıxmışdı? Qəbiristanlığın ərazisində it yox idi və ümumiyyətlə, Əbdül Qafarzadə bu fikirdə idi ki, qəbiristanlıqda gərək it-pişik olmasın və Mirzəibi də, Vasili də, Ağakərim də bunu bildikləri üçün, Tülkü Gəldi Qəbiristanlığını itdən, pişikdən mühafizə edirdilər.

O küçük, qarovulçu Əflatunun qucağından boylanıb Əbdül Qafarzadəyə baxırdı və həmin küçük baxışlarında bir etibar, ümid var idi, çünki yenicə gəldiyi dünyanın işlərindən xəbərsiz idi, qarovulçu Əflatunun o təpiyi də, yəqin ki, həyatında aldığı ilk təpik idi. Bu küçük dünyaya beləcə bir etibarla, ümidlə gəlmişdi, amma o etibar da, o ümid də dünyanın vecinə deyildi və Əbdül Qafarzadə o dəm küçüyə baxa-baxa fikirləşirdi ki, bu balaca varlığı irəlidə nələr gözləyir? Nə qədər təpik yeyəcək? Bir azdan gözlərindəki o, etibardan, o ümiddən əsər-əlamət də qalmayacaq (Əbdül Qafarzadə buna əmin idi) və nə üçün belə olmalıydı? Bir halda ki, bu küçük dünyanın beləcə vecinə deyildi, təbiət niyə onu yaradırdı? Təpikləri yesin, sonra da acından ölsün? Nə olsun axı? Nə olsun ki, nəslini davam etdirir? Davam edən bu nəslin nə mənası var?

Əbdül Qafarzadənin hərdən belə bir fəlsəfəyə qapılması var idi.

Küçük, qarovulçu Əflatunun qucağından çıxıb Əbdül Qafarzadənin qucağına gəlmək istəyirdi, elə bil, başa düşmüşdü ki, Tülkü Gəldi Qəbiristanlığında və ümumiyyətlə, bu dünyada kim, kimdir. Əbdül Qafarzadə qara paltosunun cibindən dəsmal çıxarıb çeşməyinin şüşələrini sildi, diqqətlə küçüyə baxdı, sonra küçüyü qarovulçu Əflatundan aldı, iri əlləri ilə yaş tüklərini tumarladı, bu adam ömründə ilk dəfə idi ki, qucağına it alırdı, ilk dəfə idi ki, it tumarlayırdı və küçük də o sazaq payız səhəri bir neçə günlük həyatında ilk dəfə insan əlinin (iri əllərin) hərarətini hiss etdi və bu – Əbdül Qafarzadənin hər şeyi görən boz gözlərindən yayınmadı, küçüyü qarovulçu Əflatuna qaytarıb:

– Bunu özünlə bir yerdə saxla!.. – dedi və iri sümüklü uzun barmağı ilə qarovulçu köşkünü göstərdi.

– Baş üstə!

– Yaxşı bax buna!.. – Əbdül Qafarzadə yenə küçüyün başını tumarladı, gülümsədi və Qəbiristanlıq Idarəsinin ikimərtəbəli binasına tərəf getdi.

Qarovulçu Əflatun sidq-ürəkdən heyfsilənə-heyfsilənə fikirləşdi ki, bu dəfə Əbdül Qafarzadənin kefi köklüyündən qazanan o olmadı, bu it balası küçük oldu, hətta Əbdül Qafarzadə idarənin binasına girəndən sonra, qarovulçu Əflatun hirsindən küçüyü asfaltın üstünə çırpmaq istədi, amma, əlbəttə, o saat da özünü ələ aldı: o boyda kişi bu küçüyü ona tapşırmışdı və qarovulçu Əflatunun da borcu idi ki, cani-dildən bu küçüyə qulluq eləsin – Əbdül Qafaqzadə verdiyi tapşırığı yadından çıxaran adam deyildi və qarovulçu Əflatun da bunu yaxşı bilirdi.

Həmin çiskinli payız səhərindən sonra, o küçük Tülkü Gəldi Qəbiristanlığında, qarovulçu Əflatunun köşkündə bu adamla birlikdə yaşamağa başladı. Qarovulçu Əflatun hər gün küçük üçün bir qutu süd alıb gətirirdi, kolbasa, sosiska alırdı, hətta bəzən pirojna alıb gətirirdi və Qəbiristanlıq Idarəsinin işçilərinin yanında küçüyə yedizdirirdi, bir sözlə, küçüyə o yeməkləri verirdi və o cür qulluq edirdi ki, işdi, Əbdül Qafaqzadə görsə, eşitsə, o kişinin tapşırığına layiq olsun.

Qarovulçu Əflatun hər səhər küçüyü qucağına alıb köşkün yanında dayanırdı və Əbdül Qafarzadənin avtobusdan düşüb Tülkü Gəldi Qəbiristanlığına gəlməyini gözləyirdi. Əbdül Qafarzadə hər səhər də o küçüyə gülümsəyirdi, hərdənbir darvazanın yanında ayaq saxlayırdı və o zaman qarovulçu Əflatun küçük qucağında, tələsik müdirin qabağına yüyürürdü, Əbdül Qafarzadə də iri əli ilə küçüyün başını, belini sığallayıb:

– Malades! – deyirdi.

Qarovulçu Əflatun küçüyə deyilən bu «Malades» sözünü, az qala, öz ünvanına qəbul edirdi və həmin anlarda dünyanın ən xoşbəxt adamı olurdu, daha doğrusu, çalışırdı ki, Əbdül Qafarzadənin gözlərinə dünyanın ən xoşbəxt adamı kimi görünsün. Məsələ burasında idi ki, o darısqal köşkdə itlə birlikdə yaşamaq, itə qulluq etmək, hər gün səhər tezdən o iti qucağına alıb müdirin yolunu gözləmək qarovulçu Əflatunu o qədər bıkdırmışdı ki, ürəyində küçüklə düşmən idi, amma tək olanda da, lap gecənin yarısı da hirslənəndə küçüyü vurmağa, incitməyə cəsarət etmirdi: Tülkü Gəldi Qəbiristanlığında hasarın da, darvazanın da, asfaltın da qulağı var idi və hər hansı bir xəbər o saat gəlib Əbdül Qafarzadənin qulağına çata bilərdi.

Küçük boyuna, balacalığına görə deyildi... Qarovulçu Əflatun hər gün səhər də, gecə də küçüyü həyətə gəzdirməyə çıxarırdı və bu it balası it, həyətdə heç nə eləmirdi, qarovulçu Əflatun nə qədər əlləşirdisə də, nə qədər şirin sözlər deyib heyvanı tovlamaq istəyirdisə də, bir şey çıxmırdı, elə ki, köşkə qayıdırdılar, küçük başlayırdı mədəsini boşaltmağa, ya da sidiyini axıtmağa və həmin anlarda qarovulçu Əflatun köşkün döşəməsindən, hətta bəzən çarpayının üstündə o it nəcisini, it sidiyini təmizləyə-təmizləyə fikirləşirdi ki, bu dünyada Əbdül Qafarzadənin xoş münasibət göstərdiyi küçük olmaq Əflatun olmaqdan yaxşıdı... Ürəyində küçüyü ən pis küçə söyüşləri ilə söyə-söyə köşkü silib süpürürdü, balaca qapısını açıq qoyurdu ki, havası dəyişsin, iy çəkilsin, amma o iy gündən-günə artırdı və qarovulçu Əflatunun köşkünə girəndə, elə bil ki, it ayaqyolusuna girirdin.

Hər gecə taksilər gəlib Tülkü Gəldi Qəbiristanlığının darvazası ağzında dayandıqca, qarovulçu Əflatun qaça-qaça araq dalınca gedib-gəlirdi, qumarbazları qarşılayırdı, yola salırdı və köşkə girib qazandığı manatlıqları, üçlükləri, beşlikləri cibindən çıxarıb səliqə-sahmana salanda, ümumi pulları (onluqları, iyirmibeşlikləri, əllilikləri, hətta yüzlükləri!..) paylara ayıranda, küçüyün, elə bil ki, cini qalxırdı, dəlisi tuturdu, hürməyə başlayırdı və qarovulçu Əflatunun gecə həyatının beləcə şıdırğı və məsuliyyətli çağlarında bu küçük hürüşünə adət eləmək mümkün deyildi; hər dəfə qarovulçu Əflatunun ürəyi döyünürdü, narahat hisslər keçirirdi, nigaran qalırdı: məsələ burasında deyildi ki, qarovulçu Əflatun nədənsə, kimdənsə qorxurdu– yox (və başqa cür də ola bilməzdi: Tülkü Gəldi Qəbiristanlığının Əbdül Qafarzadə kimi bir sahibi var idi və hələ yoxlamaq lazım idi ki, bu dünyada kim güclü adam idi – Brejnev, yoxsa Əbdül Qafarzadə?), məsələ onda idi ki, bütün bu köşk əməliyyatları bir təklik, şahidsizlik tələb edirdi, bu gecə haqq-hesabları yalnız qarovulçu Əflatuna aid idi, yəni yalnız bu adamın həyatının bir parçası idi, həm də gözəl parçası idi və qarovulçu Əflatun illərdən bəri buna öyrəşmişdi, odur ki, belə çağlarda bu küçüyün hürməyə başlaması tamam bir dilxorçuluq gətirirdi.

Küçük süd içə-içə, kolbasa, sosiska, pirojna yeyə-yeyə gözgörəti böyüyürdü və bu küçüyün yüksək qəyyumundan xəbərdar olan Qəbiristanlıq Idarəsinin işçiləri hərdənbir ona dondurma, marmelad, xarici peçenye də verirdilər və bütün bu gedişat

ondan xəbər verirdi ki, Tülkü Gəldi Qəbiristanlığındakı bu küçüyü gələcəkdə dünyanın ən xoşbəxt itinin taleyi gözləyir. Düz üç aydan artıq beləcə davam etdi, sonra şıdırğı payız yağışı yağan bir dekabr günü – altı il bundan əvvəl – müdirin cavan və sağlam idmançı oğlu birdən-birə rəhmətə getdi.

O dəfn mərasimini, o dəfn mərasimində Əbdül Qafarzadənin dediyi sözləri yadına salanda həmişə az qalırdı ki, qarovulçu Əflatunun tükləri biz-biz olsun. Həmin dəfn mərasimində Əbdül Qafarzadə camaatın arasında (elə bil ki, rəhbərlərdən kimsə ölmüşdü, böyük bir matəm nümayişi idi) dayanmış qarovulçu Əflatunu gördü və qəflətən qışqırdı: «– Alə, Əflatun, get car çək e!.. De ki, düşmənlərin dediyi başıma gəldi!..» Və özünün hiss-həyəcanları təbiətən çox aşıb-daşan olmasa da, dünyada çox iztirabların, işgəncələrin şahidi olmuş, xırda yaşıl gözləriylə məhkum taleləri yola salmış, birdən-birə qırılmış həyat yollarını çox görmüş (və özü də evlər yıxmış) qarovulçu Əflatun o vaxta qədər o sifətdə, o baxışda adam görməmişdi (və yəqin ki, ömrünün axırına kimi də görməyəcəkdi!), elə bil ki, çeşməyinin arxasından boz gözləri ilə qarovulçu Əflatuna baxan, o sözləri deyən insan deyildi, dərdin, ələmin, dəhşətin özü idi...

Həmin fəlakətdən sonra, Əbdül Qafarzadə bir müddət işə gəlmədi və nəhayət, oğlunun ölümündən keçən neçənci günsə avtobusdan düşüb ilk dəfə Tülkü Gəldi Qəbiristanlığının darvazasının bala qapısından içəri girdi. Qarovulçu Əflatun yenə də küçüyü qucağına alıb tələsik köşkün qabağına çıxdı, amma bu dəfə Əbdül Qafarzadə küçüyə baxmadı, boz gözləri ilə çeşməyinin ardından qarovulçu Əflatunun gözlərinin içinə baxdı və o baxışların altında kürəyinin arasını soyuq tər basan qarovulçu Əflatun başa düşdü ki, səhv eləyib, küçüyü daha beləcə pişvaza çıxarmaq lazım deyilmiş.

Bundan sonra çox naməlum və qarovulçu Əflatunu o naməlumluq içində çaşbaş salan bir vəziyyət əmələ gəlmişdi: qarovulçu Əflatun bilmirdi ki, nə eləsin, bu it küçüyünü əvvəlki tək bəsləsin, yoxsa qovsun, yoxsa necə olsun? Əlbəttə, bunu gedib Əbdül Qafarzadənin özündən soruşmaq olmazdı... Qarovulçu Əflatun bu barədə Mirzəibidən, Vasilidən, Ağakərimdən məsləhət almaq istədi, amma Mirzəibi də, Vasili də, Ağakərim də çiynini çəkdi və heç biri bu işə qarışmadı, çünki Əbdül Qafarzadə ilə bağlı o işdə ki, naməlumluq var idi, yaxşısı bu idi ki, həmin işə qarışmayasan.

Səhərlər Əbdül Qafarzadə işə gələndə qarovulçu Əflatun daha küçüyü qucağına alıb pişvaza çıxmırdı və Əbdül Qafarzadə də daha o küçüklə maraqlanmırdı. Hətta bir-iki dəfə küçük özü Əbdül Qafarzadəni həyətdə görüb kişinin dalınca düşmüşdü, amma müdir küçüyə fikir verməmişdi. O cavan, o sağlam idmançı oğlunun qəfil ölümüylə Əbdül Qafarzadəyə elə bir zərbə dəymişdi ki, kim olsaydı bu zərbəyə dözə bilməzdi və bu gözəl insan ki, indi özünü ələ alıb hər gün işə çıxırdı, bunun özü igidlik idi və qarovulçu Əflatun da bunu belə qiymətləndirirdi.

Günlər də beləcə keçirdi...

Düzdü, qarovulçu Əflatun daha küçüyün südünə, kolbasasına, sosiskasına əvvəlki kimi fikir vermirdi, öz artıqlarını itin qabağına atırdı, hərdən acığı tutanda ayağı ilə itələyirdi, qulağını çəkib zingildədirdi, soyuqda, yağışda-qarda da boynuna ip salıb həyətin aşağı başındakı akasiya ağacına bağlayırdı və qarnını boşaltmayınca köşkə gətirmirdi, amma, hər halda, küçük hələ köşkdə yaşayırdı və yeməyi, içməyi, isti yeri var idi. Küçüyün ərköyün çağları keçmişdə qalmışdı. Qəbiristanlıq

Idarəsinin işçiləri də Əbdül Qafarzadənin daha bu küçüyə fikir vermədiyini bilirdilər (buranın sabit bir ənənəsi var idi: müdirin xarici aləmə münasibətindəki kiçicik təfərrüat da gözdən yayınmırdı) və əvvəlki kimi küçüyə dondurma, marmelad, peçenye verən yox idi.

Sonra elə bir gün gəldi ki, qarovulçu Əflatun özünü heç cürə saxlaya bilmədi və böyrünə bir təpik ilişdirib o küçüyü köşkdən qovdu.

Onda küləkli bir gün idi və axşam təzəcə düşmüşdü. Tülkü Gəldi Qəbiristanlığındakı ölüm mərasimləri qurtarmışdı. Qəbiristanlıq Idarəsinin işçiləri getmişdi və buranın gecə həyatı da hələ başlamamışdı. Həyət-bacada heç kim yox idi. Külək elə güclü əsirdi, elə qıy vururdu ki, köşkün balaca pəncərəsindən həyətə baxan qarovulçu Əflatun fikirləşirdi ki, külək beləcə davam eləsə, bu gecə müştəri az olacaq (yağış müştəriyə təsir eləmirdi, əksinə, daha da artırırdı, amma külək təsir edirdi, azaldırdı), müştəri az olanda da qazanc az olacaq, qazanc az olanda da qayğı artacaq... Qarovulçu Əflatunun oğlu Kolxoz, atasının boyun olduğu «Jiquli» maşınını səbrsizliklə gözləyirdi.

Həyətə baxa-baxa küləyin qarasınca deyinən qarovulçu Əflatun Qəbiristanlıq Idarəsindən çıxan süpürgəçi Nastyanı gördü. Süpürgəçi Nastya idarədən həmişə sonuncu çıxırdı.

Hər dəfə qış gələndə əyninə geydiyi göy paltosunun bütün düymələrini bağlamış, qalın yun şalını başına, boynuna dolamış bu kök (kök idi, amma lırt deyildi) arvadın yaşı əllini keçmişdi, amma canı hələ sulu idi; alkaqolik əri ölmüş, qızı bir azərbaycanlı gülsatana ərə gedib Moskvaya köçmüşdü, oğlunu əsgər aparmışdılar və indi Əfqanıstanda «düşmənlərə» qarşı vuruşurdu və bütün bu təfsilatı qarovulçu Əflatun yaxşı bilirdi. O vaxtlar ki, belə küləkli-yağışlı, qarlı-boranlı qış gecələrində Tülkü Gəldi Qəbiristanlığının müştəriləri az olurdu və qarovulçu Əflatun hələ müharibə vaxtından qalmış kürkünə bürünüb köşkə güclə sığışmış dəmir çarpayıda uzanırdı, onda birdən-birə süpürgəçi Nastya gəlib bu cüssəsiz, arıq adamın yadına düşürdü, arvadın hətta qalın qış paltosunu da arxadan qabardan, yeridikcə hər tərəfi ayrı-ayrılıqda oynayan iri dalı, Qəbiristanlıq Idarəsində əyilib döşəməni süpürəndə, yuyanda paltarının yaxasından dərin arası görünən iri döşləri qarovulçu Əflatunun gözlərinin qabağına gəlirdi və həmin məqamlarda Tülkü Gəldi Qəbiristanlığında qazandığı pullara, Əbdül Qafarzadə kimi bir adamın ona xüsusi mərhəmət göstərməsinə, lap az bir müddətdən sonra Kolxoza maşın ala biləcəyinə baxmayaraq, kişinin ürəyindən bir qüssə keçirdi... Əlbəttə, qoca çağlarında da olsa, tale üzünə gülmüşdü, onu gətirib Əbdül Qafarzadə kimi bir nəhəngə ürcah eləmişdi, özünə güzəran qazanmışdı, amma, hər halda, həyat onu barmağında fırladıb, fırladıb axırda gətirib adicə qarovulçu etmişdi (halbuki maarif müdiri ola bilərdi, hətta raykom katibi də ola bilərdi!..), balaca adam eləmişdi və indi qarovulçu Əflatunun heç olmasa, süpürgəçi Nastyaya da əmr etmək imkanı yox idi...

Həmin küləkli axşam qarovulçu Əflatun köşkün kiçik pəncərəsindən üzü küləyə tərəf gələn süpürgəçi Nastyanın göy paltosunun üstündən belə açıq-aşkar hiss olunan yoğun baldırlarına baxa-baxa udqundu, köşkdən çıxıb darvazanın qabağında dayandı və süpürgəçi Nastya gəlib yanından ötmək istəyəndə rusca:

– Damoy idyoş? – soruşdu.

Süpürgəçi Nastya küləkdən üzünü yanpörtü tutub:

– A kuda je eşo? – soruşdu.
– Şto doma? Adna da doma! – Qarovulçu Əflatun yenə udqundu.
– A çto delat? Takova sudba!..
– Idyom tuda... – Qarovulçu Əflatun əli ilə köşkü göstərdi.

Süpürgəçi Nastya, görünür, o küləkli axşamda belə bir təklif gözləmirdi və açıq-aşkar bir maraqla boyca özündən xeyli kiçik olan qarovulçu Əflatuna, sonra o balaca köşkə, sonra yenə qarovulçu Əflatuna baxdı.

– Idyom da!.. Vodka toje yest... Idyom!.. Ladna da... Nikto ne vidit... Xoroşo budet...

– Tı eşo na çto-to sposoben? – və süpürgəçi Nastya bərkdən güldü.

Qarovulçu Əflatun bu yekəpər, sağlam arvadın beləcə gülməyindən ürəkləndi və bu dəfə süpürgəçi Nastyanın göy paltosunun qolundan yapışmağa cürət etdi, bir balaca da dartdı:

– Idyom da!.. Idyom!.. Padarka toje dam da tebe...

Süpürgəçi Nastya gözlərindəki o maraqla və diqqətlə qarovulçu Əflatuna baxdı və qarovulçu Əflatunun yanınca köşkə tərəf addımladı, qarovulçu Əflatunun ardınca köşkün açıq qapısından içəri girdi.

Darısqal köşkün içində küləyin o vıyıltısıyla bərabər, qəribə bir durğunluq var idi və o durğunluq içində qarovulçu Əflatun özü həyəcanla (ilk dəfə qadın görəcək yeniyetmə həyəcanı ilə) döyünən ürəyinin səsini eşidirdi; udquna-udquna:

– Snimay da palto... – dedi və həyəcandan titrəyən barmaqları ilə süpürgəçi Nastyanın göy paltosunun düymələrini açmaq istədi; qarovulçu Əflatuna elə gəlirdi ki, bu dəm bu darısqal və gözəl köşkdən başqa, paltosunun, paltarının altında o cürə can gizlətmiş süpürgəçi Nastyadan başqa dünyada heç nə və heç kim yoxdur, hətta Tülkü Gəldi Qəbiristanlığı da, Əbdül Qafarzadənin özü də (!!) yaddan çıxmışdı və qarovulçu Əflatunun bütün içinə həyəcanlı, amma eyni zamanda, xoş bir sərbəstlik hakim kəsilmişdi.

Göy palto süpürgəçi Nastyanın bədəninə kip oturduğu üçün o düymələr çox çətin açılırdı və bir yuxarı düyməni açınca qarovulçu Əflatunun barmaqları gizildədi; amma o düymələrin hamısı açılacaqdı və arvadı qocalıb əldən düşmüş qarovulçu Əflatun da bu dünyada, heç olmasa, bircə gün insan ömrü yaşayacaqdı...

Və bu vaxt o küçük gözlənilmədən hürməyə başladı; çarpayının üstündə idi, dörd ayağını da hikkəylə qarovulçu Əflatunun illərdən bəri rəngi solmuş və çirkli adyalının üstünə basıb, boynunu irəli uzadıb süpürgəçi Nastyaya və qarovulçu Əflatuna hürürdü. Qarovulçu Əflatun, əlbəttə, bu iti də yaddan çıxarmışdı və küçüyün beləcə hürməyi onu səksəndirdi, titrəyən barmaqlarını süpürgəçi Nastyanın göy paltosunun yaxasından çəkdi və nədənsə pıçıltıyla:

– Kəs!.. – dedi. – Kəs!..

Küçük daha bərkdən hürməyə başladı.

– Kəs demədim sənə!? – Qarovulçu Əflatun iki əlini də uzadıb küçüyü qamarlamaq istədi, amma it çarpayının yuxarı başına qaçdı, üzünün ağı çirkdən bozarmış yastığın üstünə çıxıb köşkün küncünə qısıldı və əvvəlkindən daha hirsli, daha bərkdən hürməyə başladı.

Ikinci gözlənilməz hadisə isə o oldu ki, küçüyün eləcə hirslə hürməyi, elə bil ki, süpürgəçi Nastyanı ayıltdı, araq da, hədiyyə də yaddan çıxdı və arvad yuxarıdan aşağı bu qoca və cansız kişiyə baxıb bərkdən gülə-gülə:

– Tı je ne mojeş spravlyatsya daje s sobakoy! – dedi və o darısqal köşkdə geri çönüb göy paltosunun altından iri dalının yanlarını qarovulçu Əflatunun yarımca metrliyində oynada-oynada eşiyə çıxdı.

Qarovulçu Əflatun udquna-udquna və ürəyi hələ də həyacanla döyünə-döyünə köşkün balaca pəncərəsindən süpürgəçi Nastyanın ardınca baxdı və elə ki, süpürgəçi Nastya Tülkü Gəldi Qəbiristanlığının darvazasından çıxıb gözdən itdi, qarovulçu Əflatun içindən coşub gələn bir nifrətlə əlini atıb küçüyün boynunun dərisindən yapışdı və heyvanı qaldırıb zərblə köşkün döşəməsinə çırpdı, elə həmin anda da sinəsinə bir təpik ilişdirib iti köşkün açıq qapısından bayıra tulladı.

Bütün qısa ömründə insan təpiyini ilk dəfə beləcə yeyən küçük quyruğunu qısıb zingildəyə-zingildəyə o köşkdən uzağa qaçdı, hasarın dibindəki kolluğa girib heç vaxt hiss etmədiyi dəhşətli bir qorxu ilə köşkün açıq qapısına tərəf baxdı: küçüyün bütün bədəni uçunurdu və yəqin o küçük elə həmin andan da başa düşdü ki, Tülkü Gəldi Qəbiristanlığında insanlarla zarafat eləmək olmaz...

Qarovulçu Əflatun küçüyün qarasına bərkdən küçə söyüşləri söyə-söyə köşkün qapısını bağladı və həmin küləkli axşamın üçüncü gözlənilməz hadisəsi də bu oldu ki, qarovulçu Əflatun birdən-birə (əlbəttə, bərkdən yox, ürəyində!) Əbdül Qafarzadəni söyməyə başladı; birinci dəfəydi ki, Əbdül Qafarzadəni beləcə söyürdü – düzdü, Əbdül Qafarzadə qarovulçu Əflatuna çörək vermişdi, amma nə olsun, hər şey bir qarın çörəklə ölçülmürdü ki...

Əbdülün o qardaşı Xıdır da əclafın biri idi, Əbdülün özü də əclafın biridi, atası hambal Orduxan da, ümumiyyətlə, bütün nəsilləri də əclaf idi və qarovulçu Əflatun elə söydükcə söyürdü, amma ürəyi soyumurdu.

Bir dəfə – həmin hadisədən üç-dörd ay sonra, onda da yaz gəlmişdi və Tülkü Gəldi Qəbiristanlığındakı alça, ərik, gilənar, nar ağacları çiçək açmışdı – Əbdül Qafarzadə Qəbiristanlıq Idarəsinə gələndə hardansa birdən-birə peyda olub həyətin ortasında dayanmış o küçüyü gördü; küçük böyümüşdü, dəyişmişdi, gözlərindəki o etibardan, ümiddən əsər-əlamət yox idi, amma Əbdül Qafarzadə onu tanıdı:

– Həmin küçükdü? – soruşdu.

Qarovulçu Əflatun nigarançılıqla itə baxa-baxa bilmədi ki, nə desin. Düzdü, Əbdül Qafarzadə uzun müddətdi küçüyü görmürdü, soruşmurdu, amma, hər halda, haçansa bu küçüyü ona tapşırmışdı və indi itin beləcə yiyəsizliyinə hirsi tuta bilərdi (onda da qarovulçu Əflatun Aşqabad batan kimi batardı!); amma bu yerdə axmaq it özü qarovulçu Əflatunun köməyinə gəldi– boynunu irəli uzadıb hirslə Əbdül Qafarzadəyə tərəf hürməyə başladı; elə bil ki, it də Əbdül Qafarzadəni tanıdı və kimsəsiz bir günə düşdüyünə görə kişini günahlandırdı.

Əbdül Qafarzadə yavaşdan qarovulçu Əflatunla yox, özü-özü ilə danışdı:

– Necə yazıq idi, indi gör nə olub, zaraza!.. Dünya belədi də... Itə də yaxşılıq yoxdu bu dünyada!..

Qarovulçu Əflatun, Əbdül Qafarzadənin it naxələfliyi ilə bağlı bu fikirlərindən ürəkləndi və belə bir məqamda o itdən fərqli surətdə, özünün naxələf olmadığını nəzərə çatdırmaq üçün kişinin qeydinə qaldı:

– Fikir vermə, əşşi...O adı nədir, şey, gicbəsərin biridi!..

Və həmin gündən də o itin adı Gicbəsər qaldı.

Düzdü, Əbdül Qafarzadənin o itdən üzü dönmüşdü, amma onu qovmaq barədə heç bir xüsusi tapşırıq verməmişdi və Gicbəsər də həmin vaxtdan Tülkü Gəldi Qəbiristanlığında sülənirdi.

O vaxtlardan altı-yeddi il keçmişdi...

Və Gicbəsər indi, həmin bu aprel gecəsi Tülkü Gəldi Qəbiristanlığında qarovulçu Əflatunun köşkünün damından Bakının o gecə mənzərəsinə baxırdı və Tülkü Gəldi Qəbiristanlığından kənardakı o naməlum aləmin işıqları artıq bir-bir sönürdü, amma Gicbəsər yerindən tərpənmirdi, elə-beləcə baxırdı.

Bayaq, yəni bir neçə saat bundan əvvəl Gicbəsər damdan düşüb getmədi, damın üstündə çöməlib gecəni gözlədi və Tülkü Gəldi Qəbiristanlığının gecə həyatına – tez-tez taksilərin gəlib-getməsinə, qarovulçu Əflatunun yüyürə-yüyürə müştəriləri qarşılamasına və yola salmasına, Qəbiristanlıq Idarəsinin həyətinə girib-çıxan gecə qonaqlarına, ayrı-ayrı keflənmiş adamların hay-küyünə, yıxılıb-durmağına, Mirzəibinin, Ağakərimin, Vasilinin adamları bir-bir çağırmağına, cürbəcür tapşırıqlar verməyinə, yəni bu üç nəfərin Tülkü Gəldi Qəbiristanlığındakı bu gecə həyatının təşkilati işləri ilə məşğul olmaqlarına – heç nəyə fikir vermədən bütün gecəni Bakının o mənzərəsinə tamaşa etdi...

Bakının işıqları yavaş-yavaş tamam sönürdü...

Tülkü Gəldi Qəbiristanlığından kənardakı o aləm başdan-başa sirlərlə dolu idi...

... Sonra səhər açılmağa başladı...

Tülkü Gəldi Qəbiristanlığındakı idarənin həyətinə bir sakitlik çökdü, amma bu, müvəqqəti bir sakitlik idi və Gicbəsər burasını çox gözəl bilirdi; bir azdan işçilər gələcəkdi, səhər ötüb, günorta keçəcəkdi, dəfn mərasimləri sona yetəcəkdi, mollalar, qəbirqazan alkaqoliklər, dilənçilər qəbiristanlıqdan çıxıb gedəcəkdi, axşamüstü idarənin də işi qurtaracaqdı və gecə həyatına hazırlıq başlayacaqdı. Gicbəsər gözünü açıb Tülkü Gəldi Qəbiristanlığını, yəni bütün bu illər boyunca içində yaşadığı öz dünyasını beləcə görmüşdü, amma bu dünyadan kənarda sirlərlə dolu naməlum bir dünya da var idi və bu son günlər ərzində o naməlum dünya Gicbəsəri özünə çəkirdi.

Gicbəsər Tülkü Gəldi Qəbiristanlığında yaşamaq istəmirdi.

Gicbəsər daha Tülkü Gəldi Qəbiristanlığında yaşaya bilmirdi.

Bu it indiyə qədər heç vaxt Tülkü Gəldi Qəbiristanlığının geniş ərazisini tərk etməmişdi, təsadüfən buralara gəlib çıxan itlərlə görüşmüşdü, qancıqlarla şırvanmışdı (bu qancıqlar özləri gəlib Gicbəsəri tapırdılar), amma heç vaxt buralardan kənara çıxmamışdı və Tülkü Gəldi Qəbiristanlığında tək ömür sürmüşdü, çünkü başqa itləri buradan qovurdular; Gicbəsərə isə burada adət etmişdilər və bu iti söyürdülər, yeri düşəndə təpikləyirdilər, daşa basırdılar, amma Tülkü Gəldi Qəbiristanlığından qovmurdular.

Gicbəsərin burada həmişə bir qarın yeməyi var idi: gecə məclislərindən qalan artıqlar Gicbəsərə gen-bol bəs eləyirdi.

Amma Gicbəsər daha burada qalmaq istəmirdi.

O naməlum, o sirli aləm Gicbəsəri özünə çəkirdi.

Və Gicbəsər o aprel günü sübh tezdən damdan aşağı düşdü, qarovulçu Əflatunun köşkünün yanında ayaq saxlayıb sol qılçını qaldırdı və sidiyini köşkün daş divarına boşaltdı, bununla da elə bil ki, təkcə qarovulçu Əflatuna yox, bütün Tülkü Gəldi Qəbiristanlığına «əlvida» dedi və qulaqlarını qısıb özünün yeni

həyatına, yeni dünyasına – naməlum bir gələcəyə doğru qaça-qaça Qəbiristanlıq İdarəsinin darvazasından çıxdı.

## 2

## «ƏZIZIMIN CƏFASI» ROMANI

Elə ki, həmin aprel səhəri açıldı, elə ki, sübh tezdən məhəllənin qapıları cırıldadı, çayniklər su ilə doldurulub qazın üstünə qoyuldu, camaat həyətlərdəki ayaqyoluna girib-çıxmağa başladı, həyət adamları bir-birilə salamlaşdı, uşaqlar çörək dalınca Ağabalanın dükanına qaçdılar, o saat da bütün məhəlləyə xəbər yayıldı: gecə Xədicə arvad rəhmətə gedib və həmişə belə bəd xəbərli vaxtlarda olduğu kimi, arvadlar qara kəlağayılarını tələm-tələsik başlarına salıb Xədicə arvadın evinə getdilər, kişilər də yazıq Xədicə arvadın birmərtəbəli, üçotaqlı evinin qabağındakı balaca həyətə yığışmağa başladılar.

Adamlar bir-bir o balaca həyətə doluşduqca Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin dördüncü kursunda təhsil alan tələbə Murad İldırımlı sentyabrın 1-dən bu tərəfə səkkiz ay yaşadığı bu məhəllənin gözə görünməyən teleqram sisteminə məəttəl qalırdı – elə bil ki, məhəllədəki dalanların, evlərin divarları, qapıları, pəncərələri, küçəyə düzülmüş qənbərlər bir-birinə xəbər verirdi və nə olurdusa, bütün bu ətrafda nə hadisə baş verirdisə, gecə, ya gündüz, fərqi yox idi, bircə anın içində bütün məhəlləyə yayılırdı. Tələbə Murad İldırımlı sağ əlinin baş barmağının dırnağını çeynəyə-çeynəyə, həyətə toplaşmış məhəllə kişilərinə baxırdı, sonra birdən yadına düşürdü ki, dırnağını çeynəyir, tez əlini ağzından çəkirdi.

Arvadlar ağlaya-ağlaya evə girib-çıxırdı, o balaca üç otağı (o cümlədən, tələbə Murad İldırımlının və Xosrov müəllimin kirayədə qaldıqları otaqları), artırmanı silib-süpürüb sahmana salırdı, kimisi öz evindən un gətirirdi, kimisi yağ gətirirdi, şəkər gətirirdi, tas, qazan, qab-qacaq gətirirdi, halva çalmaq, yuxa bişirmək üçün tədarük görürdü, kişilər yavaş səslə iki-bir, üş-bir söhbət eləyə-eləyə cənazəni məscidə aparıb yumaq, ölüm kağızını almaq, qəbiristanda yer tapmaq, yazıq Xədicə arvadı bu gün saat neçədə qaldırmaq, başsağlığına gəlib-gedənləri yola salmaq üçün bazardan çay, qənd, limon almaq, mərhumun fərsiz oğlu Siçan Balaniyaza xəbər vermək və sairə bu sayaq məsələləri müzakirə edirdi.

O balaca həyətin yuxarı başında, ayaqyolunun yanında altı daşla hörülmüş bir krant var idi və tələbə Murad İldırımlı indi həmin krantın yanında dayanıb bilmirdi ki, nə eləsin; bu cavan adamın, ümumiyyətlə, tünlüklə, qələbəliklə arası yox idi, adamlar çox olan yerdə özünü naqolay hiss edirdi və həmişə də tələbəyə elə gəlirdi ki, çoxluq içində qısa boyu, kobud sifəti, bir balaca donqar beli, darağa yatmayan pırpızaqlı qara və cod saçları camaatın diqqətini daha artıq cəlb edir; belə anlarda tələbə Murad İldırımlının ürəyi sıxılırdı, həyəcanlanırdı, bir bəhanə ilə uzaqlaşıb çıxıb getmək istəyirdi və sonra elə ki, gecə yerinə girirdi, səhər, günorta ya axşam bir-biri ilə canı-dildən söhbət edən, həmişə özlərini tamam sərbəst bilən o adamların – şəhərdə yaşayan tələbə oğlanların (xüsusən də aralarında qız olanda), yaxud redaksiyalarda, Yazıçılar Ittifaqındakı cürbəcür görüşlərdə, ədəbi müzakirələrdə toplaşmış cavan yazıçıların (xüsusən də həmişə odlu-alovlu danışan, millət dərdi

çəkən Səlim Bədbin kimi cavan yazıçıların!), ədəbiyyat həvəskarlarının yanından gözə görünmədən uzaqlaşıb getməyinin xəcaləti soyuq tər gətirirdi, öz mənasızlığını, bu dünyada tamam artıq bir adam olduğunu o balaca otağın daş divarları arasına sığışmayan bir əlacsızlığa çevirirdi və tələbə Murad İldırımlını, iyirmi yeddi yaşına baxmayaraq, ağladırdı – gecənin yarısı tək-tənha yerində uzanıb, o yazıq Xədicə arvad, o qapıbir kirayənişin Xosrov müəllim eşitməsin deyə, səsini boğa-boğa ağlayırdı; sonra səhər açılırdı, universitetdə dərslər başlayırdı və həmişə ora-bura tələsən, bir yerə yığışanda gəzdikləri qızlardan, yaşadıqları arvadlardan danışan (və yaxud gopa basan) tələbələrin, əlbəttə, ağlına da gəlmirdi ki, səhərdən-axşama qədər kitab oxuyan, qəzetləri, jurnalları izləyən, cidd-cəhdlə bütün mühazirələri yazan bu qaradinməz adamın – tələbə Murad İldırımlının beləcə çətin gecələri olur və həmin Murad İldırımlı indiyə qədər də nə bir qızla gəzib, nə də bir arvadla yaşayıb, ümumiyyətlə, indiyə qədər lüt arvad görməyib, bu iyirmi yeddi il ərzində heç gizlincə də lüt arvada baxmaq imkanı olmayıb, təkcə on dörd-on beş il bundan əvvəl o gözəl dağlardan axan çayın kənarında kəndli bir arvadın öz qızını çimizdirəndə, həmin qızın çılpaq döşlərini görmüşdü; qızlar yalnız xəyal aləmində idi və illər ötdükcə tələbə Murad İldırımlı o xəyal aləmində həmin qızlarla artıq cismani yox, mənəvi dostluq edirdi. O çətin gecələrin dünyada başqa heç bir kimsəyə yox, yalnız tələbə Murad İldırımlıya məxsus olan o hisslər aləminin öz məxsusi kövrəkiyi, məxsusi təskinliyi, məxsusi dəyanəti var idi və elə ki, iyirmi yeddi yaşa yaraşmayan o kövrəklik baş qaldırırdı, əvvəlcə nənəsinin səsini eşidirdi və ümumiyyətlə, tələbə Murad İldırımlıya elə gəlirdi ki, ölsə, – əlbəttə, haçansa öləcəkdi və o ölüm hissi kənddə kitabxanaçı işlədiyi vaxtlarda onun ürəyini çox qısmışdı– yenə nənəsinin səsini eşidər – o səsdə onun üçün o dərəcədə bir doğmalıq var idi və əslində, o səs, xüsusən, Bakıya gələndən sonra, həmişə bu cavan adamla birgə olurdu. O zaman ki, darıxırdı, imtahanlara hazırlaşmaq, kitab oxumaq, kitabxanada məşğul olmaq istəmirdi, gözləri mətbəə şriftlərinin qara rəngindən, barmaqları qələm tutmaqdan bezirdi, kino-teatrlarda baxmağa layiq bir film olmurdu (detektivlərdən, hind filmlərindən zəhləsi gedirdi, sovet filmlərindən də ancaq elələrinə baxırdı ki, mətbuatda onları tənqid edirdilər – hərgah tənqid edirdilərsə, deməli, içində nəsə bir işıqlı şey var idi...), teatra gedib, həmişə olduğu kimi, beletajda da oturmağa həvəsi olmurdu (kinoya, teatra, hərdənbir konsertə həmişə tək gedərdi), onda axşamçağı dənizkənarı bulvara çıxırdı, hamının gözündən uzaq ağacların, dekorativ kolların arası ilə gedirdi və elə ki, ona nəsib olmayan (və yəqin ki, heç vaxt da nəsib olmayacaq!) bir aləmdə – cəmi on addım aralıda bir-birinin əlindən tutmuş, yaxud qol-qola girmiş, qayğısız və sərbəst gəzişən, yaraşıqlı, dəblə geyinmiş oğlanla qız görürdü, elə bil, tələbə Murad İldırımlı eyni zamanda, o oğlanla qızın qarşısında açılmış sonsuz bir genişliyi, təmizliyi, işığı da görürdü, özünün ətrafındakı qaranlığı, nəmişliyi, dar-düdtəkliyi isə daha artıq, az qala, cismani hiss edirdi və belə anlarda nənəsinin o səsi əbədi bir həsrətin səsinə çevrilirdi və o həsrət kənd həsrəti, dağ, meşə, çəmən, çay həsrəti deyildi, sevinc kimi, kədər kimi, arzu kimi, tələbə Murad İldırımlının içinə hopmuş məkansız bir hiss idi. Tələbə o səsi sevirdi, amma, eyni zamanda, o səsdə tələbə üçün taleyin əbədi bir məhkumluğu da var idi: mən sənin nənənin səsiyəm, mən o gözəl dağların, meşələrin səsiyəm, səni mən yetirmişəm, səni mən boya-başa çatdırmışam, amma sən bax bu gözəl bulvarda həmişə beləcə tək olmağa, beləcə yöndəmsiz, beləcə

utancaq, beləcə gözəgəlimsiz olmağa məcbursan, necə ki, o gözəl dağların, meşələrin qoynunda, o pıqqıldayan bulaqların, şırıldayan çayların kənarında da beləcə vecsiz və mənasız bir məxluq idin...

Tələbə Murad İldırımlı əvvəllər tez-tez, indi isə hərdənbir M.F.Axundov adına Respublika Dövlət Kitabxanasında akademik Kraçkovskinin tərcüməsində Quranı oxuyurdu, ayrı-ayrı ayələri yaxşı başa düşsün deyə özü üçün Azərbaycan dilinə tərcümə edirdi. Inqilabdan sonra Azərbaycan dilində Quran nəşr edilməmişdi, buna görə də kitabxanalarda yox idi; rus dilində o kitabdan istifadə etmək üçün xüsusi icazə lazım idi və tələbə çox böyük çətinliklərlə həmin icazəni ala bilmişdi. Quran «Ali-Imran» surəsi»ndə deyirdi:

«Əgər, Allah sizə yardım edərsə, heç kim sizə qalib gələ bilməz; yox, əgər, sizi zəlil edərsə, ondan sonra kim sizə köməklik edə bilər?»

Tələbə bu fikirdə idi ki, Allah onu zəlil etmişdi və buna görə də bütün ömrü də belə keçəcəkdi. Allah ona kömək eləməmişdisə, heç kim ona kömək edə bilməyəcəkdi, amma niyə belə olmuşdu, o hansı günahın sahibi idi ki, Allah onu beləcə zəlil etmişdi, nə üçün onu belə bir yöndəmdə dünyaya gətirmişdi, nə üçün onu bu geniş dünyada məhkum yaratmışdı, həmişə özü öz içində, özü özüylə çarpışmalıydı, özü özünü içəridən yeməliydi?

Görünür nə isə var idi... Quran da deyir ki, səbəbsiz cəza yoxdur...

Nənəsi belə bir əfsanə danışırdı (bəlkə heç əfsanə deyildi?) və o əfsanə heç vaxt tələbənin yadından çıxmırdı: Peyğəmbər hər gün səhər-səhər bir gölün yanından keçirdi. Həmin göldə atılıb düşə-düşə, cığır-bağır sala-sala bir dəstə oğlan uşağı çimirdi. Ayaqları şikəst olan bir oğlan uşağı isə göldə çimə bilmirdi, həsrət dolu qəmli gözlərini göldə çimən oğlanlara zilləyirdi, baxırdı, baxırdı. Peyğəmbər daha həsrət dolu o gözlərin kədərinə dözə bilmədi: «Ya Allah! – dedi. Nə üçün o uşağı eləcə şikəst yaratdın?» Allah: «– Sən mənim ədalətimə şübhə etdin?» – soruşdu. Səhərisi gün peyğəmbər gördü ki, o oğlan şikəstlikdən xilas olub, uşaqlarla birlikdə atılıb-düşür, uşaqlarla birlikdə göldə çimir, gözləri gülür və o həsrət yox olub... Bir gün belə keçdi, iki gün belə keçdi, üçüncü gün peyğəmbər gördü ki, həmin oğlan səhər tezdən gölə gəldi, qamışları kəsib bir-bir ucunu yondu və gölə baş vurub o qamışları suyun dibinə basdırmağa başladı ki, iti ucları bir azdan gəlib gölə atılacaq uşaqların başına-qarnına batsın... Peyğəmbər dedi: «Ya Allah! Bağışla məni...»

Tələbə bəzən həmin yaraşıqlı, müasir geyimli, müasir hərəkətli bulvarda gəzişən camaatı vecinə almayan oğlanla qızın qucaqlaşıb öpüşdüyünü görəndə addımlarının sürətini artırırdı və o qucaqlaşmaqdan, o öpüşməkdən qaçıb qurtarmaq istəyirdi. Bəzən də qızla qol-qola gedən, qucaqlaşan, öpüşən oğlanı tanıyırdı (ümumiyyətlə, Bakıda yaşadığı az qala bu dörd ildə tələbə Murad İldırımlı çox adamı tanıyırdı, amma onu heç kim tanımırdı və belə bir birtərəfli tanışlığın özü də həmişə bədbinlik, ümidsizlik gətirirdi...), universitetin arakəsmələrində, həyətində atalarının puluna alınmış bahalı siqaretlər çəkə-çəkə, gecənin yarısına qədər restoranlarda, kafelərdə, barlarda yeyib-içməkdən hələ də başları ağrıya-ağrıya gəzdikləri, görüşdükləri qızlar haqqında əxlaqsız söhbətlər eləyən tələbələrdən olurdu və o zaman Murad İldırımlının bədbinliyi, həyatdan küskünlüyü ədavətə çevrilirdi, həmin oğlanla öpüşən qızı gizlin izləmək istəyirdi, ünvanını öyrənib imzasız məktub yazmaq istəyirdi, o imzasız məktubda oğlanı ifşa etmək istəyirdi,

sürətli addımlarla gedə-gedə fikrində imzasız məktubun mətnini yazırdı, amma biz az keçirdi və hər şey yenə də əvvəlki təkliyin, tənhalığın qüssəsinə bürünürdü.

Düzdür, tələbə Murad İldırımlıya elə gəlirdi ki, öləndən sonra da nənəsinin səsini eşidəcək, amma öləndən sonra hər şey bitir; əlbəttə, bunun özü də şərti bir həqiqət idi, yəni diri insanların fikrinə görə belə idi, əslində, kim bilir, bəlkə əsl həqiqət öləndən sonra açılacaq? Axı, ola bilməzdi ki, hər şey beləcə oyun olsun... Hər halda, nə qədər ki, bu dünya var idi, nə qədər ki, indiki tələbə (bəs sabahkı kim: kənd müəllimi? rayon qəzetinin ədəbi işçisi? təzədən kənd kitabxanaçısı? ya kim?) Murad Idırımlı bu dünyada yaşayacaqdı, o qədər də nənəsinin o səsi onunla birgə olacaqdı. Məsələ yalnız bunda deyildi ki, tələbə Murad İldırımlı lap uşaq olan vaxtlar atası dünyanın yaddan çıxardığı o kənddəki yaşamaq qayğılarından, Xruşşovun hətta eşşək saxlamaq üçün də təyin etdiyi böyük vergilərin (həmin vergiyə görə dərə-təpə sahibsiz eşşəklərlə dolmuşdu!..) əlindən cana gəlib günlərin bir gözəl günündə cavan arvadını da, körpə oğlunu da atıb Rusiyaya getmişdi və o vaxtdan bəri də ondan bir xəbər yox idi; anası bir müddət ərini gözləmiş, axırda yaşaya bilmədikləri üçün, qonşu kənddə dul, eybəcər, amma iyirmi il kolxozda hesabdar işləyib varlanmış bir kişiyə ərə getmişdi və o vaxtdan da uşağı nənəsi saxlamışdı; əsl məsələ bunda idi ki (hər halda, bu cavan adam belə fikirləşirdi), nənəsinin səsi, onun üçün doğrudan da o dağların, o çayların, o meşələrin səsi idi, o yerlərin ki, orada tələbə Murad İldırımlının təkliyini həmin dağlardan, çaylardan, meşələrdən savayı heç kim görmürdü və bu, özünün varlığı ilə bağlı tələbənin keçirdiyi xəcalət hissini bir az yumşaldırdı; o dağlarda, çaylarda, meşələrdə, əlbəttə, doğmalıq da var idi, çünki tələbənin qayğılardan uzaq uşaqlığı o yerlərdə keçmişdi və bu, istər-istəməz, onun ürəyində hərarətli bir iz qoymuşdu.

O dağların döşündə, bir də heç vaxt geri qayıtmayacaq o gözəl uşaqlıq çağlarında, o zamanlar ki, gələcək tələbənin fantaziyası zirvələri, ətəkləri yay-qış ağappaq qar içində olan Babadağın, çılpaq sıldırım qayaların, arasından şırhaşır dəli çaylar axan yarğanların qoynuna sığışmırdı, xəyal o balaca uşağı götürüb dünyanın ən möcüzəli məmləkətlərinə aparırdı, qaniçən şahlarla, igid və ədalətli şahzadələrlə, gözəl şahzadə qızlarla, divlərlə, cinlərlə danışan quşlarla, Süleyman peyğəmbərlə görüşdürürdü, onda Murad həmişə nənəsinin tumanının böyründə olurdu və nənəsi un tapıb təndirə çörək yapanda, sacda yuxa bişirəndə, samovara köz salanda, həyət-bacadan pencər yığanda da o möcüzəli dünyanın əhvalatlarından elə hey danışırdı, danışırdı və tələbə kəndin kitabxanasında işlədiyi illərdə heç ağlına da gətirməzdi ki, həmin o danışıqlar beləcə beynində həkk olub qalıb, Bakı soyuqqanlığı içində, Bakı benzini, tüstüsü, asfaltı içində o söhbətlər birdən-birə yadına düşəcək; yadına düşəcək, amma daha möcüzəli məmləkətlərdən xəbər verməyəcək, gözəl şahzadə qızlar da, igid şahzadələr də o nağılların, məsəllərin danışıldığı vaxtda qalacaq.

Nənəsi sübh tezdən yerindən qalxıb, xaşasını götürürdü, gələcək tələbə də nənəsinin böyrünə düşürdü, biçilib, dərzi daşınıb aparılmış kolxoz zəmisində başaq eləməyə gedirdilər və ta gün günorta yerinə qalxana qədər orda-burda yerə tökülmüş buğda sünbüllərini xaşaya yığırdılar, elə ki, gün qızırdı, yorğunluqlarından daha addım ata bilmirdilər, gedib biçilmiş o kolxoz zəmisinin ortasındakı tənha dağdağan ağacının kölgəsində otururdular, nənəsi lap ulu babalardan qalmış balaca cürdəkdə gətirdiyi və hərdənbir o dağdağanın altına gəlib yerini dəyişə-dəyişə bütün gün ərzində kölgədə saxladığı sudan töküb bir-iki ovuc üzünə vururdu, sərinləyirdi,

nəvəsinin də əlinə bir az su tökürdü və gələcək tələbə də o qızmar gündə gözəl bir sərinlik hiss eləyirdi, sonra nənəsi özüylə gətirdiyi dağarcıqdan bir acıtmalı çörək, iki-üç göy soğan çıxarırdı və nəvəsiylə birlikdə yavaş-yavaş gəvələyirdilər, sonra da nənəsi arxasını dağdağan ağacının gövdəsinə söykəyib mürgüləyirdi. Qəribə idi, elə ki, nənəsi mürgüləməyə başlayırdı, sərin bir yel qalxırdı və o zamanlar o uşağa elə gəlirdi ki, o gözəl sərin yel nənəsinin danışdığı o uzaq (və yaxın) möcüzəli dünyadan əsir. Nənəsi yenə də durub başaq eləyirdi, amma gələcək tələbə eləcə o tənha dağdağanın kölgəsində otururdu və səhərdən bəri nənəsinin danışdığı o möcüzəli aləmə, o gözəl şahzadə qızların, o igid şahzadə oğlanların, quşların dilini bilən o ağ saçlı, ağ saqqallı Süleyman peyğəmbərin yanına gedirdi.

Evə qayıdandan sonra nənəsi artırmada palaz açırdı, xaşadakı sünbülləri palazın üstünə töküb toxmaqla döyürdü, sonra xəlbirlə samanı yelə sovururdu, sonra da dəni ələyirdi və danışırdı, danışırdı...

Bir kişiydi, on uşaqları varıydı, bir də bir arvadıydı. Bu qədər külfətin hamısı bir balaca daxmada yaşayırdı. Daxmada oturub-durmağa yer yoxuydu. Bir-birinin qarnına bitişib yatırdılar gecələr. Arvad da bir tərəfdən gecə-gündüz kişiyə aman vermirdi, elə hey deyinirdi... Deyinirdi ki, belə də yaşamaq olar? Belə də həyat olar? Axırda kişi tab gətirmədi, getdi çıxdı Qaf dağının təpəsinə. Qaf dağı bilirsən nətər dağdı? Bizim, bax, bu dağlar var e, Qaf dağının yanında heş nədi... Kişi çıxdı Qaf dağının təpəsinə, əllərini göyə qaldırıb: «– Ya Allah, – dedi. – O daxmada daha yaşaya bilmirik. Həyatımız cəhənnəm əzabıdı. Ya bizə bir genişlik ver, ya da məni öldür ki, canım qurtarsın...» Kişi bu sözləri deyəndən sonra göy guruldadı, ildırım çaxdı, tufan qopdu. Kişi başa düşdü ki, Allah onun sözlərini eşitdi. Geri qayıdanda gördü ki, arvad oturub daxmanın qabağında, dizlərinə döyür, saçlarını yolur. Soruşdu ki, nə olub? Arvad ağlaya-ağlaya cavab verdi ki, daxmada oturmuşduq, birdən göy guruldadı, ildırım çaxdı, tufan qopdu, dam yarıldı, həzrət Mikayıl bir uzunqulaqla birlikdə peyda oldu, dedi ki, Allah-taala belə buyurub ki, bu uzunqulaq da sizinlə bir yerdə bu daxmada yaşasın, indi odu, o eşşək də daxmadadı, bu da bizim ruzimiz... Bundan sonra o kişi də, o arvad da, onların o on uşağı da həmin daxmada həzrət Mikayılın gətirdiyi o eşşəklə bir yerdə yaşadılar, eşşəklə bir yatdılar, bir durdular. Bir müddət beləcə ömür sürdülər, anadan əmdikləri süd burunlarından gəldi. O, darısqallıq içində eşşək bir tərəfdən, arvadın da gecə-gündüz deyinməyi bir tərəfdən. Axırda kişi dözmədi, yenə yollandı getdi çıxdı Qaf dağının təpəsinə, yenə əllərini göyə tutub: «– Ya Allah. – dedi.– Ya bizi bu uzunqulaqdan xilas elə, ya da məni öldür ki, canım qurtarsın, çünki belə yaşamaq olmaz ki, mən yaşayıram...» Yenə göy guruldadı, yenə ildırım çaxdı, tufan qopdu və kişi yenə də başa düşdü ki, Allah onu eşitdi. Qayıdanda gördü ki, arvad da, uşaqlar da daxmanın qabağına yığışıb toy-bayram eləyirlər, elə sevinmək sevinirlər ki, gəl görəsən... Kişi soruşdu ki, nə olub? Arvad cavab verdi ki, oturmuşduq daxmada, birdən göy guruldadı, ildırım çaxdı, dam yarıldı, həzrət Mikayıl qurban olduğum gəlib eşşəyi geri apardı... Həmin gündən o kişi də, o arvad da, onların o on uşağı da həmin o daxmada ömürlərinin axırına qədər şad-xürrəm yaşadılar, talelərindən də çox razı qaldılar...

Tələbənin yadına gəlir, o vaxt ki, nənəsi artırmada palazın qabağında bardaş qurub dən ələyə-ələyə bu əhvalatı danışmışdı, onda gələcək tələbə Murad İldırımlıya ən qəribə gələni bu olmuşdu ki, sən demə, dünyada elə dağlar var, hər tərəfdən

kəndlərini əhatə etmiş, başı qarlı o uca zirvələr, sıx meşəli o böyük dağlar, o çılpaq sıldırım qayalar onların yanında bir heçdi... Sonra illər keçdi, elə bil, hər şey yaddan çıxıb getdi, amma yata bilmədiyi bir gecə çağı, bax, burada, bu yazıq Xədicə arvadın bu evində birdən-birə gəlib yadına düşdü və o əhvalat, qəribədir, tələbə Murad İldırımlı üçün bir təskinlik oldu...

... Uşaqlar, cavanlar öz evlərindən miz gətirib həyətə düzürdü, oturmaq üçün kətil, kürsü düzürdü, qadınlar stəkan, nəlbəki, qaşıq, qəndqabı gətirdi, məhəllədə həmişə belə hallarda olduğu kimi, kişilər arasında vəzifələr bölündü və Xosrov müəllim də həmişəki kimi, heç nə danışmırdı, elə bil ki, kölgə idi, kişilərin arasında dolaşırdı. Sonra məhəllədə yaşayan Molla Əsadulla gəldi, dəfn-mərasimlə bağlı tapşırıqlarını verdi, evə qalxıb cənazə olan otağa girdi. Bir nəfər ölü kağızı almağa getdi, bir başqasını da Tülkü Gəldi Qəbiristanlığına göndərdilər ki, birtəhər eləsin yer alsın, qəbir qazdırsın. Düzdür, Tülkü Gəldi Qəbiristanlığında yer almağın müsibət bir iş olduğunu məhəllə kişiləri yaxşı bilirdi, orada güc-bəla ilə o rəhmətliyə yer almaq müyəssər olurdu ki, onun atasını, babasını həmin qəbiristanlıqda dəfn eləmiş olsunlar və o rəhmətliklərin yanında bir qəbir qazdırılsın. Yazıq Xədicə arvadın atasının, babasının harada (Tülkü Gəldi Qəbiristanlığında idi, amma harada? Hansı yerdə?) dəfn olunmağından indi daha məhəllə camaatının xəbəri yox idi və Siçan Balaniyaz da əfəlin biri idi və yəqin ki, onun da xəbəri yox idi, o qəbirlər itib-batmışdı, amma Xədicə arvad oruc tutan, namaz qılan bir adam idi və onu aparıb təzə salınmış, müsəlmanı, xristianı, yəhudisi bir-birinə qarışmış qəbiristanlıqlarda torpağa tapşırmaq düz olmazdı, belə bir iş məhəllə kişilərinə yaraşmazdı; arvadı gərək çalışıb köhnə qəbiristanlıqda, yəni Tülkü Gəldi Qəbiristanlığında dəfn eləyəydilər.Sonra çörəkçi Ağabala vaxt tapıb həyətə samovar gətirdi (çünki məhəllədə ən böyük samovar çörəkçi Ağabalagildə idi) və tələsik də dükana qayıtdı, həyət qapısından çıxa-çıxa:

– Ət dalıyca adam göndərmişəm... – dedi; bu o deyən söz idi ki, yazıq Xədicə arvadın ehsanında əti çörəkçi Ağabala öz boynuna götürürdü; düyü də, göyərti də, ədviyyat da, turşu da beləcə alınacaqdı və o yazıq Xədicə arvadın ehsanı məhəlləyə layiq olacaqdı.

Dünən Xədicə arvadın özü bu məhəllə adamlarından biri idi, həmişəki qayğıları ilə səhəri açmışdı, həmişəki qayğıları içində gün keçirmişdi, həmişəki qayğıları və sabahkı ümidləri ilə yerinə girib yatmışdı və o ümidlər də, o qayğılar da, bu gün həmişəlik yox olub getmişdi: haçansa dünyaya bir çağa gəlmişdi, böyümüşdü, qocalmışdı, Xədicə arvad olmuşdu və bu gecə də o Xədicə arvad dünyadan köçüb getmişdi... Burada, əlbəttə, təəccüblü bir şey yox idi, amma krantın yanında dayanmış tələbə Murad İldırımlı bunu fikirləşdikcə, elə bil, hər tərəfi bürümüş bir qüssənin içinə girirdi və məsələ yalnız Xədicə arvadın köçüb getməyində deyildi... Az qala səkkiz ay kirayənişin yaşadığı müddət ərzində tələbə, Xədicə arvadın gündəlik güzəranına da, istəklərinə, qayğılarına da bələd olmuşdu və indi o istəklər, qayğılar o qədər cılız, mənasız görünürdü ki, tələbənin öz həyatı, öz istəyi, arzusu, qayğısı, hətta nənəsinin səsi də, hətta keçirdiyi o çətin gecələr də, o dağlar da, meşələr də həmin cılızlığın, mənasızlığın içində itib-batırdı.

Tələbə Murad İldırımlının yadına düşdü ki, dırnağını çeynəyir, tez əlini ağzından çəkdi. Universitetdə tələbə qızlar öz aralarında zarafat eləyirdilər ki, bu bədbəxtin yəqin ki, qarnında qurd var, ona görə həmişə dırnağını gəmirir. Tələbə

oğlanlar isə deyirdilər ki, yox, bunun beləliyinə baxmayın, qurd bunun qarnında deyil, ürəyindədi, ürəyi qurdludu, paxılın biridi... Əlbəttə, Murad İldırımlının bu söhbətlərdən xəbəri yox idi, amma var gücü ilə çalışırdı ki, dırnağını çeynəmək adətindən yaxa qurtarsın, amma hərdən heç özü də bilmirdi ki, əli necə ağzına gedib, dırnağını necə çeynəyir...

Həyətdəki krantdan gecə-gündüz həmişə damcı-damcı su axırdı və o zaman ki, bütün məhəllə yatırdı, Xosrov müəllim də, o yazıq Xədicə arvad da yatırdı, buralara bir sakitlik çökürdü, onda o krantın damcılamağı lap aydın eşidilirdi, hətta gəlib tələbə yatan otağa da çatırdı. Əvvəllər krantın eləcə damcılamağı tələbəni əsəbiləşdirirdi, bəzən yatmağa qoymurdu, amma bir gün Xosrov müəllim hardansa tapdığı yekə bir kəlbətinlə bu krantı düzəltmək istəyəndə o yazıq Xədicə arvad dedi: «– A-a-a... Nöş əl vurursan kranta? Qoy axsın da... Qoy səs gəlsin də... Siz çıxıb gedirsüz, mən tək qalıram burda, nə qədər küçədə oturmaq olar, səs olmiyəndə də, adamın ürəyi partdıyır axı!..» Xosrov müəllim necə dinməzcə o krantı düzəltmək istəyirdisə, eləcə də dinməzcə öz otağına qayıtdı və o krant da damcılamağına davam etdi, amma qəribə idi, Xədicə arvadın o sözlərindən sonra, krantın damcılamağı daha gecələr tələbə Murad İldırımlını əsəbiləşdirmirdi, əksinə, çətin məqamlarda o krant səsi, elə bil, bir ünsiyyət gətirirdi.

Xədicə arvad üç gündən-dörd gündən bir gedib Təzə bazardan kilo ilə tum alıb gətirirdi, evdə tumu qovururdu, həyətin küçə qapısı ağzında, üstünə nazik döşəkcə saldığı balaca taxta kətildə oturub küçədən keçənlərə, məhəllə uşaqlarına yüz əlli qramlıq stəkanı on qəpiyə tum satırdı. Stəkan sınmasın deyə içinə yapışqanla kağız yapışdırmışdı və o kağızı o qədər qalın eləmişdi ki, yüz əlli qram əvəzinə, yüz qramı güclə tuturdu... Isti tumla dolu torbanın yanında bir-birinin içində düzülmüş kağız torbacıqlar olurdu, kim ki, cibinə tökmək istəmirdi, Xədicə arvad tumu o torbacıqlara töküb verirdi və həmin torbacıqları düzəltmək üçün qəzeti, adətən, tələbə Murad İldırımlı verirdi; hər gün səhər universitetə gedəndə təzə qəzetləri alırdı, səhərlər avtobus çox basabas olduğu üçün qəzetləri günorta dərsdən qayıdanda oxuyurdu, avtobusda oxuya bilmədiklərini isə otağında oxuyurdu və bütün bu müddət ərzində Xədicə arvad səbrlə qəzetləri gözləyirdi, özü gedib pul verib qəzet almırdı və elə ki, oxunmuş qəzetləri kirayənişindən alırdı, səliqə ilə kəsib torbacıq düzəldirdi və arvadın kefi açıq-aşkar kökəlirdi: «– Süzdən xoşum gəlir!.. – deyirdi. – Süz kəndçilər ağıllı olursuz!.. Qıznan-zadnan da işivüz olmur sizün!.. Rayonnan gəlib oxuyub adam olursuz, bizimkilər də şofer olurlar, mən nə bilim, day nə olurlar... mənimki başıbatmış da getdi siçantutan oldu!.. Süzdən xoşum gəlir!.. Sən də ağıllısan. Ətağanın cəddiyçün, bax, fikir verirəm sənə, gecə-gündüz oxuyursan, araq içmirsən, qıznan-zadnan da aron yoxdu!.. Malades!.. Oxuginə!.. Nə çıxar – oxumaqdan çıxar!.. Bisavaddığın axırı mənim kimidi, bude, oturub semiçka satıram...» Əlbəttə, o yazıq Xədicə arvad bilmirdi ki, Bakıdakı bu tələbəlik hansı əzab-əziyyətin bahasına başa gəlib və hansı əzab-əziyyətlə də davam edir... Bəlkə bilirdi?

Gələcək tələbə Murad İldırımlı kənddə məktəbi qurtarandan sonra, iki il dalbadal Bakıya gəlib ali məktəbə qəbul imtahanı vermişdi və hər dəfə də kəsilib geri qayıtmışdı: birinci dəfə yazılı ədəbiyyat imtahanından «4» almışdı, şifahidən isə «2» almışdı, ikinci dəfə yazılı ədəbiyyat imtahanından «5» almışdı, şifahidən yenə də «2»; birinci dəfə şifahidən imtahan zamanı bütün suallara cavab verdi, amma

müəllim ona heç qulaq asmırdı, səhər tezdən olduğu üçün, tez-tez əsnəyirdi və əsnədikcə də o müəllimin cod və qalın qaşlarının altından baxan domba gözləri (neçə illər keçmişdi, amma tələbə Murad İldırımlı o domba gözləri hələ də hərdənbir xatırlayırdı...) sulanırdı və elə ki, gələcək tələbə bütün sualların cavabını söylədi, müəllim soruşdu: – «Əzizimin cəfası» romanını kim yazıb? Murad İldırımlının belə bir romandan xəbəri yox idi, ona görə də gözlərini döyüb qaldı və müəllim eləcə əsnəyə-əsnəyə yaxşıca bir «2» yazdı, azərbaycanca imtahan götürməyinə baxmayaraq, Muradın başının üstündən auditoriyaya tərəf baxıb rusca bərkdən: «–Sleduyuşi!» – çağırdı.

Murad İldırımlı kəndə qayıdıb bir il yenidən hazırlaşdı, düzdür, «Əzizimin cəfası» romanını da tapmadı, bu roman haqqında heç harada bir məlumat da tapmadı, amma gecə-gündüz oxudu və ikinci il Bakıya gəlib növbəti qəbul imtahanında yazıdan «5» aldı, şifahidən imtahan verəndə yenə də sualların hamısını danışdı və Murad danışdıqca cavan bir adam olan müəllim berialin sürtdüyü qara saçlarını tez-tez daraqla geriyə daraya-daraya və gülümsəyə-gülümsəyə razılıqla başını tərpədirdi, Muradın cavablarını təsdiq edirdi və gələcək tələbə cavabları qurtaran kimi: – «Çox gözəl!.. – dedi. – Sənnən yaxşı ədəbiyyatçı olacaq!.. Indi de görüm dahi rus şairi Aleksandr Serqeyeviç Puşkinin böyük oğlunun adı nədir, bir də kiçik qızının adı nədir?» Murad İldırımlı yenə gözlərini döyüb susdu, çünki Aleksandr Serqeyeviç Puşkinin dahi rus şairi olduğunu yaxşı bilirdi, əsərlərini oxumuşdu, amma o dahi şəxsin böyük oğlunun və kiçik qızının, ümumiyyətlə, uşaqlarından heç birinin adını bilmirdi. « – Sənnən yaxşı ədəbiyyatçı olacaq!.. Nitq mədəniyyətin hələ inkişaf eləməyib, ancaq cavabların xoşuma gəldi! Sən yaxşı ədəbiyyatçı olacaqsan! Get bir il də hazırlaş, gəl, dostum!.. Mütləq gəl! Mühakimələrin xoşuma gəldi!..»

O getməklə, gələcək tələbə bir də düz beş il Bakıya ayaq basmadı; boyunun kiçikliyinə, səhhətinin zəifliyinə görə onu əsgər də aparmadılar, kənddə kitabxanaçı işlədi, daha doğrusu, adı kitabxana olan, yəni rayon və respublika səviyyəsindəki hesabatlarda kitabxana kimi qeydiyyatdan keçən, əslində isə kolxoz idarəsinin anbarı kimi istifadə edilən zirzəminin bir küncünü nazik taxta arakəsməyə alıb, orada kitabxana düzəltməyə başladı, əlinə keçən kitabı, qəzeti, jurnalı oxudu, cürbəcür rayon və respublika təşkilatlarına bir ucdan məktublar, xahişnamələr, tələbnamələr yazıb kitabxananın fonduna həqiqətən, yəni kağız üzərində yalandan məlumat vermək üçün yox, doğrudan-doğruya kitab, qəzet, jurnal yığdı. Kənddə kolxoz sədri Sosialist Əməyi Qəhrəmanı idi, dörd dəfə Lenin ordeni almışdı, hərdən rayon mərkəzində təntənəli iclaslara gedəndə bütün ordenlərini, medallarını döşünə taxırdı və o zaman metalın ağırlığından az qalırdı pencəyinin yaxaları cırılsın; bu adam, yəni bu kolxoz sədri uzun müddət ştat cədvəlində kitabxanaçının əvəzinə də qol çəkib maaşı öz cibinə qoyurdu və kitabxanaçı vəzifəsi yalnız ştat cədvəlində olduğu üçün, təbii ki, kitabxana da yox idi, amma illər keçdikcə, ordenlərinin sayı artdıqca Bakıyla, ölkənin başqa şəhərləri ilə məktublaşması da artırdı, Azərbaycan SSR Ali Sovetinin deputatı, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi üzvlüyünə namizəd olmuşdu. Sov.IKP-nin XXV Qurultayının nümayəndəsi idi, tez-tez iclaslarda çıxış etmək, qəzetlərə müsahibələr vermək lazım gəlirdi, buna görə də həmin məktubları, çıxışları yazmaq üçün (özü cümlə yaza bilmirdi...) əlində qələm tutmağı bacaran bir adam lazım idi və kənddə də bu sahədə gələcək tələbə Murad

İldırımlıdan irəlidə olan yox idi – sədr kitabxanaçı vəzifəsinin maaşından keçdi və Muradı kitabxanaçı adı ilə işə götürdü.

Murad İldırımlı sədrin məktublarını və çıxışlarını (bu çıxışlar rayon mərkəzində olurdusa, raykom işçiləri tərəfindən, Bakıdakı təntənəli iclaslarda olurdusa, Azərbaycan KP MK-nın işçiləri tərəfindən redaktə olub düzəldilirdi) yaza-yaza kitabxanaçılıq edirdi və özünün belə bir kitabxanaçı taleyi ilə barışmışdı, elə bilirdi ki, bir də heç vaxt Bakıya getməyəcək, ali məktəbə qəbul olunmaq üçün imtahan verməyəcək, çünki gələcək tələbə başa düşürdü ki, bunun mənası yoxdur, heç bir nəticəsi olmayacaq, çünki o, bu dünyanın Allah tərəfindən yaradılmış məhkumlar zümrəsinə daxildir.

Bu kənddən çıxıb Bakıda milisioner işləyən və bir də iyirmi beş ildən sonra, qoca anası öləndə iki günlük kəndə gəlmiş Əsgər adlı həmkəndlisi günlərin bir günündə gələcək tələbəyə demişdi: « – Instuta girmək istəyirsən, elə-belə hara baş götürüb gedirsən Bakıya? Elə-belə instut olar, ə? Bunun qiyməti on iki min manatdı!.. Bildin?! Elə yer var ki, lap əlli min manatdı!.. Ode, sədrin o kiçik gədəsi girən yer! Sənin elə yerlərlə nə işin?.. Bir prafessır qonşum var, instutda işləyir. Adı prafessırdı e, özü elə mənim kimi kəndçinin biridi, oxuyub adam olub!.. Özünün də bu işlərdə səriştəsi var, mənnən də dostdu, hərdən çağırır, gedib kabab bişirirəm ona. Danışım onnan, on iki min ver, nənəyin deyirlər qədimnən qızılı qalıb, ver, verim ona, gir instuta!.. Gözünü niyə bərəldirsən, ə? Oturmısız bu dağların döşündə, dünyadan xəbəriniz yoxdu... O puldan mənə heç bir bozbaş haqqı da qalmayacaq!.. Anamın ruhu şad olsun deyən, kəndin camaatına yaxşılıq eləmək istəyirəm!.. Pulu verəcəm prafessıra, o neynəyəcək? Üstünnən bir az götürüb, verəcək özündən yuxarıdakına. O neynəyəcək? O da üstünnən bir az götürüb verəcək öz böyüyünə. O neynəyəcək? O da sənin o pulunun üstündən götürəcək, verəcək öz ministirinə! Ministir gözünə döndüyüm neynəyəcək? O da öz payını götürüb qalanını verəcək sekadakı böyüklərə, onlar da özlərinkin götürüb artığını ötürəcək haraya? Moskvaya! Başa düşdün, ə? Belə olmasa, bu hökumətin işləri heç vaxt düz getməz!..»

Murad İldırımlı və ümumiyyətlə, dağların döşündəki o kənd milisioner Əsgərin dediyi qədər də dünyadan xəbərsiz deyildi. Kolxoz sədrinin Muradla oxuyan oğlu zırramanın biriydi. Akvarium düzəldib xırda çay balıqları saxlayan və bu barədə rayon qəzetinə elmi məqalə yazmış zoologiya müəllliminə hirsi tutduğu üçün, gizlincə gedib girmişdi kişinin evinə və akvariuma işəmişdi, balıqların da hamısı ölmüşdü; bax, sədrin həmin zırrama oğlu məktəbi qurtaran kimi, instituta girdi və Murad İldırımlı onun dədəsinə mirzəlik elədiyi müddət ərzində də institutu bitirdi, indi də aspiranturanı bitirmək üzrəydi. O oğlandan sonra, sədrin daha dörd uşağı Bakıda ali məktəblərə daxil oldu və onların o ali məktəblərə necə daxil olduqlarında gizli bir şey yox idi, sədr özü hərdən dərindən köks ötürüb həyatdan şikayət edirdi: « – Ə, sən öl, bu uşaqların instituta girməyləri, oxumaqları məni lüt elədi!..»

Gələcək tələbə Murad İldırımlı dünyanın belə işlərindən xəbərdar idi, hər halda, bunları nəzəri cəhətdən bilirdi, o qalınqaş müəllimin domba gözləri, o cavan müəllimin gülümsəməyi də əldəqayırma taxta rəflərə düzdüyü təzə kitablar, qəzet və jurnallar kimi, hərdən anbardakı o kitabxanaya daxil olurdu, amma bütün bunlara baxmayaraq, Murad bir yay günü birdən-birə pal-paltarını, kağız-kuğuzunu köhnə

çamadanına yığıb sədrə də bir söz demədən Bakıya getdi. Gələcək tələbə bütün bu müddət ərzində «Əzizimin cəfası» romanını nə qədər axtarmışdısa da, Azərbaycan Yazıçılar Ittifaqına, M.F. Axundov adına Respublika Dövlət Kitabxanasına məktublar yazmışdısa da, tapa bilməmişdi, çünki heç kimin belə bir əsərdən xəbəri yox idi və axırda başa düşmüşdü ki, ümumiyyətlə, heç belə bir roman yoxdur; dahi rus şairi Aleksandr Serqeyeviç Puşkinin isə bütün uşaqlarının, qardaşlarının, bacılarının, nəvələrinin, qohum-əqrəbasının və dostlarının adlarını əzbərləmişdi.

Murad İldırımlı avqustun cırhacır istisində Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə qəbul imtahanı verdi və ilk növbədə özü üçün gözlənilmədən universitetə daxil oldu və o vaxtdan etibarən də dördüncü il idi ki, Bakıda tələbəlik edirdi. Üç il universitetin yataqxanasında qalmışdı, qaradinməzliyi ilə, əsəbiliyi ilə yataqxanadakı tələbələrin zəhləsini tökmüşdü (bəzisinin hətta nifrətini qazanmışdı və bunu özü yaxşı bilirdi), özü də başa düşmüşdü ki, yataqxana adamı deyil və bu qərara gəlmişdi ki, yataqxanadan getsin, tələbələr də, xüsusən, onunla bir otaqda qalan oğlanlar rahat nəfəs almışdı– tələbə Murad İldırımlı çətin adam idi, məlum olmurdu ki, bunun ürəyi təmizdi, yoxsa doğrudan da qurdla doludu, qəlbi açıqdı, yoxsa paxılın, xudbinin biridi?.. Həmişə tək olurdu, hətta yataqxananın ümumi hamamında da hamı ilə birlikdə çimmirdi, gözləyirdi, tələbələr yatırdı, sonra gəlib çimirdi...

Yay tətilini bitirib kənddən qayıdandan sonra, bir həftə yataqxanada qaldı, özünə iş axtardı, axırda Bayıl tərəfdə şəxsi avtomobillər saxlanan dayanacaqda gecə gözətçisi işinə düzəldi – bir gecə gözətçilik edəcəkdi, bir gecə də evdə qalacaqdı, ayda da yetmiş manat pul alacaqdı: soraqlaşa-soraqlaşa gəlib Xədicə arvadın bu evini tapdı və düz səkkizinci ay idi ki, günaşırı Bayıla gedib gecələr maşınların qarovulunu çəkirdi, ayın başında aldığı yetmiş manatı da eləcə gətirib ev kirayəsi kimi Xədicə arvada (yazıq Xədicə arvad...) verirdi, özü isə hər ay aldığı qırx manat təqaüdlə yaşayırdı.

Xədicə arvad üç gündən, dörd gündən-bir gedib bazardan özü üçün yarım kilo qoyun əti alırdı və evə gəlib tələbə kirayənişininə: «–Qurban olum sənə! – deyirdi. – Qoca arvadam, hayhayım gedib, vayvayım qalıb!.. Gəl kömək elə mənə, döyə bilmirəm əti, döyginə də, nə olar!..» Tələbə, Xədicə arvadın otağına girib palazın üstündə bardaş qururdu və köhnə dəhrəni əlinə alıb kötükdə ət döyürdü. Xədicə arvad da tələbənin yanında oturub diqqətlə ətə baxa-baxa (kənara – kötüyün altına saldığı ağ süfrəyə bir tikə sıçrayanda, o saat götürüb kötüyün üstünə atırdı) deyirdi: «– Allaha qurban olum, nə yaxçı oldu yetirdi səni mənə!.. Sən olmasaydun, neynərdim mən başıküllü? Güc qalıb bəyəm ki, ya, özüm döyüm əti? Yaxçı döy! Ay malades!.. Küftə-bozbaç bişiriciyəm, sənə də verəciyəm. Nöş vermirəm? Bəsdi də səhərdən axşameycən çaynan çörək yedün... Sən də adam balasısan axı!.. Nanə qurusu-zad da tökəciyəm üstünə, əntiqə küftə-bozbaş olıcek! Sən də yeyəcəksən! Yaxçı döy!.. Malades! Sən də gərək ev xörəyi yiyəsən, ya yox? Ətağanın cəddiyçün, yaxçı yerinnən vericiyəm sənə e, lap əntiqəsindən!..»

Yazıq Xədicə arvad bu cür deyirdi, əti tələbəyə döydürürdü, bişirirdi, küftə-bozbaşın gözəl iyi otaqlara yayılırdı, amma sonra hamısını özü yeyirdi, kirayənişinə heç nə vermirdi; düzdü, tələbə Murad İldırımlının xasiyyəti elə idi ki, Xədicə arvad küftə-bozbaşı təklif eləsəydi də, şəstinə sığışdırmazdı, alıb yeməzdi, amma xasiyyətini də, hikkəsini də göstərməyə ehtiyac olmurdu, çünki arvad heç nə təklif

eləmirdi. Iki-üç gündən sonra, hər şey təzədən başlayırdı, tələbə təzədən ət döyürdü və Xədicə arvad da həmin sözləri yenidən deyirdi... Yazıq Xədicə arvad mal əti yemirdi, çünki mal əti yeyəndə qarnı pozulurdu, həmişə qoyun əti alırdı və həmişə də küftə-bozbaş bişirirdi... Yəqin ona görə ki, yazıq Xədicə arvadın ağzında bir dənə də diş yox idi və nə yeyirdisə, hamısını damağıyla çeynəyirdi; küçə qapısının qabağında oturub müştəri gözlədiyi vaxtlar hərdənbir tumu da dənələyib dırnağıyla didişdirirdi, barmaqlarının arasında əzib ağzına qoyurdu.

Həmin gecələr ki, tələbə Murad İldırımlı yerinə girirdi və çox həssas, amansız hisslər bu cavan adamın bütün əsəblərini çılpaqlaşdırırdı, birdən-birə Xədicə arvad barədə fikirləşməyə başlayırdı, sonra, ümumiyyətlə, insan xisləti barədə fikirləşirdi və axırda gəlib özünün üstünə çıxırdı, tamam kənar bir adamın gözləri ilə özünə baxırdı (hər halda, tələbəyə belə gəlirdi) və öz daxili aləminin timsalında insanı dərk eləməyə çalışırdı, insanın yazıqlığı və qəddarlığı, ürəyinin incəliyi və qəlbinin qaralığı, riyakarlığı və sadəlövhlüyü, etibarı və vəfasızlığı, dünyadakı ümid və ümidsizlik onu elə bir qaranlığa aparıb çıxarırdı ki, Xədicə arvadın yetmiş manata kirayə verdiyi bu balaca otaqda hava çatışmırdı, bu balaca otaq onun bütün içini sıxan mənəvi bir məhbəsə çevrilirdi. Sifətini xatırlaya bilmədiyi atası barədə düşünürdü, illər boyu üzünü görmədiyi anası barədə fikirləşirdi və haçansa bu adamların bir gecəlik yaxınlığının iyirmi yeddi ildən sonra onun simasında Xədicə arvadın evindəki bu dörd divar arasında beləcə əzab çəkməyi tələbəyə dünyanın ən mənasız bir işi kimi görünürdü; bu ata-ana-tələbə üçbucağında o qədər mənasızlıq var idi ki, hansı bir qanunauyğunluq, hansı bir izahatçünsə həvəs qalmırdı. Və nə yaxşı ki, belə məqamlarda həyətdəki o krantdan eləcə su damcılayırdı... Bəzən tələbə Murad İldırımlı bütün bu hisslər aləmini təsvir etmək istəyirdi, özünün timsalında insan xislətini heç nədən çəkinməyərək, heç nədən utanmayaraq, çılpaq göstərmək istəyirdi və bu yazı bir etirafnamə olmalıydı və o etirafnamənin birinci cümləsi həmişə beynində dolaşırdı: «Sənə eşq olsun, ey gözəl insan!..».

Etirafnamə həmin gözəl insana müraciətlə yazılmalı idi və axırda oxucu özü nəticə çıxarmalı idi ki, insan gözəldir, yoxsa yox, amma etirafnamə yazılmırdı və bunun əvəzində tələbə Murad İldırımlı M.F. Axundov adına Respublika Dövlət Kitabxanasına (vaxtı ilə kənddən dalbadal məktublar yazdığı kitabxanaya) gedib Jan Jak Russonun «Etirafnamə»sini təzədən oxumağa başlayırdı...

... Həyətdə yan-yana düzülmüş mizlərin üstünə məhəllə arvadlarının öz evlərindən gətirdikləri süfrələr salınmışdı, kişilərdən işə gedəni getmişdi (bir hovur işdən icazə alıb qayıdacaqdılar ki, mərhumun dəfnində iştirak etsinlər), getməyəni miz arxasında əyləşmişdi, mizin başında isə Molla Əsədulla oturmuşdu, vərəqləri tamam köhnəlib nimdaşlamış kiçik ölçülü Quranı qabağına qoymuşdu, əlindəki qara mina təsbehi (Kərbaladan gətirilmiş bu təsbehləri Bakının Quba meydanında alverçilər satırdılar və çörəkçi Ağabala onlardan birini alıb oğlunun əsgərlikdən sağ-salamat qayıtmağı münasibətilə Molla Əsədullaya nəzir vermişdi) aramla çevirirdi və bir söz demirdi. Bugünkü dəfn mərasimində Molla Əsədulla, əlbəttə, heç kimdən pul almayacaqdı, məhəllə adamı olduğu üçün, yazıq Xədicə arvadın təziyəsini müftə yola verəcəkdi və şübhəsiz ki, arvadın qırxı çıxanacan hər cümə axşamı başqa dəfn mərasimlərindən macal tapıb bu həyətə baş çəkəcəkdi, amma səhərdən bəri krantın yanında dayanıb öz kiçikliyini və lazımsızlığını hiss eləyən Murad İldırımlıya elə gəlirdi ki, Molla Əsədullanın susmağının, qaşqabağının səbəbi ömürləri boyu bir

məhəllədə yaşadıqları Xədicə arvadın ölümü deyil, bu yas məclisinin pulsuz olmasıdır.

Bir dəfə (dünyanın işinə bax, cəmi üç-dörd gün bundan əvvəl idi!..) Xədicə arvad tələbənin gətirdiyi qəzetlərdən kiçik torbacıqlar düzəldə-düzəldə demişdi: «– Bilirsən, ay tələbə, müharibə bir-iki iliydi qurtarmışdı, sənin yaduva gəlməz, nə yaduva gəlməz e, sən heç onda dünyada yoxuydun!.. Onda Bakıya bir qar yağmışdı ki, elənçinə qar heç vaxt olmamışdı ya, heç vaxt! Özü də acdığıydı də, yeməyə bir şey-mey yoxuydu... Müharibə vaxtı, mağul amerikalılar, heç olmasa, tısbağa yumurtasının paraşokunu gətirirdilər!.. Day o da yoxuydu... Gecə bizim mələyə canavar gəlmişdi. O Molla Əsədulla var a, mürdəşir onun üzünü yusun, bax, onun həyətinə girmişdi. Canavar da bilmişdi ki, nə olsa o acdıqda, Molla Əsədullada olar!.. Girmişdi Molla Əsədullanın həyətinə, itini aparmışdı. Itin boğazı zəncirli idi, boğazını gəmirib aparmışdı... başı qalmışdı həyətdə, itin bədənini aparmışdı. O canavar o iti aparanecən, kaş elə bunun, bu mollanın özünü apareydi!.. Bilirsən bu köpey oğlu Molla Əsədulla dava vaxtı camaatdan mamileynən nə qədər pul yığdı? Nə qədər daş-qaş yığdı?! Neynirsən, ay zaraza, bu qədər pulu, hə? Goruva apareceysən? O qədər pulu var, ancaq indi də, zaraza səhərdən axşameycən Tülkü Gəldi Qəbiristanlığındadı, pul qazanır... Özündən başqa, qızlarınnan, oğlannarınnan başqa, bir adamın yaralı barmağına işəməz, köpey oğlu!..»

Indi həmin Molla Əsədulla Xədicə arvadın yasında mizin başında oturmuşdu və bu gün qazanc dalınca Tülkü Gəldi Qəbiristanlığına getməyəcəkdi, ömrünün bir gününü müftə yola salacaqdı, amma, hər halda, Molla Əsədulla qaşqabaqlı da olsa, qanıqara da olsa, Xədicə arvadın ruhu gərək şad olaydı, çünki Molla Əsədulla gəlib bu həyətdə oturub mərhumun qarşısında son borcunu verirdi və bu da o demək idi ki, arvadı «əl-rəhmanla», hörmət-izzətlə qaldıracaqdılar.

Həyətin küçə qapısı açıldı və çörəkçi Ağabalanın əsgərlikdən qayıtmış oğlu ağappaq tənzifə bükülmüş bir qucaq ət gətirib Xədicə xalanın evinə qaldırdı. Əlbəttə, çörəkçi Ağabala bu əti baha qiymətə – kilosu 10 manata əldən aldırmışdı, çünki necə kəsilib, necə saxlanmağı məlum olmayan ağırlaşmış və çirkli-paslı hökumət ətindən qoca arvadın ehsanını vermək nə məhəlləyə yaraşardı, nə də ki, çörəkçi Ağabalanın özünün adına-sanına; hələ o tərəfi bir yana qalsın ki, hökumət dükanlarından ət almaq da asan məsələ deyildi, nə vaxtıydı ki, Bakıda əti talonla adambaşına bir kilo verirdilər; yağı isə talonla adambaşına yarım kilo (sonuncu dəfə 7 Noyabr bayramı münasibətilə yağı adambaşına bir kilo vermişdilər). Məhəllə camaatı ətdən də, yağdan da çox korluq çəkirdi, amma belə, yas məclisləri üçün, yerin altında da olsaydı və bir dəvə qiymətinə başa gəlsəydi də (məhəllənin çörəkçi Ağabala kimi imkanlı adamlarının köməyi ilə), təzə ət tapılmalı və alınmalıydı.

Məhəllə cavanlarının çoxu sürücü işləyirdi və o cavan sürücülərdən biri yük maşınını həyətin küçə qapısının ağzında saxladı. Bir neçə cavan əlinə kəlbətin, çəkic alıb həyət qapısının uzun-uzun illərdən bəri aşağıdan da, yuxarıdan da mismarla vurulub bərkidilmiş ikinci tayının uzun və paslı mıxlarını dartıb çıxartmağa başladı və bu zaman krantın yanında dayanıb baxan tələbə Murad İldırımlıya elə gəldi ki, o cavanlar qapı tayının mıxlarını yox, yazıq Xədicə arvadı həyatla, bu dünya ilə bağlayan paslı dəmir milləri dartıb çıxarırlar və beləcə əziyyətlə, tər tökə-tökə dartıb çıxarırlar, çünki Xədicə arvad o paslı millərdən hələ də əl çəkmək istəmir...

Cavanlar nəhayət ki, həyətin küçə qapısını taybatay açdılar, sonra yazıq Xədicə arvadın göyümtül nimdaş adyala bükülmüş cənazəsini həyətə çıxartdılar ki, məscidə aparıb yudurtsunlar, sarıtdırsınlar və bu vaxt Molla Əsədulla gözlənilmədən üzünü tələbə Murad İldırımlıya tərəf tutdu, boğuq səsiylə:

– Orda nöş durmusan, alə? – dedi. – Gəl, gəl, kömək elə, aparun məscidə!..

Tələbə Murad İldırımlıya elə gəldi ki, Molla Əsədullanın o boğuq səsi bütün həyətə, küçəyə yayıldı və hamı da məhəllədəki kirayənişinin acizliyinin, yararsızlığının şahidi oldu; gözlərini yerə dikib ürəyi döyünə-döyünə cənazəyə yaxınlaşdı və Xədicə arvadın ayaq tərəfindən yapışdı. Tələbə Murad İldırımlının əli ömründə heç vaxt meyitə dəyməmişdi və indi adyalın altından Xədicə arvadın boşalmış cansız qılçını əlinin içində hiss etdikdə tələbəyə elə gəldi ki, onu səsləyən Molla Əsədulla deyildi, tale idi, bütün acizliyini, yararsızlığını bir daha ona göstərmək istəyirdi, yəni tale deyirdi ki, əziz dostum Murad İldırımlı, özün özünə qapanıb böyük-böyük fikirləşmək asan şeydir, bax, gəl beləcə əlinlə ölümü hiss elə, bir halda ki, sənin iyirmi yeddi yaşın var, onda, başqaları kimi sən də, zəhmət çək, gəl, ölümü əllərinlə beləcə müayinə et. Və tələbə burasını da yalnız indi bütün dəhşəti ilə başa düşdü ki, həmin bu göyümtül adyal gecələr onun özünün üstünə örtdüyü adyaldı; bircə anın içində tələbəni soyuq tər basdı, tələbə özünü məcbur edə bilmirdi, özünü ələ ala bilmirdi, Xədicə arvadın ölü qılçı, elə bil ki, onun da bütün içinə bir ölüm yayırdı, bu göyümtül adyalla da, elə bil, Xədicə arvadı bükməmişdilər, tələbənin özünü bürümüşdülər və tələbə öz bədəninin dərisində o adyalın nimdaşlığını hiss edirdi; dizləri əsirdi və ən dəhşətlisi bu idi ki, həmin dəm tələbə Murad İldırımlıya elə gəlirdi ki, bütün həyət onun necə bir vəziyyətə düşdüyünü görür, soyuq tərini duyur. Tələbə öz acizliyinə, ürəksizliyinə nifrət edə-edə Xədicə arvadın o göyümtül adyala bükülmüş cənazəsindən tutub başqa məhəllə cavanları ilə bərabər, bir-iki addım atdı və elə bil ki, ağır bir yuxu içində Xosrov müəllimin səsini eşitdi:

– Çəkil sən... Qoy mən aparım, sən çəkil...

Xosrov müəllim qupquru quruyub qaxac olmuş barmaqları ilə tələbə Murad İldırımlını kənara elədi, özü Xədicə arvadın cənazəsindən yapışdı və məhəllə cavanları ilə birlikdə həyətdən çıxdı, cənazəni yük maşınına qaldırdılar, özləri də (o cümlədən, Xosrov müəllim) yük maşınına mindilər və maşın yerindən tərpəndi.

Əlbəttə, hesabla tələbə Murad İldırımlı bir yüngüllük hiss etməliydi, Xosrov müəllimə minnətdar olmalıydı, amma həmin dəm bu cavan adamın içində Xosrov müəllimə qarşı bir kin-küdurət baş qaldırmışdı: tələbə özünü məcbur edəcəkdi, o, cənazəni başqaları ilə birlikdə aparıb maşına qoyacaqdı, məscidə gedəcəkdi, özü özünə sübut edəcəkdi ki, həyatın hər üzünə hazır adamdı və Xədicə arvadın o cansız qılçı da həyatın su içmək, çörək yemək, tualetə getmək kimi, təzə doğulmuş uşağı qucağına almaq kimi, bir parçası, bir hissəsidir... Tələbə özünü məcbur edəcəkdi ki... Indi ona elə gəlirdi ki, bu həyətdə, bu məhəllə camaatının arasında təpədən-dırnağacan bir biabırçılıq içindədi.

Həyətdəki mizin arxasında oturmuş kişilər isə yavaşdan bir-birləri ilə söhbət edirdilər, krant damcı-damcı axırdı, evə toplaşmış məhəllə arvadları daha ağlamırdı və bu gün universitetə dərsə getməyən (dördillik tələbəlik həyatında birinci dəfə idi ki, dərs buraxırdı) tələbə Murad İldırımlı həyətin küçə qapısı ağzında dayanıb yenə də bilmirdi ki, nə eləsin... Molla Əsədulla əvvəllər də hərdənbir məhəllədə gözünə

dəyən bu kirayənişin oğlana baxdı və tələbəyə elə gəldi ki, molla bu saat onu camaatın yanında məzəmmət edəcək, utandıracaq, amma Molla Əsədulla həmin boğuq səsiylə:

– Ayaq üstə nöş durmusan? – dedi. – Gəl otur...

Tələbə gəlib aşağı başda – mizin arxasında əyləşdi və mollanın bu sakit dəvəti (elə bil, heç nə olmayıb!..), kişilərin sakit söhbəti tələbəyə də sirayət etdi (axı, doğrudan da nə olmuşdu ki?..) və tələbə Murad İldırımlı birdən-birə o gözəl dağları, o gözəl meşələri xatırladı. Yazıq Xədicə arvad ömründə o gözəl dağları, o meşələri görməmişdi, bu həyət-bacadan başqa, yəqin ki, ömründə başqa bir yerə getməmişdi və o yazıq bir daha bu həyətdə, bu küçədə görünməyəcəkdi, amma bu həyət-baca haçansa sökülənəcən, dağılanacan Xədicə arvadsız da necə vardısa, eləcə qalacaqdı və indi Murad İldırımlı da o dağların qoynunda deyildi, amma o dağlar da, o meşələr də elə-eləcə qalırdı... Tələbə fikirləşdi ki, bütün bunlar, əlbəttə, məlum məsələdir, amma, hər halda, qəribədir... Sonra yadına düşdü ki, dırnağını çeynəyir, tez barmağını ağzından çəkdi.

Molla Əsədulla sağ əlində çevirdiyi təsbehə baxa-baxa boğuq səsiylə, elə bil, özü özüylə danışdı:

– Bu Siçan nöş gəlib çıxmadı belə?.. – Sonra sol əli ilə ağappaq saqqalını sığalladı və yalnız bundan sonra tələbə gördü ki, molla əminin dodaqları bir balaca qaçdı.

Miz arxasında oturmuş məhəllə kişiləri də, elə bil, bir az rahat nəfəs aldılar və səhərdən bəri bu həyətə çökmüş təziyə ovqatı, daxili gərginlik azaldı, Molla Əsədullanın bu sualı bir yüngüllük gətirdi. Kişilərdən biri:

– Uşaqlar gedib dalıyca, – dedi, – gələr indilərdə...

– Başı qarışıqdı də kişinin...

Çörəkçi Ağabalanın əsgərlikdən qayıtmış oğlu ehsan ətini gətirib evə qoyandan sonra həyətdə oturmuşdu, üzünü Molla Əsədullaya tərəf tutub:

– Neyləsin?– dedi. – Siçan basıb da şəhəri...

Bu sözləri deyən məhəllə kişilərindən heç biri gülmürdü, amma tələbə bu sözlərdəki yüngül zarafatı, istehzanı açıq-aşkar hiss etdi: ölənlər gedirdi, həyat isə öz qaydasıyla davam edirdi... O yazıq Xədicə arvadı mürdəşir indi məsciddə yuyurdu, sonra kəfənə sarıyacaqdılar, sonra aparıb qəbiristanlıqda torpağa tapşıracaqdılar, sağ qalanlar necə yaşamışdılarsa, eləcə də yaşayacaqdılar, sonra onlar da həyatlarını başa vuracaqdılar, həyat isə davam edəcəkdi, davam edəcəkdi... Belə fikirləşən, bunu görən, əlbəttə, tək tələbə deyildi (və tələbə burasını çox gözəl başa düşürdü!), amma dünyanın beləcə bir əlacsızlığı bu sadə fikri həmişə özü ilə nəsillərdən nəsillərə ötürürdü, bu gün bu həyətdə bu barədə tələbə fikirləşirdi, min il bundan sonra isə (əgər insan atom bombalarının və raketlərin köməyi ilə özünü məhv eləməsə!) eyni fikir bir başqasının ağlına gələcək – dünya dəyişəcək, əlbəttə, tamam başqa bir dünya olacaq, amma bu sadə fikir həmişə insanın hisslərinə təsir edəcək– tələbənin fikrincə məhz belə olacaqdı.

Xədicə arvadın oğlu Siçan Balaniyaz Səhiyyə Nazirliyinin Respublika Sanitar-Epidemioloji Stansiyasında işləyirdi və sənəti evlərdə, idarələrdə tələ qurub, zəhər verib, siçanlarla mübarizə aparmaq idi. Xədicə arvadın əri müharibədə həlak olmuşdu və nəçiydi, necə adam idi – tələbənin bundan xəbəri yox idi, amma Siçan Balaniyazı tanıyırdı. Xədicə arvad deyirdi: «– Camaatın on uşağı olur, biri pis

olanda, fərsiz çıxanda, o birisi yaxçı olur, fərli çıxır... Mən bəxtiqaranın də bir oğlu oldu də, neyniyim?.. Atasını bunun, yazığı götürüb apardılar davaya, getdi, Hitlerin ciyəri yansın, necə ki, yandı da, öldü davada, tək başıma böyütdüm bunu semiçka sata-sata. Pisdi, yaxçıdı, bir dənədi də...»

Arvad bu sözləri tələbədən artıq özü özünə deyirdi; elə ki, qaranlıq düşürdü, balaca taxta kətili ilə, yarısı boşalmış tum torbasını götürüb evə qayıdırdı, tum qovuranda da, kağız torbacıqlar düzəldəndə də, boyat küftə yeyəndə də, boş-bekar olanda da otağın qapısını açıq qoyub elə hey öz-özünə danışırdı; gecədən, sakitlikdən qorxurdu – nəydi?

«–Getdi girdi arvadının evinə, arvadı oldu onunçun mənnən əziz... Neynəsin e, uşaqlarının anasıdı də. Fağır, siçan tutmağnan oturub uşaqlarını dolandırır də... Arvadı tatardı, uşaqları da rusca danışdırır, mən də ki, rusca heç nə bilmirəm... Gəlmir yanıma də görürsən? Ayda-ildə bir dəfə gəlir... Qorxur pul istəyərəm onnan... Neynirəm pulu? Tək canımdı də, acından ölmiyəciyəm ki... Indi sovet hökumətində kim ölür acınnan? Hərə bir cürə başını girriyir də... Neynirəm pulu!..»

Xədicə arvad belə deyirdi, amma tələbə Murad İldırımlı bu səkkiz ayda açıq-aşkar görmüşdü ki, bu arvad, əslində, pulgirin biridi və çox xəsisdir. 70 manat tələbədən ev kirayəsi alırdı, 70 manat Xosrov müəllimdən alırdı, əri II Dünya müharibəsində həlak olduğu üçün, nə qədərsə pensiya alırdı, bir tərəfdən də ki, tum satırdı. Tək qala bilmirdi, öz otağının qapısını həmişə açıq qoyurdu, amma elə ki, otağın qapısını bərk-bərk bağlayırdı, bu o demək idi ki, oturub pul sayır– tum satanda, əsasən, xırda pul verirdilər və bəzən tələbə o bağlı qapı arxasından yerə düşən, yaxud bir-birinə toxunan dəmir pulların cingiltisini eşidirdi.

«– Yaxçıdı hələ mənimki gəlib üstümə düşmür ki, pul verginən mənə... Ode, o yazıq kor Əminənin oğlu... It oğlu, atası da elə özü kimi əclafıydı... Gedib bir dənə rus matişkəsi alıb, qəhbənin birini, özü də gündə gəlib düşür yazıq arvadın canına ki, pul verginən mənə... hardan versin, ay oğraş? Pul yağış-zaddı beyəm ki, ya göydən tökülsün?... Mənimki, fağır, siçan tutur, nolsun, balalarını dolandırır də... Mənnən də pul istəmir... Nöşün ki, bilir yoxdu də məndə, pul yoxdu məndə... Bir quru canımdı, bir də özüməm də, bilmir begəm?..»

Hərdən tələbəyə elə gəlirdi ki, Xədicə arvad bu pul söhbətini bir tərəfdən də öz cavan kirayənişininə (elə Xosrov müəllimə də) eşitdirir, yəqin qorxur ki, bir yerdə yaşadıqlarına görə, gecələr otağının qapısını açıq qoyduğuna görə, gəlib onu soyarlar. Bəlkə də belə deyildi, bəlkə də Xədicə arvad heç belə şeylər fikirləşmirdi, amma, hər halda, hərdən tələbə Murad İldırımlıya belə gəlirdi.

Nə qədər ki, məhəllədə hamının «Siçan Balaniyaz» adlandırdıqları bu adamı görməmişdi, tələbə Murad İldırımlı nə üçünsə belə təsəvvür edirdi ki, Xədicə arvadın oğlu sifətdən də siçana oxşayır və o vaxtlar ki, Xədicə arvad öz-özünə danışıb yorulurdu, yerinə girib işığı keçirirdi (amma otağın qapısını bağlamırdı), Xosrov müəllimin də otağının qapısının açar deşiyindən görünən işıq sönürdü, tələbə də qəzetdən, kitabdan, jurnaldan bezikib-yorulub işığı keçirirdi, çətin və tənha gecələrində yuxuda, ya qarabasma zamanı bəzən qapı döyülürdü, əynində palto, boynunda şərf, başında əzik şlyapa bir siçan içəri girirdi; balaca, tüklü sifəti əzik şlyapasının altından güclə görünürdü, amma gözləri işım-işım işıldayırdı, qara və uzun burnunun ucu həmişə yaş olurdu, nazik uzun bığları titrəyirdi. «– Ayda neçə manat verirsən anama?– soruşurdu. – Neçə manat? Hesablayıram pullarını... Bilirəm

harda gizdədir. Öləndən sonra götürəcəyəm. Neçə verirsən? Başa düşmədin? Xədicə anamdı də, oxşamır? Əh, çuşka ki, çuşka də!.. Rayonnan gələnlərin hamısı çuşka olur!.. Anamdı də Xədicə... O da siçandı də!..» Tələbə o əzik şlyapalı siçanla üzbəüz dayanıb bu sözlərə qulaq asa-asa qorxurdu ki, birdən özü də siçan olar və tərləyirdi, o qorxu içində yuxudan, ya mürgüdən oyanırdı, bir müddət o yuxunun, qarabasmanın təsiri altında olurdu, elə bilirdi ki, Xədicə siçan o açıq qapıdan indicə gəlib onun yerinə girəcək...

Amma bir gün axşamçağı tələbə Murad İldırımlı Xədicə arvadın otağında oturub dəhrə ilə ət döyürdü, həyətin küçə qapısı cırıltıyla açıldı və o cırıltı eşidilən kimi, Xədicə arvad dedi: «– Balaniyaz gəldi...» Elə bil ki, həyətin o küçə qapısının dili var idi və başqa heç kimin yox, məhz Balaniyazın gəldiyini Xədicə arvada xəbər verirdi.

Xədicə arvad ayağa qalxdı və kötüyün üstündə yenicə döyülməyə başlamış təzə qoyun ətinə nigaran bir nəzər saldı, elə bil, arvad qorxurdu ki, Balaniyaz gəlib bu ətə şərik çıxacaq. Palazın üstündə bardaş qurub oturmuş tələbə, Balaniyazla birinci görüş məqamında ət kötüyünün arxasında, əlində dəhrə özünü çox naqolay hiss etdi, amma ayağa qalxmağa macal tapmadı, Balaniyaz içəri girdi və Balaniyaz onu beləcə kötük arxasında, əli dəhrəli gördü. Xədicə arvad: «– A-a-a, xoş gəlmisən... – dedi. – Sənnən nə əcəb?». Balaniyaz: «– Nöşün? – dedi. – Gəlib-ələmirəm begəm?..». Balaniyazın səsi siçan civiltisinə yox, pişik səsinə oxşayırdı və ümumiyyətlə, Balaniyaz siçana yox, pişiyə oxşayırdı, – gödəkboylu, dolu, girdəsifətli, göygözlü və balaca boyu ilə uyuşmayan iri və ucları iti qulaqları. Tələbə Murad İldırımlı ayağa qalxıb otaqdan çıxmaq istədi, amma Xədicə arvad qoymadı (oğlu ilə təkbətək qalmaq istəmirdi).

Balaniyaz otaqdakı üç taxta kətildən birində əyləşdi, Xədicə arvad ikinci taxta kətildə əyləşdi, tələbə Murad İldırımlı isə xəcalət təri tökə-tökə ət döyməyinə davam etdi və Xədicə arvad: «–Bilirsən nə yaxçı oğlandı bu tələbə? – dedi. Bilirsən nə yaxçı kömək ələyir mənə?.. Qəzet alır gətirir mənə, kulok düzəldirəm. İndi də ət alıb gətirib, xörək bişiriceyəm onunçun!.. Sən necəsən e?» Balaniyaz cavab verdi ki, yaxşıyam, anası uşaqları xəbər aldı, Balaniyaz cavab verdi ki, yaxşıdırlar, anası arvadını xəbər aldı və bu zaman Balaniyaz birdən-birə gözlərini otağın qapısının kənarında döşəmənin dibinə dikib: «– O deşiyi tutmaq lazımdı! Əl-əlbət! –dedi. Ordan siçan gəlir!» Xədicə arvad da, tələbə Murad İldırımlı da, istər-istəməz, Balaniyazın gözlərini dikdiyi səmtə baxdılar və orada güclə sezilən bir deşik gördülər, sonra Xədicə arvad heyrət və qorxu dolu gözləriylə oğluna baxdı. Balaniyaz diqqətlə nəyəsə qulaq asırdı və bir müddət beləcə sükut içində oturdular, dəhrə tələbənin əlində qalmışdı, bu sükutu pozmağa ürək eləmirdi; sonra Balaniyaz: «–Siçandır e.... – dedi və gülümsədi. – Siz eşitmürsüz, hə? – yenə diqqətlə qulaq asdı. – Toçnu siçandı!..» Xədicə arvad. «–A-a-a... Bizdə heç siçan olmazdı axı...» – dedi. Balaniyaz açıq-aşkar bir qürur hissi ilə: «– Əh, siçanın qabağını almaq olar? Əl-əlbət belədir!.. – dedi. – Italyada təcrübə ələyiblər. Siçovulu iyirminci mərtəbədə salıblar zaxoda, suyu da çəkiblər üstünnən, əl-əlbət! Bilirsən nolub? Siçovul birinci mərtəbədən diri çıxıb!» Xədicə arvad bu əhvalatı başqa cürə başa düşdü: «–Pay atonan! – dedi. – Italyada zaxodun təmizliyinə bax, ağəz e!..» Balaniyaz göy gözlərini siçan deşiyindən çəkib məzəmmətlə anasına baxdı: «– O öz yerində, – dedi. – Sən siçovulun canına bax e, siçovulun...» Sonra Balaniyaz yenə diqqətlə

otağın o baş-bu başına baxdı, diqqətlə qulaq asdı, bir-iki dəfə gözucu tələbənin qabağındakı ətə nəzər saldı, amma anasından heç nə istəmədi və qəflətən gəldiyi kimi, qəflətən də durub getdi və Balaniyaz çıxıb gedəndən sonra, Xədicə arvad torbacıqlardan artıq qalmış qəzet parçalarını bürmələyib oğlunun göstərdiyi həmin deşiyə pərçim eləyə-eləyə və son dərəcə dərin bir pərişanlıq içində: «– Ağəz, – dedi, – mən həmişə siçannan qorxmuşam... Bunun atasının da, fağırın, siçandan əti ürpəşirdi. Bəs, bu kimə oxşadı belənçinə, ağəz?.. Nöş bu siçantutan oldu?..»

Və elə həmin gecə tələbə Murad İldırımlının qapısını eləcə palto geyinmiş, eləcə şərf taxmış, eləcə şlyapa qoymuş boz bir pişik döydü və şlyapasının yanlarından da pırtlayıb çıxmış yekə və tüklü qulaqları şəklənmiş o pişik siçan axtarırdı, o pişiyin göy gözləri siçan hərisliyi ilə işıldayıb yanırdı; tələbə qapını açandan və pişik içəri girəndən sonra Murad İldırımlı başa düşdü ki, özü siçandır və indi pişik onun özünü kötüyün üstündə dəhrə ilə döyəcək; sonra məlum oldu ki, Xosrov müəllim də siçandı– uzun, arıq, tükləri tökülmüş bir siçandı və Xosrov siçan bərkdən ağlaya-ağlaya Balaniyaz pişiyin ayaqlarına yıxılmışdı: «– Mənim gözü yolda olan balalarım var!..» O gözəl dağlar da, o meşələr də başdan-başa siçan deşiklərinə dönmüşdülər və tələbə Murad İldırımlının nənəsi də siçan idi, seyrək dişləri Balaniyaz pişiyin qorxusundan bir-birinə dəyirdi və nənəsi nazik səsi titrəyə-titrəyə Xosrov siçanı göstərib tələbəyə deyirdi: «– Qoy onu yesin!.. Qoy onu yesin, biz qaçaq...» Sonra siçan nənəsi nəvəsini gözləmədi, tələbəni tək qoyub qaçdı...

Və həmin gecə tələbə Murad İldırımlı tərin içində yuxudan oyanandan sonra səhərə kimi yata bilmədi, bu cavan adam balıncının, sovruğunun tər iyini hiss edə-edə, həyətdə damcılayan krantın səsinə qulaq asa-asa qaranlıqda, bu balaca otağın divarları arasında bir həzinlik içində özünü dünyanın ən unudulmuş bir kimsəsi bildi və ona elə gəldi ki, həqiqət indicə gördükləridir, real həyatda yaşamağı isə – yalandır. O zaman o biri otağın açıq qapısından Xədicə arvadın rahat və qayğısız nəfəsi eşidilirdi, protez dişlərini gecə çıxarıb stəkanın içində suya qoyduğu üçün (günortalar da çörək yeyəndə o dişləri çıxarırdı, çünki onlarla bir şey çeynəmək mümkün deyildi), hərdənbir yuxuda damaqlarını marçıldadırdı və o rahat nəfəs də, o marçıltı da, elə bil ki, həmin qeyri-real həyatın səsi idi.

... Xədicə arvadın cənazəsini məsciddən gətirdilər və o yazığı yük maşınından düşürüb evə qaldıranda məhəllə arvadları yenə də ağlaşmağa başladı. Xosrov müəllim gəlib tələbə Murad İldırımlının yanında, mizin arxasında oturdu və həmişəki kimi sükut içində məhəllə kişilərini bir-bir nəzərdən keçirdi, sonra gözlərini Molla Əsədullaya dikdi. Molla Əsədulla dodaqaltı pıçıldaya-pıçıldaya Quran oxuyurdu və hər səhifəni oxuyub qurtarandan sonra barmağını dodağına çəkib səhifəni çevirirdi. Sonra Siçan Balaniyaz gəlib çıxdı və hamı ona başsağlığı vermək əvəzinə, Balaniyaz özü məhəllə kişilərinə başsağlığı verməyə başladı, üzrxahlıq etdi:

– Allah rəhmət eləsin!.. Allah səbr versin!.. Əl-əlbət!.. Son qəmüvüz olsun!.. Iş adamıyam da, mən... Gecikdim... Obyektə getmişdik... Allah rəhmət eləsin! Əl-əlbət işimiz çoxdu yaman!.. Allah rəhmət eləsin!..

Və Balaniyaz da keçib mizin arxasında əyləşdi, diqqətlə həyətin küncünə-bucağına baxmağa başladı. Həyətin yuxarı başındakı o krant isə elə hey damcılayırdı və krant eləcə damcı-damcı axdıqca tələbəyə elə gəlirdi ki, bütün bunların hamısı əvvəllər də haçansa olub, indi ikinci dəfə təkrardır, yəni əvvəllər də haçansa bir dəfə

Xədicə arvad ölüb, əvvəllər də burada belə bir yas məclisi qurulub, Xədicə arvadı məsciddən ikinci dəfə gətirirdilər, ikinci dəfəydi ki, o arvadın cəsədini gecələr tələbənin üstünə saldığı o göyümtül adyala bükürdülər, Balaniyaz ikinci dəfə gəlib məhəllə kişilərinə beləcə başsağlığı verirdi, işinin çoxluğu üçün üzrxahlıq edirdi, Molla Əsədulla da ikinci dəfəydi ki, Xədicə arvadın matəm məclisini aparırdı və əvvəlki o yas məclisi zamanı da krant bax beləcə damcılayırdı.

Tələbə Murad İldırımlı barmağını tez ağzından çəkdi ki, dırnaqlarını çeynəməsin. Məhəllənin yeniyetmə oğlanları (onlar da bu gün məhəllədəki yasa görə məktəbə getməmişdilər) mizin arxasında əyləşmiş kişilərin qabağına (o cümlədən, tələbənin qabağına) çay düzdülər. Məhəllənin simsiz teleqrafı öz işini görmüşdü: vaxtıyla bu məhəllədə yaşayan, sonra təzə ev alıb Bakının mikrorayonlarına, Əhmədliyə, 8-ci kilometrə, Musabəyov qəsəbəsinə, Günəşliyə və ilaxır kənar-bucaq yaşayış yerlərinə köçmüş adamlar bir-bir həyətə girdi, kişilər bir-biri ilə görüşüb, bir-birinə başsağlığı verib mizin arxasında əyləşdi, arvadlar evə qalxdı, tələbənin də, Xosrov müəllimin də otaqları arvadlarla doldu, Xədicə arvadın cənazəsi isə öz otağında qoyulmuşdu.

Əlbəttə, dünən axşam heç kimin ağlına gəlməzdi ki, bu gün bu həyətdə belə bir yas məclisi qurulacaq; dünən hər şey krantın o yeknəsəq damcılarının müşayiəti ilə daimi (sanki daim!) bir eynilik içində idi. Elə ki, iş saatı qurtarırdı, adamlar işdən çıxıb gedib evlərinə çatırdılar, uşaqlar məktəbdən qayıdırdılar, bu küçə də boşalırdı, qaranlıq düşəndən sonra isə tamam bomboş qalırdı; məhəllənin adamları evlərinə çəkilirdilər, gediş-gəliş kəsilirdi və Xədicə arvad tum kisəsini balaca taxta kətilin küçə qapısının ağzından götürüb evə qayıdırdı. Dünən də belə olmuşdu. Xosrov müəllim otağına girib qapısını həmişəki kimi, açarla bağlamışdı. Tələbə də öz otağında oturub kitab oxuyurdu, amma tələbə öz qapısını Xosrov müəllim kimi açarla bağlaya bilmirdi, çünki Xədicə arvad min bir bəhanə ilə gəlib qapını döyürdü, tələbə də durub qapını açmalı olurdu (Xosrov müəllim kimi qaradinməz adamın isə qapısını döyməyə cəsarət etmirdi). Dünən tum satmaqdan qayıdanda yenə tələbəni öz otağında kitab oxuyan gördü: «–Sənnən qabaqkı da (Murad İldırımlıdan əvvəl beş il bu otaqda kirayənişin olub, institutu bitirib öz rayonlarına qayıtmış oğlanı nəzərdə tuturdu) kitab oxuyanıydı, ancaq day sənün kimi yox də... Sən alayı şeysən... Yaxçı eləyirsən!.. Oxumağın axırı yaxçı olur də... Ode, Molla Əsədulla mürdəşir üzünü yumuşun həyətində Mürşüd Gülcahani yaşayırdı. Çoxdan e-e-e... Yarımdəstə Mürşüd deyirdilər, nöşün ki, bazara gedəndə göyü yarım dəstə alıb gətirirdi. Sonra kitab yazdı, böyük adam oldu. Özüm görmüşəm onun kitabını... qəzetdə şəkilləri çıxırdı, kulok düzəltmirdim onnan, saxlayırdım, bilmirəm hara qoydum sonra... Ev verdilər əntiqə, köçdü getdi burdan...»

Tələbə Azərbaycanda adını yazıçı qoyub yazanların hamısından xəbərdar olduğu kimi, Mürşüd Gülcahanidən də xəbərdar idi, həmin müəllimin ««Şən həyat» kolxozunda» romanını oxumuşdu və tələbənin fikrincə o cür yazıçıların qalın-qalın romanları Azərbaycan ədəbiyyatına yalnız üzüqaralıq gətirirdi, amma, əlbəttə, bu barədə Xədicə arvadla mübahisəyə girişməyin mənası yox idi, buna görə də təbiəti etibarilə höcət olan, birdən-birə başqa tələbələrlə, universitetdəki və Yazıçılar Ittifaqındakı ədəbi dərnək üzvləri ilə qızğın ədəbi mübahisəyə girişən, sərbəst şeri müdafiə edən, Avropa modernistlərinin, xüsusən, ekzisentalistlərin yaradıcılığına bir o qədər dərindən bələd olmasa da, onların təəssübünü çəkən, Yevgeni

Yevtuşenkonun, A.Voznesenskinin, B.Axmadulinanın bəzi şerlərini rus dilində əzbər bilən və girişdiyi mübahisələrin axırını gözləməyib, əsəbiləşib yarımçıq çıxıb gedən Murad İldırımlı özünü məcbur etdi və Xədicə arvadın bədii zövqünün fərqinə varmadı. Xədicə arvad Muxtar Xudavəndə kimi qəzetdə ədəbiyyat şöbəsinin müdiri deyildi (illərdən bəri kötük kimi bitib o şöbədə qalmamışdı!) və Xədicə arvadın bədii zövqünün Azərbaycan ədəbiyyatının taleyinə dəxli yox idi.

Xədicə arvad öz otağında oturub danışa-danışa boyat küftəsini yedi, çox təmizkar olduğu üçün, o saat da durub (və yenə də danışa-danışa) tələbə Murad İldırımlı ilə Xosrov müəllimin otaqlarının arasındakı balaca mətbəxdə boşqabı yudu, dəsmalla qurulayıb yerinə qoydu, tələbənin otağının qabağından keçəndə Xosrov müəllimin bağlı qapısına tərəf işarə etdi, səsini yavaşıdıb: «Bu nöş indidən qapını bağlayıb?» – soruşdu, guya ki, Xosrov müəllim qapısını həmişə beləcə bağlamır. Sonra Xədicə arvad səsini daha da yavaşıdıb: «– Gecə durub su başına çıxanda, görürəm ki, bu fağır ağlayır yuxuda... – dedi. – Ölsə bunun xərcini kim çəkəcək? Mağul, bir uşağı-zadı da yoxdu, tək canıdı... Özünün pulu var görəsən? Hə?» Xədicə arvad bu sualı açıq-aşkar bir maraqla verdi və tələbə Murad İldırımlıdan bir cavab eşitməyəndən sonra lap yavaş səslə, az qala pıçıltıyla: «– Sən bunun beləliyinə baxmaginə e... – dedi. – Bir dəfə yayda Kislavodskiyə getmişdi... Yəqin pulu var də... Ancaq ölsə yazığın işi pis olıcek...»

Bu sözləri yazıq Xədicə arvad dünən deyirdi... Xınasının vaxtı keçdiyi üçün, dibi ağarmış, üstü xoruz pipiyi kimi qıpqırmızı qızarmış saçlarına köhnə (amma tərtəmiz) çit yaylılığının altından sığal çəkə-çəkə, arıq, nazik dərili və qırışmış sifətiylə gülümsəyə-gülümsəyə deyirdi...

Xosrov müəllimin hərdən gecələr yuxuda ağlamağını tələbə də eşitmişdi, daha doğrusu, əvvəlcə başa düşməmişdi ki, gecənin yarısı bu nə səsdir belə, amma sonra başa düşmüşdü və bu barədə Xosrov müəllimin özünə heç nə deməmişdi; düzdü, bəlkə Xosrov müəllimin özünün heç xəbəri yox idi ki, bəzən gecələr yuxuda ağlayır, amma bu uzun, arıq kişi o qədər dinməz-söyləməz bir adam idi ki, heç Xədicə arvad da gecələr ağlamağını ona deməmişdi.

Tələbə Murad İldırımlı səkkiz aya yaxın idi ki, Xosrov müəllimlə bir evdə yaşayırdı, amma təkcə onu bilirdi ki, bu adam əvvəllər məktəbdə rus dilindən dərs deyib, sonra köşkdə qəzet satıb, sonra da pensiyaya çıxıb, öz evi yoxdur və uzun müddətdir ki, ayda 70 manata Xədicə arvadın kirayənişinidir. Xosrov müəllim evdə olmayan vaxtlarda hərdən Xədicə arvad deyirdi: «–Xosrov müəllim veteran trudadı e!.. Nöşün gedib hökumətdən ev istəmir bu?.. Fağır, bu da belə qaragündü də!..»

Əlbəttə, Xosrov müəllim ev alsaydı, ayda Xədicə arvada 70 manat pul verməyəcəkdi (o verməyəcəkdi, başqası verəcəkdi), amma Xədicə arvad təəccübünü gizlətmirdi və ümumiyyətlə, Xosrov müəllimin qapalı həyatı hərdən tələbəni də düşündürürdü və bəzən tələbəyə elə gəlirdi ki, illər keçəcək, o özü eynilə Xosrov müəllim kimi bir adam olacaq; yəni bəzən tələbəyə elə gəlirdi ki, yaşlarının, boylarının, sir-sifətlərinin müxtəlifliyinə baxmayaraq, Xosrov müəllim də, o dünyanın eyni aqibətli, daha doğrusu, eyni qəlibdən çıxmış adamları zümrəsinə daxildirlər...

Sonra Xədicə arvad öz otağına getdi, oturub danışa-danışa qəzetdən təzə torbacıqlar düzəltdi, müştərilərin get-gedə azaldığından şikayət etdi, xeyli qovrulmuş tum qaldığı üçün, təzə tum qovurmadı, hətta birdən-birə tələbəyə dedi ki,

istəyir, gəlsin, bir ovuc tum götürüb çırtlasın və səkkiz ay ərzində Xədicə arvad birinci (və sonuncu) dəfəydi ki, tələbəyə tum təklif edirdi. Tələbə, təbii ki, tumdan imtina etdi, Xədicə arvad da həmişəki səliqəsi ilə təzə torbacıqları bir-brinin içinə yığdı, tum torbasını ağzınacan doldurdu, bir sözlə, sabahın (yəni bu günün) hazırlığını gördü, sonra adəti üzrə bayır qapısının kilidini yoxladı, tualetə getdi, əllərini, üzünü həyətdəki krantda sabunla tərtəmiz yuyub gəlib yerinə girdi (ki, bir daha qalxmasın!) və otağının da qapısını həmişəki kimi açıq qoydu.

Tələbə Murad İldırımlı da işığı keçirib yerinə girdi, həmin göyümtül adyalı üstünə saldı və birdən-birə ondan əvvəl bu otaqda yaşamış adam barədə fikirləşməyə başladı. Murad İldırımlı o adamı görməmişdi, amma dünən gecə o adamla özü arasında qəribə bir doğmalıq hiss etdi: həmin keçmiş kirayənişin də beş il bu otaqda, bu dörd divar arasında yaşamışdı, o da gətirib ayda 70 manat Xədicə arvada pul vermişdi, gecələr bu dəmir çarpayıda uzanmışdı, üstünə şübhəsiz ki, bu göyümtül adyalı salmışdı, gecələr beləcə bu tavana, bu divarlara baxmışdı, krantın damcılamağına qulaq asmışdı, hərdən Xosrov müəllimin gecələr yuxuda ağlamağını eşitmişdi... Bəlkə o keçmiş kirayənişin də illərlə «Əzizimin cəfası» romanını axtarmışdı, dahi rus şairi Aleksandr Serqeyeviç Puşkinin qohum-əqrəbasının adını əzbərləmişdi, amma bir halda ki, universiteti bitirdikdən sonra Bakıda qala bilməmişdi, çıxıb öz kəndlərinə getmişdi, deməli, axıra qədər də «Əzizimin cəfası» romanını tapa bilməmişdi. Əlbəttə, belə bir adda roman yox idi, amma Murad İldırımlı Bakıda keçirdiyi dörd illik tələbəlik dövründə başa düşmüşdü ki, indi Azərbaycanda və ümumiyyətlə, bütün Sovet Ittifaqında hünər burasındadır ki, olmayan romanı oxuyasan! «Əzizimin cəfası» romanı yox idi, amma sən o olmayan, o yazılmamış romanı oxumağı bacarmalı idin və tələbə Murad İldırımlı buna qəti əmin olmuşdu ki, bu gün insanlar elə bir dövrdə və elə bir ölkədə yaşayırlar ki, o yazılmamış romanı oxuya bilməsən sənin işlərin heç vaxt düz getməyəcək...

Tələbə Murad İldırımlı gecələr həmişə belə bədbin ictimai fikirlərə qapılanda birdən-birə qaranlıq içindən bir əl çıxıb gəlib gözlərinin qabağında dayanırdı və o əlin barmaqlarının güclə sezilən hərəkəti, elə bil ki, rişxəndlə deyirdi: ay axmaq tələbə, hərənin bu dünyada öz yeri var, həmişə belə olub və həmişə də belə olacaq, – ibtidai icma dövründən tutmuş, bu günə qədər və min il bundan sonraya qədər! – amma sən o qədər vecsiz və lazımsız bir məxluqsan ki, nahaq yerə təqsiri zəmanənin və ölkənin boynuna yıxırsan, sənin kimilər bütün zamanlarda və bütün ölkələrdə, bax, bu əlin kölgəsində heyvan kimi ömür sürüb qara torpağa qarışıblar, çünki onlarla (və səninlə!) heyvan arasında heç bir fərq olmayıb.

Məsələ burasında idi ki, hərdən gecələr eləcə tələbənin gözlərinin qabağına gələn o əl Leonid İliç Brejnevin əli idi və tələbə dörd il bundan əvvəl Leonid İliç Brejnevin özünü yox, əlini görmüşdü; o vaxt ki, tələbə Murad İldırımlı ilk növbədə özü üçün gözlənilmədən universitetə daxil olmuşdu və dərslər də yenicə başlamışdı – 1978-ci ilin sentyabr ayında – Sov. IKP MK-nın Baş katibi, SSRI Ali Soveti Rəyasət Heyətinin Sədri L.I.Brejnev, Sov. IKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Sov.IKP MK katibi K.U. Çernenko və onlarla birlikdə Sov. IKP MK üzvlüyünə namizəd, Sov. IKP MK Baş katibinin köməkçisi A.M. Aleksandrov, Sov.IKP Mərkəzi təftiş komissiyasının üzvü, Sov. IKP MK beynəlxalq informasiya şöbəsi müdirinin birinci müavini V.M. Falin, Sov. IKP MK işlər müdirinin müavini M.Y. Mogilevets yoldaşlar Azərbaycan paytaxtına Lenin ordeninin təqdim olunması

münasibətilə Bakıya gəlmişdilər. SSRI Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə Bakı şəhəri inqilabi hərəkatda, Azərbaycanda Sovet hakimiyyətinin qurulmasında və möhkəmləndirilməsində xidmətlərinə, 1941-1945-ci illər Böyük Vətən müharibəsində faşist işğalçıları üzərində qələbəyə böyük köməyinə, təsərrüfat və mədəniyyət quruculuğunda şəhər zəhmətkeşlərinin qazandıqları müvəffəqiyyətlərə görə Lenin ordeni ilə təltif edilmişdi və L.I.Brejnev yoldaş bu yüksək mükafatı Bakının bayrağına şəxsən sancacaqdı. Bu, L.I. Brejnev yoldaşın Bakıya ikinci səfəri idi, birinci dəfə 1970-ci ildə, Azərbaycanda Sovet hakimiyyəti qurulmasının 50 illiyi münasibətilə gəlmişdi. Indi universitetdə tələbələr danışırdı ki, L.I. Brejnev yoldaş Bakıya üçüncü dəfə gələcək, bu yaxınlarda xalq təsərrüfatını inkişaf etdirmək haqqında Sov. IKP XXV qurultayı qərarlarının həyata keçirilməsində Azərbaycan SSR zəhmətkeşlərinin qazandıqları böyük müvəffəqiyyətlərə, sənaye və kənd təsərrüfatı məhsulu istehsalına dair onuncu beşillik tapşırıqlarının vaxtından əvvəl yerinə yetirilməsinə görə Azərbaycan Sovet Sosialist Respublikası SSRI Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə, Lenin ordeni ilə təltif edilmişdi və guya, bu dəfəki Lenin ordenini də respublikanın bayrağına şəxsən L.I. Brejnev yoldaş taxacaqdı, amma demək olar ki, hər gün televiziya ilə göstərilən cürbəcür təltiflər zamanı hamı görürdü ki, rəhbərin dili söz tutmur və belə bir kökdə rəhbər Bakıya üçüncü dəfə necə gələcəkdi? Universitetdə tələbələr danışırdılar ki, guya, L.I. Brejnev, yəni həqiqi L.I. Brejnev Kremldə oturur, başqa yerlərə gedən isə onun oxşarı, «dvoynik» i olur və guya, Bakıya da özü yox, oxşarı gələcəkdi...

Nə isə, bütün bunlar hələ sabahkı günlərin işi idi, onda isə 1978-ci il sentyabrın 20-si idi və cəmi iyirmi gün idi ki, tələbə Murad İldırımlı həqiqətən də dünyanın bir çox işlərindən bixəbər (milisioner Əsgər düz deyirdi!) o uzaq (və gözəl!) dağların qoynundan gəlib Bakıda tələbəlik həyatına başlamışdı və həmin gün dilsiz-ağızsız birinci kurs tələbəsi olduğu üçün, onun əlinə böyük bir transparant verib sübh tezdən başqa tələbələrlə birlikdə Bakı dəmiryol vağzalına göndərmişdilər. L.I.Brejnev yoldaş Moskvadan qatarla yola düşmüşdü və bütün qəzetlər L.I.Brejnev yoldaşın partiya və dövlət rəhbərləri tərəfindən Moskvadan Bakıya yola salınmasını xəbər vermişdi, fotolar dərc etmişdi. Baş katibi və SSRI Ali Soveti Rəyasət Heyətinin sədrini Sov. IKP MK Siyasi Bürosunun üzvləri V.V.Qrişin, A.N. Kosıgin, K.T. Mazurov, A.Y. Pelşe, M.A. Suslov, D.F. Ustinov, Sov. IKP MK Siyasi Bürosu üzvlüyünə namizəd P.N. Demiçev, Sov.IKP MK katibləri I.V. Kapitonov, V.I. Dolgix, M.V. Zimyanin, K.V. Rusakov, Sov. IKP MK üzvləri G.S. Pavlov, Q.E. Sukanov, Sov. IKP MK üzvlüyünə namizədlər M.P. Georqadze, V.S. Paputin, S.K. Sviqun, Sov. IKP Mərkəzi təftiş komissiyasının üzvləri A.I. Blatov, K.M. Boqolyubov, Y.M. Çurbanov, yollar naziri I.Q.Pavlovski, xarici ticarət nazirinin müavini Y.L. Brejnev yola salmışdılar.

Universitet tələbələri arasında belə bir oyun var idi: bir nəfər Sov. IKP MK Siyasi Bürosunun üzvlərindən, üzvlüyə namizədlərdən, Sov. IKP MK katiblərindən, yaxud SSRI Nazirlər Soveti Sədrinin müavinlərindən birinin familini deyirdi və kim ki, bu famil sahibinin adını və atasının adını, vəzifəsini dəqiq deyirdisə, bir dənə siqaret udurdu. Bu suallara dəqiq cavabları, adətən, komsomol fəalları, bir də ki, siqaret almağa pulu olmayan (buna görə də o adları əzbərləyən!) tələbələr cavab verirdi, – tələbə Murad İldırımlı isə komsomol fəalı deyildi, siqaret də çəkmirdi, amma bütün rəhbərlərin adını, atasının adını, familini əzbər bilirdi, vəzifələrini

bütöv və dəqiq sadalayırdı və bir-birləri ilə mərcləşmiş tələbələr bəzən höcət edəndə (misal üçün, Boris Nikandroviç Ponomoryov, yoxsa Boris Nikolayeviç Ponomoryov?) gəlib həqiqi cavabı Murad İldırımlıdan öyrənirdilər, özüylə isə, maraqsız adam olduğu üçün heç vaxt mərcləşmirdilər. Tələbələr Murad İldırımlının rəhbərlərin adını və vəzifəsini belə yaxşı bilməyini də, əslində, onun paxıllığı ilə yozurdular.

Həmin sentyabr səhəri Bakı dəmiryol vağzalı əllərində Sov. IKP MK Siyasi Bürosunun üzvlərinin və üzvlüyə namizədlərin şəkillərini, şüarlar, transparantlar tutmuş tələbələrlə, gül-çiçək tutmuş qırmızı qalstuklu, ağ köynəkli pionerlərlə, SSRI-nin və Azərbaycan SSR-in kiçik bayraqlarını tutmuş oktyabratlarla, əyinlərinə Azərbaycan SSR Mədəniyyət Nazirliyinin rəhbərin gəlişi münasibətilə xüsusi tikdirdiyi milli geyimlər geymiş və əllərindəki iri nimçələrdə paxlava, şəkərbura, şərbət, üzüm, əncir, armud tutmuş qızlarla, milis nəfərləriylə dolu idi və gecədən vağzalda hazırlıq işləri gördükləri üçün yuxusuzluqdan gözləri qızarmış bir o qədər də cavan olmayan komsomol işçiləri, aşağı vəzifəli partiya işçiləri canfəşanlıqla ora-bura qaçırdı, L.I.Brejnev yoldaşı gətirəcək qatar isə gəlmək bilmirdi.

Hava soyuq və küləkli olduğu üçün, ağ köynəkli pionerlər və oktyabratlar, nazik milli geyimli qızlar elə üşüyürdülər ki, dişləri-dişlərinə dəyirdi və tələbə Murad İldırımlı bu nəhəng izdiham arasında, əlində tutduğu o transparantın xəcalətindən özünü bir mikrob kiçikliyi və heçliyi içində hiss edə-edə o milli geyimli və üşüyən qızlara baxırdı. O uzaq dağların qoynundan onda hələ lap təzəcə gəlib Bakının o dəmiryol vağzalına düşmüş bu cavan adam o yaraşıqlı qızların qarşısında, elə bil ki, özünü günahkar hesab edirdi və qızların o yüngül ipək paltarda eləcə üşüm-üşüm üşüməkləri tələbənin mənliyinə toxunurdu, onu əsəbiləşdirirdi.

Vağzalın ətrafındakı hündür binaların eyvanlarından, divarlarından, tələbələrin, şagirdlərin, komsomol işçilərinin əllərində tutduğu transparantlardan baxan L.I.Brejnevin şəkilləri də o dəm elə bil ki, səbrsizliklə qatarın gəlib çıxmağını gözləyirdi və Murad İldırımlının gözləri hərdənbir rəhbərin qalın qaşlarına sataşanda, ona elə gəlirdi ki, həqiqət içində, yəni adi insanlar arasında, adi həyatda deyil və bütün bu şəkilləri, iri ağ hərflərlə qırmızı çit parçaların üstünə yazılmış bu şüarları – «Doğma Sovet Ittifaqı Kommunist Partiyasına eşq olsun!», «Vətənimizin xalqlarının sarsılmaz dostluğu var olsun!», «Yer üzündə sülh naminə, sovet adamlarının rifahı naminə yorulmaz coşğun fəaliyyəti üçün Leonid İliç Brejnevə minnətdarıq!», «Qazanılmış misilsiz nailiyyətlərimiz partiyanın Mərkəzi Komitəsinin, onun Siyasi Bürosunun dinamik və məqsədyönlü təşkilatçılıq və siyasi işinin, Sov.IKP MK-nın Baş katibi, SSRI Ali Soveti Rəyasət Heyətinin Sədri, Lenin rəhbərlik prinsiplərinin və əsl sosialist demokratiyasının carçısı, sülh uğrunda yorulmaz mübariz, əziz Leonid İliç Brejnevin yorulmaz nəzəri və əməli fəaliyyətinin nəticəsidir!» – Bakının raykomları çəkdirib yazdırmayıb, bu qədər adamı vağzala raykomlar yığmayıb, bütün bunları tarix özü edib və tarix özünün hansı bir mərhələsinisə lentə alır.

Tələbə Murad İldırımlının əlindəki transparantda yazılmışdı: «Əziz Leonid İliç! Bizim xoşbəxtliyimiz üçün əsl atalıq qayğınıza görə Azərbaycan tələbələri sizə dərin təşəkkür və minnətdarlığını bildirir!» və dəqiqələr ötdükcə, saatlar bir-birini əvəz etdikcə, bu transparantın ağırlığı daha da artırdı; komsomol fəalları, aşağı

vəzifəli partiya işçiləri yenə ora-bura qaçsalar da, əvvəlki canfəşanlıqları hiss olunmurdu.

Bu vaxt qəribə bir görüş baş verdi: tələbə adamları aralaya-aralaya yanından ötən kəndçisi milisioner Əsgərlə üz-üzə gəldi. Milisioner Əsgər əyninə adi vətəndaş paltarı geyinmişdi və tələbəni görən kimi, qaşlarını dartıb ayaq saxladı: «– Bayramın mübarək olsun!» Tələbə əvvəlcə başa düşmədi: «– Hansı bayram?» «–Nətər yanı hansı bayram, ə? Bu boyda zırıltını görmürsən? Bizə də qrajdanski paltar geyindiriblər ki, göz-qulaq olaq, rəhbəri axryanat eləyək!..» Milisioner Əsgər Murad İldırımlının ali məktəbə qəbul olunmağından xəbərdar imiş, sifətini tələbənin sifətinə az qala bitişdirib «– Bə deyirdin nənəmin pulu yoxdu, ə?... – dedi. – Pulu yoxuydu, bə nətər oldu gəldin girdin instuta?» – Və milisioner Əsgər tənə ilə başını bulaya-bulaya uzaqlaşıb izdihamın içində yox oldu.

Günorta L.I. Brejnev yoldaşı gətirən qatar, nəhayət ki, gəlib çıxdı; qatar gəlib çıxdı, amma, görünür, əvvəlcədən planlaşdırılmış yerdə dayanmadı, L.I. Brejnevin vaqonu bir az irəlidə qaldı. Rəhbəri qarşılamağa gəlmiş rəsmi adamlar, əllərində gözəl nemətlər tutmuş milli geyimli qızlar, xalq çalğı alətlərindən ibarət böyük nəfəsli orkestrin üzvləri L.I.Brejnevin vaqonuna tərəf qaçışdı, ara qarışdı və həmin yerdən uzaqda dayanmış tələbə Murad İldırımlı həyəcanlanmış izdahamın arasından L.I.Brejnevi də, K.U.Çernenkonu da, onlarla gəlmiş başqa adamları da görə bilmədi və həmin dəm tələbəyə elə gəlirdi ki, vağzala toplaşmış adamların cürbəcür rəngli paltarlar geyinməyinə, qıpqırmızı transparantlara, şüarlara baxmayaraq, səsi zilə qalxmış qara zurnanın müşayiəti ilə hərəkətə gəlmiş kölgələrdən ibarət bir multfilmə baxır. Vağzaldakı bu çaxnaşma, bu həyəcan L.I. Brejnevin dörd tərəfi də bürümüş, qatar gələndən sonra, birdən-birə yüz dəfə artmış şəkillərinə isə sirayət etməmişdi və rəhbər o şəkillərdə qalın qaşlarının altından təmkinlə Bakı dəmiryol vağzalında baş verən bu tarixi hadisəyə baxırdı. Tələbə Murad İldırımlıya elə gəlirdi ki, elə bil, rəhbərlər, doğrudan da, adi insanlar deyil, yəni onlar adi insanlar kimi, çörək yemir, su içmir, tualetə getmirlər...

Iki gündən sonra, 1978-ci il sentyabrın 22-də isə tələbə Murad İldırımlı L.I.Brejnevin sağ əlini gördü. Həmin gün tələbələri sübh tezdən universitetin binasının qabağında «Kommunist» küçəsinin hər iki tərəfi boyunca səkiyə toplamışdılar, yenə əllərinə Sov. IKP MK Siyasi Bürosunun üzvlərinin, üzvlüyə namizədlərin şəkillərini, transparantlar, şüarlar vermişdilər. L.I.Brejnev buradan keçib V.I.Lenin adına Sarayda Bakı şəhərinə Vətənin yüksək mükafatının təqdim olunması münasibətilə partiya, sovet təşkilatlarının, əmək kollektivlərinin, qoşun hissələrinin nümayəndələri ilə birlikdə Bakı Şəhər Partiya Komitəsinin və Şəhər Xalq Deputatları Sovetinin təntənəli iclasına gedəcəkdi. Tələbələrə tapşırılmışdı ki, rəhbər küçədən keçəndə onu uca səslə, nikbincəsinə alqışlasınlar, hərəyə ayrı-ayrı alqışlar əzbərlətmişdilər və onda iş belə gətirmişdi ki, Murad İldırımlı lap səkinin kənarında dayanmışdı, ondan irəlidə heç kim yox idi. Tələbələrdən kim özünü daha çox nikbin göstərə bilsəydi, rəhbəri ürəkdən və vəcdlə alqışlasaydı, onun işi bir o qədər yaxşı ola bilərdi, yəni, misal üçün, həmin cavanı fakültə (hətta universitet!) komsomol bürosunun üzvü seçə bilərdilər (yəni, rektorluğa, yaxud partiya komitəsinə çağırıb komsomol bürosunun üzvü təyin edə bilərdilər!), bu da o deyən söz idi ki, gələcəkdə təyinatını Bakıya ala bilərdi, komsomol işinə keçərdi, sonra

partiya işinə keçərdi... Və gələcəkdə də işləri düzələrdi, tək özünün yox, bütün qohum-əqrəbasının!

Küçənin yuxarı başında alqış sədaları qopdu və tələbə Murad İldırımlı başa düşdü ki, o küləkli havada «Kommunist» küçəsində eləcə ayaq üstə dayanmaqlarına daha az qalıb. L.I.Brejnev yoldaş gəlir və doğrudan da, elə o dəqiqə qara maşınlar bir-birinin ardınca tələbənin burnunun qabağından ötüb keçdi. Həmin maşınlardan ən irisinin və yaraşıqlısının (möhtəşəm bir maşın!) içində L.I.Brejnev oturmuşdu, sağ əlini maşının pəncərəsindən çölə çıxarıb onu alqışlamağa toplaşmış Bakı zəhmətkeşlərini (yəni tələbələri, formalarını dəyişib adi vətəndaş paltarı geymiş hərbi məktəb dinləyicilərini və milis nəfərlərini, komsomol işçilərini, aşağı vəzifəli partiya işçilərini – raykom təlimatçılarını, şöbə müdirlərini...) salamlayırdı və tələbə Murad İldırımlı o dəm rəhbərin özünü görməyə macal tapmadı, yalnız əlini gördü.

Rəhbərin əli adi insan əli idi, adi insanlarda olduğu kimi, beş barmağı var idi, barmaqlarının dırnağı var idi, bir az ətli idi, amma əti boşalmışdı, özü də, deyəsən, günün altında bir az qaralmışdı, tamam çılpaq, tüksüz idi – hər halda, o sentyabr səhəri tələbə Murad İldırımlı bir anın ərzində o əli o cürə görmüşdü və aradan keçən bu qədər müddətə baxmayaraq, rəhbərin əli hərdənbir tələbənin gözlərinin qabağında dayanırdı və dünən gecə – yazıq Xədicə arvadın həyatının son gecəsi də elə oldu.

Tələbə yuxuya getmək istəyirdi və o əl qaranlıq içində yavaş-yavaş uzaqlaşırdı, amma birdən-birə qıpqırmızı bir transparantdan yapışıb təzədən gözlərinin qabağına gəlirdi və hər dəfə də o qırmızı transparantlarda iri hərflərlə əldə edilmiş xoşbəxt həyat haqqında cürbəcür şüarlar yazılırdı və tələbə nə qədər eləyirdisə də, yerində nə qədər o tərəf-bu tərəfə çönürdüsə də, rəhbərin əli o qırmızı transparantlarla birlikdə bu cavan adamın gecəyarısı elə bil ki, hov çəkmiş beynini dinc buraxmırdı. Belə anlarda tələbə yer üzündəki bütün insanlara nifrət edirdi.

Quran «Nisa surəsi» ndə deyirdi: «Ey insanlar! Əgər O istərsə, sizi aparar, başqalarını gətirər. Allah buna qadirdir».

Yəni Allah istərsə, lazım bilərsə, buna bir səbəb olarsa, insanları məhv edər, daha doğrusu, yaşayışı dəyişər, insan əvəzinə başqa bir məxluqat yaradar və o gecələr ki, tələbə yerində uzanıb dünyanın buz soyuqluğunu hiss edirdi, o zaman bu cavan adamın içindən dəli bir ehtiras baş qaldırırdı: bütün insanlar yox olaydı, bəşəriyyətin bütün tarixi pozulaydı və yer üzündə yeni bir məxluqat yaranaydı...

Bəzən tələbə Murad İldırımlı özü özünə nifrət edirdi ki, insanlara bu qədər kin bəsləmək olmaz, sən özün bir heç olduğun üçün, insanları da dartıb özünlə heçliyə aparmaq istəyirsən. Sən özün layiq olmadığın halda, çox istəyirsən, çox umursan, buna görə də əzab içində yaşayırsan, elə Quranın həmin surəsində belə bir ayə də var: «Əgər siz şükr edən və iman gətirən olarsınızsa, sizə əzab vermək Allahın nəyinə lazımdır? Allah şükrə qiymət verən və hər şeyi biləndir».

Həmin aprel gecəsi (yəni dünən) tələbə Murad İldırımlı göyümtül adyalı (bax, bu göyümtül adyalı) üstündən bir kənara atdı və qalxıb yerində oturdu. Həyətdəki krantın damcılamağı aydın eşidilirdi, amma o damcı səsiylə bərabər, nəsə qeyri-adi bir səs də eşidilirdi və tələbə rəhbərin əlinin təqibindən hələ əməlli-başlı qurtara bilməmiş, bir müddət o qeyri-adi səsə qulaq asdı və birdən-birə dərk elədi ki, bu səs– xırıltıdır və xırıltı Xədicə arvadın otağından gəlir, hətta tələbənin tükləri

ürpəşdi, çünki bir anlıq ona elə gəldi ki, Xədicə arvadı boğurlar və Xədicə arvadı boğan... rəhbərin həmin əlidir...

Sonra tamam ayıldı və yerindən dik atıldı, nəfəsini dərmədən diqqətlə qulaq asdı: xırıltı gah kəsilirdi, gah da şiddətlənirdi və tələbə... qorxdu; öz otağının qapısını itələyib açdı, bir müddət də qulaq asdı, sakitlik içində o xırıltıyla bərabər, öz ürəyinin də döyüntüsünü eşitdi, sonra qaranlıqda Xosrov müəllimin qapısına tərəf baxdı, barmaqlarının ucunda ehtiyatla addımlaya-addımlaya – elə bil, kimisə yuxudan oyatmağa qorxurdu– Xosrov müəllimin qapısının qabağına gəldi.

Qapının döyülməyilə Xosrov müəllimin hövlnak: «– Kimdi?» – soruşmağı bir oldu. Xosrov müəllim işığı yandırdı, qapını açdı və tələbə yalnız Xosrov müəllimi ağ tuman-köynəkdə görəndən sonra, özünün əyninə şalvar geymədiyini, nazik, əyri və tüklü qılçaları çılpaq halda, balaqları uzun göy trusiklə (bu göy trusiki – «işdan»ı hələ kənddə kitabxanaçı işlədiyi vaxtlar almışdı) gəlib kişinin qabağında dayandığını başa düşdü...

Xosrov müəllim irəlidə, tələbə də onun ardınca Xədicə arvadın otağına girdilər, Xosrov müəllim işığı yandırdı və tələbə Murad İldırımlı bu səkkiz ay müddətində birinci dəfə Xədicə arvadı yatağında gördü: yorğanı sinəsinəcən üstünə çəkmiş Xədicə arvad boynunu yana büküb gözlərini qırpmadan qapının aşağısına tərəf baxırdı, hətta tələbəyə elə gəldi ki, Xədicə arvad Balaniyazın göstərdiyi o siçan deşiyinə baxır; arvadın ağzından ağ köpük axıb boğazına, ağ gecə köynəyinin yaxasına, xırda gül naxışlı balıncına tökülmüşdü. O ağ gecə köynəyi, o xırda gül naxışlı balınc üzü o qədər təmiz idi, o yataqda o qədər sadəlik və təmizlik var idi ki, tələbə bircə anın içində bu arvadın xəsisliyini də, acgözlüyünü də, ikiüzlülüyünü də yadından çıxardı, yatağın o təmizliyi o gecəyarısı Xədicə arvadın özünün təmizliyindən xəbər verdi...

Xədicə arvad daha xırıldamırdı, Xosrov müəllim nikeli parıltıdan düşmüş köhnə dəmir çarpayıya yaxınlaşıb diqqətlə ev sahibəsinə baxdı, sonra arvadın göz qapaqlarını bağladı, belə bir məqamda çox sakitcəsinə: «– Gedək geyinək...» – dedi və tələbə, Xosrov müəllimin bu sakitliyində dünyanın hər üzünü görmüş bir təcrübə, daha dünyadan heç nə ummayan bir əlacsızlıq duydu.

Elə ki, ikisi də geyindi, təzədən Xədicə arvadın otağına gəldi (tələbə çalışırdı ki, yazıq Xədicə arvadın ağappaq, donmuş sifətinə baxmasın), Xosrov müəllim yuxarıdan aşağı diqqətlə tələbə Murad İldırımlıya baxıb (bayaq da beləcə bir diqqətlə Xədicə arvada baxmışdı) birdən-birə gülümsədi: «– Qapını döyəndə məni yaman qorxutdun...» – dedi. Xosrov müəllimin o gülümsəməyində Xədicə arvadın ağappaq gecə köynəyini, xırda gül naxışlı balıncını bulamış o köpük kimi ət ürpəşdirən bir şey var idi...

... Molla Əsədulla Quranı büküb səliqə ilə qarşısına qoymuşdu və gözlərini əlində çevirdiyi təsbehə dikib bir söz demirdi; sonra gözlərini təsbehdən çəkib Balaniyaza baxdı və həmin boğuq səsiylə:

– Işlər çoxdu də deyirsən, Balaniyaz ?.. – soruşdu.

Balaniyaz da gözlərini həyətin kənar-bucağından çəkib:

– Əh, bilirsən nə qədərdi, molla əmi?.. – dedi. – Əl-əlbət çoxdur.

– Bir söz eşitmişəm axı, Balaniyaz... Deyirlər ki, o köhnə dəyirman var e, «Xaqani» küçəsində, o dəyirman day işdiyə bilmir, nöşün ki, day gücü çatmır bu boyda şəhərin çörəyini çatdursun. Ancaq deyirlər ki, onu bağlamaq olmaz, söküb

dağıtmaq olmaz, nöşün ki, orda o qədər siçovul, siçan var ki, bağlasalar a, ya söksələr o dəyirmanı, bütün şəhəri basar... Düzdü, alə, bu xəbər?

Molla Əsədulla bu sözləri çox ciddi deyirdi, amma bu sözlərdən sonra Balaniyazdan başqa məhəllə kişilərinin hamısının sifətinə yenə bir təbəssüm qondu və hamı da həmin təbəssümlə Balaniyaza baxdı.

Balaniyaz:

– Ələdi... – dedi. – Əl-əlbət ələdi! Bu siçovul-siçan ki, var, bunnarnan mübarizə aparmaq, vayna eləmək çox ağır bir məsələdi. Orda, o dəyirmanda elə siçovullar var ki, pişiklər qorxurlar onnardan, görəndə qaçıb gizlənirlər.

Molla Əsədulla:

– Pay atonan! Alə, sən özünnən muğayat ol!.. – dedi, yenə gözlərini əlində çevirdiyi təsbehə dikdi və yalnız bundan sonra mollanın da sifətindən yüngül bir təbəssüm keçdi.

Balaniyaz isə eyni ciddiliklə, hətta bir balaca lovğalıqla:

– Mənnən arxeyin olginə! – dedi.

Tələbə Murad İldırımlı Balaniyaza baxırdı; Balaniyaz, əlbəttə, «Əzizimin cəfası» romanını oxumamışdı və heç vaxt da oxumayacaqdı, amma Balaniyaz, əslində, xoşbəxt adam idi, çünki onun o romanı oxumağa ehtiyacı yox idi, yəni ömrünü siçanlarla mübarizəyə həsr etmiş bu adam o romanı oxuya bilməməyinin əzabını çəkmirdi... Balaniyaz Xədicə arvada oxşamırdı, amma o dəqiqələrdə Balaniyazda eynilə anasının yatağındakı o xırda gül naxışlı balıncın, o ağ gecə köynəyinin sadəliyi və təmizliyi var idi və elə bunun özündə də Siçan Balaniyaz tələbə Murad İldırımlıdan artıq bir məxluq idi– hər halda, o aprel günü, o həyətdə, o məhəllə kişilərinin arasında tələbə belə hiss edirdi.

Qəbiristanlığa gedənlər isə belə bir pis xəbərlə geri qayıtdılar ki, Tülkü Gəldi Qəbiristanlığında yer yoxdu və yazıq Xədicə arvadı orada dəfn etmək mümkün olmayacaq.

Molla Əsədulla:

– Mən süzə dedim də!.. – dedi. – Onnardan yer almaq olar?..

Bu xəbər gedib məhəllə arvadlarına da çatdı və Xədicə arvadın evinə toplaşmış arvadlar təzədən kövrəlib ağlamağa başladılar. Kişilərin sifətində bayaqkı o təbəssümdən əsər-əlamət qalmamışdı:

– Alə, belə də iş olar? Ölümüzü basdırmağa yer tapmırıq...

– Neyniyək? Aparıb qoca arvadı çöldə basdıraq?

– Alə, onu təzə qəbiristanlığa aparsaq a, o çölün düzünə, bilirsən ruhu necə qarğış eliyəcək bizə?!

– Alə, belə də xarabaxana olar? Dünyada hansı ölkədə adam yer tapmır ki, dədə-baba qəbiristanlığında ölüsünü basdırsın?

– Alə, belə də hökumət olar?

Bu vaxt çörəkçi Ağabalanın arvadı, yazıq Xədicə arvadın evinin pəncərəsindən həyətə boylandı və belə bir məqamda abır-həyanı yaddan çıxarıb oğluna tərəf qışqırdı:

– Alə, kişi döyülsüz süz? Bu arvada nöş yer tapmırsız orda?

Çörəkçi Ağabalanın əsgərlikdən qayıtmış oğlu bu qədər kişinin içində anasının ö cürə qışqırmağından və bu cürə sözlər deməyindən daha artıq pərt oldu və gözləriylə qəzəb qığılcımı saça-saça:

– Sən öləsən!– dedi. – Gedib soxasan bıçağı oradakilərin ciyərlərinə...
Molla Əsədulla çörəkçi Ağabalanın oğluna baxdı:
– Alə, – dedi. – Sən onnarın ciyərinə bıçaq soxa bilərsən?
– Nöş soxmuram? Lap başlarını da kəsərəm!
Molla Əsədulla sağ əli ilə təsbeh çevirə-çevirə sol əlini havada yellədi:
– Ay-hay... Onnarnan bu boyda Sovet hökuməti bacarmır.
– Nöş bacarmır? Istəsə, bacarar.
– Bəs nöş istəmir, alə? Istəsin də...
Çörəkçi Ağabalanın oğlu hirslə yerindən qalxdı, amma Molla Əsədulla həmişəki təmkininə yaraşmayan bir sərtliklə:
– Otur!.. – dedi və dərhal da səsi mülayimləşdi. – Otur, bala, otur... Sən onnarı tanımırsan... Onnarnan hərbə-zorba danışmaq olmaz, nə Allah tanıyırlar, nə də hökumət. Ya gərək maya qoyasan, ya da gərək adamın olsun... Ya da ki... – Molla Əsədulla gözlərini bir-bir məhəllə kişilərinin sifətində gəzdirib Xosrov müəllimdə saxladı. – Ya da ki, bir az belə savaddı-zaddı danışasan onnarnan...
– Savaddı adam sən!
– Yox e-e-e. Orda mənim ağzıma baxan kimdi? Alə, onnarda müsəlmançılıq-zad qalıb begəm? Yenə, heç olmasa, tanımadıqları adam olsun, rusca-zadcada ki, danışan olsun... Mətbuatdan-zaddan bir az görürsən ki, çəkinirlər...
Molla Əsədullanın bu sözlərindən sonra, məhəllə kişilərinin hamısı başlarını çevirib Xosrov müəllimə baxdı, çünki hamı bilirdi ki, bu uzun, arıq və qaradinməz adam əvvəllər müəllimlik edib, rus dilindən dərs deyib və indinin özündə də həmişə qəzet oxuyur. Təkcə Balaniyaz Xosrov müəllimə baxmırdı, gözləriylə həyətin künc-bucağını axtarırdı. Xosrov müəllim məhəllə kişilərinin baxışları altında özünü, elə bil ki, daha artıq naqolay hiss etdi və o da öz növbəsində tələbəyə baxdı. Molla Əsədulla Xosrov müəllimin bu baxışını tutdu və tələbə Murad İldırımlıya müraciətlə:
– O arvad sənin xətrüvüələ çox istəyirdi ki!.. – dedi, sonra açıq-aşkar bir hirslə Balaniyaza baxdı.
Balaniyaz tələsik Molla Əsədullanın sözlərini təsdiq etdi:
– Bəli!.. Əl-əlbət, belə idi!..
Molla Əsədulla:
– Görürsən? – dedi. – O arvad, Allah ona rəhmət eləsün, sənün xətrüvü bunnan... – Molla Əsədulla əli ilə Siçan Balaniyaza işarə etdi, – bunnan... az istəmirdi...
Siçan Balaniyaz yenə də gözləri ilə həyətin künc-bucağını axtarırdı, eyni zamanda başını tərpədə-tərpədə Molla Əsədullanın da sözlərini təsdiq edirdi:
– Əl-əlbət!.. Əl-əlbət!..
Birdən-birə o yazıq Xədicə arvadın tum kisəsi tələbənin yadına düşdü və tələbə fikirləşdi ki, yəqin bir neçə gündən sonra Balaniyaz o kisədəki tumu aparıb evdə uşaqlarına verəcək və uşaqlar da o tumu ləzzətlə çırtlayacaqlar, heç nənələrini yadlarına da salmayacaqlar. O tum kisəsi də, o balaca taxta kətil də, Xədicə arvadın özü də yalnız bu həyətin, bu qapı-bacanın yadında qalacaq və bir vaxt gələcək ki, buldozerlər bütün bu məhəlləni də söküb-dağıdacaq...
Molla Əsədulla təzədən üzünü çörəkçi Ağabalanın oğluna tutdu:
– Sən otur... – dedi. – Qoy bunnar getsin. Allah kərimdi...

Və həmin aprel günü tələbə Murad İldırımlı ilə Xosrov müəllim Tülkü Gəldi Qəbiristanlığına getdilər ki, yazıq Xədicə arvadı orada dəfn eləməkdən ötrü yer alsınlar.

## 3

## ƏBDÜL QAFARZADƏ

Əbdül Qafarzadənin çarpayısı yataq otağının küçə pəncərəsi ilə üzbəüz idi və o, adəti üzrə sübh tezdən yuxudan duranda ilk növbədə bayırın işığını görürdü, daha doğrusu, bayırın rəngini görürdü və həmin rəng çox zaman bu adamın bütün gününün rənginə çevrilirdi; çarpayıda gözünü açıb bayırın rəngini tutqun görürdü və elə olurdu ki, həmin gününü başdan-başa qayğıların içində keçirirdi, mənfi emosiyalar bir-birini əvəz edirdi, bircə dənə də olsun, ürəkaçan şey olmurdu ki, ürəyi açılsın, üzü gülsün. Bunu bəlkə də özünə təlqin etmişdi, bilmirdi, amma, hər halda, bu belə idi, hətta qış zamanı sübh tezdən hələ hava qaranlıq olanda da onun üçün o qaranlığın tutqunu – ürək sıxanı və aydını – ürək açanı var idi.

Uşaq bu dünyadan köçəndən sonra düz altı il idi ki, Qaratel nəinki əriylə bir çarpayıda, hətta Əbdül Qafarzadə ilə bir otaqda da yatmırdı və bütün bu altı ildə gecələr Qaratel nə çəkirdi, bunu bir Allah bilirdi, bir də ki, Əbdül Qafarzadə görürdü, hiss edirdi və belə vaxtlar Əbdül Qafarzadə özü öz köməksizliyindən, dünyanın beləcə əlacsız işlərindən o qədər sarsılıb, bədbinləşirdi ki, doğrusu, heç yaşamaq istəmirdi, bütün həyatı, bütün əzab-əziyyəti ona yaşayışın özü kimi mənasız görünürdü.

Əbdül Qafarzadə hər gecə yerinə girib yuxuya getməzdən əvvəl, içindən bir filosof baş qaldırırdı, dünyaya baxırdı, dünyanın bütün mənasızlığını görürdü, «– Yat, – deyirdi. – Başını yorma. Sənin kimi milyard-milyard insanlar gəlib bu dünyaya, milyard-milyard da insanlar köçüb. Sən nə birinci, nə də sonuncusan... Yat!», amma yata bilmirdi və çox zaman həmin gecə filosofu açırdı sandığı, tökürdü pambığı; bəzən Əbdül Qafarzadəyə elə gəlirdi ki, hamamdadı və o filosof da onu soyundurur, bir-birinin üstündən geydiyi paltarları bir-birinin üstündən də onun əynindən çıxarır, tamam soyundurub çılpaq eləyir. O gecə filosofu əməllərə qiymət verirdi, sözlərə, hərəkətlərə qiymət verirdi, sonra yavaş-yavaş mürgü içində əriyib yox olurdu; sonra da pəncərədən görünən rəngdə bir səhər açılırdı, gün başlayırdı və həmin filosof unudulurdu, yaddan çıxırdı, bir də gecə yatmaq üçün yerinə girəndə qayıdıb gəlirdi, səhər ilə gecə arasındakı ömür isə həmişəki minvalı ilə davam edirdi.

Həmin aprel günü sübh tezdən gözlərini açanda Əbdül Qafarzadə qışdan sonra ilk dəfə günəşin istisini hiss etdi və pəncərənin şüşəsindən süzülüb gələn və lap güclə duyulan o günəş istisi bütün içinə incə, xəfif bir hərarət gətirdi; o hərarətin həmin incəliyində, xəfifliyində elə bil ki, bir uşaq təbəssümü var idi və Əbdül Qafarzadəyə elə gəldi ki, elə bil, bütün içini, bütün bədən üzvlərini tərtəmiz yuyublar, tamam təmizlik, paklıq və sağlamlıq içindədi, elə təmizdi ki, şüşə kimi bu tərəfdən baxsan, o biri tərəf görünəcək, qollarını geniş açıb, sinəsini qabartdı, ciyər dolusu nəfəs aldı, elə bil, dünyada heç bir dərd-sər yox idi, qayğı yox idi, sonra gözlərini qıyıb yenə də bayırın o təmiz, o ılıq işığına baxmaq istədi, amma bu dəfə

birdən-birə idarədəki kabineti yadına düşdü və o kabinetin pəncərələrindən görünən qəbir daşları gözünün qabağına gəldi və tanış bir sarsıntı ilə Əbdül Qafarzadənin bütün varlığı üşüdü; o xəfif hərarət çirkab içində boğulub yox oldu.

Əbdül Qafarzadə özü də bilirdi ki, dünyanın ən qəmli, kədərli yerində işləyir; neçə illər idi ki, Qəbiristanlıq Idarəsinin müdiri idi. Həmin qəbiristanlığa camaat arasında Tülkü Gəldi Qəbiristanlığı deyirdilər və Əbdül Qafarzadə həmişə fikirləşirdi ki, camaat bu qəbiristanlığa niyə belə bir ad qoyub? Qəbiristanlıq Sulu dərə deyilən yerin yuxarısındakı dikdirdə idi. Deyirdilər ki, guya, qədim qəbiristanlıqdır, amma Əbdül Qafarzadə burada bir dənə də olsun qədim qəbir daşı tapmamışdı. Ən qədim qəbir 1913-cü ildə rəhmətə getmiş Məşədi Mirzə Mir Abdulla Məşədi Mir Məmmədhüseyn oğlunun qəbri idi, Allah o kişiyə rəhmət eləsin, deyəsən, bu Tülkü Gəldi Qəbiristanlığında dəfn edilmiş ilk şəxs də elə o rəhmətlik imiş. Əlbəttə, bəlkə ondan da əvvəl dəfn olunmuş şəxslər olub, qəbirləri itib-batıb, çünki, əslində, müsəlman dininə görə, qəbir gərək itib yox olsun, torpağa qarışsın. Indiki kimi deyil ki, kimin pulu var, ölüsünün qəbrinin üstünü təmtəraqla götürdür, heykəl də qoydurur. Amma heykələ layiq adam olub? Baxıb görəcəksən ki, yox... Qədimdə piranə bir adam olurdu, alim olurdu, şair olurdu, dünyanı bilib-tanımış bir nurlu insan olurdu, Şeyx Nizami kimi, camaat məqbərə tikirdi, pirə çevirirdi o alicənab şəxsin qəbrini. Amma indi o adamın qəbri başdan-başa mərmər içindədi ki, raykom katibi olub, dükan müdiri olub, ya qəssab olub, hər kim olubsa, pullu olub; bəxtləri də onda gətirib ki, haqq dünyasına köçəndən sonra pullarına yiyə duranların qeyrəti çatıb, heç olmasa, o rəhmətliklərə bir abidə qoyublar. Əbdül Qafarzadə nə raykom katibinin, nə dükan müdirinin, nə də qəssabın əleyhinə idi, bu nahaq dünyada hərə özünə bir gün qazanmalı idi, raykom katibi də, dükan müdiri də, qəssab da insan idi və uşaqlarını dolandırmalı idi, amma Əbdül Qafarzadə bunu daxilən qəbul edə bilmirdi ki, bütün həyatında misal üçün, bir dənə də kitab oxumayan bir qəssab, qəbrinin üstündəki heykəldə əlində kitab xəyala dalıb.

Görəsən, haçansa Əbdül Qafarzadənin də qəbrinin üstündə bir şey olacaqdı? Uşaq qalsaydı, əlbəttə, olardı. Ya da ki, Qaratel əvvəlki Qaratel olaydı, onda hə. Ömər qəbir daşı düzəltdirəndi? Yenə Sevil sağ olsun...

Əbdül Qafarzadə həmişə çalışırdı ki, bu fikri başından tez çıxarsın; bu fikir, əlbəttə, adamı əsəbiləşdirirdi, hətta bəzən sarsıdırdı, amma, əslində, nə mənası var idi? O rəhmətlik Məşədi Mirzə Mir Abdulla Məşədi Mir Məmmədhüseyn oğlu ki, 1913-cü ildə dünyanı tərk etmişdi və indi onun üçün nə fərqi var ki, qəbrinin üstündə yazılı daş qalıb? O rəhmətliyin indi sümükləri də çürüyüb... Düzdür, bu fikirdə təzə bir şey yoxdu, məlum məsələdir, amma həqiqət nədir? Bir şey ki, məlum məsələdir, deməli, həqiqətdir də.

Əbdül Qafarzadənin beyni iti işləyirdi və hərgah insanlar iki yerə ayrılırdılarsa – ürəklə yaşayan adamlar və beyinlə yaşayan adamlar – Əbdül Qafarzadə daha artıq dərəcədə beyinlə yaşayan bir adam idi və belə bədbin məqamlarda da beyin sövq-təbii onun köməyinə çatırdı.

O rəhmətlik Məşədi Mirzə Mir Abdulla Məşədi Mir Məmmədhüseyn oğlunun sümükləri çürüsə də, çürüməsə də, bütün bunların mənası olsa da, olmasa da, hər halda, qəbiristanlıqların tarixi layiqincə öyrənilməlidir. Əbdül Qafarzadə bu barədə yuxarı təşkilatlara, hətta Elmlər Akademiyasına da məktub yazmışdı. Düzdü, ayrı-ayrı tarixi qəbir daşları, xüsusən, məqbərələr təmir olunurdu. Mədəniyyət

Nazirliyi bəzi qəbiristanlıqlarda bərpa işləri aparırdı, amma qəbiristanlıqların tarixi bir kompleks şəklində öyrənilmirdi. Arxeoloqlar qədim qəbiristanlıqlar aşkar eləyirdilər, qazıntı işləri aparırdılar, amma Əbdül Qafarzadə indi də istifadə olunan şəhər qəbiristanlıqlarını nəzərdə tuturdu, bu qəbiristanlıqların tarixi öyrənilməli idi. Qəribə idi, o kilsələr ki, indi orqan musiqisi üçün uyğunlaşdırılmışdı, yaxud o məscidlər ki, misal üçün ayaqqabı fabrikinə çevrilmişdi, camaat üçün daha əziz olurdu (camaat küçədən keçəndə baxırdı, başını bulayırdı, hiddətlənirdi, atalarının, babalarının xatirələrini danışırdı, ədalətsizlikdən, hörmətsizlikdən deyirdi...), nəinki işləyən, fəaliyyət göstərən kilsə, ya məscid. Qəbiristanlıq da o cür.

Yaxşı ki, indi yazı-pozu işləri aparılır, dəfn olunanların kağız-kuğuzu arxivlərə göndərilir, amma arxivlər də bir gündədi ki, gəl görəsən və Əbdül Qafarzadə (yerindən qalxıb əl-üzünü yumuşdu) həmin yaz səhəri qonaq otağındakı divanda uzanmış Qaratelin ayaqlarını ovuşdura-ovuşdura bu barədə fikirləşirdi.

Qaratel:

– Lazım deyil, Əbdül, get, işə gecikirsən, – deyirdi. – Əbdül Qafarzadə isə Qaratelin sözlərinə fikir vermirdi, evin içində geydiyi kişi corablarının (Əbdülün corablarının) üstündən arvadının ayaqlarını ovuşdururdu.

Bu gün Rayon Icraiyyə Komitəsinin sədri Fərid Kazımlı Kommunal Təsərrüfatı Idarəsi işçilərinin yarımillik planların yerinə yetirilməsinin vəziyyətinə həsr olunmuş müşavirəsini çağırmışdı. Müşavirə səhər saat 10-da başlayacaqdı. Rayon Partiya Komitəsinin birinci katibi M.P. Qəribli də müşavirənin işində iştirak edəcəkdi (bunu dünən Fərid Kazımlı özü zəng eləyib Əbdül Qafarzadəyə xəbər vermişdi) və Əbdül Qafarzadə istəyirdi ki, əvvəlcə işə gedib baş çəksin, sonra müşavirəyə getsin; amma sübh tezdən ki, gözünü açıb o gözəl aprel günəşinin hərarətini hiss etdi, sonra isə birdən-birə qəbir daşları gəlib durdu gözlərinin qabağında, bundan sonra qanıqaralıq lap elə səhərdən başladı.

Qaratel özünü pis hiss edəndə bunu ərindən gizlətmək istəyirdi, amma Əbdül Qafarzadənin gözündən heç nə yayınmırdı və o dərhal başa düşürdü ki, arvadın halı yenə də xarabdı. Bu səhər də o qəbiristanlıq görümündən sonra, elə bil, əvvəlcədən nəsə hiss etdi, mətbəxə keçib həmişəki kimi çayniki qazın üstünə qoymazdan əvvəl, gedib Qaratelə baş çəkdi.

Qaratel geyinib qonaq otağındakı divanda uzanmışdı, rəngi yenə də ağappaq ağarmışdı, bədəni buz kimi soyumuşdu, üşüm-üşüm üşüyürdü və Əbdül Qafarzadə yenə də hər şeyi (hətta müşavirəni də) yaddan çıxarıb arvadını ovuşdurdu, çay dəmləyib içirtdi, Qaratelin etirazlarına baxmayaraq, Sevilə zəng eləyib çağırdı və indi də kişi corablarının üstündən arvadının ayaqlarını ovxalaya-ovxalaya Sevili gözləyirdi ki, sonra evdən çıxsın.

Sevil Əbdül və Qaratel Qafarzadələrin kiçik qızı idi, daha doğrusu, yeganə övladı idi, yəni indi yeganə övladı idi, çünki böyük uşaqları oğlan idi, Sevildən iki yaş böyük idi. Orduxan altı il bundan əvvəl üççə günün içində heyif olub getmişdi...

Bir həftə bundan əvvəl Sevilin iyirmi səkkiz yaşı tamam oldu və Əbdül Qafarzadə bu münasibətlə qızına «Qaz-24» avtomobili bağışladı. Bundan əvvəl onlara «Jiquli» almışdı, amma Ömər şəhərdə maşın sürəndə özünü itirirdi, o, «Jiquli»ni də üç-dörd dəfə vurmuşdu. Ömər pianoçu idi və Əbdül Qafarzadə həmin aprel səhəri Qaratelin ayaqlarını ovuşdura-ovuşdura Ömərin nazik, uzun barmaqlarını gözlərinin qabağına gətirdi, gülümsədi, çünki onun xoşuna gəlirdi ki,

qızının ərinin beləcə zərif və yaraşıqlı barmaqları var. Indi «Jiquli» olmuşdu Ömərin şəxsən özünün maşını, «Qaz 24»ü isə Sevil sürürdü, çünki Sevil Ömərdən daha diqqətli, daha cəld idi, soyuqqanlı idi.

Sevil gecikirdi. Əbdül Qafarzadə Sevilgilə Bakının, demək olar ki, mərkəzində, geniş eyvanları dənizə baxan beşotaqlı kooperativ mənzil tikdirmişdi, daha doğrusu, əvvəlcə üçotaqlı mənzil tikdirmişdi, sonra onların qonşuluğundakı ikiotaqlı mənzildə yaşayan ailəni üçotaqlı bir mənzilə köçürtdü və Sevilgilin mənzili oldu beşotaqlı, ikimətbəxli, iki hamamlı və iki də tualetli. Ömərin babasili var idi və indi kefi nə qədər istəyirdi, oturardu tualetdə. Düzdür, Ömər belə şeylərin bir o qədər də qədrini bilən deyildi, yəni bu mənada ki, səhərdən-axşama kimi bütün fikri-zikri pianonun yanında idi və Əbdül Qafarzadə bəzən sidq-ürəkdən məəttəl qalırdı ki, insan nə qədər məşq eləyər, adamda nə qədər həvəs olar, səbr olar... Ömərin atası Mürşüd Gülcahani səfehin biri idi (özünü yazıçı hesab edirdi, amma it dəftərində adı yox idi...), bu isə elə hey çalışırdı, yorulmaq bilmirdi. Yaxşı ki, Sevil də musiqişünas idi, yoxsa bu qədər çalmağa dözmək mümkün olmazdı. Indi Sevilgilin səhərdən axşamacan piano səsi eşidən qonşularının işi lap çətinə düşmüşdü, çünki Sevilgilin səkkiz yaşlı oğlanları – Əbdül az qalmışdı Öməri də ötüb keçsin, nə oyuncaq bilirdi, nə televizor, videomaqnitafon bilirdi, məktəbdən (Bülbül adına xüsusi musiqi məktəbində oxuyurdu) qayıdan kimi portfeli bir tərəfə tullayıb keçirdi royalın arxasına, yeməsin, içməsin, elə hey çalsın və buna görə də Əbdül Qafarzadə nəvəsi üçün ayrıca bir royal almışdı; bu balaca musiqiçini o royalın arxasından ayırsaydı, təkcə babasının (yəni Əbdül babasının) gəlişi ayırardı – qapının zəngi vurulub arakəsmədən babasının səsi gələn kimi, nə çalmağından asılı olmayaraq, durub qaçırdı kişinin üstünə və Əbdül Qafarzadə onlardan çıxıb gedənəcən uşaq onun yanında otururdu.

Ömər mənzilin bir başında öz royalında çalırdı, balaca Əbdül də bu biri başında öz royalında. Yaxşı ki, Sevil özü çalan deyildi, yazan idi, hərçənd bu iki royalın arasında yazmaq da asan iş deyildi, amma Sevil zirək qız idi, ağıllı idi, namizədlik dissertasiyasını yazmışdı, müdafiə də etmişdi, doktorluq dissertasiyasını da bitirməyinə lap az qalmışdı. Düzdü, Əbdül Qafarzadə bu işdə qızına kömək eləyirdi, amma, onsuz da, indi təkcə öz qələmiylə dissertasiya yazan kimdi? Ömər də bəyəm öz gücünə konservatoriyada professor olmuşdu? Yalnız səfeh Mürşüd Gülcahani bu cürə fikirləşə bilər, hərçənd özü kitab nəşr etdirmək istəyəndə dovşan kimi qaçıb gəlirdi qudasının – Əbdül Qafarzadənin yanına...

Sevil konservatoriyada dosent işləyirdi, Ömərin isə professor kimi konservatoriyada xüsusi sinfi var idi, balaca Əbdül də ikinci sinifdə oxuyurdu, amma indiyə kimi Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında dörd konsert vermişdi: simfonik orkestrlə birlikdə Motsartın reminor və Qaydnın remojor konsertlərini çalmışdı. Səkkiz yaşında uşaq...

Sevil oğluna atasının adını qoymuşdu. Əbdül Qafarzadə nə qədər eləmişdi, olmamışdı, «– Köhnə addı, çoxdan dəbdən düşüb. Gəl uşağa yaxşı, təzə bir ad qoyaq». – demişdi, amma Sevil dediyindən dönməmişdi, «Ya xoçu, çtobı on bıl kak papa, bıl paxoj na papu...» – demişdi, o yazıq, o nakam Orduxan da: «– Pust kak xoçet, tak i delayet. V konçe konçov ona mat...» – demişdi və uşağın da adını qoymuşdular Əbdül (təkcə elə «Əbdül» olsaydı, yenə dərd yarı idi, əslində,

«Əbdüləli» idi, çünki Əbdül Qafarzadənin adı pasportda «Əbdüləli» idi, «Əbdüləli Qafarzadə» və Sevil də tərslik eləyib uşağın adını elə beləcə qoymuşdu).

Bu uşaq qəribə uşaq idi; təkcə o mənada yox ki, bu balaca məxluqda anadangəlmə böyük musiqi istedadı var idi (bu, həqiqətən, belə idi, Əbdül Qafarzadənin tanışlarının-filanın köməyi ilə yaradılmış istedad deyildi) və bu, Əbdül Qafarzadənin daxilini bir fəxarət hissi ilə, işıqlı bir təbəssümlə doldururdu, bəzən kişini lap kövrəldirdi də, çünki həmişə heç nədən bir şey düzəldən bu adam indi öz zəhmətinin müqabilində həmişəki kimi boşluq yox, nəsə ələ gələn, çəkisi olan bir şey görürdü (yaratdığı şəraitin, çəkdiyi xərcin müqabilində nəvəsinin istedadı dayanırdı); nəvəsi hələ lap balaca ikən Əbdül Qafarzadə onlara gedəndə uşaq atılırdı babasının qucağına, kişini bərk-bərk qucaqlayırdı və belə anlarda Əbdül Qafarzadə bütün cismi ilə hiss edirdi ki, yorğunluğu bədənindən çıxır, ona elə gəlirdi ki, uşaq babasını həddən artıq çox istədiyi üçün, Əbdül Qafarzadənin yorğunluğunu, ürəyinin ağrısını, bütün dərdini-sərini öz zərif, köməksiz canına çəkir və doğrusu, kişini dəhşət basırdı, qorxurdu ki, uşaq xəstələnər; qəribə uşaq idi... Buna görə də Əbdül Qafarzadə çalışırdı ki, nəvəsini qucağına az götürsün, qızıgilə az getsin, amma az gedəndə də darıxırdı, ürəyi qüssə ilə dolurdu, özü özünü məzəmmət eləməyə başlayırdı. Bütün bunlar hamısı əsəblərin gərginliyindən idi. Orduxandan sonra Əbdül Qafarzadənin əsəbləri xarab olmuşdu (əslinə baxsan sıradan çıxan təkcə Qaratel yazıq deyildi...), başqaları bəlkə də bunu görmürdü, hiss etmirdi («Dəmir kimi kişidir» – deyirdilər), amma özü bilirdi... Özü bildiyini bilirdi... Allah Orduxana rəhmət eləsin, onun ölümü bir ürək dolusu dərd idi, əlacsızlıq idi və keçib getmək bilmirdi...

Əbdül Qafarzadə arvadının ayaqlarını ovxalaya-ovxalaya:

– Bərk eləmirəm? – soruşdu. – Incitmirəm?

Qaratel ərinə baxdı və dərdli-dərdli gülümsədi:

– Yox...

Əbdül Qafarzadə arvadının bu cür baxışına dözə bilmirdi, ürəyi, elə bil, çəkisizlik içinə düşürdü, xatirələr kişini əlinə alıb uzaqlara aparırdı, o vaxtlara ki, balaca uşaq idi və rəhmətlik anası da ona beləcə baxırdı; Qaratelin baxışındakı o məhrəmliyi, o doğmalığı Əbdül Qafarzadə bu dünyada ancaq uşaq vaxtı anasının gözlərində görmüşdü.

Qaratel:

– Sən işdən avara olma, get, – dedi. – Nigaran qalma mənnən...

Əbdül Qafarzadə həmişəki ciddiliyi ilə:

– Bəsdi!..– dedi və Qaratelin ayaq barmaqlarının ucunu ovmağa başladı.– Bəlkə corabı çıxarım ayağından, əlimin istisi keçsin bədəninə?

Qaratel eləcə yorğun-yorğun, dərdli-dərdli gülümsədi:

– Yox, lazım deyil... Yaxşıyam day... Vallah yaxşıyam. Sevili də nahaq çağırdın. Uşaq işin-gücün buraxıb indi başıalovlu gələcək...

– Heç nə olmaz.

Əlbəttə, Əbdül Qafarzadə Qarateli Moskvaya apara bilərdi. SSRI-nin ən yaxşı həkimlərinə göstərə bilərdi, amma onda gərək Qaratelin əlini-qolunu bağlayıb aparaydı, çünki Qaratel həkimə getməyə, müalicə olunmağa heç cürə razılıq vermirdi, heç həkim Bronşteyni də yaxına buraxmırdı, Qaratel həkimdən qorxmurdu, yox, Orduxandan sonra Qarateldə heç bir həvəs, heç bir maraq

qalmamışdı, birdən-birə göz-görəti qocalıb əldən düşmüş bu qadın üçün həyatın, yaşamağın daha heç bir mənası yox idi.

Bu yaxınlarda Əbdül Qafarzadənin özü həkimə (bu səfeh Mürşüd Gülcahaninin bir professor yerlisi var, Mürsəlbəyli, onun yanına) getmişdi və bundan sonra da özünə söz vermişdi ki, bir də heç vaxt həkimə getməyəcək. Həkimin ki, əlinə düşdün, vəssalam...

Axır vaxtlar hərdənbir ürəyi təngnəfəs olurdu, öskürürdü və təxminən on gün bundan əvvəl evlərinin yaxınlığındakı poliklinikada işləyən və uzun illərdən bəri Qafarzadələr ailəsinə tibbi xidmət göstərən həkim Bronşteynin yanına getdi. Bronşteyn vaxtilə Vilnüsdə tibbi təhsil almış, başı çox qəzavü-qədər çəkmiş, müharibədən sonra Bakıda məskən salmış yəhudi bir həkim idi. Yaşı yetmişi keçməyinə baxmayaraq, bu adam başına və nazik bığına qapqara rəng qoyurdu və həmişə həkim Bronşteyni görəndə Əbdül Qafarzadəni gülmək tuturdu (bəzən tük uzandığı üçün Bronşteynin saçının və bığının dibi ağappaq olurdu və belə bir çallıq, doğrusu, o şəvə kimi qapqara cavanlıq rəngini çox pis vəziyyətdə qoyurdu).

Həkim Bronşteyn Əbdül Qafarzadəni diqqətlə müayinə etdi, sonra qoluna girib məcburən rentgen kabinəsinə apardı, rentgen həkimi ilə birlikdə ona baxdı, sonra da Əbdül Qafarzadəyə məsləhət bildi ki, özünü yaxşı bir mütəxəssisə göstərsin. Əbdül Qafarzadə adamları gözlərindən oxumağı bacarırdı və bu dəfə də həkim Bronşteynin gözlərində bir ürkəklik, hətta bir təlaş gördü, sövq-təbii: «Işə düşdük də...» – fikirləşdi və ürəyindən çox xoşagəlməz bir nigarançılıq keçdi. Poliklinikadan çıxanda həkim Bronşteynin cibinə bir dənə əllilik qoydu, amma həkim Bronşteyn pulu geri qaytardı, elə qəti etiraz edib götürmədi ki, bu, Əbdül Qafarzadənin içinə dolmuş o nigarançılığı daha da artırdı.

Səhəri gün Mürşüd Gülcahaniylə birlikdə professor Mürsəlbəylinin qəbuluna getdi. Professor Mürsəlbəyli Mürşüd Gülcahani ilə bir kənddən idi, məktəbi bir yerdə bitirmişdilər və vaxtıyla Sevilin elçiliyinə də Bakının hörmətli adamlarından biri kimi, o gəlmişdi. Əbdül Qafarzadə professorun yanına Mürşüd Gülcahani ilə birlikdə ona görə getməmişdi ki, qudası ilə Mürsəlbəyli yerliydi, yaxınıydı, yox, Əbdül Qafarzadənin bu cür yaxınlığa, vasitəçi tapmağa ehtiyacı yox idi; ona görə ki, içindəki həmin nigarançılıq, işi o yerə gətirib çıxarmışdı ki, Əbdül Qafarzadə kimi bir adam belə, professorun yanına tək getməyə, qoyacağı diaqnozu tək eşitməyə ürək eləməmişdi. Mürsəlbəyli Əbdül Qafarzadəni gülə-gülə qarşıladı, yapon aparatlarında, az qala, bir saat müayinə etdi və gülə-gülə də yola saldı. Əbdül Qafarzadə:

– Axı, məndə nə var, professor? – soruşdu.

Professor Mürsəlbəyli gödək barmaqlı, yoğun dırnaqlı, tüklü əlini tərtəmiz qırxılmış dolu və çopur sifətinə çəkdi, özündən razı halda:

– Sənin kimi kişidə nə ola bilər? – dedi və bərkdən güldü.

Əbdül Qafarzadə ürəyini bürümüş o nigarançılıqdan sonra, axırı ki, yavaş-yavaş rahat nəfəs almağa başladı:

– Bir dərman-zad lazım deyil? Heç nə atmayım?

– Heç bir dərman lazım deyil.

– Bəs yeməyim, içməyim necə?

– Ürəyin nə istəyir ye, ürəyin də nə istəyir iç.

Mürşüd Gülcahani gizlətməyə çalışdığı bir həsədlə Əbdül Qafarzadəyə baxdı və Əbdül Qafarzadə qudasının gözlərindəki o gizli həsədi o saat gördü, dünən həkim Bronşteynin yanına getdiyi vaxtdan bəri birinci dəfə gülümsədi: otuz il idi ki, Mürşüd Gülcahaninin mədəsində yara var idi və otuz il idi ki, bu bədbəxt oğlu bədbəxt, adam kimi yeyib-içmək üzünə həsrət idi.

Gödəkboylu professor Mürsəlbəyli təkcə pencəyini yox, köynəyini də çıxarıb əyninə ağappaq nişastalı xalat geymişdi və xalatın yaxasından tüklü sinəsi görünürdü. Əbdül Qafarzadə həmin ağappaq nişastalı xalatın döş cibinə üç dənə şax-şax yüzlük basdı, professor Mürsəlbəyli:

– Bay... Bu nəyə lazımdı? – dedi və bu sözləri elə ifadə ilə dedi ki, əslində, təşəkkür edirdi.

Əbdül Qafarzadə:

– Sənin üçün halaldı, professor, – dedi və birdən-birə həkim Bronşteynin şəvə kimi qapqara rəng qoyulmuş, bəzən də dibinin ağı görünən saçını, bığını gözünün qabağına gətirib yenə də gülümsədi: yazıq həkim Bronşteyn...

Axşam Əbdül Qafarzadə professor Mürsəlbəylinin evinə böyük bir ağ balıq da göndərdi və alverçilərin Xəzərdən gizlin tutub gətirdikləri o böyük ağ balıq professor Mürsəlbəylinin evinə gedəndə, elə bil ki, Əbdül Qafarzadənin ürəyindəki o nigarançılığı də birdəfəlik özü ilə götürüb apardı...

Qaratel divanın aşağısında yanpörtü oturub onun ayaqlarını ovxalayan ərinə baxdı:

– Əbdül...

– Nədi?

– Istəyirəm o mücrümü elə indidən verim Sevilə...Nəyimə lazımdı e, mənim? Bir ayağım burdadı, bir ayağım orda, balamın yanında. Az qalıb day balamın yanına köçməyimə, gedib o qara torpaqda onun yanında olmağıma... Lap az qalıb e, Əbdül...

– Ağzını xeyirliyə aç... – Əbdül Qafarzadə bunu dedi, amma üzünü tələsik yana çevirdi, çünki düzdü, Əbdül Qafarzadə beyinlə yaşayan adamlardandı, amma ürək də ürəkdi və bu dəm birdən-birə Əbdül Qafarzadənin gözləri əməlli-başlı doldu.

– Əbdül...

– Nədi?

– Nə deyirsən?

– Nəyə nə deyirəm? – O kövrəklik keçib getdi və Əbdül Qafarzadə yenə də arvadına baxdı.

– Mücrünü bağışlayım Sevilə...

– Qoy qalsın evdə.

Otuz iki ilə yaxın idi ki, Qaratel ilə Əbdül Qafarzadə bir yerdə yaşayırdılar və bu otuz iki ildə Qaratel ərinin səsinin də bütün çalarlarını öyrənmişdi və bu dəfə də başa düşdü ki, o üç söz «Qoy qalsın evdə», əslində, söz deyil, dəmir kimi bir şeydir, deyildi, qurtardı.

Əbdül Qafarzadə evdə, açıq-aşkarda var-dövlət saxlamağın əleyhinə idi, ona görə yox ki, qorxurdu birdən işi çətinə düşər, gəlib yoxlayarlar, görərlər; yox, Əbdül Qafarzadədə bu qorxu hissi demək olar ki, yox idi (əvvəllər var idi, amma illər bir-birini əvəz etdikcə, Qəbiristanlıq Idarəsində Qırmızı Bayraqlar, Fəxri Fərmanlar,

Təşəkkürnamələr artdıqca o qorxu hissi də yox olub gedirdi); ona görə ki, buna ehtiyac yox idi. Təkcə Qaratelin o mücrüsü evdə idi, bir az da nağd pul var idi. O mücrüyə Əbdül Qafarzadənin uzun illərdən bəri Qaratelə aldığı üzüklər, sırğalar, boyunbağılar, bilərziklər yığılmışdı və haçansa, uzaqbaşı, demək olardı ki, bütün bu ləl-cəvahir Qaratelə atası Axund Məhəmmədəli Ağadan qalıb. Axund Məhəmmədəli Ağa vaxtilə bütün Bakıda məşhur seyid, mükəmməl təhsil görmüş ruhani bir adam idi və elə bir şəxsdən bu cürə ləl-cəvahiratın miras qalmasında təəccüblü bir şey yox idi, hərçənd, Allah o kişiyə rəhmət eləsin, özündən sonra təkcə qədim əlyazmaları, bir də ki, müxtəlif xətlərlə yazılmış əlyazmalarında yeddi Quran qalmışdı. Əbdül Qafarzadə özündə yalnız bir nüsxə Quran saxladı, qalan altı Quranı da, başqa qədim əlyazmalarını da Respublika Əlyazmaları Fonduna bağışladı. Əbdül Qafarzadə o vaxt– iyirmi il əvvəl bunu həm o rəhmətliyin xətrinə elədi, çünki çox təmiz, alicənab, elmli bir adam idi, həm də Qaratelin və uşaqların xətrinə elədi: qoy, heç olmasa, hansı bir jurnaldasa, hansı bir tədqiqatdasa uşaqların babasının, ulu babasının adı çəkilsin, filan əlyazması Axund Məhəmmədəli Ağadan qalıb, yazsınlar.

O mücrüdəki ləl-cəvahirat isə, doğrudan da, antikvar idi, bircə dənə də olsun müasir zinət yox idi. Əbdül Qafarzadə onların hamısını ayrı-ayrı zərgərlərdən, alverçilərdən, dəllallardan almışdı və ümumiyyətlə, Əbdül Qafarzadə öz təbiəti etibarilə müasir adam deyildi, təyyarə ilə, video ilə, maqnitafonla arası yox idi, hətta elektrik çaynikindən də zəhləsi gedirdi; cavanların ədası, geyimi, musiqisi, xüsusən, qızların şalvar geyib siqaret çəkməsi bu adamı tamam əsəbiləşdirib özündən çıxarırdı...

Sevil gəlib çıxanda daha saat 10-a işləyirdi və Əbdül Qafarzadə evdən çıxıb avtobus dayanacağına gəldi ki, avtobusa minib elə birbaşa Rayon Icraiyyə Komitəsinə getsin. Onun öz şəxsi maşını yox idi və Bakıda heç vaxt taksiyə minmirdi, çünki Əbdül Qafarzadə bu fikirdə idi ki, 135 manat aylıq maaş alan ailə başçısının camaatın gözü qabağında taksiyə minməyinə heç bir ehtiyac yoxdur. Sevilgil ayrı məsələ. Onlar sənətkar idilər. Bundan başqa, Ömərin atası Mürşüd Gülcahani hər nə idi, adı yazıçı idi, kolxoz həyatından romanlar yazırdı; düzdü, özü əfəlin biri idi, amma Əbdül Qafarzadə hər il Mürşüd Gülcahaninin bir kitabını nəşr elətdirirdi (hər halda, quda idi!). Sevilə bağışladığı «Qaz-24»ü də Mürşüd Gülcahaninin adına almışdı. Sovet hökumətində yazıçıya kim nə deyəcəkdi?

Əbdül Qafarzadə təmiz, səliqəli geyinməyi xoşlayırdı,buna görə də eyni rəngli, eyni biçimli bir kostyumdan dördünü-beşini birdən alırdı ki, dəyişik geysin, amma hamı elə bilirdi ki, kişinin cəmi bircə kostyumu var, hər gün də o bircə kostyumda gəzir, hətta bəziləri buna fikir verib təəccüb də edirdilər ki, Əbdül Qafarzadənin kostyumu heç köhnəlmir, bir il hər gün əynində olur, amma təptəzə qalır.

Əbdül Qafarzadə avtobus gözləyə-gözləyə o gözəl yaz günəşinin hərarətini təzədən hiss etməyə başladı və hətta birdən-birə Rozanı xatırladı, Rozanın balıq kimi sürüşkən bədənini, ağappaq dolu baldırlarını, döşlərini gözünün qabağına gətirdi, amma bu vaxt avtobus gəldi və o avtobus Əbdül Qafarzadəni yenə də həyatın, necə deyərlər, cariliyinə qaytardı.

Əhaliyə xidmət edən hər bir müəssisə kimi, Tülkü Gəldi Qəbiristanlığındakı Qəbiristanlıq Idarəsinin də illik planı var idi və illər bir-birini əvəz etdikcə bu plan

da artırdı. Misal üçün – Əbdül Qafarzadə bütün bu rəqəmlərin hamısını əzbər bilirdi və ümumiyyətlə, haqq-hesab işlərində Əbdül Qafarzadənin beyni kompüter kimi işləyirdi: öz şəxsi gəliri ayrıca, dövlət gəliri ayrıca – 1980-cı ildə illik plan 430 min manat idi, 1981-ci ildə 28 min də üstünə gəldi, plan oldu 458 min manat, 1982-ci il üçün illik plan birdən-birə 140 min artırıldı və oldu düz 598 min manat, uzun sözün qısası, 1984-cü il üçün illik plan qalxmışdı 770 min manata.

Tülkü Gəldi Qəbiristanlığı bir o qədər də böyük qəbiristanlıq deyildi və bu qədər planı vermək, əlbəttə, ağır idi. Qəbirin birinin qazılması 4 manat 42 qəpik idi, yer almaq üçün vəsiqə 44 qəpik, qəbirin üstündə yazı lövhəsi 1 manat 87 qəpik idi, tabutla dəfn eləmək 41 manat 50 qəpik, bəzədilmiş tabutla 46 manat 92 qəpik idi. Istifadəyə verilən maşının (katafalkın) saatı 3 manat 15 qəpiyə, mafə 27 manat 42 qəpiyə, orkestr isə 54 manat 78 qəpiyə idi. Adət-ənənəyə görə tabutdan, demək olar ki, istifadə edilmirdi, camaat ölüsünü mafə ilə aparıb dəfn elətdirirdi, orkestri də, əslində, heç kim dəvət etmirdi, imkanı olan öz ölüsünü basdırmaq mərasiminə məşhur sənətkarları dəvət edirdi, imkanı olmayanlar isə dəfn mərasimini musiqisiz keçirirdi (Qəbiristanlıq Idarəsinin orkestri isə – tarçı, kamançaçı, dəf çalan, klarnetçi, zurnaçı və iki nəfər də xanəndə – əsas etibarilə Bakı yaxınlığındakı Abşeron kəndlərində toylara gedirdi və hər toydan da Əbdül Qafarzadəyə çatacaq məbləği gətirib ya Vasiliyə, ya Mirzəibiyə, ya da Ağakərimə verirdi).

Tülkü Gəldi Qəbiristanlığında hər gün orta hesabla 8 ilə 15 arası ölü dəfn edilirdi və hökumətin qoyduğu o ucuz qiymətlə o boyda planı doldurmaq mümkün deyildi. Əbdül Qafarzadə planı doldurmaqdan ötrü ölü sahiblərinə satmaq üçün nazik dəmirdən əklillər qayıran kiçik bir sex açmışdı və həmin rəngli dəmir əklilləri məcburi olaraq ölü yiyələrinə satırdı. Düzdü, o sex indi, əslində, daha əklil düzəltmirdi, çünki dəmir əklil alan ölü yiyələri o əklilləri heç bilmirdilər ki, qəbiristanlıqda hara atırdılar və Qəbiristanlıq Idarəsinin işçiləri də onları təzədən yığıb sexə gətirirdi, yağışın, küləyin altında çox qalanları ayda bir dəfə təzədən rəngləyirdilər və təzə əklillər kimi camaata satırdılar; sex, sənədlərə görə, gündə 8-15 arası (dəfn olunanların sayı qədər) əklil istehsal edirdi və bu qədər də əklil satırdı, amma, əslində, bütün il boyu 30-40 əklil tamam kifayət edirdi – dəmir dözümlü material idi.

Indi sex əklil əvəzinə çamadan, diş fırçası, sabunqabı, ayaqqabı geyinmək üçün dabançəkən, qapı dəstəyi, asılqan, vanna asılqanı, iri palto düymələri, cürbəcür daraqlar istehsal edirdi, bir sözlə, Əbdül Qafarzadə o sexi əməlli-başlı fabrikə çevirmişdi, müasir avadanlıq, Pribaltikadan gətirtdiyi texnika və s. Əbdül Qafarzadə bu məhsulların da bəzisini qeydiyyatdan keçirmişdi, guya, çamadanı, diş fırçasını və palto düymələrini əklillərdən qənaət edilmiş qalıqların hesabına buraxır və bu məmulatın kiçik bir qismini (rəsmi sənədlərdə göstərilən material qalıqlarının verdiyi imkan müqabilində) rəsmi müqavilə bağladığı ticarət müəssisəsinin vasitəsilə plan hesabına dövlət kassasına keçirirdi.

Lakin planı doldurmaq üçün bunlar da azlıq edirdi və Əbdül Qafarzadə məcbur olurdu ki, dəfn mərasimləri ilə bağlı rəqəmləri şişirtsin. Xüsusən, ilin sonuna yaxın bəzən elə olurdu ki, bir gündə cəmi beş dəfn mərasimi keçirilirdi, amma Əbdül Qafarzadə bunu hesabatda 25 dəfn mərasimi kimi qeyd elətdirirdi, özündən ölü adları, ölü ünvanları yazdırırdı və dövlətin də kassasına pulu öz cibindən keçirirdi, illik planı da həmişə 4-5 min manat artıqlaması ilə yerinə yetirirdi, hər il

keçici Qırmızı Bayraq, cürbəcür Fəxri fərmanlar alırdı, kommunal-məişət müəssisələrinin yarışında mükafata layiq birinci, ikinci, üçüncü yerləri tuturdu (təkcə elə həmkarlar təşkilatından iyirmidən çox təşəkkürnamə almışdı) və Qəbiristanlıq Idarəsində bütün bu keçici Qırmızı Bayraqlar, Fəxri fərmanlar, Təşəkkürnamələr üçün ayrıca bir guşə yaratmışdı. Fəxri fərmanları, Təşəkkürnamələri öz əklil sexində düzəldilmiş, gümüş suyuna çəkilmiş haşiyələrə saldırmışdı, divardan asdırmışdı.

Sexdə düzəldilən həmin haşiyələr Əbdül Qafarzadənin xoşuna gəlirdi və o, yaxın gələcəkdə bu cür haşiyələri kütləvi surətdə istehsal etmək istəyirdi; xüsusən, kənd yerlərində elə haşiyələr yaxşı gedəcəkdi; böyüdülmüş ailəvi fotoşəkilləri, ailə başçısının böyüdülmüş fotoşəklini, ailələrdəki cavanların əsgərlikdən göndərdikləri fotoşəkilləri o haşiyələrə salıb evin divarından asmaq üçün. Əbdül Qafarzadənin belə işlərdə xüsusi duyumu var idi və indi də duyumu ona deyirdi ki, iri rayonlardan, heç olmasa, onunun ticarət rəhbərliyi ilə sövdələşə bilsə, bu haşiyələr yaxşı gəlir gətirəcək. Sonralar o haşiyələrin də satışını çamadanlar, diş fırçaları, daraqlar kimi daha da genişləndirmək olardı: Dağıstanda, başqa Qafqaz əyalətlərində, Rostov vilayətində ticarətlə bağlı Əbdül Qafarzadənin nüfuzlu və işgüzar tanışları var idi (Gürcüstanla Ermənistana isə elə Azərbaycan kimi baxırdı).

Əbdül Qafarzadə bu cür danışıqları işin başında duran adamlarla aparırdı, dükan müdirləri, hətta univermaq müdirləri səviyyəsinə enmirdi və bütün əməliyyatın təşkilini də öz üzərinə götürürdü, çünki bütün yer üzündə ən çox etibar elədiyi bir adam var idisə, o da özü idi. Sövdə tuturdu, çox yaxşı, tutmurdu, əvəzinə ortaya başqa bir xeyirli iş çıxırdı. Haşiyələri də gizli istehsal etməyəcəkdi, zavodlarla, fabriklərlə, məktəblərlə müqavilə bağlayacaqdı. Fəxri Fərmanlardan, qruppa ilə çəkilmiş fotoşəkillərdən ötrü müxtəlif ölçülü ayrıca (yəni dövlət üçün nəzərdə tutduğunu) haşiyələr düzəltdirib, pulunu köçürmə yolu ilə ucuz qiymətə onlara satacaqdı və bu rəsmi pul da, əlbəttə, plan hesabına dövlət kassasına keçiriləcəkdi, üstəlik də Qəbiristanlıq Idarəsi qənaət etdiyi üçün mükafatlandırılacaqdı, iclaslarda, yuxarı təşkilatlara verilən hesabatlarda qabaqcıllar arasında nümunə göstəriləcəkdi.

Düzdü, hər dəfə illik plan artırılanda Əbdül Qafarzadənin düşünüb gördüyü tədbirlər nəticəsində onun öz şəxsi qazancı da qat-qat artıq dərəcədə artırdı, planın artırılması onun üçün, əslində, şəxsi bir təşəbbüskarlıq, işgüzarlıq amilinə çevrilirdi, amma buna baxmayaraq, hər dəfə Qəbiristanlıq Idarəsinin illik planı artırılanda əsl təsərrüfatçı bir adam kimi, pulun qiymətini və qədrini bilən bir nəfər kimi, Əbdül Qafarzadədə sövq-təbii bir etiraz baş qaldırırdı və yeri gələndə özünü saxlaya bilmirdi, xitabət kürsüsünə qalxıb fikirlərini söyləyirdi (hərçənd yaxşı bilirdi ki, heç kim planı azaltmayacaqdı və əslində, dediyi fikirləri havaya püfləyir – elə yaxşısı da bu idi!).

Həmin günəşli aprel səhəri Rayon Icraiyyə Komitəsindəki müşavirədə də Əbdül Qafarzadə söz istəyib xitabət kürsüsünə qalxdı.

– Yoldaşlar! Planları yerinə yetirmək bizim hər birimizin təxirəsalınmaz vəzifəsidir. Müəyyən olunmuş planlar yerinə yetirilməlidir və bu barədə heç bir söhbət ola bilməz. Mən, az qala, otuz ildir ki, rəhbər təsərrüfat işlərində işləyirəm, bir dəfə də olmayıb ki, planı artıqlaması ilə yerinə yetirməyim...

Rayon Partiya Komitəsinin birinci katibi M.P.Qəribli, doğrudan da, müşavirədə iştirak edirdi və həmişə yorğun, yuxusu olan bu altmış beş yaşlı adam, Əbdül Qafarzadənin sözünü kəsdi:

– Bunları biz bilirik, yoldaş Qafarzadə, yüksək də qiymətləndiririk. Sizə də qabaqcıl, təcrübəli, vicdanlı bir təsərrüfat işçisi kimi, hörmətimiz var. Odur ki, özünüzü tərifləməyin. Onsuz da, biz sizi tərifləyirik, başqalarına nümunə göstəririk.

Birinci katib zala baxıb yorğun gözləri ilə gülümsədi, sonra saatına baxdı: səhər yerindən duranda çay-çörək yeməyə vaxtı olmadı, tələsik raykoma getdi, günün ikinci yarısı keçirəcəyi büro iclasının gündəliyini bir də gözdən keçirdi, gündəliklə bağlı şöbələrə yeni tapşırıqlarını verdi, tələsik özünü bu müşavirəyə çatdırdı, saat on ikidə isə Rayon Yaşıllaşdırma Idarəsinin müşavirəsinə getməli idi (bu idarəni mərkəzi qəzetdə tənqid eləmişdilər), indi isə on ikiyə işləyirdi və belə məlum olurdu ki, birinci katib Yaşıllaşdırma Idarəsinə gedənəcən yenə də çörək yeməyə vaxt tapmayacaqdı; acından bu adamın qarnı quruldayırdı və o, narahat olurdu, rəyasət heyətində yanında oturmuş rayon rəhbərlərinə baxırdı ki, görsün, onlar bu qurultunu eşidirlər, yoxsa yox; rayon rəhbərləri isə, əlbəttə, özlərini eşitməzliyə vururdular.

Birinci katib gözünü saatdan çəkib yenə də Əbdül Qafarzadəyə baxdı:

– Məni düzgün başa düşün.

Əbdül Qafarzadə də birinci katibə baxdı, başı ilə təsdiq etdi və dedi:

– Mən sizi lap yaxşı başa düşürəm, yoldaş katib. Hörmətinizə görə də, qiymətinizə görə də çox sağ olun. Amma mən özümü tərifləmirəm, mən kommunistəm. Sözümün canı var. – Sonra yenə üzünü zala tutdu. – Düz iyirmi beş ilə yaxındır ki, yoldaşlar, mən, – heç birinizin ora işi düşməsin, – Qəbiristanlıq Idarəsinin müdiriyəm. Bizim də planımız var və canımızı qoyub yenə də həmişəki kimi, planı artıqlaması ilə yerinə yetirəcəyik. Mən hörmətli yoldaş birinci katibin burada olmasından istifadə edib bu barədə sizin qarşınızda söz verirəm. Bu belə. Amma indi gəlin məsələyə bir az, necə deyim, insafla baxaq. Keçən il bizim qəbiristanlıqda inişilə nisbətən 218 nəfər az adam dəfn olunub. Neyləmək lazımdı? Əlbəttə, sevinmək lazımdı, çünki 218 nəfər az adam ölüb. Amma necə sevinəsən? Bəs plan? Axı, planı artıqlaması ilə yerinə yetirməkdən ötrü gərək çox adam dəfn eləyəsən...

Bu dəfə Əbdül Qafarzadənin sözünü Rayon Icraiyyə Komitəsinin sədri Fərid Kazımlı kəsdi:

– Bəs, necə olsun, yoldaş müdir, nə təklif eləyirsiniz? Plansız təsərrüfat olar?

Zala pıçıpıçı düşdü, rəyasət heyətində oturmuş rəhbər işçilər təəccüblə Fərid Kazımlıya baxdılar, çünki birinci katibin iştirak etdiyi iclasda başqa rəhbər işçilərin replika verməsi, çıxış edənin sözünü kəsməsi əxlaqdan kənar hesab olunurdu. Fərid Kazımlı da bunu, əlbəttə, çox gözəl bilirdi və yəqin elə buna görə də yavaş-yavaş qızarırdı. Birinci katib isə yuxulu gözləri ilə zala baxa-baxa heç bir hərəkət eləmədi, amma ürəyində fikirləşdi ki, deyəsən, lap açıq-aşkar qocalıram... Adi etikanı da gözləmirlər.

Əbdül Qafarzadə eyni təmkin və ciddiliklə:

– Mənim xüsusi bir təklifim yoxdu, yoldaş Kazımlı, – dedi. – Amma onu demək istəyirəm ki, dəfn işləri ilə məşğul olan idarələrə adi iqtisadi meyarları tətbiq etmək olmaz. Anası, bacısı, oğlu, nə bilim, dayısı, bibisi, xalası, əmisi ölmüş

adamların hesabına, necə deyərlər, onların göz yaşının, ürək ağrısının hesabına planı artırmaq nə dərəcədə bizim ideologiyamızla düz gəlir? Hansı vicdandan, hansı insafdandı? Axı, söhbət hamam təsərrüfatından, ya da ki, dəlləkxanalardan getmir. Söhbət qəbiristanlıqdan gedir. Indi mən deyim, siz də, yoldaşlar, qulaq asın. Maliyyə Nazirliyi qəbiristanlıqlardan gələn gəlirlərin, demək olar ki, hamısını bizdən alır və kommunal təsərrüfatının, məişət xidmətinin maddi ehtiyacı olan sahələrinə ayırır. Misal üçün, mənzillərin təmirinə. Deməli, buradan nə nəticə çıxır? Fikir verirsiz? Mənzillərin yaxşı təmir olunması üçün ötrü, insanlar da çox ölməlidir ki, əzizləri onları plan hesabına dəfn eləsin? O biri tərəfdən də belə çıxır ki, kimsə, misal üçün, atasını dəfn eləyirsə, heç özünün də xəbəri yoxdur ki, eyni zamanda tanımadığı-bilmədiyi bir kimsənin də mənzilinin təmirinə kömək eləyir. Bu heç adicə etikaya sığışmır. Bizim cəmiyyətimiz isə, dünyada ən humanist cəmiyyətdir və bizim cəmiyyətimizin göz yaşları hesabına başa gələn bir şeyə nə maddi, nə də mənəvi ehtiyacı var.

Fərid Kazımlı yenə də özünü saxlaya bilmədi və yenə də Əbdül Qafarzadənin sözünü kəsdi:

– Deməli, siz planın əleyhinə çıxırsınız?

Bu, əbəttə, lap ağ oldu və birinci katib üzünü çevirib yanında oturmuş Fərid Kazımlıya baxdı; M.P.Qəriblinin bu baxışında qocalığın və yorğunluğun hələ məğlub edə bilmədiyi bir hökmranlıq, amiranəlik, qəzəb var idi. Birinci katibin sifətindəki bu ifadə bircə anın içində yarandı və Fərid Kazımlı kimi hündürboylu, enlikürəkli, əzələli idmançı bədəninə sahib olan bir adam o baxışların müqabilində bir göz qırpımında kiçildi, əridi, az qaldı yox olsun, ən başlıcası isə bütün zal bu kiçilmənin, ərimənin şahidi oldu. Sonra birinci katib üzünü Əbdül Qafarzadəyə tərəf çevirdi:

– Davam edin, yoldaş Qafarzadə.

Əbdül Qafarzadə daimi təmkini və ciddiliyi ilə:

– Çox sağ olun, yoldaş katib, – dedi. – Yox, yoldaşlar, mən planın əleyhinə çıxmıram. Mən onun əleyhinə çıxıram ki, bir sıra sahələrin, idarələrin, o cümlədən, bizim idarənin spesifikası nəzərə alınmır. Bütün bunlar planın artırılması ilə bağlı məsələlərdir. Amma, bir halda ki, mən bu hörmətli xitabət kürsüsünə...

Bəzən bu cür iclaslarda xitabət kürsüsündəcə, nitq söylədiyi yerdəcə Əbdül Qafarzadəyə elə gəlirdi ki, bu sözləri deyən, danışan, beləcə zala baxan, zalda tanış sifətlər görən, əlini düyünləyib xitabət kürsüsünə döyəcləyə-döyəcləyə özü öz dediklərini təsdiq eləyən adam o deyil, kimsə tamam başqa bir adamdır; eyni zamanda, həm bu hissi keçirir, həm də nitqinə davam edirdi, elə bil ki, beynin bir hissəsi nitq edirdi, o biri hissəsi isə bu nitqə, dediyi bu sözlərə təəccüb edirdi və dünyanın faniliyi müqabilində bütün ciddi-cəhdlərin mənasızlığını fikirləşirdi.

–... qalxmışam, qoy başqa dərd-sərimizi də deyim. Yoldaşlar, qəbiristanlıqdakı yol insanı ən son mənzilə aparan yoldur, sonuncu yol. Bunun böyük rəmzi mənası var. Insanlar son mənzilə abad yolla getməlidirlər. Bəs bizim qəbiristanlıqdakı yol, cığır nə gündədir? Bərbaddan da bərbad. Kələ-kötür, çala-çuxur, palçıq, darısqal... Qəbiristanlığın ortasında iki maşın qabaq-qabağa gəlsə, hansı sürücünün zoru güclüdü, o biri gərək maşını qəbiristanlığın axırına qədər dal-dala versin. Nə qədər demək olar?! Nə qədər yuxarı təşkilatlara bu barədə yazmaq olar?! Heç nə istəmirik, elə özümüzə icazə versinlər, beş-on ştatdan ibarət kiçik bir yol təmiri sexi açaq,

yollarımızı düzəldək, hər il təmir eləyək, lap gedək başqa qəbiristanlıqlara da köməklik göstərək, onların da yolu pisdir, əlimizdən gələni əsirgəməyək. Orasını da deyim ki, indiyəcən qəbiristanlıqda hər işi əllə görürük. Yazıq fəhlə qardaşımızdı... Beldi, külüngdü, vedrədi... Bir dənə də olsun ekskavatorumuz yoxdur. Bir dənə də olsun buldozerimiz yoxdu. Bir dənə də olsun kompressorumuz yoxdu. Onda, bəs, hansı texniki inqilabdan danışırıq? Nə isə, yoldaşlar... – Və indicə deyəcəyi sözlərin daxilində doğurduğu gizli istehza çeşməyin arxasından baxan boz gözlərinin dibinə güclə seziləcək bir işartı verdi, tez də çəkilib getdi və əlbəttə, heç kimin o istehzadan xəbəri olmadı. – Bir sözlə, onu deyirəm ki, yoldaşlar, biz gələcək üçün işləyirik. Gələcək üçün yaşayırıq... Hər şey gələcək naminə...

Bu – Əbdül Qafarzadənin sevimli sözləri idi və hər dəfə, ya xitabət kürsüsündən, ya əmək veteranı kimi, pionerlərlə görüşəndə, ya da rəsmi adamlarla söhbət zamanı bu sözləri deyəndə daxilən həzz alırdı; bu sözlər onun özünün özü ilə gözəl bir zarafatı idi...

Inqilabçılar gələcək naminə canlarından keçdi. Dvoryanlar, bəylər, həmin işıqlı gələcək naminə öz zümrələrindən ayrıldı, Qaraqum çöllərində güllələndi, fəhlələr, axmaq kəndlilər işlərini-güclərini buraxıb gələcək naminə mübarizə apardı, evdə çörək gözləyən ac balalarının güzəranını daha da ağırlaşdırdı. Gələcək naminə sürgünlərə getdilər, gələcək naminə vərəm tutub Sibir tayqalarında qurda-quşa yem oldular, gələcək naminə çarı taxtdan saldılar, amma o gələcək gəlib çıxmaq bilmir ki, bilmir... Stalin gələcək naminə özü də gecə-gündüz işlədi, adam həyatı keçirmədi (deyirlər Kremldə də üstünə şinel salıb meşin divanda yatırmış...), camaatı da işlətdi gələcək naminə, qırdı camaatı, həbsxanalara doldurdu və bu da işıqlı gələcək naminə idi. Müharibə zamanı milyon-milyon cavan o gələcək naminə canını qurban verdi. Xruşşov Stalinin cəsədini mavzoleydən çıxartdırdı, qorxunu-ürkünü götürdü (ona görə də indi bu boyda ölkədə bu cürə özbaşınalıq yaranıb!), amma gələcək naminə işləmək davam etdi və Xruşşov bütün dünyaya car çəkdi ki, o gələcək iyirmi ildən sonra gələcək, iyirmi ildən sonra kommunizm qurulacaq (yəni belə çıxırdı ki, Əbdül Qafarzadə indi kommunizmdə yaşamalıydı. Yaxşı yadındadı, o zaman ki, Xruşşov iyirmi ildən sonra kommunizm yaranacağını elan etdi, onda Qaratel soruşdu: «Yəni doğrudan kommunizm olacaq?» Əbdül Qafarzadə: – «Əlbəttə,» – dedi. «–Necə olacaq?» – «Necə olacaq? Necə lazımdı, başuva dönüm sənin, elə də olacaq. Iyirmi ildən sonra səhər yerindən duracaqsan, görəcəksən ki, qəzetlər yazıb: daha kommunizmdir. Televizor da deyəcək ki, day kommunizmdir. Radio da deyəcək ki, bilin və agah olun: day kommunizmdə yaşayırıq. Şairlər də şerlər yazacaq ki, yaşasın belə kommunizm. O ki, qaldı kommunizmdə fəhlənin acından qarnının quruldamağına, adamın qarnı quruldayar də, kommunizm olanda nə olar?!»)...

Brejnev dostumuz gəldi, özü nişan, orden, medal qalmadı, hamısını taxdı döşünə, o qədər artıq kalori qəbul etdi ki, indi dili söz tutmur, yazıb əlinə verdikləri kağızı da oxuya bilmir, oxuyanda da cürbəcür elə səslər çıxarır ki, adam başa düşə bilmir, bədbəxt oğlu bədbəxt nə deyir? Amma camaat yenə həmin gələcək naminə işləyir, gələcək naminə raportlar verir, gələcək naminə planlar doldurulur, gecə-gündüz keçirilən təntənəli iclaslarda gələcək naminə Brejnevin adına əvvəlcədən hazırlanmış məktublar qəbul edilir, hamı (yəni o raportları, o məktubları düzəldənlər və oxuyanlar yox, bədbəxt işləyən camaat!) özü üçün yox, gələcək nəsillərin rifahı üçün, yaxşı yaşaması üçün işləyir, işləyir, işləyir. Bəs o gələcək nə vaxt gələcək?

Əbdül Qafarzadə o mücərrəd gələcək naminə işləməyi (...ölməyi) dünyanın ən axmaq və mənasız bir işi hesab edirdi və hərdən gecələr, yuxuya getməzdən əvvəl dünyanın işləri barədə və o cümlədən, həmin gələcək barədə fikirləşəndə bu adam belə bir qərara gəlirdi ki, insan ki, necə nağıllar yaradıb, əsatirlər yaradıb, bu sistem də eləcə bir gələcək məfhumu yaradıb və o məfhumun köməyi ilə yüz milyonlarla əhalini idarə edir. Buna görə də əhali heç nəyə inanmır və cəmiyyət də buna görə bu qədər pozulub. Hamıdan əvvəl Əbdül Qafarzadənin özü gözəl bilirdi ki, bu xitabət kürsüsündən partiyanı da, hökuməti də, quruluşu da beləcə ələ salırsa və camaat – əksəriyyəti partiyaçıdır, komsomolçudur!– da beləcə əl vurursa, bundan artıq ictimai əxlaq pozğunluğu ola bilməz. Quldarlıq dövründə də belə olmayıb, qədim Romada da belə şey görünməyib. Əslində, bir cürə fikirləşib, bir cürə hərəkət edib, xitabət kürsülərindən isə bunun tamam əksini demək, mətbuatda bunun tamam əksini yazmaq – heç bir cəmiyyətdə bu dərəcədə bir riyakarlıq olmayıb və Əbdül Qafarzadə fikirləşəndə həmin riyakarlığı o qədər canlı təsəvvür edirdi ki, gülümsəyib başını bulayırdı: «– Pay atonan...».

Əbdül Qafarzadə işin içində olan, işdən baş çıxaran təcrübəli bir adam idi və buna görə də tamam əmin idi ki, Sovet Ittifaqında fəhlədən tutmuş partiya işçilərinə qədər, təsərrüfat rəhbərlərindən tutmuş şairlərə və alimlərə qədər hökumətdən maaş alan, pul qopardan adamların azı altmış faizi kapitalist ölkələrində acından ölərdi, çünki bu adamlar burada heç nə eləməyib maaş alırdılar, pul qazanırdılar; elədikləri də ancaq özləri üçün idi: trolleybus sürücüsü hökuməti aldadıb bilet pulunu özü üçün qazanırdı və o puldan öz briqadirinə də verirdi, briqadir bir az böyüyünə verirdi, o – trolleybus parkının rəisinə, rəis özündən böyüyünə, o da bir az yuxarıya və o trolleybus biletindən qəpiyin yüzdə biri də olsa, gedib çıxırdı lap yuxarılara, az qala, Allahın yanına... həmin yüzdə bir qəpiyi vur milyona, vur milyarda, vur trilyarda, neçə manat eləyir?

Stalin cəllad idi– əlbəttə, buna söz ola bilməz. Xruşşovun da ipinin üstünə odun yığmalı deyildi – bu da məlum məsələdi. Ən yaxşısı şübhəsiz ki, bu Brejnev idi: təriflə, öz işini gör. Indi Brejnevin vaxtında ki, rüşvət belə ayaq alıb yeriyir, ordenlər, medallar da, deputatlıq da rayon ölçülü bu cür (M.P.Qəribli kimi!) balaca hakimi-mütləqlərdən tutmuş lap yuxarılaracan rüşvətlərlə alınır, yalançı əmək raportları bütün dünyanı başına götürüb, kənd sovetindən tutmuş partiya qurultaylarınacan bütün ölkə miqyasında keçirilən iclaslar teatr tamaşalarına çevrilib (çıxış edənlər də – artistlərə!), haradan istəyirsən və hara istəyirsən, ezamiyyətə getmək, əslində, qonaqlığa getmək olub, vallah, billah, buna ancaq Sovet Ittifaqı dözə bilər... Bütün bunları fikirləşəndə Əbdül Qafarzadə az qalırdı Sovet Ittifaqının təəssübünü çəksin... Sonra gülümsəyirdi: eybi yox, gələcəkdə hər şey düzələcək...

Əbdül Qafarzadə həmin günəşli aprel səhəri Rayon Icraiyyə Komitəsindəki müşavirədə çıxışını gələcəklə başa vurub xitabət kürsüsündən aşağı düşdü, sonra daha iki çıxış oldu, sonra saat on ikiyə az qaldığı üçün birinci katib qalxıb özü maşavirənin işinə yekun vurdu və bir o qədər çıxış eləyənlərin içində təkcə Əbdül Qafarzadənin çıxışının üzərində dayandı:

– Görürsünüz, yoldaşlar, – dedi. – Belə baxsan kiçik bir təsərrüfatın rəhbəridir. Lakin iqtisadi problemlərdən tutmuş vətəndaşlıq problemlərinəcən, hər şeyi necə dəqiq bilir, öz fikirlərini səlis ifadə edir, ən başlıcası isə, Bakı sakinlərinin təəssübünü çəkir, xalqın interesini güdür. Masştabla fikirləşir, başa düşürsüz,

masştabla. Sizin çoxunuz danışdı burda, lakin əlinizdə kağız olmayanda adam başa düşmür ki, nə deyirsiniz. Amma Qafarzadənin danışığında dəmir məntiqə fikir verdiniz? Niyə belədir? Ona görə ki, işlə yaşayır, işə canı yanır, ona görə ki, işdən başı çıxır, bilir nə edir və kiminçün edir. Sizin çoxunuzu qoymuşuq rəhbər işə, lakin çoxunuzun öz işinizdən xəbəriniz yoxdur. Elə bilirsiniz mən bilmirəm? Bilirəm. Bütün siqnallar gəlib çatır mənə. Cavanlar çoxdu bu zalda, bax, öyrənin bu təcrübəli təsərrüfat işçisindən, öyrənin Qafarzadədən. Sən də, Kazımlı, – birinci katib üzünü Fərid Kazımlıya tutdu və yenə də bircə anın içində birinci katibin sifətinin ifadəsi dəyişdi, bayaqdan nəsihətlər verən, xeyirxah tərzdə danışan ağsaqqal adamın əvəzinə indi Fərid Kazımlıya tamam qəddar bir adam baxırdı, – onun sözünü kəsmə!..

Fərid Kazımlı yenə göz-görəti kiçildi, əridi, az qaldı tamam yox olsun, amma, buna baxmayaraq, bu zalda oturanların demək olar ki, hamısı yaxşı bilirdi, Fərid Kazımlı nə qədər kiçilsə də, ərisə də bu, müvəqqəti balacalaşmadı – zalda əyləşənlərin işi dolanıb, fırlanıb, yenə də gəlib Fərid Kazımlıdan keçirdi.

– Lakin, yoldaş Qafarzadə, – birinci katib bu dəfə də üzünü zalda oturmuş Əbdül Qafarzadəyə tutdu, – məntiq məntiq yerində, plan isə plan yerində. – Birinci katib bu sözlərin təsirini daha da artırmaqdan ötrü barmağını üç-dörd dəfə xitabət kürsüsünə vurdu və əvvəlcə rəyasət heyətində oturanlar, sonra da onlara baxan zaldakılar əl çalmağa başladılar.

Birinci katib planın vacibliyi barədə danışdı, zala toplaşmış bütün təsərrüfat rəhbərlərinə planların artıqlaması ilə yerinə yetiriməsi üçün var qüvvələrini səfərbərliyə almaqlarını tapşırdı, lazım bildiyi göstərişlər verdi, tez-tez saatına baxa-baxa (və qarnı quruldaya-quruldaya...) geridə qalanlara xəbərdarlıq etdi və çıxışını bu sözlərlə qurtardı ki, bütün planlar (bu sözləri də deyəndə barmağını üç-dörd dəfə xitabət kürsüsünə vurdu və təkrar etdi: «–Bütün planlar!») artıqlaması ilə yerinə yetirilməlidir ki, rayon bütün göstəricilər üzrə sosializm yarışının qalibi olsun. Axırda da lap gül elədi:

– Yoldaş Qafarzadə düz deyir, müdrik deyir. Gələcək naminə hər birimiz əlimizdən gələni əsirgəməməliyik.

Bax beləcə... Bu da sənin gələcəyin.

Iclas qurtaran kimi, Əbdül Qafarzadə elə Rayon Icraiyyə Komitəsinin binasının birinci mərtəbəsindən evə zəng elədi ki, görsün Qaratel necədir. Dəstəyi Qaratel özü götürdü, dedi ki, yaxşıdır, Sevil də gedib konservatoriyaya, sonra da soruşdu ki, günortaya nə bişirsin, Əbdül Qafarzadə acıqlandı ki, heç nə bişirmək lazım deyil, uzan, istirahət elə, özüm gəlib bir şey düzəldərəm.

Əbdül Qafarzadənin Rayon Icraiyyə Komitəsindən çıxıb Qəbiristanlıq Idarəsinə gəlməyi heç qırx dəqiqə çəkmədi, amma kabinetinə girən kimi (gözləmə otağında da tösmərək bir oğlanla arıq və əcaib bir kişi, deyəsən, onu gözləyirdi...), katibə qız (Idarədə katibə ştatı yox idi, bu qızı fəhlə ştatı ilə – guya, qəbirqazandı – işə götürmüşdü) xəbər verdi ki, Rayon Icraiyyə Komitəsinin sədri Fərid Kazımlı yoldaşın katibəsi Ayna xanım zəng eləyib, sədr sizi çağırır.

Əbdül Qafarzadə yazı mizinin üstündəki təzə qəzetlərə baxdı. Bu adam siqaret çəkmirdi, içkiyə aludə deyildi – hərdənbir kefinə düşəndə yüz-yüz əlli, uzaq başı iki yüz qram araq içərdi, amma bircə gün də qəzetsiz dayana bilməzdi (bir də ki, tarixi kitabları çox xoşlayırdı). Qəzet, elə bil ki, narkotik bir maddə kimi, Əbdül

Qafarzadənin gündəlik həyatına daxil olmuşdu və qəzetlərin oxunuşu da xüsusi bir rituala çevrilmişdi: günorta təxminən on iki ilə bir arası – yəni indiki vaxt – yazı mizinin arxasına keçirdi, çeşməyini dəyişirdi, həmişə eyni bir ardıcıllıqla düzdüyü qəzetləri – əvvəlcə Azərbaycan dilində, sonra rus dilində – bir-bir götürüb oxumağa başlayırdı, özü də birinci səhifədən yox, sonuncu səhifədən oxumağa başlayırdı və bütün sahələrə həsr olunmuş yazıları oxuyurdu və bu vaxt Qəbiristanlıq Idarəsində işləyənlərin, ora gəlib-gedənlərin hamısı bilirdi ki, kişi məşğuldur, qəzet oxuyur və ona mane olmaq olmaz.

Nə isə, həmin günəşli aprel günü Əbdül Qafarzadənin qəzetinin vaxtı keçirdi, amma buna baxmayaraq, gözlərini mizin üstündəki təzə qəzetlərdən çəkib katibə qıza baxdı, gülümsədi və o cavan katibə qız Əbdül Qafarzadənin təbəssümünü özü bildiyi kimi yozdu və qızardı: o cavan katibə cəmi on gün idi ki, Qəbiristanlıq Idarəsində işə başlamışdı və bu on gün müddətində qızı yaxşı başa salmışdılar ki, Əbdül Qafarzadə kimdir və əlbəttə, çalışıb onun rəğbətini qazanmalıdır; qız artıq bilirdi ki, Əbdül Qafarzadə istəsə, Tülkü Gəldi Qəbiristanlığının yanındakı Sulu dərənin suyunu bir günün içində boşaldar, əgər istəsə, Bakının girəcəyindəki o Qurd qapısı dikdiri ki var, bircə günün içində yerlə yeksan elətdirər. Məktəbi bitirdikdən sonra bir neçə il instituta girə bilməmiş və gəlib qəbiristanlıqda katibə işləməyə məcbur olmuş bu gözəl cavan qız ürəyində Əbdül Qafarzadədən həm qorxurdu, həm də bütün içinə qəribə bir maraq çökmüşdü: baxırsan, adi adamdı, işə avtobusla gəlib-gedir, heç kimlə işi yoxdur, geyim-keçimi də, düzdü, səliqəlidi, amma on gündü əynində elə eyni kostyumdu... Iyirmi ildən artıq bu idarədə makinaçı işləyən Bədurə xanım isə üç gün bundan əvvəl Əbdül Qafarzadənin kabinetinə işarə edərək «– Çalış... – demişdi. – Instituta da qoyar səni, aspiranturaya da düzəldər, sonra da lap professor eləyər...» Düzdü, Bədurə xanım bu sözləri deyib gülmüşdü, amma o gülüşdə gizli bir kin-küdurət var idi...

Amma o gözəl katibə qız nahaq qızarırdı, çünki o dəm Əbdül Qafarzadənin təbəssümünün bu qıza heç bir dəxli yox idi və ümumiyyətlə, Əbdül Qafarzadənin on gündə bu qıza heç əməlli-başlı baxmağa vaxtı olmamışdı.

Əbdül Qafarzadə yenə də avtobusa minib əvvəlcə evə getdi, pencəyinin döş cibinə zərf qoydu, sonra Rayon Icraiyyə Komitəsinə getdi. Beş-altı nəfər sədrin qəbulunu gözləyirdi, amma Ayna xanım – ömrünün son on beş ilini yalnız Fərid Kazımlı ilə işləyən, Fərid Kazımlı bir-bir rəhbər vəzifələri dəyişdikcə o da öz işini dəyişib (Fərid Kazımlının idarə maşınının sürücüsü də belə idi) hər yerdə ona katibəlik eləyən bu yaşlı və təcrübəli qadın Əbdül Qafarzadəni görən kimi:

– Bir dəqiqə dayanın, Qafarzadə (bu qadın da sədr kimi tabelikdə işləyən adamları yalnız familı ilə çağırırdı), indi. – Və Ayna xanımın sədrin kabinetinə girməyi ilə çıxmağı bir oldu. – Gözləyir sizi, Qafarzadə, keçin.

Əbdül Qafarzadə içəri girəndə sədr geniş mizin arxasında oturmuşdu və «Azərbaycan gəncləri» qəzetini iki səhifə boyu açıb qarşısında tutmuşdu; mizin arxasında yalnız geniş açılmış qəzet və Fərid Kazımlının qəzeti hər iki tərəfindən tutmuş iri və ətli barmaqları görünürdü.

Bəzən qəzetlərdə gülməli, əcaib-qəraib fotolar çap edib altında yazırlar: «Bunun mənası nədi?» Xüsusən, «Literaturnaya qazeta»da. Indi Əbdül Qafarzadə də fikirləşdi ki, bax mizin arxasındakı o geniş açılmış qəzeti və o barmaqları beləcə

çəkib göndərəsən qəzetə ki, bunun mənası nədi? Əbdül Qafarzadə gülümsədi, çünki özü bunun mənasını yaxşı bilirdi.

– Salam, yoldaş Kazımlı!

Sədr qəzetin arxasından:

– Bayaq salamlaşmadıq?– soruşdu.

– Salam Allah kəlamıdı...

Fərid Kazımlı daha dözə bilmədi, qəzeti aşağı saldı və böyük, yaraşıqlı çeşməyinin arxasından zəndlə Əbdül Qafarzadəyə baxdı:

– Allaha çox inanırsan?

– Mənim inanıb-inanmamağımdan nə asılıdı, yoldaş Kazımlı? Varsa, var, yoxsa da, yoxdu də...

– Bayaq katib dedi də... Dəmir məntiqə nə deyəsən? Buldozer istəyirsən, hə?

Əbdül Qafarzadə xüsusi dəvət gözləmədi və mizə yaxın kürsüdə sədrlə üzbəüz oturdu.

– Texnika istəyirsən? Buldozer, hə?

Əbdül Qafarzadə gülümsədi və yenə də cavab vermədi.

– Mən də indi bir buldozer verdirsəm sənə, necə olar?

– Verdirməssən!

– Niyə?

– Çünki dünyagörmüş adamsan...

– Bəs, onda nə demaqoqluq edirsən? Yəni ki, yoldaşlar, bax, deməyin ki, Qafarzadə belədi, elədi, heç bir şəxsi maddi marağım yoxdu mənim, qəbirqazanları texnika ilə əvəz etmək istəyirəm, hə?.. Sabah da biri soruşanda, deyəcəksən ki, gedin, Rayon Icraiyyə Komitəsinin iclas protokollarına baxın, mən həmişə texnika istəmişəm, bürokratlar, laqeydlər verməyiblər... Hə? Indi necədi, əmr eləyim, bir buldozer versinlər sənə, qəbirqazanların da ştatını minimuma qədər ixtisar elətdirim? Hə?

Əlbəttə, Fərid Kazımlı bu kabinetdə bayaq birinci katibin baxışları altında kiçilmiş, əriyib yox olmuş adam deyildi, amma, hər halda, Əbdül Qafarzadənin yanında da bu kabinetə layiq şəkildə, tam əzəməti ilə görünmürdü və ən başlıcası isə, bunu Fərid Kazımlı özü də çox yaxşı başa düşürdü. Fərid Kazımlı belə işlərdə uşaq deyildi, tükü tükdən seçirdi və bilirdi ki, Əbdül Qafarzadə istəsə onun özünü bu sədrlik kreslosundan aşırar, işdən qovdurar, çünki Əbdül Qafarzadənin Mərkəzi Komitədə də, Moskvada da mükəmməl adamları və dostları var idi. Deyirdilər ki (doğru deyirdilər, yalan deyirdilər – bilmirdi, amma, hər halda, deyirdilər), bu Əbdül Qafarzadənin kimlərəsə bağışladığı üzük indi Leonid İliç Breynevin qızı Qalinanın barmağındadır. O üzük hardan gedib o barmağa girib – Fərid Kazımlı bunu bilimirdi, çünki o üzüyün elə bir yüksək uçuşu müqabilində Fərid Kazımlı çox kiçik adam idi.

Əbdül Qafarzadə yenə də gülümsəyib:

– Elətdirməzsən... – dedi.

– Mən elətdirmərəm, katib elətdirər! Tapşırar, buldozer yollayarlar sizə, kompressor da! Katibin bir sözünü kim iki eləyəcək?

– Katib tapşırandı bu on ildə tapşıraydı də! Burda deyirsən, orda yadından çıxır. Görmürdün, qarnı elə guruldayırdı, elə bil, zavod işləyir.

– Sən onu hələ yaxşı tanımırsan. Bayaq gördün mənə necə baxdı? Köhnə qurddu!

– Qurddu, qurd olsun da... Bəs biz nəyik, dovşan-zadıq?

Əbdül Qafarzadə bu sözləri yalnız katibin qarasına demirdi, bu sözlərdə Fərid Kazımlının özünə də növbəti bir xəbərdarlıq var idi; sonra Əbdül Qafarzadə birdən-birə o keçmiş hadisəni xatırladı, diş həkimi Nəcəf Ağayeviçin çil-çil kürən sifəti, xoruz pipiyi kimi qıpqırmızı saçı, qaşı, kirpiyi gəlib gözlərinin qabağında dayandı və kişi gülümsəyə-gülümsəyə:

– Bəs dost idiniz katiblə, nə oldu? – dedi. – Pişik keçdi aranızdan?

Fərid Kazımlı iki qoluyla da mizin üstünə dirsəklənib nazik çənəsini əllərinin arasına aldı və Əbdül Qafarzadənin boz gözlərinə baxdı; bu boz gözlərə diqqətlə baxanda Fərid Kazımlı həmişə nəsə narahat olurdu və bu dəfə də gözlərini qarşısında oturmuş bu adamın boz (və soyuq! Hətta gülümsəməyinə baxmayaraq da soyuq!) gözlərindən çəkdi:

– Bununla dost olmaq olar? – dedi. – Beləsiyçün nə dost?

– O boyda hörmət elədin ona!..

Fərid Kazımlı bu sözdən, elə bil ki, bir balaca səksənən kimi oldu, çənəsini əllərinin üstündən qaldırdı, sonra kürəyini qalın və yumşaq kreslosunun söykənəcəyinə söykəyib əlini yellədi:

– Əşşi, sən də elə danışırsan, elə bil, uşaqsan!.. Bu hörmət qanandı? Ağlın, deyəsən, mənə gedib... Buna bir dəniz hörmət elə, məqsədəuyğun ki, hesab elədi, bir dəqiqənin içində başını kəsib tullayar, heç uf da deməz! Belə baxırsan, qoca kişidi də, səhərdən axşama kimi qarnı quruldayır, ancaq, əslində, qurddu, qurd, özü də qazdan ayıqdı!..

Əbdül Qafarzadə yenə də gülümsədi, diş həkimi Nəcəf Ağayeviçin o çil-çil kürən sifəti, o qıpqırmızı saçı, qaşı, kirpikləri yenə də gəldi durdu kişinin gözlərinin qabağında. Bu hadisə bir neçə il bundan əvvəl olmuşdu və aradan keçən müddət ərzində heç kim, o cümlədən, Fərid Kazımlı da bilməmişdi ki, (hələlik bilməmişdi, çünki haçansa yəqin ki, biləcəkdi, bəlkə də heç bilməyəcəkdi...), Əbdül Qafarzadə həmin qazdan ayıq adamın – Rayon Partiya Komitəsinin birinci katibi hörmətli M.P.Qəriblinin başına nə oyun açıb...

... O zaman Fərid Kazımlının özü telefonla Əbdül Qafarzadənin evinə zəng çaldı, səhər tezdən yanına çağırdı və nəsə təcili bir iş olduğunu başa düşən Əbdül Qafarzadə səhər tezdən Rayon Icraiyyə Komitəsinə getdi, birbaşa sədrin kabinetinə keçdi.

Fərid Kazımlı açıq-aşkar həyacanlı idi, Əbdül Qafarzadəni görən kimi: «– Gəl əyləş!..» – dedi. – Sonra zəngi basıb Ayna xanımı çağırdı: «– Heç kimi içəri buraxma!» – Ayna xanım bu tapşırığa təəccüb etdi, çünki, onsuz da, Əbdül Qafarzadə yanında olanda içəri heç kimi buraxmırdı.

Fərid Kazımlı yəqin ki, giriş üçün bir söz tapmayıb (bir də ki, Əbdül Qafarzadə ilə söhbətdə girişə nə ehtiyac var idi?) birbaşa mətləbə keçdi: «– Kişiyə qızıl lazımdır!» – Əbdül Qafarzadə iri çeşməyini gözünün üstündə düzəltdi və diqqətlə Fərid Kazımlıya baxdı: «– Hansl kişiyə?» «– Katibə də, başa düşmürsən, Qəribliyə!»

Araya kiçik bir sükut çökdü və Fərid Kazımlı yaxşı başa düşürdü ki, bu kiçik sükut ərzində Əbdül Qafarzadə hər şeyi beynində götür-qoy edir, çünki Fərid

Kazımlının fikrincə, Əbdül Qafarzadənin beyni belə işlərdə pusquda dayanmış ağıllı və yırtıcı bir canavar idi, şikar tam hazırıydısa, tamam arxayınçılığıydısa, pusqudan sıçrayırdı, hazır deyildisə, əmması varıydısa, nəsə xoşuna gəlmirdisə, heç vaxt pusqudan çıxmırdı; odur ki, hər şeyi açıq və olduğu kimi danışdı ki, Əbdül Qafarzadənin şübhə yeri qalmasın: «–Dünən çağırmışdı məni. Ordan-burdan söhbət elədi, mən nə bilim, küçələri qaydaya salmaq lazımdı, kanalizasiya belə gəldi, qaz kəməri belə getdi, sonra da başladı ki, pensiyaya çıxmaq istəyirəm, işdən getmək üçün ərizə verəcəyəm, qocalmışam, yorulmuşam... Sözdü, deyir də, ərizə verəndi o?! Sonra da yavaş-yavaş fırlatdı-fırlatdı, gətirib onun üstünə çıxartdı ki, bir az pulum var, istəyirəm onu qızıla çevirim... Düzü, əvvəlcə bu söhbətdən şübhələndim, aramız elə açıq deyil bununla, özün bilirsən, ildə üç-dörd dəfə hörmət eləyirəm ona, vəssalam. Nə mən bunun adamıyam, nə də bu mənim adamımdı!.. Özün bilirsən!.. Fikirləşdim ki, niyə məni seçib? Elə indi də fikirləşirəm... Nə isə, iki yüz əlli dənə onluq qızıl istəyir... Mənim də sənnən başqa gümanım gələn bir adam yoxdu. Bu işi başqa adama etibar eləyə bilmərəm...»

Yəqin ki, hər şey, həqiqətən, Fərid Kazımlının söylədiyi kimi olmuşdu, yoxsa bu qızılları Fərid Kazımlı özü üçün istəyirdisə, gizlətməyin nə mənası var idi, birinci dəfə deyildi ki, tanış olurdular... Başqası üçün də istəsəydi, M.P. Qəriblinin adını verməzdi, çünki bunun heç bir mənası yox idi. Yox, Fərid Kazımlı həqiqəti deyirdi.

Əbdül Qafarzadə: «– Ona görə səni seçib ki, – dedi, – yaxşı tanıyır səni!..» - Sonra bu sözlərin bir az həddən artıq kobud səsləndiyini hiss edib əlavə etdi: «– Etibar edir sənə!..» Fərid Kazımlı: «– Bilmirəm... – dedi. – Hər nə isə, gərək mənə kömək eləyəsən!..» «– Birini neçədən istəyir?» Fərid Kazımlı: «– Qiymətini, – dedi, – mən deyəcəyəm ona. Bilmirsən, xəsisin biridi, beş-altı dəfə təkrar elədi ki, pulum azdı, ucuz olsun, bütün varım-yoxum budu! Yalançının atasına lənət! Soyanda elə soyur ki, adamın cibində bir qara qəpik də qalmır!..» Əbdül Qafarzadə boz gözlərini eləcə Fərid Kazımlının gözlərindən çəkməyərək: «– Biri min manata düzələr...» – dedi. – Fərid Kazımlı qollarını açdı: «–Çox bahadı!.. Qorxuram razı olmasın...» Əbdül Qafarzadə: « – Bunun elə beş yüz manatı qarantiyadır ki, heç kim heç nə bilməyəcək, söz-söhbət olmayacaq da! – dedi. Bunun day nəyi bahadı?..» Fərid Kazımlı: «–Yaxşı, – dedi, – qiyməti deyərəm özünə, sonra xəbər eləyərəm».

Əlbəttə, Fərid Kazımlı başa düşürdü ki, bu pulun hər min manatının azı iki yüz manatını Əbdül Qafarzadə özünə götürəcək və Əbdül Qafarzadə də bilirdi ki, Fərid Kazımlı hər bir qızıl onluğun qiymətini M.P.Qəribliyə min manat yox, aşağısı min iki yüz manat deyəcək. Düzdü, Əbdül Qafarzadənin də, Fərid Kazımlının da əldə edəcəkləri o pula ehtiyacları yox idi, amma bu bir şakər idi, oyun idi, bəlkə də lap xəstəlik... Amma – Əbdül Qafarzadənin boz gözləri gülümsədi – bu işləri hələ bilmək olmaz.

Səhərisi gün Fərid Kazımlı xəbər verdi ki, M.P.Qəribli deyilən qiymətə razıdır.

Diş həkimi Nəcəf Ağayeviç Əbdül Qafarzadənin, daha doğrusu, Mirzəibinin çoxdankı müştərisi idi; bu kürən və naməlum yaşlı kök adam, həqiqətən, gözəl bir diş həkimi idi və Bakının, dişi xəstələnmiş, xüsusən də ağzında protez gəzdirən bir çox sakinlərinin arasında böyük nüfuzu var idi, amma o xəstələrin və protez sahiblərinin çoxunun xəbəri yox idi ki, həkim Nəcəf Ağayeviç, eyni zamanda, uzun

illərdir ki, gizlin qızıl alveriylə də məşğuldur və bu sahədə də müştərilər arasında böyük nüfuz sahibidir.

Ümumiyyətlə, həkim Nəcəf Ağayeviç çox diribaş adam idi və evində işlətdiyi alman diş qurğusunun qarşısında inamla dayandığı kimi, həyatın da hər üzünə hazır bir usta idi. O vaxtlar bütün ölkə, o cümlədən, Azərbaycan Respublikası da Sov. IKP-nın XXVI Qurultayına hazırlaşırdı, hər yerdə söhbət iqtisadiyyatın, təsərrüfatın, maddi-mədəni quruculuğun hər bir sahəsində, eləcə də xalqlar dostluğu sahəsində əldə edilmiş misilsiz nailiyyətlərdən gedirdi, hamı mükafatlandırılırdı, fəxri adlara layiq görülürdü, şairlər keçici Qırmızı bayraqlar haqqında uzun və əsl bayram təntənəsinə layiq şerlər yazırdı, qəzetlər, xitabət kürsüləri, radio və televiziya Leonid İliç Brejnevin atalıq qayğısından danışırdı, gözəl artist Vyaçeslav Tixonov hər axşam Mərkəzi televiziyada özünəməxsus bir sənətkarlıqla L.I.Brejnevin əsərlərini oxuyurdu (buna görə də SSRI Ali Soveti Rəyasət Heyəti tərəfindən Sosialist Əməyi Qəhrəmanı adına layiq görüldü!). Belə bir vaxtda, mətbuatın, təntənəli iclasların, görüşlərin bu cür ruh yüksəkliyi ilə dolu coşğun bir çağında həkim Nəcəf Ağayeviçin yeganə qayğısı Bakının havası nisbətən təmiz olan dağlıq hissəsindəki mənzilinin küçəyə baxan böyük eyvanını şüşəbənd elətdirməkdən ibarət idi.

Məsələ burasında idi ki, binanı tikəndə Bakının küləyini nəzərə almamışdılar, həmin eyvanı həmişə külək tuturdu və küləyin əlindən hətta yayda da eyvana çıxıb hava almaq, çay içmək, nərd oynamaq, demək olar ki, mümkün deyildi, amma o eyvanı şüşəbənd eləmək üçün də heç cürə icazə almaq mümkün deyildi (guya, şüşəbənd salınsaydı, təkcə o onmərtəbəli binanın yox, yeni salınmış bütün o yeni prospektin arxitekturası pozulurdu). Həkim Nəcəf Ağayeviç usta çağırıb bir-iki dəfə bu eyvanı şüşəbənd eləməyə cəhd göstərmişdi, amma axşam milis idarəsindən gəlib sökmüşdülər; bir sözlə, iş gəlib elə bir nöqtəyə dirənmişdi ki, tanışlıq da,rüşvət də kömək eləmirdi. Bir şüşəbənd məsələsindən ötrü yüksək rütbəli şəxslərə müraciət etmək ayıb idi, yerinə düşməzdi, kiçik rütbəli şəxslər isə yüksək rütbəli şəxslərin qorxusundan icazə verə bilmirdilər.

Günlərin bir günü həkim Nəcəf Ağayeviç dörd-beş usta çağırıb əvvəldən hazırlatdığı taxtalardan, şüşələrdən bircə gecənin içində şüşəbənd düzəltdirdi və dördüncü mərtəbədəki o şüşəbəndin küçəyə baxan hissəsində iri və yaraşıqlı qırmızı hərflərlə:

**Sov. IKP-nin XXVI qurultayına eşq olsun!**

– sözlərini yazdırdı, Leonid İliç Brejnevin marşal paltarında, döşü Qızıl ulduzlarla, Lenin mükafatlarıyla, saysız-hesabsız orden və medal lentləri ilə dolu böyük şəklini (bu şəkli də Azərbaycan Rəssamlar Ittifaqının Bədii Fondunda əvvəlcədən sifariş verib, çəkdirib evə gətirmişdi) o şüarın üstündən asdırdı və bununla da kifayətlənməyib L.I. Brejnevin Sov. IKP MK-nın yenicə seçilmiş katibi K.U.Çernenko ilə birlikdə 1978-ci ilin sentyabr ayında Bakıya gələrkən Azərbaycan paytaxtına Lenin ordeni təqdim olunmasına həsr edilmiş təntənəli iclasda dediyi və bütün Sovet Ittifaqına səs salan sözləri:

**Şiroko şaqayet Azerbaydjan!**

– rus dilində (bunu da iri qırmızı hərflərlə elə həmin Bədii Fondda yazdırmışdı) şüşəbəndin yan tərəfindən asdırdı;bundan sonra nə milis idarəsində, nə rayon Icraiyyə Komitəsində, nə də yuxarı təşkilatlarda heç kim çürət eləyib gəlib bu şüşəbəndi sökə bilmədi. Rayon Icraiyyə Komitəsi növbədənkənar iclasında xüsusi qərar qəbul edib, binanın görkəmi memarlıq baxımından korlanmasın deyə, təcili surətdə o onmərtəbəli binanın bütün küçə eyvanlarını şüşəbəndə çevirdi. O zaman Nadejda Fyodorovna özünü saxlaya bilməyib başını bulaya-bulaya tənə ilə ərinə dedi: «– Im vsem to oboşlos besplatno! A tı, durak, istratil stolko deneq!». Qonşular, əlbəttə, bu işdən çox razı qalmışdılar, hamının, hətta Nəcəf Ağayeviçdən zəhləsi gedənlərin də ürəklərində bu kürən adama bir minnətdarlıq hissi baş qaldırmışdı, amma Rayon Icraiyyə Komitəsinin göstərişi və Evlər Idarəsinin ciddi-cəhdi ilə o yeni şüşəbəndlərə o qədər şüarlar vurmuşdular, o qədər Leonid İliç Brejnevin şəkillərini asmışdılar ki, mənzillərə işıq düşmürdü və Nəcəf Ağayeviç bu fürsətdən istifadə edib öz eyvanına vurduğu şüarları, L.I.Brejnevin şəklini gecələr xəlvətcə bir-bir çıxartdı, heç kim də bunun fərqinə varmadı. Düzdü, şüşəbənd Nəcəf Ağayeviçə pulla başa gəlmişdi, amma qonşulardan fərqli olaraq, indi onun mənzilinə işıq düşürdü və Nadejda Fyodorovna da təskinliyi bunda tapırdı.

Həkim Nəcəf Ağayeviçin arvadı, gözəl diş texniki Nadejda Fyodorovna rus idi və hökumətdən bir şey qopartmaq istəyəndə (ya işləmək üçün əlverişli poliklinika tələb edəndə, ya növbədənkənar avtomobil almaq istəyəndə, ya rəsmi sənəti, yəni həkimliyi ilə bağlı xarici ləvazimat və aparatura uğrunda mübarizə aparanda və s.) azərbaycanlı Nəcəf Ağayeviç bu cəhəti xalqlar dostluğuna nümunə kimi, xüsusi olaraq, vəzifəli yoldaşların nəzərinə çatdırırdı, lazım olanda, Azərbaycan KP MK-ya, Sov.IKP MK-ya, Siyasi Büroya, L.I.Brejnevə, hətta xüsusi ehtiyac hiss edəndə Leninin mavzoleyinə («Əziz Vladimir İliç! Sən ölməmisən, sən bizim üçün daima canlısan! Buna görə də beynəlmiləl ailəmiz adından sənə müraciət edirik...») şikayət teleqramları vururdu və sonsuz olduqları üçün iki nəfərdən ibarət bu ailə Bakıda, olsun ki, ən firavan həyatlardan birini sürürdü. Nadejda Fyodorovna ağappaq idi, Nəcəf Ağayeviç isə qıpqırmızı idi, amma bu adamlar bir-birilərini o qədər sevir və başa düşürdülər ki, sifətdən bir-birilərinə bənzəməsələr də, elə bil, ər-arvadlıqdan əvvəl əkiz bacı-qardaş olmuşdular.

Fərid Kazımlı ilə həmin qızıl söhbətindən sonra, Əbdül Qafarzadə Qəbiristanlıq Idarəsinə gedib Mirzəibini yanına çağırdı və tapşırdı ki, həkim Nəcəf Ağayeviçə sifariş göndərsin, axşam bir yerdə həkimin evinə gedəcəklər. Mirzəibi təəccüb etdi, çünki Əbdül Qafarzadəyə qızıl lazım olanda özü heç vaxt həkim Nəcəf Ağayeviçgilə getməzdi, bu iş tamamilə Mirzəibinin öhdəsinə düşürdü; düzdü, Əbdül Qafarzadə həkim Nəcəf Ağayeviç tərəfdən arxayın idi, bilirdi ki, bu kürən adam ehtiyatlı, tədbirlidir, dünyanın işlərindən baş çıxara bilir və indiki zamanda, ölkəni bürümüş bu təntənə içində belə bir adamın ilişməsi ehtimalı sıfra bərabərdir, amma, buna baxmayaraq, özü heç vaxt bilavasitə Nəcəf Ağayeviçlə əlaqəyə girməmişdi, vasitəçi həmişə Mirzəibi olmuşdu.

Əbdül Qafarzadə belə lazım bilirdisə, deməli, belə də olmalı idi– Mirzəibi həkim Nəcəf Ağayeviçlə danışdı, axşam Əbdül Qafarzadə ilə birlikdə o gözəl şüşəbəndli mənzilə getdilər. Nadejda Fyodorovna gözəl diş texniki, ərinin gözəl köməkçisi olmaqla bərabər, gözəl də çay dəmləyirdi və Əbdül Qafarzadə üstünə tərtəmiz süfrə salınmış, gümüş çəngəl-bıçaq düzülmüş meyvəli, şirniyyatlı girdə mizin arxasında oturub o gözəl çaydan (hayıf ki, hili yox idi) bir-iki qurtum aldı, sonra armudu stəkanı nəlbəkiyə qoydu və «– Mənə iki yüz əlli dənə qızıl onluq lazımdır» – dedi.

Əlbəttə, həkim Nəcəf Ağayeviçin də, Nadejda Fyodorovnanın da Bakıda bilmədiyi şey yox idi və hərdən qızıl alverini Mirzəibi ilə eləsələr də, bu qızılın, əslində, kimə çatdığını bilirdilər. Nəcəf Ağayeviç bu dəfə Əbdül Qafarzadənin özünün gələcəyini eşidəndə başa düşdü ki, söhbət nəsə əsaslı bir məsələdən gedir. Deməli, çox qızıl istəyirmiş, ona görə özü gəlib.

Həkim Nəcəf Ağayeviç arvadının dəmlədiyi çayı həmişəki ləzzətlə içə-içə: «– Iki yüz əlli dənə onluq?» – soruşdu. - Əbdül Qafarzadə «– Hə, iki yüz əlli dənə onluq, – dedi. – Ancaq... iki yüz əllisi də falşivi olsun.» «– Nə?» – Çay az qaldı həkim Nəcəf Ağayeviçin boğazında qalsın. «– Falşivi?» – Əbdül Qafarzadə boz gözlərini həkim Nəcəf Ağayeviçin gözlərindən çəkməyərək başının hərəkəti ilə sözlərini təsdiq edə-edə həmişəki sakitliyi ilə dedi: «– Iki yüz əllisi də falşivi olsun».

Mirzəibi səsini çıxartmadı, çünki o saat başa düşdü ki, söhbət elə bir işdən gedir ki, Mirzəibinin o işə qarışmağa səlahiyyəti çatmır.

Nəcəf Ağayeviç o girdə mizin arxasında üzbəüz oturduğu Nadejda Fyodorovnaya baxdı: əlbəttə, belə bir adamla, yəni Əbdül Qafarzadə ilə münasibətləri korlamaq heç vəchlə onların xeyrinə ola bilməzdi (şəxsən bu evə gəlməyi də, yəqin ki, bir növ, xəbərdarlıq idi!) və belə bir adamın bilavasitə özünün bu işə girişməyi Nəcəf Ağayeviç üçün təhlükəsizliyi təmin edirdi; hərgah bu xahişi rədd etsəydi, Əbdül Qafarzadənin simasında elə bir düşmən qazanacaqdı ki, iki nəfərdən ibarət bu kiçik ailə (beynəlmiləl ailə olsa da) həmişəki rahatlığı ilə yaşaya bilməyəcəkdi– bu, gün kimi aydın bir həqiqət idi.

Həkim Nəcəf Ağayeviç gözlərini Nadejda Fyodorovnadan çəkib Əbdül Qafarzadəyə baxdı: «– Çətin işdir...» Əbdül Qafarzadə: «–Bilirəm...» – dedi. Nəcəf Ağayeviç dərindən nəfəs aldı: «–Yalnız sizə dərin hörmətim olduğu üçün... taparam...» Əbdül Qafarzadə: «Çox sağ ol, həkim, – dedi. – Mən belə şeyləri yaddan çıxarmıram».

Iki yüz əlli qəlp qızıl onluğun hamısını bir yerdə əlli min manata sövdələşdilər (Nəcəf Ağayeviç: «–Mənim özümə heç nə lazım deyil, – dedi. – Yalnız sizin xahişinizi yerinə yetirəcəyəm, lazımi adamlarla danışacağam, yaxşı sənətkar tapacağam... Özüm sizdən heç nə götürmərəm...») və Əbdül Qafarzadə Fərid Kazımlıdan aldığı iki yüz əlli min manat pulun (Fərid Kazımlı, görəsən, M.P.Qəriblidən nə qədər almışdı: üç yüz min? Yoxsa bir az da çox?) əlli min manatını həkim Nəcəf Ağayeviçə verdi və təxminən on gündən sonra, iki yüz əlli qəlp sikkəni əsl Nikolay onluğu kimi Fərid Kazımlıya təqdim etdi.

Əbdül Qafarzadə həmin əməliyyatdan nəqd iki yüz min manat mənfəət əldə etdi. Nəcəf Ağayeviç isə bu əməliyyatdan cəmi on min manat pul qazandı (qəlp sikkələri qırx min manata düzəltdirmişdi), amma bu əməliyyatın qiyməti onun üçün, həqiqətən, qat-qat artıq idi: Əbdül Qafarzadənin dostları sırasına keçirdi və Bakıda canavar kimi burun-buruna dayanmış rəqiblərinin arasında rahat bir ömür sürəcəkdi...

Əlbəttə, bir sellofan torba həmin qəlp sikkələr, əslində, bomba idi, haçansa partlayacaqdı, amma bunun daha Əbdül Qafarzadəyə dəxli yox idi. Bunun heç Fərid Kazımlıya da dəxli yox idi; adicə olaraq Fərid Kazımlı heç özü də bilmədən M.P. Qəribliyə bir sellofan torba dolusu bomba verirdi; bəlkə heç M.P.Qəriblinin də o bombadan xəbəri olmayacaqdı, o qəlp sikkələri həqiqi qızıl bilib ömrünün axırınacan istisinə qızınacaqdı... Bəlkə də xəbəri olacaqdı və o bomba

partlayacaqdı? Partlayacaqdı və əlbəttə, M.P. Qəriblinin özünü infarkt edib öldürəcəkdi, çünki M.P. Qəribli kimə gedib şikayət edəcəkdi, kimə deyəcəkdi ki, məni, köhnə partiya üzvünü, rəhbər işçini, Rayon Partiya Komitəsinin birinci katibini aldadıblar, mənə Nikolay onluğu əvəzinə, iki yüz əlli dənə qəlp onluq veriblər?.. Hardan idi səndə bu qədər pul ki, iki yüz əlli dənə Nikolay onluğu almaq istəyirdin, ay yoldaş birinci katib? Hər halda, bundan sonrası Əbdül Qafarzadənin yox, M.P. Qəriblinin özünün qayğısı idi...

...Həmin aprel günü bu hadisə artıq keçmiş zamanların hadisəsi idi və o bomba hələ ki, partlamamışdı; diş həkimi Nəcəf Ağayeviçin çil-çil kürən sifəti, qıpqırmızı saçı, qaşı, kirpiyi Əbdül Qafarzadənin gözlərinin qabağından çəkildi və kişi Fərid Kazımlı ilə söhbətə qayıtdı:

– Qurddu deyirsən?

– Bəs nədi? Görmürdün, o vaxt deyirdi ki, ərizə verib gedəcəyəm... Bəs nə oldu?

– Vəzifə şirin şeydi də... – Bu sözlərin özü də ikibaşlı idi, çünki Fərid Kazımlı özü də vəzifə sahibi idi və indi onun qəbul otağında oturub qəbul gözləyən bir çox insanın müqəddəratı bu adamın əlində idi.

– Şirin şeydi, onda fason eləməsin... Qurddu, qurd.

Əbdül Qafarzadə bayaqkı sözlərini təkrar etməyi lazım bildi:

– Qurddu, qoy olsun də... Bəs, biz nəyik, dovşan-zadıq?

Bu açıq-aşkar hədə-qorxudan Fərid Kazımlı da öz payını götürməli idi. Rayon Icraiyyə Komitəsinin sədri:

– Vallah, – dedi, – sizin içinizdə baş çıxarmaq, sağ-salamat qalmaq çətin işdi... Sən hər tərəfdən özünü straxavat eləyirsən. Bəs, mən özümü necə straxavat eləyim? Hə? Bunu heç fikirləşmisən?

Əbdül Qafarzadə daha gülümsəmədi, həmişəki ciddi ifadə ilə:

– Bunu gərək sən özün fikirləşəsən də, başuva dönüm sənin – dedi. – Ayağa qalxdı və pencəyinin döş cibindən indicə evdə hazırladığı zərfi çıxarıb mizin üstündə sədrin qabağına qoydu.

Sədr zərfə baxdı, sonra mizin orta yeşiyini çəkdi və zərfi götürüb yeşiyə qoydu, Əbdül Qafarzadənin açıq-aşkar hiss elədiyi bir gileylə:

– Özün də aya-ilə dönmüsən... – dedi.

– Bağışla, bu dəfə bir-iki gün gecikdirdim, amma, vallah, işim yaman çoxdu, heç başımı qaşımağa vaxt tapmıram... Gedə bilərəm?

– Bir sözüm vardı sənə... – Fərid Kazımlı vəzifəcə özündən qat-qat aşağı olan Əbdül Qafarzadədən bir şey xahiş edəndə, həmişə tutulurdu, çətinlik çəkirdi. – Baldızım, oğlunu evləndirib axı...

– Mübarək olsun!

– Indi Moskvaya gedirlər, svadebni puteşestviyaya...

– Sağ-salamat gedib-qayıtsınlar!

– Moskvada qastinisa məsələsinə kömək eləyə bilərsən?

– Nə vaxt gedirlər?

– Sabah.

– Axşam zəng eləyib sənə deyərəm ki, hansı mehmanxanaya düşsünlər. Gedə bilərəm?

– Get də...

Əbdül Qafarzadə kabinetdən çıxmaq istəyəndə, birdən ayaq saxladı, sədrə tərəf gəldi:

– Deyəsən, mən də skleroz olmağa başlayıram... Sən elə elə ki, yol çəkmək üçün asfalt sexi açım. Nə imkanın varsa, elə. Qoy açım o sexi. Hələ ki, başqa adama demirəm, sənə deyirəm, kömək elə...

Bu da bir xəbərdarlıq idi, Fərid Kazımlı bunu yaxşı başa düşürdü və Əbdül Qafarzadənin də sözdə yox, həqiqətdə imkanlarını yaxşı bilirdi.

Əbdül Qafarzadə təkrar etdi:

– Kömək elə... həm qəbiristanlıqda abadlıq olsun, həm planı yaxşı verək, həm də ki... çox yaxşı olar. Uzağa getmirəm heç, bax, Bakının o köhnə məhəllələrində binalar ki, var e, hamısının damı qırdandı. Sayı-hesabı yoxdur o cür binaların, payızda, qışda da damları su buraxır, təmir elətdirə bilmirlər. Qırçı, day demək olar ki, yoxdu şəhərdə. Mən onların təmirinə başlasam, bilirsən nə olar? Bu pulu, sayıb qurtarmaq olmaz... Sənin də işlərin yaxşı olar...

Fərid Kazımlı yaraşıqlı çeşməyinin arxasından yenə də zəndlə Əbdül Qafarzadəyə baxdı və:

– Baxarıq... – dedi.

Əbdül Qafarzadə sədrin kabinetindən çıxdı.

Zərfdə, həmişəki kimi, min manat pul var idi.

## 4

## QANUNLA ZARAFAT ELƏMƏK OLMAZ

Murad İldırımlı dörd illik tələbəliyi ərzində yalnız bir dəfə şəhər qəbiristanlığına gəlmişdi (onda «Hər şey keçib gedir...» adlı bir hekayə yazırdı – indiyə qədər Muxtar Xudavəndənin yeşiyindədi, – buna görə də qəbiristanlığı görmək lazım idi), bir küncdə dayanıb hansı bir dəfn mərasimini isə müşahidə etmişdi və o zaman qəbiristanlığı belə nəhəng, belə ucsuz-bucaqsız görməmişdi. Həmin aprel günü isə tələbə, Xosrov müəllimlə birlikdə Qəbiristanlıq Idarəsində oturub müdiri gözləyə-gözləyə Tülkü Gəldi Qəbiristanlığı barədə fikirləşirdi; tələbəyə elə gəlirdi ki, bu balaca gözləmə otağının havası da cürbəcür qazlardan yox, kiçicik qəbir daşlarından ibarətdir. Onuncu sinfi ki, bitirəndən sonra birinci dəfə kənddən çıxıb gəlib Bakını görmüşdü, o zaman bu şəhərin böyüklüyü, bu şəhərin soyuqqanlığı, bir-birini tanımayan, elə hey harasa tələsən adamların çoxluğu, avtobuslardakı, trolleybuslardakı, basa-bas Murad İldırımlını necə sarsıtmışdısa, necə təsir etmişdisə, Tülkü Gəldi Qəbiristanlığının da böyüklüyü, yan-yana düzülmüş və ucu-bucağı görünməyən qəbir daşlarının lal sükutu indi onu eləcə sarsıtmışdı, ona eləcə təsir etmişdi.

Qəbiristanlıq Idarəsinin yolunu tanımadıqları üçün, Xosrov müəllimlə avtobusdan Tülkü Gəldi Qəbiristanlığının aşağı başında düşmüşdülər və qəbirlərin arası ilə də xeyli yol getdilər. Bütün qəbiristanlıq bomboş idi və Xosrov müəllimlə tələbə Murad İldırımlı Qəbiristanlıq Idarəsinin yerini heç kimdən soruşa bilmirdilər. Biri arıq, uzun və iri addımlı, o biri gödək, yöndəmsiz və yanındakı ilə ayaqlaşmaqdan ötrü, az qala, yüyürən bu iki nəfəri – bu cavanı və qocanı nimdaş əyin-başlarının kasıbçılığı eyniləşdirirdi, ikisinin də baxışında, sifətində,

hərəkətlərində bir köməksizlik, əlacsızlıq, acizlik var idi və bu da onları o bomboş Tülkü Gəldi Qəbiristanlığında daha artıq miskin göstərirdi və bu dəm onların o miskinliyi ilə o qəbirlərin də arasında, elə bil ki, bir oxşarlıq var idi.

Xosrov müəllim həmişəki kimi, sükut edirdi, amma birdən-birə tələbənin bütün bədənindən bir qorxu hissi keçdi: tələbəyə elə gəldi ki, Xosrov müəllim Qəbiristanlıq Idarəsinin yolunu indicə bu qəbir daşlarından soruşacaq...

Qəbirlərin arası ilə dolaşdıqca, o saysız-hesabsız qəbir daşlarına həkk olunmuş qocaların, cavanların, uşaqların, qadınların, kişilərin, oğlanların, qızların şəkillərinə baxdıqca, tələbəyə elə gəlirdi ki, bütün dünya, əslində, bu cür soyuq şəkillərdən ibarətdir və özü də, yəni tələbə Murad İldırımlı da bu cür bir şəkildir və indi gedib Qəbiristanlıq Idarəsini tapmağının da, orada o yazıq Xədicə arvad üçün yer götürməyinin, məhəllə kişilərini, məhəllə arvadlarını sevindirməyinin də heç bir mənası yoxdur və ümumiyyətlə, o dəm tələbə üçün yalnız öz yaşayışı, yalnız öz hissləri, öz düşüncələri, öz iztirabları yox, bütün həyat tamam lazımsız bir şey görünürdü.

Xosrov müəllimin uzun qara plaşının, tünd göy şalvarının, böyürlərinə səliqə ilə yamaq tikilmiş qara ayaqqabılarının, köhnə yaşıl şlyapasının içində indi o arıq vücud, elə bil, daha yox olub getmişdi, elə bil, o qara ayaqqıbılar, o tünd göy şalvarın adda-budda palçığa, toza-torpağa bulaşmış balaqları, o uzun qara plaş öz-özünə hərəkət edirdi, onlar canlı insan əynində deyildilər, içəriləri tamam boş idi...

Qəbiristanlıq müdirinin kabinetinin qarşısındakı balaca gözləmə otağında vaxtıyla, görünür, çox gözəl olmuş, amma daha yaşlaşmış, böyrəkləri xəstə olduğu üçün gözlərinin altı torba bağlamış bir qadın başını aşağı salıb makinada sürətlə yazırdı və makina dillərinin o sürətli səsi gəldikcə, içərisi boş o balaqlar, o ayaqqabılar, o plaş tələbə Murad İldırımlının təsəvvüründə eləcə bir sürətlə də qəbirlərin arasında dolaşmağa davam edirdi... Sonra tələbə tələsik sağ əlini ağzından çəkdi ki, baş barmağının dırnağını çeynəməsin.

Xosrov müəllim özü isə plaş əynində, şlyapa başında gözləmə otağının lap küncündəki kürsüdə oturub əllərini dizlərinin üstündə birləşdirmişdi, hərdənbir barmaqlarını sındırırdı və qımıldanmadan gözlərini müdirin otağının içi pambıq doldurulmuş qəhvəyi meşin qapısına zilləmişdi (... Şirinin isə iri gözlərinin rəngi uzaq və əbədi bir keçmişdə qalmış o nigarançılığa qara bir rəng çəkmişdi...).

Makinaçı qadın barmaqlarının sürətini dayandırmadan hərdənbir gözlərini makinadan çəkib Xosrov müəllimə baxırdı, sonra tələbəyə nəzər salırdı, təzədən başını çap elədiyi vərəqənin üzərinə əyirdi və onda makina dillərinin sürəti daha da artırdı, elə bir təəssürat yaranırdı ki, makinanın dilləri yalnız o ağ vərəqə dəymir, bu balaca gözləmə otağının bütün künc-bucağını döyəcləyir.

Gözəl və cavan katibə qızın qarşısındakı taxta mizin üstündə cəmi bir dənə qıpqırmızı telefon var idi və o telefon tez-tez zəng çaldıqca katibə dəstəyi götürüb hələ yeniyetməlik cırlığını saxlamış səsiylə tutuquşu kimi üç kəlmədən ibarət cavab verirdi:

– Yoldaş Qafarzadə yoxdur...

– Yoldaş Qafarzadə yoxdur...

– Yoldaş Qafarzadə yoxdur...

Katibə qız telefon zənginin səsini azaltmışdı və o qırmızı aparat hər dəfə ciyildədikcə tələbəyə elə gəlirdi ki, zəng eləyən, yoldaş Qafarzadəni axtaran bayaq araları ilə dolaşdıqları o qəbir daşlarıdı...

Hərdən telefonla nəsə deyirdilər, katibə qız hiss olunan bir ciddi-cəhdlə deyilənləri blaknota yazırdı və belə vaxtlarda makinaçı qadın katibə qıza baxırdı, güclə seziləcək bir təbəssümlə (istehza idi? paxıllıq idi? xəbislik idi? ya nə idi?) gülümsəyirdi.

Bu gözəl və cavan katibə qız hər dəfə Qafarzadənin familini çəkəndə Xosrov müəllim gözlərini müdirin meşin qapısından çəkib telefona baxırdı, sonra yenə gözlərini o qəhvəyi meşin qapıya zilləyirdi.

O telefonun qıpqırmızı rəngi elə bil ki, nəyə görəsə o meşin qapı ilə, makinanın o yeknəsəq səsiylə, Xosrov müəllimin cınqırını çəkmədən kürsüdə oturub gözlərini müdirin qapısına dikməyi ilə, ümumiyyətlə, bu balaca gözləmə otağının döşəməsinə sərilmiş köhnə xalça ilə də, tutqun boz rəngli divarları və eləcə də boz rəngli taxta tavanı ilə də gözə çarpan, istər-istəməz, diqqəti cəlb edən bir təzad təşkil edirdi.

Müdir içəridə yox idi. Bayaq gəlib kabinetinə girməyi ilə təzədən çıxıb getməyi bir oldu və tələbə ilə Xosrov müəllim macal tapıb müdirin yanına gedə bilmədilər. Indi müdirin qayıdıb gəlməyini gözləyirdilər, vaxt isə gedirdi və yazıq Xədicə arvadın həyətinə, küçə qapısının ağzına toplaşmış məhəllə kişiləri, Xədicə arvadın evində vurnuxan məhəllə arvadları yəqin Qəbiristanlıq Idarəsinin yox, tələbə ilə Xosrov müəllimin qarasına deyinə-deyinə onların yolunu gözləyirdi.

Tələbə döşəməyə salınmış o köhnə xalçaya baxırdı və ona elə gəlirdi ki, bu xalça illərdən bəri dəfn olunmağa aparılan meyitlərin (özü də kimsəsiz meyitlərin...) üstünə salınıb, beləcə süzülüb, köhnəlib və indi daha yararsız olduğu üçün gətirilib bura salınıb və tələbə ayaqlarının altındakı o xalçada bir lırtlıq hiss etdi, elə bil ki, bayaq Xədicə arvadın göyümtül adyala sərilmiş cansız qılçı indi bu xalçanın altında idi və ümumiyyətlə, tələbə Murad İldırımlı üçün bu balaca gözləmə otağındakı bütün əşyalarda bir qəbir soyuqluğu var idi, hətta o makinaçı qadın da, o cavan katibə qız da, hərdən elə bil ki, oturub makinada nəsə yazan, telefon zənglərinə cavab verən meyitlər idi, bir azdan yenə də gedib Tülkü Gəldi Qəbiristanlığındakı qəbirlərində uzanacaqdılar...

Xosrov müəllimin barmaqları hərdən bərk şaqqıldayırdı və həmin anlarda tələbə Murad İldırımlı o nazik, uzun tüklü və qırışlı barmaqlara baxırdı – bu barmaqlar özləri də döşəməyə salınmış bu köhnə xalça kimi, tabutdan, meyitdən, qəbirdən xəbər verirdi.

Tələbənin ürəyi qısılırdı.

Tələbə başa düşürdü ki, onun yerinə bir başqası olsaydı, güman ki, bu qədər oturub müdiri gözləməyəcəkdi, Qəbiristanlıq Idarəsində kimisə tapıb danışacaqdı, bazarlaşacaqdı və yazıq Xədicə arvad üçün bir yer düzəldəcəkdi; tələbə isə Qəbiristanlıq Idarəsində heç kimlə danışa bilmədi, kimə yaxınlaşırdısa: «– Bilmirəm... Bilmirəm...» – deyib heç üzünə də baxmırdılar. Xosrov müəllim isə sükutla yalnız tələbəni müşayiət edirdi, ağzını açıb bir kəlmə söz demirdi və belə anlarda tələbə birdən-birə daxilən Xosrov müəllimə qarşı qəzəblənib coşurdu, bu yaşlı adamın beləcə kölgə kimi dolaşmağına, əfəlliyinə hirslənirdi, amma qəribə idi, Xosrov müəllimdə tələbənin hələ özü üçün ayırd edə bilmədiyi nəsə elə bir cəhət vardı ki, ona uzun müddət hirslənmək mümkün deyildi və tələbənin içini dolduran o

qəzəb birdən-birə də soyuyurdu, bu dəfə də tələbə Murad İldırımlı sıxılırdı ki, öz acizliyinin şahidi yalnız özü deyildi, Xosrov müəllim də bunun şahidi idi.

Qəbiristanlıq Idarəsinin bu balaca gözləmə otağından kənardakı həyatı qarışqa yuvasında qaynayan bir həyata bənzəyirdi, hamı ora-bura tələsirdi, heç kim bir-birilə heç nə danışmırdı. Hamı nəyləsə məşğul idi, «–Bilmirəm... Bilmirəm...» – deyə-deyə hamı tələbəylə Xosrov müəllimi başdan eləyirdi, heç kim qulaq asmaq istəmirdi ki, tələbə də, qara qiyafəli, yaşıl şlyapalı bu arıq və uzun kişi də bura nə üçün gəliblər və nə istəyirlər. Nəhayət, hər iki əlində ağzınacan palçıqla dolu iki vedrə aparan bir fəhlə Qəbiristanlıq Idarəsinin yuxarı tərəfində dayanıb daşyonan fəhlələrə nəsə göstərişlər verən bir rus oğlanı göstərib: «– Ode, gedün, danuşun oniynən... Vasilidi də... Oniynən danuşun...» – dedi.

O rus oğlan təmiz azərbaycanca danışırdı, iri göy gözlərini daşyonan fəhlələrdən çəkməyərək tələbənin tələm-tələsik dediklərinə qulaq asdı, sonra: «– Bizdə yer yoxdur, – dedi və yalnız bu sözlərdən sonra iri göy gözlərini fəhlələrdən çəkib tələbəyə baxdı, Xosrov müəllimə sınayıcı bir nəzər saldı. – Bəlkə bir yer tapdım sizə... – dedi. Aşağı başda zeytunnarın yanında bir yer elədim bəlkə... Gedib baxarsuz... Qiyməti dörd yüz manat olacek».

Tələbənin cibində heç dörd yüz qəpik də yox idi və o iri göy gözlü rus oğlan bunu o saat başa düşdü: « – Yer yoxdu... – dedi. – Zeytunluqda da yer yoxdu... Gedün təzə qəbiristanlıqda basdurun...»

Tələbə yenə nəsə mızıldadı, amma o rus oğlan daha ona qulaq asmadı və daşyonan fəhlələrə göstərişlərini verməyə başladı.

Indi neçə saat idi ki, müdiri gözləyirdilər.

Həddən artıq kök, yanaqları alma kimi qıpqırmızı və hamar bir milis mayoru yenə də içəri girib katibə qızdan:

– Əbdül Orduxanoviç gəlmədi? – soruşdu.

Qız yenə də ayağa qalxdı və:

– Xeyr, hələ gəlməyib... – dedi.

Makinaçı qadın bayaqkı təbəssümüylə gülümsədi.

Bu kök milis mayoru üçüncü dəfə idi ki, gəlib müdiri soruşurdu və bu cavan qız da hər dəfə onu görəndə ayağa qalxırdı, görünür, o milis mayorunun paqonları bu cavan qızı eləcə yerindən qaldıran maqnit kimi bir şey idi, bu da dünyagörmüş o makinaçı qadının gözlərindən yayınmırdı, dodaqlarına eləcə bir təbəssüm gətirirdi.

Milis mayoru yenə də geri dönüb bu balaca gözləmə otağından çıxmaq istəyəndə müdir həyət qapısından içəri girdi və yerində oturmağa macal tapmamış katibə qız bədənini mil kimi tarım çəkib dayandı. Ən maraqlısı isə bu oldu ki, o kök mayorun da lırt bədəni, elə bil, birdən-birə bərkidi, çiyinləri qalxdı, qarnı nisbətən balacalaşdı.

Mayor:

– Salam Əbdül Orduxanoviç... – dedi.

Müdir çeşməyinin altından diqqətlə mayora baxdı:

– Sən də burdasan? – dedi. – Gəl görüm...

Müdir nə katibə qıza, nə makinaçı qadına, nə ayağa qalxmış tələbə Murad İldırımlıya, nə də eləcə küncdəki yerində oturmuş Xosrov müəllimə baxdı, gözləmə otağının ortasından keçib kabinetinə girdi, mayor da onun ardınca içəri girdi və qapını bağladı.

Tələbə içi pambıqla doldurulmuş o qəhvəyi rəngli meşin qapıya baxdı, sonra da Xosrov müəllimə baxdı.

Xosrov müəllim daha artıq bir cəhdlə barmaqlarını sındırırdı.

Tələbə bilmirdi ki, təzədən yerində otursun, ya nə eləsin...

Bu vaxt makinaçı qadın başını çap elədiyi vərəqin üstündən qaldırıb:

– Siz də gedin sözünüzü deyin, – dedi. – O birisi bizim sahə müvəkkilidir. Bir də gördün, iki saat oturdu içəridə... Gedin... – Sonra yerində qurcalanan katibə qıza baxdı: – Işin olmasın, qoy girsinlər içəri...

– Acıqlanar axı...

– Heç nə olmaz. Dörd saatdı gözləyirlər burda...

Gözəl və cavan katibə qız gözlərini döyə-döyə makinaçı qadına baxdı.

Xosrov müəllim ayağa qalxdı, tələbə irəlidə, Xosrov müəllim də onun ardınca qapını açıb müdirin kabinetinə girdilər və qarşısında oturmuş milis mayoruna nəsə deyən müdir təəccüblə onlara baxdı.

Tələbə:

– Salam... – dedi.

Müdir:

– Əleykümə... – deyə cavab verdi və bu cavab salam almaqdan daha artıq, elə bil ki, sual idi, yəni nə istəyirsiniz və özbaşına nə üçün bu otağa soxulmusunuz?

Tələbə tələsə-tələsə:

– Bizim... – dedi. – Bizim... Sizdən xahiş edirik... Qoca arvad vəfat edib... Onu burda basdırmaq... istəyirik... Lazımdı ki, onu burada basdıraq...

Müdir daha təəcüblə yox, maraqla bu balacaboylu, pırpızaq saçlı, qarabəniz sifətinin cizgiləri kobud oğlana baxa-baxa:

– Onu basdırmaq lazımdı? – soruşdu.

– Bəli...

– Basdır də... Bəs məndən nə istəyirsən?..

– Yer istəyirik də... Yer...

– Balam, mən yer bölənəm?.. Bəs bu kimdi belə? – Müdir Xosrov müəllimə tərəf işarə etdi.

– Bu da... Bu da mənimlə kirayənişindi...

– Ölən anondu?

– Yox... Ev sahibəsidi...

– Bala, lap yaxşı də... Ölüb, Allah rəhmət eləsin... Kim yapışıb qalacaq bu dünyada?.. Hamımız öləcəyik də... Bəs məndən nə istəyirsən?

– Yer istəyirik də... Arvadı basdırmaq üçün yer...

– Mən yer bölən döyüləm, başuva dönüm sənin... burda yer yoxdur... Hökumət gül kimi təzə qəbiristanlıq açıb, aparın o rəhmətliyi orda basdırın də...

Tələbə milis mayoruna baxdı və fikirləşdi ki, bu yerdə axıra qədər mübarizə aparmaq lazımdı. Hökumət idarəsindəki biabırçılıqları açıb tökmək lazımdı, lap elə bu müdirin özünü mayorun yanında ifşa etmək lazımdı.

– Yer var!.. Yer üçün bizdən pul istəyirlər!..

– Bəs, pulsuz yer olar?– Müdir bu dəfə Xosrov müəllimi təpədən dırnağacan süzdü və ya tələbənin beləcə ehtirasla, beləcə birbaşa dediyi sözlərə, ya da ki, Xosrov müəllimin qiyafəsinə gülümsədi.

Tələbə hirslə və ürəyi döyünə-döyünə müdirə yox, milis mayoruna baxdı və:

– Yox e!.. Bizdən rüşvət istəyirlər! – dedi.

– Rüşvət? – Müdir də milis mayoruna baxdı və bu dəfə açıq-aşkar bir ləzzətlə gülümsədi. – Ola bilməz.

– Dörd yüz manat pul istədilər bizdən! – Tələbə ürəkləndi və o rəqəmi bir də təkrar etdi. – Dörd yüz manat!

– Sən rüşvətə qarşı mübarizə aparırsan?

Tələbə bilmədi ki, bu suala necə cavab versin, amma müdir daha onun cavabını gözləmədi – maraq itmişdi – və bu uzunsifət çeşməkli kişinin sifətinin ifadəsi göz-görəti dəyişdi, sərt bir tərzdə:

– Get, – dedi. – Get ölünlə məşğul ol!Vaxtım yoxdu!

Müdirin sözləri, sifətinin ifadəsi və ümumiyyətlə, dünyanın işləri birdən-birə tələbə Murad İldırımlının bütün içini bir etiraz, bir üsyan ehtirası ilə doldurmuşdu və əsəbdən tələbənin çənəsi əsirdi, ürəyi uçunurdu; tələbə udquna-udquna:

– Qanunsuzluqdu bu!.. – dedi. – Qanunsuzluqdu!.. Sovet Ittifaqında belə qanunsuzluq eləmək olmaz...

Müdir milis mayoruna baxdı, astadan, amma eyni sərt ifadə ilə:

– Dur Məmmədov, dur Sovet Ittifaqının qanununu göstər buna!– dedi.

Milis mayoru o dəqiqə ayağa qalxdı, cəld yaxınlaşıb, tələbənin qolundan yapışdı və tələbə milis mayorunun barmaqlarında bu kök adamın lırt bədəninə yaraşmayan bir polad möhkəmliyi hiss etdi.

– Gəl!.. Gəl!.. – Milis mayoru bir əli ilə tələbə Murad İldırımlını, az qala, yerdən qaldırıb özüylə birlikdə kabinetdən çıxartdı, sürətli addımlarla gözləri bərələ qalmış katibə qızın yanından ötüb gözləmə otağının həyət qapısını açdı, amma tələbənin qolunu buraxmadı, özü də onunla birlikdə həyətə çıxdı və eyni sürətli addımlarla tələbəni həyətin ortasındakı darvazaya sarı dartdı.

Mayor qolundan yapışıb elə dartırdı ki, tələbə heç bir tərəfə çevrilə bilmirdi, mayorun sürətli addımları müqabilində, az qala, qaça-qaça gedirdi və hirs onu boğduğu üçün, heç nə deyə bilmirdi, hətta qışqıra da bilmirdi. Xosrov müəllim də əllərini qara plaşının ciblərinə soxub sürətlə onların ardınca gedirdi. Mayor sol əli ilə darvazanın bala qapısını açdı və sağ əli ilə tələbəni zərblə dişarı itələyib:

– Bir də səni buralarda görməyim!– dedi.

Xosrov müəllim də Qəbiristanlıq Idarəsinin həyətindən çıxdı, bir neçə an üzüaşağı, tələbə ilə yanaşı addımladılar və birdən-birə tələbə daha heç cür özünü saxlaya bilmədi, burnunu çəkə-çəkə, səsini boğmağa çalışa-çalışa ağlamağa başladı, yaş gözlərindən axıb dodaqlarına çatanda və Murad İldırımlı o göz yaşının şor təmini ağzında hiss edəndə daha da için-için ağladı. Xosrov müəllim isə eləcə sükut içində tələbə ilə yanaşı addımlayırdı...

... Avtobus gəlib çıxanda və onlar iş vaxtının sonu olmadığı üçün boş avtobusa minəndə tələbə Murad İldırımlı daha sakitləşmişdi və indi yenə də öz acizliyinin, öz kiçikliyinin xəcalətini çəkirdi, amma bu vaxt qarşıda oturub gözlərini naməlum bir nöqtəyə zilləmiş Xosrov müəllimə baxdı və Xosrov müəllimin gözlərində elə bir ağrı gördü ki, içini bürümüş xəcalət hissi yox olub getdi. Tələbə – müşahidə qabiliyyəti olan bu cavan adam – indiyə kimi heç vaxt heç kimdə Xosrov müəllimin gözlərindəki qədər bir ağrı görməmişdi.

**5**

## TONQAL

Həyətdəki qoca armud ağacının budağına qonmuş o rəngbərəng, o zəhmli böyük xoruz qaz boğazı kimi, yoğun boğazını uzadıb qart səsiylə bir də banlayandan sonra, faytonçu Ovanes oturduğu yerdə qurcalandı, əlində tutduğu yüyəni oynada-oynada və qurumuş böyürtkən kollarından salınmış çəpərin üstündən həmin rəngbərəng xoruza da baxa-baxa həyətə tərəf qışqırdı:

– Gün günortanı keçdi ki, ara uçitel!.. Ara, tez elə də!.. – Sonra faytonçu Ovanes öz-özünə deyindi: – Ara musurman qonşu kəndə gedəndə də evdən elə ayrılır, elə bil, Amerikaya gedir!..

Faytona qoşulmuş o qoşa atın ikisi də başını aşağı salıb dincəlirdi, elə bil ki, uzun yolqabağı güc toplayırdı; o atlar da özlərindən əvvəlki atlar kimi, faytonçu Ovanesin öz-özünə beləcə deyinməyinə, danışmağına adət etmişdilər.

Hadrut orta məktəbində rus dilindən dərs deyən Xosrov müəllim 1929-cu ilin bir yaz səhəri Azərbaycan SSR Xalq Maarif Komissarlığının Şuşada keçirəcəyi biraylıq seminara gedirdi və otuz il idi ki, Şuşa ilə Hadrut arasında sərnişin-müştərilər daşıyan, özü də, faytonu da, söz-söhbəti də dolama yoxuşlar kimi, meşələr kimi, sıldırım qayalar kimi, o gözəl Hadrut – Şuşa yolunun bir hissəsinə çevrilmiş Ovaneslə axşamdan vədələşmişdi ki, sübh tezdən gəlib onu götürsün.

Qaba və güclü caynaqları ilə qoca armudun budağından yapışmış o zəhmli xoruz yenə qart səsiylə boğazını arıtladı və təzədən banlamağa macal tapmamış faytonçu Ovanes həyət tərəfə bir də qışqırdı:

– Ara, uçitel!.. Ara, günorta gəldi!..

O böyük xoruz armud ağacının üstündən faytonçu Ovanesə çəpəki və acıqlı bir nəzər saldı və qaqqıldaya-qaqqıldaya həyətə atıldı, sinəsini irəli verib, başını dik tutub eləcə narazılıqla da qaqqıldaya-qaqqıldaya toyuqların arası ilə ora-bura gəzişməyə başladı.

Sübh tezdən Hadrutdan Şuşaya çıxan və adətən, günün ikinci yarısı Şuşadan sərnişin götürüb təzədən Hadruta qayıdan faytonçu Ovanes Xosrov müəllimin həyət darvazasının qabağında beləcə vaxt itirməyindən dilxor olmuşdu və yenə də öz-özünə deyinirdi:

– Bunlarla doqovaritsa eləmək düzgün deyil, məzhəb haqqı!..

Beləcə deyinməyinə baxmayaraq, Ovanes Xosrov müəllimin xətrini istəyirdi, uzunboylu, arıq, heç kimlə işi olmayan, bütün fikri-zikri məktəblə, maariflə məşğul bu adam sakitliyi, xeyirxahlığı, mədəniyyəti ilə Hadrut camaatının, o cümlədən də faytonçu Ovanesin hörmətini qazanmışdı.

Yüz cürə dərdi-səri olan adamlar – birinin qohumunu nahaq yerə həbs etmişdilər, o birinin həyətyanı sahəsini düzgün müsadirə etməmişdilər, üçüncüsünün səsini almışdılar (bu, o deyən söz idi ki, səsi alınmış şəxs cəmiyyətdən kənar edilirdi, onun hansı bir səsvermədəsə iştirak etmək, harasa şikayət etmək ixtiyarı yox idi), camaatı heç nəyin üstündə tuturdular, sürgün edirdilər və sairə – Xosrov müəllimin yanına köməyə gəlirdilər, xahiş edirdilər ki, Xosrov müəllim rus dilində onların adından yoldaş Stalinə, yoldaş Rıkova, yoldaş Buxarinə şikayət ərizələri yazsın və Xosrov müəllim də bu xahişlərin, demək olar ki, heç birini yerdə qoymurdu, o adamın ki, haqlı olduğunu görürdü, əlindən gələni əsirgəmirdi, ərizələri

də havayı yazırdı, pul almırdı, azərbaycanlıların gətirdiyi kərə yağını, motalı, əti, hətta diri qoyunu, ermənilərin gətirdiyi toyuğu, kolbasını, yumurtanı, cürbəcür gözəl şorabaları, tut arağını geri qaytarırdı, heç nə götürmürdü. Xosrov müəllimin fikrinə görə, müəllim əvvəla gərək özü təmizliyin timsalı olaydı, ikincisi də zəmanə mürəkkəb idi, yeni həyat qurulurdu və bu quruculuq dövründə nahaq incidilənlər olurdu– o adamlara kömək eləmək də, elə ilk növbədə müəllimin borcu idi; bir də ki, camaat pis yaşayırdı, çox pis yaşayırdı və belə bir məqamda camaatın ruzisinə şərik çıxmaq müəllimə yaraşmazdı.

Faytonçu Ovanes də elə buna görə, bu hörmətə görə razılıq verərək gəlib Xosrov müəllimi evlərinin qabağından götürürdü, yoxsa ki, həmişə bazar başında dayanıb faytona sərnişin mindirirdi. Faytonçu Ovanes burasını da fikirləşmişdi ki, Xosrov müəllimdən yol pulu almayacaq, ikiyerli açıq faytona ikinci adam da götürməyəcək ki, Xosrov müəllimin yeri rahat olsun, çünki Xosrov müəllim elə faytonçu Ovanesin özü üçün də rus dilində bir neçə müftə şikayət ərizəsi yazmışdı: rayon hökuməti kişinin faytonunu əlindən almaq istəyirdi və faytonçu Ovanes sonuncu ərizələrdən birini Azərbaycan SSR Mərkəzi Icraiyyə Komitəsinin sədri Q.Musabəyovun, o birini isə SSRI Xalq Komissarları Sovetinin sədri A.I.Rıkovun adına yazdırıb, savadı olmadığı üçün həmin ərizələrin altından da barmaq basmışdı.

Nəhayət ki, Xosrov müəllimgilin yaşadığı o balaca birmərtəbəli evin qapısı açıldı, əvvəlcə əlində kiçik çamadan tutmuş Xosrov müəllim içəridən çıxdı, sonra bir-birinin ardınca Xosrov müəllimin üç uşağı evdən çıxdı, sonra da Xosrov müəllimin cavan arvadı Şirin çıxdı.

Faytonçu Ovanes çəpərin üstündən Xosrov müəllimi görəndə səbri tamam tükənmiş halda öz-özünə:

– Ara, məzhəb haqqı, Allaxa şükür!.. – dedi, amma o balaca uşaqları görəndə, o balaca uşaqların da, o cavan gəlinin də evin kişisini necə bir ürəklə yola saldıqlarına tamaşa eləyəndə, ömrünü yollarda keçirmiş bu adamın hirsi o saat soyudu, hətta özü öz qarasına deyinməyə başladı: – Ara, məndən səbr deyən şey yoxdu ki!..

Xosrov müəllimin üç uşağı var idi, üçü də oğlan idi: altı yaşında Cəfər, dörd yaşında Aslan, iki yaşında Azər və indi bu üç uşağın üçü də ömürlərində birinci dəfə atalarını harasa yola salırdılar; indiyə qədər Xosrov müəllim həmişə ailəsi ilə bir yerdə olmuşdu və hara getmişdisə (əslində, getməli elə bir yerləri də yox idi), həmişə ailəsilə birlikdə getmişdi və bu uşaqlar da, Şirin də ona o qədər öyrəşmişdilər ki, o bir aylıq Şuşa seminarı xəbəri gələndən bu tərəfə, bir həftəydi ki, Xosrov müəllimi yola salmağa hazırlaşırdılar.

Şuşada milli məktəblərdə rus dilinin tədrisi üzrə çağırılan o seminara təkcə Bakıdan yox, Moskvadan da, Tiflisdən və Yerevandan da mütəxəssislər gələcəkdi və Xosrov müəllim Şuşaya həvəslə gedirdi, amma, eyni zamanda, ürəyində bir nigarançılıq da var idi: uşaqlar Şirinlə birlikdə bu bir ayı Hadrutda tək qalacaqdı. Düzdü, Hadrut camaatı hörmətcil və istiqanlı camaat idi, Xosrov müəllimin də xətrini istəyirdilər, amma, hər halda, düz bir ay müddətində Xosrov müəllim özü evdə olmayacaqdı, dünya da ki, qarışıq, bir tərəfdən bu kolxoz əhvalatı, bir tərəfdən çekistlər, bir tərəfdən də qıtlıq... Hətta Xosrov müəllim əvvəlcə fikirləşmişdi ki, uşaqları da, Şirini də özü ilə götürüb Şuşaya aparsın (kaş elə aparaydı!), amma sonra fikrindən daşındı: harda qalacaqdılar?

Yeddi il bundan əvvəl evləndikləri vaxtdan bəri birinci dəfə gedəcəyi bu səfərdən qabaq Xosrov müəllim uşaqların bir aylıq ununu,düyüsünü, qəndini, yağını – müəllimə hörmət edirdilər, tapırdı – alıb evə qoydu və 1929-cu ilin həmin yaz səhəri altı yaşlı Cəfər də, dörd yaşlı Aslan da, iki yaşlı Azər də Şirinlə birlikdə Xosrov müəllimi yola salmaq üçün eləcə həyətə çıxdılar.

Kimin ağlına gələ bilərdi ki, o vida – əslində əbədi bir ayrılıqdı və bu adamlar – Xosrov müəllimlə altı yaşlı Cəfər, dörd yaşlı Aslan, iki yaşlı Azər, bir də ki, Şirin bir daha heç vaxt görüşməyəcəklər?..

O böyük xoruz qart səsiylə qaqqıldaya-qaqqıldaya, qüvvətli ayaqlarını hirs-hikkə ilə irəli ata-ata həyətin ortasında o baş-bu başa gedirdi və toyuqlar da xoruzun nədənsə narazı qaldığını hiss edib, hərəsi bir tərəfə çəkilmişdi, xoruzla rastlaşmaq istəmirdi.

Uşaqlar səs-küy salmışdılar:

– Ata, sağ ol!..

– Ata, tez gəl!..

– Ata... Ata... – Bunu deyən iki yaşlı Azər idi, başqa söz deyə bilmirdi və balaca əlləri ilə şalvarın balağının üstündən atasının qılçını qucaqlamışdı.

Cəfər böyük idi və Cəfər hətta o dəm fəxr edirdi ki, atası belə uzaq (Hadrut ilə Şuşanın arası 41 km idi) səfərə gedir, amma sonralar – xeyli vaxt keçəndən sonra, qurtarmaq bilməyən tənha gecələr boyunca Xosrov müəllim həmişə bu son görüşü xatırlayanda, ilk növbədə, Aslanın dodağının qaçması, ağlamaq istəməsi gözlərinin qabağına gəlirdi, bir də ki, Şirinin iri, qara gözlərindəki o ifadə...

Şirin gülümsəyirdi, amma Şirinin o gülümsəyən gözlərində nəsə bir nigarançılıq var idi və elə bil ki, Şirinin gözlərinin rəngi o nigarançılığa keçmişdi, o nigarançılığa qara bir rəng çəkmişdi. Bəlkə Xosrov müəllimə sonralar belə gəlirdi?.. Hər halda, o son görüşdə bir nigarançılıq var idi və bu nigarançılıq yalnız səfərqabağı nigarançılıq deyildi, elə bil, Xosrov müəllim də, Şirin də, hətta Aslan da əvvəlcədən nəsə hiss eləyirdilər... Ya sonradan ona belə gəlirdi?..

Fayton tərpənəndə Şirin o faytonun ardınca bir dolu parç su atdı (amma o su o ailə üçün sayalı olmadı) və Ovanes də:

– Allax saxlasın dığaları, uçitel!.. – dedi. – O gün olsun toylarında oynayaq!..

– Sağ ol, Ovanes!..

Fayton Hadrutdan çıxıb Şuşaya tərəf üz tutdu və o yaz çağı yolun hər iki tərəfində o oyanmış torpağın gülünə, çiçəyinə baxa-baxa Hadrutdan uzaqlaşan Xosrov müəllim sabahdan Şuşada işə başlayacaq seminar barədə fikirləşirdi, Azərbaycan məktəblərində rus dilinin tədrisi ilə bağlı mülahizələrini götür-qoy edirdi və ümumiyyətlə, maarif məsələlərilə bağlı kəsir cəhətlər barədə düşünürdü. Indi hər il onlarla (hətta yüzlərlə!) məktəb açılırdı, uşaqlar ellikcə məktəbə getməyə, savad almağa başlayırdı və bütün bunlar, əlbəttə, gözəl işlər idi, bütün bunlar Xosrov müəllimin əslində hələ lap gənclik çağlarından ürəyində gəzdirdiyi arzu, istək idi ki, indi həyata keçirdi, amma burada, Xosrov müəllimin fikrinə görə, çox ciddi bir məqam var idi və o məqama ehtiyatla yanaşılmalıydı: kəmiyyət keyfiyyətə təsir etməməli idi, keyfiyyət aşağı düşməməliydi; belə bir təhlükəni isə Xosrov müəllim artıq nəinki hiss edirdi, əyani şəkildə görürdü, nadan müəllimlər yetişməyə başlamışdı, yavaş-yavaş əsl müəllimləri üstələyirdilər və bunun axırı hara gedib çıxacaqdı?

Xosrov müəllim rus dilinin əhəmiyyətini çox böyük hesab edirdi və Azərbaycan məktəblərində rus dilinin tədrisinə xüsusi fikir verilməli idi, xüsusi dərsliklər yazılmalı idi, gələcəkdə rus dilini bilməyən adam şikəst olacaqdı, elm, mədəniyyət, sənaye ki, bu cür inkişaf edirdi, rus dili Azərbaycan üçün bütün dünyaya açılan bir pəncərə olacaqdı və buna görə də Azərbaycan məktəblərində rus dilinin tədrisini elə bir səviyyəyə qaldırmaq lazım idi ki, valideynlər gələcəkdə uşaqlarını rus dilini yaxşı öyrənməkdən ötrü rus məktəblərinə verməyəydilər; o biri tərəfdən də rus məktəblərində Azərbaycan dilinin tədrisinə eyni dərəcədə ciddi fikir vermək lazım idi və bu dil öyrənmə qarşılıqlı əlaqədə olmalı idi – ağacın ucunu yalnız bir tərəfə əysəydilər, gələcəkdə o ağac sına bilərdi, elə eləmək lazım idi ki, o ağac təbii ucalsın, təbii qol-budaq atsın... Özü də bütün bunların bünövrəsi indi necə qoyulacaqdısa, gələcəkdə elə də olacaqdı və məsələ burasında idi ki, indiki o bünövrənin hazırlanması Xosrov müəllimin xoşuna gəlmirdi və bu barədə Şuşa seminarında danışacaqdı. V.I.Lenin «Oxumaq, oxumaq və yenə də oxumaq!» – demişdi, amma «Necə oxumaq?» – məsələsi indi naşı əllərə düşmüşdü...

Xosrov müəllim əsrin yaşıdı idi və Azərbaycanda Sovet hakimiyyəti qurulanda, yəni 1920-ci ildə artıq cavan bir müəllim idi, Qazaxda seminariyanı bitirmişdi və o vaxtdan bəri də Hadrutdakı məktəbdə rus dilindən dərs deyirdi. Cəmi 29 yaşı olmağına baxmayaraq, təcrübəli müəllim hesab olunurdu; təhsilini davam etdirmək, Azərbaycan Dövlət Universitetinə daxil olmaq istəyirdi və ümumiyyətlə, bu adam təbiəti etibarilə çox sadə və mülayim olsa da maarif məsələlərində təşəbbüskar, işgüzar idi, mərkəzi mətbuata kiçik məqalələr yazır, maariflə, xüsusən, rus dilinin tədrisi ilə bağlı cürbəcür məsələlər qaldırırdı və həmin məsələlər çox zaman rayon rəhbərlərinin xoşuna gəlmirdi...

Hadrutun yaşıl ağacları, qırmızı kirəmit damları arxada qaldı.

Ovanes başını arxaya çevirdi:

– Uçitel, – dedi. – Ayrapet yazıq da öldü də, bildin?

Xosrov müəllim diksindi və sonralar Bakıda, Sibirdə, təzədən Bakıda hər dəfə faytondakı o söhbəti xatırlayanda Xosrov müəllim həmin diksintini hiss edirdi, o yüngül diksintidəki nigarançılıq anını elə o vaxt – 1929-cu ilin o yaz çağında, o Şuşa yolunda olduğu kimi yaşayırdı.

– Dəllək Ayrapet?

– Ha!..

– Nə vaxt?

– Dünən geca...

Sonralar Ovaneslə olan o söhbəti xatırlayanda Xosrov müəllimə elə gəlirdi ki, həmin dəm, yəni dəllək Ayrapetin – yanaqlarından qan daman o sağlam adamın ölüm xəbərini eşidəndə, elə bil, yol boyu, o gözəl güllərin-çiçəklərin də üstünə birdən-birə nəsə qara bir kölgə çökdü, Şirinin gözlərindəki o qara nigarançılığın kölgəsi...

– Ara, sağlam adamıydı, ayağı sınmışdı da, damı padçinit eləyəndə yıxıldı da, balnisada yatdığı heç bir xafta olmadı... Xudyakov doxtur yaman nerviçat eləyir, uçitel!.. Mənnən qonşudu da evi! Bütün günü balnisadadı, Ayrapet uje dördüncü adamdı öldü balnisada, özü də sappasağ! Xudyakov doxtur çox nerviçat eləyir!..

M.N.Xudyakov Hadrut xəstəxanasının baş həkimiydi və Xosrov müəllim dünən məktəbdə də xəstəxanayla bağlı nəsə narahat bir söhbət eşitmişdi:bir palatada

dalbadal üç cavan adam ölmüşdü... Bu da, deməli, dördüncüsü... Bayaq həyətdəki o nigarançılıq, elə bil, təzədən Xosrov müəllimin içinə doldu və bu gözəl təbiət ilə, o sərin yaz səhəri Şuşaya qalxan dağ yolunun o səfası ilə həmin nigarançılıq heç cürə uyuşmurdu.

Ovanesin faytonu Xosrov müəllimi o nigarançılıqla birlikdə eləcə Şuşaya apardı və düz üç gündən sonra, Hadrutun girəcəyində qara bir bayraq asıldı, Hadrut bağlandı, gediş-gəliş kəsildi (Ovanes də faytonu ilə birlikdə Hadrutda qaldı), Hadrutun küçələri bomboş boşaldı, evlərin pəncərələri, qapıları kip qapandı.

Uzaqdan görünən dağların isə başı qardan ağappaq idi və o dağlar Hadrutun girəcəyində asılmış o qara bayrağın müqabilində dünyanın təmiz işlərindən, gözəl yerlərindən və əbədiliyindən xəbər verirdi. Əlbəttə, Hadrutda tapılmış taun epidemiyası o əbədiliyin yanında zərrənin heç milyardda biri də deyildi, bir heç idi, amma o «heç»də yüzlərlə, minlərlə insan həyatının müqəddəratı həll olunurdu.

Professor Lev Aleksandroviç Zilberin başçılığı ilə Bakıdan Hadruta gəlmiş və taunla gecə-gündüz ölüm-dirim mübarizəsinə başlamış bakterioloji dəstə hər axşam Hadrut məktəbinin (məktəbdə dərslər kəsilmişdi) binasındakı ən böyük sinif otağında yığışırdı, gün ərzində görülən işlərə yekun vururdu, sabahkı günün tədbirlər planını hazırlayırdı, professor Zilber də, onun təcrübəli köməkçisi Yelena Ivanovna Vostruxova da, patoloqanatom professor Şirokoqorov da, Moskvadan xüsusi gəlmiş bakterioloq həkim Vera Nikolayevna da, Saratovdan professor Zilberin dəstəsinə köməyə gəlmiş professor Suknev də, Rostovdan gəlmiş həkim Tinker də, bakterioloji dəstənin başqa üzvləri də müşahidələrini bir-birləri ilə bölüşürdülər. Taun qəddar, hiyləgər bir düşmən idi, yorulub əldən düşmüş, gecə-gündüz işləyən, işləyən və işləyən bu adamlar isə o adamcıl düşməni vəhşi bir heyvan kimi tutub dəmir qəfəsə salmaq, zərərsizləşdirmək istəyirdilər.

Həmin sinif otağında əvvəllər hərbi dərs keçilirdi, divardan cürbəcür tüfəng, tapança sxemləri asılmışdı, bir küncə əleyhqazlar yığılmışdı, boş güllə gilizləri əyani dərs vəsaiti kimi, pəncərənin taxta sürahısına düzülmüşdü və professor Zilber həmkarlarının mülahizələrinə qulaq asa-asa hərdən bu sxemlərə, əleyhqazlara, güllələrə baxırdı. Bu dəm bütün bu silah qorxulu yox, acınaqlı idi və insan xislətindəki anormallıqdan – bu söz professor Zilberin beynində xüsusi vurğu ilə ötüb keçirdi – xəbər verirdi: bir tərəfdən taun (vəba! xərçəng! cüzam!..) insanı, bax, beləcə məhv edirdi, bir tərəfdən də insanlar özləri bir-birini məhv etmək üçün beləcə tüfənglər, tapancalar icad edirdi, zəhərli qazlar hazırlayırdı, öldürücü bakteriyalar yetişdirirdi; bir tərəfdən bütün bunlardan necə istifadə etmək öyrədilirdi, bir tərəfdən də bunlardan necə qorunmaq öyrədilirdi. Əlbəttə, professor Lev Aleksandroviç Zilber, hər şeydən əvvəl, həkim idi, həmişə qırğının, silahın əleyhinə olmuşdu, amma insanın bir-birini öldürməsi, silah hazırlaması və silahın özü heç zaman – hətta Hadrut hadisəsindən çox-çox illər keçəndən sonra da – ona Hadrutdakı məktəb binasının o otağındakı kimi miskin görünməmişdi.

Moskvada SSRI Xalq Səhiyyə Komissarlığının Mikrobiologiya Institutunda şöbə müdiri işləyən professor Zilber bir neçə ay bundan əvvəl Azərbaycan SSR Xalq Səhiyyə Komissarlığının dəvəti ilə Azərbaycana gəlmişdi və indi Bakıda Mikrobiologiya Institutunun direktoru vəzifəsində işləyirdi, eyni zamanda, Azərbaycan Tibb Institutunda mikrobiologiya kafedrasına müdir seçilmişdi.

Üç gün qabaq – Ovanesin faytonu Xosrov müəllimi o gözəl dağ yolu ilə Şuşaya apardığı gün – gecə saat ikidə telefonun həmin gecənin sakitliyində daha artıq səksəkə ilə, təşvişlə cingildəyən zəngi professor Zilberi yuxudan oyatdı. Professor Zilber yuxulu-yuxulu əlini uzadıb telefonun dəstəyini götürdü və hələ zəng edənin səsini eşitmədən sövq-təbii hiss etdi ki, bu, adi telefon zəngi deyil; ona görə yox ki, belə bir səksəkə ilə gecənin sakitliyini pozdu, professor Zilber bu cür gecə zənglərini az eşitməmişdi; ona görə ki, qara olduğu üçün otağın qaranlığı içində görünməyən o telefon dəstəyində elə bir qeyri-təbii ağırlıq, əli ilə duyduğu elə bir qeyri-təbii kələ-kötürlük var idi ki, o ağırlıq da, o gözə-görünməz kələ-kötürlük də o gecə çağı dünyanın bəd əməllərindən, pis işlərindən xəbər verirdi...

Həyəcanlı bir kişi səsi heç dəstəyi qaldıranın kim olduğunu belə soruşmadan aşkar duyulan azərbaycanlı ləhcəsi ilə, amma təmiz rus dilində dedi:

– Qovorit sekretar narodnoqo komissara zdravooxraneniya. Narodnıy komissar prosit vas nemedlenno priyexat k nemu. Maşina uje vıslana.

Professor Zilber tələsik geyinib evdən çıxdı, Xalq Səhiyyə komissarının göndərdiyi maşına mindi və əslində, bu gözlənilməz Hadrut səfəri də elə o vaxtdan başladı.

Marqolin familyalı bir nəfər hərbi həkim Xalq Səhiyyə Komissarlığına təcili teleqram vurmuşdu ki, Hadrutda taun epidemiyası başlamışdır və professor Zilber həmin gecə bir neçə saatın içində təşkil etdiyi bakterioloji dəstə ilə birlikdə səhər saat 6-da qatarla Bakıdan çıxdı.

Bakterioloji dəstənin təşkil edilməsində əlindən gələni əsirgəməyən, professor Zilberin təcili xahişləri ilə gecəyarısı şəxsən özü məşğul olan Azərbaycan SSR Xalq Səhiyyə komissarı, elə bil ki, ətrafındakı adamlara yox, özü özünə təskinlik vermək üçün tez-tez deyirdi: «– No, vozmojno, eto i ne çuma. Ne mojet bıt, çtob na naşem zameçatelnom zemle zavelas takaya qadost!». Və professor Zilber qatarla Hadruta gələ-gələ yol boyu komissarın o sözlərini xatırlayırdı və çox istəyirdi ki, hərbi həkim Marqolin yanılmış olsun...

Təəssüf ki, Marqolin yanılmamışdı və Hadrutda taun epidemiyasının necə yayılması professor Zilberə də, həmkarlarına da artıq tamam aydın idi: tauna tutulmuş ilk xəstə yaxındakı erməni kəndindən cavan bir oğlan olur və Hadrut xəstəxanasının baş həkimi M.N. Xudyakov o cavan oğlanı krupoz iltihabı diaqnozu ilə ümumi palataya qoyur və bundan sonra da taun Hadrutda fironluq eləməyə başlayır, əvvəlcə o cavan oğlanla bir palatada yatan xəstələr (o cümlədən, dəllək Ayrapet) taundan yoluxub bir-birinin ardınca ölürlər, sonra feldşer, sanitar və nəhayət, Xudyakovun özü tauna tutulur, amma taun hələ heç kimin ağlına gəlmir.

Həkim Xudyakov xəstələnəndə xəstəxanadan Hadrutun yaxınlığında yerləşən hərbi hissənin həkimi Lev Marqolinə müraciət edirlər və taunu həkim Marqolin müəyyən edir, o saat da Bakıya teleqram vurur.

Professor Zilber Hadruta gələn kimi, telefonla həkim Marqolinin xidmət etdiyi hərbi hissəyə zəng çaldı və bütün bunları Marqolin özü telefonla söylədi. Bir neçə gündən sonra həkim Marqolin də xəstələndi və professor Zilberin bütün ciddi-cəhdinə baxmayaraq, taundan həlak oldu.

Bu adamın – hərbi həkim Marqolinin cəmi iyirmi dörd yaşı var idi və xəstəliyini hiss edən kimi, hərbi hissədə yaşadığı otağa heç kimi buraxmır, hərbçilərlə bilavasitə təması tamam kəsir, otağından eşiyə çıxmır və iki gündən

sonra, xəstəliyin şiddətləndiyini görəndə, gecə otağın qapısını qıfılla bağlayır, hərbi hissədən çıxıb qızdırma içində təkbaşına Hadruta, professor Zilberin yanına gəlir.

Həkim Marqolinin özü ilə bağlı gördüyü tədbirlərin nəticəsində taun hərbi hissədə yayılmadı və onun ölümündən bir gün sonra hərbi hissənin komandiri professor Zilberə bir zərf göndərdi. Bu zərfin içindəki, həkim Marqolinin yazdığı son məktub idi:

«Əziz yoldaşlar!

Deyəsən, başlanır. Hərarətim 39,5 dərəcədir. Buradan gedirəm ki, başqalarını yoluxdurmayım. Gedirəm ki, sakit ölüm, çünki bilirəm, başqa cürə mümkün deyil. Sosialist cəmiyyətinin nikbin və sağlam qurucuları kimi, salamat qalın.

Əlvida. Lev Marqolin.»

Professor Zilber heç vaxt yadından çıxmayacaq bu məktubu oxuduqca, həkim Marqolinin həyatının son dəqiqələri gözlərinin qabağına gəldi: belə bir adam, bu cür məktubu yazmağa (və o yazılanları həyata keçirməyə!) qüdrəti çatan həkim Marqolin ölüm anlarında tez-tez gözlərini açıb: «– Ana!.. Ana!..» – deyə qışqırırdı.

Hadrutda professor Zilberin də, Yelena Ivanovna Vostruxovanın da, professor Şirakoqorovun da, professor Suknevin də, bakterioloji dəstənin başqa üzvlərinin də qayğısı yalnız taun qayğısı deyildi. Bakterioloji dəstə ilə bərabər, Bakıdan Hadruta daha üç nəfər gəlmişdi: bunlardan biri Azərbaycan SSR Xalq Səhiyyə Komissarlığının, ikincisi Azərbaycan Mərkəzi Icraiyyə Komitəsinin nümayəndəsi, üçüncüsü isə Azərbaycan SSR Baş Siyasi Idarəsinin müvəkkili idi və bunlardan ikisi Hadruta gəlməmiş və təxminən on kilometr aralıdakı stansiyada ayrıca vaqonda qalmışdı. Baş Siyasi Idarənin müvəkkili isə bakterioloji dəstə ilə birlikdə Hadrutda idi.

Stansiyada qalan nümayəndələr bütün bu müddət ərzində professor Zilberdən ardı-arası kəsilməyən cürbəcür arayışlar, cədvəllər, izahatlar tələb edirdilər və bütün günü taunlu xəstələrin səhhəti, həmin xəstələrin ev-eşiyinin dezinfeksiyası ilə məşğul olan xəstələrlə əlaqə saxlamış adamları qəsəbənin başqa sakinlərindən təcrid edən, nə qədər adamın bədəninə tauna qarşı zərdab yeridən, meyitlərin qəsəbədən kənarda ayrılmış sahəyə daşınmasına xüsusi nəzarət edən, eyni zamanda, müxtəlif bakterioloji tədqiqatlar aparan professor Zilber də, köməkçiləri də həmin nümayəndələr üçün izahatlar yazmağa, məlumat vərəqələrini doldurmağa, xəstəliyin gedişatına dair mənasız cədvəllər tərtib etməyə məcbur olurdular.

Stansiyadakı vaqonda yaşayan nümayəndələr bir dəfə də olsun Hadruta ayaq basmamışdılar və professor Zilberlə atlı vasitəsilə əlaqə saxlayırdılar: həmin atlı içi kağız-kuğuz dolu zərfləri gətirib vaqonun qabağında yerə qoyurdu, özü isə əlli-altmış metr aralı çəkilirdi, nümayəndələrdən biri əlinə əlcək geyib vaqondan düşürdü, zərfi götürürdü, ya qışqırıb həmin atlıya yeni tapşırıqlar verirdi, ya da vaqonda yazdıqları əmrləri yerə qoyurdu ki, atlı aparıb professor Zilberə tapşırsın. Bütün bu ehtiyat tədbirlərinə baxmayaraq, dezinfeksiya üçün, səhərdən axşama kimi, Xankəndindən gətirdikləri gözəl tut arağı içirdilər və əlbəttə, yaxşı da yemək lazım idi ki, o yetmiş dərəcəli tut arağı adamı dəli eləməsin...

Baş Siyasi Idarənin müvəkkili isə – bu adamın adı Murad İldırımlı idi – əksinə, bütün günü bakterioloji dəstə ilə olurdu və Hadruta gəldiyi ilk gündən belinə mindiyi boz ürgəni çapa-çapa burdan vurub, ordan çıxanda da hamı bilirdi ki, «Çeka» taun məsələləri ilə məşğuldu.

Təxminən otuz yaşlarında olan Murad İldırımlının sarışın və yaraşıqlı sifəti, göy gözləri, uzun boyu, şumal bədəni var idi və tamam bir əlacsızlıq içində, az qala, ağlını itirəcək Hadrut camaatı bu adamı adicə olaraq «Çeka» çağırırdı:

«– Çeka çağırır!»

«– Çeka səni soruşurdu!»

«– Çeka düşmən tutub! Taunu düşmənlər yayıb Hadrutda!»

«– Çeka indicə çapıb getdi!»

Hələ yoluxmamış, salamat qalmış camaat taunun qarşısında heyvani bir qorxu hissi keçirirdi və camaatın gözündə tauna qalib gələ biləcək bir adam, bir varlıq vardısa, o da «Çeka» idi. Bu yerlərdə Baş Siyasi İdarədən (əvvəllər isə Fövqəladə Komissiyadan) qorxan kimi, heç nədən qorxmurdular – nə inqilabdan əvvəl, nə də inqilabdan sonra; tauna da ancaq bu qüvvə qalib gələ bilərdi.

Murad İldırımlı yorulmaq bilmirdi və professor Zilber yorulub əldən düşdüyü vaxtlarda yuxusuzluqdan qızarmış gözləriylə hərdən bu adama baxanda, elə bil ki, yenidən güc toplayırdı. Müvəkkil qəti surətdə əmin idi və bunu dəfələrlə professor Zilberə bildirmişdi ki, taunu Hadruta düşmənlər gətirib, bu işdə xarici agenturanın və onların yerli əlaltılarının, qolçomaqların barmağı var. Professor Zilberin etirazı, elmi dəlilləri bu adamı heç cürə fikrindən yayındıra bilmirdi və günlərin bir ağır günündə Murad İldırımlı həyəcanla professor Zilberin yanına gəlib bildirdi ki, alınmış məlumata görə, düşmənlər taundan ölmüş meyitlərin qəbrini açır, bədən üzvlərini kəsib camaatın içində xəstəliyi yayırlar.

Əlbəttə, bu, dəhşətli və ağlasığmaz bir xəbər idi, amma Baş Siyasi İdarənin müvəkkili:

– Siz gözəl professorsunuz, yoldaş Zilber, ancaq xalq düşmənlərinin nəyə qadir olduğunu bilimirsiniz! Bütün bunlar kulakların işidir! Bütün bunların arxasında ingilislər dayanıb! Hadrutdakı taun təbii fəlakət deyil, sinfi təxribatdır! – deyib fikrindən dönmürdü.

Professor Zilber Murad İldırımlını başa salmağa çalışdıqca hiss edirdi ki, müvəkkilin şübhələri daha da artır və o hətta professor Zilberin özündən də şübhələnməyə başlayır. Bəzən professor Zilber xəstələri müayinə edərkən, bakterioloji analizlər apararkən Murad İldırımlı gəlib onların yanında dayanırdı, diqqətlə baxırdı və bunun özündə də bir nəzarət var idi; o biri tərəfdən də professor Zilberin bu adama yazığı gəlirdi, çünki nə zərdab qəbul edirdi, nə əlcək geyib tənzif taxırdı, səhərdən axşamacan xəstələrin, meyitlərin arasında olsa da, özü ilə bağlı heç bir təhlükəsizlik tədbiri görmürdü, elə bil, əmin idi ki, hətta taun da «Çeka»ya heç nə edə bilməz.

Nəhayət, professor Zilber camaat xəbər tutmasın deyə, gecə yarısı Murad İldırımlının müşayiəti ilə nöyüt lampasının işığında taundan ölmüş adamların qəbrini açdırmağa və meyitləri müayinə etməyə məcbur oldu.

Müvəkkil yalnız döyüş meydanlarında və zəhmətkeş xalqın təəssübünü çəkən ədalətli edam hökmləri yerinə yetirilərkən (daha doğrusu, yerinə yetirildikdən sonra) meyit görmüşdü, amma o gecəyarısı Hadrut yaxınlığındakı o qəbirlərdən çıxarılan meyitlər dəhşətli xəstəlikdən ölmüş (və bunu ingilis casusları, kulaklar eləmişdilər!) adamlar idi və indi elə çürümüş vəziyyətdə idilər, elə iy verirdilər ki, müvəkkilin başı gicəllənirdi, ürəyi bulanırdı, amma gözünü kənara çəkmirdi, professor Zilberin meyitləri müayinə etməsinə baxırdı, heç bir şeyi nəzərdən qaçırmamağa çalışırdı,

çünki zəhmətkeş xalqın düşmənlərinin heç bir əməli onu qorxuda bilməzdi! Hətta özünü saxlaya bilməyib bir az kənarda qusmağa başlayanda da gözlərini meyitdən və professor Zilberin əlcəkli əllərindən çəkmirdi.

Sonra yenə də gəlib professorun yanında dayandı və birdən-birə hiss etdiyi soyuqdan əsə-əsə, çənəsi-çənəsinə dəyə-dəyə meyitlərə baxarkən, professor Zilberin müayinəsinə nəzarət edərkən o gecə çağı müvəkkilin ürəyində düşmənlərə qarşı elə bir qəzəb yarandı ki, əksinqilaba və xalq düşmənlərinə qarşı bu uzun illərin amansız mübarizəsində heç vaxt bu dərəcədə qəzəb, kin-küdurət hiss etməmişdi.

Həmin gecə hamını, ilk növbədə isə professor Zilberi və onun həmkarlarını sarsıdan, hətta taundan da daha artıq dəhşətə gətirən hadisə bu oldu ki, qəbirdən çıxarılan dördüncü meyitin – bu, beş gün bundan əvvəl taundan həlak olmuş faytonçu Ovanes kişinin meyiti idi– döş qəfəsində bıçaq yarası tapıldı. Professor Zilber nöyüt lampasının işığında o bıçaq yarasını diqqətlə müayinə etdi: heç bir şübhə yox idi ki, meyit basdırılandan sonra, qəbri açıb döş qəfəsini zədələmişdilər.

Həmin gecə başqa bir neçə meyitdə də bu cür bıçaq yaraları tapıldı və o meyitlərin, demək olar ki, hamısında ya döş qəfəsi, ya da qarın nahiyəsi zədələnmişdi. Professor Zilber nə elmi ədəbiyyatda belə şey oxumuşdu, nə də ömründə belə bir hadisəyə təsadüf etmişdi və o gecə yarısı qarın nahiyəsi kəsilmiş növbəti meyiti müayinə edə-edə heç nə başa düşə bilmirdi, eyni zamanda, əlbəttə, müvəkkilin sözlərinə də («Taunu zəhmətkeş xalqın arasında kulaklar, əksinqilabçılar yayıb. Bütün bunların arxasında ingilislər dayanıb! Zəhmətkeş xalqların qəddar düşməni beynəlxalq kapitalizm dayanıb!») inana bilmirdi.

Professor Zilber neçə gün Hadrutda bir yerdə olduqları bu adamın – Murad İldırımlının yorulmazlığına, cəsurluğuna hörmət edirdi, amma onun kor-koranə nifrətdən doğan fantastik fikirlərini də qəbul edə bilmirdi. Hərgah düşmən gəlib bu qəbirləri açırsa, meyitləri çıxarıb kəsirsə, yaymaq üçün müəyyən miqdarda hüceyrələr götürürsə, axı, ilk növbədə onun özü özünü ölümə məhkum edirdi; hərgah bu düşmən yüksək ixtisaslı mütəxəssis deyildisə, taunlu meyitləri kəsərkən mütləq özü də yoluxmalı idi, həlak olmalı idi. Müvəkkilin fərziyyəsinə görə bu alçaq işlə məşğul olanlar Iran, Türkiyə sərhədini keçib gəlmiş müsavatçı millətçilər, monarxist ünsürlər, daşnaklar, ingilis casusları, eyni zamanda, yeni həyatın, kollektivləşdirmənin qəti əleyhdarları olan yerli kulaklar, qonşu rayonlardan gizlincə Hadruta gəlmiş xalq düşmənləri idi. Hərgah bu, doğrudan da, belə idisə, həmin müsavatçılardan, daşnaklardan, monarxçılardan, casuslardan, gəlmələrdən, heç olmasa, bir neçəsi mütləq ölənlərin arasında olmalı idi. Taundan həlak olanlar isə yalnız və yalnız Hadrut camaatı və yaxın üç erməni kəndinin sakinləri idi, tanınmayan, bilinməyən, adamsız, qohumsuz meyit yox idi, əksinə, camaat ailə-ailə taundan gedirdi. O biri tərəfdən isə qəbirlərin açılması, bir neçə taunlu meyitin bıçaqla zədələnməsi göz qabağında idi.

Bir müddət keçəcəkdi, bakterioloji dəstənin, elə bil ki, insan qüvvəsindən xaric olan bir işgüzarlığının nəticəsində Hadrutdakı taun fironluğunun sona yetməyinə az qalacaqdı və o zaman tamam təsadüfən professor Zilberə aydın olacaqdı ki, bəzi qəbirlərin açılması, meyitlərin bıçaqla zədələnməsi, yerli türkəçarəçilərin əməli imiş – guya, taun həmin bıçaqdan qorxub çəkiləcəkmiş; türkəçarəçilər də öz üsulları ilə tauna qarşı gizli mübarizə aparırmışlar və bu mübarizə onlara baha başa gəlib, hamısı meyitlərdən yoluxub taundan həlak olublar...

Həmin gecə nöyüt lampasının zəif işığında professor Zilber meyitlərin hansı bədən üzvündən və nə həcmdə hüceyrələr qoparıldığını müayinə edə bilmirdi, amma elə bu bıçaq təmasının özü kifayət idi ki, taun, misal üçün, bu bəd əməllə məşğul olan adamın paltarına keçsin; parça isə taun mikroblarının inkişafı və yayılması üçün gözəl münbit bir zəmin idi. Əlbəttə, təcili tədbir görmək lazım idi.

Professor Zilber səhər saat beşdə gəlib Hadrutda qaldığı otağa çatdı, arxası üstə çarpayıya sərildi, amma heç on dəqiqə də yata bilmədi, yerində o tərəf-bu tərəfə çevrildi, səhər açılanda– Zilberin yaşadığı o kiçik məktəb sinfinin pəncərəsindən başı qarlı dağlar təzəcə görünməyə başlayanda Bakıdan Azərbaycan SSR Xalq Komissarları Sovetinin teleqramı gəldi; professoru geniş məlumat vermək və xüsusi tədbirlər planı hazırlamaq üçün təcili Bakıya çağırırdılar. Baş Siyasi Idarə müvəkkilinin Bakıya göndərdiyi məlumat öz işini görmüşdü.

Elə yolda ikən professor Zilber yeddi bənddən ibarət plan hazırladı və həmin plan Bakıda Azərbaycan SSR Baş Siyasi Idarəsinin rəisi, Azərbaycan çekistlərinin sınanmış rəhbəri Mir Cəfər Bağırovun iştirakı ilə Xalq Komissarları Sovetinin xüsusi iclasında diqqətlə, hərtərəfli müzakirə edildi və təsdiq olundu. Plan bundan ibarət idi:

1. Xəstəlik olan rayon ordu ilə əhatə olunmalıdır ki, kimsə taunu yoluxdura biləcək bir şeyi kənara çıxara bilməsin.

2. Bütün meyitlər yandırılmalıdır.

3. Bütün rayon əhalisi üçün isti çadırlar və alt paltarlarından tutmuş üst paltarına, ayaqqabıyacan tam geyim komplekti göndərilməlidir.

4. Bütün əhali çılpaq soyundurulmalı, göndərilmiş paltarlarla geyindirilməli və evlərindən çadırlara köçürülməlidirlər. Bu əməliyyat ciddi nəzarət altında olmalıdır ki, heç kim təzə paltarına taunlu paltarın mikrobunu keçirməsin. Əyindən çıxarılmış paltarın hamısı həmin şəxslərin öz evində qalmalıdır.

5. Evlərdən çadırlara köçürülmə zamanı taunlu xəstələrlə birinci dərəcəli və ikinci dərəcəli təmasda olan şəxslərin hamısının təcrid edilməsi təmin olunsun.

6. Epidemiya yayılmış əraziyə kimyəvi dəstələr göndərilməlidir ki, onlar bütün binaları, tikintiləri xlorpikrinlə dezinfeksiya etsinlər. Xlorpikrin – taun zamanı ən yaxşı dezinfeksiya vasitələrindən biridir: taun mikrobunu, bitləri, gəmiriciləri məhv edir və beləliklə, infeksiyanın insana keçməsinin qarşısını alır.

7. Epidemiya baş vermiş rayona həkim-gigiyena dəstələri göndərilməlidir.

Iclas qurtardıqdan sonra, professor Zilber otaqdan çıxmaq istərkən Azərbaycan SSR Baş Siyasi Idarəsinin rəisi Mir Cəfər Bağırov onun qarşısında dayandı və bir neçə an zəndlə professorun gözlərinin içinə baxdı. Bu qaraqabaq, ömründə, elə bil ki, heç vaxt gülümsəməmiş, dodaqlarından heç vaxt təbəssüm qaçmamış ciddi adam indicə qurtaran iclasda çox az danışırdı, amma professor Zilber burasına da fikir vermişdi ki, Baş Siyasi Idarə rəisi az danışsa da, nə deyirdisə, dərhal qəbul olunurdu, başqa komissarlar, o cümlədən, Xalq Komissarları Sovetinin sədri bəzən Hadrutda tauna qarşı mübarizə ilə əlaqədar ayrı-ayrı məsələlər barədə bir-birləri ilə mübahisə etsələr də, bu qaradinməz adamın təklifləri ilə bağlı heç bir etirazlarını bildirmirdilər. Görünür, son günlər yalnız və yalnız taunla məşğul olduğu üçün, birdən-birə professor Zilberə elə gəldi ki, Mir Cəfər Bağırovun girdə çeşmək şüşələrinin arxasından baxan gözlərində də bir taun zəhmi var.

Professor Zilber keçirdiyi bu xoşagəlməz hissdən və bənzətmədən diksindi. Mir Cəfər Bağırov isə kobud barmağı ilə hədələyə-hədələyə o bir neçə anlıq sükutu pozdu:

– Smotrite, professor, mı sledim za vsem xodom sobıtiy! A vas mı toje xoroşo znayem! Imeyte eto v vidu! I ne zabıvayte konsperasiyu! Konsperasiya obyazatelna!

Professor Zilber nəsə demək istədi, amma heç nə demədi və yalnız ona görə yox ki, yorğun idi, ona görə də yox ki, Hadrutdan nigaran idi və ora tez qayıtmaq istəyirdi, adicə olaraq boş-boşuna danışmağa və mübahisə etməyə vaxtı və həvəsi yox idi; həm də ona görə ki, elə bil, Mir Cəfər Bağırovun girdə çeşmək şüşələrinin arxasından baxan gözlərindəki o taun zəhmi bu adama etiraz etməyə, bu adama cavab qaytarmağa imkan vermirdi.

Professor Zilberə tapşırmışdılar ki, Hadrutdakı taun epidemiyasını gizlin saxlamaq üçün, yəni konsperasiya məqsədilə Bakıya göndərdiyi bütün rəsmi xəbərlərdə, məlumatlarda (qeyri-rəsmi, yəni şəxsi məktublaşmada isə bu barədə bir söz demək qəti qadağan idi!) «taun» sözünü «filiz» sözü ilə (rusca «ruda» sözü ilə) əvəz etsin və Hadrutdakı o cəhənnəm əzabı içində bu «filiz» sözünün mənasızlığı və məntiqsizliyi də professor Zilberi bir tərəfdən təngidirdi, bəzən bu söz onu çaşdırırdı və yorğunluq-arğınlıq içində bir məlumatı iki dəfə, hətta üç dəfə yazmalı olurdu. Iş o yerə gəlib çatmışdı ki, stansiyadakı nümayəndələr də tələb edirdilər ki, arayışlardakı «taun» sözü «filiz»lə əvəz edilsin və bir dəfə professor Zilber nümayəndələrə göndərdiyi növbəti arayışda nəzərdən qaçırıb «taun» sözünü yazanda, nümayəndələr onu stansiyaya çağırdılar: professor Zilber ayaq üstə vaqonun qabağında dayandı, Xalq Səhiyyə Komissarlığının və Mərkəzi Icraiyyə Komitəsinin nümayəndələri isə, taunun qorxusundan vaqondan çıxmağa (yaxud professor Zilberi vaqona çağırmağa) cürət eləməyərək, başlarını vaqon pəncərəsindən çıxarıb bir-birilərinə macal vermədən onun üstünə qışqırmağa başladılar, hətta az qaldı ki, professor Zilberi düşmən və təxribatçı elan etsinlər...

Azərbaycan SSR Xalq Komissarları Sovetindəki həmin iclasdan sonra, dərhal Hadruta qayıdan professor Zilber Mir Cəfər Bağırovla o cürə üzbəüz dayanmağını hərdənbir yadına salırdı, onun girdə çeşmək şüşələrinin arxasından baxan gözlərini, elə bil, yenidən görürdü və öz-özünə fikirləşirdi ki, vay o günə ki, belə bir adam hakimiyyət başına keçə...

Hadrutla bağlı ətraf rayonlarda cürbəcür şayiələr gəzirdi və Şuşaya da xəbər yayılmışdı ki, Hadrutu bağlayıblar, o tərəflərə heç kimi buraxmırlar və deyirdilər bu, guya ona görə idi ki, Hadrutda bir dəstə düşmən ifşa olunub, kollektivləşməyə qarşı ziyançılıq işləri ilə məşğul imişlər və guya indi onların bütün rayon üzrə istintaqı gedir.

Xosrov müəllimin bütün fikri-zikri seminarın gedişatında idi və əvvəlcə bu şayiələrə fikir vermirdi:düşmənləri ifşa etmək indi adi bir iş idi və bundan ötrü bütün rayonu bağlamaq, əlbəttə, boş söz idi, hətta boş söz olmasaydı da, Xosrov müəllimin Hadrutda düşmən kimi ifşa ediləsi bir adamı yox idi; altı yaşlı Cəfər idi, dörd yaşlı Aslan idi, iki yaşlı Azər idi, bir də ki, Şirin idi və Azərbaycanda doqquz il idi Sovet hakimiyyəti qurulmuşdu, hələ ki, altı yaşında, dörd yaşında, iki yaşında düşmən ifşa olunmamışdı... Amma elə ki, Xosrov müəllim daha Şuşada bazar başında faytonçu Ovanesi görmədi, elə ki, Hadrutla bütün əlaqələr doğrudan da kəsildi, Xosrov müəllimin ürəyində sızıltısını bütün ömrü boyu unutmadığı bir nigarançılıq baç

qaldırdı və həmin nigarançılıq onu seminarın işini yarımçıq buraxmağa, heç bir icazə almadan Hadruta qayıtmağa məcbur etdi.

Səhər tezdən Şuşadan çıxıb yoldakı faytonlara, arabalara minə-minə axşamüstü gəlib Hadrut yaxınlıqlarına çıxan Xosrov müəllim uzaqdan yamac boyu yolu kəsmiş qızıl əsgərləri gördü; qızıl əsgərlər Hadruta getmək istəyən faytonları, arabaları, atlıları, çiyni xurcunlu piyada adamları saxlayıb geri qaytarırdılar.

Xosrov müəllimə elə gəlirdi ki, bütün bunların ona dəxli yoxdu, bütün Hadrut onu tanıyır, onun Hadrutda üç uşağı, arvadı qalıb və heç kim onu Hadruta buraxmaya bilməz; yolun ortasına, kənarlarına doluşmuş, faytonların, arabaların, atların, eşşəklərin arasına yığışmış, dostları, yaxınları, doğmaları Hadrutda olan nigaran adamların içindən keçib qızıl əsgərlərə yaxınlaşdı, rəislərini soruşdu və nə dedisə də, özünü necə təqdim etdisə də, milliyətcə əsasən rus olan qızıl əsgərlər ancaq bir sözlə cavab verdilər:

– Nelzya!.. V Qadrut nelzya!..

– Ya je tam jivu! Tam moya semya, moi deti, moya jena!

– Nelzya!..

– Poçemu? Poçemu nelzya? Xot obyasnite!

– Nelzya!..

Əlbəttə, o zaman Xosrov müəllim bilmirdi ki, bu cavan qızıl əsgərlərə Hadruta gəlmək istəyən adamlarla söhbət etmək, Hadrutdakı hadisələr barədə bir söz demək qəti qadağan olunub (heç o cavan qızıl əsgərlərin də çoxunun Hadrutda, həqiqətən, nə baş verdiyindən xəbərləri yox idi);düzdü, Xosrov müəllim bunu bilmirdi və çox dərin bir nigarançılıq keçirirdi, amma onun o nigarançılığı, narahatlığı Hadrut müsibətinin yanında bir heç idi, Xosrov müəllim hələ bilmirdi ki, necə bir faciənin içindədi, bu faciənin əsl dəhşəti o zaman onun heç ağlına gəlmirdi...

Amma nə isə baş vermişdi, nə isə çox ciddi bir hadisə olmuşdu, amma bu mürəkkəb dövrün, bu amansız zəmanənin özündə belə, altı yaşında, dörd yaşında, iki yaşında uşağın, bu uşaqların anasının başına nə gələ bilərdi? Qəribə idi, Xosrov müəllim yalnız baş verə biləcək siyasi hadisələr barədə düşünürdü, təbii fəlakət, misal üçün, yanğın, zəlzələ, heç ağlına da gəlmirdi.

– Posluşayte, ya uçitel, prepodayu russkiy yazık! Sprosite lyuboqo qartrudtsa! Vse znayut menya! Pozvonite v ispolkom, pozvonite rukovoditelyam rayona, vse menya znayut!

– Nelzya!.. V Qadrut nelzya!..

– No poçemu? Poçemu nelzya? V çyem priçina? Mojet moqu bıt poleznım? Ya je prepodavatel russkoqo yazıka!

– Nelzya!..

Bu axşam evlərinə çatmağına ümidini, az qala, tamam itirmiş Xosrov müəllim yolu bağlamış yolbəndin o tərəfində qızıl əsgərlərdən birinə yaxınlaşıb nəsə deyən Qırmızı Yaqubu gördü. Qırmızı Yaqubun sifətinin rəngi, əslində, solğun idi və ümumiyyətlə, bədəncə zəif bir adam idi, inqilabdan əvvəl bütün bu tərəflərin məşhur nalbəndi idi, sonra zəhmətkeş sinfin nümayəndəsi kimi partiyaya keçdi, Qırmızı Yaqub oldu və həmin 1929-cu ildə Hadrut qəsəbə sovetində katib işləyirdi. Xosrov müəllim Qırmızı Yaqubu görəndə, elə bil ki, o axşamçağı gözlərinə işıq gəldi.

– Yaqub yoldaş! Yaqub yoldaş!

Qırmızı Yaqub Xosrov müəllimə tərəf baxdı. Xosrov müəllim kepkasını yuxarı qaldırdı, şərfini çənəsinin üstündən aşağı çəkdi:

– Mənəm də, Yaqub yoldaş! Tanımadın məni? Xosrov müəlliməm də!.. Uçiteləm!..

Qırmızı Yaqub o cavan qızıl əsgərdən ayrılıb yolbəndin yanına gəldi və Xosrov müəllimlə üzbəüz dayandı:

– Niyə tanımıram! – dedi və Xosrov müəllim Qırmızı Yaqubun səsində dünyanın ən dərin bir kədərini hiss etdi və bax, elə həmin dəqiqə Xosrov müəllimin içindəki o nigarançılıq dəhşətli bir qorxu hissinə çevrildi, ürəyi ən bəd bir xəbər ərəfəsində şiddətlə döyünməyə başladı və Xosrov müəllim sonralar da uzun ömrü boyu Qırmızı Yaqubla həmin üzbəüz məqamı xatırlayanda, ürəyi eləcə şiddətlə döyünürdü, elə bil ki, yenə heç nə bilmirdi və o dəhşətli xəbərin ərəfəsində idi; Qırmızı Yaqubun səsi də dəyişmişdi və cansızlığına, çəlimsizliyinə baxmayaraq, amiranə danışan, özünü yeni hökumətin inanılmış nümayəndəsi hesab eləyən bu adam indi, elə bil ki, başqalaşmışdı, yenə də əvvəlki adi nalbənd olmuşdu; yox, bu, düşmən-zad əhvalatı deyildi.

– Tanıdın? Bəs niyə buraxdırmırsan məni?

– Getmə, uçitel, getməli yer deyil Hadrut!..

– Niyə?– Bu sualı Xosrov müəllim vermədi, yox, bu – ərəfəsində olduğu o dəhşətin səsi idi, o dəhşətin sualı idi.

Hadrutun bütün aktivinə, o cümlədən də Qırmızı Yaquba tapşırıq belə idi ki, taun haqqında bir kəlmə də söz demək olmazdı və Qırmızı Yaqubun gəlib bu yolbəndin arxasından Xosrov müəllimlə danışmağının özü də təlimatı pozmaq idi, bunun üstündə onu güllələyə bilərdilər, amma Qırmızı Yaqub Xosrov müəllimi beləcə yolbəndin ardında qoyub gedə bilmirdi, bu bolşeviki də qəhər boğurdu.

– Soruşma, uçitel, soruşma...

– Nə olub axı?!

– Başını götür, get, uçitel, qaç buralardan! Bir də ömründə heç vaxt bu tərəflərə gəlmə!..

– Sən nə danışırsan, a kişi?! Mənim orda üç balam var, ailəm var! Heç bilirsən nə danışırsan?!– Xosrov müəllim iki əli ilə yolbəndin üstündən Qırmızı Yaqubun şinelinin yaxasından yapışdı, silkələməyə başladı və silkələdikcə də o şinelin içindəki bədənin cansızlığını, yüngüllüyünü hiss etdi, hətta Xosrov müəllimə elə gəldi ki, bu saat buraxmasa, bu adam ölə bilər – əlləri süst yanına düşdü və tamam ümidsiz bir səslə: – Axı, mənim orda... – təkrar etdi, – mənim orda üç balam var, ailəm var...

– Yoxdu, uçitel, sənin daha orda heç kimin yoxdu!.. – Və Qırmızı Yaqub daha o axşamüstü, Xosrov müəllimin böyüyüb, az qala, hədəqəsindən çıxacaq gözlərinə baxa bilmədi, arxaya çevrilib yorğun addımlarla yolbəndin yanından uzaqlaşdı.

Qırmızı Yaqub işin içində idi, Hadrutda taundan həlak olanların hamısını tanıyırdı və yaxşı bilirdi ki, Xosrov müəllimin oğlanlarının üçü də, arvadı da dalbadal həlak olublar...

Qızıl əsgərlərin komandirlərindən biri şübhə ilə Qırmızı Yaquba tərəf baxırdı və bu adamın təlimatı pozub, indicə yolbəndin yanında Hadruta gəlmək istəyənlərdən biri ilə danışdığını görmüşdü, amma o şübhəli baxışlar daha Qırmızı Yaqubun vecinə deyildi və ayaqları onu cəhənnəmin içinə – Hadruta sürüyürdü...

Bakıdan yenicə qayıtmış professor Lev Aleksandroviç Zilber həmin gecə o qədər yorğun idi ki, ayaq üstündə güclə dayanırdı, hərdən ona elə gəlirdi ki, bu saat yıxılacaq və yatacaq və o yuxudan heç vaxt oyanmayacaq; bu yuxu hissi uzun müddət əzab-əziyyət içində susuzluqdan yanmış bir adamın birdən-birə suya rast gəlməsinə və həmin sudan içdikcə içməsinə, doymaq bilməməsinə bənzəyirdi və buna görə də professor Zilber özü də təəccüb edirdi ki, bədəninin bütün hüceyrələrini zəbt etmiş o yuxu istəyinə necə dözür.

Odundan və meyitlərdən ibarət o nəhəng ocağın alovu get-gedə artdıqca, bu alovun işığı gecənin, elə bil ki, qapqara şam kimi qaranlığını əridib bütün ətrafa şölə saçdıqca, professor Zilberin yuxusu qaçırdı və o dəm onun gözləri yuxusuzluqdan, yorğunluqdan yox, gecənin xəncər kimi kəsən sazağında uzaq məsafədən də istisi get-gedə daha artıq hiss olunan o ocaq şöləsinin gətirdiyi sonsuz kədər hissindən qıyılırdı.

Odunların üstünə qalanmış meyitlərin ən yuxarısındakı həkim Xudyakovun cəsədi idi və tonqalın alovu şöləndikcə bir kənarda dayanıb həyəcandan dizləri əsə-əsə, ürəkləri döyünə-döyünə o dəhşətli tonqala tamaşa eləyən yerli partiya və komsomol fəalları həkim Xudyakovu o saat tanıdı. Faytonçu Ovanesin qapıbir qonşusu olan bu xeyirxah, xoşsifət, gözütox, ziyalı adam partiya işçilərini, komsomolçuları da az müalicə etməmişdi və indi bu adamın özünün tonqalda beləcə yanması, o bir qalaq meyitin üstündə birinci olması, elə bil ki, o gecə o tonqalın qorxusunu, vahiməsini daha da artırırdı.

Alov get-gedə qızışdıqca birdən həkim Xudyakovun əli yavaş-yavaş qalxmağa başladı; əlbəttə, tonqala baxan o adamlar başa düşürdülər ki, isti şiddətləndikcə əzələlər yığışır və həkim Xudyakovun qolu da buna görə yavaş-yavaş qalxır, amma o dəm o əlin eləcə yavaş-yavaş qalxmasında, elə bil ki, bir hədə var idi, elə bil ki, taun bütün dünyanı hədələyirdi. Eyni zamanda, o əlin o cürə qalxmasında, ümumiyyətlə, dünyanın günah işlərinə bir xəbərdarlıq da var idi və uzaqdan o tonqala baxan yerli partiya və komsomol fəalları arasında bir sıra vəzifəli adamların (bir-birlərindən xəbərsiz!) bütün içini qəribə bir hiss bürümüşdü; qorxu ilə mütəəssirliyin, peşmançılığın qarışığı.

Bu adamlar birdən-birə haçansa gördükləri (və heç vaxt fərqinə varmadıqları!) haqsız işlərini, nə zamansa nahaq incitdikləri (və elə bil ki, tamam unutduqları!) adamları xatırlamağa başladılar və onlar indi bir peşmançılıq hissi keçirirdi, daha doğrusu, peşmançılıq hissi keçirmək istəyirdilər, nəyisə etiraf etməyə, nəyisə boyunlarına almağa, hətta ağlamağa, aman istəməyə daxili bir ehtiyac duyurdular; bəlkə də bu – əslində – qorxu hissi idi, beləcə bir qara gündə beləcə bir tonqalda yanmaq qorxusu...

Sonra həkim Xudyakovun qolu, elə bil ki, birdən-birə qırıldı, tonqala düşdü.

Silahlı qızıl əsgərlərin keşiyi altında o ocaqda həyatla beləcə vidalaşan yalnız cansız cəsədlər deyildi, o cəsəd sahiblərinin – dünənəcən, hətta bu günəcən nəfəs alan, yaşayan insanların bir də bu yer üzündə heç zaman təkrar olunmayacaq, yalnız onlara məxsus hiss-həyəcanları idi, sevinc və kədəri idi, qayğısı, məhəbbəti, hörməti və nifrəti idi və cəmi otuz beş yaşına baxmayaraq, artıq təcrübəli immunoloq, virusoloq, mikrobioloq sayılan, həyatın bəd üzü ilə tez-tez rastlaşan (və gələcəkdə də tez-tez rastlaşacaq) professor Lev Aleksandroviç Zilber gecəni qara şam kimi əridən o tonqalın qarşısında, o tonqala baxa-baxa bir insan kimi iztirab çəkirdi.

O tonqalı qalamaq üçün Hadrutun təxminən altı kilometrliyində elə bir çüxur yer seçmişdilər ki, bu tonqalın şöləsi Hadrutda və ətraf kəndlərdə görünməsin, camaatın bu tonqaldan xəbəri olmasın, çünki taun amansızlığından dəli olmaq dərəcəsinə çatmış Hadrut camaatı bir tərəfdən də yaxınlarının, əzizlərinin beləcə yandırılmasına dözə bilməzdi, amma professor Zilberin fikrincə Hadrut camaatının qalanını xilas etmək üçün, taunun Hadrut ərazisindən kənara yayılmaması üçün belə bir tonqal – taunun özü kimi amansız bir tonqal vacib idi...

O tonqaldan təxminən altmış-yetmiş metr aralıda dayanmış əlli nəfər əli tüfəngli qızıl əsgər, sanitarlar, bakterioloji dəstənin üzvləri bir-birlərindən iki addım, üç addım aralı durub tonqalın başına dövrə vurmuşdular. O əlli nəfər qızıl əsgər sözü bir yerə qoymadan, sövq-təbii arxalarını tonqala tərəf çevirmişdi; ona görə yox ki, tonqalı mühafizə edirdilər və qaranlığa baxırdılar ki, bu tərəflərə yaxınlaşan başqa adam olmasın; ona görə ki, tonqala baxa bilmirdilər, tonqaldan gələn yanıq ət və sümük qoxusu onların ürəyini bulandırırdı, hətta odunlar da yanıb çırtıltı saldıqca o cavan qızıl əsgərlərə elə gəlirdi ki, çırtıldayan, səs salan insan sümükləridir.

Murad İldırımlı da sanitarlar, həkimlər, bakterioloqlar kimi, o tonqala baxmırdı, amma bərkdə-boşda bərkimiş, çox ölümlər görmüş, iztirabların şahidi olmuş, atışıb-vuruşmuş bu adam həmin anlarda daxilən nə qədər çalışdısa da, özü özü ilə nə qədər mübarizə apardısa da, qeyri-təbii işıldayan xəstə gözlərini axıra qədər o tonqala baxmağa məcbur edə bilmədi və o cavan qızıl əsgərlər kimi, arxasını tonqala çevirdi. Azərbaycan SSR Baş Siyasi Idarəsinin səlahiyyətli müvəkkili bütün şüuru ilə başa düşürdü, dərk edirdi ki, qorxaqlıq edir, ağciyərlik edir, düşmənin gözünün içinə axıra qədər dik baxmaq lazımdır və taun da düşmən idi, o tonqal, taunun nəticəsi idi və o tonqalın şölələrinə baxmağı bacarmaq lazımdır; bunu başa düşürdü, dərk edirdi, amma o tonqala baxa bilmirdi və buna görə də özü özünü bağışlaya bilmirdi: indi heç şübhəsiz ki, casuslar, kulaklar, fəhlə və kəndli sinfinin quduz düşmənləri haradasa öz qara əməllərinin – Sovet hökuməti ilə mübarizələrini davam etdirməkdən ötrü gətirib Hadruta saldıqları taun epidemiyasının bəhrəsindən, bax, çırtaçırtla arxada yanan o tonqaldan ləzzət alırlar, elə bilirlər ki, məqsədlərinə nail olublar, amma çekist Murad İldırımlı həmin tonqala baxa bilmir...

Səlahiyyətli müvəkkil cod dərili əli ilə üz-gözünü ovuşdurdu; səhərdən axşama kimi boz ürgənin belində olduğu üçün, bu adamın əlindən yüyən iyi gəlirdi və indi yalnız bu yüyən iyi ətrafı bürümüş o tonqal qoxusu içində həyatın davam etdiyindən, günəşin çıxacağından, səhərin açılacağından, sinfi mübarizənin davam etdiyindən, Kremlin qülləsindəki qırmızı bayrağın dalğalanmağından və həmişə də dalğalanacağından xəbər verirdi və bu zaman əlindən gələn o yüyən iyi birdən-birə Baş Siyasi Idarənin səlahiyyətli müvəkkilini əlçatmaz, ünyetməz bir keçmişə apardı, o vaxtlara ki, yeniyetmə bir oğlan idi və indi Hadrutdan çox-çox uzaqlarda – Babadağın ətəklərində qalmış bir kənddə səhərin gözü açılmamış atları kəndin aşağı başındakı buz kimi soyuq Nurlu bulağa suvarmağa aparırdı... Qəribə idi, o nə üçün bunu xatırladı? Əlindən gələn yüyən iyinə görə? Axı, atları bulağa yəhərsiz-yüyənsiz, çılpaq aparırdı və özü də sıçrayıb o çılpaq atlardan birinin belinə minirdi...

Müvəkkilin ürəyində yenə də birdən-birə qəribə – doğma, yaxın, eyni zamanda, uzaq və ümidsiz bir istək baş qaldırdı: neçə illərdən bəri yadına salmadığı (yadına salmağa vaxtı olmadığı), elə bil ki, tamam unutduğu o Nurlu bulağın buz kimi suyundan bir ovuc götürüb üzünə vurmaq istədi, hətta sövq-təbii cod dərili əlini

üzündən çəkdi ki, bir ovuc su götürsün, amma yenə də o tonqalın qoxusunu hiss etdi, tez əli ilə burnunu qapadı ki, yüyənin iyi gəlsin. Həmin anlarda Murad İldırımlı əlindən gələn o yüyən iyində o uzaq Babadağın ətəklərində qalmış o kənddəki evlərinin doğmalığı var idi və bu adam yenə də uşaqlıq çağlarında – həyət-bacada tumançaq atılıb-düşdüyü vaxtlarda olduğu kimi, anasını qucaqlamaq istədi, atasının haçansa ömründə bir dəfə şəhərə gedib qayıdanda gətirdiyi rəngbərəng saçaqlı kağızlara bükülmüş uzun konfetləri sevinə-sevinə və acgözlüklə cibinə yığmaq istədi, amma keçmiş heç zaman geri qayıtmır və o günlər də əbədi bir keçmişdə qalmışdı. Murad İldırımlı bir də heç zaman o uzaq Babadağın ətəklərində qalmış o kəndi görməyəcəkdi... Bir də heç zaman o kənddə qocalıb əldən düşmüş anası ilə qabaq-qənşər oturmayacaqdı... Bir də heç zaman həmişəki kasıbçılığı içində o kənddə güzəran keçirən atasının sonu görünməyən qayğılarla dolu gözlərinə baxa bilməyəcəkdi...

Murad İldırımlıdan bu dünyada heç kim qalmayacaqdı, çünki bu ağır mübarizə illərində ailə qurmağa vaxt qalmadı və əslində, buna təəssüf etmək də düzgün deyildi: gələcəyin bütün azad və xoşbəxt uşaqları onun övladları olacaqdı. Əlbəttə, gələcəyin o azad və xoşbəxt uşaqları onun adının Murad, familiyasının isə İldırımlı olduğunu bilməyəcəkdilər, amma bunun nə mənası var idi? Gələcəyin o azad və xoşbəxt uşaqları inqilabın övladları olacaqdılar, bu isə elə Murad İldırımlının övladları olmaq demək idi, çünki Murad İldırımlının özü elə Inqilab demək idi; Inqilab yüzlərlə, minlərlə murad ildırımlıların əməli idi, yəni onların həyatı, onların özü idi; o minlərlə murad ildırımlılar rus idi, azərbaycanlı idi, ukraynalı, tatar, gürcü, özbək, belorus idi və onların hamısı yeni bir cəmiyyət qururdu, gələcəkdə artıq qurulub başa çatmış o yeni cəmiyyətin bütün üzvləri onların – o minlərlə murad ildırımlıların övladı olacaqdı...

Murad İldırımlının qardaşları da o uzaq Babadağın ətəyindəki kənddən çıxıb hərə bir tərəfə dağılmışdı və o kənddə o qarı ilə, o qoca və qayğılı kişi ilə birlikdə, bir də Murad İldırımlının on dörd-on beş yaşlarında bir bacısı qalmışdı, o cavan qızın adı Züleyxa idi.

İllər keçəcəkdi, indi eləcə utancaq, eləcə dilsiz-ağızsız o kənd qızının – Züleyxanın uşaqları, nəvə-nəticələri də həmin yeni cəmiyyətin üzvləri olacaqdı və o zaman onların o xoşbəxtliyində, onların o qayğısız, azad həyatında Murad İldırmlının da, qoy lap kiçicik olsun, lap zərrə qədər olsun, amma, hər halda, nəsə bir payı olacaqdı...

Azərbaycan SSR Baş Siyasi Idarəsinin səlahiyyətli müvəkkili Murad İldırımlı iki gün idi ki, xəstələnmiş, tauna tutulmuşdu və bunu özündən başqa heç kim bilmirdi, hətta professor Zilberin də bundan xəbəri yox idi. Müvəkkil xəstəliyini o saat başa düşmüşdü, buna inanmaq istəmirdi, belə çətin və məsuliyyətli bir zamanda taunun onu üstələdiyi ilə heç cürə barışmaq istəmirdi, amma inansa da, inanmasa da, barışsa da, barışmasa da, xəstələnmişdi və bu xəstəliyin nə ilə qurtaracağını gözəl bilirdi. Iki gün idi ki, müvəkkil heç kimə yaxın durmurdu, heç kimlə bilavasitə əlaqə saxlamırdı, hamı ilə uzaqdan-uzağa, boz ürgənin belindən danışırdı, özünü də, boz ürgəni də (Hadrutda mal-qara da, qoyunlar da, atlar, eşşəklər də adam kimi qırılırdı) təcrid etmişdi. Hələ neçə gün belə davam edəcəkdi? Iki gün? Üç gün? Sonra? Sonrası, əlbəttə, xəstəxanada qurtaracaqdı... Yox, müvəkkil hər şeyi qət etmişdi və hər şey bu gün qurtaracaqdı! Müvəkkil yataqda uzanıb can verməyəcəkdi, taundan

aman istəməyəcəkdi, çünki taundan aman istəmək, əslində, düşməndən aman istəmək demək idi.

Həmin sazaqlı gecədə, o tonqalın kənarında özü qərara aldığı kimi, həyatının son saatlarını yaşayan Murad İldırımlının bütün bədəni qızdırma içində yanırdı, amma taunun qamarladığı beyninə indi (və ümumiyyətlə...) yalnız dəhşətli bir qəzəb hakim idi: düşmənə qarşı qəzəb; bir də, əlbəttə, bir təəssüf hissi var idi: düşmənlərlə, banditlərlə atışmalarda qurban getmiş bir çox silah dostları kimi, o da mübarizəni sona kimi davam etdirə bilmədi. Amma bunun fərqi yox idi, fəhlə və kəndli hakimiyyəti qalib hakimiyyət idi, heç bir tauna baxmayaraq, kommunizm qurulacaqdı!.. Gələcək kommunizmin idi!.. Vladimir İliç Lenin beş il bundan əvvəl vəfat etmişdi, amma bunun da fərqi yox idi, gələcək – Vladimir İliç Leninin idi!..

Tonqalın alovu o gecəyarısı sükut içində dövrə vurub dayanmış sanitarların, həkimlərin, bakterioloqların, rəhbər rayon işçilərinin sifətini işıqlandırmışdı və yaşları, rəngləri, quruluşları bir-birindən tamam seçilən o sifətlər indi eyni bir kədər içində donub qalmışdı. Səs ancaq tonqaldan gəlirdi:odunlar çıqqaçıq yanırdı və hər dəfə də ocaqdan gələn bu səs o cavan qızıl əsgərlərin kürəyini üşüdürdü, onlara yenə də elə gəlirdi ki, səs çıxaran – yanan sümüklər, yanan saçlardır.

Bir də ki, o ocaq yerindən təxminən yüz əlli metr aralıda axan kiçik dağ çayı tərəfdən qurbağaların qurultusu eşidilirdi, elə bil ki, it aya hürən kimi, qurbağalar da o gecəyarısı birdən-birə beləcə peyda olmuş nəhəng tonqala quruldayırdılar. Qurbağaların o gecəki qurultusunda tonqalın ətrafında dövrə vurub dayanmış o adamların çoxunun heç vaxt yadından çıxmayacaq bir soyuqluq, qeyri-təbiilik var idi; bu qurbağa qurultusu təbiətin səsi deyildi, elə bil ki, taleyin səsi idi.

Bu vaxt uzaqdan bir uğultu get-gedə tonqala tərəf yaxınlaşmağa başladı. Professor Zilber də, bakterioloji dəstənin başqa üzvləri də, rayon rəhbərliyi də, qızıl əsgərlərin komandanlığı da, bax bundan qorxurdu– camaatın bu tonqaldan xəbər tutacağından, axışıb bura gələcəyindən, tonqala hücum çəkəcəyindən...

Gecənin qaranlığından axıb gələn o uğultu tonqalın səsini də, qurbağaların qurultusunu da batırdı və bayaqdan bəri o tonqalın şöləsi və səsi altında əzab çəkən qızıl əsgərlərə elə gəldi ki, bu dəqiqə, arxada yanan o tonqalın özündən də qat-qat artıq bir dəhşətlə üz-üzə gələcəklər. Cavan qızıl əsgərlər gəlib burada dövrə vurmazdan əvvəl aldıqları təlimata əsasən, tüfəngləri çiyinlərindən aldılar və o tüfənglərin lüləsini yuxarı tutub qaranlıqdan gələn və get-gedə tükürpədən bir sürətlə artan uğultu ilə qarşı-qarşıya hazır dayandılar.

O Hadrut camaatı – ərləri, arvadları, uşaqları, ataları, anaları, qardaşları, bacıları tonqalda yanan o yaşlılar, cavanlar, uşaqlar necə xəbər tutmuşdular, tonqalın yerini beləcə dəqiq haradan öyrənmişdilər? – bunu sonralar da nə professor Zilber, nə də bu hadisənin istintaqını aparan orqanlar heç cürə başa düşə bilmədilər. Düzdü, çox adam həbs edildi (o zaman Hadrutdakı o həbslər taundan az iş görmürdü və taundan az qorxunc deyildi...), bəlkə də bu, bir sövq-təbii idi, sel kimi, qasırğa kimi bir təbiət hadisəsi idi.

Uğuldayan o camaat gəlib tamam yaxınlaşdıqda, ayın və tonqalın işığı onların ağrıdan, iztirabdan, işgəncədən əyilib tanınmaz olmuş sifətlərini işıqlandıranda, hərəkət edən o insan qaraltıları qaranlıqdan seçiləndə tonqalı dövrəyə almış rayon rəhbərlərinin, bakterioloji dəstənin üzvlərinin, sanitarların, milis işçilərinin arasında da səs-küy düşdü və qızıl əsgərlər havaya güllə atmağa başladılar.

Sel kimi uğuldaya-uğuldaya gələn o adamları nəyin bahasına olursa-olsun, o tonqala yaxın buraxmaq olmazdı, o tonqalla təmasdan sonra nəticə elə ola bilərdi ki, bunu təsəvvürünə gətirən professor Zilberin tükləri qabardı, az qaldı paltarını deşsin... Professor Zilber irəli çıxmağa, qışqırmağa, danışmağa, camaatı başa salmağa çalışırdı, amma heç kim onun səsini eşitmirdi, heç kim ona məhəl qoymurdu.

Qızıl əsgərlər elə hey havaya güllə atırdılar, amma camaat bunun da fərqinə varmadı və qızıl əsgərlərə hücum çəkdi, qızıl əsgərlərin arasından buraxılıb tonqala tərəf qaçmaq istədi. Qızıl əsgərlər daha havaya güllə ata bilmirdilər, adamlar onların əllərindən, qollarından, tüfənglərin qundağından yapışırdı; əsgərlər bir-birilərinə kömək edə-edə və yavaş-yavaş geriyə çəkilə-çəkilə tüfəngin qundağı ilə, lüləsi ilə camaatı itələyirdi, vururdu, amma o gecə, elə bil ki, tamam ağlını itirib dəli olmuş Hadrut camaatı heç nəyə baxmırdı, heç bir qüvvə o dəli həyəcanın, o dəli ehtirasın qarşısını ala bilmirdi.

Professor Lev Aleksandroviç Zilber otuz beş illik ömrü ərzində heç vaxt hiss etmədiyi bir ümidsizlik içində başa düşdü ki, indi bu adamları gülləyə tutsan da, yerə sərilənlərin üstündən keçib özlərini o tonqala yetirəcəklər; başa düşdü ki, hər şey bitdi: bu adamlardan ikisi, üçü o tonqaldakı meyitlərə toxunsa (əlbəttə, toxunacaqdılar, hələ yanmamış meyitləri dartıb tonqaldan çıxarmaq, tonqalı söndürmək istəyəcəkdilər; yanan o meyitlər bu diri adamların balaları idi, əzizləri idi...), taun onların hamısına yoluxacaqdı və bu adamlar da həlak olacaqdı.

Tonqal işığında dəli gözləri yerindən oynayan adamların qışqırtısı, fəryadı içində professor Zilber də, bakterioloji dəstənin bütün başqa üzvləri də – heç kim özü barədə fikirləşmirdi; özlərinin ayaq altında qalacaqlarını, bu axının qarşısında həlak olacaqlarını heç ağıllarına da gətirmirdilər, çünki neçə gündən bəri Hadrutda taunla vuruşan bu həkimlər, virusoloqlar, mikrobioloqlar, sanitarlar üçün, elə bil ki, həmin günlər ərzində özləri yox olmuşdu, özləri unudulub getmişdi, yalnız bir qorxu – taunun yayılması qorxusu var idi, görünür, bu da sövq-təbii idi, bu da təbiət hadisəsi kimi bir şey idi...

Bu zaman həmin uğultu ilə qızıl əsgərlərin üz-üzə gəldiyi dəqiqədən etibarən tapançasını çıxarıb ora-bura qaça-qaça (hətta belə bir məqamda da adamlara yaxın durmurdu, elə edirdi ki, heç kimlə toqquşmasın, adamlar isə daha «Çeka»nı belə tanımırdı və tanımaq da istəmirdi) havaya dalbadal güllə atan Murad İldırımlı birdən-birə tapançasını yerə çırpdı, tonqala tərəf qaçdı və tonqaldan iri bir odun dartıb çıxardı, məşəl kimi yanan o yoğun və uzun odunu iki əli ilə yuxarı qaldırıb (bu xəstə adama o güc haradan gəldi?!) başının üstündə fırlada-fırlada o uğuldayan camaatın üstünə hücum çəkdi, qızıl əsgərlərin arasından keçib camaatın arasına girdi.

Məşəl kimi yanan o iri odun zərblə bir-neçə nəfərə dəyib onları yerə sərdi və həmin dəm Azərbaycan SSR Baş Siyasi Idarənin səlahiyyətli müvəkkili elə bir qeyri-insani səslə bağırırdı ki və başının üstündə fırlatdığı o məşəldən qaranlığın içində elə bir dəhşət yağırdı ki, elə bil, camaat birdən-birə ayılmağa başladı, səs-küy yavaş-yavaş azaldı, adamlar hərəkətsiz dayandı, kimisi özünü yerə atıb üz-gözünü torpağa sürtə-sürtə ağladı, kimisi dizləri üstə çöküb tamam bir taqətsizlik içində susdu, elə bil, o məşəl bütün bu adamların sonuncu gücünü əlindən aldı.

Yavaş-yavaş yalnız Murad İldırımlının o vəhşi bağırtısı eşidilirdi, sonra elə bil ki, araya çökmüş bu sükut müvəkkili qamarlayıb səsini batırdı. «Çeka» da birdən-birə taqətdən düşdü, ayağı ayağına dolaşa-dolaşa tonqala tərəf qayıdıb sönmüş (o məşəlin də, elə bil ki, taqəti qurtarmışdı...), amma közü qıpqırmızı qızaran odunu iki əlilə də tonqala tulladı, sonra da eləcə ayağı ayağına dolaşa-dolaşa geri qayıtdı, tapançasını yerdən götürdü, kənara çəkilib yol verən qızıl əsgərlərin, Hadrut camaatının arasından keçib uzaqlaşdı və qaranlıqda tamam görünməz oldu.

Qurbağalar da, elə bil ki, o uğultudan, o səs-küydən, dalğa-dalğa bütün bu ətrafa yayılıb, bütün bu ətrafı sarsıtmış o həyəcandan qorxub susmuşdular və indi yenə də quruldamağa başladılar və o kiçik dağ çayından gələn qurbağa qurultusu o gecənin özünün iztirab səsi, o gecənin özünün matəm səsi idi.

Tonqal eləcə çıqqaçıqla yanırdı, amma tonqalın o səsi cavan qızıl əsgərlərə daha əvvəlki kimi təsir etmirdi, çünki o uğultudan, camaatla o çarpışmadan sonra, elə bil ki, həmin səkkiz-on dəqiqənin içində birdən-birə böyümüşdülər, bərkimişdilər; bir də ki, indi taqətsiz düşüb qalmış o Hadrut camaatının tonqalın işığında parıldayan gözlərində elə bir dərd, elə bir dəli ağrı-acı var idi ki, tonqalın həmin çıqqıltısı o dərdin, o ağrı-acının yanında zəifləmişdi, kiçilmişdi, təsirini itirmişdi...

Professor Zilber taqətsiz düşüb qalmış o adamlara baxırdı, o adamların iztirabları o gecə professor Zilberin bütün içindən keçib gedirdi, həmin iztirabı cismən hiss edirdi və o dəqiqələrdə professor Zilber Azərbaycan SSR Baş Siyasi Idarəsinin səlahiyyətli müvəkkilinə elə bir minnətdarlıq hissləri keçirirdi ki, bunu heç nə ilə müqayisə etmək olmazdı, bunu ifadə etmək mümkün deyildi (illər keçəcəkdi, o adamı isə həmişə də beləcə bir minnətdarlıqla, hətta vəcdlə yad edəcəkdi). Professor Zilber o dəqiqələrdə müvəkkilin kobudluğunu da, hər şeydən şübhələnməsini də, tərsliyini və sərtliyini də bağışlamışdı, müvəkkil bütün bu adamları xilas etmişdi və əslində, elə bakterioloji dəstənin üzvlərini də ayaq altında qalmaqdan, ölümdən qurtarmışdı.

Elə bil ki, həmin gecə adama daha heç nə təsir edə bilməzdi, amma birdən-birə professor Zilberin gözləri qızıl əsgərlərdən bir az aralıda dayanmış bir nəfərə sataşdı; dayanmışdı? – yox, o adam it kimi dörd ayaq – dizlərinin və əllərinin üstündə durmuşdu və alışıb yanan gözlərilə tonqala baxırdı və içindən elə it zingiltisinə də bənzər bir səs çıxırdı...

Professor Zilber dizlərinin və əllərinin üstündə durmuş adamın tonqalın işığında görünən görkəmini, sifətini heç vaxt yadından çıxarmayacaqdı, hətta sonralar – bir neçə ildən sonra xalq düşməni kimi həbs edildiyi və işgəncələrə məruz qaldığı vaxtlarda da Hadrutun altı kilometrliyindəki o tonqalın kənarında dizlərinin və əllərinin üstündə durmuş bu adamı yadına salacaqdı və dünyada daha böyük dərdlərin mövcud olması professora o inkivizisiya işgəncələrinə dözməyə, elə bil ki, qüvvə verəcəkdi (elə dərdlər var ki, inkivizisiya işgəncələri onun yanında bir heçdir və bu işgəncələrə dözmək lazımdır). Dərd dizləri və əlləri üzərində dayanmış o adamın simasında insanı lap əvvələ, lap bünövrəyə çəkib aparmışdı, o zamana ki, insan hələ iki ayağı üstə gəzən bir varlıq deyildi, insan hələ heyvandan seçilmirdi, hələ «homo sapiyens»dən əvvəlki dövrlər idi...

Professor Zilber sarsıntı içində:

– Kto tot nesçastnıy?.. – pıçıldadı.

Bayaqdan bəri qızıl əsgərlərlə birlikdə Hadrut camaatının qabağını kəsməyə, onları tonqala tərəf buraxmamağa çalışan Qırmızı Yaqub indi professor Zilberin yanında dayanmışdı və hələ də tövşüyə-tövşüyə dəsmalla üz-gözünün tərini silirdi; professor Zilberin boğuq və həyəcandan titrəyən pıçıltısını eşitdi, professor Zilberin baxdığı səmtə baxdı, dizləri və ayaqları üstə dayanıb işıldayan gözlərini tonqala zilləyib, xırıltılı bir səslə, qırıq-qırıq it kimi zingildəyən o adamı gördü və tanıdı.

– Tot çelovek... – Qırmızı Yaqub həm rus dilini pis bildiyi üçün, həm də o adamın yamandan da yaman halına yandığı üçün, sözləri tapmaqda çətinlik çəkirdi. – Uçitel... Russkiy yazık dayot v şkole... Tri malenkix sına paqibli!.. Tri sına... malenkix-malenkix... Jena toje poqib... Sam zdes ne bıl...

– A kak oçutilsya zdes? Kak prorvalsya v Qadrut?

– Ne znayu... – Kak ptitsa... – Və Qırmızı Yaqubun gözləri doldu; Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra doqquz il ərzində başqalarını ağladan bu adam indi özü uşaq kimi içini çəkə-çəkə ağlamağa başladı.

Qırmızı Yaqub doğrudan da başa düşə bilmirdi ki, Xosrov müəllim bura necə gəlib çıxıb? Qızıl əsgərlər təkcə yolların qabağını kəsməmişdi, bütün Hadrut ərazisini – dağı, dərəni, meşəni – hər yeri dövrəyə almışdı və belə bir mühasirədən keçib gəlmək mümkün deyildi. Xosrov müəllim – bu bədbəxt oğlu bədbəxt uçitel – necə gəlib buralara çıxmışdı? Buralara gələndə niyə başına bir daş düşüb o bədbəxti öldürməmişdi?

Neçə-neçə illərdən sonra da Xosrov müəllimin özü də yadına sala bilmirdi ki, Hadruta necə girmişdi, o bomboş həyətlərinə necə gedib çıxmışdı, evlərinin dərmanlanmış bağlı qapılarını, armud ağacının dibində ölüb qalmış o xoruzu (görünür, bu həyətdə ən axırıncı o xoruz ölmüşdü) necə görmüşdü, adamlara qoşulub o tonqalın üstünə necə getmişdi? O boş həyət də, o dərmanlanmış və qapı-pəncərəsi bağlanmış ev də, ay işığında rəngbərəng lələkləri hələ də şövqünü itirməmiş o ölü xoruz da, o yanan tonqal da, bir nəfərin iki əlilə başının üstündə fırlatdığı o məşəl də Xosrov müəllimin yadında idi və uzun ömrü boyu da heç vaxt yadından çıxmırdı, amma qızıl əsgərlərin o mühasirəsini necə keçməyi yadında deyildi. Bircə o yadında idi ki, axşamüstü yolbəndin yanında Qırmızı Yaqubla söhbətdən sonra, özünü o dərədən bu dərəyə vururdu, o daşdan bu daşın üstünə atılırdı, onu qovurdular, buraxmırdılar, tüfəngin qundağı ilə vururdular, tutub saxlamaq istəyirdilər, amma yenə də qaçırdı, dırnaqları ilə daşdan, torpaqdan yapışa-yapışa təpəyə, dağa qalxırdı, kolların içinə girirdi, ağacların arasında dolanırdı...

o gecəyarısı o tonqal eləcə yandı...

sonra o alov zəiflədi, zəiflədi, söndü...

o yerləri yenə də gecənin qaranlığı aldı və o qaranlıq içində yalnız tonqalın zəif közü qızarırdı...

buralara tamam bir sakitlik çökmüşdü, dalğa-dalğa bu ətrafa yayılan o həyəcan da dağılmışdı...

və elə bil ki, o dağılan həyəcan o tonqal qoxusunu da yavaş-yavaş buralardan çəkib aparırdı.

Hadrut camaatı da, qızıl əsgərlər də, bakterioloji dəstə də – hamı bu yerdən çıxıb getmişdi...

Indi bu yerlər tamam bomboş idi...

təkcə o kiçik dağ çayı axan tərəfdən qurbağaların qurultusu eşidilirdi və indi o qurbağa qurultusunda qeyri-təbii bir şey yox idi, əksinə, elə bil ki, ay işığında başının qarı güclə sezilən o uzaq dağların, görünməyən meşələrin, elə o kiçik dağ çayının özünün səsi idi...

təbiətin səsi idi....

Babadağın ətəyindəki o uzaq kənddə də gecələr qurbağalar belə quruldayardı...

o kənddə bir qarı qaldı, qayğıların yorub əldən saldığı qoca bir kişi qaldı, bir də Züleyxa adında cavan bir qız qaldı...

gələcək o cavan qızın idi...

gələcək o cavan qızın uşaqlarının, nəvələrinin idi...

bir azdan səhər aşılacaqdı...

sonra günlər ötəcəkdi, yağış yağacaqdı, qar yağacaqdı...

illər bir-birini əvəz edəcəkdi...

və o zaman o tonqal yerinin izi-sorağı da qalmayacaqdı, o tonqal yerində güllər, çiçəklər açacaqdı, azad zəhmətkeş balaları, o yerlərdə, o güllərin, çiçəklərin arasında oynayacaqdı...

və o zaman Murad İldırımlı həyatda olmayacaqdı...

amma Hadrutun özü də, kəndləri də başdan-başa elektrikləşdiriləcəkdi...

bu kəndlər traktorlarla və başqa kənd təsərrüfatı texnikası ilə təchiz ediləcəkdi...

sosializm qələbə çalacaqdı, kommunizm qurulacaqdı...

kapital dünyası məhv ediləcəkdi, bütün dünya proletariatı azad olacaqdı...

və o zaman bütün bu iztirabların hamısı həmişəlik bir keçmişdə qalacaqdı...

Azərbaycan SSR Baş Siyasi Idarəsinin səlahiyyətli müvəkkili Murad İldırımlı boz ürgəni ardınca çəkə-çəkə, ayağı ayağına dolaşa-dolaşa adda-budda közü qızaran o tonqala tərəf gedirdi və bu adam həmin Gələcəyin sevincini, fərəhini, həmin Keçmişin ağrısını, acısını da eyni vaxtda ürəyində hiss edirdi.

Boz ürgə də xəstələnmişdi, Murad İldırımlı bunu bilirdi və boz ürgə də, elə bil ki, tonqala tərəf bu taqətsiz yerişin son yeriş olduğunu, sahibinin onu son mənzilə çəkdiyini hiss edirdi, irəliləmək istəmirdi, amma Murad İldırımlı yüyəni darta-darta boz ürgəni ardınca aparırdı.

Get-gedə o tonqal yerindən gələn isti artırdı, o qoxu çoxalırdı və boz ürgə fınxırıb başını geri dartırdı, amma qızdırmanın içində yanan səlahiyyətli müvəkkil yüyəni əlindən buraxmırdı.

Gəlib lap közün kənarında dayandılar və boz ürgə istidən boynunu kənara çəkirdi, taqətsiz halda yerində oynayırdı, sahibinin əlindən buraxılmaq istəyirdi, amma buraxıla bilmirdi.

Səlahiyyətli müvəkkil yüyəni sol əlinin biləyinə dolaya-dolaya boz ürgəni özünə lap yaxınlaşdırdı və atın o iri və narahat, nigaran gözlərinə baxdı, sonra sağ əlində tutduğu tapançanı qaldırdı və atəş açıb boz ürgənin gicgahından vurdu.

Əvvəlcə atın qabaq ayaqları büküldü, iri gözləri uzaq bir nöqtəyə zillənib dondu, sonra böyrü üstə yerə sərildi, başını uzatdı, sifətinin bir tərəfi qıpqırmızı qızaran közlərin üstünə düşdü, amma boz ürgə daha başını çəkə bilmədi.

Bütün ətrafa təzə ütülən tük, təzə yanan ət iyi yayıldı.

O güllə səsindən sonra bir anlıq susmuş qurbağalar yenə də quruldamağa başladı.

Səlahiyyətli müvəkkil tapançanı qoburuna basdı, hələ yanıb qurtarmamış, közərən odun parçalarını dartıb tonqaldan çıxartdı, boz ürgənin üstünə yığmağa başladı və Hadrutun altı kilometrliyindəki həmin yerdə səhərə yaxın təzədən kiçik bir tonqal alovlandı.

Səlahiyyətli müvəkkilin əlləri də, sifəti də indi hərarətdən yox, o tonqalın istisindən yanırdı və daha buna dözmək mümkün deyildi; əlindəki axırıncı közərən odunu o təzə tonqala tulladı (daha kifayət idi), dərindən bir nəfəs aldı, tapançanı qoburundan çıxarıb öz gicgahına dirədi, qəti bir sıçrayışla özünü tonqala atdı və elə o anda da tapançanın tətiyini çəkdi.

Səlahiyyətli müvəkkil bircə an, cəmi bircə an o dəhşətli isti içində tapança lüləsinin gicgahındakı sərinini hiss etdi, sonra hər şey bitdi.

O ikinci güllə səsindən sonra da susmuş qurbağalar təzədən quruldadı...

Üç gündən sonra, Hadrut xəstəxanasının profilaktika hissəsində yatan adamları müayinə edən professor Lev Aleksandroviç Zilber Xosrov müəllimin çarpayısının yanında oturanda bu adamı dərhal tanıdı. Qəribə idi, Lev Aleksandroviç Zilber bu adama baxırdı və elə bil ki, özünü günahkar hesab edirdi; ümumiyyətlə, Hadruta gəldiyi gündən etibarən, bu hiss onu tərk etmirdi, ona elə gəlirdi ki, taun adamları bu cür aparırsa, adamları bu cür amansızcasına bədbəxt edirsə, adamlara heç vaxt sağalmayacaq beləcə yaralar vurursa, təqsirkar odur– professor Zilberdir.

Çarpayıda uzanmış bu uzun, arıq, gözlərindən əzab-əziyyət tökülən adamda taun tapılmamışdı, o sağlam idi, amma professor Zilber üç gün bundan əvvəl o tonqalın işığında dizlərinin və əllərinin üstündə durub xırıltılı səsi ilə qırıq-qırıq, it kimi zingildəyən bu adama nə isə eləmək, nə isə bağışlamaq, yadigar vermək istəyirdi. Qalxıb xəstəxanadakı iş otağına gəldi. Professor Zilberin kiçik qardaşı Veniamin Kaverin gənc yazıçı idi, Moskvada yeni kitabı çıxmışdı: «Konets Xazı» («Xazanın sonu»). Və professor Zilber o kitabı özü ilə Hadruta gətirmişdi. Mizin arxasına keçib əyləşdi, həmin kitabı açıb ağ üz səhifəsinə bircə an da fikirləşmədən avtoqraf yazdı:

**«Çeloveku, uvidevşeqo i perejivşeqo ad. Lev Zilber».**

Professor Zilber gətirib o kitabı Xosrov müəllimə bağışladı.

Taun epidemiyası yox ediləndən sonra, professor Zilber Hadrutdan getdi və bir müddətdən sonra Xosrov müəllim də Hadrutda qalmadı (qala bilmədi! Hadrutda hər şey altı yaşlı Cəfərdən, dörd yaşlı Aslandan, iki yaşlı Azərdən xəbər verirdi, Şirindən xəbər verirdi, o tonqaldan deyirdi...), Bakıya köçdü, Bakı məktəblərindən birində işə düzəldi və bütün ömrü boyu daha heç vaxt professor Zilberi görmədi. Bəzən yuxuda görürdü, Hadrut xəstəxanasında olduğu kimi, eləcə dinməz-söyləməz bir-birlərinə baxırdılar; bir də ki, düz otuz yeddi ildən sonra – 1966-cı ilin noyabr günlərindən birində qəzetlərdə çap olunmuş nekroloqlarda akademik Lev Aleksandroviç Zilberin şəklini gördü.

## 6

## DAR DALANDA

Divarlarına təzəcə göyümtül əhəng çəkilmiş bu dalan ensiz, adamsız, səliqəli və yay kimi isti o aprel günündə kölgəli idi. Güclə seziləcək əhəng iyi, elə bil ki, bu dar dalandakı sakitliyin, rahatlığın və təmizliyin daimiliyindən xəbər verirdi, yəni elə bil ki, bu qısa və dar dalandakı həmin sakitlik, rahatlıq və təmizlik həmişə olmuşdu – min il bundan əvvəl də belə idi və min il bundan sonra da belə olacaqdı; dalana tünd sarı rəngli üç həyət qapısı açılırdı və tünd sarı rəngli o üç həyət qapısı da, elə bil ki, həmişə beləcə kip örtülü olmuşdu və heç zaman açılmayacaqdı; qənbər döşənmiş ensiz küçədə ötən o maşınların səsi də o aprel günü bu dalana hay-küylə, sürətlə yox, ahəstə gəlirdi, o maşın səsinin özündə də bir yumşaqlıq, bir mülayimlik vardı.

Gicbəsər, dalanda, az qala, divara bitişik basdırılmış elektrik dirəyinin dibində, asfaltda qarnıüstə uzanmışdı və itin qara gözləri mürgü döyürdü. Gicbəsər Tülkü Gəldi Qəbiristanlığından çıxdığı iki gün ərzində Bakının dağlıq məhəllələrini dolaşa-dolaşa gəlib bu balaca və sakit dalana çıxmışdı; bura rahat və təmiz idi, bu sakitlik, bu rahatlıq və təmizlik iki günlük didərginlikdən sonra, itin ürəyincə idi.

Bu dar dalanın sakitliyi Tülkü Gəldi Qəbiristanlığının dərinliklərindəki qəbiristanlıq sakitliyindən seçilirdimi? Gicbəsər bunu hiss edirdimi, fərqinə varırdımı? Tülkü Gəldi Qəbiristanlığının idarə səs-küyündən, gediş-gəlişindən, gecə həyatından, dəfn mərasimlərindən, molla səsindən, matəm musiqisindən (həm Avropa çalğı alətlərində, həm Azərbaycan milli musiqi alətlərində) nəzir və sədəqə yığan gərgin dilənçi fəaliyyətindən başqa, hərdən günün müxtəlif çağlarında – səhər, günorta, axşam, gecə qəbir daşları arasına çökmüş ölü bir sükut da var idi. Tülkü Gəldi Qəbiristanlığı böyük idi, bəzən bir başında ölü basdırılırdı, matəm musiqisi çalınırdısa, o biri başında müxtəlif şəkilli, müxtəlif ölçülü, bahalı-ucuz, köhnə-təzə qəbir daşlarının üzərində o ölü sükut hakim kəsilirdi və o zaman o qəbir daşlarının müxtəlifliyi tamam itib gedirdi, həmin ölü sükut qəbir daşlarının hamısını eyniləşdirirdi. Hərdən Gicbəsər Qəbiristanlıq Idarəsinin hay-küyündən, gecə həyatından, vurulan təpiklərdən, atılan daşlardan qaçıb gedib o ölü sükutun içinə girirdi, amma orada da çox dayana bilmirdi, beləcə rahat uzanıb mürgüləyə bilmirdi və bu dəfə də qaçıb o ölü sükutdan canını qurtarırdı, yəni təzədən Qəbiristanlıq Idarəsindəki o insanların arasına gəlirdi.

Gicbəsər gözlərini açdı, qarşısındakı göyümtül divara baxdı, sonra qulaqlarını şəklədi, başını balaca yana çöndərib dar dalanın girəcəyinə tərəf baxdı; o gözəl sakitlik, rahatlıq və təmizlik içində Gicbəsər birdən-birə spirt iyi hiss etdi. Əlbəttə, Gicbəsər bu qoxunun adını, yəni spirt iyi olduğunu bilmirdi, amma illər ərzində Tülkü Gəldi Qəbiristanlığında yaxşı bələd olduğu bu qoxu iti həmişə sayıqlığa, ehtiyatlı və diqqətli olmağa çağırırdı, çünki Gicbəsər uzun illərin təcrübəsindən yaxşı bilirdi: bu qoxu olan yerdə nə desən mümkündü – səni tumarlayarlar, öpərlər və birdən-birə də təpiklə vurub qabırğanı sındırarlar. Gicbəsər sübh tezdən, yaxud axşamüstü Tülkü Gəldi Qəbiristanlığına daşınan yeşik-yeşik araq şüşələrini ömrünün, demək olar ki, hər günündə görmüşdü və insanların o şüşələrdəki mayeni içməklərini, sonrakı vəziyyətlərin gedişatını bütün təfərrüatlarına qədər müşahidə etmişdi, belə bir gedişat Gicbəsər üçün Tülkü Gəldi Qəbiristanlığında gündə gördüyü o adamlar kimi, gecələr Qəbiristanlıq Idarəsinə gəlib gedən o maşınlar kimi, o dəmir darvaza kimi, qarovulçu Əflatunun o köşkü kimi, sayı-hesabı

bilinməyən o qəbir daşları kimi, adi bir şey olmuşdu, amma bu adiliyə baxmayaraq, o qoxu özü ilə birlikdə ehtiyat və sayıqlıq gətirirdi.

Spirt iyi bu dar dalanda, xüsusilə, hiss olunurdu, çünki buradakı evlərdən, buradakı insanlardan spirt iyinə bənzər heç bir qoxu gəlmirdi. Gicbəsər o tünd sarı qapıların arxasında yaşayan adamları görmürdü, amma o adamların nəfəsini duyurdu, mətbəxlərindən gələn iyi hiss edirdi və bu mətbəx qoxusunun özündə də Gicbəsərin alışmadığı bir təmizlik var idi; bayaqdan bəri Gicbəsər bu dar dalanda, elektrik dirəyinin dibində uzanıb bu dalanın sakitliyi və rahatlığı içində, elə bil ki, tünd sarı qapılar arxasındakı o görünməz adamların mehribanlığını da duyurdu.

Bir nəfər dar dalanın qabağında dayandı və əynində toza-torpağa bulaşmış göy şalvar, yaxası açıq, düymələrinin çoxu qırılmış qara köynək və tamam çirklənib əldən düşmüş qəhvəyi pencək olan, sinəsi, qolları tüklü bu arıq kişi əlini dalanın küncünə dirəyib bir az yerində yırğalandı, sonra axıb gedən dumanlı gözlərini qıyıb küçənin aşağısına – yuxarısına baxdı, sonra dalana baxdı, dirəyin dibində uzanıb qara gözlərini ona zilləmiş iti gördü, elə bil ki, həm bir az sevindi, həm də təəccübləndi:

– A-a-a... Sən də... bur... dasan?..

Yəqin ki, bu sözlər o dar dalanda çox məhrəmanə səsləndi, çünki Gicbəsər səksənmədi, narahat olmadı və yalnız o adam dalanın içinə doğru gəlməyə başlayanda ayağa qalxdı.

– Dur-r-rma... Dur-r-rma... Uzan... Proşu da tebya... – O adam ayaq saxladı, əli ilə də işarə etdi ki, it qalxmasın, uzansın, sonra özü birdən-birə dizləri üstə asfalta çökdü və iməkləyə-iməkləyə Gicbəsərə tərəf gəlməyə başladı. Tülkü Gəldi Qəbiristanlığındakı insanların arasında keçirdiyi o uzun illər boyu bu itdə, elə bil ki, adamları əvvəlcədən tanımaq, bəd işləri əvvəlcədən hiss etmək sövq-təbiisi yaranmışdı və indi yəqin ki, iməkləyə-iməkləyə gələn bu adamdan bəd bir hərəkət duymadı və ürküb qaçmadı. Arıq kişi iməkləyə-iməkləyə gəlib itlə üzbəüz, lap burun-buruna dayandı və qəflətən ağlamağa başladı.

Bu adamın bütün vücudundan tünd spirt iyi gəlirdi və bu iy Gicbəsəri təngidirdi, amma qəribəydi, it kənara çəkilmədi, qara gözlərini bu arıq kişinin rəngini itirmiş və sulanmış gözlərinin içinə zillədi; it, elə bil, başa düşürdü ki, bu adamın işləri yaxşı deyil, bu adam ağlayır və bu adam yazığın biridir; həmin yazıqlıq, elə bil ki, o günorta çağı, o dar dalanda o adamla Gicbəsər arasında bir yaxınlıq, hətta doğmalıq əmələ gətirdi.

Kişi dirəyın dibində, itin yanında oturdu, sümüyü çıxmış kürəklərini dirəyə dirədi, ayaqlarını uzatdı və eləcə ağlaya-ağlaya əlini uzadıb itin çənəsini tumarladı. Gicbəsər başını geri çəkmədi, əksinə, özünü bir az da irəli verdi, kişinin spirtli nəfəsi düz Gicbəsərin burnuna vururdu, amma it buna dözürdü, çünki çənəsini tumarlayan o əlin mehribanlığı o qoxunun acısından qat-qat artıq idi; bəlkə də bu it başa düşürdü ki, o qoxu olmasaydı, bu mehriban əl də beləcə onun çənəsini tumarlamayacaqdı.

Arıq kişi gözlərini, burnunun suyunu əli ilə silib, uzun dırnaqlarının arası qapqara çirklə dolmuş barmaqlarını nə vaxtdan bəri qırxmadığı çal saqqallı sifətində gəzdirdi:

– Bilir-r-sən... Vahid nə deyib? – soruşdu. – Vahid... Vahid deyib ki... yolunda... yolunda candan keçər-r-rəm... sevgilim!.. Gör-r-rür-r-rsən?.. Mənə deməyiblər-r-e, belə söz deməyiblər-r-! Vahid gör-r-rür-r-sən... necə deyib: yolunda

candan... keçər-r-rəm, sevgilim... It olaydım da gər-r-rək mən!.. It yaxşıdı!.. It olmaq adam olmaqdan... yüz dəfə... yüz dəfə yaxşıdı!..

Kişi yenə gözlərini sildi və birdən-birə dibinə bir nigarançılıq, narahatlıq dolan rəngsiz gözləriylə o dar dalanın girəcəyinə tərəf baxdı və əmin olandan sonra ki, heç bir təhlükə yoxdur, əlini qəhvəyi pencəyinin döş cibinə saldı, bir dolu şüşə çıxarıb yenə də eyni nigarançılıq və narahatlıqla dalanın girəcəyinə baxdı, sonra çirkli dırnaqları ilə şüşənin ağzını açıb şirin, qırmızı çaxırı qurtum-qurtum içməyə başladı.

– Məni... it doğaydı də... gər-r-rək anam... Anam pisiydi də... köpək qızı anam... it doğmadı də məni!.. It olar-r-dım... gəzər-r-dim... sənnən bir yer-r-rdə küçələrdə... Səniynən dost olardım... Dost olar-r-dıq özümüzçün... Adamlar çox...əclafdı, e... bilirsən?.. çox əclafdı... Mən istəyir-r-rəm ki... it olam... Bax ...belə!.. – Və o arıq kişi də it kimi hürməyə başladı və onun eləcə hürməyi, elə bil ki, bu dar dalanın o rahatlığını, o təmizliyini Gicbəsər üçün daha da artırdı, o sakitliyi də pozmadı, əksinə, o sakitliyin davamı oldu.

Arıq kişi əlini dizinə vurdu:

– Bur-r-ra qoy başını... Qoy bur-r-ra!.. Mənim qar-r-daşım sənsən... Sənə həmişə yemək... gətir-r-rəcəyəm... Səni apar-r-rıb...evimdə saxlayacağam... Bilir-r-rsən necə... evim var? Dvar-r-resdi!.. Maşında gəzdir-r-cəyəm... səni... On dənə... maşınım var-r-r... Hansında istəsən gəzdir-r-rəcəyəm... səni... Istəyir-r-rsən... Hə?.. Şoferlərim də var-r-r e!.. Ancaq bilir-r-sən... mən it olmaq istəyir-r-rəm!.. – Arıq kişi yenə də ağlamağa başladı. – It... it olmaq istəyir-r-rəm!..

O sakit, rahat və təmiz dalanda dünyanın qəribə bir hadisəsi baş verdi; it bu adama baxdı, baxdı və birdən dizlərini büküb qarnı üstə yerə çöməldi və çənəsini arıq kişinin qılçının üstünə qoyub gözləri ilə altdan yuxarı ona baxdı. Arıq kişi itin bu hərəkətini adicə bir şey kimi qəbul edib (elə bil, elə belə də olmalıymış, it onun dediklərini başa düşməliymiş), sol əli ilə Gicbəsərin başını tumarlamağa, qulaqlarının altını qaşımağa başladı.

– It olmaq istəyir-r-rəm... – Sağ əlində tutduğu şüşədən bir qurtum da içdi. – Vahid bilir-r-sən... nə deyib? Vahid e!.. Əliağa Vahid... Deyib ki... insanlar-r-rda... insanlar-r-rda vəfa yoxdu... Əclafdı də insanlar-r-r!.. Ancaq mən... əclaf döyüləm!.. Bilir-r-sən... sənə necə baxacam?.. Hər şey alacam sənə!.. Doxtur-r-rski kolbasa... tapacaqlar-r-r... mənimçün... Iki kilo!Ver-r-rəcəm sənə... hamısını ver-r-rəcəm sənə!.. Ancaq mən də... it olmaq istəyirr-rəm!.. it olsaydım... bir-r-r yer-r-rdə yeyər-r-rdik doxturs-r-ski kolbasanı!..

Əlbəttə, Gicbəsər bu adamın dediyi sözlərin mənasını başa düşmürdü, amma bu sözlərin deyilişində it üçün gözəl bir musiqi var idi və o gözəl musiqi dar dalandakı bu gözəl sakitliyi, rahatlığı müşayiət edirdi və it çənəsini o arıq kişinin qılçına elə qoymuşdu ki, elə bil, həmişə beləcə qalacaqdı, heç vaxt başını bu mehriban qılçın üstündən qaldırmayacaqdı. Spirt iyi, xüsusən, şüşədən gələn o qoxu güclə hiss olunan o gözəl əhəng qoxusunu yox eləyirdi, bu sərt qoxu dar dalanın o ehtiyatlığı və sakitliyi ilə bir o qədər də uyuşmurdu, amma bu adamın itin başını tumarlayan, qulaqlarının altını qaşıyan əlindəki mehribanlıq, nəvaziş hər şeyi üstələyirdi, dünyanın bütün pis qoxularını bir kənara atırdı və görünür, bu it heç zaman belə bir mehribançılıq içində olmamışdı. Düzdü, lap küçük vaxtlarından isti və iri bir insan əlinin hərarəti uzun müddət Gicbəsərlə birgə oldu, zaman keçdikcə çox uzaqlarda qaldı və indi o dar dalanda, çənəsini o arıq kişinin qılçına qoymuş

Gicbəsər, elə bil ki, harasa uzaqlara qayıdırdı, lap cıqqılı küçüklük dövrünə qayıdırdı və çoxdan unudulmuş o hərarətin xatirəsini duyurdu...

Iy iyə qarışdı və bunu birinci hiss edən Gicbəsər oldu, nigarançılıqla başını qaldırıb dalanın girəcəyinə nəzər saldı və arıq kişi də itin nigarançılığını o saat duydu və birdən-birə heyvani bir qorxu çəkən rəngsiz gözləriylə küçəyə tərəf baxdı, sövq-təbii bir hərəkətlə sağ əlindəki yarımçıq şüşəni qəhvəyi pencəyinin döş cibinə soxdu, həyəcandan titrəyə-titrəyə tez-tez pıçıldamağa başladı:

– It olmaq istəyir-r-rəm!.. It olmaq istəyir-r-rəm!.. It olmaq istəyir-r-rəm!..

Bu vaxt dalanın girəcəyində iki nəfər – bir kişi və bir qadın – göründü və ikisi də ayaq saxlayıb yerlərində səndirləyə-səndirləyə dar dalanın içinə tərəf baxdı, sonra qadın əlini uzadıb dirəyin dibində oturmuş arıq kişini göstərə-göstərə cır səsiylə qışqırdı:

– Vot on, pederas!.. Spryatalsya zdes da, kurva?!

O iki nəfərin dirəyə tərəf yüyürməyiylə bütün bu dar dalanın başdan-başa spirt iyiylə dolması bir oldu və o iki nəfər dirəyin dibində oturmuş o adamın başının üstünü elə sürətlə aldılar ki, bu yazıq heç tərpənməyə də macal tapmadı; həmin iki nəfər bir göz qırpımında dirəyin yanına çatan kimi, onlardan biri – uzun kişi dirəyin dibində oturmuş (və titrəyə-titrəyə elə hey pıçıldayan: «–It olmaq istəyir-r-rəm!..It olmaq istəyir-r-rəm!..») adamın sifətinə zərblə bir təpik vurdu və bu zərbə o qədər güclü oldu ki, özü də ayaq üstə dura bilmədi, arxası üstə yerə sərildi.

Dirəyin dibində oturub əsə-əsə elə hey pıçıldayan o arıq kişi:

– Vay!.. – deyib iki əliylə də sifətini tutdu və parçalanmış dodaqlarından axan qan barmaqlarının arasından süzülməyə başladı, çirkli dırnaqlarını qıpqırmızı qızartdı.

Qadın yerə sərilmiş dostuna məhəl qoymadı və iki əliylə dirəyin dibində oturub üzünü qapamış arıq kişinin pırpızaqlı çal saçlarından yapışdı:

– Ubejat xotel da? Pederas!.. Qde vino? – və o bədbəxtin başını dirəyə döyəcləməyə başladı. – Skaji qde vino?.. Ubyom tebya!.. Ubyom!.. Kurva!..

Yerə sərilmiş uzun kişi də ayağa qalxdı. Qadın rus idi və rusca danışırdı, uzun kişi isə azərbaycanca:

– Oğraş!.. – dedi. – Bizi aldadıb qaçmaq istədin, hə?! Tək içmək istəyirsən, ay əclaf?! Məni aldatmaq olar?..

Qadın isə sakitləşmək bilmirdi, sifətindən qan axan o arıq kişinin başını dirəyə döyəcləyə-döyəcləyə:

– Qde vino?– qışqırırdı. – Qde kurva?! Qde vino?..

Uzun kişi yenə də ayağını qaldırıb dirəyin dibindəki o arıq kişini vurmaq istədi və bu vaxt Gicbəsər bütün içindən axıb gələn bir hirslə bərkdən hürməyə başladı; it bayaqdan bəri, elə bil ki, çaşıb qalmışdı və yalnız indi özünə gəlirdi; düzdü, təpiyin nə olduğunu yaxşı bildiyi üçün, uzun kişiyə yaxınlaşmırdı, amma onun ətrafına fırlana-fırlana var gücüylə hürürdü.

Qadın:

– Paşol!– qışqırdı və o bədbəxtin saçlarını buraxıb itin üstünə qaçdı, təpik atdı, amma ayağı itə dəymədi, ikinci dəfə təpik atdı və Gicbəsər bütün ömründə birinci dəfə dişləri ilə insan qıçından yapışdı.

Qadın:

– Oy!.. – qışqırdı və ayağını dartdı, amma Gicbəsər, arvadın topuğunu ağzından buraxmadı və onsuz da, ayaq üstə güclə dayanan o qadın arxası üstə yerə yıxıldı, donunun ətəkləri yuxarı qalxdı və əyninə alt paltarı geymədiyi üçün, vaxtsız solub əldən düşmüş bədəni, az qala, göbəyinəcən çılpaq qaldı.

O vaxt ki, Gicbəsər ağzında qan tamını hiss etdi, arvadın topuğunu buraxdı və kənara çəkilib daha da bərkdən hürməyə başladı.

Tünd sarı rəngli o üç həyət qapısı, elə bil ki, bir-birləriylə sözləşiblərmiş kimi, üçü də birdən açıldı və kiçikli-böyüklü bir dəstə adam o qapılardan dar dalana çıxdı. Bu adamların hamısı arvadlar və uşaqlar idi, aralarında kişi xeylağı yox idi, çünki bu məhəllədə kişilərin hər səs-küydən ötrü dalana, küçəyə çıxmağı ayıb sayılırdı, kişiyə yaraşmazdı. Görünür, bu vaxtlarda o dar dalanın camaatı nahar hazırlamaqla məşğul olurdu– arvadların əli döyülmüş ətə, una, yağa bulaşmışdı və əllərini döşlüklərinə silə-silə bu arvadlar da, uşaqlar da elə bir hay-küy saldılar ki, elə bil, bu dar dalan min il bundan əvvəl də belə bir haray-həşir içində olmuşdu və min il bundan sonra da belə olacaqdı.

– Vay, köpəy uşağı!..

– Ağəz, buna bax e, bu qancığa bax e!..

– Vay-vay-vay!..

– Ağəz, trusik geyməyib e...!

– Tfu sənə!..

– Pyaniskələrdi!..

Dalana dolmuş arvad-uşağın arasında on dörd-on beş yaşlarında, bığ yerinin tükləri qaralmağa başlamış kök bir oğlan da var idi və dalana çıxan kimi həmin oğlanın gözləri o saat yerə yıxılmış o qadının çılpaq ayaqlarının arasını aldı.

– Ağəz, qov buları!..

– Tfu sənə!..

– Ağəz, ört bu qəhbənin üstünü də!..

– Tez elə!..

– Tfu sənə, qancıq!..

– Bu birisinin ağzını partdadıblar!..

– Durun, köpək uşağı, durun!..

– Vur bu qəhbəni!..

– Ala!..

– Ağəz, vurun e, bunnarı, adam döyül ki, bunnar!..

Bir dəstə ayaq, bir dəstə əl o üç nəfərin – dodaqları partlamış o adamın, o uzun kişinin və topuğundan qan axan o qadının üstünə cumdu, damarları şişmiş boğazlardan çıxan səslər, elə bil ki, o dar dalanın təzəcə əhənglənmiş divarlarına hopurdu, həmişə bu divarlarda qalacaqdı və bu adamlarla birlikdə o divarlar da qışqırırdı:

– Əclaf oğlu əclaf!..

– Pyaniskə köpək oğlu!..

– Ay qəhbə!..

– Vur bunnarı!..

– Al!..

– Ay qancıq, trusik gey də!..

– Al!..

Gicbəsər o dar dalanın küncünə qısılıb mırıldaya-mırıldaya gözlərinin qabağında atılan bu təpiklərə, vurulan yumruqlara, çəkilən sillələrə baxırdı, o adamların, o dar dalanın divarlarının haray-həşirinə qulaq asırdı və bu dəm itin qəhvəyi-qara tükləri pişik tükü kimi qabarmışdı; it bu adamların arasından qaçıb o dar dalandan uzaqlaşa bilmirdi, qorxurdu.

– Al!..

– Bir də gələcəksən bura, hə?..

– Ay qancıq, tfu sənə!..

– Bu da azdı sənə, oğraş oğlu, oğraş!...

– Al!..

– Ay əclaf!..

Dar dalandan qaçıb birinci canını qurtaran, o uzun kişi oldu, sonra dodaqları partlamış arıq kişi qaça bildi (bütün bu müddət ərzində sifətinin qanına bulaşmış sağ əliylə qəhvəyi pencəyinin üstündən çaxır şüşəsini tutmuşdu ki, sınmasın, əyilib tökülməsin), sonra da səndirləyə-səndirləyə o qadın qaçdı və o qadın başını götürüb qaçanda həyətdən çıxmış həmin on dörd-on beş yaşlarında kök oğlan dar dalandakı o basırıqdan istifadə edib əlini donun üstündən arvadın paçalarının arasına basdı; oğlanın bu hərəkətini anası o saat gördü və hirsindən yanıb yaxıla-yaxıla:

– Ədə, sən neynirsən?! – qışqırdı. – Kül sənin başuva!– Və oğlunun yay qabağı ülgüclə təzəcə dibindən qırxılmış başına yağlı bir qapaz çəkdi və o qapazın səsi bu dar dalandakı hay-küyün son sədası oldu: o üç tünd sarı qapı birdən-birə necə açılmışdısa, yenə də birdən-birə eləcə açıldı, bu qədər camaat birdən-birə necə dalana tökülmüşdülərsə, eləcə də birdən-birə hamı həyətlərə girdi, o tünd sarı qapılar da yenə kip örtüldü.

Dar dalanda təkcə o on dörd-on beş yaşlı kök oğlan qalmışdı, bir də ki, dalanın dibinə qısılmış Gicbəsər.

O üç nəfər başını götürüb qaçmışdı, həyətdən çıxmış adamlar daha hay-küy salmırdı, o on dörd-on beş yaşlı kök oğlan susmuşdu, Gicbəsər daha mırıldamırdı, amma elə bil ki, bu dar dalanın göyümtülə çalan əhəngli divarları hələ də guruldayırdı.

Gicbəsər başını aşağı saldı, qulaqları yatdı, quyruğunu buladı və it asta addımlarla çıxıb getmək istədi, amma bu vaxt o kök oğlan Gicbəsəri gördü və bayaqkı qapazın ağrısının, acısının, pərtliyinin hirsini itin üstünə tökdü:

– Paşol atsuda!..

Və oğlan əyilib yerdən kiçik bir qənbər götürdü.

Gicbəsər başa düşdü ki, bu saat ağır bir zərbə alacaq və irəli sıçrayıb iti addımlarla qaçıb getmək istədi, amma oğlanın zərblə atdığı o qənbər dalandan çıxhaçıxda Gicbəsərin qabırğalarının altına dəydi və it bu zərbədən zingildəyə-zingildəyə küçə ilə üzüaşağı qaçmağa başladı.

Gicbəsər var gücü ilə o dar dalandan uzaqlaşmaq istəyirdi.

Divarları təzəcə əhənglənmiş o dar dalan, kip örtülmüş o tünd sarı rəngli qapılar arxada qaldı.

## 7

## QONAQLIQ

1939-cu ilin qış günlərindən biri idi və havalar uzun müddət mülayim keçəndən sonra, birdən-birə həmin gün bütün gecəni qar yağmışdı, Bakının küçələrini, binaların damını, eyvanını, xüsusən, gediş-gəlişin az olduğu yuxarı məhəllələri (Ələsgər müəllimin ikiotaqlı, mətbəxli mənzili Bakının dağlıq hissəsindəki belə məhəllələrdən birindəki birmərtəbəli kiçik binada idi) qar basmışdı və qəribə idi, bu gözlənilməz soyuq həmişə rahatlığı, istini xoşlayan Ələsgər müəllimi nəinki narazı salmışdı, narahat etmişdi, əksinə, hər tərəfi bürümüş o tərtəmiz qar ağlığı Ələsgər müəllimin bütün içinə bir coşğunluq, bir ruh yüksəkliyi, hətta – nə qədər ağlasığmaz olsa da – bir hərarət gətirmişdi (qar və hərarət!); elə bil ki, o qış günü qarın o tərtəmiz ağlığı, ümumiyyətlə, daha dünyanın qara yox, ağ günlərindən xəbər verirdi, elə bil, o ağlıq, o təmizlik əməllərin bundan sonrakı salehliyindən deyirdi və Ələsgər müəllim mətbəxdə divardan asılıb altına da girdə tas qoyulmuş əlüzyuyanda həmin coşğunluq, həmin gözəl ovqatla əllərini tərtəmiz yuyub:

– Gətir o toyuqları bura, mən doğrayım!– dedi.

Ələsgər müəllimin arvadı Firuzə xanım qaynar düyünü aşsüzənə boşalda-boşalda və ətli sifətini də düyünün buğundan yan tutub tez-tez nəfəs ala-ala:

– Sən darıxma, – dedi, – sən darıxma... hər şey qaydasında olacaq. Sən darıxma...

Firuzə xanım düz deyirdi və Ələsgər müəllim özü də bunu çox yaxşı bilirdi: işdə, dostların, tanışların arasında nə qədər təmkinliydisə, evdə, məişətdə bir o qədər narahat, darıxan adam idi, misal üçün, hər il yayda üçü də bir yerdə – yəni Ələsgər müəllim, Firuzə xanım, bir də Arzu – Kislovodska gedəndə arvadını da, qızını da o qədər tələsdirirdi ki, qatarın tərpənməyinə hələ üç saat qalmış vağzala yollanırdılar...

Bu gün də məktəbdən tez qayıtmışdı ki, Firuzə xanıma kömək eləsin – bir həftə idi ki, Ələsgər müəllim bu gün axşamkı qonaqlığın narahatlığını keçirirdi; bilirdi ki, hər şey qaydasında olacaq, Firuzə xanım gözəl bir süfrə açacaq, kök və ilk baxışda ağır adam görünsə də, əslində, çox cəld idi, hər şeyi vaxtlı-vaxtında hazırlayacaqdı, qonaqlar Arzunun şərəfinə sağlıqlar deyəcəkdi, yeyib-içəcəkdilər, uzun sözün qısası, həmişəki kimi gözəl bir məclis keçəcəkdi – bütün bunları bilirdi, amma yenə də narahatlıq keçirirdi, darıxırdı.

– Bir şey almaq lazım deyil ki?

Firuzə xanım plovu dədə-babadan qalmış mis qazanda «kerosinka»nın üstünə – dəmə qoya-qoya:

– Yox ey, hər şey var, – dedi. – Sən narahat olma...

– Çörək az deyil?

– Yox, yox... Sən narahat olma, hər şey düzələcək...

Ələsgər müəllim Firuzə xanımın tərləmiş sifətinə baxa-baxa gülümsədi: özü evdə-eşikdə o qədər səbrsiz adam idi ki, bu səbrsizlik, bu narahatlıq Firuzə xanıma da keçmişdi və Firuzə xanımın «sən darıxma, sən narahat olma» sözləri indi daha çox özünün narahatlığını göstərirdi; amma bu gözəl qar lap vaxtında yağmışdı, çünki həddən artıq kök olduğu üçün tez-tez tərləyən Firuzə xanım qonaqlıqqabağı lap əldən düşürdü, amma indi «kerosinka»nın birində plov dəmdə idi, o biri «kerosinka»nın üstündə yarpaq dolması bişirdi, soyutma toyuqlar bir tərəfə yığılmışdı, Ələsgər müəllimin dünən Kömürçü meydanında bir səlyanlıdan alıb

gətirdiyi iki dənə Kür xəşəmi tavada qızardılmışdı – mətbəx isə sərin idi və Firuzə xanım da əvvəlkilərə nisbətən az tərləyirdi.

Ələsgər müəllimgilə adam az-az gəlib-gedirdi və üç nəfərdən ibarət bu ailə bir-birinə o qədər öyrənmişdi, beləcə bir üçlük onlar üçün o qədər öyrəncəli olmuşdu ki, evlərinə başqa bir adam gələndə özlərini naqolay hiss edirdilər. Firuzə xanımın qohumları uzaqda – Naxçıvanda yaşayırdılar və ildə-ayda bir dəfə o qohumlardan kiminsə yolu Bakıya düşürdü, yay vaxtı Ələsgər müəllimgilə Ordubad şəftəlisindən, ərikdən, armuddan, gavalıdan pay gətirirdi və anası kimi kök olan Arzu bu meyvələrin hamısını yeyib qurtarırdı; qış vaxtı isə qoz, fındıq, badam ləpəsi, ərik, tut, gilənar, albuxara qurusu gətirirdilər və Firuzə xanım o gözəl xuruşun hamısını yığıb hər il keçirtdikləri bu yeganə qonaqlıq üçün saxlayırdı. Ələsgər müəllimin isə elə bir yaxın qohumu qalmamışdı, qalanlar da Qubada yaşayırdılar və Bakıya da demək olar ki, gəlmirdilər.

Ələsgər müəllimlə Firuzə xanım 1921-ci ildə evlənmişdilər, o vaxt Ələsgər müəllimin otuz bir yaşı var idi, Bakıda təzəcə məktəb müdiri təyin olunmuşdu. Firuzə xanımın isə iyirmi altı yaşı var idi və Firuzə xanımın atası, rəhmətlik Qəzənfər kişi həmin məktəbdə təsərrüfat işləri üzrə müdir müavini idi. Firuzə xanım elə o vaxt da beləcə kök idi və Ələsgər müəllimin də kök arvadlardan xoşu gəlirdi.

Ələsgər müəllimlə Firuzə xanımın düz səkkiz il uşağı olmadı, Firuzə xanım türkəçarə qalmadı, hamısını elədi, Ələsgər müəllim, hələ keçən əsrdə Istanbul Universitetində təhsil almış və Bakıda uşaqdan böyüyəcən hamının tanıyıb hörmət etdiyi professor Fazil Ziyadan xeyirli məsləhətlər aldı, nəhayət, 1929-cu ilin qışında bir qızları dünyaya gəldi və Ələsgər müəllim o qızın adını Arzu qoydu və həmin vaxtdan da hər il qışda, Arzunun anadan olduğu gündə Ələsgər müəllimgilin evində gözəl bir qonaqlıq keçirilirdi.

Professor Fazil Ziya da Ələsgər müəllimin xüsusi dəvəti ilə əvvəllər bu qonaqlıqlarda iştirak edərdi. Qəribə ziyalı bir adam idi, küçədə gəzəndə həmişə öz-özünə xalq mahnılarını dodaqaltı zümzümə edərdi, müayinə etdiyi adamlara xəstəliklərindən asılı olmayaraq: «– Tez-tez teatra gedin!.. – deyərdi, bir də ki, – plov yeyin!.. – deyərdi. – Amma az yeyin....» Sonralar professor Fazil Ziya çox qocaldığı üçün (yaşı səksəni keçmişdi), daha evdən az çıxırdı və qış vaxtı Arzunun qonaqlığına gələ bimirdi, buna görə də Ələsgər müəllim hər dəfə Arzunun anadan olduğu gün özü şəxsən professor Fazil Ziyanın evinə gedib kişiyə bir dəstə qızılgül təqdim edirdi, amma... Keçən il Fazil Ziya xalq düşməni kimi ifşa olundu, hələ XIX əsrdə Türkiyədə təhsil aldığı üçün türk casusu və azğın pantürkist elan edildi, sovet Azərbaycanında faşizm ideyalarının təbliğində günahlandırıldı və həbs olunub güllələndi. Nə isə, belə bir gözəl gündə bu sayaq şeylər barədə fikirləşmək lazım deyil...

Arzu çox gözəl və ağıllı bir uşaq idi, hələ beş yaşı tamam olmamış, Azərbaycan əlifbasını da, rus əlifbasını da öyrənmişdi və o vaxtdan da hər iki dildə yazılmış kitablar Arzu üçün hər şey idi; bu uşaq kitabı kəşf etmişdi və başa düşmüşdü ki, bütün oyuncaqlar, bütün oyunlar, bütün söhbətlər, hətta böyüklərin söhbətləri də kitabın yanında heç nədir. Arzu o qədər oxuyurdu ki, bəzən nəinki Firuzə xanım, hətta Ələsgər müəllimin özü də narahat olurdu, uşağı dəniz kənarında gəzməyə çıxarırdı, konsertə, kinoya, teatra aparırdı. Arzu atasıyla birlikdə Qliyerin «Şah Sənəm» operasına, Azərbaycan Dram Teatrında «Otello»ya, Rus Dram

Teatrında «Anna Karenina»ya, «Ryui Blaz» a getmişdi, Gürcüstanın xalq artisti, ordenli Arakişvilinin, RSFSR-in əməkdar artisti Darya Spirişevskayanın konsertlərində olmuşdu, sirkdə Alli-vad attraksionuna baxmışdı. Arzunun bəstəkar Çişkonun «Potyomkin zirehli gəmisi» operasından çox xoşu gəlirdi, beş dəfə gedib bu operaya baxmışdı, amma elə ki, 1937-ci il gəldi, Üzeyir Hacıbəyovun «Koroğlu» operası tamaşaya qoyuldu, Arzu, ən azı, ayda üç dəfə Ələsgər müəllimlə birlikdə gedib o operaya tamaşa edirdi, hətta bir dəfə Firuzə xanımı da məcbur edib evdən çıxartdı və ömürlərində birinci dəfə üçü də bir yerdə – Ələsgər müəllim, Arzu, Firuzə xanım – operaya baxdılar.

Əlbəttə, bunlar hamısı çox gözəl idi, amma Arzu üçün kitabın yerini heç nə vermirdi və bir az böyüyəndən sonra Arzu özü evlərindən dörd tin aşağıda açılmış L. M. Kaqanoviç adına kitabxanaya abunə yazılmışdı və bir ucdan həmin kitabxanadakı kitabları  oxuyub sona çatmaqla məşğul idi. Keçən il L.M. Kaqanoviçin 50 yaşı tamam olanda, kitabxana müdiriyyətinin yoldaş Stalinin ən yaxın silahdaşlarından birinə göndərdiyi təbrik məktubunda fəal oxucu kimi, Arzunun da imzası var idi. Kitabxananın şanlı sovet Arktika tədqiqatçısı, Sovet Ittifaqı Qəhrəmanı, SSRI Ali Sovetinin deputatı Ivan Dmitriyeviç Papaninə göndərdiyi təbrik məktubunda da (bu stalinçi qəhrəmanın da 50 yaşı tamam olurdu) alovlu bolşevik salamı, alovlu komsomol salamı yetirənlərlə bərabər, qəhrəmana alovlu pioner salamı da yetirilirdi və o beş pionerin arasında Arzu da var idi.

Arzu indi dördüncü sinifdə oxuyurdu, amma səkkizinci, doqquzuncu sinfin riyaziyyat məsələlərini asanlıqla həll edirdi və məktəbin ciddi, savadlı riyaziyyat müəllimi Əlibaba müəllim Arzunu «Sofya Kovalevskaya»– deyə çağırırdı, «– Mənim, – deyirdi, – belə şeyləri əvvəldən hiss eləməyimə söz yoxdur. Iyirmi ildir müəlliməm. Bu uşaq böyük alim olacaq! Onda, – deyirdi, – biz hamımız fəxr edəcəyik ki, bunun müəllimləri olmuşuq! Baxarsız, mən ölü, siz diri, görərsiz. Mən indiyəcən hansı şagirdə nə diaqnoz qoymuşam, elə də olub! Əgər Arzu, doğrudan da, Azərbaycanın Sofya Kovalevskayası olmasa, onda mən heç nə bilmirəm! Onda mən müəllim deyiləm, upravdomam! Bununki adicə istedad-zad deyil, vergidi, vergi!»

Əlbəttə, Arzu ekstern imtahan verib səkkizinci, ya doqquzuncu (lap onuncu) siniflərdən birində oxuya bilərdi, amma Ələsgər müəllim bunu istəmirdi:birinci ona görə ki, Arzu yaxşıca iştahla yesə də, kök və canlı olsa da, hər halda, uşaq idi və birdən-birə beləcə ağır yükün altına girməyinə ehtiyac yox idi, tədricən yetişməyi yaxşı idi, uşaq idi, qoy uşaq kimi də böyüsün, ekstern imtahanlar isə, Ələsgər müəllimin fikrinə görə, gələcəyin işi idi, Arzu məktəbi bitirib instituta girəcəkdi, qoy onda ekstern imtahanları versin, birdən-birə üçüncü,beşinci kursa keçsin, müdafiə etsin, namizəd yox, birdən-birə lap doktor olsun – bunlar gələcəyin işi idi, Əlibaba müəllim demişkən, o vergi, o həvəs ki, bu uşaqda var idi, Allah qoysa (Ələsgər müəllim ürəyində Allaha inanan adam idi və məktəbdə bunu, əlbəttə, heç kimə bildirmirdi), heç kim onun əlindən almayacaqdı; ikincisi də ona görə ki, Ələsgər müəllim özü məktəb müdiri idi, Arzu da həmin məktəbdə oxuyurdu və öz qızının sinifləri beləcə dalbadal adlaması xoşagəlməz söz-söhbətə səbəb olardı, bu cür söz-söhbətləri isə Ələsgər müəllim heç vaxt xoşlamamışdı.

Ələsgər Babazadə inqilabdan əvvəl Bakının neft çıxarılan fəhlə rayonlarında – Ramanada, Suraxanıda, Sabunçuda yeni açılmış ibtidai məktəblərdə müəllimlik

etmişdi və düz on səkkiz il idi ki, Bakıda məktəb müdiri, həm də coğrafiya müəllimi idi. Ömrü boyu siyasətə qarışmayan (indinin özündə də bitərəf idi), heç kimlə işi olmayan, həmişə hamını yola verməyə çalışan, imkanı olanda yaxşılıq eləyən bu adam, yaşı hələ əllini ötməsə də, Bakı maarif işçiləri arasında ağsaqqal hesab olunurdu, hörmət və nüfuz sahibi idi. Elə buna görə də ötən 37–38-ci illər fırtınası Ələsgər müəllimin müdir işlədiyi məktəbdən cəmi iki nəfər adam aparmışdı: əsrin əvvəllərində Sarbon Universitetini əla qiymətlərlə bitirmiş, bir müddət həmin universitetdə saxladılıb dərs demiş, sonradan öz doğma xalqına xidmət etmək məqsədilə Bakıya qayıtmış, uzun müddət Azərbaycan mətbuatında çalışmış, Azərbaycan dilinin yeni qrammatikasını yazmış, Molyerin, Hüqonun, Stendalın əsərlərini Azərbaycan dilinə tərcümə etmiş və inqilabdan sonra orta məktəbdə fransız dili müəllimi işləyən bitərəf Əvəz bəy Muğanlinski; bir də ki, Moskvada Qızıl Professuranı qurtarıb gəlmiş cavan ədəbiyyat müəllimi, partiyaçı Fərid Şirinli – vəssalam. Ələsgər müəllimin müdir işlədiyi məktəbdə, cəmi ikicə nəfər xalq düşməni ifşa olunub həbs edilmişdi (deyirdilər ki, guya, ikisi də güllələnib, amma bu barədə rəsmi bir məlumat yox idi), Bakının isə elə məktəbləri var idi ki, müəllimlərinin əlli faizi, altmış, hətta yetmiş faizi xalq düşməni elan olunmuşdu və həmin məktəbin müdirləri, partiya təşkilatı katibləri Bakıda keçirilən maarif müşavirələrində, rayon partiya komitələrinin plenumlarında o rəqəmləri xitabət kürsülərindən fəxrlə sadalayırdılar, sonra baxıb görürdün ki, o rəqəmlərlə o cür fəxr eləyən həmin məktəb müdirinin, həmin partiya təşkilatı katibinin özü xalq düşməni kimi ifşa olundu və gələn dəfə elə həmin xitabət kürsüsündən bu məlumatı yeni müdir, yeni partkom verdi...

Fərid Şirinli hekayələr yazırdı, ara-sıra mətbuatda çap olunurdu, Moskvada Əli Nazimlə bir yerdə oxumuşdu, Mikayıl Müşfiqlə dost idi, yeri gəldi-gəlmədi, onları müdafiə edirdi, elə onların da oduna yandı. Əvəz bəy də, yazıq... Əvvəldən hiss eləmişdi ki, başının üstünü qara dumanlar alır, birdən-birə yoxa çıxdı, arvadı məktəbə ərizə yazdı, milisə ərizə yazdı ki, Əvəz bəy itib; o itib– bu itib, düz doqquz ay Əvəz bəydən xəbər çıxmadı, sonra qonşulardan kimsə xəbər verdi və orqan işçiləri Əvəz bəyi öz evindəki paltar dolabının içindən çıxartdı; məlum oldu ki, arvadı Əvəz bəyi doqquz ay paltar dolabının içində gizlədib saxlayıb...

Əvəz bəyi məktəbdə partiya təşkilatının, komsomol komitəsinin, pioner təşkilatının birgə iclasında, Rayon Partiya Komitəsində şöbə müdiri işləyən Cümşüdlünün iştirakı ilə xalq düşməni kimi ifşa etdilər, terrorçuluqla məşğul olan ingilis casusu kimi də həbsə aldılar və güllələdilər.

Əvəz bəy düz səkkiz il dalbadal Arzunun anadan olduğu günlərdəki məclislərdə iştirak etmişdi; gətirdiyi hədiyyələri – gözəl kitablar tapıb gətirirdi– həmişə özü Arzuya təqdim edirdi və: «–Je vu felisit, madmuazel!..» – deyirdi, amma xalq düşməni çıxıb həbs olunduğuna görə iki il Arzunun məclisində yox idi. Arzunun çox iti yaddaşı var idi, üç-dörd yaşındakı hadisələri xatırlayırdı, inişilki qonaqlıqda da yəqin ki, o gözəl kitabları xatırlayıb birdən-birə: – «– Əvəz baba yoxdu....» – dedi. Qonaqlıq qurtarandan sonra Ələsgər müəllim evin içində, az qala, pıçıltıyla Arzuya dedi: «– Sən daha Əvəz babanın adını çəkmə...» Arzu təəccüblə: «– Niyə?» – soruşdu. Ələsgər müəllimin dili gəlmədi ki, Əvəz bəyin düşmən olduğunu evində də təkrar etsin, odur ki: «– Belə məsləhətdi...» – dedi. Arzu məktəbdə «Pavlik morozovçular dəstəsi»nin fəal üzvü idi, siniflərinin divar qəzetini

çıxarırdı, kitabxanada oturub heç kimin köməyi olmadan özü həmin divar qəzeti üçün Hüseyn Cavidi pionerlərin düşməni kimi ifşa edən baş məqalə yazmışdı, amma Arzu, hər halda, uşaq idi və bir müddət Ələsgər müəllimdən əl çəkmədi: «– Niyə belə məsləhətdi?».

Firuzə xanım Arzuya nə dedi, nə demədisə, axır ki, bu suallar kəsildi, amma Ələsgər müəllim ehtiyat üçün Əvəz bəyin bağışladığı o kitabları evinin zirzəmisində gizlətdi və Arzu bir daha o gözəl kitabları görmədi və heç vaxt da Əvəz bəyin adını çəkmədi. Ələsgər müəllim Füzulinin və Vaqifin şerlərindən ibarət iki qədim əlyazmasını da həmin zirzəmidə gizlətmişdi, çünki o əlyazmaları təbii ki, ərəb əlifbasında idi.

Indi o adam ki, ərəb əlifbası ilə kitab oxuyurdu, ərəb əlifbası ilə məktub yazırdı– o əlifba ilə ki, bu bədbəxt xalq min il idi yazırdı, oxuyurdu – onu xalq düşməni kimi ifşa edirdilər; hərgah evində ərəb əlifbası ilə kitab varsa, deməli, sən mollasan, dini təbliğ edirsən (kimə başa salasan ki, bu, Füzulidi, Vaqifdi!..), yaxud sən Müsavatın agentisən, qatı burjua millətçiçisən, pantürkistsən (ən dəhşətli ittiham bu idi – pantürkist!), panislamistsən... Tək kitabdı bəyəm? Bunlar daşlarla da düşmənçilik edirlər. Bibiheybətdəki o gözəl məscidi ki, adam baxanda onun yaraşığına mat qalırdı, uçurub dağıtdılar, yerlə-yeksan elədilər. Maştağadakı o qədim məscid də elə... Azərbaycanda nə qədər tarixi məscidlər dağıdıldı?.. Şəkidəki o qədim, o gözəl məscid... Dünyanın ən günahsız yeri qəbiristanlıqdı, ora da əl atırlar, orada da məqbərələri dağıdırlar... Qəbiristanlıqda da bəd əməl axtarırlar... Hansını deyəsən? Yaxşı, ay əclaflar, ay vicdansızlar, ay nankorlar, ay adını yeni həyat qurucusu qoyub, həyatı dağıdanlar, yaxşı, deyək ki, məscidlər müsəlmanınkıdı, siz də ki, Islamla qanlı-bıçaqsınız, bəs, onda Bakının ən gözəl yerindəki o nəhəng Aleksandr kilsəsinin niyə daşını daş üstündə qoymadınız, uçurub yox elədiniz?..

Ələsgər müəllim bunları fikirləşirdi və fikirləşdikcə də bu təmkinli adam həmişə öz-özünə əsəbiləşirdi, bütün içi qapqara qanla dolurdu. Məsələ müsəlmanlıqda, xristianlıqda deyildi, bunların mayasında dağıtmaq, sökmək, kor qoymaq, yerlə-yeksan eləmək, ocaqları söndürmək var idi. Bunların etiqadı şeytanadı!.. Oğul atanı satır, qardaş qardaşı ifşa edir, qız anadan imtina edir, arvad ərindən partiya təşkilatına şikayət yazır, komsomol iclaslarında bacı-bacıdan casusluq edir, məscidlər dağıdılır, kilsələr dağıdılır, adam gecə arvadıyla da danışanda siyasi səhv buraxmaqdan ehtiyat edir, bunun axırı nə olacaqdı, Xudaya?! Bu necə zəmanədir, bu necə ölkədir, bu necə quruluşdur?! Insan başı ilə toyuq başının fərqi yoxdur, insanın başını da toyuğun başı kimi, haçan istəsələr, onda da üzə bilərlər... hansı məmləkətdə belə şey olub, hansı dövrdə bu qədər günahsız qan axıdılıb, bu qədər qorxu olub?!.. Marks belə demişdi?! Engels belə demişdi?! Lenin belə demişdi?! Nə isə... Bu işlər barədə beləcə fikirləşmək də düz deyildi (adam özü-özündən ehtiyat edirdi).

Ələsgər müəllimin məktəbində həmin iki müəllimdən başqa, cəmi on doqquz nəfər yuxarı sinif şagirdi komsomoldan xaric edilmiş, məktəbdən çıxarılmışdı. Bu on doqquz uşaqdan on biri heç, onlara kömək etmək mümkün deyildi, çünki xalq düşmənlərinin uşaqları idi, amma yerdə qalan səkkiz uşaqla bağlı Ələsgər müəllim gözdə-qulaqda idi, ara bir balaca sakitləşən kimi, onları məktəbə bərpa edəcəkdi (ikisini artıq bərpa etmək üzrə idi) və ümumiyyətlə, Ələsgər müəllimin müdir

olduğu məktəb Bakının başqa məktəblərinə, başqa idarə və müəssisələrinə nisbətən çox sakit yer idi, cəncəl adamlar yox idi, təkcə məktəb partiya təşkilatı katibi Əflatun müəllim idi. 1936-cı ildə raykomdan göndərilmişdi, indi Allaha şükür ki, o da keçib başqa məktəbdə müdir olub. Düzdü, vay Əflatun müəllimin müdir olduğu məktəbin halına, amma, hər halda, Ələsgər müəllimgilin məktəbindən uzaqlaşıb getmişdi.

Əflatun müəllim, əslində, müəllim deyildi, Ələsgər müəllimin təsərrüfat işləri üzrə müavini, eyni zamanda, məktəb partiya təşkilatının katibi idi. Vaxtilə tramvaysürən olmuş bu adam 1936-cı ilin avqustunda Moskvada «Trotskiçi – zinovyevçi terrorçuluq mərkəzi»nin məhkəməsi başlayandan və qəzetlər Zinovyevin, Kamenyevin, on dörd digər müttəhimin qanlı cinayətlərini, bu azğınlaşmış alçaqların böyük sovet xalqına, işıqlı leninizm ideyalarına, şəxsən dahi rəhbər Stalin yoldaşa qarşı qatı düşmənçilik fəaliyyətini ifşa edəndən sonra, partiya sıralarına daxil olmuşdu. Əflatun müəllim böyük sayıqlıq göstərərək elə həmin 36-cı ildə Bakı Tramvay Parkında iki nəfər tramvaysürən yoldaşını trotskiçi, bir nəfər konduktoru isə zinovyevçi kimi ifşa etmişdi və o vaxtdan da fəal ictimai fəaliyyətini davam etdirirdi, xalq düşmənlərini, casusları axtarıb tapmağa və ifşa etməyə xüsusi həvəsi var idi, amma Ələsgər müəllimin yanında işi keçmirdi.

Məsələ burasında idi ki, Ələsgər müəllim qubalı idi, yəni Azərbaycan K(b)P MK-nın birinci katibi Mir Cəfər Bağırov yoldaşın yerlisi idi və Ələsgər müəllim özü bu barədə bir kəlmə deməsə də, belə bir şayiə gəzirdi ki, guya, Mir Cəfər Bağırov yoldaş Ələsgər müəllimi şəxsən tanıyır, guya, uşaqlıqları bir yerdə keçib. Düzdü, Ələsgər müəllim Azərbaycan bolşeviklərinin rəhbəri Mir Cəfər Bağırov yoldaşdan altı yaş böyük idi– Mir Cəfər Bağırov yoldaş 1896-cı ildə anadan olmuşdu, Ələsgər müəllim isə 1890-cı il təvəllüdlü idi– amma heç kim bunun fərqinə varmırdı və heç kim də bu barədə Ələsgər müəllimdən bir söz soruçmurdu;bir halda ki, söhbət şəxsən Mir Cəfər Bağırov yoldaşdan gedirdi, o yerə burun soxmaq məsləhət deyildi. Əlbəttə, bu şayiələrdən raykomun da, 37-38-ci illərdə hər iki aydan bir dəyişən maarif rəhbərliyinin də – yeni maarif müdirləri gəlirdi, bir azdan xalq düşməni kimi ifşa olunurdu, yerinə təzələri gəlirdi– xəbəri var idi və heç kim bu söhbətin dərininə getməsə də (kim gedib Mir Cədər Bağırov yoldaşdan soruşacaqdı ki, Ələsgər müəllim sənin uşaqlıq dostundu, yoxsa yox?), bərayi-ehtiyat, Ələsgər müəllimə hörmət edirdilər.

Əflatun müəllim böyük oğlunun adını Stalinin kollektivləşdirmə siyasətinin şərəfinə Kolxoz qoymuşdu və fikirlərini bir o qədər də dəqiq ifadə edə bilmədiyinə baxmayaraq, partiya iclasından tutmuş pioner toplanışlarına qədər, bütün iclaslarda çıxış edirdi, xalq düşmənlərinin əhatəsində həmişə sayıq olmağa çağırırdı. Əflatun müəllim məktəbdə xalq düşməni kimi ifşa etmək üçün kimisə qaralayanda, material toplamağa başlayanda, Ələsgər müəllim təmkinlə işə qarışırdı, Əflatun müəllimin boynuna qoyurdu: «– Sən, axı, ay Əflatun müəllim, humanist adamsan, xeyirxahsan, hamıya yaxşılıq eləmək istəyirsən, tələsmə...»

Ələsgər müəllimin bu sözləri açıq-aşkar Əflatun müəllimin ürəyinə yayılırdı və dili böyük olduğu üçün kələ-kötür danışan Əflatun müəllim: «– Bunlar hamısı belədi e, Ələsgər müəllim...– deyirdi. – Ancaq biz gərək, o adı nədi, şey, siyasi sayıqlığımızı itirməyək də! Hər tərəf, o adı nədi, şey, maskalanmış xalq düşmənidi də! Elə bilirsən bunları tutmağnan qurtarandı?!! Baxırsan ki, hə,nədi ki, artistdi də, o

adı nədi, şey, Ülvi Rəcəbdi, ancaq bir də görürsən ki, qatı xalq düşmənidi, qaniçəndi!..» «– Düzdü, düz deyirsən, Əflatun müəllim, yaxşı deyirsən, amma sən tələsmə, qoy bir baxaq, görək...»

Əlbəttə, Ələsgər müəllim yoldaş Stalinin yaxın silahdaşı və tələbəsi Mir Cəfər Bağırov yoldaşın yerlisi və deyilənə görə uşaqlıq dostu olmasaydı, Əflatun müəllim böyük bir həvəslə, ilk növbədə, elə onun özünü ifşa edərdi. «–Yox e, Ələsgər müəllim, axı, raykomda da məndən, o adı nədi, şey, tələb eləyirlər!.. Məktəbdə cəmi iki nəfər xalq düşməni kimi ifşa olunub, onları da ki, o adı nədi, şey, biz ifşa eləməmişik, yuxarılar özü ifşa eləyib! Cəmi iki nəfər e, Ələsgər müəllim! Axı, biz bolşevikik! Bəs hanı bizim, o adı nədi, şey, siyasi sayıqlığımız? Axı, raykomda mənə verirlər e, bu sualları! Haqları da var də... Cəmi iki nəfər, özü də bizsiz... – Əflatun müəllim açıq-aşkar bir həsəddən yana-yana: – O adı nədi, şey, – deyirdi. – camaat birdən-birə on dənə düşmən ifşa eləyir e!..» «– Başa düşürəm, Əflatun müəllim, hamısını başa düşürəm!.. Nolar bitərəf olanda? Özün bilirsən ki, mən bitərəf bolşevikəm! Amma sənin kimi xeyirxah bir adam gərək belə işlərdə tələsməsin, yüz ölçsün, bir biçsin...» Suda boğulan, saman çöpünə əl atan kimi, Əflatun müəllim də son ümid kimi Ələsgər müəllimə təsir etmək üçün, kolxoza, plana əl atırdı: – «– Kolxozçu planı doldurmasa nə olar, hə? Bax, Ələsgər müəllim, kolxozçu, o adı nədi, şey, dövlət planlarını artıqlamasıyla doldurur, ancaq biz düşmən ifşa etmirik!.. Bunu bağışlamaq olar bizə?! Adımızı da bolşevik qoymuşuq!..» Ələsgər müəllim əlini bu balaca, cansız adamın çiyninə qoyurdu: «Düz sözə nə deyəsən? Düz deyirsən, Əflatun müəllim, düz deyirsən. Ancaq tələsmə....» Əflatun müəllim tamam ümidsiz bir halda: «– Onda... – deyirdi, – onda gəlün bizim məktəb, o adı nədi, şey, məsələ qaldırsın. Təzə Piri söksünlər! Təzə Pir dayanıb camaatın gözü qabağında, o adı nədi, şey, dini təbliğ edir!» Ələsgər müəllim nə qədər təmkinli və ağayanə adam olsa da, ürəyində bu Əflatun müəllimin atasının goruna söyürdü və udquna-udquna deyirdi: «– Hə... Bax, bu yaxşı fikirdi, Əflatun müəllim!.. Ancaq sən hələ tələsmə...»

Təxminən bir il bundan əvvəl, 1938-ci ilin mart ayının əvvəllərində N.I. Buxarinin, A.I.Rıkovun və başqalarının başçılığı ilə «Sağçı-trotskiçi blok»un cinayət işi haqqında SSRI prokuroru A.Vışinskinin ittihamnaməsi qəzetlərdə çap olundu və bundan sonra mərkəzi qəzetlər hər gün iki-üç səhifələrini həmin məhkəmə prosesinə həsr edirdi. Prokuror Vışinski Buxarinlə Rıkovdan başqa o biri satqın düşmənləri – Krestinskini, Rakovskini, Rezonqoltsı, Ikramovu, Çernovu, Xocayevi və başqalarını qəzet səhifələri boyunca bir-bir dindirirdi. O zaman Bakıda qəribə bir təzad yaranmışdı: küçələrdə, evlərdə, adamlar bir-biriylə, az qala, pıçıltıyla danışırdı, amma iclaslarda xitabət kürsüsünə qalxan adamlar guruldayırdılar, sağçı-trotskiçi casusları lənətləyirdilər, öz aralarında yenilərini tapıb ifşa edirdilər və Əflatun müəllim də deyirdi: «–Görürsüz bu maskalanmış düşmənləri, Ələsgər müəllim!.. Kirovu, o adı nədi, şey, Mic... Mej... – Əflatun müəllim bu familiyanı yaxşı yadında saxlaya bilmirdi. – Menj... Menjiskini, Kuybışevi, Qorkini, Qorkinin yazıq oğlunu bu şpiyonlar gör necə öldürüblər!.. Svoluşlar!.. Molotovu, Kaqanoviçi, Voroşilovu, hətta... hətta... Bu svoluşların işlərini, o adı nədi şey, adamın dili də gəlmir desin, hətta əziz atamız Stalin yoldaşı öldürmək istəyirlərmiş... Ay siz öləsiz!.. Qoymarıq!.. Biz, o adı nədi, şey, sayıq dayanmışıq keşikdə! Svoluşlar! Ancaq, Ələsgər müəllim,

məktəbdə hələ bir dənə də buxarinçini, əclaf rıkovçunu ifşa eləməmişik!.. Mən elə bilirəm ki, Ələsgər müəllim, bu bizimçün, o adı nədi, şey, pazordu!»

Ələsgər müəllim məktəbdə mitinqlər keçirirdi, cürbəcür tədbirlər fikirləşib tapırdı, bu mitinqlərdə müəllimlərin hamısı, misal üçün, Moskvada məhkəməsi gedən «Solçu-trotskiçi blok» üzvlərini lənətləyirdi, tədbirlərdə komsomolçular, pionerlər dərs əlaçısı və yeni nəslin siyasi cəhətdən sayıq nümayəndəsi kimi yoldaş Stalinə raport verirdilər, yoldaş Stalinə həsr olunmuş, xüsusən, Kobanın Bakıdakı fəaliyyətindən, «Nina» mətbəəsi ilə bağlı apardığı gizli işdən, 1907-ci ilin sentyabrında Bakıda vəhşicəsinə öldürülmüş bolşevik Xanlar Səfərəliyevin dəfnində nitq söyləməsindən bəhs edən səhnəciklər göstərirdilər və Ələsgər müəllim bu mitinqlərlə, tədbirlərlə, raportlarla Əflatun müəllimin başını qatırdı, məktəbin özündə isə heç kimi ifşa etməyə qoymurdu: «–Sən tələsmə, Əflatun müəllim, tələsmə... Armud vaxtında dəyər...»

Bu cür tədbirlərdən ən geniş yayılmışı «izhari-nifrət» mitinqləri idi. «Izhari-nifrət» mitinqləri məktəbin idman zalında keçirilirdi və çıxış edən müəllimlər, şagirdlər mətbuatda ifşa olunan tanınmış xalq düşmənlərinə, misal üçün, Əhməd Cavada, Abbas Mirzə Şərifzadəyə, Salman Mümtaza, adlarının siyahısı bitmək bilməyən bir çox başqalarına nifrətlərini izhar edirdilər. Məktəbdə oxuyan şagirdlərin valideynlərindən kimsə xalq düşməni kimi ifşa olunanda da idman zalında beləcə «izhari-nifrət» mitinqləri təşkil olunurdu və bəzən həmin mitinqlərdə məktəbdən qovulmasın, komsomoldan, pionerdən çıxarılmasın deyə, şagird özü həbs edilmiş valideynini lənətləyirdi: «Mən bilmirdim ki, atam belə əclafdı!..» Belə məqamlarda Əflatun müəllimin siyasi keşikdə dayanmaq ehtirası lap coşurdu və valideynlərini lənətləyən bu cür şagirdlərə qulaq asdıqca: «– Malades!»... – deyirdi. – Əsl komsomolçu (yaxud pioner)belə olar! Görürsən, Ələsgər müəllim! Biz isə, o adı nədi, şey, dayanmışıq bir kənarda!» Ələsgər müəllim bir dünya dərd dolu gözlərini o şagirdlərdən çəkib, Əflatun müəllimə baxırdı: «– Sən tələsmə, Əflatun müəllim, yüz ölç, bir biç!..» – deyirdi.

Əflatun müəllim fikirləşirdi ki, əslində, Ələsgər müəllimin dediyi bu sözlərin özü düşmən sözləridir, siyasi sayıqlığı yayındırmaq deməkdir, amma nə etmək olar?.. «– Bəs raykom, Ələsgər müəllim, bəs raykom ?! Məndən, o adı nədi, şey, tələb edirlər axı!.. Deyirlər niyə xalq düşməni ifşa etmirsən ?!» «– Raykomda da hamısı alicənab adamlardı də, ay Əflatun müəllim, hamısı xeyirxah, hamısı sənin kimi təmiz adamlardı də!..»

Əflatun müəllim «raykom» deyəndə, ilk növbədə, yoldaş Cümşüdlünü nəzərdə tuturdu; yoldaş Cümşüdlü raykomda kadrlar şöbəsinin müdiri idi, amma təbii ki, o da Ələsgər müəllimin haralı olduğunu, kimlərlə tanışlığını bilirdi. Bir dəfə Əflatun müəllim raykomda, yoldaş Cümşüdlünün yanında olanda çəkinə-çəkinə Ələsgər müəllimin liberallığından söz salmaq istədi, amma yoldaş Cümşüdlü o saat keçmiş tramvay sürücüsünün sözünü yarımçıq kəsib üstünə qışqırdı: «– Məni provakasiyaya çəkmək istəyirsən?! Məndən söz almaq istəyirsən?! Sənin kimilərini mən çox görmüşəm!.. Əlindən – g...ündən bir iş gəlmir, istəyirsən provakasiya eləyəsən?! O qədər ifşa eləməyə adam var, gör gəlib kimdən pıçıldayır raykomun qulağına?! Maymaq oğlu, maymaq! Get, kollektivdə xalq düşməni tap, ifşa elə!» Əflatun müəllim, sonuncu dəfə cəhd göstərdi: «Qoymur axı...» Cümşüdlü: «–Qoymur? – dedi. – Onda sənin özünü ifşa eləyərik xalq düşməni kimi!»

Bununla da raykomda Ələsgər müəllim barədə söhbət birdəfəlik qurtardı və Əflatun müəllim üçün göydəndüşmə bir bəxşeyiş oldu ki, Ələsgər müəllimin köməyi ilə («– Əflatun müəllim artıq yetişmiş yoldaşdır! Onu irəli çəkmək lazımdır. Zəhmətkeş təbəqənin nümayəndəsidi! Ona ayrıca bir məktəb etibar edin!» – deyirdi; nə edəydi, zəmanənin üzü qara olsun, öz canını qurtarırdı, amma başqalarını zibilə salırdı...) başqa bir məktəbə müdir təyin edildi; əslində, belə bir təyinat Cümşüdlünün də ürəyindən idi, çünki təcrübəsi və son illərdə cərəyan altındakı çılpaq elektrik məftili kimi həssaslaşmış fəhmi gödəkboylu, kök, burnunun aşağısında ensiz qara bığı olan, əyninə həmişə «Stalinskaya forma» geyən bu adama deyirdi ki, Ələsgər müəllimin müdir olduğu o məktəbdən uzaq ol, düşər-düşməzi olar, elə də ola bilər, belə də...

Indi məktəbdə sakitlik idi, çünki Ələsgər müəllim əməlli-başlı çalışdı, gedib raykomda əlaqədar adamlara, o cümlədən, Cümşüdlüyə ağız açdı, axırı nail oldu ki, Əflatun müəllimin yerinə Firidun müəllimi məktəbdə partiya təşkilatı katibi seçdilər. Firidun müəllim sakit, ziyalı bir adam idi, on beş ildən artıq partiya stajı var idi və Ələsgər müəllimlə birlikdə məktəbin sakitliyi keşiyində dayanmışdı və ikisi də əsas işlə məşğul idilər: uşaqların tədrisi ilə.

Düzdü, təzə idman müəllimi Xıdır müəllim hərdənbir siyasi mövzulara girişirdi, amma Ələsgər müəllim yavaş-yavaş Xıdır müəllimə də təsir göstərirdi, Xıdır müəllimi də özünə yaxın çəkirdi, hətta, bu gün də Xıdır müəllimi Arzunun ad gününə dəvət etmişdi.

Nə isə, dünyanın işləri, deyəsən, yavaş-yavaş sakitləşirdi, hər halda, 37 ilə 38-in Ələsgər müəllim üçün o dəhşətli, o anlaşılmaz və qorxulu fırtınası, deyəsən, daha arxada qalırdı. N.I.Yejov işdən götürülmüşdü, ÜK(b)P MK-nın və SSRI Xalq Komissarları Sovetinin 18 noyabr tarixli qərarı çıxmışdı və bu qərarda istintaq zamanı qanunsuz hərəkətlərə yol verildiyi göstərilirdi, bu cür hərəkətlər qəti qadağan olunurdu. Bakı camaatı bu qərara dərhal «Stalin qərarı» adı vermişdi və Bakı camaatının və ümumiyyətlə, xalqın fikrincə yoldaş Stalin onların təəssübünü çəkdiyi üçün, günahsız adamları müdafiə etdiyi üçün bu qərarı qəbul etdirmişdi. Indi L.P. Beriya SSRI Xalq Daxili Işlər Komissarı təyin olunmuşdu və L.P. Beriya yoldaş da Stalinin yaxın silahdaşı, inandığı, etibar etdiyi adam idi, Bakıda işləmişdi, Azərbaycanı tanıyırdı. Bitərəflərin hörməti qalxmışdı, bitərfləri irəli çəkirdilər, bir sözlə, deyəsən, işıq ucu görünməyə başlayırdı (təki olaydı!) və həmin qış günü hər tətəfi bürümüş o qarın tərtəmiz ağlığı da, elə bil, dünyanın, həqiqətən, düzələcəyindən xəbər verirdi.

Arzunun on yaşı tamam olurdu və məktəbdə ikinci növbədə oxuduğu üçün, hələ dərsdən qayıtmamışdı. Ələsgər müəllim süfrəyə düzmək üçün soyutma toyuqları doğraya-doğraya boşqablara yığırdı. Firuzə xanım əllərini yuyub hansı qohumununsa bir ay bundan əvvəl Ordubaddan pay gətirdiyi qoz ləpəsini, ərik qurusunu səliqə ilə nəlbəkilərə yığırdı ki, yeməkdən sonra çay dəstgahı başlayanda hər şey əlinin altında olsun.

– Uşaq yaxşı geyinib? Bayır soyuqdu yaman...

Firuzə xanım:

– Lap yaxşı geyinib, darıxma... – dedi və soruşdu: – Xosrov müəllim arvadıyla gələcək?

– Hə, yəqin arvadıyla gələcək. Demişəm ki, ikiniz də gəlin.

– Sən də görməmisən də arvadını?

– Yox, harada görəcəyəm?..

Firuzə xanım başını yırğalaya-yırğalaya gülümsədi:

– Yaxşı adamdı Xosrov müəllim... Torpağı sanı yaşasın, xasiyyəti rəhmətlik dədəmin xasiyyətinə oxşayır: dindirməsən, söz deyən deyil. Yaxşı elədi evləndi, heç olmasa, bir gün görər!.. Elə deyil, sən Allah?

– Təki elə olsun! Fağır adamdı...

Xosrov müəllim əsrin yaşıdı idi, düz otuz doqquz yaşı vardı, amma bu uzunboylu, arıq adamın gözlərinin kənarları dərin qırışlarla dolu idi, təkcə saçları yox, yay vaxtı köynəyinin açıq yaxasından görünən sinəsinin tükləri, hətta qolunun tükləri də ağarmışdı; iti sümüklü uzun burnu və nazik boğazında da eynilə burnuna oxşayan uzun hülqumu var idi və Xosrov müəllim hər dəfə udqunanda, o uzun hülqum qalxıb-endikcə adama elə gəlirdi ki, kişi əzab çəkir və ümumiyyətlə, Xosrov müəllimin baxışında da, hərəkətlərində də, hətta ildə-ayda bir dəfə gülümsəyirdisə, o təbəssümündə də bir əzabkeşlik, bir ağrı var idi.

Deyirdilər ki, guya, haçansa Xosrov müəllimin başına böyük fəlakət gəlib, özü də bu, siyasi fəlakət yox, təbii fəlakət olub (bu, əlbəttə, indiki zəmanədə bir az qəribə səslənirdi, çünki adamlar, elə bil ki, təbii fəlakəti yadırğamışdılar), guya, bütün ailəsi məhv olub – Ələsgər müəllim bu barədə dəqiq bir şey bilmirdi, çünki nə Xosrov müəllim bu barədə bir söz deyirdi, nə də Ələsgər müəllim, aydın məsələdir ki, bu barədə bir söz soruşmurdu: bir halda ki, kişinin ürəyində dərdi var idi, o dərdi təzələməyin nə mənası vardı? Ələsgər müəllim bu fikirdə idi ki, heç kimin başqasının ürəyinə girməyə ixtiyarı yox idi, çünki ürək elə bir şeydir ki, təkcə öz yiyəsinə məxsusdur, istəyir – başqasının qarşısında özü açılır, istəmir – qurtardı, getdi, onun ürəyinə, girməyə cəhd göstərmək lazım deyil.

Xosrov müəllim tamam dinməz-söyləməz adam idi, yeddi il idi ki, Ələsgər müəllimin müdir olduğu məktəbdə rus dili dərsi deyirdi və bu yeddi ildə Ələsgər müəllim bir dəfə də görməmişdi ki, Xosrov müəllim ağzını açıb kimdənsə nəsə soruşsun, özü nəsə bir söhbət başlasın, ya bir dəfə bir şeydən şikayət eləsin, bir şeyi tərifləsin; müraciətlərə cavab verirdi və dinməzcə oturub söhbətlərə qulaq asırdı.

Məktəbdə deyirdilər ki, guya, Xosrov müəllim bir az havalıdı, guya, başına gələn o fəlakətdən (təbii fəlakətdən!..) sonra, haçansa dəlixanada yatıb müalicə olunub, amma Ələsgər müəllim Xosrov müəllimdə havalı bir cəhət hiss etməmişdi; düzdü, bəzən görürdün ki, elə bil, heç nə eşitmir, heç nə görmür, hansısa tamam başqa bir aləmin içindədi, rəngi də ağarırdı, adama elə gəlirdi ki, bu arıq, uzun adam öz içində kiminləsə danışır, amma bu, əlbəttə, hələ havalı olmaqdan xəbər vermirdi. Insandı də... hərənin yüz cürə dərdi-səri var...

Əflatun müəllim Xosrov müəllimi qaralamışdı, iki-üç dəfə partiya iclasında onun məsələsini müzakirə etmək istəmişdi, amma Ələsgər müəllim bundan da duyuq düşmüşdü, imkan verməmişdi: «– Ay Əflatun müəllim, – demişdi, – bu yazıqdan düşmən olar? Görmürsən qaragünün biridi, dərdin-sərin içindədi?..» «–Elə məsələ də bundadı də, Ələsgər müəllim, nəyin dərdini çəkir o, hə? Nəyin? Niyə öz şəxsi, o adı nədi, şey, kədərini ictimai işlərdən üstün tutur? Biz bu cür xoşbəxt həyat qurmuşuq, sosializmin təntənəsi içindəyik, yoldaş Stalinlə bir dövrdə yaşayırıq, onun, o adı nədi, şey, nəfəs aldığı hava ilə nəfəs alırıq, ancaq bu, o adı nədi, şey, dərd çəkir!.. Bəlkə elə sosializmin təntənəsinin dərdini çəkir, hə?!» «– Yox, yox, elə

deyil, Əflatun müəllim, sən özün insan psixologiyasının gözəl bilicisisən, hərənin bir xasiyyəti olur, bu da belə adamdı də...» Əflatun müəllim geri çəkilmək istəmirdi: «– Inanın mənə, Ələsgər müəllim, – deyirdi, – bu, gizlin, o adı nədi, şey, trotskiçidir, ya da o, adı nədi, şey, zinovyevçidi! Gözlərindən görürəm!» Ələsgər müəllim asta-asta, təmkinlə, Əflatun müəllimin humanistliyini, incə qəlbli insan olmasını boynuna qoya-qoya o qara dumanları Xosrov müəllimin də başının üstündən dağıdırdı.

Bir dəfə Əflatun müəllim özünü tələm-tələsik Ələsgər müəllimin müdir otağına dürtdü: «– Xəbərün var, Ələsgər müəllim, nolub?!» Ələsgər müəllim bu adamdan heç bir xeyir xəbər gözləmirdi və həmin dəfə də nigarançılıqla: «– Nə olub, Əflatun müəllim?»– soruşdu. Əflatun müəllim tələsdiyi üçün daha tez-tez çaşa-çaşa: «– O qəzet var e, – dedi, – adı nədi, şey, hə, «Azərbaycan piyaneri», onun, orda işləyənə nə deyirlər, şey, o adı nədi, şey, hə, müxbir gəlib, Xosrov müəllim də, o adı nədi, şey, bizim məktəbi tərifləyib!..» Ələsgər müəllim təəccüblə: «– Tərifləyib deyirsən?» – soruşdu. «– Hə, tərifləyib də, o adı nədi, şey, çox tərifləyib». Ələsgər müəllim: «–Yaxşı də, – dedi. – Tərifləyib, çox sağ olsun də». Həmişə belə vaxtlarda olduğu kimi Əflatun müəllim fikirləşirdi ki, bəli, bəli, elədir ki, var, əsl xalq düşməni Ələsgər müəllimin özüdür, amma deyirlər... Kişiylə uşaqlıq dostu olublar də, yerlisidir. Elə bil ki, Əflatun müəllim həvəskar bir balıqçı idi, Ələsgər müəllim də gözəl, iri, kök bir balıq idi və o balıqçı, gözünün qabağındakı bu iri balığı – Ələsgər müəllimi qarmağa keçirib sudan çıxartmaq xoşbəxtliyindən məhrum idi, gecə-gündüz xırda-xuruş balıq axtarırdı, onlar da ələ keçmirdi. «– O adı nədi, şey, yaxçı eləyib deyirsüz ki, ya, Xosrov müəllim tərifləyib bizim məktəbi? Bəlkə bizim o adı nədi, şey, siyasi sayıqlığımızı yatırmaq istəyib, hə? Mən bilirəm ki, bu, o adı nədi, şey düşmən hiyləsidir!..» Onda Ələsgər müəllim kimi zəmanədən hər şey gözləyən bir adam da, Əflatun müəllimin bu sözlərinə, Əflatun müəllimin mühakiməsinə, məntiqinə mat qaldı...

Xosrov müəllim tək yaşayırdı, dəqiq adam idi, vaxtlı-vaxtında məktəbə gəlirdi, vaxtlı-vaxtında da məktəbdən gedirdi, bir dostu, yaxın tanışı yox idi, məktəbdə də heç kimlə yaxınlıq etmirdi, köynəyi, corabı həmişə təmiz olurdu, yəqin ki, özü yuyurdu, kostyumu da çox geyilməyinə baxmayaraq, səliqə-səhmanlı idi, düymələri tikili, şalvarı ütülü olurdu, yay-qış geydiyi qara ayaqqabısını da həmişə tərtəmiz silirdi, dabanı gedəndə təzə daban vurdururdu, qarlı-yağışlı günlərdə o ayaqqabının üstündən qaloş geyirdi. Xosrov müəllim Ələsgər müəllimin təsəvvüründə susuzluqdan saralıb-solub qurumaqda olan bir dənə uzun saplaqlı yarpaq idi ki, o yarpaqda həyat əlaməti deyilən bir şey yox idi və o yarpağın didilib torpağa qarışmağına lap az qalmışdı, amma iki ay bundan əvvəl birdən-birə o yarpaq göyərməyə başladı. Xosrov müəllim göz-görəti dəyişdi, elə bil, qurumuş o saplaq torpaqdan su aldı, elə bil, gözünün kənarlarındakı o qırışlar da bir balaca açılmağa başlamışdı və o vaxt dünyanın ən gözlənilməz bir xəbəri Ələsgər müəllimə ləzzət verdi: Xosrov müəllim evlənmişdi.

Firuzə xanım işləməsə də, ömrünü Ələsgər müəllimin rahatlığına və Arzunun böyüməsinə həsr etsə də, həmişə məktəbdəki hadisələrdən xəbərdar olurdu, əri ilə bir çarpayıda yuxuya getməzdən əvvəl, Ələsgər müəllim yavaş-yavaş danışırdı, ürəyini boşaldırdı və Firuzə xanım da həmin gün məktəbdə nə baş verdiyini bilirdi. Arzunun qonaqlıqlarında cəmi ikicə dəfə üzünü gördüyü Əflatun müəllimin qarasına qarğış edirdi: «– O tramvay sürəni görüm elə tarmvay altında qalsın!..» Ələsgər

müəllim: «–Əşşi, adamdı də, insandı, uşaqları var, niyə elə deyirsən?..» – deyirdi. Firuzə xanımın hirsi soyumurdu: «– O cürə adamı görüm qara torpağın içinə girsin!.. Başqaları bəs adam deyil?! Başqalarının uşağı yoxdur?!..» Ələsgər müəllim daha da yavaşdan pıçıldayırdı: «– Onda təqsir yoxdu, zəmanə çətin zəmanədi». Firuzə xanım doluxsunurdu: «– Yazıq Əvəz bəy... Özü də boynuna alıb ki, ingilis şpiyonudu.... Gör o ağsaqqal kişinin başına nə oyun açıblar də... Fransada olub, heç olmasa, fransız şpiyonu eləyəydilər onu. O bədbəxt oğlu, bədbəxtin arvadını, qızını da sürgün eləyiblər Qazaxıstana....» Ələsgər müəllim dərindən nəfəs alıb: «– Yat... – deyirdi. – Yat...».

Elə ki, keçən ilin axırlarında Əflatun müəllim məktəbdən getdi, Firuzə xanımın da qarğış eləməyə adamı qalmadı. Düzdü, Ələsgər müəllimin yeni idman müəllimi Xıdır müəllimdən gözü su içmirdi, amma, o, hələ Firuzə xanımın qarğışına layiq bir iş görməmişdi. Xıdır müəllimi Əflatun müəllimin zəmanəti və təkidi ilə işə götürmüşdülər və Ələsgər müəllim buna bir də ona görə razı olmuşdu ki, belə bir hörmət, belə bir xidmət müqabilində Əflatun müəllim də məktəbdə xalq düşmənləri axtarıb, tapmaq, onları ifşa etmək yolunda çox cənfəşanlıq göstərməsin, o da Ələsgər müəllimin sözünü eşitsin. Əflatun müəllim Xıdırı tərifləyə-tərifləyə deyirdi: «Bir fizkultirnikdi ki, Ələsgər məllim, o adı nədi, şey, əsl biz deyən! Sportu onun kimi bilən yoxdu. Yoldaş Stalinin o adı nədi, şey, istəyinə layiq fizkultirnikdi. Gələcəyi, o adı nədi şey, gələcəyi quranlardandır! Bulvardakı vışkadan paraşutdan atdanıb!»

Xosrov müəllimin birdən-birə evlənməsi isə (özü də belə bir zəmanədə!) Firuzə xanıma da əri kimi, ləzzət eləmişdi. Qəribə idi, Xosrov müəllim hər il qışda Arzunun ad gününə gəlirdi, bir-iki yüz qram araq içirdi, üç-dörd loxma çörək yeyirdi, dinib-danışmırdı, amma Firuzə xanımın ondan xoşu gəlirdi, gecələr Ələsgər müəllimə: «–Vallah, yaxşı adamdı bu Xostov müəllim, deyirdi. – priliçnidi e, priliçni. Abırlı-həyalı adamdı. Allah bilir, başı nələr çəkib... Bütün ailəsi qırılıb bu bədbəxtin, ay Ələsgər?» «– Helə danışırlar, vallah, nə bilim. Dəhşətdi e, dəhşət olmayanda nədi?..»

Arzunun on yaşı tamam olan həmin qış günü Firuzə xanım qoz ləpəsini, ərik qurusunu nəlbəkilərə yığıb qurtardı və hələ də səliqə ilə soyutma toyuqları doğrayan Ələsgər müəllimə dedi:

– Təki Xosrov müəllimin arvadı özünə layiq olaydı.

– Layiq olar də, niyə olmasın? Bəyənib ərə gedibsə, yaxşı olar, uşaq deyillər ki?

– O yazıq, paltosunun düymələrini özü tikirdi, bizdə paltosunu çıxarıb asanda görmüşəm. Indi, heç olmasa, fağır, bir gün görər.

Hava tez qaraldı və o qaranlıqda da bayırın qarı elə-eləcə tərtəmiz bir ağlıq içində idi. Ələsgər müəllimin yaxşı yadındaydı, 37-ci ilin yanvarında Bakıda dəhşətli qar qasırğası oldu və Ələsgər müəllim ömründə helə bir qasırğa görməmişdi. Sən demə, 37-nin yanvarındakı o qasırğa adicə təbiət hadisəsi deyilmiş, sonrakı dəhşətləri əvvəlcədən xəbər verirmiş. Iki il bundan əvvəlki o qasırğa zamanı yaxşı yadındadı, Ələsgər müəllim, bax, bu pəncərənin qabağında dayanıb özünə izah edə bilmədiyi bir narahatlıq keçirirdi, amma indi qaranlıq içində parıldayan o qar, elə bil ki, gözəl bir sakitlikdən xəbər verirdi... Hər halda, o gözəl qış axşamı Ələsgər müəllimin ürəyi belə deyirdi...

Arzu məktəbdən gəldi, paltarını dəyişdi, pioner qalstukunu təzədən ütüləyib boynuna taxdı və həmişə olduğu kimi, Arzu ilə bərabər, evə bir canlanma, bir hərəkət gəldi. Arzu mətbəxdə olmağı, ev işlərinə kömək eləməyi xoşlamırdı, təkcə pioner qalstukunu hər gün özü ütüləyirdi, bu işi hətta anasına da etibar etmirdi; kitab oxumadığı, dərslərini öyrənmədiyi boş vaxtlarında elə hey danışırdı, cürbəcür fikirlər irəli sürürdü, təşəbbüslər göstərirdi və elə həmin qış günü də Ələsgər müəllimlə Firuzə xanıma yeni bir xəbər verdi:

– Bundan sonra evdə həftədə bir dəfə divar qəzeti çıxaracağam!

Firuzə xanım:

– A-a-a, – dedi. – Evdə də divar qəzeti olar?

– Olar. Mən çıxararam, siz də baxarsız. Sizə deməyə sözlərim var.

– O sözləri elə ağızla de, biz də qulaq asaq də...

– Yox, onları divar qəzetinə yazacağam. Baş məqalədə sizi tənqid eləyəcəyəm.

Ələsgər müəllim təəccüblə:

– Bizi? – soruşdu.

– Hə! «Koroğlu» operasını da tənqid edəcəyəm.

Ələsgər müəllim bu xəbərə lap məəətəl qaldı. Firuzə xanım:

– A-a-a,– dedi. – Bəs, o operadan xoşun gəlirdi, məni də dartıb aparmışdın ora?

– Nolar? Əvvəllər xoşum gəlirdi, ona görə ki, bəstəkar bizim gözümüzə kül üfürüb. Indi başa düşürəm. Üzeyir Hacıbəyov «Koroğlu» nu ona görə yazıb ki, müasir mövzuda yazmasın! Bəstəkar müasir mövzudan qaçıb. O opera gərək kolxoz həyatından olaydı. Indi xan, padşah yoxdur. Koroğlu gərək qolçomaqlara qarşı mübarizə aparaydı. Kitabxanada pioner disputu keçirəcəyik. Mən bu barədə məruzə eləyəcəyəm. Bəstəkarı da çağıracağıq ki, nəticə çıxarsın.

Ələsgər müəllim:

– Tarix bəyəm bizim deyil?– soruşdu. – Koroğlu qəhrəman olub, xalqın azadlığı uğrunda xanlarla, sultanlarla döyüşə girib.

– Bəs, Pavlik Morozov?

– O da qəhrəmandı, mən bir söz demirəm ki.

– Koroğlu xanlara qarşı vuruşub, Pavlik Morozov isə qolçomaqlara qarşı vuruşub. Hətta atasını da, babasını da ifşa edib. Hansı vacibdir? «Koroğlu» operası gərək müasir mövzuda olaydı.

Ələsgər müəllim təslim olmaq istəmirdi:

– Axı, hər mövzunun öz yeri var!

Arzu bir neçə an susdu, sonra, elə bil, nəsə kəşf edibmiş kimi:

– Ata, – dedi, – sən müasir mövzunun əleyhinəsən?

– Yox, əleyhinə deyiləm. – Ələsgər müəllimin ürəyi bir balaca döyündü.

– Qurtardı-getdi.

Arzuya dil yetirmək çətin məsələ idi; düzdü, Arzunun bu sözlərində, suallarında nəsə xoşagəlməz bir şey var idi, hətta birdən-birə Əflatun müəllim gəlib Ələsgər müəllimin yadına düşdü və Ələsgər müəllim gülümsəyib başını buladı: zəmanə uşağıdı də. Qoy elə belə də olsun. Qoy beləcə diribaş olsun. Qız uşağıdır, Ələsgər müəllim ömrü boyu onun yanında olmayacaq ki, dünyanı tutub qalmayacaq ki, günlərin bir günü köçüb gedəcək bu dünyadan, qoy Arzu özü öz haqqını tələb

eləməyi bacarsın, indi ki, zəmanə Əflatun müəllim kimi adamlar yetişdirib, qoy, Arzu həmin adamlarla danışmağı bacarsın.

Arzu səliqə ilə öz kitablarını yığdığı kiçik dolabının yuxarı tərəfindən divara vurdğu böyük fotonu göstərib dedi:

– Onun balacasından alıb divar qəzetinin ortasına yapışdaracağam. Bu, qəzetin daimi materialı olacaq.

Ələsgər müəllim o fotoşəkilə baxdı və bir söz demədi.

Arzunun çox sevdiyi və par-par parıldayan nikel çərçivəyə saldığı bu fotoplakat Stalin baba ilə balaca bir qızın şəkli idi: Kremldəki qəbul zamanı o balaca qız Stalin babaya bir dəstə gül verib onu qucaqlamışdı, Stalin baba da o balaca qızı bağrına basmışdı, ikisi də gülürdü və nə vaxtki Arzunun kimə isə hirsi tuturdu, nəyə görəsə qanı qaralırdı, onda o şəkli gözlərinin qabağına gətirirdi. Stalin babanın da, o balaca qızın da gülən gözləri Arzunun ürəyini sevinclə, məhəbbətlə, nikbinliklə doldururdu.

Ələsgər müəllim bu fotoplakatı məktəbdəki bütün sinif otaqlarına vurdurmuşdu, amma Arzu üçün bu az idi, plakatlar satılan mağazadan bunu alıb gətirib evdə beləcə divardan asmışdı. Arzu haradasa oxumuşdu ki, bu bəxtəvər qızın adı Gelya Markizovadır və Arzu bu fotoşəkli o qədər çox istəyirdi ki, hətta Gelya Markizovaya paxıllıq da eləmirdi, düzdü, hərdən gözünü yumub o fotoda Gelya Markizovanın yerində özünü təsəvvür edirdi, özü Stalin babaya gül dəstəsi verirdi, özü Stalin babanı qucaqlayıb öpürdü və bu, Arzunun ən gözəl xəyallarından biri idi... Gelya Markizova, əlbəttə, ən xoşbəxt sovet qızı idi...

...Arzunun xəbəri yox idi ki, həmin dəm, 1939-cu ilin o qış günü o balaca qız – Engelsina (Gelya) Markizova Qazaxıstanda sürgündə idi. O balaca buryat qızının atasını – Buryat Monqol Vilayət Partiya Komitəsinin birinci katibi, Buryat Muxtar Respublikasını yaradanlardan biri Ərdan Markizovu – 1937-ci ilin dekabrında xalq düşməni kimi ifşa etmişdilər və yapon casusu kimi güllələmişdilər. Gelyanın anasını da həbs etmişdilər və o balaca qız özündən iki yaş böyük qardaşı Vladilenlə birlikdə tək qalmışdı; ata da yox idi, ana da yox idi, təkcə Kremldəki həmin qəbul zamanı Stalin babanın Gelyaya bağışladığı gözəl bir patefon onlarla birlikdə idi. Patefonun üstünə bərkidilmiş kiçik dəmir lövhəcikdə yazılmışdı: «Markizovoy Qele ot vojdya partii I.V. Stalina 27.1.36 q...»

Əlbəttə, Ələsgər müəllimin də bundan xəbəri yox idi, gözlərini kitab dolabının yuxarı tərəfindən asılmış o böyük fotoplakatdan çəkdi: eybi yox, Arzu zəmanə uşağı idi, qoy belə də olsun. Belə olmasa, Əflatun müəllim kimi nadürüstlərin əhatəsində yaşamaq çətin olcaqdı.

Bütün bunlar düz idi, belə olmalıydı, Ələsgər müəllim bunu başa düşürdü, amma... Amma həmişə belə məqamlarda kişinin ürəyindən nəsə nisgilə bənzər bir hiss keçirdi və həmişə də Arzunun üç-dörd ay bundan əvvəl doldurduğu anketi yadına salırdı.

O sorğu-anketi Arzugilin məktəbdəki pioner baş dəstə rəhbəri paylamışdı və Arzu da gətirib o beş sualdan ibarət anketi evdə doldurmuşdu:

1. Ən çox sevdiyin insan?

Arzu böyük, qırmızı hərflərlə yazmışdı: Stalin

2. Sənə ən doğma olan adam?

Arzu böyük, qırmızı hərflərlə yazmışdı: Stalin.

3. Ən çox sevdiyin ədəbi qəhrəman?

Arzu bu dəfə mürəkkəblə yazmışdı: Pavlik Morozov.

4. Ən çox sevdiyin yazıçı?

Arzu yenə mürəkkəblə yazmışdı: Vitali Qubaryov.

Ələsgər müəllim bu adda yazıçı tanımırdı. Sonralar maraqlandı və öyrəndi ki, bu adam 1932-ci ildə pioner Pavlik Morozovun öldürülməsi ilə bağlı istintaq işində iştirak edib və «Odin iz odinnatsati» adlı bir kitab yazıb ki, həmin kitab Arzunun stolüstü kitabı idi.

5. Kimə nifrət edirsən?

Arzu böyük, qara hərflərlə yazmışdı: Hüseyn Cavidə, Abbas Mirzə Şərifzadəyə, Mikayıl Müşfiqə, Ülvi Rəcəbə, Yusif Vəzir Çəmənzəminliyə, Nəriman Nərimanova, Ruhulla Axundova və bütün başqa alçaq faşistlərə. Çünki onlar sovet pionerlərinin xoşbəxt həyatını məhv etmək istəyirdilər!!! Bu üç nida işarəsini də Arzu qırmızı qələmlə yazmışdı.

Arzu bu sorğu-anketi doldurandan sonra Ələsgər müəllimə verdi ki, atasının fikrini bilsin. Ələsgər müəllim o anketi alıb baxdı və:

– Yaxşıdır... – dedi, amma qoz boyda bir qəhər gəlib boğazına pərçim oldu.

Məktəbdə altıncı sinifdə oxuyan bir oğlan iki-üç gün əvvəl bu anketin birinci sualının cavabını Stalin yazmışdı, amma ikinci sualın cavabvında isə Atam Əsədulla və anam Fatma yazmışdı və pionerlər təcili iclas çağırıb pioner baş dəstə rəhbərinin iştirakı ilə o oğlanı ifşa etmişdilər, çünki atası ilə anasını Stalin babadan artıq tutub... Ələsgər müəllim o pioner iclasından xəbərdar idi və orasını da bilirdi ki, həmin oğlanı əsas ifşa edənlərdən biri Arzu olub. Pioner baş dəstə rəhbəri sevincək gəlib bu xəbəri Ələsgər müəllimə çatdırmışdı (pionerlər sizin qızınızla fəxr edə bilər, Ələsgər müəllim. Siyasi şüuru çox inkişaf edib...) Indi, beşinci sinifdə oxuyan pionerlərin o anketi doldurmaq növbəsi idi.

Ələsgər müəllim anketi qızına qaytardı və birdən-birə Abbas Mirzə Şərifzadənin ifasında Otellonu yadına saldı. Abbas Mirzə Şərifzadə – Otello əlində yanan şam tutub qaranlıq səhnəyə çıxırdı, Dezdemonanın yatdığı çarpayıya tərəf yaxınlaşırdı və bu zaman adamın tükləri biz-biz olurdu. Hərdən Ələsgər müəllimə elə gəlirdi ki, yenə səhnədir, bütün bu hadisələr səhnədə baş verir, Arzu da bu anketi səhnədə doldurur, o bığlı da o balaca qızla həmin şəkli səhnədə çəkdirib və haçansa pərdə bağlanacaq, tamaşa qurtaracaq...

Yəni doğrudan qurtaracaq?..

Çətin!

Həmin qarlı qış axşamı birinci Firidun müəllim arvadı ilə gəldi və son vaxtlar hər dəfə Firidun müəllimi görəndə Ələsgər müəllim dərindən rahat bir nəfəs alırdı; ikisi də insan idi, ikisinin də əlində eyni ixtiyar var idi, yəni ikisi də məktəbdə partiya təşkilatının katibi idi, ikisi də bir zəmanədə yaşayırdı – Əflatun müəllim də, Firidun müəllim də, amma necə olurdu ki, birinin təbiəti o cürə ziyankarlıqla dolu olurdu, o birisinin isə ürəyi xeyirxahlıqla döyünürdü? Bütün insanların iki ayağı, iki əli, iki gözü, bir ürəyi var idi, insanın quruluşu bir-birinin eyni idi, amma necə olurdu ki, təbiətlər beləcə müxtəlif çıxırdı? Ürək bir olan kimi, təbiət də, xeyirxahlıq da bir olaydı də... Ələsgər müəllim fikirləşirdi ki, ola bilər, dünyada hər şey ola bilər (və olur!), bir də gördün ki, haçansa bugünkü günlərə görə adamlardan hesabat tələb elədilər və o vaxt Əflatun müəllim kimilər, raykomdakı Cümşüdlü kimilər yəqin hər

şeyi zəmanənin, dövrün, siyasətin boynuna yıxacaqlar, amma sən, şəxsən sən öz əlinlə kiminsə ölümünə qol çəkmisənsə (günahsızın! fağırın! ailə başçısının!), zəmanə, buna nə eləsin? Zəmanə sənin üçün, adicə olaraq, şərait yaradıb... Dünya bina olandan bəri Əhrimənlə Hörmüz nahaq yerə həmişə bir-biri ilə vuruşmayıblar ki? Yusif Vəzir Çəmənzəminli bu barədə yazmışdı də, özü Əhrimənin qurbanı oldu, indi hardadı, nə iş gəlib başına, Allah bilir, hərə bir söz danışır...

Sonra Xıdır müəllim tək gəldi, Arzunu çox səmimi təbrik etdi, bir diləyini də bildirdi ki, Arzu belə ağıllı olmaqla, dərslərini bilməklə yanaşı, yaxşı da idmançı olsun. Ələsgər müəllim bu ucaboylu, enlikürəkli, sağlambədənli adama baxa-baxa fikirləşirdi ki, yox, Xıdır müəllim, hər halda, Əflatun müəllimin tayı deyil. Əflatun müəllim üçün dünyada adam ifşa eləməkdən maraqlı bir şey yox idi, amma bu Xıdır müəllim idmanla çox maraqlanan adam idi, idmançıların hamısının adını, familini əzbər bilirdi, elə bil, idman da istehsalatdı, cürbəcür rəqəmlər söyləyirdi, idman dərsini də uşaqlara yaxşı keçirdi. Xıdır müəllim üçün, hər halda, bədən tərbiyəsi birinci yerdə idi, kimisə ifşa etmək həvəsi – ikinci yerdə.

Bir azdan Kələntər müəllimlə arvadı gəldi. Kələntər müəllim kimyadan dərs deyirdi, ixtisasını yaxşı bilirdi, baməzə və nikbin bir adam idi, neçə vaxtıydı ki, «Məşədi Ibad»ı rus dilinə tərcümə etmək istəyirdi; yeddi qızı var idi, hələ heç biri ərə getməmişdi, arvadı evdar qadın idi və o boyda ailə təkcə Kələntər müəllimin maaşına baxırdı. Kələntər müəllim deyirdi: «–Əşşi, mənim işim əladır, çünki əvvəldən bəxtim gətirib, yeddi qız atası olanda nə olar? Bizim arvad yarımca kilo ətdən o qədər çoxlu, özü də dadlı xörək bişirir ki, yeyib qurtara bilmirik! Heç nədən bir şey bişirir. Qarın da ki, tox oldu, vəssalam, deməli, işlər əladır. Deməli, kimyanı da uşaqlara yaxşı öyrədəcəksən». Bayramlar münasibəti ilə məktəbdəki təntənəli gecələrdə, yuxarı sinif şagirdləri musiqi çalanda, Kələntər müəllim o saat ortaya çıxıb oynayırdı və kişinin camaatın içində beləcə süzə-süzə oynamağını, ümumiyyətlə, əzginiş işləri xoşlamayan Əvəz bəy (o vaxtlar ki, hələ xalq düşməni kimi ifşa olunmamışdı) dodaqaltı deyinirdi: utanmasan, oynamağa nə var ki?..

Sonra Əlibaba müəllim tək gəldi:

– Bizim Sofya Kovalevskayamızın bu gün ilk yubileyidi, on yaşı tamam olur, – dedi. – Indi bunu ancaq biz qeyd edirik, gələcək yubileylərini isə bütün elmi ictimaiyyət qeyd edəcək! Görərsiz!

Düzdü, Əlibaba müəllim çox ciddi müəllim və ciddi adam idi, amma araq içməyi bir az həddindən artıq xoşlayırdı, indi də özünü bir balaca düzəldib gəlmişdi. Bir dəfə Ələsgər müəllim Əlibaba müəllimi kabinetinə çağırıb: «Vurmağı bir az azalt», – dedi. Hələ Azərbaycanda sovet hakimiyyəti qurulmazdan əvvəl, 1919-cu ildən partiyanın üzvü olan Əlibaba müəllim də düz on səkkiz il idi ki, bu məktəbdə işləyirdi, Ələsgər müəllimlə bir-birilərini yaxşı tanıyırdılar və bir-birilərinə etibarları var idi, buna görə də dedi: «–Vurmayım, nə eləyim? Görmürsən nə qayırırlar bu köpək uşağı. Biz belə demişdik bəyəm?!». Ələsgər müəllim cəld yerindən qalxıb, kabinetin bağlı qapısını təzədən yoxladı və o vaxtdan sonra, bir də içki barədə Əlibaba müəllimə bir söz demədi.

Nəhayət, Xosrov müəllim arvadı ilə gəlib çıxdı və həmişə necə gəlib, necə getməyindən heç kimin xəbəri olmayan bu adam, elə bil ki, bu dəfə özü ilə birlikdə bayırdakı o qarın sevincini, sağlamlığını da içəri gətirdi. Hamı, hətta qonaqlığın səbəbkarı və həmin məqamda qonaqlıqdan daha artıq, evdə çıxaracağı divar

qəzetinin eşqi ilə yaşayan Arzu da maraq və diqqətlə Xosrov müəllimə və Xosrov müəllimin təzə həyat yoldaşına baxırdı. Xosrov müəllimin təzə arvadı otuz beş yaşlarında, yaraşıqlı, dolu bədənli, ağ bənizli bir qadın idi, qıpqırmızı yanaqları bu bədənin sağlamlığından, bu bədəndəki ehtirasdan xəbər verirdi, amma ən maraqlısı bu idi ki, Xosrov müəllimin özü tamam dəyişmişdi, o ağ saçlara, gözlərinin ətrafındakı o dərin qırışlara, nazik boğazının qalxıb-enən o iti hülqumuna baxmayaraq, elə bil, Xosrov müəllim tamam cavanlaşmışdı, gözlərində bir eşqlə, istəklə işıldayan elə ifadə vardı ki, heç inanmaq olmurdu ki, bu adam həmin məlul, dinməz-söyləməz Xosrov müəllimdi; səsi də dəyişmişdi və bu səsdə də bir gümrahlıq, bir şövq var idi, elə bil ki, o şövqü də, o gümrahlığı, həyat eşqini də əvvəlki Xosrov müəllimin simasında paslı bir qabın içinə yığmışdın və indi o əvvəlki Xosrov müəllim yox idi, o paslı qab birdən-birə itib yox olmuşdu, amma o gümrahlıq da, o şövq də, o həyat eşqi də açılmışdı, azadlığa çıxmışdı, necə vardısa, eləcə də göz qabağında idi.

Ələsgər müəllimlə Firuzə xanım qonaqların hamısını girdə mizin arxasında yerbəyer elədi, ən yaxşı yerlərdə Xosrov müəllimlə arvadını oturtdu və ümumiyyətlə, bu evdə və bu qonaqların arasında Xosrov müəllimgilə elə bir münasibət vardı ki, elə bil, qonaqlıq Arzunun yox, onların şərəfinədi. Xıdır müəllim bir balaca həsəd aparmağa başlasa da, belə işlərdə mükəmməl səriştəsi olduğu üçün, Xosrov müəllimin gözlərindəki o sevinci, o xoşbəxtliyi bir kişi kimi hiss edirdi. Həmişə idmançı qadınlarla görüşən, xüsusən, gimnastikanı çox sevdiyi üçün, gimnast qadınlarla yaxınlıq edən Xıdır müəllimin ürəyində birdən-birə idman növləriylə (hətta gimnastika ilə!) məşğul olmayan, bədənində əzələ olmayan, bax, Xosrov müəllimin bu arvadı kimi, qeyri-idmançı bir qadına güclü meyl yarandı.

Xosrov müəllim hamıya gülümsəyirdi, hamıya yaxşı bir söz demək istəyirdi və hərdən də arvadına elə baxırdı ki, bu baxışlardakı o açıq-aşkar məhəbbəti, sevinci görmək, başa düşmək üçün, Xıdır müəllim kimi belə işlərdə səriştəli olmaq, heç vacib də deyildi; bu baxışlar, elə bil ki, bu təzə ər-arvadın keçirdikləri gözəl gecələrin bütün gün ərzindəki davamı idi və irəlidə onları yeni bir gecə gözləyirdi...

Firuzə xanım da təcrübəli arvad idi, uşaqları olmayan vaxtlar o qədər türkəçarə etmişdi, o qədər həkimə getmişdi ki, bilmədiyi şey yox idi və Firuzə xanım Xosrov müəllimin təzə arvadının da gözlərində açıq-saçıq bir məhəbbət görürdü, amma o açıq-saçıqlıq arsızlıqdan yox, xoşbəxtlikdən xəbər verirdi və bu, Firuzə xanımın xoşuna gəldi. Xosrov müəllimin arvadı da həyəcanlı idi (çünki xoşbəxt idi!), elə hey gülümsəyirdi.

Xosrov müəllimin də, təzə arvadının da hərəkətlərində, təbəssümlərində elə bir uşaq sadəliyi, elə bir açıq-aşkar vəfadarlıq vardı ki və illərlə qaraqabaq, dinməz-danışmaz gəzib-dolanan Xosrov müəllimlə bugünkü Xosrov müəllim arasında elə bir fərq vardı ki, məclisdəkilərin hamısının birinci dəfə bir yerdə gördükləri bu ər-arvada qanı qaynamışdı, təkcə Arzu mizin arxasında oturub diqqətlə Xosrov müəllimlə arvadına baxırdı və Ələsgər müəllimə elə gəlirdi ki, Arzu Xosrov müəllimlə arvadını, evdə çıxaracağı o divar qəzetində tənqid etmək üçün material toplayır...

Bayırdakı o gözəl qar isə təzədən yağmağa başlamışdı və elə bil ki, Ələsgər müəllimgilin o balaca otağında, o süfrəsi dolu mizin arxasında əyləşmiş o adamlar da – Arzu ilə birlikdə düz on bir nəfər idi – o qar təmizliyi ilə nəfəs alırdılar; Xosrov

müəllimlə arvadı həmişəki eyniliyə öyrəşmiş bu balaca otağa bir yenilik gətirmişdi və bu yenilik, elə bil ki, bayırdakı o qar kimi, bu dəm bu balaca otaqdakı adamların bütün qayğılarının, bütün dərd-sərlərinin üstünü örtmüşdü.

Xıdır müəllim yalnız idman yarışlarına baxanda həyəcanlanan, qəmgin olan, yaxud ruh yüksəkliyi keçirən bir adam idi, amma o qış gecəsi, Ələsgər müəllimgilin o otağında, elə bil ki, Xosrov müəllimlə arvadının həyəcanı, xoşbəxtliyi ona da sirayət etmişdi və Xıdır müəllim də nəsə gözəl bir iş görmək, nəsə fərəhli bir söz demək istəyirdi.

Hamı bir ağızdan Kələntər müəllimi masabəyi seçdi və Kələntər müəllim:

– Qədəhləri doldurun, – deyib xüsusi bir şövqlə ayağa qalxdı, konyakla dolu qədəhini əlinə alıb (Kələntər müəllim məclislərdə həmişə konyak içirdi, çünki maaşı az və ailəsi böyük olduğu üçün, özü konyak ala bilmirdi), Arzuya baxa-baxa ilk söz demək istədi, amma bu zaman birdən-birə Xıdır müəllim də ayağa qalxdı, qollarının, pencəyinin üstündən də hiss olunan əzəmətli əzələlərini oynatdı:

– Bir dəqiqə! Bir dəqiqə, əziz dostlar!– Xıdır müəllim içinə araq süzdüyü iri qədəhi yuxarı qaldırdı. – Icazə verin bu gözəl gündə ilk sözü mən deyim. Mən bir söz deyim, ondan sonra Kələntər müəllim nə qədər istəyir söz desin! Ürəyimdə sözüm var mənim, əziz dostlar! Gəlin bu gözəl axşamda bu ilk qədəhləri atamız və rəhbərimiz, əziz Stalin yoldaşın sağlığına içək! Yaşasın, min il yaşasın Iosif Vissarionoviç Stalin! Tarixin ən müdrik adamıdır yoldaş Stalin! Təsadüfi deyil ki, yoldaş Stalin 72 dil bilir!– Xıdır müəllim bu sözləri deyən kimi, arağın insan orqanizminə pis təsir etdiyini yaxşı bilsə də, qədəhi başına çəkdi və arağın hamısını içdi, sonra qədəhi ağzı üstə çevirib mizə qoydu, yəni ki, baxın, dibində bircə qram da qalmayıb.

Məclisə bir anlıq sükut çökdü, sonra Ələsgər müəllim cəld ayağa qalxdı:

– Gözəl sağlıqdır!– dedi. – Qalxın ayağa, dostlar! Xıdır müəllim ürəyimizdən xəbər verdi! Əziz Stalin yoldaşın sağlığına!

Hamı, hətta Arzu da, arvadlar da ayağa qalxdı və başqa vaxt bütün məclis boyu heç yarım qədəh araq içməyən Ələsgər müəllim bu sağlığa əlindəki dolu qədəhi axıracan içdi. Kələntər müəllim də, Əlibaba müəllim də, Firidun müəllim də qədəhləri dibinəcən içdilər. Xosrov müəllim arvadının qulağına pıçıldadı:

– Sənin sağlığına!.. – və o da qədəhi axıracan içdi.

Hamı yerində əyləşdi.

Xıdır müəllimin dediyi sağlıqdan sonra, məclisin əvvəlki ovqatı, elə bil ki, itmişdi və heç kim danışmırdı, çəngəl-bıçaqların səsində bir nigarançılıq var idi; təkcə Xıdır müəllimin kefi kök idi, dediyi sağlıq özünün xoşuna gəlmişdi, özünə ləzzət vermişdi və bayaq Ələsgər müəllimin mətbəxdə doğradığı soyutma toyuğun budunu iştahla yeyə-yeyə bütün içində bir fəxarət hiss edirdi.

Xosrov müəllimin arvadının adı Gülzar idi, uşaq bağçasında tərbiyəçi işləyirdi və Xosrov müəllim dünyanın ən qəribə bir təsadüfü nəticəsində Gülzar xanımla tapışandan sonra elə bil ki, illərdən bəri dəmir çərçivəyə salınmış bütün hissləri, bütün düşüncələri azadlığa çıxmışdı. Hadrutdan sonra Xosrov müəllim nəinki hansı bir xoşbəxtliyisə arzulayırdı, hətta belə bir arzuya iddiası da yox idi, amma elə ki, Gülzar xanım birdən-birə, tamamilə, gözlənilmədən onun həyatının bir parçasına çevrildi, məlum oldu ki, əslində, Xosrov müəllimin bütün hiss-həyəcanı, bütün bədəni belə bir xoşbəxtliyin, belə bir məhəbbətin həsrətində imiş. Hadrut və

Hadrutdan sonrakı illər Xosrov müəllimi o qədər əzmişdi, o qədər yormuş, incitmişdi ki, indi həmin yorğunluğun, həmin acının yavaş-yavaş bədənindən çıxmasını, az qala, cismani hiss edirdi.

Gülzar xanım yeddi ildən sonra uşağı olmadığı üçün, kişi bərbərxanasında dəllək işləyən birinci ərindən ayrılmışdı (o dəlləyin indi ikinci arvadından dörd uşağı vardı) və uşaq bağçasında tərbiyəçi işləsə də, əslində, səliqə-səhmanlı ev-eşik saxlamaqdan ötrü, ərdən ötrü yarandığı üçün, bütün fikrini-zikrini, bədənini çuğlayan qızğın hissləri öz içində boğa-boğa düz yeddi il tək yaşamışdı, bu müddətdə bu yaraşıqlı, ətli-qanlı qadına tamah salan çox olmuşdu, amma Gülzar xanım o adamların heç birini yaxına buraxmamışdı, hisslərin əlində yanıb-yaxılsa da, həyasından keçməmişdi və birinci əri o dəlləkdən sonra heç bir kişi ilə bir yastığa baş qoymamışdı. Qonşuluqda yaşayan Xosrov müəllim də birdən-birə, tamamilə, gözlənilmədən Gülzar xanımın həyatına daxil olmuşdi və tək yaşadığı o yeddi ilin xəyalları, şirin yuxuları bu iki ayda Gülzar xanım üçün həqiqətə çevrilmişdi. Xosrov müəllim ev yiyəsi və kişi idi, eyni zamanda, Xosrov müəllim – bu uzunboylu, ağsaçlı adam – Gülzar xanım üçün, elə bil ki, həm də övlad idi: bu iki ayda Gülzar xanım Xosrov müəllimə əri və övladı kimi xidmət edirdi.

Xosrov müəllim əlini mizin altında Gülzar xanımın ağappaq və dolu əlinin üstünə qoydu; əlbəttə, bunu heç kim görmədi, amma Gülzar xanımın qırmızı yanaqları daha da pörtdü və bu qadında birdən-birə dəli ehtiras yarandı ki, indicə ərini qucaqlayıb bağrına bassın; gicgahı nəbz kimi vurmağa başladı və özünü güclə saxladı, əlini isə Xosrov müəllimin quru, amma hərarətli əlinin altından çəkmədi.

Məclisin gərginliyi yavaş-yavaş ötüb keçirdi və Kələntər müəllim yenə də ayağa qalxdı, yenə də içinə konyak süzdüyü qədəhi əlinə götürdü, amma altdan yuxarı Kələntər müəllimə baxan Xıdır müəllim bu dəfə də birdən-birə ayağa qalxdı:

– Əziz dostlar!– dedi. – Tamadadan min dəfə üzr istəyirəm ki, onu afsaytda qoyuram. Ancaq ürəyimə bir gözəl sağlıq gəlib ki, onu da bu gözəl məclisdə mən deməliyəm! Bu qədəhləri qaldıraq yoldaş Stalinin yaxın silahdaşı və tələbəsi, Azərbaycan bolşeviklərinin sevimli rəhbəri, Azərbaycan zəhmətkeşlərinin qayğıkeş atası, əziz Mir Cəfər Bağırov yoldaşın sağlığına! Yaşasın, min yaşasın yoldaş Mir Cəfər Bağırov!

Yenə də məclisə bir anlıq sükut çökdü, amma bu dəfə Xıdır müəllim qədəhi o saat başına çəkmədi, nə isə hiss edib dayandı, bir-bir mizin arxasındakı adamlara baxdı.

Xosrov müəllim heç vəchlə əlini mizin altında Gülzar xanımın əlinin üstündən çəkmək istəmirdi, amma birdən-birə, tamamilə, gözlənilmədən, tamamilə, qəflətən Xosrov müəllimə elə gəldi ki, yenə də Hadrutdakı o tonqalı görür, hətta o tonqalın istisini hiss etdi, bu isti, Gülzarın əlinin hərarətini çəkib Xosrov müəllimin ovucundan çıxartdı; bu həmin tonqalın istisi idi ki, illərdən bəri gecə yatdığı çarpayıda da, gündüzlər dərs dediyi sinif otağında da Xosrov müəllimi təqib etmişdi və bu məclisdə oturanlardan heç kimin, hətta, Gülzarın da o təqibdən, o təqibin ağrısından-acısından xəbəri yox idi. Xıdır müəllimin indicə dediyi sağlıq Xosrov müəllimin Gülzarla birlikdə bu iki aylıq həyatına o qədər yad idi, Gülzarla birlikdə, əslində, ilk dəfə cəmiyyət içinə çıxdığı bu məclisdəki hisslərinə, həyəcanına o qədər yabançı idi ki, heç özü də bilmədi ki, birdən-birə necə ayağa qalxdı və Xıdır müəllimə baxa-baxa əsəbdən titrəyən bir səslə:

– Mir Cəfər Bağırov yoldaş bizim rəhbərimizdi, düzdü, – dedi. – Amma niyə qoymursuz səhərdən bəri bu gözəl qızın – Xosrov müəllim uzun qolunu qaldırıb barmağı ilə Arzunu göstərdi – sağlığına içək, bu gözəl qızı təbrik edək.

Bu dəfə o balaca otağa elə dərin bir sükut çökdü ki, məclisdəkilərin, o cümlədən də Xıdır müəllimin gözləri elə bərələ qaldı ki, özündən asılı olmayaraq, Xosrov müəllimin dizləri titrəməyə başladı, nə dediyini, necə bir iş gördüyünü, elə bil ki, indi başa düşdü və həmin məqamda ilk özünə gələn adam yenə də Ələsgər müəllim oldu, tələsik ayağa qalxdı:

– Bir dəqiqə, bir dəqiqə, Xosrov müəllim, – dedi və həyəcandan udqundu. – Arzu qaçmır ki, buradakı özümüzünküdü, sağlığına da içəcəyik, təbrik də edəcəyik. Ancaq bu qədəhləri qaldıraq Xıdır müəllim deyən sağlığa. Doğrusu, bizi qabaqladı Xıdır müəllim, yaxşı da elədi... hamımızın ürəyindən dedi, sənin də ürəyindən dedi, Xosrov müəllim. Sağ olsun yoldaş Mir Cəfər Bağırov, onun sağlığına. O böyük insan başımızın üstündən əskik olmasın, həmişə bizə bu cür müdrik rəhbər olsun. Həmişə bizə yol göstərsin!

Mizin arxasında əyləşənlər yenə də bir nəfər kimi ayağa qalxıb qədəhləri başlarına çəkdilər və Xosrov müəllim də birdən-birə titrəməyə başlamış əlini uzadıb mizin üstündəki qədəhi götürdü, arağı Mir Cəfər Bağırov yoldaşın sağlığına içdi. Xosrov müəllim başa düşmüşdü ki, səhv edib, bağışlanmaz bir səhv buraxıb və bu səhv ona çox baha başa gələ bilər. Gülzarı ondan ayıra bilər və Xosrov müəllim ölməyə hazır idi, amma yenə də tək yaşamaq istəmirdi, bu iki ayın istisinin yenə də həmişəlik bir keçmişdə qalmasını istəmirdi.

Bundan sonra məclis heç cürə əvvəlki həvəsi, əvvəlki şövqü bərpa edə bilmədi; mizin arxasında əyləşən qonaqlar, elə Ələsgər müəllim də, Firuzə xanım da tez-tez ürkək nəzərlərlə Xıdır müəllimə tərəf baxırdı: Xıdır müəllim qaş-qabağını sallayıb papiros çəkirdi və heç kimə baxmır, heç bir söz demirdi.

Xosrov müəllimin bütün içindən dəhşətli bir qorxu hissi baş qaldırmışdı və o tonqalın istisi, elə bil ki, bədəninin tüklərini ütürdü, elə bil ki, o bir nəfərin iki əlilə də başı üstündə fırlatdığı o məşəl indicə bütün sir-sifətini yandıracaqdı və Xosrov müəllim yenə də udqunduqca, uzun və ucu iti hülqumu enib-qalxdıqca adama elə gəlirdi ki, bu adam başdan-başa əzab-əziyyət içindədi.

Təkcə Gülzar xanım, elə bil ki, heç nə başa düşmürdü (və yəqin elə doğrudan da belə idi!), eləcə gülümsəyirdi, eləcə məhəbbət, nəvaziş dolu nəzərlərlə ərinə baxırdı, sonra Gülzar xanım özü əlini mizin altında Xosrov müəllimin əlinin üstünə qoydu, amma Xosrov müəllim daha o əlin hərarətini hiss etmədi.

Ələsgər müəllim dedi:

– Indi Arzudan xahiş edək bir şer oxusun!

Arzu özünün beləcə ad günlərində təzə əzbərlədiyi şerlər oxuyurdu və bu şerlər siyasi-ictimai mövzularda olurdu, çünki Arzu siyasi-ictimai mövzulu şerləri xoşlayırdı; həmin qış axşamı da ayağa qalxıb əllərini arxasına qoydu, ütülənmiş qırmızı ipək qalstuklu sinəsini irəli verdi və hər bir sözü xüsusi vurğu ilə tələffüz edə-edə şer dedi:

*Bəşər dühasının sönməz ulduzu,*
*Əziz rəhbərimiz, atamız Stalin!*
*Ürəyimiz, sevgimizin sonsuzu*
*Bil ki, əzəl gündən sənindir, sənin!*
*Ey bütün ellərin şöhrəti, şanı,*

*Aparırsan bizi zəfərlərə sən!*
*Əməlin qərq edib nura cahanı!*
*Bir nəğmə çağlayır mənim sinəmdən:*
*Eşq olsun Stalinə!*
*Yaşasın Stalin!*
*Həyatın mənası,*
*Məzmunudur o!*

Arzu şeri deyib qurtaran kimi, hamı əl çaldı və Ələsgər müəllim fürsətdən istifadə edib Xıdır müəllimə baxa-baxa bir daha yoldaş Stalinin şərəfinə sağlıq dedi və yenə də hamı, o cümlədən, Xosrov müəllim ayağa qalxıb qədəhləri dibinəcən içdilər.

Arzu isə indi rus dilində bir şer söyləmək istəyirdi. Bu şeri keçən il «Oqonyok» jurnalında oxuyub əzbərləmişdi, oradakı bir parça, xüsusilə, xoşuna gəlirdi və Arzu yenə də hər sözü xüsusi vurğu ilə tələffüz edə-edə dedi:

– Osip Kolıçev. «Priqlaşeniye k pesne». Otrıvok iz stixotvoreniya.

*Vı bıli vçera*
*Bezımennı,*
*Sedaya zurna*
*Suleymana, Djambula*
*Sedaya dombra...*
*Tak poyte je*
*Stalinu*
*Slavu*
*Stixami,*
*Podobnımi splavu*
*Zolota i serebra!..*

Yenə hamı əl çaldı və Ələsgər müəllim fikirləşdi ki, görəsən, yenə də qalxıb Stalin yoldaşın sağlığına içsinlər, yoxsa yox? Yox, lazım deyildi, bu lap ağ olardı və Ələsgər müəllim qaş düzəltdiyi yerdə vurub gözü də çıxarardı.

Əlbəttə, Arzunun bu cür şerlər əzbərləməyi, əslində, Ələsgər müəllimin ürəyincə deyildi, amma nə etmək olardı, Arzu zəmanə uşağı idi və bu axşam Arzunun bu iki şeri söyləməyi lap yerinə düşdü; Xıdır müəllim, hər halda, tamam eşşək deyildi, qoy başa düşsün, görsün ki, məktəb müdirinin ailəsi necə ideyalıdır və Xosrov müəllimin bayaqkı hərəkəti də təsadüfi bir şeydir.

Əvvəlcə, o vaxtlar ki, Əvəz bəy hələ ingilis casusu və terrorçu kimi ifşa olunmamışdı, belə ad günlərindən birində Arzu əllərini arxasında tutub, sinəsini qabağa verib (onda hələ pioner deyildi) əziz Stalin baba haqqında əvvəlcə Azərbaycan dilində, sonra da rus dilində şerlər deyəndə Əvəz bəy (Ələsgər müəllimin yanında oturmuşdu) dodaqaltı pıçıldadı: «–Yaxşı ki, fransız dilində də belə şerlər demir». Onda Ələsgər müəllim özünü eşitməzliyə vurdu, amma bir müddət ürəyi nigarançılıqla döyündü, diqqətlə mizin arxasında oturanlara, xüsusən, Əflatun müəllimə baxdı –yox, Əvəz bəyin o pıçıltısını heç kim eşitməmişdi və Əflatun müəllim də içib keflənmişdi, dünya da vecinə deyildi. Bu hadisə o vaxt olmuşdu – üç il bundan əvvəl, o vaxt heç kim Əvəz bəyin pıçıltısını eşitməmişdi, amma buna baxmayaraq, Əvəz bəy indi həyatda yox idi. Əvəz bəy güllələnmişdi və güllələnəndən sonra da məktəbdəki iclaslarda, mitinqlərdə, «izhari-nifrət» yığıncaqlarında hamı, o cümlədən, Ələsgər müəllim Əvəz bəyin adını çəkir, onu dönə-dönə ifşa edir, sayıq olmağa, maskalanmış xalq düşmənlərini görməyə çağırırdı. Pıçıltını eşitmək vacib deyildi, bəzən Ələsgər müəllimə elə gəlirdi ki, əlaqədar orqanlar uzaqdan-uzağa adamın ürəyinə də girir, düşüncəsini də oxuyur və

həmin vaxtlar Ələsgər müəllimin bütün əhvalı pozulurdu, güclə özünü ələ alırdı, Əflatun müəllimi tovlaya-tovlaya, qoltuğuna verə-verə, pişim-pişimlə məktəbdə camaatı yola verirdi.

Arzunun on yaşı tamam olduğu həmin qarlı qış axşamı Xıdır müəllim eləcə papiros çəkir, hərdənbir araq içir, danışmır və fikirləşirdi. Xıdır müəllim dünyanın işləri barədə, insanların naşükürlüyü barədə, qeyrətsizliyi, vicdansızlığı barədə fikirləşirdi. Inqilabdan əvvəl biz nə idik? Heç nə, bir nəfər də fərli idmançımız yox idi. Bu boyda Azərbaycanda beş-altı dənə pəhləvan var idi, beş-altı dənə də ağırlıq qaldıran, vəssalam! Onlar da primitiviydi, beynəlxalq arenaya çıxmamışdılar. Bakının cəmi-cümlətani ikicə dənə idman klubu var idi: «Sokol», bir də ki, «Unitas», vəssalam. Elə Rusiyanın özündə nə var idi? Bircə Poddubnıydı, bir də ki, Zaikin də, başqa nə varıydı. Yoldaş Stalin ölkədə bədən tərbiyəsini bu cür inkişaf elətdirdi!.. Indi ölkədə altmış minə (minə!) qədər bədən tərbiyəsi kollektivi var, idmançıların sayı beş milyona yaxındı, minə qədər idman zalı var, stadionların sayı üç yüzü (üç yüzü e!) ötüb! Daha nə istəyirsiz, ay qeyrətsizlər?! Sovet gimnastları Antverpendə Üçüncü Fəhlə Olimpiadasında iştirak etdi! Bu qədər yüksəlişi görməmək olar? Kim eləyib bizim bu yüksəlişimizi? Yoldaş Stalin! Bəs Azərbaycanda kim eləyib bunları? Yoldaş Mir Cəfər Bağırov! Gimnastika, yüngül atletika, basketbol, voleybol... Inqilabdan əvvəl varıydı bunlar? Allahın topu yox idi, cındır əsgiləri basırdılar girdə torbanın içinə, ağzını tikirdilər, guya ki, topdu, Kömürçü meydanında futbol oynayırdılar... Bəs indi necə olur ki, adını da müəllim qoymusan, yeni nəsil tərbiyə edirsən, ay Xosrov müəllim, adamın dili də gəlmir sənə müqəddəs sovet müəllimi sözünü desin! – o boyda kişinin, o boyda rəhbərin sağlığına içmirsən? Üzdən baxırsan ki, fağırın biridi, amma, əslində, vələdüznanın cövhəridi bu Xosrov müəllim. Görmürsən zaraza, gedib özünə necə arvad tapıb alıb? Arvad deyil, balıqdı köpək qızı!..

Xıdır müəllim nifrət dolu nəzərlərlə Xosrov müəllimə baxdı və Xosrov müəllim də bu baxışların altında ağappaq ağardı, hiss etdi ki, kiçilir, tamam balacalaşır və dünyanın hər üzünü görmüş bu adam Xıdır müəllimin həmin baxışları altında az qaldı ağlasın. Xosrov müəllim sövq-təbii hiss edirdi: elə bir səhv buraxıb ki, bunun axırı mütləq pis qurtaracaq; iki aydı ki, Xosrov müəllim hər dəfə evdən çıxıb məktəbə gedəndə (məktəbdən başqa bir yerə getmirdi) Gülzarla bir yerdə yatdıqları çarpayıdakı döşəyin, balıncın o mehriban, o sevimli istisini də özü ilə aparırdı, sinifdə uşaqlara dərs keçirdi, amma boynunun ardında, kürəyində o istini hiss edirdi, o balınc istisi də, o döşək istisi də, əslində, Gülzar xanımın sim kimi tarım çəkilmiş, dolu və hamar bədəninin istisi idi və Arzunun on yaşının tamam oduğu həmin qış axşamı Xosrov müəllimə elə gəlirdi ki, o istini güclə onun bədənindən, hisslərindən dartıb çıxarırlar.

Kələntər müəllim bir az içəndən sonra, dostluqdan, etibardan, vəfadan, səmimilikdən, xeyirxahlıqdan gözəl sözlər dedi. Füzulidən və Seyid Əzim Şirvanidən müdrik misallar söylədi, Ələsgər müəllim məclisin siyasi səviyyəsini qaldırmağa çalışa-çalışa bir bəhanə tapıb yenidən Mir Cəfər Bağırov yoldaşın şərəfinə sağlıq dedi (və mizin arxasındakıların hamısı ayağa qalxıb qədəhlərini dibinəcən boşaltdılar), sonra Bakı ilə, Azərbaycan bolşevikləri ilə xüsusi bağlı olduqları üçün, yoldaş Stalinin yaxın silahdaşlarından və şagirdlərindən yoldaş Anastas Ivanoviç Mikoyanın və yoldaş Lavrenti Pavloviç Beriyanın şərəfinə sağlıq

dedi, mizin arxasında əyləşənlərin də hamısının haqqında ayrı-ayrılıqda sağlıqlar deyildi (bircə Xosrov müəllim və Gülzar xanım haqqında heç kim, o cümlədən, Ələsgər müəllim də cəsarət edib sağlıq deməndi), hətta Firidun müəllim iki-üç xalq mahnısı da oxudu, amma bütün bunlara baxmayaraq, məclisdəki o gizli, o üstüörtülü gərginlik axıradək davam etdi. Təkcə Gülzar xanım dünyadan xəbərsiz idi, hətta sağlıqlarına söz deyilmədiyi də bu qadına təsir etməmişdi, eləcə mehribanlıqla, eləcə səmimiyyətlə hamının üzünə gülümsəyirdi, eləcə məhəbbət dolu gözləriylə Xosrov müəllimə baxırdı və Gülzar xanımın iri, qara gözlərinin dərininə çökmüş və o iri qara gözləri işım-işım işıldadan o xoşbəxtlik, o səadət də bütün məclis boyu o qadınla birgə oldu. Xıdır müəllim isə bütün idmançı iradəsini toplayıb özünü məcbur etdi ki, məclisin axırına qədər otursun və hamı ilə birlikdə bu mizin arxasından qalxsın, yoxsa belə çıxardı ki, Xıdır müəllim meydandan qaçır; yox, Xıdır müəllim meydandan qaçmayacaqdı, çünki rəqibin qarşısından geri çəkilmək, güzəştə getmək Xıdır müəllimin idmançı təbiətinə zidd idi, bu adamlar hələ Xıdır müəllimi yaxşı tanımırdılar.

Gecə qonaqlar dağılandan sonra, Ələsgər müəllim, elə bil ki, bütün məclis boyu oynadığı roldan çıxa bilmirdi, şəstlə Arzudan soruşdu:

– Hə, necə oldu? Gördün sənin yubileyini necə keçirtdik?!

Arzu başı ilə təsdiq edə-edə:

– Hə, yaxşı oldu, – dedi. – Ancaq divar qəzetində Xosrov müəllimi də tənqid edəcəyəm.

Ələsgər müəllim hiss etdi ki, qızarır:

– Niyə?

– Bəs görmədin?

– Nəyi?

– Stalin babanın sevimli şagirdi Mir Cəfər Bağırovun sağlığına içmədi!

Həmişə təmkinli Ələsgər müəllim o qədər yanıb-yaxıldı ki, özünü saxlaya bilmədi, əməlli-başlı hirsləndi:

– Ay qız, sən necə adamsan? Bəs, o sənin sağlığına içmək istəyirdi də!

– Nolsun? Sən özün dedin ki, mənim sağlığıma həmişə içmək olar. Ancaq rəhbərlərin sağlığına birinci içmək lazımdır. Sən də bir şeyi düz eləmədin.

– Mən? Mən nəyi düzgün eləmədim?

– Sən dedin ki, Arzu özümüzünküdür, onun sağlığına sonra içərik. Belə çıxır ki, rəhbərlər özümüzünkü deyil...

Ələsgər müəllimin matı-qutu qurudu:

– Mənim daha sənə heç bir sözüm yoxdur...

– Nədi? Düz demirəm? Rəhbərlər özümüzünkü deyil?

Ələsgər müəllim özünü ələ aldı:

– Özümüzünküdü, əlbəttə... Ola bilsin ki, mən fikrimi düzgün çatdırmamışam. Amma sən də Xosrov müəllimi düz başa düşməmisən. Xosrov müəllim o cürə demək istəmirdi...

– Bəs necə demək istəyirdi?

– Istəyirdi ki... Bilirsən, elə şeylər var ki, sən hələ balacasan, başa düşmürsən...

– Başa düşmürəm?

– Başa düşmürsən... Sən ağıllı qızsan, amma elə şeylər var ki...

– Çox yaxşı. Onda bizim divar qəzetimizdə sən mənə cavab yazarsan!

– Belə şeyləri yazmaq olmaz.

– Niyə?

Ələsgər müəllim gəlib qızının yanında oturdu, Arzunu öpdü, Arzunun xoşladığı maraqlı hadisələrdən danışmağa başladı, Arzunun fikrini yayındırmaq istədi, Firuzə xanım (fikrində Xıdır müəllimin yeddi arxa dönənini söyə-söyə) mətbəxdə çəngəl-bıçağı, boşqabları yuyub quruladıqca, Ələsgər müəllim Arzuya xoş sözlər dedi və birdən-birə özü də hiss etdi ki, o qarlı qış gecəsi qızına yaltaqlanır...

Səhəri gün o qar yenə də hər tərəfi eləcə bürümüşdü, amma o qarın ağlığı, elə bil ki, dünən axşamkı təmizliyini itirmişdi və Ələsgər müəllimə elə gəlirdi ki, qarın o ağlığı nəsə gözəgörünməz bir çirkabla örtülüb; elə bil ki, o qar irin idi, nazik pərdəsini partladıb ətrafı batıracaqdı.

Ələsgər müəllim gecəni çox narahat keçirmişdi, çarpayıda uzanıb hər iyirmi-otuz dəqiqəlik mürgüdən, yüngül yuxudan sonra diksinib, ayılıb özünə ürək-dirək vermişdi: «Heç nə olmaz. Nə olacaq axı? Lap gözəl qonaqlıq keçdi. Bir söz idi dedi də... Sonrası yaxşı oldu, hər şeyi yuyub apardı. Dördgözün (Mir Cəfər Bağırov eynək taxdığı üçün camaat hərdən öz-özünə fikirləşəndə, ən yaxın, ən etibarlı adamla o tərəf-bu tərəfə baxa-baxa pıçıltıyla danışanda onu belə adlandırırdı: dördgöz) sağlığına iki dəfə içildi... heç nə olmaz...» və Ələsgər müəllim səhər qalxıb o soyuq havada mətbəxdəki əlüzyuyanın altında möhkəmcə yuyundu (soyuq havalarda heç vaxt belə yuyunmazdı), o soyuq su, elə bil, kişiyə bir toxtaqlıq, bir təpər verdi, amma evdən çıxıb ayağının altındakı qarı xırçıldada-xırçıldada məktəbə yaxınlaşdıqca, o nigarançılıq yenə də artmağa başladı.

Məktəbdə Ələsgər müəllimin müdir otağına birinci girən adam Kələntər müəllim oldu və Kələntər müəllim o səhər çağı dünyanın ən qayğılı adamlarından biri idi.

– Yaxşı məclis keçirdik. O gün olsun ki, Arzu balanın iyirmi illiyini keçirək!

– Çox sağ ol...

– Firuzə xanımın da süfrəsinə söz ola bilməz.

– Hə. – Ələsgər müəllim gülümsədi, amma ürəyi daha artıq bir narahatlıqla döyündü, çünki Ələsgər müəllim gözlərindən görürdü ki, Kələntər müəllim də çox nigaran bir gecə keçirib.

– Çox yaxşı keçdi məclis... – Kələntər müəllim gözlərini Ələsgər müəllimin gözlərindən yayındırdı. – Ancaq... bu zalım oğlu zalım Xosrov müəllimin başına Allah bir az ağıl qoysun...

– Fikir vermə, keçdi, getdi... Bu barədə nə qədər az söhbət olsa, bir elə yaxşıdı... Guya ki, heç nə olmayıb, üstünü vurma!..

– Mən harda vuracağam üstünü? – Və birdən-birə o əhli-kef, o zarafatcıl, nikbin Kələntər müəllimin dodaqları tutrədi. – Qorxuram!.. – dedi. – Qorxuram!.. Yeddi qızın atasıyam...

Ələsgər müəllim həmişə müdir otağındakı mizin üstündə olan qalın şüşə qrafindən stəkana su töküb Kələntər müəllimə yaxınlaşdı və suyu Kələntər müəllimə uzatdı:

– Sakit ol, əşşi!.. Nə olacaq sənə? Sənə nə dəxli var? Qazan qaynasa, o bədbəxt oğlu Xosrovun başında qaynayacaq də...

– Deyirsən mənə dəxli yoxdu?

– Əlbəttə!

– Bəs sənə?
Ələsgər müəllim təəccüb etdi və ürəyi daha şiddətlə vurmağa başladı:
– Mənə? Mən də sənin kimi. Mənə də dəxli yoxdu!..
– Axı, sənin evində olub!..
– Nə olsun?
Suyu içəndən sonra bir az özünə gəlmiş Kələntər müəllim çiynini çəkdi, sonra söruşdu:
– Necə bilirsən, o köpək oğlu Xıdır gedib xəbər verəcək? – Köhnə bakılı olduğu üçün Bakı sakinlərinin çoxunu tanıyan Kələntər müəllim: – Bunlar, – dedi, – Xıdırgil nəsillikcə pis adam olublar!.. Bunun atası hambal Orduxan, deyirlər, bir kasa bozbaşdan ötrü hazırmış bütün Bakını satsın!..
Ələsgər müəllim bir söz demədi; əslində, bu kabinetə girən kimi, Xıdır müəllimi çağırmaq istədi, amma çağırmadı, fikirləşdi ki, «qarğa, məndə qoz var» olar. Xıdır müəllim olanda nə olar, o da adamdı, o da başa düşə bilər ki, başqalarını bədbəxt eləmək olmaz, ailələri var, uşaqları var, onları didərgin salmaq olmaz.
Kələntər müəllimdən sonra, Firidun müəllim həyəcanla kabinetə girdi:
– Bu əclafı görürsən?!
Ələsgər müəllim, əlbəttə, bilirdi ki, söhbət kimdən gedir, amma Firidun müəllim həmişə ədəb-ərkanla danışan mədəni bir adam idi və onun beləcə həyəcanlanması, beləcə söyməsi Ələsgər müəllimin, onsuz da, pozulmuş əsəblərini daha da gərginləşdirdi:
– Kimi söyürsən? Nolub axı, sizə? Kimi deyirsən?
– Necə kimi? Xıdırı! Indicə yaxınlaşıb məndən soruşur ki, dünənki hadisəni bu gün partbüronun iclasına qoyacaqsan, yoxsa yox? Özü də elə-belə soruşmur e, hədəylə soruşur...
Ələsgər müəllim özünü saxlaya bilmədi:
– Bay sənin imanına tüpürüm!..
– Sən də belə adamı məclisə çağırırsan...
– Sizə görə çağırırdım də!.. Deyirdim ki, bu imansızın sizlərdə işi olmasın!.. Mən nə bilim ki, Allah Xosrovun ağlını başından alıb? Nə bilim, qanadıma baxmışdım?
Firidun müəllim kabinetdən çıxanda Ələsgər müəllim birdən-birə Əvəz bəyi xatırladı, daha doğrusu, Əvəz bəyin arvadını, qızını yadına saldı; indi Əvəz bəyə nə vardı ki, bu dünyaya bir gün gələn bir gün də köçəsi idi, dərd o arvadın, o qızın dərdi idi, xalq düşməninin ailəsi kimi, evsiz-eşiksiz didərgin düşmüşdülər, bax, bu yerdə deyiblər ki, vay qalanın halına... O tək arvad, o tək qız indi Qazaxıstanın o çöllərində nə eləyirdilər, hansı müsibətin içindəydilər?.. Indi bu nə işiydi belə, bu nə oyunuydu Xosrov çıxartdı?.. Taleyin işidi-nədi?..
Əlibaba müəllim içəri girdi:
– Salam.
– Salam.
– Nə var, nə yox?
– Nə olacaq? Sağlığın...
– Bilirsən nə var? Dünən içməyimə baxma, araq tutmurdu məni. Bütün gecəni fikirləşmişəm. Iyirmi ilin partiyaçısıyam! Uşaq döyüləm mən! Sinəmi qabağa verib

Xosrovu müdafiə edəcəyəm! Mən hələ bolşevik vicdanımı itirməmişəm! Amma çoxları itirib! Çoxları çoxdan itirib!.. Mən...

– Əşşi, hələ bir dayan görək də... – Ələsgər müəllim başa düşdü ki, Əlibaba müəllim də bütün gecəni özünə toxtaqlıq verib. – Nə olub?

– Necə nə olub, a kişi, yatmısan? Bütün məktəb soruşur ki, dünən Ələsgər müəllimgildə nə hadisə baş verib helə? Xıdır yayıb hamıya... Kimi görür, deyir ki, baxarsız, nə oyun açacağam o uzun biqeyrətin, Xosrovu deyir, başına!..

Ələsgər müəllim yenə də özünü saxlaya bilmədi:

– Nə alçağıymış, ə, bu? – Həyəcandan Ələsgər müəllimin bütün içi əsirdi, özü də öz ürəyinin tıppıltısını eşidirdi və elə bil ki, bu dəm o uzaq Qazaxıstan çöllərindəki Əvəz bəyin arvadıyla qızı deyildi, Firuzə xanımla Arzu idi. Ələsgər müəllim yaşadığı illərin qorxusunu heç vaxt bu qədər dərindən hiss etməmişdi, fəlakəti bu qədər yaxında duymamışdı. Qazaxıstanın o kimsəsiz çöllərində, o qar çovğununun içində, şikara baxan canavar gözləri kimi, çılğın kişi gözlərinin, şəhvətli baxışlarının altında iki nəfər kök ana-balanın – Firuzənin və Arzunun güzəranı Ələsgər müəllim üçün o qədər gerçək göründü ki, kişinin ürəyi bulandı, alnını soyuq tər bürüdü, mədəsindən sancı tutdu.

Ələsgər müəllim təcrübəli adam idi, özünü ələ almağı bacarırdı, ən çətin məqamlarda da tədbirlə hərəkət edirdi, amma həmin qış səhəri məktəbdə on səkkiz il əyləşdiyi o müdir otağında Ələsgər müəllim uşaq kimi tamam bir ümidsizlik içində batırdı.

Bir müddət otağa heç kim girmədi, amma bütün o müddət ərzində Ələsgər müəllimə elə gəldi ki, kimsə qapının arxasında dayanıb, ürəyi döyünə-döyünə içəri girməyə cəsarət etmir; beləydisə də, belə deyildisə də, qapı açıldı, Xosrov müəllim içəri girdi, eləcə qapının ağzında dayandı.

Ələsgər müəllim başdan-ayağa bir yazıqlıq içində olan bu uzun, arıq adama baxdı: dünənki şövqdən, dünənki xoşbəxtlikdən əsər-əlamət yox idi və elə bil ki, Xosrov müəllim əvvəlkilərə, yəni Gülzarla tapışmadığı vaxtlara nisbətən də daha artıq bir qaragünlük içində idi. Ələsgər müəllimə elə gəldi ki, Xosrov müəllimin o ağ saçları da, əslində, bu gecə ağarıb və elə bil ki, Ələsgər müəllim Xosrov müəllimə yox, sonu lap yaxın olan əlacsız bir xəstəyə baxır, hətta bir anlıq, cəmi bircə anlıq Ələsgər müəllimə elə gəldi ki, Xosrov müəllim tabutun içində uzanıb və o tabutu indi gətirib qapının ağzında dik qoyublar; kişi özü gözünün qabağına gələn bu görümdən diksinib ayağa qalxdı və gəlib Xosrov müəllimlə üzbəüz dayandı.

– Əşşi, – dedi Ələsgər müəllim, – sənə nə olacaqdı o... o... – Ələsgər müəllim bu yerdə özünü saxladı, ürək eləyib ONU (dördgözü) söymədi, – onun sağlığına içsəydin? Hə? Istəmirsən, ürəyində başqa sağlığa iç də, sənin ürəyinə girən var?! Uşaqsan sən, hə? Bu qədər müddətdi sən bu zırıltını görmürsən? Hə? Indi də sarını udmusan!..

Xosrov müəllim udquna-udquna, nazik boğazının uzun və iti hülqumu yuxarı-aşağı qalxıb düşə-düşə:

– Bilmirəm, – dedi, – vallah, bilmirəm necə oldu o sözlər ağzımdan çıxdı... Sizi də pis vəziyyətdə qoydum... Mən cəhənnəm, qorxuram sizə də söz gələ...

Ələsgər müəllim bu dəfə əməlli-başlı səksəndi:

– Bizə niyə? Biz nə etmişik ki?..

Xosrov müəllim:

– Nə bilim... – dedi. – Adamın ürəyinə hər şey gəlir...

Bu vaxt kabinetin qapısı açıldı və gözlərindən qəzəb yağan Xıdır müəllim içəri girmək istədi, amma Ələsgər müəllimi Xosrov müəllimlə üzbəüz dayanmış görüb qapını bərk (nümayişkarcasına!) örtdü.

– Bunu görmürdün orda sən, ay bədbəxt oğlu? – soruşdu.

Ələsgər müəllim qapıdan gözünü çəkib yenə də Xosrov müəllimə baxa-baxa açıq-aşkar bir ümidsizliklə:

– Bunu görmürdün orda sən, ay bədbəxt oğlu?– soruşdu. –Başına söz qəhətiydi sənin? Özün də təzə-təzə bədliyin daşını atmısan, təzə ailə qurmusan!..

Xosrov müəllim səhərə kimi yatmamışdı; qonaqlıqdan evlərinə gələndə əvvəlcə soyunub yerlərinə girdilər, tramvayla gəldikləri üçün soyuğa düşmüşdülər və bayırın o soyuğundan sonra dünyanın işlərindən xəbəri olmayan Gülzar xanım çarpayıda Xosrov müəllimi hamar dərili, dolu və isti qucağına basdı və o hamar dəri, o isti, o mehriban bədən Xosrov müəllimə hər şeyi unutdurdu, belə istinin, belə mehribanlığın içində Xosrov müəllimin iki aydan bəri davam edib gələn və bayaqkı məclisdə birdən-birə, az qala, tamam uzaqlaşıb getmiş o xoşbəxtliyi, elə bil, yenə də geri qayıtdı və o xoşbəxtlik məqamlarında Xosrov müəllim üçün dünyada nə Xıdır müəllim, nə Mir Cəfər Bağırov, nə də onun qorxusu var idi; Gülzarın tək-tənha yaşadığı o yeddi il ərzində öz içində əlbəyaxa olduğu, boğduğu hisslər indi hər dəfə təzə bir eşqlə qarşısını almaq istəmədiyi bir ehtirasla coşurdu və bütün bu iki ay ərzində onlar həmin eşqlə, həmin ehtirasla yaşayırdılar və həmin qarlı qış gecəsi də belə oldu, sonra Gülzar tamam taqətdən düşüb gözəl bir yuxu ilə yatdı və Xosrov müəllim iki ay bundan əvvələ qədər illərdən bəri tənha yaşadığı o balaca otağın qaranlığı içində lap başqa bir dünyanın – iki ay bundan əvvələ qədər Xosrov müəllim üçün səsçatmaz, ünyetməz bir dünyanın sirri, əfsanəsi kimi alaqaranlıqda Gülzarın ağ və dolu qollarına, iri və hərarətli döşlərinə baxdıqca birdən-birə yadına saldı ki, dünyada Xıdır müəllim var, dünyada Mir Cəfər Bağırov var və dünyada Xıdır müəllimlə Mir Cəfər Bağırov arasında – bu uzun məsafədə – get-gedə böyüyən, biri o birisindən uca elə adamlar (və o qədər adamlar!) var ki, Xosrov müəllim kimilərinin minini birdən büküb-bürmələyib maye azotun içinə basar, heç «uf» da deməz və o maye azotun soyuğu, elə bil ki, birdən-birə Xosrov müəllimin nəzərlərində Gülzarın isti bədənini buza çevirdi və indi o hamarlıq da buz hamarlığı idi.

Xosrov müəllim səhərə kimi çarpayıda oturdu və həmin maye azot soyuğu içində ikisinin – Gülzarla Xosrov müəllimin arasına soxulmaq istəyən fəlakəti bir varlıq kimi hiss etdi. Hardasa uzaqlarda yanan o tonqalın şölələri də isti yox, həmin maye azot kimi, soyuq saçırdı...

Xosrov müəllimə elə gəlirdi ki, səhər açılacaq və o yenə də Ovanesin faytonuna minib YENİDƏN evdən çıxacaq, o gedər-qayıtmaz səfəri YENİDƏN başlayacaq, uşaqlar yenə də həmin o səhərdə olduğu kimi, səs-küy salacaq:

– «Ata, sağ ol!..» – Bunu Cəfər deyəcək...

– «Ata, tez gəl!..» – bunu Aslan deyəcək...

– «Ata... Ata...» – bunu da iki yaşlı Azər deyəcək və Şirin bir dolu parç suyu yenidən onun ardınca atacaq və sonra Şirin də, altı yaşlı Cəfər də, dörd yaşlı Aslan da, iki yaşlı Azər də yenidən məhv olacaqlar, onu yenidən Hadruta buraxmayacaqlar və o tonqal yenidən alışıb yanacaq.

Xosrov müəllim çarpayıdan qalxmaq istədi, gedib əl-üzünü yumaq, bir az sakitləşmək istədi, amma kiçicik bir hərəkət də edəndə o gecəyarısı ona elə gəlirdi ki, Ovanesin faytonunda Şuşaya gedir, bu hərəkət də ona görədir ki, fayton yırğalayır və Şuşaya aparıb çıxaran o dağ yolu indi qapqara bir rəngə bürünmüşdü və Xosrov müəllim bu qara rəngi o qədər gerçək hiss edirdi ki, elə bil, indicə bu qara rəng bir şirə kimi, üz-gözünə, bədəninə yapışacaqdı və ən dəhşətlisi bu idi ki, Xosrov müəllimə o anlarda elə gəlirdi, elə bil, bu qara rəng indicə Gülzarın da o ağappaq bədənini bürüyəcəkdi.

O gecə çağı çarpayıda oturmuş Xosrov müəllimin içindən eynilə o tonqalın kənarında olduğu kimi, bir zarıltı baş qaldırmağa başladı, daha doğrusu, bu səs insan zarıltısından daha artıq, bir zingiltini xatırladırdı və o zingilti get-gedə artırdı, amma bu vaxt deyəsən, Gülzar da Xosrov müəllimin içindən baş qaldırmış o səsi yuxuda eşitdi və... gülümsədi.

Xosrov müəllim otağın qaranlığı içində Gülzarın sifətindəki o təbəssümü açıq-aşkar hiss etdi. Gülzar yerində qurcalandı, qollarını daha da geniş açıb, Xosrov müəllimə tərəf çöndü. Gülzar ağappaq qollarını yastıq boyu uzatmışdı və qoltuğunun yumşaq tükləri də qaranlıq içində seçilirdi, döşünün biri ipək gecəköynəyinin yaxasından çölə çıxmışdı və Xosrov müəllim yenə də birdən-birə o döşlərin hərarətini hiss etməyə başladı, bu hiss, elə bil ki, onun içinə nəsə bir ılıqlıq gətirdi və həmin zingiltini kəsdi.

Xosrov müəllim özünün başına gələcək müsibətdən qorxmurdu – müsibətdə onun üçün qorxulu bir şey yox idi – Xosrov müəllim Gülzar hisslərinin, Gülzar rəftarının bu iki aya dolmuş hərarətinin, istisinin donmağını, eləcə maye azota çevrilməyini istəmirdi. Sonra Xosrov müəllim Ələsgər müəllimi yadına saldı, Kələntər müəllimi yadına saldı, Əlibaba müəllimi yadına saldı, firidun müəllimi yadına saldı, bu adamların ailələri barədə fikirləşdi, Firuzə xanımı, Arzunu gözlərinin qabağına gətirdi və başa düşdü: elə bir səhv edib ki və bu səhvin nəticəsi elə ola bilər ki, Kələntər müəllimin yeddi qızından tutmuş Arzuyacan hamı küçələrə tökülər...

Ələsgər müəllim gözlərini qapının ağzında dayanmış Xosrov müəllimdən çəkib mizə tərəf yaxınlaşdı, yenə Xosrov müəllimə nəsə demək istədi, amma demədi, təkcə əlini yellədi və köksünü ötürdü; elə bil, Xosrov müəllimin saçları doğrudan da bu bir gecənin içində ağarıb.

Xosrov müəllim getdi. Ələsgər müəllim kabinetin məktəb həyətinə baxan pəncərəsinə yaxınlaşdı. Pəncərənin taxta sürahısına irili-xırdalı saxsı dibçəklər düzülmüşdü və o dibçəklərdə cürbəcür güllər bitmişdi, bu güllərin cürbəcür rəngi var idi və o rənglərin hamısı – qırmızısı da, sarısı da, bənövşəyisi də, yaşılı da indi Ələsgər müəllim üçün dünyanın dərdli, kədərli işlərindən xəbər verirdi... Bu gözəl gülləri Firuzə xanım bəsləyib, yetişdirib Arzu ilə məktəbə, bu otağa göndərmişdi və bu gözəl, bu zərif güllərin, çiçəklərin, əlbəttə, dünyadan xəbəri yox idi, bu gözəl, bu zərif güllər bilmirdi ki, bəzən insan nə günə düşür, bəzən insan ürəyində nələr çəkir, vicdan necə ağlayır...

Ələsgər müəllim hiss etdi ki, kabinetin qapısı açıldı, amma geri çevrilmədi, bir müddət eləcə güllərə baxdı və bu otuz ilin müəlliminə birdən elə gəldi ki, kimsə onun kürəyini nişan alıb, indicə atacaq, güllə, indicə onun kürəyini deşəcək, o güllə

keçib Firuzəyə dəyəcək, Arzuya dəyəcək, hətta Ələsgər müəllim kürəyində o güllənin göynəyən yarasını duydu və sərt hərəkətlə geri çevrildi.

Xıdır müəllim qapının ağzında dayanıb qəzəbli nəzərlərlə Ələsgər müəllimə baxırdı. Xıdır müəllim də narahat, həyəcanlı bir gecə keçirmişdi. Evləri şəhərin Bayıl tərəfində idi və dünən gecə Ələsgər müəllimgildən çıxanda tramvaya minmədi, o uzaq yolu qarın altında piyada getdi: bu cür piyada getmək həm bədənə xeyir idi, həm də Xıdır müəllim fikirləşirdi, satqın adamlar barədə düşünürdü. Cəmiyyəti Xosrov müəllim kimi satqınlardan təmizləmək lazım idi. Özü də dayanıb gözləmək olmazdı. Xıdır müəllim nə vaxta qədər dayanıb gözləyəcəkdi? Hücuma keçmək lazım idi, hücuma! Hansı komanda – istəyir futbol olsun, istəyir basketol, nə olur-olsun, – hücuma keçməsə, qələbə qazana bilər? Heç bir komanda! Bir qara qəpiyə də dəyməyən adamlar görürsən ki, sayıqlıq edir, hücuma keçir, Xosrov müəllim kimilərini ifşa edir, yüksək də mərtəbələrə qalxır. Bəs, Xıdır? Xıdırın nəyi əskikdir? Özü də zəhmətkeş ailəsindən çıxıb! Kim Azərbaycan idmanına Xıdırdan yaxşı rəhbərlik edə bilər? İdmanı beş barmağı kimi bilir. İdmançıların hamısını tanıyır. Ancaq Xıdırı heç kim tanımır. Çünki Xıdır həyatdan geri qalır. Xosrov müəllim açıq-aşkar düşməndir, daha buna heç bir söz ola bilməz. Buna daha Ələsgər müəllimin yağlı dili də kömək eləyə bilməz. Görmədin, O boyda kişinin sağlığına içmək istəmədi, hamının qabağında protest elədi, belə düşmənə kim kömək eləyə bilər? Bəs, Xıdır indi də özünü göstərə bilməsə, haçan göstərəcək? Xıdır özünü göstərə bilməsə heç zaman bədən tərbiyəsi sahəsində rəhbər işdə olmayacaq, ömrünün axırına qədər o əbləh məktəbdə, dallarını güclə çəkən o xəstə-xüstə müəllimlərin, uzununa heç iki metr də hoppana bilməyən küt şagirdlərin içində itib-batacaq. Xıdırın böyük vəzifələrdə heç kimi yox idi, heç kim ona kömək etməyəcəkdi və indiyəcən Xıdır nəyə nail olmuşdusa, öz gücünə eləmişdi. Ancaq hələ hər şey irəlidə idi. Xıdır hələ çox aza nail olmuşdu...

Xıdır gör nə günə qalmışdı ki, ona kömək əlini uzadan yeganə adam, tramvaysürən Əflatun müəllim idi... Düzdü, tramvaysürən Əflatun indi məktəb müdiri idi, amma fərqi yox idi, tramvaysürən Əflatun lap nazir də ola bilərdi, amma tramvaysürənliyində də qalacaqdı, ondan artıq bir şəxsiyyət olmayacaqdı. Xıdır gərək özü özünü o mərtəbəyə qaldıra biləydi ki, həmin mərtəbə tramvaysürən əflatunlar üçün əlçatmaz bir priz yüksəkliyində olaydı.

Xıdırın biliyi, Xıdırın qorxmazlığı, Xıdırın qabiliyyəti tək özünə yox, bütün Azərbaycan idmanına lazım idi və Xıdır özü hərəkət eləməliydi, bu qeyrətsiz, bu vicdansız Xosrovun ifşası Xıdır üçün məşq olmalı idi, Xıdır hücuma keçməli idi, məqsədə doğru hücuma keçməli idi və bu məşqdən sonra, böyük oyunlar başlamalı idi. Və Xıdır cəmiyyəti düşmənlərdən təmizləyəcəkdi. Xıdır Azərbaycan idmanına rəhbərlik edəcəkdi! O qarlı qış gecəsi Xıdır müəllimin içində elə bir qətiyyət yarandı ki, o qətiyyət, elə bil, onsuz da, həddən artıq sağlam və güclü olan bu adamın bədəninə daha artıq bir güc verdi, qarın içi ilə addımlarını daha möhkəm, daha iti atdı və gəlib evə çatanda Əbdülü həmişəki kimi oyaq gördü. Əbdül həmişəki kimi qardaşının yolunu gözləyirdi.

Xıdır müəllimin atası Orduxan inqilabdan əvvəl və inqilabın ilk illərində Bakının məşhur hamballarından biri idi və bəzən hətta tərsanələrdə gəmilərə yük daşıtdıran sahibkarlar, şirkətlər hambal Orduxanı Bakının ən məşhur hambalı, əfsanəvi hambal Dadaşdan da artıq tuturdular. Əbdülün anadan olduğu il – 1929-cu

ilin bir yay günü Kömürçü meydanında yüz iyirmi kilo soğan kisəsinin altında hambal Orduxanın ürəyi birdən-birə partlamışdı, sonra Xıdır müəllimin anası vəfat etmişdi və Xıdır müəllim kiçik qardaşı Əbdüllə tək qalmışdı. Əbdülün əsl adı Əbdüləli idi, amma hamı onu Əbdül çağırırdı və bütün bu illər ərzində Xıdır Əbdülə həm atalıq eləmişdi, həm də analıq. Əbdül böyük qardaşını adicə olaraq çox istəmirdi, onunla fəxr edirdi, qürurlanırdı və Xıdır elə eləməliydi ki, kiçik qardaşı özündən də qat-qat uca mərtəbələrə qalxsın, qoy hamı görsün ki, hambal Orduxanın oğlanları heç kimin köməyi olmadan, öz güclərinə hansı yüksəkliyə qalxıblar! Xıdır hücuma keçəcəkdi! Xıdır öz istədiyini dartıb həyatın boğazından çıxaracaqdı, istədiyinə nail olacaqdı və həmin gecə çarpayıda uzanıb yalnız səhərə yaxın yuxuya getməzdən əvvəl Xıdır müəllim o qarlı qış soyuğunda adamın canını qızdıran bir xəyal aləmində Azərbaycan idmanına rəhbərlik etdi, yeni stadionlar tikdi, yeni komandalar yaratdı, yeni idmançılar yetişdirdi; tribunada partiya və sovet rəhbərləri ilə bir yerdə dayanıb idmançıların paradını qəbul etdi, böyük xitabət kürsülərindən nitqlər dedi, hətta... Mixail Ivanoviç Kalinin Kremldə Xıdır Qafarzadəyə bədən tərbiyəsi sahəsində görkəmli xidmətlərinə görə orden təqdim etdi və Mixail Ivanoviç Kalinin Kremldə Xıdırın əlini sıxdığı məqamda çəkilmiş fotoşəkil Sovet Ittifaqının bütün qəzetlərində, o cümlədən, əlbəttə, «Krasnıy sport» qəzetində çap olundu...

Bəlkə... Bəlkə lap yoldaş Stalinin özü Xıdırı tanıyacaqdı, çünki yoldaş Stalin idmançıları çox sevir! Düzdü, idmançıların arasında da elə əclaflar var idi ki, yoldaş Stalinə xain çıxırdılar (o ki qaldı bu düşmən Xosrov müəllim ola!..). Ode, Nikolay Kovtun!.. Vaxt var idi ki, Kovtunun adı çəkiləndə Xıdırın ürəyi sevinclə dolurdu, çünki Kovtun birinci sovet idmançısıydı ki, 2 metrdən hündürə atdanmışdı, dünya rekordçusu olmuşdu! «Krasnıy sport» da şəkli çıxırdı!.. Ancaq nə oldu? Əclaf, xalq düşməni çıxdı! Yoldaş Stalinə nankor çıxdı! Ay əclaf, yoldaş Stalin olmasaydı, sən 2 metr 01 santimetr hündürlüyə atdana bilərdin?! Ona görə də indi adını nifrətlə çəkirlər. Inişil tutub basdılar əclafı, getdi!.. Bu Xosrov müəllimi isə stadiona çıxartsan, heç bir metr də hündürlüyə atdana bilməz, ancaq elədiyi qələtə bax!.. Xıdır sayıq olacaqdı, hətta ən məşhur idmançıların da maskasını sifətindən dartıb çıxaracaqdı, idmançıları yoldaş Stalinin adına layiq tərbiyə edəcəkdi.

Xıdır müəllim belə narahat və eyni zamanda, xəyallar aləmində şirin bir gecə keçirmişdi və indi müdir otağının qapısı ağzında dayanıb qəzəblə Ələsgər müəllimə baxa-baxa:

– Ələsgər müəllim, – dedi, – o cür düşməni qanad altına almaq olmaz! Ancaq siz onu qanad altına alırsız! Elə bilirsiz dünən başa düşmədim ki, siz niyə təzədən Mir Cəfər Bağırov yoldaşın haqqında sağlıq dediz? Ona görə ki, o düşmənin hərəkətini ört-basdır eləmək istəyirdiz! Belə zaşitaya keçməklə mənim vicdanımı susdura bilməzsiz! Mən açıq adamam, rinqdə də həmişə açıq vuruşmuşam. Məsləhət görürəm sizə ki, o düşmənə qəyyumçuluq eləməyin! Özünüzə pis olar! Mən bu işi belə qoymayacağam! Lap Mir Cəfər Bağırov yoldaşın özünün qəbulunacan gedib çıxacağam!

Xıdır Qafarzadə otaqdan çıxdı və qapını da ardınca çırpdı.

Yazıq professor Fazil Ziya müayinə etdiyi adamlara, müalicə etdiyi xəstələrə deyirdi ki, tez-tez teatra gedin!.. Yazıq gözəl insan, tez-tez teatra getmək heç onun özünün karına gəlmədi...

Ələsgər müəllim ən dərin bir pərişanlıq içində idi, eyni zamanda həmin anlarda dəhşətli bir nigarançılıq bu adamın bütün varlığını didib dağıdırdı; bu nigarançılığı yalnız qorxu hissi, vahimə yaratmamışdı; Ələsgər müəllim, görünür, həmin anlarda bir azdan görəcəyi işin nigarançılığı içində idi...

Xıdır müəllim, əlbəttə, gedib lazımi orqanlara xəbər verəcəkdi, Xosrov müəllimin dünənki hərəkətini şeytanlayacaqdı, buna Ələsgər müəllimin daha heç şübhəsi yox idi və onda... və onda...

Ələsgər müəllim dibçəkdəki o gözəl, o zərif güllərə baxa-baxa yenə də Qazaxıstanın o kimsəsiz çöllərində, o qar çovğununun içində, o şəhvətli kişi baxışları altında o köməksiz iki nəfəri, o ana-balanı – Firuzə ilə Arzunu gördü... Yox... Tələsmək lazım idi... Başqa əlac yox idi... Qabaqlamaq lazım idi... Bu köpək oğlu Xıdır Qafarzadəni qabaqlamaq lazım idi... Yoxsa Ələsgər müəllimi də dinc buraxmayacaqdılar və o zaman Firuzə ilə Arzu, doğrudan da, çöllərə düşəcəkdi... O köpək oğlunu qabaqlamaq lazım idi, Xosrovun hərəkətini Ələsgər müəllim özü xəbər verməli idi... Xosrov onsuz da məhkum idi, ona kömək eləmək mümkün deyildi... Orqanlara məlumatı Ələsgər müəllim özü çatdırmalı idi... Özü çatdırmasaydı, bu alçaq Xıdırın xəbərçiliyndən sonra, Ələsgər müəllimi də, o biri müəllimləri də Xosrov müəllimə qata bilərdilər... Xosrova kömək etmək mümkün deyildi, özünə kömək etməliydi, Firuzəyə, Arzuya kömək etməliydi, o birilərinə kömək etməliydi... Özü... Özü çatdırmalı idi... Özü deməliydi... Orqanlara yox... Raykoma... Cümşüdlüyə...

Və Ələsgər müəllim gözlərini o dərdli güllərdən çəkib tamam taqətsiz halda, ürəyi döyünə-döyünə mizə yaxınlaşdı, titrəyən əli ilə telefonun dəstəyini götürdü...

## 8

## QƏBUL

Həmin günün axşamı saat 9 radələrində Azərbaycan K(b) P MK-nın birinci katibi Mir Cəfər Bağırov iş otağında pəncərənin qarşısında dayanıb şəhərə baxırdı. Bakının bütün aşağı hissəsi, dənizkənarı bulvar və dənizin özü buradan yaxşı görünürdü və Mir Cəfər Bağırov səhərdən gecənin yarısına kimi – həddən artıq işləyib yorulanda, xüsusən, yaz çağları, bəzən bu pəncərənin qarşısına keçib dənizə baxmağı xoşlayırdı. Dənizin genişliyi, təmkini və daimiliyi ilə Mir Cəfər Bağırovun yaşadığı və işlədiyi gündəlik həyatın tələsikliyi, sürətlə hadisələrdən hadisələrə adlaması, kompaniyaların, əməliyyatların biri qurtarmamış o birisinin başlanması, əsəb gərginliyi və yorğunluğu arasında elə bir qəribə təzad var idi ki, bu təzad onu qıcıqlandırmaq əvəzinə, əksinə, sakitləşdirirdi. Yoldaş Stalinin iş saatı, az qala, günortadan başlayıb gecənin yarısına kimi davam edirdi və bütün bu müddət ərzində, təbii ki, Mir Cəfər Bağırov da işdə olurdu – lap gecə saat birdə də Stalin zənf eləyə bilərdi; səhərlər isə tezdən durmağı uşaqlıq çağlarından adət etmişdi, iş də çox idi, iş qurtarmaq bilmirdi, Mir Cəfər Bağırov isə iş olan yerdə sakit dayana bilmirdi və buna görə də çox zaman yuxusuz olurdu, dənizin bu pəncərədən görünən o genişliyi, o təmkini, o daimiliyi isə, elə bil ki, bu əsəbi adamın yuxusuzluğuna da təsir edirdi, uzaqdan-uzağa bir dinclik gətirirdi. Amma həmin qış axşamı Mir Cəfər Bağırov Xəzərə yox, küçələrlə ora-bura gedən, dayanacaqlarda tramvay gözləyən

adamlara baxırdı və o adamların, əlbəttə, heç ağlına da gəlmirdi ki, bu dəqiqələrdə Mir Cəfər Bağırovun eynəkli gözləri onları müşayiət edir.

Bu fikir Mir Cəfər Bağırovun qalın, kobud dodaqlarından bir təbəssüm qaçırtdı və vaxtından xeyli əvvəl ahıllaşmış qırx üç yaşlı bu adam iki əli arasında tutduğu bir dəstə karandaşı şaqqıldada-şaqqıldada bir-birinə sürtdü; onun əllərində ekzema xəstəliyi var idi, buna görə də çox zaman əlində bir dəstə karandaş olurdu və iri əllərini bu karandaşlara sürtdükcə ekzemanın qaşıntısını sakitləşdirirdi; sonra gözlərini o adamlardan çəkib dənizə tərəf baxdı, binaların qar basmış damlarını nəzərdən keçirdi.

Dənizin qaraltısı, damları örtmüş, küçələrin kənarına, səkilərin dibinə yığılmış qarın zəif ağartısı o sakit qış axşamında ora-bura gedən paltolu, papaqlı adamların, yoldan ötən maşınların, tramvayın, tək-tük faytonun hərəkəti müqabilində çox durğun, hətta ölgün görünürdü və Mir Cəfər Bağırov yenə də adamlara baxdı və fikrindən keçirdi ki, indi o özü də adi bir bəndə kimi, bu adamların arasında olsaydı, onların neçəsini tanıyardı, neçəsiylə salamlaşardı, bəlkə lap hal-əhval tutardı; indi yox, əlbəttə, on altı-on yeddi il bundan əvvəl olsaydı, belə olardı, indi isə bu adamlar Mir Cəfər Bağırovu o saat tanıyacaqdı, kimisi yerində quruyub qalacaqdı, kimisi qaçacaqdı, kimisi xorla salam verəcəkdi, kimisi də, Allah bilir, nə edəcəkdi, amma hamının da ürəyindən bir qorxu, bir təlaş hissi keçəcəkdi – bunu dəqiq bilirdi, iclaslarda, müşavirələrdə, rəyasət heyətində oturanda, ya da elə bu otaqdakı o mizin arxasında əyləşəndə hərdən diqqətlə vəzifəli və vəzifəsiz adamlara baxırdı və bu adamlar sir-sifətdən nə qədər müxtəlif olsalar da, onların hamısının gözünün dərinində bir qorxu, bir təlaş hissi var idi. Mir Cəfər Bağırov adamların gözünün dərininə çökmüş o qorxunu görürdü və ümumiyyətlə, onun gözündən heç nə yayınmırdı; Mir Cəfər Bağırov burasını da yaxşı bilirdi ki, bu adamlar məhz ondan qorxurlar, amma həmin qorxu hissi olmasaydı– Mir Cəfər Bağırov buna qəti əmin idi – zamanın, dövrün böyük işlərini də görmək mümkün olmayacaqdı, çünki insanlar öz təbiəti etibarilə rahatbazdılar, hazırına nazirdilər, qorxmasaydılar nə şüarlar köməyə gələcəkdi, nə ideyalılıq, nə də saysız-hesabsız nitqlər, məruzələr– neft planı da yerinə yetirilməyəcəkdi, pambıq planı da artıqlamasıyla dolmayacaqdı, partiyanın sıraları da düşmənlərdən təmizlənməyəcəkdi. Partiya da, Sovet Ittifaqı da Mir Cəfər Bağırov üçün yoldaş Stalin demək idi, partiyanın marağı, ölkənin mənafeyi yoldaş Stalinin marağı və yoldaş Stalinin mənafeyi demək idi və Mir Cəfər Bağırov yoldaş Stalinə sədaqətlə xidmət edirdi, bunu yoldaş Stalin də bilirdi, Beriya da, Siyasi büronun başqa üzvləri də bilirdi. Azərbaycanda isə partiya da, respublika da yoldaş Stalinlə birlikdə, eyni zamanda Mir Cəfər Bağırov demək idi və Mir Cəfər Bağırov başqalarından da özünə eyni sədaqətli xidməti tələb edirdi; sədaqətli xidmət isə, qorxu hissi olmadan mümkün deyildi, çünki insanın təbiətində nankorluq var idi. Heç bir ideyalılıq, heç bir başqa münasibət qorxunun yaratdığı sədaqəti yarada bilməzdi.

Mir Cəfər Bağırov boş xəyallara dalan, romantik hisslərə qapılan adam deyildi, amma həmin qış axşamı birdən-birə bu adamın ürəyindən həsrətə bənzər bir hiss keçdi; adi bir bəndə olmaq və adi bir bəndə kimi də, bax, bu görünən küçələrlə, bu adamların arası ilə harasa tələsmək, harasa getmək istədi, amma bu ötəri hiss də keçib getdi və Mir Cəfər Bağırov yenə də iri əllərini karandaşlara sürtdü, karandaşların şaqqıltısı yenə də bu iş otağının sükutunu pozdu.

Partiyanın XVIII qurultayının bu ilin, yəni 1939-cu ilin marında keçiriləcəyi elan olunmuşdu və bütün ölkə qurultaya hazırlaşırdı. Mir Cəfər Bağırov da Azərbaycan K(b) P-nin XV qurultayının fevralın 25-də keçiriləcəyini elan etmişdi və bütün bu son günlər, demək olar ki, ancaq qurultaya hazırlıq işləri ilə məşğul idi. Küçədə ora–bura gedən o adamlar üçün qurultay, əslində, bayramvari mücərrəd bir şey idi – çıxış edənlər yoldaş Stalini tərifləyəcəkdi, əldə edilmiş böyük nailiyyətlərdən, şən və qayğısız həyatdan danışacaqdı, bütün bunların hamısı qəzetlərdə çap olunacaqdı, əmək adamları qurultay şərəfinə planları artıqlaması ilə yerinə yetirmələri barədə raport verəcəkdilər, yeni öhdəliklər qəbul edəcəkdilər, amma Mir Cəfər Bağırov üçün qurultay daha artıq işləmək, işləmək və işləmək idi.

Küçədəki o adamlar bu pəncərədən çox kiçik görünürdü və onların ora-bura yeriməyi, hərəkətləri də buradan, az qala, gülməli görünürdü, elə bil ki, paltolu, papaqlı kiçik kuklalar idi və o hərəkət də kuklaların hərəkəti idi. Uşaq vaxtlarında Qubada, qonşuluqlarında özündən beş-altı yaş böyük bir oğlan var idi, adı Ələsgər (famili nə idi? Gözlərini qıyıb bir an fikirləşdi və parlaq hafizəsi o saat həmin oğlanın familini minlərlə tanış familələrin arasından dartıb çıxartdı: Babazadə), hə, Ələsgər Babazadə, çox kitab oxuyan oğlan idi, sonra da gərək ki, müəllim oldu, sonrasından daha xəbəri yox idi, bir dəfə həmin Ələsgər Babazadədən bir kitab götürdü, rus dilində idi və çox xoşuna gəldiyi üçün balaca Mir Cəfər o kitabı iki dəfə oxudu, sonra özündə saxlamaq istədi, dəyişmək üçün nəyi vardısa, təklif etdi, amma Ələsgər Babazadə vermədi, dartıb kitabı onun əlindən aldı və Mir Cəfər Bağırovun indiki kimi yadına gəlirdi: həyətlərindəki alma bağının bir küncünə qısılıb hirsindən ağladı; Conatan Sviftin «Qulliver» romanı idi və 1939-vu ilin həmin sakit qış axşamı iş otağının pəncərəsindən küçədəki adamlara baxan Mir Cəfər Bağırov birdən-birə o kitabı xatırladı, ona elə gəldi ki, Qulliver kimi, liliputlar ölkəsinə düşüb və pəncərədən görünən bu adamların da hamısı liliputlardır. Yenə də iri əlləri arasındakı karandaşları oynatdı və divardan asılmış böyük saata baxdı: saat doqquza yeddi dəqiqə qalırdı. Həmişəki kimi, axşam respublikanın Xalq Daxili Işlər Komissarını çağırmışdı və düz saat doqquz tamamda Komissar kabinetə girəcəkdi (yəqin indi gəlib, qəbul otağında doqquzun tamam olmağını gözləyirdi), günün hadisələri haqqında məlumat verəcəkdi, «svodka» nı göstərəcəkdi, suallara cavab verəcəkdi, göstərişlər alacaqdı, bir sözlə, həmişə beləcə sakit günlərdə olduğu kimi, qəbul öz ardıcıllığı ilə keçəcəkdi, sonra Komissar qovluğu qoltuğuna vurub gedəcəkdi; saat ona on beş dəqiqə qalmış isə «Azneft»in yeni rəhbərliyini çağırtdırmışdı (onlar da yəqin elə indidən gəlib qəbul otağında gözləyirdilər) – Poskrebışev Moskvadan zəng çalıb bildirmişdi ki, sabah səhər (yəni ki, günorta saat on bir radələrində) Mir Cəfər Bağırov «Azneft»dəki işlərin vəziyyəti barədə telefonla yoldaş Stalinə məlumat verməlidir.

Mir Cəfər Bağırov pəncərənin qarşısından çəkilib yazı mizinin arxasına keçmək istədi, amma yazı mizi ilə üzbəüz divardan asılmış yoldaş Stalinin böyük şəklinin qabağında ayaq saxladı və şəklə baxdı. Qoz ağacından enli çərçivəyə salınmış bu şəkil rəssam R. Maloletkovanın karandaşla çəkdiyi portretin reproduksiyası idi və Mir Cəfər Bağırov bu portreti iş otağında yenicə asdırmışdı. Əvvəl bu portretin yerində yoldaş Stalinin yağlı boya ilə işlənmiş təmtəraqlı bir şəkli asılmışdı, amma Maloletkovanın əsərində ağla qaradan başqa heç nə yox idi və bu, yoldaş Stalinin sadəliyini xüsusi nəzərə çatdırırdı; eyni zamanda yoldaş Stalinin baxışlarında səliqə

ilə arxaya daranmış qalın qara saçlarında, eşmə qara bığında bir nəhənglik, bir əzəmət var idi. «Stalinskaya forma»nın yalnız yaxası görünürdü, yoldaş Stalinin xalqı işıqlı sabaha səsləyən gözlərində mehriban bir işıltı var idi. Portretin aşağısında isə sadəcə «I. Stalin» imzası yazılmışdı, amma ağ boşluq içində qalın qara hərflərlə təsvir edilmiş o imzada bir monumentallıq var idi.

Bu portret, əslində, yoldaş Stalinə oxşamırdı, daha doğrusu, oxşayırdı, amma buradakı yoldaş Stalin əsl yoldaş Stalin deyildi, ona görə yox ki, şəkildəki yoldaş Stalin yaraşıqlı idi, saçının, bığının rəngi kürən yox, qara idi, ona görə ki, neçə illər ərzində dəfələrlə yoldaş Stalinlə görüşən, saatlarla yoldaş Stalinlə söhbət edən, Moskvada evində, bağında dəfələrlə yoldaş Stalinlə birlikdə nahar eləyən Mir Cəfər Bağırov rəhbərin portretdəki bu təbəssümünü, gözlərinin bu ifadəsini heç vaxt görməmişdi, bu – rəssamın uydurması idi, amma yaxşı uydurması idi, Azərbaycan rəssamları isə Mir Cəfər Bağırovun şəkillərini çox vaxt həyatda olduğu kimi çəkirdi və bu onun xoşuna gəlmirdi.

Mir Cəfər Bağırov əlləri arasındakı karandaşları oynada-oynada çeşməyinin girdə şüşələri arxasından gözlərini bir müddət yoldaş Stalinin şəklinə zillədi və rəssamın uydurmasına – yoldaş Stalinin gözlərindəki o yalançı ifadəyə, dodaqlarındkı o yalançı təbəssümə baxmayaraq yenə də bu adamın, yəni yoldaş Stalinin daxilində bir tənhalıq hiss etdi.

Mir Cəfər Bağırov heç vaxt özünü tənha hiss etmirdi, daha doğrusu, özünü tənha hiss etmək üçün onun nə vaxtı, nə də həvəsi var idi, amma hər dəfə yoldaş Stalinlə görüşəndə – iclasdan, ya yoldaş Stalinin iş otağındakı müşavirələrdən, ya təkbətək söhbətdən, ya yoldaş Stalinin bağında oturub nahar eləməklərindən asılı olmayaraq, bu hissi keçirirdi. Yoldaş Stalinin ya nitqlərinə, göstərişlərinə, mühakimələrinə, ya zarafatlarına həmişəki diqqətlə qulaq asarkən birdən-birə Mir Cəfər Bağırova elə gəlirdi ki, bəşəriyyətin tarixində heç bir təkrarı olmayan, həqiqətən, misli görünməmiş bu böyük rəhbərin, müəllimin içində hamıdan gizlin saxlanılan dəhşətli bir tənhalıq oturub. Bir dəfə Moskvada (beləcə bir qış günü idi) MK-nın qonaq otağında Beriya ilə (onda Beriya hələ Moskvaya köçməmişdi, Gürcüstan K(b)P MK-nın birinci katibi işləyirdi) gecənin yarısına kimi oturub söhbət etmişdilər, keçən günləri xatırlamışdılar, Azərbaycan Fövqəladə Komissiyasında birgə işlədikləri vaxtdan tanıdıqları adamları, rəhbər, partiya, sovet işçilərini bir-bir yadlarına salmışdılar, fikir mübadiləsi aparmışdılar və o zaman Beriya yoldaş Stalin barədə yəqin ki, ömründə heç kimə deyə bilməyəcəyi sözləri Mir Cəfər Bağırova demişdi: «– A tı znaeş, Mir Djafar, ved on v suşnosti odinokiy çelovek...» Bu sözləri eşidəndə Mir Cəfər Bağırov diksinmişdi, çünki, elə bil, Beriya yoldaş Stalinlə bağlı onun özünün ürəyindəki hissləri duymuşdu. Ümumiyyətlə, belə təsadüflər çox olurdu: Lavrenti Beriya ilə Mir Cəfər Bağırov çox zaman eyni cür düşünürdü, eyni hisslər keçirirdi.

Mir Cəfər Bağırov gözlərini yoldaş Stalinin portretindən çəkdi, yazı mizinin arxasına keçməzdən əvvəl yenə də pəncərəyə ötəri bir nəzər saldı: təkcə Azərbaycan yox, bütün ölkəni qaldırmaq üçün, xalq düşmənlərini ifşa edib sonuncusunun da axırına çıxmaq üçün, milyonların ruhunu qaldırmaq, siyasi ehtirasını qızışdırmaq üçün yoldaş Stalin bayraq idi və bu bayrağı həmişə uca tutmaq lazım idi. Hələ inqilabdan əvvəl yoldaş Stalin – Koba Bakıda gizlin inqilabi fəaliyyət göstərəndə, Bakıda yaşayanda camaat ona «Gürcü Yusif» deyirdi və Mir Cəfər Bağırov bütün

Bakını başdan-başa həmin gürcü Yusifin – yoldaş Stalinin memorial muzeyinə çevirmək istəyirdi – bu, Mir Cəfər Bağırovun qarşısıalınmaz, coşğun, ehtiraslı bir istəyi, məqsədi idi.

Yoldaş Stalin demişdi: «V Tiflise eşyo bıl revolyutsionnım mladentsem i tolko v Baku dostiq stepeni uçenika mirovoy revolyutsii». Bu sözləri 30-cu illərin lap əvvəllərindəki çıxışlrından birində demişdi, indi isə yoldaş Stalin həmin «dünya inqilabının» müəllimi və rəhbəri idi.

Kobanın Bakı ilə beləcə bağlılığı təkcə Bakıya yox, bütün Azərbaycan və Azərbaycan xalqına başucalığı gətirdi və bundan istifadə etmək lazım idi. «Koba» gürcücə «əla» demək idi və Kobanın adı ilə bağlı bütün işlər də əla görülməli idi. Lenin, yoldaş Stalini «çudesnıy qruzin» adlandırdı və onu «Stalnıy», yəni Stalin çağıranlardan biri oldu və bu da, əlbəttə, düz idi: yoldaş Stalin polad idi, amma adi polad yox, əla polad.

Hələ Inqilabdan əvvəl Bakıda axmaq intelligent menşeviklər təbliğat aparırdılar ki, Koba qoçudu, amma bu təbliğatın nəticəsində Koba Bakı camaatının arasında daha da məşhurlaşdı, çünki insan gücə tabedi. Axmaq menşeviklər başa düşmürdülər ki, Kobanı qoçu kimi, quldur kimi qələmə verəndə, əslində, onu tərifləyirdilər. Menşeviklər heç vaxt xalqa yaxınlaşa bilməmişdilər, çünki xalqı tanımırdılar, xalqın psixolojisindən xəbərsizdilər.

Lavrenti «Zaqafqaziya bolşevik təşkilatları tarixinin məsələsinə dair» kitabında Kobanın Zaqafqaziyadakı və xüsusən, Bakıdakı fəaliyyətini yaxşı işıqlandırıb. Bu kitab, əslində, Lavrentinin 1935-ci ildə Tbilisi partiya təşkilatı fəallarının yığıncağında söylədiyi məruzə idi və aradan keçən bu üç il yarımda 15 dildə 40 dəfə nəşr olunmuşdu. Lavrenti bu nəşrlərlə xüsusi fəxr edirdi və onları qonaqlarına göstərməkdən zövq alırdı. Lavrenti... Gəlib bu mərtəbəyə çatıb, amma hələ də sevinəndə uşaq kimi sevinir, elə bil, lap çağadır...

Bu kitab Azərbaycanda da 99 min nüsxə ilə – indiyəcən görünməmiş bir tirajla nəşr edilmişdi və Mir Cəfər Bağırov «Bakı və Azərbaycan bolşevik təşkilatları tarixindən» adlı yenicə çap olunmuş öz kitabında Beriyanın əsərini yüksək qiymətləndirmişdi. «Özünün «Zaqafqaziya bolşevik təşkilatlarının tarixinə dair» adlı qiymətli əsərində fövqəladə qüvvət və parlaqlıqla yoldaş Stalinin Zaqafqaziyada inqilabi fəaliyyətini, bolşevizmin yaradıcısı və rəhbəri kimi onun rolunu, Leninlə birlikdə yeni tipli mübariz proletar partiyasını yaratmasını təsvir etmiş Lavrenti Pavloviç Beriya – yoldaş Stalinin sınanmış şagirdi və davamçısı partiyamız və dövlətimiz qarşısında müstəsna xidmətə malikdir».

Amma bütün bunlar az idi, yoldaş Stalinin Bakı fəaliyyətini daha qabarıq yazmaq, yazdırmaq, təbliğ etmək və bunu başqalarının, hətta Lavrentinin özünün də gözünə soxmaq lazım idi...

Həmin dəqiqələrdə Azərbaycan SSR Xalq Daxili Işlər Komissarı, həqiqətən, Mir Cəfər Bağırovun qəbul otağında oturmuşdu və gözlərini divardan asılmış saatdan çəkmirdi; elə ki, saat doqquza üç dəqiqə qaldı, Komissar daha səbr edə bilmədi, ayağa qalxıb əynindəki formanı düzəltdi, əllərini saçına çəkdi və gəlib qapının ağzında dayandı. Bütün Azərbaycan yenicə Komissar təyin olunmuş bu adamdan qorxurdu, amma bu adamın özü qat-qat artıq dərəcədə Mir Cəfər Bağırovdan qorxurdu və hər gün də bu kabinetin qapısı ağzında dayananda həmin

qorxu hissi onun bütün içini bürüyürdü, özünü xüsusi bir ciddi-cəhdlə səfərbərliyə almağa sövq edirdi.

Komissar, Mir Cəfər Bağırovu iyirminci illərin əvvəllərindən tanıyırdı, o vaxtlardan ki, Mir Cəfər Bağırov Azərbaycan çekistlərinə rəhbərlik edirdi, sonralar Azərbaycan Baş Siyasi Idarəsinin rəisi idi, Komissar isə o zamanlar orqanlarda sıravi işçi işləyirdi, yavaş-yavaş yoldaş Bağırovun, eləcə də iyirminci illərin əvvəllərində Bağırovun rəhbərliyi altında Azərbaycanda işləmiş Beriyanın diqqətini cəlb etdi, sadiq xidmətinə görə vəzifədən-vəzifəyə keçirildi, partiya işində çalışdı və nəhayət, cəmi bir ay bundan əvvəl Bağırovun təqdimatı və Beriyanın razılığı ilə Azərbaycan SSR Xalq Daxili Işlər Komissarı təyin edildi. Mir Cəfər Bağırovu yaxşı tanıdığı üçün, Komissar onun dəli xasiyyətinə bələd idi, hər dəfə birinci katibin qəbulunda olanda özünü ən ağlasığmaz suallara hazırlayırdı, verilən əmrlər barədə heç bir mülahizə yürütmürdü, adicə olaraq səliqə və ciddi-cəhdlə həmin əmrləri yerinə yetirirdi; indi də əynindəki formanın bağlanmış düymələrini yenidən bir-bir yoxlaya-yoxlaya fikrən özünü qarşıdakı söhbətə hazırlayırdı.

«Azneft»in yeni rəisi, yeni baş mühəndisi, yeni müavinlər («Azneft»in əvvəlki rəhbərliyi xalq düşmənləri kimi ifşa olunub güllələnmişdilər), trestlərin rəisləri - hərəsinin əlində bir qovluq, qəbul otağının bir küncündə oturmuşdular və Mir Cəfər Bağırovun qəbulunu gözləyən bu adamlar burada Komissarı gördükdə, Komissarın özünü necə yığışdırdığını gözaltı müşahidə etdikdə, daha artıq vahimələnirdilər, cavabdeh olduqları sahələr üzrə rəqəmləri ürəklərində dönə-dönə əzbərləyirdilər.

Düz saat doqquz tamam olan kimi, qəbul otağında üzərinə eyni biçimli, qara rəngli çoxlu telefonlar düzülmüş mizin arxasında əyləşmiş katib-köməkçi başının hərəkəti ilə işarə etdi, yəni ki, içəri keçmək olar və Komissar sonuncu dəfə özünü düzəltdi, qoltuğundakı qovluğu yoxladı (guya ki, qovluq harasa yox ola bilərdi...), sonra qapını açıb içəri girdi və rus dilində:

– Salam, Mir Cəfər Abbasoviç, – dedi. – Icazə olar?

Mir Cəfər Bağırov öz yerində oturmuşdu və qalın barmaqlarını bir-birinə keçirib mizin üstünə dirsəklənmişdi, o bir dəstə karandaş da qabağında idi; başını tərpətdi– bu hərəkət həm salam almaq, həm də içəri dəvət etmək idi. Komissar mizin qarşısındakı kürsülərdən birinin yanına gəlib ayaq üstə dayandı. Mir Cəfər Bağırov:

– Otur... – dedi.

Komissar kürsüdə əyləşdi və qovluğu qabağına qoyub açdı, amma heç bir söz demədən Mir Cəfər Bağırovun nə ilə maraqlanacağını, nədən başlayacağını gözlədi.

Mir Cəfər Bağırov yuxusuzluqdan və yorğunluqdan qızarmış gözlərini Komissardan çəkib yenə də üzbəüz divardan asılmış həmin şəklə baxdı; kabinetin tavanından sallanmış sadə çilçırağın işığı şəklin üzərindəki şüşəyə düşüb onu parıldadırdı və bu zaman Mir Cəfər Bağırov bəlkə də ömründə ilk dəfə fikirləşdi ki, haçansa yoldaş Stalin də öləcək və o vaxt yəqin yoldaş Stalinin də cənazəsi Lenin kimi, şüşə sarfakanqın altında olacaq. Mir Cəfər Bağırov özü bu qəfil fikirdən diksindi və onun sağlam ürəyi bir an, cəmi bircə an bərkdən döyündü, hətta ona elə gəldi ki, gözlənilmədən beynindən keçən bu fikri Komissar da duydu və Mir Cəfər Bağırov gözlərini yoldaş Stalinin şəklindən çəkib, Komissara baxdı və soruşdu:

– Bayırda hava soyuqdur?

Komissar sövq-təbii qarşısındakı qovluğun içindəki kağızlara baxdı və elə bil ki, yalnız bundan sonra Mir Cəfər Bağırovun bu dəfəki sualının bu qovluqdakı

kağızlara dəxli olmadığını başa düşdü və bu sadə sualdan çaş-baş qaldı– Mir Cəfər Bağırov həmişə yalnız bilavasitə işdən danışardı və tabeliyində olan adamların hava haqqındakı fikirləri onu qətiyyən maraqlandırmırdı; amma Mir Cəfər Bağırov Komissarın cavabını gözləmədi və:

– Sən də maşında gəzirsən... – dedi, sonra üzbəüz divardakı şəklə işarə edib: – Necə şəkildi? – soruşdu.

Komissar başını çevirib yoldaş Stalinin divardan asılmış şəklinə baxdı və istər-istəməz, ayağa qalxdı, amma nə cavab verəcəyini bilmədi və ümumiyyətlə, bu sualın nə üçün verildiyini başa düşmədi, ürəyində bir nigarançılıq baş qaldırdı. Mir Cəfər Bağırov mənasız suallar verən, hisslərlə yaşayan adam deyildi – Komissar bunu yaxşı bilirdi, amma eyni zamanda, Mir Cəfər Bağırov hər hansı bir dəqiqə dünyanın ən gözlənilməz hərəkətini edə bilərdi və Komissar bunu da yaxşı bilirdi.

Düzdür, ildə-ayda bir dəfə elə anlar, məqamlar olurdu və Komissara elə gəlirdi ki, Mir Cəfər Bağırov ürəyinin ən dərin bir guşəsində sentimental, kövrək adamdır və var gücü ilə o sentimentallığı, kövrəkliyi ətrafındakılardan gizlətmək, qəddarlığıyla, sərtliyiylə özü özünü təsdiq etmək istəyir, amma lap qısaca bir müddət keçirdi və Komissar yanıldığını başa düşürdü, bu adamda heç bir sentimentallıq, kövrəklik yox idi və hərdənbir görünən o sentimentallıq, kövrəklik əlamətlərinin özü də qəsdən göstərilirdi. Mir Cəfər Bağırovun beyni hər bir sözün, hərəkətin təsirini çoxgedişli və dəqiq hesablayan bir şahmatçının beyni kimi işləyirdi. Fərq burasında idi ki, şahmatçı yalnız oyun zamanı, şahmat taxtasının arxasında əyləşdiyi vaxtlar həmin hesablamaları aparırdı, amma Mir Cəfər Bağırov fasiləsiz olaraq bütün sutka ərzində, yəni bütün ömrü, həyatı ilə bu oyunun içindəydi, daimi bir oyunçu idi.

Bir dəfə Azərbaycanda qışın sərt keçdiyi vaxtlardan biri idi. Respublikada yun üzrə planı yerinə yetirmək heç cürə mümkün olmadı və o zaman öz kabinetində – bax, bu kabinetdə çağırdığı müşavirədə Mir Cəfər Bağırovun necə qışqırdığını və onun sifətinin bəlkə də ən ibtidai insanlara məxsus (bir-birləri ilə ölüm-dirim vuruşuna çıxdıqları zaman) ifadəsini, gözlərindəki qəzəbi və soyuğu Komissar heç cürə unuda bilmirdi. Həmin müşavirədən sonra, qışın o oğlan çağında Mir Cəfər Bağırovun bilavasitə göstərişi və nəzarəti ilə inzibati orqanların işçiləri yunçuluqla məşğul olan rayonları kənd-kənd gəzib, camaatın yorğanını, döşəyini çarpayısından dartıb çıxarıb yununu müsadirə etdilər və respublikanın yun planı da eləcə doldu. Yox, Mir Cəfər Bağırovun ürəyində heç bir nazikliyə, incəliyə, kövrəkliyə yer yox idi – hər halda, Komissarın bu barədə fikri tamam qəti idi. Hələ 1922-ci ildə Partiya sıralarının təmizlənməsi üzrə Qafqaz Ölkə Komissiyası siyasi dustaqları şəxsən döydüyünə görə M.C.Bağırova töhmət vermişdi və bundan düz on beş il sonra isə Mir Cəfər Bağırov respublika maarif naziri Məmməd Cuvarlinskini və kinofoto sənayesi idarəsinin rəisi Qulam Sultanovu şəxsən özü güllələmişdi.

Komissar birinci katibin qəbulunda olduğu vaxtlar bir neçə dəfə Mir Cəfər Bağırovun yoldaş Stalinlə telefon söhbətlərinin şahidi olmuşdu. Əlbəttə, Mir Cəfər Bağırov, yoldaş Stalinlə böyük bir ehtiramla danışırdı, amma eyni zamanda, bu danışıqda bir məhrəmlik, bir yaxınlıq var idi, Mir Cəfər Bağırov yoldaş Stalin üçün adi rəhbər, partiya xadimi deyidi, həm də şəxsi sadiqliyi yüksək qiymətləndirilən bir adam idi. Mir Cəfər Bağırov bəzən kefinə düşəndə Azərbaycan SSR Daxili Işlər Komissarının müavini, sonra komissar, sonra yenə müavin işləyən Markaryanı

«moy vernıy, tsennıy pyos» deyə çağırırdı və hamıdan da belə bir sədaqət tələb edirdi, çünki Mir Cəfər Bağırovun özü də yoldaş Stalin üçün belə bir sədaqət sahibi idi.

Inqilabdan hələ xeyli əvvəl – 1909-cu ildə yoldaş Stalin Bakıda, Bayıl həbsxanasında 38 nömrəli kamerada dustaq yatmışdı. Belə deyirdilər ki, guya, o zaman siyasi dustaqları dəmir buxovlarla aparanda Koba qışqırmışdı: «– Niçeqo, tovarişi, niçeqo! Eti kandalı nam eşyo priqodyatsya!» Komissar tez-tez o dəmir buxovların buz soyuğunu öz boynunda hiss edirdi...

Bayıl həbsxanasında o zaman 1500 dustaq var idi – canilər, oğrular, əyyaşlar, bir də bütün Zaqafqaziyadan və Orta Asiyadan gətirilmiş siyasi dustaqlar: bolşeviklər, demokratlar, sağ eserlər, sol eserler, menşeviklər, millətçilər... Yoldaş Stalin Bayıl həbsxanasında siyasi dustaqlarla qızğın mübahisələrə girişirdi, bolşevizm ideyalarını təbliğ edirdi, Marksın və Leninin əsərlərini oxuyurdu, esperantonu öyrənirdi, çünki gələcəyin yeganə dilinə inanırdı...

Gələcək – yəni bu gün. Bu günün isə yeganə dili esperanto yox, ifşalar, həbslər və qətllər idi və həmin ifşadan, həbsdən, qətldən qorxan Komissarın özü o yeganə dili ciddi-cəhdlə həyata tətbiq edənlərdən biri idi. Komissar nə qədər çox qorxurdusa, bir o qədər artıq canfəşanlıqla ifşa edirdi, həbs edirdi, qətlə yetirirdi.

Bayıl həbsxanası XDIK -nın indiki zirzəmilərinə bənzəmirdi, orada dustaqlar sərbəst gəzişirdi, siyasi müzakirələr aparırdı. Bir müddət Orconikidze də yoldaş Stalinlə bərabər Bayıl həbsxanasında yatmışdı və bir dəfə siyasi mübahisə üstündə Kobanın işarəsi ilə yumruq vurub, eser İliko Karzevadzenin ağzını partlatmışdı. Onda yoldaş Stalin demişdi: «Protiv partiynoqo protivnika vsyo dozvoleno!» Düzdü, sonra eserlər Bayıl həbsxanasında Orconikidzeni təkləyib nöyüt iyi verənəcən döymüşdülər, amma yoldaş Stalinin o zaman Bayıl həbsxanasında dediyi o sözlər bu gün, əslində, partiyanın əsas şüarı idi. «Bütün ölkələrin proletarları, birləşin!» – bu şüar hər yerdə yazılırdı, bütün qəzetlər o şüarla çap olunurdu, amma bu, söz idi. «Partiya əleyhdarına qarşı bütün vasitələrdən istifadə etmək olar!» – bu şüar isə heç yerdə yazılmırdı, amma əməl idi. Partiya isə – yoldaş Stalin demək idi. Azərbaycanda partiya – Mir Cəfər Bağırov demək idi.

Komissar daimi bir gərginlik içində idi, çünki yoldaş Stalinin (partiyanın!) işlərindən baş açmaq, bu işləri məntiqi bir ardıcıllığa düzmək çətin idi və lap əvvəldən, lap cavanlığından yoldaş Stalin bir sirr içində idi. Bakı erməniləri hələ indiyə qədər danışırdılar ki, əsrin əvvəllərində yoldaş Stalinin yaxın dostu Stepan Şaumyan həbs olunanda onu Bakı milyonçusu Şibayevin xahişi ilə qubernator özü azad etmişdi, Şibayevi isə belə bir xahişə Koba məcbur etmişdi. Amma necə? Bunu yalnız Koba, bir də ki, sümükləri də çürümüş Şibayev bilirdi...

1907-ci ildə Sibirdə sürgündən qaçıb Bakıya gələn Kobanın üç qorxulu rəqibi var idi: Bakı polismeysteri polkovnik Martınov (köhnə tanış idi– əvvəllər Tiflis polisinin rəisi idi və Kobanı birinci dəfə Sibirə o sürgün etmişdi), menşeviklər, bir də ki, Bakı qoçuları. Koba Bakı qoçuları ilə tez dil tapdı, Bakı qoçuları ilə birlikdə menşeviklərin gözünün odunu aldı, polkovnik Martınov isə bir ildən sonra Balaxanı neft mədənlərində Kobanın gizləndiyi daxmanı tapdı və onu 1908-ci ildə Voloqdaya sürgünə göndərdi. Koba Voloqdadan qaçıb yenə Bakıya qayıtdı (indi sürgündən qaçan olsun, görüm necə qaçır!..). Axmaq Martınov!.. Koba inqilabi vərəqələri gizlincə onun mətbəəsində çap edirdi!..

Bütün bunları inqilabi fəaliyyət üstündə Bayıl həbsxanasında yatmış köhnə Bakı bolşevikləri yaxşı xatırlayırdı və indi xalq düşməni olmadıqlarını sübuta yetirmək üçün işgəncələr zamanı orqan işçilərinə, o cümlədən, Komissarın özünə danışırdılar, amma bu, köhnə Bakı bolşeviklərinin köməyinə çatmırdı, hamısı xalq düşməni kimi ifşa olunub güllələnirdi.

Komissar – milliyətcə rus olan bu adam – ilk gənclik çağlarında Bayıl tərəfdə dəllək işləmişdi... Amma nə olsun? Yoldaş Stalin ilk SSRI Xalq Daxili Işlər Komissarı vəzifəsinə Yaqodanı təyin etmişdi, Yaqoda isə gəncliyində aptekçi idi. Yejov kim idi? Iyirminci illərdə Nikolay Ivanoviç Yejovu kim tanıyırdı? Heç kim! Haradasa Qazaxıstanda hansı bir işdəsə işləyirdi...

Yaqoda düşmən çıxdı...

Komissar elə-beləcə ayaq üstə dura-dura və gözlərini də yoldaş Stalinin şəklinə zilləyə-zilləyə bunu fikirləşib udqundu. Henrix Qriqoriyeviç Yaqodanın adı gələndə adam özünü yığışdırırdı, Komissar özü dörd-beş il bundan əvvəl hansı bir sıravi çekistisə tərifləmək istəyəndə «– Əsl yaqodaçıdır!» – deyirdi, Yaqoda nə qədər xalq düşmənini ifşa etmişdi, nə qədər maskalanmış qolçomaqları cəzasına yetirmişdi, sovet cəmiyyətinə nə qədər yabançı adamın – yüz minlərin səsini almışdı, sonra məlum olmuşdu ki, ən qəddar xalq düşmənlərindən biri elə Yaqodanın özüdür. Məhkəmədə Vışinski Yaqodanı Nikolay Ivanoviç Yejovu tədricən zəhərləməkdə ittiham etdi və Yaqoda da bunu boynuna aldı, güllələdilər, çıxdı getdi işinin dalınca, indi, elə bil, Yaqoda adında adam olmamışdı. Komissar bu cür etirafların qiymətini yaxşı bilirdi, bu cür etirafların imzalanmasında özü az iştirak etməmişdi.

Vışınski məhkəmədə demişdi: «Göründüyü kimi, Yaqoda adi qatil deyil. O, ifşa olunmayacağına əmin olan bir qatildir. Lakin onun ümidləri burada da özünü doğrultmadı. Onun çürümüş qarantiyaları məhv oldu. Yaqoda və onun alçaq cinayətkar fəaliyyəti ifşa olundu, özü də xain Yaqodanın təşkil etdiyi və sovet dövlətinin mənafeyinə qarşı yönəltdiyi satqın kəşfiyyat tərəfindən yox, yoldaş Stalinin ən layiqli davamçılarından biri olan Nikolay Ivanoviç Yejovun rəhbərlik etdiyi əsl bolşevik kəşfiyyatı tərəfindən ifşa olundu».

Komissar, Andrey Yanuaryeviç Vışınskini yaxşı tanıyırdı, hələ inqilabdan əvvəl Bakıdakı boşboğaz vəkillərdən biri idi.

Hansı məzhəbə qulluq etdiyi məlum deyildi və işə bax ki, bu menşevik SSRI prokuroru olub Yaqodanı qatillikdə ittiham etdi– buna görə də Komissar hər şey gözləyirdi, özü özünün sabahkı gününə əmin deyildi. Yaqodadan sonra Komissara elə gəlirdi ki, Yejov daimidir, amma indi belə məlum olur ki, Yejovun da axırına az qalıb. Düzdü, Yejov hələ yoldaş Stalinlə birgə fəxri rəyasət heyətinə seçilirdi, Leninin vəfatının 15-ci ildönümü münasibətilə Böyük Teatrdakı matəm iclasına gələnlərin arasında yoldaş Stalinlə, başqa rəhbərlərlə bərabər, Yejov da vardı, amma Komissar cəmi il yarım bundan əvvəl Kalininin imzaladığı fərmanla «Dövlət Təhlükəsizliyi Baş Komissarı» rütbəsi almış Yejovun başının üstündəki qara buludları görürdü. Bir neçə ay bundan əvvəl Yejovu eyni zamanda su nəqliyyatı komissarı təyin edəndə Komissarın dalağı sancmışdı; keçən ilin dekabr ayının əvvəllərində isə Yejov SSRI Xalq Daxili Işləri Komissarı vəzifəsindən azad edildi, yerinə Lavrenti Pavloviç Beriya təyin olundu. Indi Yejov yalnız su nəqliyyatı komissarı idi – dünyanın bundan gülməli bir işi ola bilməzdi. Hər şey məlum idi, zaman göstərdi ki, Yejov da daimi deyil. HenrixYaqoda da 1936-cı ildə Xalq Daxili

Işlər Komissarı vəzifəsindən gedəndən sonra, qısa bir müddət Xalq Rabitə komissarı (!) işləmişdi...

Komissar, Nikolay Ivanoviç Yejovu müxtəlif iclaslarda, müşavirələrdə çox görmüşdü, bir neçə dəfə onun qəbulunda olmuşdu (hər dəfə də qəbul sona yetəndə Yejov tapşırmışdı: «– Peredayte moy bolşevitskiy privet tovarişu Baqirovu!» Yejov hələ ÜIK (b) P MK-da kadrlar şöbəsinə rəhbərlik etdiyi vaxtlardan M.C. Bağırovu şəxsən tanıyırdı və göndərilən bu salamlar, əlbəttə, M.C. Bağırova xüsusi hörmətin ifadəsi idi; M.C. Bağırovun özü də bir müddət ÜIK(b)P MK-da işləmişdi...), amma Komissarın 1937-ci ilin dekabrında gördüyü Yejov heç vaxt yadından çıxmırdı. Onda çekistlərin iyirmi illiyi münasibətilə Moskvada, Böyük Teatrdakı təntənəli iclasda Yejov yoldaş Stalinlə, Molotovla, Kaqanoviçlə, Voroşilovla, Kalininlə, Andreyevlə, Mikoyanla, Jdanovla, Xruşşovla, Bulqaninlə, Dmitrovla, Xoze Diasla birlikdə zala daxi oldu; onda hələ Kosiorla Çubar da xalq düşməni kimi ifşa edilməmişdilər və onlar da rəyasət heyətində idi. Komissar Böyük Teatrın parterində oturub səhnəyə baxırdı; əsasən, yoldaş Stalinə baxırdı, amma istər-istəməz tez-tez gözlərini Yejova zilləyirdi, balacaboylu, Yejov elə bil ki, Böyük Teatrın səhnəsinə sığışmırdı, adamın gözünə o qədər böyük görünürdü ki, az qala, yoldaş Stalin boyda olurdu və o vaxt Komissar birdən-birə fikirləşdi ki, Yejov ehtiyatlı olmalıdır; amma, görünür, Yejov özü öz daimiliyinə inanmışdı...

Həmin təntənəli iclasda məruzəçi Yejov yox, A.I.Mikoyan idi. A.I.Mikoyanın əynində boğazına qədər düymələnmiş «Stalin köynəyi» var idi və o köynək də Mikoyanın bığı və saçı kimi qapqara idi, o qara qiyafə dünyanın qara işlərindən xəbər verirdi... Onda məruzəni nə üçün Yejov özü eləmədi? Boyu balaca idi və Böyük Teatrın səhnəsindəki xitabət kürsüsündən görünməyəcəkdi, ona görə? Yoxsa ona görə məruzəni Mikoyana tapşırmışdılar ki, Yejovun özünü tərifləsin. Təriflər söyləməkdə Mikoyan, əlbəttə, usta idi və bu sahədə ona çatan olmazdı. Hələ dörd-beş il bundan əvvəl ÜIK(b) P-nın XVII qurultayındakı– «qaliblər qurultayı»ndakı! – qısa çıxışında Mikoyan düz 30 dəfə yoldaş Stalinin adını çəkib onu tərifləmişdi, örnək göstərmişdi. Düzdü, Nikolay Ivanoviç Yejovun qılıncının dalı, qabağı nə qədər kəssəydi də, o, Iosif Vissarionoviç Stalin deyildi, amma o zaman elə Yejov olmaq da az deyildi...

Yejov, əlbəttə, Mikoyanın tərcümeyi-halından və gördüyü işlərin hamısından xəbərdar idi. Hər şey qalsın bir tərəfə, təkcə elə bu kifayət idi ki, SSRI Xalq Xarici Ticarət komissarı Mikoyanı yalana yox, həqiqətə əsaslanıb xalq düşməni kimi güllələyəsən: Anastas Mikoyan elə bir əlverişli şərait yaratmışdı və vasitəçilik etmişdi ki, köhnə tanışı, bütün Iraq neft kompaniyalarını əlinə almış milyonçu Qalust Gülbenkyan heç kimin xəbəri olmayan gizli alış-veriş nəticəsində öz şəxsi kolleksiyası üçün Leninqrad Ermitajından Rubensin, Rembrandtın, Bautsun, Vattonun, Terborxun, Lankranın bir çox əsərlərini almışdı. Düzdü, Qalust Gülbenkyan Q.Pyatkovun sədrlik etdiyi SSRI Dövlət Bankına müəyyən miqdarda valyuta keçirmişdi, amma o valyuta Rubensin, Rembrantın əsərlərinin həqiqi qiyməti müqabilində bir heç idi və ən başlıcası isə o əsərlər həmişəlik SSRI-dən çıxarılırdı, Mikoyan, əslində, Rusiyanı mənən qarət edirdi. Bəli, bu, həqiqət idi və Komissar bunu bilirdi (Mir Cəfər Bağırov da bunu bilirdi...), amma Komissar orasını da yaxşı bilirdi ki, Yejov həqiqət üstündə adam güllələmir, Yejova həqiqi cinayət lazım deyil, bu gün insanları güllələmək üçün yalan lazım idi, Anastas

Mikoyan isə həmin yalanları quraşdıranlardan və həmin yalanlardan istifadə edənlərdən biri idi...

Əlbəttə, yəqin yoldaş Stalin də Mikoyanın Gülbenkyanla əlaqəsindən xəbərdar idi, bir qucaq valyuta bəhanəsi ilə Rusiyanın mənəvi sərvətlərini milyonçu yerlisinə ötürdüyünü bilirdi, amma yoldaş Stalin üçün Mikoyanı öz yanında həmişə gözükölgəli saxlamaq və Mikoyandan istədiyi kimi istifadə etmək Rusiyanın mənən talan olunmasından artıq və vacib idi... Belə işlər barəsində fikirləşəndə bəzən bir rus adamı kimi, Komissarın içindən bir etiraz baş qaldırırdı, amma zəmanənin qorxusu o dəqiqə o daxili üsyanı, o milli təəssübkeşliyi boğub yox edirdi.

Anastas Ivanoviç Mikoyan o zaman Böyük Teatrda dedi: «Xalq Daxili Işlər Komissarlığı xalq düşmənlərinə qarşı yoldaş Stalinin öyrətdiyi kimi mübarizə aparır, çünki bizim cəza orqanlarının başında stalinçi xalq komissarı yoldaş Yejov dayanmışdır. Yoldaş Yejov XDIK-da əsl sovet kəşfiyyatçılarının, gözəl çekistlərin özəyini təşkil etmişdir. O, XDIK-ı işçilərinin əsas özəyinə bolşevikcəsinə qayğı göstərmiş, onları Dzerjinski ruhunda, bizim partiyamızın ruhunda tərbiyə etmişdir ki, bütün çekist ordusunu daha da yüksəklərə qaldırsın. Yoldaş Yejov çekistlərə sosializmə, bizim xalqımıza alovlu məhəbbət və düşmənlərə nifrət təlqin etmişdir. Buna görə də bu gün bütün XDIK və ilk növbədə yoldaş Yejov sovet xalqlarının sevimliləridir».

Həmin «sevimli Yejov» indi Su Nəqliyyatı komissarı idi... Hələlik belə idi... Bir ay bundan sonraya qədər, yoxsa elə sabaha qədər? Bəlkə elə, bax, bu gecə Dövlət Təhlükəsizliyi Baş Komissarının müqəddəratı həll olunurdu?

Yakov Xristoforoviç Peters – Dzerjinskinin vaxtında Fövqəladə Komissiyanın sədri idi, keçən il xalq düşməni kimi güllələdilər. Dzerjinskinin özünün də ölümü, əslində, çox müəmmalı oldu və Komissar hərdən bu barədə də fikirləşirdi. Yaqodadan əvvəl Birləşmiş Dövlət Siyasi Idarəsinin rəisi V.R. Menjinskinin də ölümü başdan-ayağa bir sirri-xuda idi. Yaqodanı da güllələdilər, Yejov da, belə görünür ki, dibi zülmət qaranlıq olan uçurumun lap kənarındadır və barmaqla itələsələr izi-tozu qalmayacaq. Indi də Beriya gəlib...

Keçən il dekabrın əvvəllərində S.M. Kirovun xaincəsinə öldürülməsinin dörd illiyi münasibətilə Azərbaycan KP Bakı komitəsinin xüsusi plenumu çağırılmışdı və Mir Cəfər Bağırov həmin plenumdakı məruzəsində xalq düşmənlərini – R.Axundovu, S.M. Əfəndiyevi, Ə.Qarayevi, hətta 1925-ci ildə vəfat etmiş, qəbri Qızıl Meydanda, Leninin mavzoleyinin yanında olan Nəriman Nərimanovu yenidən ifşa etdi və birdən-birə ilk baxışda heç bir dəxli olmadan dedi: «Bir sıra illər Zaqafqaziya partiya təşkilatlarına rəhbərlik etmiş, sınanmış stalinçi Lavrenti Pavloviç Beriya Zaqafqaziyada dəstəbazlığın və atamançılığın ifşasında, eləcə də bütün trotskiçi-buxarinçi, burjua-millətçi qatillərin darmadağın edlməsində müstəsna rola malikdir».

Mir Cəfər Bağırov mətləbə dəxli olmayan söz danışan adam deyildi və Komissar o zaman sövq-təbii ilə hiss etdi ki, Beriya ilə əlaqədar nəsə ciddi bir hadisə baş verəcək, doğrudan da, dörd gündən sonra Beriya SSRI Xalq Daxili Işlər Komissarı təyin edildi.

Bəs, Beriya özü necə, daimi idi? Indi hamı, Mir Cəfər Bağırov da Beriyanı tərifləyirdi, amma nə olsun? Bəyəm Yejovu hamı, o cümlədən də Mir Cəfər Bağırov tərifləmirdi? Keçən il Azərbaycan SSR Ali Soveti təsis edildi, ilk deputatlar namizəd

göstəriləndə yoldaş Stalindən sonra ən tərifli sözlər Yejovun haqqında deyilirdi, qəzetlərdə Yejovun haqqında elə tərifli sözlər yazılırdı ki, heç Molotovun, Kaqanoviçin, Mikoyanın, Voroşilovun haqqında o cür sözlər yazılmırdı. Yox, daimi ancaq yoldaş Stalin idi, Azərbaycanda da daimi ancaq Mir Cəfər Bağırov idi.

Yoldaş Stalin yəqin ki, Mir Cəfər Bağırovu Beriya kimi Moskvaya, daha böyük vəzifəyə aparmayacaqdı. Mir Cəfər Bağırov ÜIK(b) P MK-nın adicə üzvü idi, amma bu adicə MK üzvü, eyni zamanda, Azərbaycanın sahibi idi (partiya, sovet işçiləri Mir Cəfər Bağırovu öz aralarında elə beləcə də çağırırdılar: xozyain!).

Azərbaycan Iranla, Türkiyə ilə sərhəddə idi, azərbaycanlıların Sovet Azərbaycanında yaşayanlardan üç dəfə artıq hissəsi Cənubi Azərbaycanda, Iranın tərkibində qalmışdı, buna görə də bu respublikada yoldaş Stalinin ən etibarlı adamı rəhbər olmalı idi. Ən başlıcası isə, yoldaş Stalinin də, Beriyanın da fəaliyyətinin böyük bir hissəsi Azərbaycanla bağlı idi. Bakıda yoldaş Stalini, Beriyanı tanıyan adamlar çox idi: düzdü, onların böyük bir qismi 37-38-də Mir Cəfər Bağırovun şəxsi rəhbərliyi və fəaliyyəti nəticəsində xalq düşməni kimi ifşa olunub güllələndi, amma arxivlər qalırdı, ifadələr qalırdı və bu kağızdakı faktlarla mübarizədə də Azərbaycanda ən etibarlı bir adam lazım idi.

Komissar Bakıda arxivlərdən itirilən sənədlərin taleyini yaxşı bilirdi, Beriya SSRI Xalq Daxili Işlər Komissarı təyin edildikdən bir neçə gün sonra V.N. Merkulovu özünə birinci müavin elədi və yenə də bir neçə gündən sonra Merkulov Mir Cəfər Bağırovun şəxsi qonağı kimi Bakıya gəldi, Yeni il qabağı Moskvaya qayıdanda Bakının arxivlərindən axtarıb seçib götürdüyü qovluq-qovluq sənədləri də özü ilə apardı. O sənədlərdə yoldaş Stalin haqqında, Beriya haqqında nələr var idi? Bunu yəqin ki, daha heç kim heç vaxt bilməyəcəkdi...

Nəhayət, Azərbaycanda Bakı partiya təşkilatı SSRI-nin ən nüfuzlu partiya təşkilatlarından biri idi. Bakı proletariatı Leninqraddan sonra ölkədə ən güclü inqilabi ənənələrə malik fəhlə sinfi sayılırdı və buna görə də burada etibarlı adam olmalıydı. Ölkənin tarixinin bu qızğın çağında Bakı proletariatı S.M. Kirov kimi, yoldaş Stalindən sonra ikinci bir lider yetişdirməməli idi (Kirovun yetişməsində Bakı proletariatının, əlbəttə, böyük rolu olmuşdu). Mir Cəfər Bağırov yalnız Azərbaycan K(b) P MK -nın birinci katibi yox, eyni zamanda, Bakı partiya komitəsinin birinci katibi idi, amma Mir Cəfər Bağırov rəqib deyildi və yəqin ki, o özü də heç vaxt Moskvaya işləməyə getmək istəməzdi: Moskvada o yalnız icraçı olacaqdı, Azərbaycanda isə o, yoldaş Stalinin icraçısı olmaqla bərabər, həm də hakimi-mütləq idi (xozyain!). Azərbaycanda yoldaş Stalin daha artıq dərəcədə Mir Cəfər Bağırovun qorxusuna təriflənirdi. Bütün Azərbaycan 37-38-dən sonra Mir Cəfər Bağırovun əlində idi, nə qədər istəsəydi, ovucunu sıxa bilərdi (və sıxırdı!), bu ixtiyarı, bu hüququ ona yoldaş Stalin vermişdi. Əlbəttə, Mir Cəfər Bağırovun özü də 37-38-dən sonrakı bütün yüksək vəzifəli partiya və dövlət xadimləri kimi, yoldaş Stalinin ovucunda idi, amma nə qədər qəribə olsa da, yoldaş Stalinin özünün də Mir Cəfər Bağırova ehtiyacı var idi: bütün Azərbaycan Mir Cəfər Bağırovdan qorxurdu və bu dəhşətli qorxu hissinə görə də hamı yoldaş Stalini sevməyə məcbur idi; Azərbaycan şairləri yoldaş Stalini tərifləməkdə bir-biri ilə bəhsə girirdi ki, Mir Cəfər Bağırovun diqqətini cəlb etsinlər, orden alsınlar, deputat seçilsinlər, Mir Cəfər Bağırov onlardan razı qalsın, çünki xalq düşməni kim ifşa olunmuş Hüseyn Cavidin də, Mikayıl Müşfiqin də aqibəti onların gözünün qabağında idi. Azərbaycan

tarixində saray şairləri şahları, hökmdarları o qədər tərifləməmişdilər ki, nə qədər cəmi bircə ayda Azərbaycan sovet poeziyası yoldaş Stalini tərifləyirdi; mətbuatda dərc edilən fotomontajlarda yoldaş Stalin bir günəşə bənzədilirdi, Azərbaycan isə iki əllərini də o günəşə doğru uzadıb, gələcəyin maddi və mənəvi qələbələrinə doğru irəliləyirdi.

Komissar ilk gənclik çağlarında dəllək olsa da, təbiəti etibarilə küt adam deyildi, bütün bunları bilirdi və burasını da yaxşı başa düşürdü ki, çox bilir, çox bilməyin isə aqibəti onun gözünün qabağında idi; Komissar bilirdi ki, onun çox bildiyini Mir Cəfər Bağırov da yaxşı bilir və Mir Cəfər Bağırov belə şeyləri qulaqardına vuran, yaddan çıxaran adam deyil...

Bəli, əbədi yalnız yoldaş Stalin idi, burada isə Mir Cəfər Bağırov idi. Azərbaycan bir böyük şüşənin içinə doldurulmuş hava idisə, Mir Cəfər Bağırov yoldaş Stalinin bu şüşənin ağzına tıxadığı, üstünü də surqucladığı tıxac idi və bu tıxac əbədi idi, çünki yoldaş Stalinin haçansa o tıxacı dartıb o şüşənin ağzından çıxartmağa heç bir mülahizə, heç bir ehtiyac yox idi; bir də ki, o tıxac həmin şüşənin ağzında elə pərçim olub oturmuşdu ki, onu dartıb çıxarandan sonra, əvəzinə yeni bir tıxac pərçim eləyənə kimi, ətrafa hava yayılacaqdı, bu isə heç kimə, ilk növbədə isə yoldaş Stalinin özünə lazım deyildi. Yoldaş Stalin lazım olanda Mir Cəfər Bağırovdan Ittifaq miqyasında da istifadə edirdi və Mir Cəfər Bağırovun yoldaş Stalinlə, indisə, eyni zamanda, Beriya ilə xüsusi yaxınlığını bildikləri üçün, Ittifaq komissarları, hətta Siyasi Büro üzvləri ondan ehtiyat edirdilər.

Cəmi il yarım bundan əvvəl, o zamankı SSRI Xalq Ədliyyə komissarı Nikolay Vasilyeviç Krılenko nüfuzlu bir adam idi, hamı bilirdi ki, o Leninin yaxın silahdaşıdır, sovet ədliyyəsi sahəsində böyük nəzəriyyəçidir, amma SSRI Ali Sovetinin ilk sessiyasında Mir Cəfər Bağırov Krılenkoya elə hücum çəkdi ki, axırı Ədliyyə komissarı üçün çox pis qurtardı.

Mir Cəfər Bağırov sessiyadakı çıxışında dedi: «–Yoldaş Stalin demişdir – kadrlar hər şeyi həll edir. Kadrları diqqətlə seçmək, yetişdirmək, irəli çəkmək və yeni kadrlar hazırlamaq Xalq Ədliyyə Komissarlığının bilavasitə vəzifəsidir. Yoldaş Krılenko bu məsələlərlə məşğul olmur. Xalq Ədliyyə Komissarlığının rəhbərliyi özünə qarşı böyük təşəbbüskarlıq və ciddi münasibət tələb edir. Əgər əvvəllər yoldaş Krılenko vaxtının əsas hissəsini turizmə və alpinizmə sərf edirdisə, indi bütün vaxtını şahmat oyununa həsr edir. Mən bizim ölkəmizdə idmanın bütün növlərinin, o cümlədən, turizmin də, alpinizmin də, şahmatın da inkişaf etdirilməsinin böyük tərəfdarıyam. Lakin mən Xalq Ədliyyə Komissarlığı kimi mühüm bir komissarlığın işində və rəhbərliyində kiçicik zəifləmə ilə belə, eləcə də yoldaş Krılenkonun rəhbərlik etdiyi komissarlığın işinə qeyri-ciddi münasibətilə barışa bilmirəm. Biz, hər halda, özümüz üçün aydınlaşdırmalıyıq ki, söhbət kimdən gedir və yoldaş Krılenkonun simasında kimi görürük – alpinisti, yoxsa ədliyyə komissarını? Bilmirəm, yoldaş Krılenko özünü daha artıq dərəcədə kim hesab edir, amma ədliyyə komissarı kimi o, çox pisdir. Mən inanıram ki, yoldaş Molotov Xalq Soveti Komissarlarının yeni heyətini Ali Sovetə təqdim etdikdə bunu nəzərə alacaq».

Molotov bunu nəinki nəzərə aldı, hətta öz çıxışında Mir Cəfər Bağırova xüsusi istinad etdi. SSRI Ali Sovetinin ilk deputatlarını Mir Cəfər Bağırovun üslubunda güldürdü: «Nelzya ne priznat reç tov. Baqirova vpolne obyektivnoy. On ukazal v otnoşeniye tov. Krılenko, narkoma yustitsii, ne tolko, na nedostatki, no i na

polojitelnıye storonı, koqda on qovoril nasçot alpinizma, turizma i şaxmatnoqo dela».

Sessiyadan sonra lap qısa bir müddət keçdi, düz bir il bundan əvvəl – 1938-in əvvəllərində, gərək ki, yanvar idi, bilavasitə Yejovun əmri ilə bu şahmat həvəskarını – Krılenkonu həbs etdilər, keçmiş ədliyyə komissarını ittiham etdilər ki, Buxarin, Pyatakov və Preobrajenski ilə birlikdə sovet hökumətinin, şəxsən yoldaş Stalinin əleyhinə qəsddə iştirak edib – yazıq bütün bunların hamısını boynuna aldı, məhkəmə cəmi 20 dəqiqə çəkdi və Krılenkonu güllələdilər.

Komissar burasını da yaxşı bilirdi ki, Rudzutakın, Kosiorun, Eyxelin, Postışevin – çoxlarının xalq düşməni kimi ifşa olunmasında Mir Cəfər Bağırov müstəsna rol oynayıb: Bakıda Mir Cəfər Bağırovun əmri ilə həbs edilən xalq düşmənləri öz ifadələrində terrorçuluq məqsədilə bu adamlarla əlbir olduqlarını göstərirdilər. Həmin ifadələrin alınmasında Mir Cəfər Bağırovun əmri ilə Komissar özü bilavasitə iştirak etmişdi...

Bağırovu tanımayanların və yaxud tanımaq istəməyənlərin, Bağırova yuxarıdan aşağı baxanların aqibəti də Komissarın gözlərinin qabağında idi. Marşal Yeqorov... gözləri ayağının altını görmürdü, Sovet Ittifaqı marşalı idi, elə bilirdi ki, Bağırovla kəllə-kəlləyə gəlmək olar... Aleksandr İliç Yeqorov hələ 1923-cü ildə Qafqaz Qızıl Ordusuna başçılıq elədiyi vaxtlardan Mir Cəfər Bağırovla düz gəlmirdi. Sonralar onların münasibəti açıq ədavətə çevrildi və keçən il bilavasitə Mir Cəfər Bağırovun iştirakı ilə Zaqafqaziya hərbi hissəsinin komandiri A.I. Yeqorovu xalq düşməni kimi ifşa etdilər və güllələdilər.

Indi hara baxırsan Orconikidzenin şəklidir. Hamı ürəyi xəstə olduğu üçün həyatdan vaxtsız getmiş Orconikedzenin– yoldaş Stalinin ən yaxın silahdaşının, mətin bolşevikin xatirəsini əziz tutur, amma Komissar bunu da yaxşı bilirdi ki, hələ 35-də, 36-nın əvvəllərində Azərbaycanda ifşa edilən xalq düşmənlərindən, Mir Cəfər Bağırovun əmri ilə Orconikidzenin əleyhinə ifadələr alınırdı; bu ifadələrdə göstərilirdi ki, Azərbaycanda fəaliyyət göstərən əks-inqilabçılara – «Azərbaycan kontrevolyusion burjua – nasionalist təşkilat»a, «Azərbaycan kontrevolyusion nasionalist mərkəz»ə, Moskvada yaradılmış Mərkəz rəhbərlik edir və həmin Mərkəzin də başçısı Orconikidzedir. Mir Cəfər Bağırov bu ifadələrin əsasında yazdığı gizli məktubları birbaşa yoldaş Stalinin özünə göndərirdi.

Hələ də ayaq üstə dayanıb yoldaş Stalinin divardan asılmış şəklinə baxan Komissar bütün bunlardan xəbərdar idi və ürəyi də nigarançılıqla dolu idi.

Mir Cəfər Bağırov Komissarın ağarmış sifətinə baxa-baxa gülümsədi və:

– Yaxşı şəkildir... – dedi.

Komissar udqundu və:

– Bəli, Mir Cəfər Abbasoviç! – dedi. – Yaxşı şəkildir!

– Otur!

Komissar yerində oturdu; şair Hüseyn Caviddən tutmuş, professor Çobanzadəyəcən Azərbaycanda on minlərlə xalq düşmənlərinin, o cümlədən, Mir Cəfər Bağırovla bir yerdə işləyən yüzlərlə partiya və dövlət xadimlərinin, hələ inqilabdan əvvəl partiya sıralarına soxulmuş yüzlərlə düşmənin ifşasında və onların aradan qaldırılmasında Mir Cəfər Bağırovun yaxın silahdaşlarından biri olan bu adam hələ də yoldaş Stalinin şəkli ilə bağlı sualın mənası barədə fikirləşirdi. O tərəfdən də hava haqqında sual... Maşınla gəzmək söhbəti...

Komissar bilirdi ki, hələ də dustaqxanalarda istintaq altında yatan və xalq düşməni olduqlarını boyunlarına alan adamlardan birini onun üzünə durquzmaq, Komissarın özünü ifşa etmək Mir Cəfər Bağırov üçün bir stəkan su içmək kimi bir şeydir. Mir Cəfər Bağırov axşam oturub birlikdə piti yediyi, sağlığına qədəh qaldırdığı, gələcəkdə birlikdə görəcəkləri işlər barədə söhbət etdiyi adamı, gecə əmr verib tutdururdu– Komissar dəfələrlə bunun şahidi və iştirakçısı olmuşdu. Düzdü, Beriya özü şəxsən Komissarı tanıyırdı, ona etibar edirdi, amma bu tanışlıq, bu etibar Bağırovla Beriya arasındakı dostluğun müqabilində heç nə idi – Komissar bunu da yaxşı bilirdi və həmişə də yadında saxlayırdı.

Komissar bilirdi ki (və beləcə çox bilməyi hərdən Komissarın özünü dəhşətə gətirirdi!..), hələ Azərbaycanda Sovet hakimiyyəti qurulmazdan əvvəl Beriya Bakıda Azərbaycan Demokratik Respublikasının – Müsavat hökumətinin əks-kəşfiyyat xəfiyyə idarəsində xidmət edib və yəqin ki, partiyanın gizli tapşırığı ilə bu işə girib... Nə isə, bu barədə nəinki danışmaq, heç fikirləşmək də düz deyildi... Bu bir sirri-xuda idi və artıq heç zaman aydınlaşmayacaqdı: Merkulov Müsavat dövrü ilə bağlı Bakıdakı bir zirzəmidə saxlanan (Komissar bir neçə dəfə o zirzəmidə olmuşdu və Merkulov gedəndən sonra bunun qorxusunu xüsusi çəkirdi; Komissar bu barədə fikirləşəndə o zirzəminin qəbir rütubətini bütün ruhu və vücudu ilə hiss edirdi) sənədlərin də hamısını Moskvaya aparmışdı. Merkulovun Bakıya gizli səfəri ilə Mir Cəfər Bağırov şəxsən özü məşğul oldu...

Mir Cəfər Bağırovla Beriyanın dostluğu o vaxtdan – onuncu illərin sonlarından başlamışdı və 1921-ci ilin fevralında Bağırov Azərbaycan Fövqəladə Komissiyasının sədri təyin olunan kimi, Lavruşa Beriyanı (Lavrenti Pavloviçi) öz yanına gətirdi, əvvəlcə Azərbaycan Fövqəladə Komissiyası məxfi operativ hissə rəisi, sonra özünə müavin etdi. Beriya Bağırovun rəhbərliyi altında Sovet hakimiyyətinin düşmənlərinə qarşı mübarizədə özünü göstərə bildi, Bağırovun təkidi və xasiyyətnaməsi ilə Gürcüstün Fövqəladə Komissiyasına keçdi. 1927-ci ildəki, Azərbaycanın indiki xalq düşmənləri kimi ifşa olunmuş rəhbərləri yoldaş Mir Cəfər Bağırovu inzibati orqanlardan uzaqlaşdırmaq istədilər, Zaqafqaziya Su Təsərrüfatı Idarəsinin rəisliyinə məsləhət gördülər, onda Mir Cəfər Bağırov da öz növbəsində Beriyanın köməyi ilə iki ildən sonra adı dəyişmiş köhnə vəzifəsinə qayıtdı – yenidən Azərbaycan Dövlət Siyasi Idarəsinin rəisi oldu. Bir ildən sonra Moskvaya getdi, marksizm– leninizm kurslarında oxudu, ÜIK(b) P MK-da işləməyə başladı və artıq ÜIK(b)P Zaqafqaziya Ölkə komitəsinin birinci katibi olmuş L.P. Beriya yoldaş Stalinlə Bağırov arasında ünsiyyət yaratdı. 1933-cü ilin sonunda Mir Cəfər Bağırov Azərbaycan K(b) P MK-nın və Bakı komitəsinin birinci katibi seçildi və ən gülməlisi də, əlbəttə, buradakı «seçildi» sözü idi...

Bütün bu hadisələrin hamısı Komissarın gözlərinin qarşısında baş vermişdi. Komissar bu hadisələrin müşayiətçisi yox, iştirakçısı olmuşdu və bütün bu müddət ərzində yoldaş Bağırova sədaqətlə xidmət etmişdi, yarı sözdən Bağırovu başa düşmüşdü, ona görə də Azərbaycan Xalq Daxili Işlər komissarı təyin olunmuşdu və yoldaş Bağırov öz şəxsi düşmənlərinin, zəhləsi gedən adamların çoxunu Komissarın əli ilə o biri dünyaya göndərmişdi...

O biri dünya gözəl bir dünyadı, cəhənnəm əzabı bu dünyadadı...

Komissarın ürəyinin ən dərin guşələrində, o dərinlikdə ki, hər dəfə özü də ora enməyə qorxurdu, bax, orada, o dərin guşə qədər də dərin bir təəssüf hissi var idi.

Azərbaycanda Sovet hakimiyyəti qurulanda o da gərək o ağıllı adamlara qoşulub qaçıb çıxıb gedəydi, bu cəhənnəmdən uzaq olaydı... Indi hansı bir gözəl Avropa ölkəsindəsə (Fransada, yaxud Almaniyada. Yox, Almaniya yox, çünki Almaniyada da Hitler var idi, ora da başdan-ayağı siyasət ocağı idi, qorxu-ürkü idi... Ora yox... Isveçrədə, Isveçdə, o uzaq və uzaq olduğu qədər də xoşbəxt – hayıf, orada yaşayan axmaqlar o xoşbəxtliyi başa düşmürlər – adada – Islandiyada...) kiçik bir dəllək salonu var idi, bəlkə də dəllək salonu yox, lap restoranı var idi... Gecənin yarısı tumanını batırmayacaqdı ki, indi Bağırovun adamları gəlib onu aparacaq və onun səsi də işgəncədən it kimi zingildəyən o dustaqların səsinə qatışacaq... Indi qorxusuz-ürküsüz bir ölkədə, bir kiçicik restoran yarımqaranlığında bir küncdə oturub müştərilərinə tamaşa edə bilərdi, bir tərəfdən də asta-asta yüngül, qayğısız, intim (!) bir musiqi çalınaydı...

O zaman ki, Mir Cəfər Bağırovu Zaqafqaziya Su Təsərrüfatı Idarəsinin rəisi təyin etmişdilər, onda keçmiş Azərbaycan Demokratik Respublikasının başçısı və Müsavat Partiyasının lideri Məhəmməd Əmin Rəsulzadə mühacirətdə olduğu dövrdə Türkiyə mətbuatında yazmışdı: «Azərbaycan xalqının cəlladı Bağırovu Su Təsərrüfatına başçı qoymuşlar, zənn edirəm ki, Zaqafqaziya çaylarının suları Azərbaycan oğullarının qanına bulaşmış əllərini yuyub təmizləməkdə ona kömək edəcəkdir...».

Məhəmməd Əmin Rəsulzadənin bu sözlərini Mir Cəfər Bağırov özü bir neçə dəfə misal gətirmişdi– bəzən qəzəblə, bəzən də gülə-gülə və onun o gülüşü şaxta kimi adamı yandırırdı.

Məhəmməd Əmin Rəsulzadə bu sözləri hələ on-on bir il bundan əvvəl demişdi, hələ 37 də, 38 də irəlidə idi; indi də 39 başlayıb...

Məhəmməd Əmin indi, görəsən, nə deyir? Ona nə var ki, qorxusu yox, ürküsü yox, kardonun o tərəfində... Nə arvadının aqibətindən qorxur, nə anasının, nə də bacısının. Uşaqlarının taleyindən də nigaran deyil...

Kardonun o tərəfində rahatca oturub çaxır içə-içə Bağırovu söymək (hətta yoldaş Stalini də!) asandır, amma gəl özün bu qazanın içində qayna, onda görək necədir halın?..

Nə isə...

Mir Cəfər Bağırov hərdənbir məclislərdə konyak içib bir az keflənəndə birdən Beriyanı yadına salırdı: «– Qde moy Lavrenti?» – deyirdi, əvvəllər Tiflisə, indi isə, Moskvaya – Beriyanın evinə zəng çalırdı, telefonla onun sağlığına badə qaldırırdı.

Komissar bunu da bilirdi ki, Beriya SSRI Xalq Daxili Işlər Komissarı təyin olunandan sonra, ilk tədbirlərdən biri də budur ki, Moskvada, Krapotkin küçəsində, çekistlərin yaşadığı binanın bütün sonuncu mərtəbəsini – yeddi otaqlı böyük mənzili Mir Cəfər Bağırova verir: Moskvaya gələndə mehmanxanada yox, MK-nın qonaq evində yox, öz mənzilində qalsın... Hər halda, çekistlər arasında belə şayiə gəzirdi və uzun illərin təcrübəsi nəticəsində Komissarın qulaqları ən qısadalğalı radio antennası kimi bir şeyə çevrilmişdi: kiçicik şayiələri də o saat tuturdu.

Əlbəttə, Mir Cəfər Bağırov ilə Lavrenti Pavloviç Beriya dost idilər, özü də bu yalançı dostluq, siyasət xətrinə dostluq yox, həqiqi dostluq idi, amma bu həqiqətlə bərabər, bunlar elə adamlardı və taleyin hökmü ilə elə bir yüksək mərtəbədə dayanmışdılar ki, münasibətləri, bir-birinin əlindən tutması, bir-birinə arxa olması yalnız həmin dostluğun (həqiqi dostluğun!) nəticəsi ola bilməzdi; başqa bir səbəb də

var idi və Komissar bunu aşkar hiss edirdi: əslində, Beriya özü də Bağırovdan qorxur və Beriya istəsəydi də Bağırovu məhv edə bilməzdi, çünki Bağırov, yoldaş Stalinin əlində Beriyanın özünə qarşı saxladığı bir kart idi. Bağırov Beriya haqqında çox bilirdi və Bağırovun Beriya haqqında belə çox bildiyini yoldaş Stalin bilirdi...

Aydın məsələdir, Mir Cəfər Bağırov, yoldaş Stalinin Molotov kimi, Mikoyan kimi, Voroşilov, Kaqanoviç, Kalinin, Andreyev, Jdanov kimi (indi isə Beriya kimi!) yaxın əsabəsi deyildi, amma sevimlisi idi, qiymətləndirdiyi adam idi və buna heç bir şəkk-şübhə yox idi. Komissar hər dəfə Moskvada olanda, SSRI Xalq Daxili Işlər Komissarlığında Mir Cəfər Bağırova xüsusi hörmətin şahidi olurdu, hətta Bağırova yaxın adam olduğu üçün Komissarın özünə də hörmət edirdilər, bəzən lap yaltaqlanırdılar... Əlbəttə, yoldaş Stalinə görə, daha doğrusu, yoldaş Stalinin Mir Cəfər Bağırova münasibətinə görə...

Bəli, belə idi işlər... Mir Cəfər Bağırov qayğıkeş bir bağban kimi, elə bil ki, Beriyanı – indi pensie taxdığı gözləri ilə bütün Sovet Ittifaqına baxan irili-xırdalı şəkilləri yoldaş Stalinin şəkilləri ilə yanaşı, idarələrin, müəssisələrin divarlarından asılmış, adı yoldaş Stalinin ən yaxın silahdaşları və şagirdləri sırasında çəkilən Lavrenti Pavloviç Beriyanı cücərtdi, bəslədi və gələcəkdə daha artıq, daha vüsətli inkişaf etməkdən, qol-budaq atmaqdan ötrü onu qüdrətli (və fəhmli!) bir aqronoma – yoldaş Stalinə təhvil verdi...

Mir Cəfər Bağırov mizin üstündəki karandaşları yenə də ovcuna yığdı və yerindən qalxıb otaqda var-gəl eləməyə başladı və onun bu hərəkəti Komissarın bütün içini yeyən şübhələrini daha da artırdı: Mir Cəfər Bağırov, adətən, əsəbiləşəndə var-gəl edirdi, hətta iclas vaxtı rəyasət heyətində oturanda da bəzən yoldaş Stalin kimi durub gəzinirdi.

Mir Cəfər Bağırov kabinetin pəncərəsi qarşısında ayaq saxladı, iri əlləri arasındakı karandaşları bir-birinə sürtdü və o karandaşlar şaqqıldadıqca, Komissar daha artıq bir nigarançılıqla gözaltı yoldaş Stalinin divardan asılmış şəklinə nəzər saldı, sonra yenə arxasını ona tərəf çevirmiş Mir Cəfər Bağırova baxdı. Əlbəttə, Mir Cəfər Bağırov bircə dəqiqənin içində Komissarın illərdən bəri göstərdiyi sədaqəti, xidməti unuda bilərdi və o zaman hər şey qurtarardı, Komissar istintaq altında yatan (hələlik yatan...) minlərlə xalq düşmənindən birinə çevrilərdi, lap elə həmin Ostaşko kimi.

Ostaşko Bakı partiya komitəsinin keçmiş katibi, Mir Cəfər Bağırovun yaxından tanıdığı, az qala, hər gün görüşdüyü partiya işçisi idi və xalq düşməni kimi ifşa olunmuşdu. Ostaşko Rudzutakın, Postışevin və Kosiorun əleyhinə ifadə verməli idi, onlarla əlbir olduğunu, yoldaş Stalinə qarşı terrorçu planların hazırlanmasında iştirak etdiyini imzalamalı idi. Mir Cəfər Bağırov bu işi şəxsən Sumbatov-Topuridzeyə tapşırmışdı və Komissar yaxşı bilirdi ki, Mir Cəfər Bağırov hər hansı bir işi Sumbatov-Topuridzeyə – uzun müddət Azərbaycanda orqanlarda rəhbər işlərdə işləyib, Bağırova şəxsi xidmət göstərən ən yaxın və iş bacaran bir adama, Beriyanın yaxın dostuna tapşırırsa, deməli, bu iş xüsusi əhəmiyyətə malik idi, ifadə Moskvaya göndəriləcəkdi.

Yuvelian Davıdoviç Sumbatov-Topuridze həmin 1937-ci ildə Azərbaycan SSR Xalq Daxili Işlər komissarı idi və saçını həmişə ülgüclə dibindən qırxdıran – elə bil ki, qarpız kimi girdə başında ömründə tük bitməyib – bu adam Azərbaycanda Sovet hakimiyyəti qurulduğu 1920-ci ildən etibarən Mir Cəfər Bağırovun əlinin altında

işləmişdi. Sumbatov-Topuridze də prokuror Vışınski kimi, köhnə menşevik idi. 1927-ci ildə Azərbaycan K(b) P MK-nın o zamankı katibi Əliheydər Qarayevin (indi xalq düşməni kimi ifşa olunub güllələnmişdi) təkidi ilə Mir Cəfər Bağırov Azərbaycan Fövqəladə Komissiyasının sədrliyindən götürülüb, Zaqafqaziya Su Təsərrüfatı rəisi təyin edildikdə, Sumbatov-Topuridzeni də orqanlardan kənar etdilər, amma 1929-cu ildə Mir Cəfər Bağırov yenidən Azərbaycan Baş Siyasi Idarəsinin sədri təyin edildi və dərhal da Sumbatov-Topuridzeni orqanlara qaytardı.

SSRI Ali Sovetinin ilk deputatlarından biri olan bu dazbaş adam Ostaşkonu şəxsən dindirmişdi və nəhayət, ifadə imzalanmışdı, amma bir gündən sonra, Ostaşko imzaladığı ifadəsindən imtina etmişdi, imza atanda özündə olmadığını demişdi. Ostaşko milliyyətcə rus idi, rəhbər partiya işçisi idi və buna görə də onun verəcəyi ifadənin xüsusi əhəmiyyəti var idi.

Mir Cəfər Bağırovla Komissar (onda hələ komissar deyildi) gecə saat on ikidə Sumbatov-Topuridzenin kabinetinə girəndə Ostaşko orada idi. Komissar əvvəlcə Ostoşkonu tanımadı, vaxtı ilə tez-tez görüşdüyü, birlikdə Bakı zəhmətkeşlərinin bayram nümayişlərini qəbul etdiyi bu adam iyirmi üç günün içində o qədər dəyişmişdi ki, onu ilk baxışdan tanımaq mümkün deyildi: üz-gözü şişib qançır bağlamışdı, partlamış dodaqları açıq qalmışdı, əlləri, ayaqları əsirdi.

Ostaşko kabinetə girən Mir Cəfər Bağırovu görən kimi özünü onun qabağında yerə atdı, xırıltılı bir səslə: «– Kak xoroşo çto vı prişli... Kak xoroşo çto vı prişli... Tovariş Baqirov. Tovariş Baqirov... Vı niçeqo ne znayete o koşmarax v NKVD. Eto ujas... Vı ne mojete sebe daje predstavit, tovariş Baqirov. Kak xoroşo çto vı prişli... U menya vımoqayut priznaniye v kontrrevolyutsennıx prestupleniyax. Vı je znayete menya. Kakoy je ya kontrrevolyutsioner? Kak xoroşo çto vı prişli. Tut fabrikuyet dela na rukovoditeley partii, pravitelstva, na soratnikov tovarişa Stalina. Pomoqite. Pomoqite, tovariş Baqirov. Razve naşa sovetskaya kontrrazvedka...» O zaman Mir Cəfər Bağırovun sifətindən Komissarın canına üşütmə salan bir təbəssüm keçdi və Mir Cəfər Bağırov təpiyi ilə vurub Ostaşkonu özündən uzaqlaşdırdı, açıq-aşkar bir narazılıqla Sumbatov-Topuridzeyə baxdı. Iki nəfər çekist Ostaşkonun qollarından yapışıb sürüyə-sürüyə qonşu otağa apardı və oradan bir müddət Ostaşkonun heyvan kimi anqırtısı eşidildi. Səhəri gün Sumbatov-Topuridze yenidən imzalanmış ifadəni Mir Cəfər Bağırovun mizinin üstünə qoydu və Ostoşko da daha bu ifadədən imtina etmədi.

Sovet komsomolunun Aleksandr Kosarev kimi dünənə qədər adlı-sanlı başçısı, hətta rəhbəri – hamı ona yoldaş Stalinin varisi kimi baxırdı – 1937-ci ildəki məruzələrindən birində: «Bizim bir sıra yoldaşlar trotskiçiləri – xalq düşmənlərini hər yerdə axtarırlar, lakin öz aralarında, komsomolda axtarmırlar və buna görə də düşmənlə mübarizəni lazımi dərəcədə sərt aparmırlar, komsomol fəallarının sıralarını trotskiçi və digər əksinqilabi elementlərdən tələb olunan bir fəallıqla təmizləmirlər!» – deyə canfəşanlıq edirdi, amma bu sözləri deməyindən heç bir il keçməmiş, Mir Cəfər Bağırovun köməyi və bilavasitə iştirakı ilə Kosarevin özünü tutub xalq düşməni kimi ifşa etdilər və güllələdilər.

Mir Cəfər Bağırov Azərbaycanın hökmdarı idi, amma əli uzun idi, lazım olanda gedib Moskvaya da çatırdı və onun üçün, əslində, yoldaş Stalindən başqa, bir də ki, Beriyadan başqa ayrı bir nüfuz sahibi yox idi.

Indi bu qış axşamı Mir Cəfər Bağırovun qarşısında oturmuş Komissar qətiyyən şübhə etmirdi ki, gicgahının tükləri ağarmış, burnunun altında ensiz, amma qalın bığına da dən düşmüş birinci katib, Ostaşkoya vurduğu o təpikdən birini də onun sifətinə endirə bilər.

Mir Cəfər Bağırov yenidən öz yazı mizinin arxasına qayıtdı və:

– Hə... – dedi. – Təzə nə var?

Komissar həyəcandan açıq-aşkar titrəyən barmaqları ilə özündən asılı olmayaraq, qovluğun içindəki ən sonuncu vərəqi dartıb çıxartdı. Bu kağızdakı məlumat bilavasitə Mir Cəfər Bağırovun özünə aid idi və Komissar, əslində, bu məlumatı lap axıra saxlamışdı. 37-38-ci illərdə xalq düşməni kimi ifşa olunub güllələnmiş Ruhulla Axundov, Əliheydər Qarayev, Qəzənfər Musabəyov, Dadaş Bünyadzadə, Sultan Məcid Əfəndiyev, Ayna Sultanova, Hüseyn Rəhmanov, Həmid Sultanov, Məmməd Cuvarlı və başqa keçmiş partiya, dövlət rəhbərləri istintaqın ilk çağlarında Mir Cəfər Bağırov haqqında iftiralar söyləyirdilər və həmin iftiralar bu kabinetdə verilən məlumatlarda ilkin olaraq söylənirdi (şahidsiz söylənirdi!), sonra, əlbəttə, həmin xalq düşmənləri taqsırlarını boyunlarına alırdılar, sovet hökumətinin əleyhinə terrorçuluqla məşğul olduqlarını və Azərbaycan bolşeviklərinin sınanmış rəhbəri yoldaş Mir Cəfər Bağırov haqqında düşünülmüş iftira söylədiklərini etiraf edirdilər. Vaxtıyla iclaslarda görünəndə hamının ayağa qalxıb əl çaldıqları (indi hamı ayağa qalxıb Mir Cəfər Bağırova əl çalırdı!) bu nüfuzlu adamların – Azərbaycanın keçmiş partiya və dövlət rəhbərlərinin istintaq zamanı döyülüb nə günə düşdüyünü Komissar öz gözləri ilə görmüşdü. Zaqafqaziya Xalq Komissarları Sovetinin sədri Qəzənfər Musabəyov səs eşidən kimi, kameradakı dəmir çarpayının altına girirdi və onu oradan çıxarıb növbəti istintaqa aparmaq müsibət olurdu... Komissar burasını da bilirdi ki, vaxtilə Qəzənfər Musabəyovgillə Mir Cəfər Bağırovgil Qubada qonşuluqda yaşamışdılar və Qəzənfərin anası öz çağası ilə – Qəzənfərlə bərabər, Mir Cəfəri də döşləriylə əmizdirmişdi. Mir Cəfər Bağırov təkcə Qəzənfər Musabəyovu tutdurmamışdı, Qəzənfərin bacısı, Azərbaycan SSR Xalq Ədliyyə Komissarı Ayna Sultanovanı da, Aynanın əri, respublikada müxtəlif komissarlıqlara rəhbərlik etmiş Həmid Sultanovu da (onların hamısı inqilabdan əvvəl partiyanın üzvləri idi) tutdurub güllələtmişdi və nəhayət, öz süd anasını – Qəzənfərgilin anasını da həbs elətdirib Bayıl həbsxanasına saldırmışdı. Döyülüb ağzı-gözü qana bulaşmış o qoca arvadın Bayıl həbsxanasında qışqıra-qışqıra: «Ay Allah, Mir Cəfərə bu döşümdən verdiyim südü haram elə! Onu dünya işığına həsrət qoy!» – deyə qarğış yağdırmağını da Komissara çatdırmışdılar. Ayna Sultanova isə güllələnəndə: «–Stalinin adı ilə ölürəm» – demişdi.

Azərbaycan Mərkəzi Icraiyyə Komitəsinin sədri, ZSFSR Mərkəzi Icraiyyə Komitəsi sədrlərindən biri, SSRI Mərkəzi Icraiyyə Komitəsi sədrinin – «ümumittifaq ağsaqqalı» M.Kalininin müavini Sultan Məcid Əfəndiyevi isə Mir Cəfər Bağırovun orqanlarındakı ən yaxın silahdaşlarından, inandığı adamlardan biri – Borşev və «Boksyor» ləqəbli müstəntiq Musatov dindirirdi və vurduğu hər zərbədən sonra «Boksyor» ləzzətlə soruşurdu: «–Hə, «prezident», boynuna alırsan terrorçuluğunu, yoxsa yox?..»

Sadəlövh Sultan Məcid... Elə bilirdi Bağırovun əlindən qurtara biləcək, yoldaş Stalinə arxalanırdı... Yoldaş Stalinlə 1907-ci ildən tanış idi, Bakıda birlikdə gizli fəaliyyət aparmışdılar, sonralar – Sovet hakimiyyəti qurulduqdan sonra Sultan

Məcid Moskvada Şərq Xalqları Kommunist Təşkilatları Mərkəzi Bürosu sədrinin müavini idi və yenə də yoldaş Stalinlə birgə işləyirdilər. Elə ki, Mir Cəfər Bağırov Sultan Məcidi sıxışdırmağa başladı, bu sadəlövh qoca yoldaş Stalinə və Kalininə məktublar yazdı, arvadı Zivər xanımın vasitəsilə Moskvaya göndərdi, məktublar ünvana yetişdi, Zivər xanım köhnə tanışları N.Krupskaya ilə görüşüb söhbət etdi, N.Krupskaya xüsusi olaraq yoldaş Stalinin yanına getdi və bütün bunların nəticəsi o oldu ki, Sultan Məcidi burjua millətçisi və terrorçu kimi güllələdilər, çıxıb getdi işinin dalınca... Sadəlövh qoca... Kalininə ümid edirdi... Kalinin öz canının hayında idi və imkan tapanda da, tapmayanda da yoldaş Stalinə yaltaqlanırdı. Mir Cəfər Bağırov isə kefinin kök vaxtlarında Kalinini «Keçisaqqal» deyə çağırırdı.

37–38 daha qurtarmışdı, daha Qəzənfər Musabəyov, yaxud Sultan Məcid Əfəndiyev kimi tanınmış və nüfuzlu adamlar qalmamışdı, onların hamısı cəzasına çatıb ləğv edilmişdi, ailələri sürgünə göndərilmişdi. Indi həbs edilən xalq düşmənlərinin ifadəsində Mir Cəfər Bağırovun adına rast gəlmək olmurdu, rast gələndə də məhbuslar bu adı ehtiramla çəkirdilər, onlar barədə qaldırılan cinayət işinin əsassız olduğunu yoldaş Mir Cəfər Bağırova çatdırmağı xahiş edirdilər. Bugünkü məlumat isə bir az başqa cürə idi.

Komissar əlindəki kağıza baxa-baxa udqundu və:

– Bu gün bir nəfər, xalq düşməni kimi həbs olunub... – dedi. Mir Cəfər Bağırov çeşməyinin girdə şüşələri arxasından diqqətlə Komissara baxdı və sidq-ürəkdən təəccüb etdi, yəni nə olsun ki, bir nəfər xalq düşməni həbs edilib.

Komissar bu naqolay vəziyyəti hiss etdi və nəsə demək istədi, amma cümləsini dəqiq qura bilmədi:

– Sizlə... Sizi...

Mir Cəfər Bağırov birdən-birə gülümsədi:

– Nədi, söyüb məni?– soruşdu.

Komissar tələsik:

– Yox, yox, – dedi. – Sizin sağlığınıza içməkdən imtina edib.

Mir Cəfər Bağırov eləcə gülümsəyə-gülümsəyə o bir dəstə karandaşı yenə də iri əllərinin arasına alıb, bir-birinə sürtdü.

– Kimdir?

Komissar gözlərini kağızdan çəkməyərək:

– Müəllimdir. – dedi. – Xosrov Ələkbərli...

– Hardandır?

– Əsli Hadrutdandır, özü indi Bakıda yaşayır...

– Hadrutdan?

– Bəli.

– Bu cür düşmənlər idi də, Hadrutda taunu yayan... – Mir Cəfər Bağırov ayağa qalxıb kabinetdə var-gəl eləməyə başladı və bu adamın kobud cizgili sifətində bayaqkı təbəssümdən əsər-əlamət qalmamışdı.

– Harada olub bu əhvalat?

– Dünən axşam. Məktəb müdirinin qızının ad günündə.

– Kim çatdırıb?

– Bu gün məktəb müdirinin özü zəng eləyib rayon partiya komitəsinə xəbər verib.

Bu dəfə karandaşların şaqqıltısı, elə bil ki, daha da bərkdən gəldi və hələ də özü ilə bağlı şübhələrdən yaxa qurtarmamış Komissar susub Mir Cəfər Bağırovun növbəti sualını gözlədi.

– O kimdir?

– Məktəb müdiri, Mir Cəfər Abbasoviç? Famili Babazadədir.

Mir Cəfər Bağırov ayaq saxladı:

– Nə?

– Famili Babazadədir, Mir Cəfər Abbasoviç. – Komissar gözünü kağızdan çəkib Mir Cəfər Bağırova baxdı və başa düşdü ki, yoldaş Bağırov bu adamı tanıyır.

Mir Cəfər Bağırov soruşdu:

– Ələsgər Babazadə?

– Bəli, Mir Cəfər Abbasoviç. Iyirmi ilə yaxındır ki, məktəb müdiri işləyir... – Komissar məktəb müdirinin Mir Cəfər Bağırovla yerli olduğunu da qeyd etməyi lazım bildi (məlumat üçün bu kabinetə girməmişdən əvvəl burada adı çəkiləcək adamlarla bağlı bütün göstəriciləri öyrənirdi): – Əsli qubalıdır. Yoldaşlar onu çox yaxşı xarakterizə edirlər...

Qəribə idi, neçənci hadisəydi ki, kimsə birdən-birə Mir Cəfər Bağırovun yadına düşür, axşam, ya gecə isə, eləcə də gözlənilmədən həmin adamın adı pırtlayıb bu cür qovluqların, kağızların arasından çıxırdı.

Yenə birdən-birə o uzaq uşaqlıq çağları yada düşdü. «Qulliverin səyahəti» kitabının bütün bu illər ərzində unudulub getməmiş xoş təsirini yenidən hiss etdi, amma o xoş təsirdə bir nisgil var idi və həyətdəki alma bağının bir küncünə qısılıb hirsindən ağlayan o uşaq, Mir Cəfər Bağırovun gözlərinin qabağına gəldi. Düzdü, Mir Cəfər Bağırov heç vaxt özünü tənha hiss etmirdi, amma hərdən uşaqlıq çağlarını xatırlayanda bütün içinə bir həsrət yayılırdı və illər keçdikcə bu həsrət də artırdı: o gözəl, o qayğısız uşaqlıq çağları bir də heç vaxt geri qayıtmayacaqdı, çünki əbədi bir keçmişdə qalmışdı...

Mir Cəfər Bağırov təzədən yazı mizinin arxasına keçdi və hər dəfə Komissarı üşüdən soyuq ifadə ilə:

– O necə məktəb müdiridir ki, terrorçuları evinə yığır?– soruşdu.

Komissar dərhal:

– Düzdür, Mir Cəfər Abbasoviç, – dedi, elə bil ki, söhbət indicə tərifədiyi adamdan getmirdi.

Komissar üçün hər şey aydın idi: məktəb müdiri terrorçu kimi güllələnməli idi. Məsələ burasında idi ki, 1 dekabr 1934-cü il qanununa görə terrorçuluqda təqsirləndirilən adamlar dərhal güllələnirdi, onların müdafiə olunmağa, bağışlanmaq haqqında müraciət etməyə ixtiyarı yox idi. Mir Cəfər Bağırovun orqanlarda işləyən yaxın silahdaşlarından biri – Atakişiyev, tabeliyində olan əməliyyat işçilərindən həmişə tələb edirdi:

«– Dayte v priznaniyax kusoçek terrora.» Mir Cəfər Bağırovun, eləcə də Beriyanın Azərbaycandakı şəxsi düşmənlərinin hamısı terrorçu kimi güllələnmişdi.

... Həmin gecə saat bir ilə iki arası, Mir Cəfər Bağırovun «Azneft»in rəhbərləri ilə hələ də müşavirə apardığı vaxt Ələsgər müəllim də, Kələntər müəllim də, Firidun müəllim də, Əlibaba müəllim də və Xıdır müəllimin özü də bir-bir evlərində yuxudan oyadılıb terrorçu kimi həbs olundu və ailələri bir daha o adamları görmədi.

## 9

## «OLUM, YA ÖLÜM?»

Bakının qərb tərəfində yerləşən Keşlə həbsxanasında bir kamerada on iki nəfər idi: Şair idi, Dramaturq idi, dörd professor idi – Ədəbiyyatşünas, Folklorçu, Filosof və Dilçi, – Nəşriyyat müdiri idi, Məktəb müdiri idi, Kitabxanaçı idi, Redaktor idi, Xosrov müəllim idi, bir də Bir Nəfər.

Bu Bir Nəfərin danışığı dolaşıq idi, sözündən gah belə çıxırdı ki, partiya işçisidi, gah belə çıxırdı ki, Azneftdə mühəndisdi, gah da belə çıxırdı ki, Qızıl Orduda siyasi işçidi (daha doğrusu, idi!); hər halda, qalan on bir nəfər o Bir Nəfərə etibar etmirdi, ondan çəkinirdi, onun yanında sözünü, söhbətini kəsirdi. Bunun sövq-təbii bir səbəbi bəlkə də onda idi ki, Bir Nəfər sifətdən Mir Cəfər Bağırova oxşayırdı: eynilə bir boyda, sifətlərinin quruluşu oxşar, oxşar burun, oxşar çənə, oxşar ensiz, amma cod tüklü bığ, hətta oxşar girdə şüşəli çeşmək...

Şair bu Bir Nəfəri kamerada ilk dəfə görəndə diksinmişdi və öz-özünə fikirləşmişdi ki, bu ki, bu dərəcədə Mir Cəfər Bağırova oxşayır, hansı qurd ürəyi yemiş bunu tutub xalq düşməni kimi bu kameraya soxmağa cürət edib?..

O Bir Nəfər çaşbaş danışsa da, hərdən yersiz suallar versə də, görünür, Keşlə həbsxanasında gedən istintaq onun şəxsiyyətini tamam sındırmamışdı və kamera yoldaşlarının şübhəsini hiss edib bununla barışmışdı, and-aman eləmirdi, kamerada bəraət almağa çalışmırdı, yerində uzanıb gözlərini çeşməyinin girdə şüşəsi arxasından tavana zilləyirdi. Istintaq zamanı onu çox döyəndə, həmin şübhəyə («Yalandan döyüblər ki, bunun vasitəsilə bizdən söz alsınlar...») baxmayaraq, kameradakılar Bir Nəfərə də kömək eləməyə çalışırdılar, onu taxtına uzadırdılar, üz-gözünün qanını silirdilər.

Düzdü, məhbuslar (??? – bu adamların hüquqi vəziyyəti müəyyən deyildi; onlar kim idi: məhbus? istintaq altında yatan? cinayətdə şübhələnən şəxs? şahid? – məlum deyildi, amma onların hamısını birləşdirəcək bir məfhum var idi: xalq düşməni!) bu Bir Nəfərə kömək edirdilər, amma gecə, ya gündüz istintaqa çağrılıb, təzədən kameraya gətiriləndən sonra da, onun həqiqi məhbusluğuna inanmırdılar, onlara elə gəlirdi ki, Bir Nəfərin istintaq zamanı aldığı yaralar da onları inandırmaq üçündür; elə bil ki, Mir Cəfər Bağırova bu qədər oxşayan bir adam heç vaxt həqiqi məhbus ola bilməzdi, o Şairin, o Dramaturqun, yaxud Redaktorun, Kitabxanaçının taleyini bölüşə bilməzdi...

Istintaq isə hər gün, daha doğrusu, daima davam edirdi, çünki burada gün, sutka məfhumu yox idi, kameradakı adamlar (məhbuslar?!) gecə-gündüz hər hansı bir vaxt istintaqa çağırıla bilərdilər və çağırılırdılar da. Onlardan Sovet hökumətinin, şəxsən yoldaş Stalinin əleyhinə birgə mübarizə apardıqları adamların adını tələb edirdilər və onları tanımadıqları, bilmədikləri adlardan ibarət siyahıların altına qol çəkməyə məcbur etmək istəyirdilər (və çəkdirirdilər!), Mir Cəfər Bağırova qarşı qəsddə iştirak etdiklərini boyunlarına qoyurdular.

Bu kamera dünyadan, yəni hara istəsən gedə biləcəyin küçələrdən, istədiyin vaxt başını qaldırıb baxa biləcəyin göydən, istədiyin vaxt əlini uzadıb toxunacağın ağacdan o qədər uzaqda idi ki, buranın sement divarlarına, döşəməsinə, tavanına bir quyu ümidsizliyi hopmuşdu, o quyu o qədər dərin idi ki, ağzı görünmürdü və o

quyunun dibindən başını qaldırıb lap ölənə qədər bağırsaydın da səni eşidən olmayacaqdı, çünki sən xalq düşməni idin və sən bunu inkar etmək, kiməsə nəyisə başa salmaq üçün yox, bunu təsdiq etmək üçün kameraya salınmışdın.

Amma bu kamerada da dünya kimi, bir gəldi-gedərilik var idi, bir tərəfdən dolur, bir tərəfdən boşalırdı. Elə ki, qapı açılırdı, familiyanı çağırıb:

– Istintaqa, – deyirdilər, deməli, doğrudan da, istintaqa aparırdılar.

Familiyanı çağırıb:

– Şeyləri götür!– deyirdilərsə, deməli, məhbusu hara isə aparırdılar, hətta belə bir dəli ümid var idi ki, bəlkə də azad edirdilər...

Elə ki, yalnız familiya çağırılırdı və daha heç nə əlavə edilmirdi, heç bir əmr verilmirdi, bu, dəhşət idi, bu, elə bir dəhşət idi ki, quyunun o dibi də o dəhşətin yanında, heç olmasa, nəfəs almaq, ağlamaq, inildəmək üçün yararlı bir yer idi; familiyanı çağırıb heç nə əlavə etmirdilərsə, bu o demək idi ki, məhbusu güllələnməyə aparırlar. Məhbus bunu bilirdi, qışqırırdı, özünü yerə çırpırdı, təqsirkar olmadığını deyirdi, kameradakı o biri məhbusların əlindən, ayağından yapışıb buraxmaq istəmirdi, hətta sidiyi, nəcisi şalvarını bulayırdı və onu qollarından yapışıb bağırda-bağırda, sürüyə-sürüyə kameradan çıxarırdılar. Məhbus da var idi ki, elə bil, lal olurdu, elə bil, qurma yay ilə hərəkət edən mexanizmə çevrilirdi, dinməz ayağa qalxırdı, dinməz kameradan çıxırdı. Məhbus var idi ki, söyürdü, nəhayət ki, ürəyini boşaltmağa məqam tapırdı və bəlkə də ömründə dilinə gətirmədiyi ən pis küçə söyüşləri ilə keşikçilərə hücum edirdi və süpürləşə-süpürləşə üç-dörd nəfər köməkləşib onu kameradan çıxarırdı. Məhbus da var idi ki, ayağa qalxırdı, bir müddət susub (bəlkə hələ də nəyəsə ümid edib?!):

– Mənim vicdanım təmizdir!– deyirdi. – Yaşasın yoldaş Stalin!

O kameradakı məhbuslar, düzdü, daha insan deyildilər, amma insanlar kimi o məhbuslar da müxtəlif idilər.

Bu kameradan, bu quyu dibindən kənardakı həyatda – o yerdə ki, istədiyin vaxt tramvaya minə bilərsən, istədiyin vaxt suyu qızdırıb çimə bilərsən, istədiyin vaxt sahilə gedib dənizin səsinə qulaq asa bilərsən, bax, orada bəzən qəribə, hətta ağlasığmaz, heç bir məntiqlə uyuşmayan hadisələr baş verirdi və o ağlasığmaz hadisələrdən biri də bu idi ki, Ələsgər müəllim də, Kələntər müəllim də, Firidun müəllim də, Əlibaba müəllim də, Xıdır müəllimin özü də həbs olunub terrorçu kimi tələsik güllələndikləri halda, Xosrov müəllim hələ də istintaq altında idi...

Xosrov müəllim o yazıqlardan bir neçə saat əvvəl, tək həbs olunmuşdu və zəmanə elə zəmanə idi, o qədər tutulan var idi ki, görünür, Xosrov müəllimin cinayət işi tələsik güllələnmiş o terrorçular dəstəsindən ayrı düşmüşdü və ümumiyyətlə, istintaq zamanı müstəntiq Məmmədağa Ələkbərov Xosrov müəllimi terrorçu kimi ittiham etmirdi; Xosrov müəllim adi xalq düşməni idi. Qəribədir, müstəntiq Ələkbərovun ya o güllələnmiş terrorçular dəstəsindən xəbəri yox idi, ya o dəstəni yadından çıxarmışdı, hər halda, bu barədə heç nə demirdi və o zaman Xosrov müəllim üçün burada təəccüblü bir şey yox idi, çünki Xosrov müəllimin özünün o terrorçular dəstəsindən xəbəri yox idi, Ələsgər müəllimin də, Kələntər müəllimin də, Firidun müəllimin də, Əlibaba müəllimin də, Xıdır müəllimin də güllələndiyini, həmin o Keşlə həbsxanasında yatdığı günlərdə məktəbdə dalbadal «izhari-nifrət» mitinqlərinin keçirilməsini, o terrorçu müəllimlərə lənətlər yağdırılmasını, Cümşüdlünün hər gün gəlib məktəbdəki o «izhari-nifrət»

mitinqlərində iştirak etməsini, Arzunun hər gün xitabət kürsüsünə qalxıb Ələsgər müəllimin iç üzünü açmasını, onu ifşa etməsini, atasının zirzəmidə gizlətdiyi o kitabları tapıb əşyayi-dəlil kimi «Pavlik Morozovçular dəstəsi»nə təhvil verməsini və bütün dəstə üzvləri ilə birlikdə vaxtıyla Əvəz bəyin bağışladığı o kitabları, o qədim əlyazmalarını yandırmasını bilmirdi...

Kamerada, əslində, həmişə on üç məhbus olurdu (bu kameranın norması belə idi) və dünənə kimi («dünən» məfhumu bu kamerada «bu gün» və «sabah» məfhumları kimi, tamam şərti idi, burada zaman vahidi eyni idi, «dünən»siz, «bu gün»süz və «sabah»sız idi...) bu kamerada da on üç məhbus var idi, amma dünən gecə on üçüncü o məhbusu – xalq çalğı alətləri orkestrinin bədii rəhbəri idi və istintaq zamanı qışqırmaqdan səsi batmışdı, özü də pis apardılar, familiyasını çağırdılar və daha heç nə demədilər, o məhbus isə özünü yerə atdı, batmış səsiylə çığıra-çığıra, dırnaqları ilə kameranın sement döşəməsini qaşıyıb, nədənsə yapışmaq, kamerada qalmaq istəyirdi, amma o bədbəxt oğlunu ayaqlarından tutub sürüyə-sürüyə apardılar.

Kameraya on üçüncü yeni məhbusu gətirəcəkdilər və kamera heç zaman qurtarmaq bilməyən bir ümidlə o on üçüncü məhbusu gözləyirdi – o on üçüncü məhbus bu quyu dibindən kənardakı o uzaq həyatdan nəsə yeni bir xəbər gətirə bilərdi; hər dəfə kameraya salınan o on üçüncü məhbus (adamlar dövrə vururdu, dəyişirdi, o on üçüncü məhbus da həmişə kameraya gətirilən axırıncı dustaq olurdu...) elə bil ki, qəzet kimi bir şey idi və gətirəcəyi xəbərlər saysız-hesabsız məhkəmə iclaslarından, dünənə qədər rəhbər sayılan, böyük alim, böyük yazıçı, qabaqcıl təsərrüfatçı sayılan və sayı tükənməyən, qurtarmaq bilməyən xalq düşmənlərini ifşa edən yığıncaqlardan, «izhari-nifrət» mitinqlərindən savayı, o quyunun dibində nəsə kiçicik bir nur səpələyən işıqdan da bəhs edə bilərdi...

Qapı açıldı və Şair də, Dramaturq da, Ədəbiyyatşünas da, Folklorçu da, Filosof da, Dilçi də, Nəşriyyat müdiri də, Məktəb müdiri də, Kitabxanaçı da, Redaktor da, Xosrov müəllim də, o Bir Nəfər də cırıltısına heç cürə alışa bilmədikləri bir nigarançılıqla qapıya tərəf baxdılar: indi kimin familiyasını çağıracaqdılar və familiyadan sonra nə deyəcəkdilər (deyəcəkdilərmi?)?

Amma heç kimin familini çağırmadılar, iki nəfər keşikçi on üçüncü yeni məhbusu qollarından tutub sürüyə-sürüyə bir kisə torpaq kimi kameranın ortasında sementin üstünə atdılar və həmin cırıltıyla da qapını örtdülər, qıfılını çəkib bağladılar və addımlarının əks-sədası həbsxananın dəhlizindən bütün kameralara yayıla-yayıla getdilər.

O on üçüncü məhbusu, görünür, əvvəlcə istintaqa aparıb, sonra bu kameraya gətirmişdilər və o adamı o qədər döymuşdülər, işgəncə vermişdilər ki, – ingilis casusu idi? yoxsa buxarinçi idi? bəlkə trotskiçi, yaxud maskalanmış müsavatçı idi, bəlkə qəddar pantürkist idi (bəlkə elə hamısından idi?) və bunları boynuna almaq istəmirdi?– elə bil, heç inildəməyə də halı yox idi, yaxınlaşıb onu qaldırmaq, ona kömək eləmək istəyən Şairə, Dramaturqa, Ədəbiyyatşünasa, Folklorçuya, Filosofa, Dilçiyə, Nəşriyyat müdirinə, Məktəb müdirinə, Kitabxanaçıya, Redaktora, Xosrov müəllimə və o Bir Nəfərə baxdı, sonra təzədən Dramaturqa baxdı və qançır olub şişmiş göz qapaqlarının altından gülümsədi.

Bu adamın sifəti elə bir gündə idi ki, onu tanımaq mümkün deyildi, amma bu sifət həm tanış idi, həm də təpiyin, yumruğun altında yadlaşmışdı, amma buna baxmayaraq, Şair onu tanıdı və həyəcanla:

– Hamletdir!.. – qışqırdı. – Hamletdir! Yavaş olun! Yavaş qaldırın! Bu, Hamletdir!..

Bu kameradakılar da o on üçüncü məhbusu yalnız indi tanıdı. Azərbaycanda bütün xalqın sevə-sevə Hamlet adlandırdığı (səhnədə Hamletin unudulmaz surətini yaratdığı üçün) o artistin əsl adı, əsl familiyası, elə bil ki, Bakının qərb hissəsindəki Keşlə həbsxanasının o kamerasında hamının yadından çıxdı, elə bil ki, o on üçüncü məhbusu, doğrudan da, orta əsrlərdən, Danimarkadakı Elsioner qəsrindən tutub gətirib bura atmışdılar.

Və bir müddətdən sonra, Hamlet yerində dikəldi, yenə də bir-bir Şairə, Dramaturqa, Ədəbiyyatşünasa, Folklorçuya, Filosofa, Dilçiyə, Nəşriyyat müdirinə, Məktəb müdirinə, Kitabxanaçıya, Redaktora, Xosrov müəllimə və o Bir Nəfərə – tamaşaçılarına baxdı, bu adama elə bil ki, hardansa bir qüvvə, bir şövq gəldi və o ayağa qalxmaq istədi, amma ayağa qalxa bilmədi, yerində dizlərinin üstündə oturdu, onun şişib qançır-qançır göyərmiş simasına, elə bil ki, birdən-birə bir işıq gəldi və Hamlet çox məhbuslar görmüş, çox ah-nalələr eşitmiş o kameranın belə yəqin ki, divarlarına həmişəlik hopacaq, hətta sement döşəməsini, tavanını da dəlib keçəcək bir səslə Cəfər Cabbarlının tərcüməsində öz şah monoloqunu söyləməyə başladı:

– Olum, ya ölüm... Budur məsələ! Hankı daha şərəflidir? Düşmən qəzanın bu ağır toqaqlarına dayanmaq və ya fəna silabinin coşğun dalğalarına qarşı qoyub onu qorutmaq, əzmək... Yer üzündən qaldırmaq, ölmək, uymaq, bu qədər... Qəlbin iztirablarını, yaranmışların nəsibi olan minlərlə əzabları bir yuxu ilə bitirmək... Belə bir son istənilməzmi?..

Hamlet o kamerada o monoloqu söylədikcə, Xosrov müəllim heç cürə özü ilə bacarmırdı; bütün dünyanı, bütün həyatını, bütün taleyini yadından çıxarmaq istəyirdi, hər şeyi – altı yaşlı Cəfəri də, dörd yaşlı Aslanı da, iki yaşlı Azəri də, Şuşaya gedən o faytonun ardınca bir dolu parç su atan Şirini də, o ölü xoruzu da, o tonqalı da, gecə yatanda qollarını geniş açan Gülzarı da – hər şeyi unutmaq, unutmaq istəyirdi, yalnız Hamletə qulaq asmaq, yalnız Hamletin o monoloqu ilə yaşamaq istəyirdi; yox idi, dünyada nə Əflatun müəllimlər, nə də Xıdır müəllimlər, yalnız Hamlet var idi... amma Xosrov müəllim heç nəyi unuda bilmirdi və fikir dəli bir ehtirasla onu istintaqda keçirdiyi saatlara çəkirdi, yenə də müstəntiq Ələkbərovla üz-üzə gətirirdi...

... Müstəntiq Məmmədağa Ələkbərov tez-tez ətli dodaqlarını yalayırdı və istintaq otağında kiçik yazı mizinin üstündəki elektrik lampasının işığını düz Xosrov müəllimin gözlərinin içinə salıb:

– Deməli, belə... – deyirdi, sonra hər biri kiçicik bir çəllək kimi ətli barmaqlarını bir-bir mizin üstündə oynada-oynada soruşurdu: – Hadrutda rus dilində ərizələr yazmağını boynuna alırsan?

Müstəntiq Ələkbərov Xosrov müəllimin bütün tərcümeyi-halına bələd idi və Xosrov müəllim təəccüb edirdi ki, bu adamlar ki, təkcə bir onun barəsində bu qədər məlumat toplayırlar, bəs yerdə qalan o saysız-hesabsız xalq düşmənlərini ifşa etməyə necə vaxt tapırlar?

– Hə, boynuna alırsan də ki, Hadrutda rus dilində ərizələr yazırdın?

Xosrov müəllim udqunurdu, gur işığa görə heç nə görməyən gözlərini yumurdu, yenə udqunurdu, uzun hülqumu nazik boğazında enib-qalxırdı, başı ilə dediklərini təsdiq edə-edə:

– Yazırdım... – deyirdi.

Müstəntiq Məmmədağa Ələkbərov Xosrov müəllimin bu etirafından ləzzət alırdı, ətli dodaqlarını yalaya-yalaya, üçqat buxağını qaşıya-qaşıya bərayi-ehtiyat bir də soruşurdu:

– Deməli, yazırdın?

– Yazırdım...

– Kimə yazırdın?

– Camaat gəlib xahiş edirdi, mən də yazırdım...

– Yox, yox, bir dəqiqə!.. – Müstəntiq Ələkbərov ətir iyi verən yumşaq və ətli barmağını Xosrov müəllimin uzun burnunun qabağında saxlayırdı. – Bir dəqiqə dayan!.. Bilirsən ki, məni azdırmaq mümkün deyil! Mən Ələkbərovam, başa düşdün? Müstəntiq Ələkbərov! Başa düşdün, yoxsa yox?! – Və müstəntiq Ələkbərov qadın kimi gülürdü. – Mən səndən soruşuram ki, o ərizələri kimin adına yazırdın? Sualıma cavab ver!

– Rəhbərlərin adına...

Müstəntiq Ələkbərov ciddiləşirdi və elə bil ki, bir sıçrayışla qarşısındakını məhv edəcəkdi, soruşurdu:

– Buxarinin adına yazırdın?

– Nə bilim?..

– Hə, yoxsa yox?

– Bəlkə də...

– Bəlkəni əkiblər, əvəzinə noxud bitib! – Müstəntiq Məmmədağa Ələkbərov çiyinlərini ata-ata gülürdü.– «Bəlkə» olmaz! Hə, yoxsa yox?! Cavab ver!

– Ola bilər!

– Deməli, hə! Rıkovun da adına ərizə yazırdın?

– Rıkov Xalq Komissarları Sovetinin sədri idi də...

– Aha! Deməli, yazırdın!

– Camaat xahiş edirdi... Hərənin bir dərdi-səri var idi... Xahiş edirdilər, mən də hökumətin sədrinə yazırdım də...

– Bax, belə... Gör nə açılır iç üzün sənin? Adamı belə danışdırarlar! Müstəntiq Ələkbərovdan heç nə gizlətmək mümkün deyil!.. Deməli, Buxarindən, Rıkovdan kömək istəyirdin, hə? Zəhmətkeşlər arasında təbliğat aparırdın ki, Buxarin, Rıkov sizə kömək edəcək, hə? Cavab ver, hə?

Xosrov müəllim susurdu, arıq boğazının uzun hülqumu enib-qalxırdı, birdən deyirdi:

– Axı... Axı, yoldaş Stalinin də adına ərizələr yazırdım! Ən çox yoldaş Stalinin adına yazırdım!

Yoldaş Stalinin adı hər dəfə belə anlarda Keşlə həbsxanasındakı o istintaq otağına gərgin bir sükut gətirirdi və o sükut içində Xosrov müəllim müstəntiq Ələkbərovun mütəkkə kimi yoğun bədənində ürəyinin, elə bil ki, birdən-birə narahat döyüntüsünü eşidirdi. O sükut davam edirdi, müstəntiq Ələkbərov nə deyəcəyini bilmirdi və qəflətən Xosrov müəllimin üzünə tüpürürdü..

– Əclaf oğlu, əclaf! Məni provakasiyaya çəkmək istəyirsən?!

O bir lopa tüpürcək Xosrov müəllimin üzündən süzülüb dizlərinə qoyduğu əlinin üstünə tökülürdü...

– Ölmək... Uymaq... Uymaq?.. Bəlkə də röyalar görmək? Budur, işdə məsələnin çətin yeri... Həyatın boranları keçdikdən sonra bu ölüm yuxusunda biz nələr görəcəyik? Budur yolun keçidini kəsdirən, budur bizi uzun həyatın sürüntülərinə məcbur edən!.. Buna görədir ki, fəlakət bu qədər sürəklidir...

O fəlakət, elə bil ki, Hamleti yenidən titrətdi və eyni zamanda, Hamletə daxili bir güc gəldi, Hamlet yerindən tərpəndi, dırnaqları gömgöy qançır bağlamış yalın ayaqlarını kameranın sement döşəməsinə qoydu, taxtın üstündən qalxdı və o dəm Hamletin sifətindəki o yaralar görünmürdü, o dəm gözlərinə gəlmiş işıq sifətinə yayılmışdı və həmin işıqlı gözləri ilə bir-bir Şairə, Dramaturqa, Ədəbiyyatşünasa, Folklorçuya, Filosofa, Dilçiyə, Nəşriyyat müdirinə, Məktəb müdirinə, Kitabxanaçıya, Redaktora, Xosrov müəllimə və o Bir Nəfərə baxdı, Hamletin o işıqlı gözləri elə bil ki, o quyunun dibində o adamların ürəyinə ılıq, hətta isti bir şüa saçdı, eyni zamanda, o ürəkləri qəhərlə doldurdu, o qəhər onların boğazına pərçim olub qaldı.

– Yoxsa dünyanın bu zülm fəsadına, hökmranların təkəbbürünə, güclülərin təhqirinə qaytarılmış, tapdanmış bir eşqin acı iztirablarına, qanunların boşluğuna, hakimlərin utanmazlığına, rəzillərin xidmətlərinə qarşı coşan nifrətlərə kim dayanmaq istərdi? Halbuki bir xəncər bizi bunların hamısından əbədilik qurtara bilər!..

... Müstəntiq Məmmədağa Ələkbərov ətli dodaqlarını yalayırdı, üçqat buxağını qaşıyırdı və ətli barmaqları ilə kiçik yazı mizinin üstündə qarşısına qoyduğu kitabı vərəqləyirdi. Bu, Veniamin Kaverinin «Konets xazı» kitabı idi, Xosrov müəllimi evdən aparanda axtarış zamanı Hadrutdan (həyatının Hadrut parçasından!) o yeganə yadigarı müsadirə etmişdilər və indi istintaq zamanı həmin kitab onun əksinqilabi fəaliyyəti ilə bağlı əşyayi-dəlil idi.

– Deməli, belə... Bu kitab sənindir, hə?

– Bəli...

– Əlbəttə, sənindir!.. Bunu necə danasan. Hə?

– Mən danmıram ki...

– Dana da bilməzsən!

– Bəli... Mənimdir, mənim kitabımdır, danmıram...

– Istintaqa kömək eləmək istəyirsən, ona görə danmırsan? Xeyr!.. – Müstəntiq Məmmədağa Ələkbərov ətir iyi verən barmağını Xosrov müəllimin gözlərinin qabağına gətirib hədələyirdi. – Xeyr! Ona görə boynuna alırsan ki, başqa əlacın yoxdur!.. Müstəntiq Ələkbərov səni divara dirəyib!.. Oxumusan bu kitabı?

– Bəli...

– Neçə dəfə oxumusan?

– Bir dəfə...

– Düzünü de!

– Düzünü deyirəm də...

– Sən dedin, müstəntiq Ələkbərov da inandı, hə? Cəmi bir dəfə oxumusan, hə?

– Bəli...

– Danmaq istəyirsən, hə? Istintaqı səhv yola yönəltmək istəyirsən? Baxarıq!.. Hardandı səndə bu kitab?

– Bağışlayıblar...

– Kim bağışlayıb?

– Professor Zilber... Bu kitab onun qardaşının kitabıdır... Professor Zilber Hadrutda bağışlayıb mənə...

– Yəhudidir?

– Bilmirəm...

– Deməli, bilmirsən, hə?.. Yaxşı... «Çeloveku uvidevşeqo i perejivşeqo ad.» Bunu sənə yazıb də?

– Bəli...

– Bu yazını da ki, sən oxumusan?

– Hansı yazını?

– «Çeloveku uvidevşeqo i perejivşeqo ad.»

– Əlbəttə, oxumuşam...

– Bax, belə!.. Deməli, xalq sosializm qurur, amma sən cəhənnəmdə yaşayırsan də?! Sovet Ittifaqı, Sovet Azərbaycanı sənin üçün cəhənnəmdir, hə? Cavab ver, tez cavab ver! Hə, yoxsa, yox? Fikirləşmə! Cavab ver!

– Yox... O vaxt Hadrutda taun epidemiyası var idi...

– Bəlkə elə yəhudilərə qoşulub o epidemiyanı sən özün yaymısan Hadrutda, hə?

– O adam Hadrutu taundan qurtardı... – Xosrov müəllim bu sözləri söyləyəndə professor Zilberin sifəti gözlərinin qabağına gəldi, elə bil ki, professor Zilber yenə də Hadrut xəstəxanasında olduğu kimi, gəlib Xosrov müəllimin çarpayısının kənarında oturmuşdu... Müstəntiq Ələkbərov mizin üstündəki elektrik lampasının işığını Xosrov müəllimin gözlərinə salmışdı, amma Xosrov müəllim bu dəm o Keşlə həbsxanasının istintaq otağında o gur işıqla yox, professor Zilberlə üz-üzə oturmuşdu və professor Zilber yenə də tauna qarşı mübarizə aparırdı, çünki professor Zilber səhv etmişdi, professor Zilber elə bilirdi ki, tauna qalib gəlib, amma taun davam edirdi...

Və Xosrov müəllimin xəbəri yox idi ki, professor Zilber də xalq düşməni kimi həbs olunub, xəbəri yox idi ki, bu – artıq professor Zilberin Hadrutdan sonrakı həyatında ikinci həbsdir: birinci dəfə 1934-də həbs edildi, ikinci dəfə (yəni indi...) yaz-yay gənə ensefalitinin virusunu kəşf etdikdən sonra həbs edildi və sonralar – 1940-cı ildə hələ bir dəfə də həbs ediləcəkdi... Əlbəttə, Xosrov müəllim falabaxan deyildi və bütün bunlardan xəbərsiz idi.

Xosrov müəllim bilmirdi, amma müstəntiq Ələkbərov professor Zilberin xalq düşməni kimi həbs olunduğunu bilirdi və dilini qalın dodaqlarına çəkə-çəkə:

– Elə bilirsən heç nədən xəbərimiz yoxdur?.. – deyirdi. – Neçə dəfə oxumusan bu kitabı, boynuna al?! Neçə dəfə?..

– Bir dəfə oxumuşam...

Müstəntiq Məmmədağa Ələkbərov yenə bir an susurdu və yenə də birdən-birə Xosrov müəllimin üzünə tüpürürdü:

– Əclaf oğlu, əclaf! Istintaqı azdırmaq istəyirsən? Svoloç!..

Xosrov müəllimin sifəti elə bil ki, zibil yeşiyi idi, müstəntiq Məmmədağa Ələkbərov hirslənib tüpürmək istəyəndə, ora tüpürürdü.

– Acı həyatın ağır cəbrini nifrət və göz yaşlarıyla kim daşımaq istərdi? Yalnız bir qorxu... Orada nə olacaqdır?.. Orada... O bilinməz vadidə ki, oradan bu vaxta

qədər kimsə qayıtmamışdır... İradə sarsılır və bizi bilinməz bir aləmə atılmaqdansa acı iztirablara dayanmağa məcbur edir. Qorxaq fikrin müdhiş etirafı, qəti bir iradənin iti boyası, təfəkküratın zülmətinə qarşı solur. Düşündükcə tələsik həyəcanların cəsarəti sönür... Fikir işə keçməyir... Sus, Ofeliya! Gözəl pəri, öz dualarında mənim də günahlarımı xatırlat...

Artist məhbus idi, tamaşaçılar məhbus idi, yalnız Şekspir bütün dövrlərin Şekspiri idi, Şekspir əbədi bir azadlıq içində idi, onun üçün keçilməz divar, aşılmaz sərhəd yox idi və müstəntiq ələkbərovların tüpürcəkləri arasından da, Hamletin bədənindəki o qançırların gömgöylüyü içində də Şekspir o quyunun dibinə gəlib çıxa bilirdi...

Sonra Hamlet gülümsədi, gülümsəyə-gülümsəyə yerində səndirlədi, amma yıxılmadı, özünü saxlaya bildi, əlini uzadıb, guya ki, tamaşaçılardan bir dəstə gül aldı, o gül dəstəsini iylədi, sinəsinə sıxdı və dedi:

– Bu, mənim səhnədə aldığım sonuncu gül dəstəsidir!..

Hamlet yerinə tərəf addım atmaq istəyəndə dizi büküldü, üzü üstə sementin üstünə yıxıldı, burnu, dodaqları partladı, qan ağzının suyuna qarışıb sementə yayıldı. Şair cəld onun qolundan tutub qaldırdı və Hamlet bu cavan Şairə baxa-baxa, elə bil ki, o monoloqunun davamını söylədi:

– Əlini məndən çək, zavallı!.. Məgər sən mənim kim olduğunu bilmirsənmi? Mən xalqın düşməniyəm, mən terrorçuyam, mən casusam!.. Əlini çək, yoxsa bir xəstəlik kimi, sənə də yoluxar!.. Əlini çək, Şair!.. Ah, zavallı!.. Yoxsa artıq sənə də yoluxub bu xəstəlik?..

Hamletin gözündəki o işıq artıq Danimarka şahzadəsinin yox, qızdırmalı xəstə bir təfəkkürün işıltısı idi.

Şair, Hamleti öz yerində uzatdı.

Elə bir sükut çökdü ki, Keşlə həbsxanasındakı o kamerada heç zaman belə bir sükut olmamışdı.

Nə qədər keçdi? Bir saat? Üç saat? Beş saat?

Sonra qapının qıfılı yenə də cingildədi, qapı yenə də cırıldadı və Hamletin familiyasını çağırdılar, daha heç nə əlavə etmədilər.

Hamletin durub getməyə taqəti yox idi, iki keşikçi onun qoltuğundan yapışdı və ayaqları sementin üstü ilə sürünə-sürünə Hamleti apardılar.

Hamlet bir kəlmə də söz demədi, sonuncu tamaşaçıları ilə vidalaşmadı. Bəlkə də Hamlet heç bilmirdi ki, hara gedir...

Yenə qapı cırıldadı, qıfıl bağlandı.

O kameraya yenə sükut çökdü və həmin sükut içində Filosof pıçıldadı:

– Görəsən, Lenin sağ qalsaydı, indi onu da həbs edərdilər?..

Bu pıçıltını kameradakıların hamısı eşitdi, amma daha heç kim qorxmadı; qorxmadı ki, bu pıçıltını keşikçilər də eşidər...

Və ömrünü marksizmə həsr etmiş Filosofun aylardan bəri Keşlə həbsxanasındakı o kamerada hovlanmış qızdırmalı zehni dəqiq cizgilərlə, aydın rənglərlə Marksın, Engelsin simasını onun gözlərinin qarşısında canlandırdı və Filosofa elə gəldi ki, Marks da, Engels də, onunla birlikdə Keşlə həbsxanasındakı o kamerada məhbusdur, yəni tamamilə hüquqsuz, dünyanın hər hansı bir qanun-qaydasından kənar edilmiş, tamam bir ümidsizlik və kimsəsizlik içində olan məxluqdur, Marksa, Engelsə də Hamletə verdikləri kimi, işgəncə verirlər – dişlərini

sındırırlar, dırnaqlarının altına iynə yeridirlər, təpiklə vurub qabırğalarını sındırırlar, partlamış dodaqlarının qanı saqqallarından süzülüb axır...

Müstəntiq Məmmədağa Ələkbərov Marksın, Engelsin də üzünə tüpürür, onlardan da tələb edir ki, yapon-alman casusları olduqlarını boyunlarına alsınlar, trotskiçi, pantürkist, müsavatçı olduqlarını, yoldaş Mir Cəfər Bağırovu öldürmək istədiklərini, bilavasitə yoldaş Stalinə qarşı çevrilmiş terrorçu sui-qəsddə iştirak etdiklərini boyunlarına alsınlar...

və Filosofun qızdırmalı zehni qızmar bir günəş altında Karl Marksı, Fridrix Engelsi ağappaq əhəng çəkilmiş daş bir hasarın qarşısında gördü, ikisinin də kürəyi o ağappaq hasara söykənmişdi, ağappaq köynəkləri cırılmışdı və çılpaq sinələri güllə gözləyirdi, Filosof tüfəngləri görmürdü, amma bilirdi ki, o çılpaq sinələrə tüfənglər tuşlanıb...

və Filosof o görünməyən tüfənglərin sahiblərinə qışqırmaq istəyirdi ki, bunlar Marksdır, Engelsdir, bunları güllələmək olmaz, bunları güllələməyin, amma səsini çıxara bilmirdi, qorxurdu: tutub özünü güllələyərdilər...

və atəş açılmazdan əvvəl Marks da, Engels də sinələrini daha da irəli verdilər, son güclərini toplayıb əllərini irəli uzatdılar: «– Yaşasın yoldaş Stalin!..» qışqırdılar...

yaşasın yoldaş Stalin!..

yaşasın yoldaş Stalin!..

yaşasın yoldaş Stalin!..

yaşasın yoldaş Stalin!..

. . . . . . .

. . . . . . .

sonra o görünməz tüfənglərin tətiyi çəkildi, Marksın da, Engelsin də sinəsindən qan fışqırdı...

sonra Marks da, Engels də yox oldu, görünməz oldu...

və o ağappaq daş divardakı iri qan ləkələri qızmar günəş altında qıpqırmızı parıldadı...

Və həmin gecə Xosrov müəllim heç vaxt yuxusuna girməyən bir adamı Keşlə həbsxanasındakı o kamerada yuxuda gördü.

Xosrov müəllim bütün ömründə Mir Cəfər Bağırovu cəmi bir dəfə görmüşdü: 1935-ci il aprel ayının 28-də Azərbaycanda Sovet hakimiyyətinin qurulmasının 15 illiyinə həsr olunmuş təntənəli iclasda; raykomdan Cümşüdlü məktəbə üç dəvətnamə göndərmişdi və Ələsgər müəllim o dəvətnamələrdən birini Xosrov müəllimə verməyi məsləhət bilmişdi. O, iclasda böyük zalın axırıncı cərgəsində oturmuşdu, Mir Cəfər Bağırov isə səhnədəki rəyasət heyətində əyləşmişdi, amma tez-tez qəzetlərdə, jurnallarda şəklini gördüyü üçün Azərbaycanda hamıya elə gəlirdi ki, Mir Cəfər Bağırovu yaxından görüb.

Və Keşlə həbsxanasındakı həmin gecə Xosrov müəllim Mir Cəfər Bağırovu yuxusunda gördü: Mir Cəfər Bağırovun sifəti bir zülmət içindən, elə bil ki, dərin, çox dərin bir quyunun dibindən çıxdı, sürətlə yaxınlaşdı və o sifət Xosrov müəllimin qarşısında dayandı. Xosrov müəllim bu sifətə baxdı, girdə çeşmək şüşələrinin arxasından ona zillənmiş o gözlərə baxdı və elə yuxunun içində Xosrov müəllimin bütün bədənini soyuq bir tər bürüdü, çünki Mir Cəfər Bağırovun girdə çeşmək şüşələrinin arxasından zillənmiş gözlərində on il bundan əvvəl Hadrutun dörd

kilometrliyində yanan o tonqalın şöləsi var idi və o şölə taun saçırdı. Xosrov müəllim əllərini irəli tutub, üzünü kənara çevirib o taundan qorunmaq istəyirdi, qaçmaq istəyirdi, amma üzünü hara çevirirdisə də, əllərini nə qədər irəli uzadıb itələmək, özündən uzaqlaşdırmaq istəyirdisə də, girdə çeşmək şüşələrinin arxasından zillənmiş o gözlər ondan əl çəkmirdi, o gözlərin saçdığı taun qapqara mazut kimi Xosrov müəllimin sifətinə, yaxasına yayılırdı və bu zaman uzaqdan elə bil ki, diri-diri o tonqalda yanan altı yaşlı Cəfərin, dörd yaşlı Aslanın, iki yaşlı Azərin qışqırtısı eşidildi və o qışqırtını eşidən Şirin də tonqalda yana-yana canavar kimi uladı...

– Sən taunsan! Taunsan! Taunsan! Taunsan! Sən taunsan! – Xosrov müəllim o gecəyarısı Keşlə həbsxanasındakı o kamerada o Bir Nəfərin yaxasından yapışıb silkələyirdi və var gücü ilə bağırırdı, o Bir Nəfəri – Mir Cəfər Bağırovu didib dağıtmaq, parçalamaq istəyirdi: – Taun! Taun! Sən taunsan! Taun!

Beləcə qeyri-insani cığırtıyla yuxudan oyadılmış o Bir Nəfərin, elə bil ki, səsi batmışdı, bir söz deyə bilmirdi, yaxasını Xosrov müəllimin qaxac, taxta kimi qupquru əllərindən qurtara bilmirdi və az qalırdı boğulsun.

– Taun! Taun! Taun! – Xosrov müəllim dəli kimi qışqırırdı.

Yuxudan oyanıb özünü yetirmiş Şair, Xosrov müəllimi qucaqladı, Xosrov müəllimi kənara çəkməyə çalışdı, amma cavan Şairin buna gücü çatmırdı, Xosrov müəllim isə heç cürə özünə gələ bilmirdi və soyuq tər axan nazik boğazının damarları şişə-şişə həmin qeyri-insani səslə qışqırırdı:

– Taun!.. Taun!.. Taun!..

Xosrov müəllim Bir Nəfəri boğmaq, öldürmək istəyirdi, Şair onunla bacara bilmirdi, sonra Filosof, Redaktor köməyə gəldi və üçü bir yerdə Bir Nəfərin yaxasını Xosrov müəllimin əlindən aldı, Xosrov müəllimi çəkə-çəkə yerinə gətirdi.

Xosrov müəllim tövşüyürdü, ürəyi elə çırpınırdı, elə bil, doğrudan da, indicə sinəsini deşib çıxacaqdı və Xosrov müəllim yavaş-yavaş özünə gəlirdi. Yerindən necə qalxmışdı, o Bir Nəfəri Mir Cəfər Bağırov bilib üstünə necə getmişdi?– yadında deyildi...

Sonra kameraya sakitlik çökdü və o sakitlik içində birdən-birə o Bir Nəfər uşaq kimi hönkürə-hönkürə ağlamağa başladı.

– Bəs SIZ məndən nə istəyirsiniz? SIZ, SIZ axı, SIZ niyə məni incidirsiz?..

Sonra günlərin bir günündə yenə qapının qıfılı cingildədi, qapı yenə cırıldaya-cırıldaya açıldı, Xosrov müəllimin familiyasını çağırdılar və:

– Şeyləri götür, – dedilər, Xosrov müəllimi təxribatçılıqda təqsirləndirib ona on il həbs cəzası kəsdilər, Sibirə, Tomsk vilayətinin Kolpaşevo rayonuna, vaxtilə yoldaş Stalinin sürgün olunduğu Narıma göndərdilər.

Iosif Vissarionoviç Stalin inqilabdan əvvəl Narımda sürgündə olmuşdu, indi isə Iosif Vissarionoviç Stalinin tutduğu adamları Narıma göndərirdilər.

I. V. Stalini 1912-ci ilin yayında Peterburqda həbs edib iyulun axırlarında siyasi dustaq kimi «Kolpaşeve» gəmisi ilə Tomsk şəhərindən Narıma göndərmişdilər. O zaman Tomskda polis idarəsi «Iosif Vissarionoviç Cuqaşvilinin 1912-ci il iyun ayının 8-dən etibarən, açıq polis nəzarəti altında 3 il müddətində Narıma sürgün edilməsi haqqında» yeni bir gizli iş açmışdı. Yoldaş Stalin kəndli Yakov Aqafonoviç Alekseyevin Poloy gölünün sahilindəki balaca taxta evində yaşadı və elə həmin il sentyabrın 1-də Tümenə gedən gəmi ilə Narımdan qaçdı.

Yoldaş Stalindən başqa da bir çox bolşeviklər Narımda sürgündə olmuşdular və yoldaş Stalin o bolşeviklərin köməyi ilə qaçmışdı. Ayrı-ayrı vaxtlarda inqilabi fəaliyyətlərinə görə II Nikolay polisinin Narıma sürgün etdiyi bolşeviklərdən 1898-ci ildən partiyanın üzvü, Lenin öləndən sonra altı il Sovet hökumətinə başçılıq etmiş Aleksey Ivanoviç Rıkov, 1899-cu ildən partiyanın üzvü Aleksandr Vasilyeviç Şotman, yenə də 1899-cu ildən partiyanın üzvü Veniamin Davıdoviç Veqman, onlarla başqaları dəfələrlə Narımda sürgündən qaçmışdı, elə Narımın özündə inqilabi fəaliyyət göstərmişdi, Böyük Oktyabr inqilabının qələbəsindən sonra yüksək partiya və dövlət işlərində işləmiş və 1937-38-ci illərdə xalq düşməni, terrorçu və casus kimi güllələnmişdilər...

Xosrov müəllimin Narımda gördüyü ilk tanış adam Qırmızı Yaqub oldu; bu adam da siyasi dustaq idi. Qırmızı Yaqub qırx beş dərəcə şaxtada üz-gözünü bürümüş əsgi-üsgünün altından güclə eşidilən səsiylə:

– Dedilər ki, guya, mən buxarinçiyəm, məllim... – dedi. – Ancaq zalım uşağı, heç başa salmadılar ki, buxarinçi nə deməkdir... Buxarinçi nə eləyir?.. Nə eləyir ki, belinə 15 il basıb Sibirə göndərirlər?.. Eybi yox, uçitel, biz səninnən taun görmüşük, Sibir nədir ki, biz səninnən, məllim, tauna qalib gəlmişik...

Xosrov müəllim əsgi-üsgü ilə yumaq kimi qalın sarınmış əllərini əllərinə vura-vura yerində hərəkət edən Qırmızı Yaquba baxdı, heç nə demədi, sonra, elə bil ki, o uzaq Sibir torpağında, o buzun, şaxtanın içində Qırmızı Yaqubla yox, özü özü ilə danışdı:

– Yəni qalib dəldiz tauna?..

Bu sual sonralar da Xosrov müəllimin yadından çıxmırdı... O uzaq Sibir torpağında Xosrov müəllimin çox gözlənilməz görüşləri oldu, amma o gözlənilməz görüşlərdən ən unudulmazı 1947-ci ilin yay günlərindən birində Ob çayının (Iosif Vissarionoviç Stalin 1912-ci ilin sentyabrında qayığa minib bu çayla sürgündən qaçmışdı) sahilində baş verdi: Xosrov müəllim Tümen vilayətindən gətirilən siyasi dustaqların arasında Məmmədağa Ələkbərovu gördü.

Bu adam heç arıqlamamışdı.

Məmmədağa Ələkbərov sürgündə ölən müsəlman dustaqların dəfnində mollalıq edirdi və belə bir xidmətə görə hər dustaq öz yemək payından kəsib Məmmədağa Ələkbərova verirdi.

Məmmədağa Ələkbərovdan daha ətir iyi gəlmirdi, amma nəsə başqa bir iy gəlirdi və Xosrov müəllim heç cürə müəyyən edə bilmirdi ki, bu nə iyidir...

Məmmədağa Ələkbərov Xosrov müəllimi tanıdımı, tanımadımı? – Xosrov müəllim bunu bilmədi və özü də bu barədə heç nə demədi və heç nə soruşmadı; amma hərdən Xosrov müəllimə elə gəlirdi ki, bu adamla Mir Cəfər Bağırov qətiyyən bir-birinə oxşamasalar da, xarici görkəm etibarilə və yəqin ki, xasiyyətcə də, şəxsiyyətlərinin miqyasına görə də başqa-başqa insan tipləri olsalar da, əslində, onlara, diqqətlə baxanda, əkiz qardaşlar kimi, bir-birilərinə bənzəyirdilər; hətta Xosrov müəllimə elə gəlirdi ki, Mir Cəfər Bağırov özünü gizlətməkdən ötrü dönüb Məmmədağa Ələkbərov olub... Bəs, Sibirə necə gəlib çıxıb?..

Xosrov müəllim bir küncdə oturub beləcə diqqətlə Məmmədağa Ələkbərova baxırdı, Məmmədağa Ələkbərovu müşahidə edirdi.

Qırmızı Yaqubu da o Ob çayının sahilində Məmmədağa Ələkbərov müsəlman qaydası ilə torpağa tapşırdı və başqa azərbaycanlı, tatar, özbək, çeçen, ləzgi, qazax,

qabardin, balkar, qaraçay, inquş, tacik, qırğız dustaqlar kimi, Xosrov müəllim də öz yemək payının bir hissəsini ayırıb Məmmədağa Ələkbərova verdi.

Xosrov müəllim düz on yeddi ildən sonra, 1956-cı ilin payızında Bakıya qayıtdı, bəraət aldı, amma daha müəllimlik etmədi, qəzet köşkündə oturub qəzet-jurnal satmağa başladı.

Xosrov müəllim o qarlı qış günü tutulub gedəndən sonra Gülzar onunla əlaqə saxlamamışdı (yəqin ki, əlaqə saxlaya bilməmişdi...), gözlərini də yola dikib Xosrov müəllimi gözləməmişdi və bir nəfər dərbəndli sürücüyə ərə gedib Dərbəndə köçmüşdü. Bir dəfə – altmışıncı illərin ortalarında – Xosrov müəllim Bakıya gəlmiş Gülzarla görüşdü və az qala, otuz illik ayrılıqdan sonra o qısa görüş qoca bir arvadla qoca bir kişinin səmimi görüşü idi, elə bil ki, iki yaxın qohum görüşürdü və o qısa, səmimi görüşdən sonra bu iki nəfər bir də heç vaxt bir-birini görmədi, bir-birindən xəbəri olmadı.

## 10

## DAN YERININ ŞƏFƏQLƏRI

Həmin gün dənizin üzərində üfüq xətti boyunca qıpqırmızı bir səhər açılırdı və dan yerinin o qırmızısı Xəzərin suyunu da qıpqırmızı qızartmışdı, elə bil ki, suyun altında sürü-sürü balıqlar yaralanmışdı, parçalanmışdı və o balıqların qıpqırmızı qanı suyun üzünə çıxmışdı.

Qəribə idi, bütün ömrü boyu təzə, qanlı ət həsrətində olmuş Gicbəsər üçün o sübh çağı üfüqün və dənizin o qırmızısında nəsə xoşagəlməz bir cəhət vardı, elə bil ki, o dan qırmızısı o əlçatmaz təzə ət parçasından yox, kin-küdurətdən, hiddətdən qızarmış gözlərdən, vurulan təpiklərdən, atılan daşlardan («– Paşol!»; «– Sürük burdan!») xəbər verirdi və dənizkənarı bulvarda qarnı üstə kol dibində uzanıb çənəsini qabaq pəncələrinə söykəmiş Gicbəsər hələ tam açılmamış yuxulu gözlərini kolun yarpaqları arasından o üfüq və dəniz qırmızısına zilləyib baxırdı. Gicbəsər səksəkə içində yatdığı o bir neçə saat gecə ərzində tez-tez gözlərini açıb qaranlığa baxmış və indi o qaranlıq qırmızıya çevrilmişdi, Gicbəsər də həmin qırmızıya baxırdı...

Gicbəsərin zədələnmiş boğazının qanı boynunun çirkli qəhvəyi-qara tüklərində qaysaq bağlamışdı və o zədənin ağrısı gecədən bəri itin bütün bədənindən keçirdi, kiçicik tərpənəndə ağrı daha da artırdı və Gicbəsər dan yerinin o qırmızısına baxa-baxa bir azdan ayağa qalxmaq, yerimək, qaçmaq, gizlənmək, axtarıb yeməyə nəsə tapmaq əzab əziyyətini əvvəlcədən hiss edirdi və elə bil ki, bir azdan iti gözləyən o əzab-əziyyətin ağır yükü indidən Gicbəsəri sıxırdı, əzirdi, o yük altında çənəsi zindan kimi, qabaq pəncələrinin üstünə pərçim olmuşdu.

Dünən Gicbəsər Bakının bu it üçün tamamilə yad küçələrini dolaşa-dolaşa, elə bil ki, Bakının bütün ərazisini öz aralarında bölüşdürmüş kimsəsiz məhəllə itlərindən gizlənə-gizlənə, sayı-hesabı qurtarmaq bilməyən maşınlardan, avtobuslardan, trolleybuslardan, motosikletlərdən qoruna-qoruna, divarlara, hasarlara qısıla-qısıla gecə gəlib dənizkənarı bulvarla üzbəüz böyük binalardan birinin həyətinə girdi, bir müddət o binanın divarının dibində dayanıb qulaq asdı,

havanın qoxusunu yoxladı: bütün bina televizorla futbol oyununa baxırdı və hərdən bütün bina birdən səs salırdı, hərdən sakitlik çökürdü və futbol şərhçisinin tələsik danışığı eşidilirdi. Gicbəsər binadan gələn bu səsdə qorxulu bir şey hiss etmədi; həyətin yuxarı başındakı zibil yeşiklərinin üstünə çıxmış üç-dörd pişikdən savayı başqa ins-cins yox idi və bir sözlə, bu böyük binanın divarına, bu həyətin asfaltına, taybatay açıq bu həyət darvazasının həyətinə Bakının başqa böyük-kiçik binalarından, həyətlərindən, bağlarından, meydanlarından fərqli olaraq, elə bir şey hopmamışdı ki, Gicbəsəri ürkütsün və it başını aşağı sallayıb balaca qara gözləriylə diqqətlə baxa-baxa asta addımlarla zibil yeşiklərinə tərəf getdi.

Düzdü, içi zibillə dolu dəmir yeşiklərin üstünə qalxmış o pişiklərin hərəkətsizliyindən, eləcə bir biganəlik içində dayanıb baxmaqlarından yəqin Gicbəsər başa düşmüşdü ki, orada yeməli bir şey yoxdu, amma Gicbəsər nəsə tapmalı idi, nəsə yeməli idi, çünki Tülkü Gəldi Qəbiristanlığından çıxdığı o səhərdən sonra, neçə gün idi ki, Gicbəsər, demək olar ki, heç nə yeyə bilməmişdi və həmin günlərin yorğunluğu, səfilliyi, didərginliyi daha o aclığa dözə bilmirdi.

Bu vaxt bir cırıltı səsi o gecə çağı həyətin futbol müşayiətli sakitliyini pozdu və Gicbəsər o saat ayaq saxlayıb başını binaya tərəf çevirdi, cırıltı gələn səmtə baxdı: yuxarı mərtəbədəki binalardan birinin həyətə baxan eyvan qapısı cırıldaya-cırıldaya açıldı, əlində qəzet bükməsi tutmuş bir qadın eyvana çıxıb həyətə tərəf boylandı, o tərəf-bu tərəfə baxdı, heç kəs olmadığını və görmədiyini yəqin edib qəzet bükməsini zibil yeşiklərinə tərəf tulazladı.

Bağlama şappıltı ilə zibil yeşiklərinin yanında asfaltın üstünə düşdü və Gicbəsər cavan vaxtlarındakı bir cəldlik və ehtirasla üç böyük sıçrayışa özünü o Allah payına yetirdi və qəzet bükməsini yerdən qapdı. Pişiklər hirslə fışıldayıb kənara çəkildilər, Gicbəsər isə əlləri paydan çıxmış o pişiklərə məhəl qoymadan gözəl ətri gələn bükməni tələsik həyətin divar dibinə gətirdi və ağzının suyu axa-axa, qabaq pəncələrinin köməyi ilə o bükmənin kağızını didişdirib cırdı, tələsik bir acgözlüklə o gözəl artıqları təpişdirə-təpişdirə yeməyə başladı: bir az kolbasa qırıqlarıydı, qığırdaqları, bəzi yerlərdə hətta əti üstündə qalmış çolpa sümükləri idi, dişlənmiş, doğranmış soyutma yumurta qalığıydı, nəsə yağlı xörəklərə dəymiş o gözəl xörəklərin ətrini və tamını özündə saxlamış çörək parçaları idi... amma bütün bunlar az idi (görünür, ikinəfərlik məclisin artığı idi), amma, hər halda, sınmış, laxlamış, seyrəlməyə başlamış dişləri ilə o çolpa sümüklərini tələsik mədəsinə ötürdükcə Gicbəsər hiss edirdi ki, bədəninə bir qüvvə gəlir, o gecənin qaranlığında, elə bil ki, itin gözlərinə də işıq gəlirdi.

Pişiklər Gicbəsərin beş-altı addımlığında dayanmışdılar və birdən-birə peyda olmuş bu naməlum itin divar dibində gözəl qoxusunu duyduqları o gözəl nemətləri təpişdirməyinə baxırdılar – acıqla, kinlə baxırdılar. Pişiklər əvvəllər heç vaxt görmədikləri bu itin qocalığını və ən əsası isə, taqətsizliyini yəqin ki, başa düşmüşdülər, ondan qorxmurdular və hətta elə bil ki, Gicbəsərin üstünə cumub o nemətləri qaçırtmaq istəyirdilər; amma Gicbəsər o kolbasa qırıqlarını da, sümükləri də, çörək, yumurta qalıqlarını da daha yeyib qurtarmışdı və indi qəzet parçalarını iyləyirdi, indicə yediklərinin asfalt üstündəki yerini yalayırdı, başını yerdən qaldırmayaraq hərdənbir gözləriylə altdan yuxarı açıq-aşkar bir minnətdarlıqla qapısı cırıldayan o eyvana tərəf baxırdı.

Bina birdən küy saldı (görünür, qol vurmuşdular), amma o küyün Gicbəsərə dəxli yox idi, o küy qorxusuz, ürküsüz idi və o küyün özü də indi dünyanın birdən-birə beləcə gözlənilməz Allah payından xəbər verirdi.

Gicbəsər eləcə qəzet qırıqlarını iyləyirdi, asfaltın üstünü yalayırdı və o pişiklərin birdən-birə necə qaçıb aradan çıxmağından xəbəri olmadı, elə bil ki, Gicbəsərin o qəzet bükməsindəki nemətlərdən sonra, iy duymaq, hənirti eşitmək qabiliyyəti də korşalmışdı və hər şeyi o zaman başa düşdü ki, artıq gec idi, böyük, bu qaranlıq gecə kimi qapqara bir it sonuncu həmlələrlə atılıb iti dişləri ilə Gicbəsərin boqazından yapışdı. Ağrının və o qəfil həmlənin xofundan Gicbəsər elə zingildədi ki, bu zingilti o iri, qara itin hirsli və qorxunc hənirtisi müqabilində o qədər yazıq, köməksiz bir fəryadla səsləndi ki, həmin böyük binada yaşayan və o aprel gecəsi televizorun qabağında oturub futbola baxan adamların bəzisi yerlərindən qalxıb pəncərələrdən həyətə tərəf boylandılar.

Bu iri, cavan və sağlam qara erkək it bütün bu ətrafda yaşayan itlərin gözünün qorxusu, başının ağası idi və bu ətrafdakı bütün küçə qancıqlarının da əsl sahibi, doğulan küçüklərin əksəriyyətinin atası da o idi. Qara itin bədənində müxtəlif cinsli itlərin qanı qaynayırdı və son on-on beş nəsil boyu bu müxtəlif qanlar bir-birinə qarışıb Qara iti dünyaya gətirmişdi və elə bil ki, bu Qara it şəhərin küçələrində son on-on beş nəsil boyu kimsəsiz əcdadlarının çəkdikləri əzab-əziyyətlərin hayıfını almaq üçün (kimdən və nədən?!) bu dünyaya gəlmişdi; hər bir naməlum it Qara itin düşməni idi və bu əraziyə, Bakının bu hissəsinə ayaq basmamalı idi.

Gicbəsər boğulurdu və bərəlib, az qala, hədəqəsindən çıxan və yerdən-göydən imdad uman gözlərini o böyük binanın yuxarı mərtəbələrinə (cırıldayan qapılı o eyvana tərəf!) dikib bütün gücünü toplayıb bir dəfə də (yəqin ki, sonuncu dəfə!) həmin dəhşətli fəryadla zingildədi.

Bu, möcüzəydi, nə idi? – o eyvandan ki, bayaq həyətə Gicbəsər üçün Allah payı atılmışdı, bax, həmin eyvanın qapısı yenə cırıltıyla açıldı və bu dəfə qadın yox, kişi eyvana çıxdı (yəqin ki, o kolbasanı, çolpanı, yumurtanı yemiş kiçik məclis əhlinin biri idi) və səbətə yığılmış kartoflardan bir yekəsini götürüb zərblə itlərə tərəf atdı:

– Poşol!..

O aprel gecəsi həyətə yayılan o «Poşol!» sözü, bütün ömrü boyu eşitdiyindən fərqli olaraq, Gicbəsər üçün o qədər doğma səsləndi ki, itin boğulub sönməkdə, dağılmaqda olan beynində bir ümid yarandı. Yuxarı mərtəbədən zərblə atılmış o iri kartof isə Qara itin böyrünə dəydi və hikkədən yerə-göyə sığışmayan Qara it Gicbəsərin boğazını buraxıb başını yuxarı qaldırdı və yoğun, hirsli bir səslə o eyvana tərəf hürdü. Eyvandan ikinci bir kartof atıldı, amma o kartof Qara itə dəyməsə də, Qara itin hirsini-hiddətini lap artırdı – it daha da bərkdən və acıqlı hürdü.

Deyəsən, yenə qol vurdular və o böyük bina yenə də sevinclə bir hay çəkdi və Qara itin hürməyi binanın o hayına qarışdı.

Gicbəsər isə artıq həyətdən çıxıb bayaqkı o dəhşətli qorxunun qovduğu bir sürətlə o böyük bina ilə dənizkənarı bulvarın arasındakı geniş prospekti keçirdi. Prospektin hər iki tərəfi ilə şütüyən maşınların sürücüləri boynundan qan axan və tövşüyə-tövşüyə başını götürüb qaçan, maşınlara fikir verməyən bu iti vurmasın deyə, əyləci basırdılar və maşın əyləclərinin o tükürpədici səsi Gicbəsəri, elə bil ki,

daha artıq qovurdu və it o prospekti, nəhayət ki, keçib bulvara girəndən sonra özünü sıx bitmiş zeytun ağaclarının arasına verdi və bir an ayaq saxlayıb dərindən nəfəsini dərə-dərə arxaya – o böyük binaya tərəf baxdı: o cavan, o sağlam Qara itin səsi-səmiri gəlmirdi, elə bil ki, o geniş prospekt Gicbəsərin ömründə heç vaxt görmədiyi coşğun bir çay idi və Gicbəsər o çayı keçib canını qurtarmışdı, Qara it isə çayın o biri tərəfində qalmışdı, çayın o coşğunluğu – sürətlə ötən o maşınlar Gicbəsəri bayaqkı o dəhşətli qorxudan xilas etmişdi və indi də Gicbəsəri qoruyurdu.

Gicbəsər nəfəsini dərdi, amma hələ də dərindən ləhləyə-ləhləyə zeytun ağaclarının arasından keçib üstü səliqə ilə qayçılanmış kollardan birinin arxasından bulvara baxdı: asfalt salınmış uzun və geniş sahil boyunca heç kəs yox idi, bütün bulvar bomboş idi. Dəniz də qapqara bir qaranlıq içində idi və göz baxdıqca uzanan bu genişliyin beləcə kimsəsizliyi, elə bil, Gicbəsərin gözlərinə daha artıq bir kədər gətirdi və it elə həmin kolun dibində torpağın üstünə çökdü.

Gicbəsər boynundan axan qanın istisini hiss edirdi və o yaranın yeri nəbz kimi vururdu. Irəlidən külək əsmədiyi üçün dənizin sakit uğultusu eşidilirdi, arxadan isə – o zeytun ağaclarından o tərəfə o böyük bina ilə bulvarın arasındakı prospektdə ora-bura ötən maşınların səsi gəlirdi və o maşınların işığı da hərdən zeytunların arasından keçib kolun dibinə zəif bir işıq salırdı; bulvardakı asfaltdan isə küçələrdəki maşın, rezin, benzin, yağ iyi gəlmirdi, amma Gicbəsər daha bunların fərqində deyildi, bu itin bütün bədənində elə bir taqətsizlik, elə bir ağrı var idi ki, içindəki nigarançılığı, maşın qorxusunu üstələmişdi...

Və indi beləcə qıpqırmızı bir səhər açılırdı...

Gicbəsər bütün gecəni burada keçirmişdi və indi üstünün, kənarlarının yarpaqları səliqə ilə qayçılanmış o kolun dibindən o qırmızıya baxırdı və yəqin başa düşürdü ki, artıq vaxtdır, qalxmaq lazımdır, arxayın bir yer tapmaq, yemək tapmaq lazımdır, amma qalxmırdı, çənəsini qabaq pəncələrinin üstünə dirəyib yuxulu qara gözləri ilə eləcə o qırmızıya baxırdı. Gicbəsər heç olmasa, başını arxaya çevirmək, o böyük binaya tərəf nəzər salmaq istəyirdi, çünki butün gecə ərzində o Qara itin xofu Gicbəsərin içində olmuşdu, o sağlam, cavan, güclü it gəlib Gicbəsəri burada tapa bilərdi; amma başını arxaya da çevirmirdi – kiçicik bir hərəkət belə, Gicbəsərin boğazının ağrısını bütün bədəninə yayırdı.

It gözlərini o qırmızıdan çəkib heç bir hərəkət etmədən, tərpənmədən Bakının dağlıq hissəsinə sarı baxdı, o tərəflərə ki, orada Tülkü Gəldi Qəbiristanlığı olmalıydı... Bir müddət gözlərini o tərəflərə dikdi və bu dəm itin Tülkü Gəldi Qəbiristanlığı tərəflərə baxan gözlərində bir biganəlik vardı...

Gicbəsərin qulaqları özündən asılı olmayaraq şəkləndi və itin o sübh çağı birdən-birə bulvara girmiş maşının səsini eşitməsi ilə, təkərlərin, benzinin, dəmirin iyini duyması bir oldu və Gicbəsərin içində ilişib qalmış o nigarançılıq daha artıq bir həyəcanla baş qaldırdı.

Sübh tezdən işə başlamış Bakı Sanitariya Idarəsinin furqonlu maşını dənizkənarı bulvara girib hələ su buraxılmamış fəvvarənin yanında dayandı və əyinlərinə ağ xalat geymiş iki nəfər maşından düşüb diqqətlə o tərəf-bu tərəfə baxmağa başladı. Maşının sürücüsü sinəsini sükana dirəyib gərnəşdi və əsnəyə-əsnəyə deyindi:

– Bu vaxt itlər də yatıb!..

Maşından düşmüş o iki nəfər sanitardan birinin əlində tüfəng var idi. Bu adamlar şəhəri quduz və xəstə itlərdən təmizləməli idilər, yəni instruksiya belə idi, amma bu iki nəfərin o gülünc instruksiyaya əməl etməyə (yəni itlərin xəstəliyini müəyyənləşdirməyə) nə vaxtları, nə də həvəsləri var idi, onlar üçün hər hansı kimsəsiz küçə iti quduz və xəstə idi. O tüfəngli sanitarda, görünür, uzun müddətdən bəri bu işlə məşğul olduğu üçün, xüsusi bir sövq-təbii yaranmışdı, düz Gicbəsərin arxa tərəfdən dibinə uzandığı o dekorativ kola tərəf yeriməyə başladı. Ikinci sanitar da həmkarının ardınca gəlirdi.

Gicbəsər o kolun ardından, yarpaqların, budaqların arasından həmin maşını da, yaxınlaşan sanitarları da görürdü və bu it yəqin hiss edirdi ki, nəsə bəd bir əməl hazırlanır və buralardan qaçıb getmək lazımdır, amma elə qaçıb getmək lazımdır ki, gözə görünməsin. Gicbəsər arxa ayaqlarını qaldırdı, başını isə kolun dibindən çəkmədi, amma əlitüfəngli o sanitar, itin kolun ardından donbalmış arxa hissəsinin qəhvəyi qara tüklərini o saat gördü və tüfəngi sinəsinə sıxıb tətiyi çəkdi.

Atəşin boğuq səsi dənizə, bulvara, maşınların hələ tək-tük ötdüyü o geniş prospektə yayıldı və elə həmin anda da Gicbəsər arxa qılçının yuxarı hissəsinin kənarında əvvəlcə bir zərbə, sonra da ağrı hiss etdi, amma it zingildəmədi, belə bir məqamda başa düşdü ki, səs çıxarmaq olmaz, təzədən yerə sinib, az qala, sürünə-sürünə ikinci kolun arxasına keçdi. Bu ikinci koldan sonra, sıx zeytunluq başlayırdı və imkan tapıb o ağaclığa atılmaq və buralardan qaçıb qurtarmaq lazım idi.

Əlitüfəngli sanitar diqqətlə o dekorativ kola tərəf baxırdı və itin hansı səmtə yatdığını müəyyənləşdirmək istəyirdi, amma bu vaxt gözlənilməz bir hadisə baş verdi: görünür, Gicbəsərin izinə düşmüş və sübh tezdən xəlvətcə ona yaxınlaşmaqda olan o cavan, o sağlam Qara it bir göz qırpımında zeytunların arasından sıçrayıb asfalta çıxdı və irəli qaçıb həmişəki hikkəsi, yoğun və acıqlı səsi ilə sanitarların üstünə hürməyə başladı.

Dalbadal açılan iki boğuq atəş səsinin yüngül əks-sədası yenə də ətrafa yayıldı və o qara itin acıqlı hürüşü əvvəlcə zingiltiyə, sonra zarımağa çevrildi, Qara it yerində yırğalandı, başı aşağı düşdü, ayaqları büküldü və it böyrü üstə qarnından, sinəsindən axan qanın içinə sərildi. Qara itin ayaqları bir-iki an havada çapaladı, sonra uzanmış itin beli gərildi, ayaqları qanrıldı və o Qara it hərəkətsiz qaldı.

Atəş açan sanitar, tüfəngi çiyninə keçirdi, xalatının cibindən yekə göy əlcəklər çıxarıb əllərinə geydi, ikinci sanitar da eyni yekə əlcəkləri cibindən çıxarıb əllərinə geydi və hər iki sanitar o axmaq Qara itə yaxınlaşdı, biri qabaq ayaqlarından, o biri arxa ayaqlarından yapışıb Qara iti qaldırdılar və furqona tərəf apardılar.

Özünü gözəl bir hədiyyə kimi güllə qabağına verən o Qara it sanitarların bu səhərki siftəsi idi və bəxtləri beləcə gətirsəydi bugünkü planlarını yerinə yetirəcəkdilər; sanitarlar kimsəsiz küçə itlərinin daldalana biləcəyi yerləri gəzəcəkdilər, şəhərdən cürbəcür epidemiyalar yayılmasın, təmizlik olsun deyə, yalnız xəstə yox, ümumiyyətlə, it axtaracaqdılar; plan it cəsədi tələb edirdi, odur ki, qabaqlarına çıxan kimsəsiz küçə itlərini vuracaqdılar və bu minval ilə şəhərdə təmizlik işləri aparacaqdılar...

Gicbəsər kolun ardından bütün bunların hamısını görürdü və bu hadisənin gözlənilməzliyi, elə bil ki, itə boğazının, qılçının ağrısını unutdurmuşdu, Gicbəsər səsini çıxarmayıb baxırdı və elə ki, sanitarlar furqonun qapısını açıb Qara itin

cəsədini içəri atdılar, Gicbəsər cəld sıçrayışlarla özünü zeytunluğa verdi və ağrılarına baxmayaraq var gücü ilə qaçıb bu yerlərdən uzaqlaşdı.

Tüfəngsiz sanitar bayaqkı dekorativ kola tərəf baxıb:

– Bəs o birisi nə oldu? – soruşdu.

Tüfəngli sanitar da başını çevirib əvvəlcə o kola, sonra zeytunluğa tərəf baxdı, itin hansı istiqamətdə qaçıb canını qurtardığını düzgün müəyyən etdi və sidq-ürəkdən təəssüflənə-təəssüflənə:

– Qaçıb getdi əclaf!.. – dedi.

Ikisi də maşına mindi.

Sürücü növbəti dəfə əsnəyib motoru işə saldı və yenə də deyindi:

– Katafalkada işləmək bundan yaxşıdı!.. It ölüsü daşıyıram...

Sonra o furqonlu maşın yerindən tərpəndi.

Dan yerinin o qırmızısı yavaş-yavaş çəkilib gedirdi və Bakıda yeni gün başlayırdı.

## 11

## ƏBDÜL QAFARZADƏ

Həmin aprel günü Əbdül Qafarzadə ikinci dəfə Rayon Icraiyyə Komitəsinin binasından çıxıb trolleybusla Qəbiristanlıq Idarəsinə gələndən sonra iki nəfər içəri girib bir balaca qanını qaraltdı. Biri tösmərək oğlan idi, o birisi şalban kimi arıq və uzun bir tip idi (bayaq iclasdan qayıdanda da gözləmə otağında gördüyü bunlar idi), ölüləri üçün yer istəyirdilər və rüşvət əleyhinə mübarizə aparırdılar... Axmaqlar!.. Əbdül Qafarzadənin bu cür miskin adamları görməyə gözü yox idi; əfəl və mənasız məxluqat olduqları üçün ciblərində də bir qəpik olmur və buna görə də ədalət uğrunda mübarizə aparırlar, qanundan dəm vururlar... Bu tösmərək axmaq da Sovet Ittifaqının qanunlarını köməyə çağırırdı və Sovet Ittifaqındakı qanun keşikçisi mayor Məmmədov da, elə bil, qəsdən burada idi, o axmağın qolundan yapışıb göstərdi ona həmin qanunları.

Tülkü Gəldi Qəbiristanlığı neçə ildən bəri sahə müvəkkili işləyən milis mayoru Məmmədovun ərazisinə daxil idi və o bu işə gələndə baş leytenant idi, Əbdül Qafarzadənin sayəsində indi mayor olmuşdu, amma – insan, əlbəttə, naşükürdür– indi özünü daha sahə müvəkkilliyinə sığışdırmırdı, axır vaxtlar Əbdül Qafarzadəyə, xüsusilə, yaltaqlanırdı ki, kişi gedib Bakı Şəhər Milis Idarəsində, yaxud Daxili Işlər Nazirliyinin özündə ağız açsın, onu irəli çəksinlər. Könlündən rayon milis şöbəsinin rəisliyi keçir, hələlik, heç olmasa, rəis müavini olmaq istəyir... Əvvəllər Əbdül Qafarzadə Mirzəibinin, Ağakərimin, yaxud Vasilinin vasitəsilə hərdənbir Məmmədova cib xərcliyi verirdi, amma indi Məmmədovun özü yeri düşəndə Mirzəibiyə, Vasiliyə, Ağakərimə işarələr vururdu, eyhamlarla (birbaşa deməyə ürək eləmirdi) Əbdül Qafarzadə üçün pul təklif edirdi ki, gedib yuxarılarda işini düzəltsin. Acın biri idi, burada sahə müvəkkili olandan sonra özünü düzəldib – ərazisində nə qədər istəyirsən kababxana, dükan, dondurma sexi, qayış sexi, keramika fabriki, pivəxanalar... Ayda hər birindən çox yox, elə beşcə yüz manat alsa, gör nə qədər eləyir!.. Hər halda, acından ölmür... Nə isə, Məmmədov da adam

idi və özünü oda-közə vurub adam kimi yaşamaq istəyirdi. Ola bilsin ki, Əbdül Qafarzadə ona kömək edəcəkdi, amma hələ qəti qərara almamışdı. Indi isə bərk acımışdı və təzə katibə qızı çağırıb çörək və pendir almaqdan ötrü mağazaya göndərdi. Əlbəttə, bu qız səhlənkarlıq eləmişdi və o iki nəfəri icazəsiz içəri buraxmışdı, Əbdül Qafarzadə isə səhlənkarlığı, xüsusən, işdə səhlənkarlığı xoşlamırdı; amma Əbdül Qafarzadə cavan və gözəl qızları xoşlayırdı və o səhlənkarlıq üstündə hissə qapılıb bu qızı qovmağın hələ vaxtı deyildi... Bir də ki, – Əbdül Qafarzadə buna qətiyyən şübhə etmirdi – o iki nəfəri bura katibə qız yox, get-gedə ağlını itirən Bədurə buraxmışdı. Bədurə öz qocalığı ilə heç cürə barışa bilmirdi və indiyə qədər də Əbdül Qafarzadəni qısqanırdı, bunu heç kim görməsə də (bəlkə heç Bədurənin özü də indi bu fikirdə deyil!..), Əbdül Qafarzadə yaxşı görürdü. Azərbaycanlı belədir də... Odur, mühasib Yevdakiya Stanislavovna, ya da ki, kassir Marqarita Iosifovna, indi qocalıblar, başlarını da aşağı salıb işlərini görürlər. Cavanlıqlarında bəyəm Əbdül Qafarzadə ilə az oyundan çıxmışdılar?.. Hər halda, Bədurə ilə yaxşıca bir söhbət eləmək lazımdı, bu təzə qızın məsələsi isə gələcəyin işidi, indinin yox. Axır ki, bugünkü qəzetləri rahat oxumaq olar...

O gözəl katibə qız, Əbdül Qafarzadənin verdiyi iki əzik-üzük manata baxa-baxa çaşbaş qalmışdı: bu kişi ki, camaat bunun haqqında bu qədər danışır, adicə qəbirqazanlar kimi, cibindən iki dənə əzik manatlıq çıxartdı və bu adam da nahar zamanı adicə qəbirqazanlar kimi, dükan pendiri ilə dükan çörəyi yeyəcəkdi; qız gah əlində tutduğu o əzik manatlara, gah da Əbdül Qafarzadənin indicə kabinetə girib ardınca örtdüyü içi pambıq dolu qəhvəyi meşin qapıya baxırdı.

Makinaçı Bədurə xanım bu Qəbiristanlıq Idarəsinin də, Əbdül Qafarzadənin də cikinə-bikinə bələd idi (hər halda, iyirmi ildən artıq Qəbiristanlıq Idarəsində işləyən bu arvada belə gəlirdi!) və buna görə də öz küncündə oturub makinadakı yazısını davam etdirə-etdirə təzə katibə qıza baxdı,qıpqırmızı boyadığı dodaqlarından bir təbəssüm keçdi. Bədurə xanım da iyirmi iki il bundan əvvəl bu idarəyə gələndə, iyirmi iki il bundan əvvəl birinci dəfə Əbdül Qafarzadə ilə tanış olanda beləcə çox çaşbaş qalmışdı, amma indi sakitcə öz küncündə oturub dissertasiya çap edirdi. Əbdül Qafarzadə icazə vermişdi ki, Idarə işi olmayanda (bu Idarədə isə makinaçı işi çox az idi – əsas etibarilə Əbdül Qafarzadənin yuxarı təşkilatlara göndərdiyi arayışlar, raportlar, bəzi xahişlər, vəssalam) Bədurə xanım öz müştərilərinin işini yazsın və Bədurə xanım da bir ucdan cürbəcür – ədəbiyyatdan tutmuş fəlsəfəyəcən – dissertasiyaları makinada yazmaqla məşğul idi.

Əlbəttə, o cavan, o gözəl katibə qızın haradan ağlına gələ bilərdi ki, Əbdül Qafarzadə kimi bir adam niyə nahar üçün pendir-çörək istəyir? Niyə Bakının gözəl kababxanalarından (bu kababxanalardan biri elə Tülkü Gəldi Qəbiristanlığının yanında idi və «Əlvida» adlı həmin kababxananın da əsl sahibi Əbdül Qafarzadə idi) özü üçün yemək gətirtmir? Bunun səbəblərindən biri çox sadə idi: Əbdül Qafarzadə indi burada əməlli-başlı nahar eləsəydi, evə gedəndə daha çörək yeyə bilməyəcəkdi və o da evdə çörək yeməyəndə, Qaratel dilinə, ümumiyyətlə, heç nə vurmurdu. Amma indi Əbdül Qafarzadə bir az pendir-çörək yeyəcəkdi, işdən sonra isə, gedib evdə xörək hazırlayacaqdı (əgər Qaratel yenə də sözə baxmayıb ağrıya-ağrıya özü kişinin işdən qayıtması üçün xörək hazırlamayıbsa), iştahla yeyəcəkdi və Qarateli də məcbur edəcəkdi ki, bir az yesin. Nə isə, dünyanın beləcə qəribə işləri o cavan katibə qızın ağlına haradan gələ bilərdi?

Əbdül Qafarzadə kabinetində öz mizinin arxasına keçib qəzetləri oxumağa başlayanda, bayaq Fərid Kazımlının qəzetin arxasında gizlənməyini yadına saldı, sonra da, nədənsə, birdən-birə Burunu xatırladı və səhərin o narahatlığından, günortanın beləcə tələsikliyindən sonra qollarını geniş açıb ləzzətlə gərnəşdi, gülümsədi.

Fərid Kazımlı da, Burun da tamam başqa-başqa adamlar idi, cəmiyyətdə tamam başqa-başqa mövqe tutmuşdular, amma o dəm Əbdül Qafarzadə üçün bu iki adamın arasında nəsə bir yaxınlıq, bir qohumluq var idi.

Tülkü Gəldi Qəbiristanlığındakı Qəbiristanlıq Idarəsinin həyətində kiçik morq binası var idi və bu birmərtəbəli, üç otaqlı, ağ əhənglə ağardılmış binada heç vaxt ölü olmurdu (kim gəlib öz ölüsünü basdırmamışdan əvvəl morqa qoyacaqdı?). Qəbiristanlıq Idarəsinin bənnası, dülgəri, çilingəri, yükdaşıyanı (belə bir ştat da var idi, tabutu maşından düşürdüb qəbirə aparmalı idi), alkoqolik qəbirqazanlar və onların Qəbiristanlıq Idarəsinin ştatında olmayan başqa alkoqolik dostları morqa su çəkmişdilər, ocaqxanadan qaz çəkmişdilər, soba qurmuşdular və o soba elə yanırdı ki, döşəməsi və divarları ağ kaşı ilə hörülmüş otaqlar qışın oğlan çağında da istidən tərləyirdi.

Gündüzlər morqda demək olar ki, adam olmurdu, təkcə bir-iki alkoqolik keflənib kiçik otağın döşəməsində yatırdı, amma elə ki, axşam düşürdü və xüsusən, elə ki, gecə yarıya çatırdı, bu morqda həyat qaynamağa başlayırdı, maşınlar gəlib Qəbiristanlıq Idarəsinin həyətinin örtülü darvazası qabağında dayanırdı, məhrəm müştərilər özləri maşından düşüb morqa tərəf gedirdi, yaxud da taksidə gəlmiş müştəri üçün qəbiristanlığın qarovulçusu Əflatun həvəslə morqa qaçırdı.

Məsələ burasında idi ki, gecələr şəhərdə ərzaq dükanları, restoranlar bağlanandan sonra, morqda araq alveri gedirdi, araq şüşəsinin hər biri üçqat, beşqat bahasına, bəzən bundan da artıq qiymətə satılırdı (baxırdı müştəriyə və havaya; qarlı-çovğunlu gecələrdə burada arağın qiyməti qızdırmalı xəstənin qoltuğundakı termometrin civəsi kimi, o saat yuxarı qalxırdı). Gecələr morqda gedən bu alverin öz sistemi yaranmışdı və Tülkü Gəldi Qəbiristanlığındakı bu gecə həyatının müqəddəratı, qazancı Əbdül Qafarzadənin Qəbiristanlıq Idarəsindəki üç nəfər yaxın adamının əlində idi: ocaqçı Mirzəibinin (bu adam universitetin şərqşünaslıq fakültəsini bitirmişdi, Misirdə, Liviyada tərcüməçi, Elmlər Akademiyasında elmi işçi işləmişdi və təxminən on il bundan əvvəl Əbdül Qafarzadə onu ocaqçı vəzifəsinə götürmüşdü), çilingər Ağakərimin, bir də ki, qəbirqazan vəzifəsində işləyən Vasili Mitrofanovun, Burun isə bu adamların, necə deyərlər, qeyri-rəsmi, özbaşına şəriki idi.

Əlbəttə, nə Mirzəibi Qəbiristanlıq Idarəsinin ocaqxanasında barmağını bir işə vurmuşdu, nə Ağakərim çilingərlik edirdi, nə də Vasili Mitrofanov qəbir qazırdı. Bütün bu işləri alkoqolik qəbirqazanlar və onların alkoqolik dostları görürdülər, bu üç nəfər isə Əbdül Qafarzadənin nəzarətçiləri, iş düzəldənləri, etibarlı adamları idi, Tülkü Gəldi Qəbiristanlığının təkcə gecə yox, gündüz həyatı da, əsasən, bu üç nəfərin əlində idi. Bu üç nəfərin – Mirzəibinin, Vasilinin, Ağakərimin Əbdül Qafarzadəyə xidmətlərində elə bir səliqə-səhman var idi, öz aralarında da elə bir işgüzar münasibət yaranmışdı ki, onlar bir-birlərinə qətiyyən mane olmurdular, əksinə, üçü də bir nəfər kimi kişiyə xidmət edirdilər, çünki öz sahiblərini yaxşı tanıyırdılar, kim olduğunu bilirdilər. Bir neçə il bundan əvvəl üç yox, dörd nəfər

idilər (dördüncü nəfər indi adını da çəkməyə cürət etmədikləri Quba yəhudisi Alyoşa idi) və dördü də Əbdül Qafarzadənin ən yaxın adamları idi, amma günlərin bir günündə şeytan, Alyoşanı yoldan çıxartdı, nəsə bəd bir iş tutmuşdu, Əbdül Qafarzadəni satmışdı (nə Vasili, nə Mirzəibi, nə də Ağakərim indiyə kimi də o bədbəxt Alyoşanın günahını dəqiq bilmirdi) və Alyoşanı dənizdən tapdılar: gecə güllə ilə dənizkənarı bulvarda vurub dənizə tullamışdılar, külək isə cəsədini aparıb Zığ tərəfə çıxarmışdı. Ağakərim də, Mirzəibi də, Vasili də bədbəxt Alyoşanın nə üstündə öldürüldüyünü dəqiq bilmirdilər, amma kim tərəfindən öldürüldüyünü tamam dəqiq bilirdilər...

Ümumi işlərdən başqa bu üç nəfərin hərəsinin öz müəyyən xidmət sahəsi var idi: Mirzəibi Əbdül Qafarzadənin pul məsələlərinə baxırdı, Ağakərim qolugüclü, sərt və kobud adam idi, taksi sürücülərindən tutmuş alkoqoliklərəcən hamı ilə Əbdül Qafarzadənin adından o danışırdı. Tülkü Gəldi Qəbiristanlığındakı nizam-intizam işləri də ona baxırdı və «Əlvida» kababxanasına da o nəzarət edirdi, Vasili Mitrofanov isə, əsasən, Əbdül Qafarzadənin eşq-məhəbbət məsələlərinin həlli ilə məşğul olurdu.

Morqun otaqlarından birinə araq yığılırdı. Bu araqları Mirzəibi, Ağakərim, Vasili günorta adam göndərib xüsusi dükanlardan aldırırdı (dükan müdirləri isə araqları dövlətdən yox, ucuz qiymətə ayrı-ayrı şəxslərdən götürürdü – araqlar əldəqayırma idi). Bundan başqa, Qəbiristanlıq Idarəsinin ayrı işçilərinin də burada öz şəxsi araqlarını saxlayıb satmaq ixtiyarı var idi. Işçilər bu araqları, əsasən, dükandan yox, ölü sahiblərindən pay götürürdülər və hərə də öz arağını tanıyırdı, öz hesabını bilirdi. Işçilərin bu xırda alveri morqda mərkəzləşdirilmiş araq satışının müqabilində, bir növ şəxsi mülkiyyət, şəxsi alış-veriş idi. Hətta bəzən alkoqolik qəbirqazanlar da qırsaqqız olub ölü sahiblərindən qopardıqları və hamısını içə bilmədikləri bir-iki şüşə arağı həmin otaqda saxlayıb satırdılar. Mirzəibi də, Ağakərim də, Vasili də, süpürgəçi Nastyadan tutmuş hərdənbir makinaçı Bədurə xanıma qədər qəbiristanlıq işçilərinin və alkoqoliklərin bu xırda alverinə göz yumurdu, çünki uzun illərdən bəri Əbdül Qafarzadənin əlinin altında işlədikləri üçün, kişinin xasiyyətinin bəzi cəhətləri bu adamlara da keçmişdi: kasıb-kusubda işin olmasın, qoy necə bilirlər, başlarını dolandırsınlar, amma elə ki, qudurdular, başlarından vur.

Morqun ikinci və ən böyük otağı qumarxana idi. Qəbiristanlığın işçiləri, bəzi müştəriləri, taksi sürücüləri (xüsusən, Burun), şəhərin başqa yerlərindən, hətta Kislovodskdan, Rostovdan, Tallinndən, Tiflisdən, Irəvandan buranın sorağını eşidib, tanış tapıb gələn oyunçular (xırda oyunçular) həmin otaqda kart, nərd oynayırdı, aşıq, zər atırdı.

Lap dibdəki üçüncü kiçik otaqda isə içmiş alkoqoliklər, bəzən keflənib qalmış müştərilər yıxılıb yatırdı. Qəbiristanlıq Idarəsinin əsas işçi qüvvəsi alkoqoliklər idi. Bu adamların bir qismi qəbirqazan ştatında idi, qalan qismi isə ştatda deyildi. Mirzəibi, Ağakərim, Vasili ölü sahibləri ilə danışıq aparırdı, qəbrin birinin qazılmasının xərcini təyin edirdi. Bu üç nəfər qəbiristanlığa gəlmiş ölü sahibinin imkanını o saat hiss edirdi və həmin imkandan asılı olaraq da pul tələb edirdilər – aşağısı yüz manat, yuxarısı isə 300-350 manat (bəzən hətta 400 olurdu); bu hələ ancaq qəbir qazmaq əməliyyatı idi... Işi isə alkoqoliklər görürdü. Ailələrindən ayrılmış, dostlarına, qohumlarına yad olmuş bu adamlar, əslində, maaş almırdılar,

yalnız iş cədvəlinə qol çəkirdilər, maaşlar isə bir yerdə və bütün köpüyünə qədər Əbdül Qafarzadəyə verilirdi. Alkoqoliklər qazdıqları hər qəbir üçün Ağakərimdən, Mirzəibidən, Vasilidən – hansı onları çağırıb iş tapşırmışdısa – bir-iki manat alırdılar, bir də ki, qırsaqqız olub ölü sahiblərindən bir arağın pulunu qoparırdılar.

Tülkü Gəldi Qəbiristanlığına lap yaxından bələd olanlar bilirdilər ki, gecələr morqda qarovulçu Əflatunun vasitəsilə ikiqat, üçqat baha qiymətə nəşə də almaq mümkündü və burasını da bilirdilər ki, nəşəni gətirən əsas adam Burundur.

Düz dörd il idi ki, Burun, qardaşı Gülbala ilə birlikdə iki aydan, üç aydan bir Daşkəndə, oradan da Səmərqəndə uçurdu, orta məktəblərdə otuz ildən artıq fizika dərsi deyən müəllim Sayzulla Mirzəmuhəmmədovdan əla növlü nəşə alırdı, Bakıya qayıdıb o nəşəni beş-altı taksi sürücüsünün, məhəllədəki beş-altı cavanın vasitəsilə satdırırdı və yol xərcindən, vasitəçilərə verdiyi puldan əlavə, orta hesabla min manata üç min manat təmiz qazanc əldə edirdi. Müəllim Sayzulla Mirzəmuhəmmədov on iki uşağın atası, dünyagörmüş, gülərüz, ağıllı və tədbirli bir adam idi, hər dəfə Burun gələndə özü qollarını çırmalayıb gözəl özbək plovu bişirirdi və düz dörd il idi ki, bu iki nəfərin arasında qarşılıqlı hörmət və etibar var idi: nə Burun aldığı nəşəni tərəzidə çəkib yoxlayırdı, nə də müəllim Sayzulla Mirzəmuhəmmədov aldığı pulu sayardı. Burun hər dəfə Səmərqənddən gətirdiyi nəşənin xeyli bir hissəsini gecələr Tülkü Gəldi Qəbiristanlığında satdırırdı və həmin nəşə alverindən gələn qazancın hər on manatından dörd manatı qəbiristanlığın sahiblərinə (yəni dolayısı ilə Əbdül Qafarzadəyə) çatırdı. Xüsusi cidd-cəhd göstərdiyi üçün hər on manatdan 30 qəpiyi də ayrıca qarovulçu Əflatunun payına düşürdü. Qarovulçu Əflatun bir neçə dəfə burnunu çəkə-çəkə cəhd eləmişdi ki, öz payını bir az artırsın, heç olmasa, hər on manatdan 40 qəpik götürsün, amma bu cəhdlərdən heç bir şey çıxmamışdı, çünki Burun xəsis idi və qarovulçu Əflatun bu barədə çəkinə-çəkinə bir söz deyən kimi, ağzından vururdu. Tülkü Gəldi Qəbiristanlığındakı o nəşə alverindən götürülən qazancdan Ağakərimə, Vasiliyə, Mirzəibiyə məbləği isə Əbdül Qafarzadə özü müəyyən edirdi və lazım bildiyi vaxtlar onlara verirdi.

Gecələr taksi sürücüləri – təxminən on-on iki adam– kefinə içmək düşmüş müştəriləri bura gətirirdilər, hərgah müştəri özü buranı tanımırdısa, maşından düşmək istəmirdisə, taksi sürücüsü əvvəlcə müştəridən özünə üç manat götürürdü, arağın qiymətini Qəbiristanlıq Idarəsinin darvazası ağzındakı keşikdə oturan qarovulçu Əflatun deyirdi, misal üçün arağın şüşəsi 25 manata; pulu Əflatun müştəridən alıb morqa gedirdi, 24 manat verirdi; çünki hər araqdan bir manat onun özünə çatırdı, buna Əbdül Qafarzadə özü icazə vermişdi və arağı qəzetə büküb gətirib müştəriyə ötürürdü. Qarovulçu Əflatun gecələr bura gələn taksi sürücülərini tanıyırdı və xüsusi dəftərində hesab aparırdı: hər alınan araq şüşəsindən 1 manat 50 qəpik taksi sürücüsünün payına düşürdü (müştəridən aldıqları 3 manatdan əlavə); taksi sürücüləri səhər iş vaxtlarını qurtarıb maşını qaraja sürməzdən əvvəl Tülkü Gəldi Qəbiristanlığına baş çəkirdilər və onlara çatacaq məbləği də ya qarovulçu Əflatundan, ya da Vasilidən, Ağakərimdən, Mirzəibidən alırdılar. Bu haqq-hesabda hər şey dəqiq idi və demək olar ki, heç vaxt narazılıq, inciklik olmurdu – yay-qış həmişə burnunu çəkə-çəkə araq dalınca qaçan, müştəriləri hörmətlə yola salan, taksi sürücülərini gülərüzlə qarşılayan qarovulçu Əflatun dəftərdə yalnız özünün başa düşəcəyi bir xətlə doğru-dürüst qeydlər aparırdı. Bu adam hələ müharibədən əvvəl

Əbdül Qafarzadəgilin məhəlləsində yaşamış, vaxtıyla Əbdül Qafarzadənin böyük qardaşı Xıdırla oturub-durmuşdu, Bakının ilk tramvay sürücülərindən biri olmuşdu, otuzuncu illərdə partiyaya keçmiş, orta məktəblərdən birinə təsərrüfat işləri üzrə müdir müavini və ilk partiya təşkilatı katibi göndərilmiş, başqa bir məktəbdə müdir işləmişdi, amma bundan sonra Əflatun müəllimin maarif sahəsindəki irəliləyişi dayanmışdı, məktəbdə yeyintiyə yol verdiyi üçün partiyadan çıxarılmış, daha sonralar yüngül fırıldaq üstündə iki dəfə həbs olunmuş, müharibə dövründə özünü axsaqlığa vura-vura çayçı işləmiş, bir sözlə, həyatın hər üzünü görmüşdü və nəhayət ki, çətin yaşanmış o uzun-uzadı illərdən sonra gəlib Əbdül Qafarzadəni tapmışdı və daha on ildən artıq idi ki, canla-başla kişiyə xidmət edirdi, həyatından da razı idi; o qədər razı idi ki, hətta mətbəədə linotipçi işləyən böyük oğlu Kolxoza «Jiquli» maşını almağa söz vermişdi.

Dava-mərəkə hərdənbir qumar gedən otaqda başlamaq istəyirdi, çünki burada bəzən ortalıqda oynanan pulun miqdarı 10-15 min manata qalxırdı, əsəblər gərginləşirdi, amma Burun qoymurdu ki, dava qızışsın. Burun gecələri taksidən çox, morqdakı qumarxanada keçirirdi və onun buradakı nüfuzu tamam sözsüz idi.

Əlbəttə, Əbdül Qafarzadə özü gecələr bir dəfə də olsun ayağını Qəbiristanlıq Idarəsinə basmamışdı və hər həftənin cümə günü ya Ağakərim, ya Vasili, ya da Mirzəibi Tülkü Gəldi Qəbiristanlığının gecə həyatından Əbdül Qafarzadəyə çatacaq bir həftəlik məbləği gətirib verirdi və bu məbləğ az olmurdu: qumarxanadakı kiçikli-böyüklü bütün uduşun 7%-i yer sahibi kimi Əbdül Qafarzadəyə çatırdı, arağın da qazancının hər on manatından altı manatı ona verilirdi. Bu məbləğ də dəqiq hesablanırdı, çünki Ağakərim də, Vasili də, Mirzəibi də çox yaxşı bilirdilər ki, bircə manat da səhv eləsələr (aldatmaqdan söhbət gedə bilməzdi!), Əbdül Qafarzadə bunu o saat biləcəkdi– Tülkü Gəldi Qəbiristanlığındakı qəbir daşları da, elə bil ki, Əbdül Qafarzadənin gizli casusları idi.

Bütün bunlara baxmayaraq, morqdakı bu gecə həyatı Əbdül Qafarzadənin ürəyincə deyildi və gecə-gündüz həmişə oyaq olan fəhmi ona deyirdi ki, bu araq alverinin, qumarın, nəşəxorluğun əvvəl-axır zibili çıxacaq. Düzdü, bilavasitə Əbdül Qafarzadənin özü ilə bağlı heç kim heç nə sübut edə bilməzdi, amma, hər halda, ömründə heç vaxt onu aldatmayan fəhmi morqdakı bu gecə həyatını qəbul etmirdisə, deməli, buna ehtiyac yox idi və günlərin bir günündə Əbdül Qafarzadə Ağakərimi də, Vasilini də, Mirzəibini də kabinetinə çağırıb morqun gecə həyatını – qumarı da, nəşəni də qadağan elədi (araq alverini isə hələlik saxlamışdı).

Gözləri bərələ qalmış Ağakərim də, Vasili də, Mirzəibi də ağızlarını açıb bir kəlmə söz deyə bilmədilər, çünki bunun heç bir mənası yox idi. Əbdül Qafarzadə həmişə yüz ölçüb bir biçirdi, sözü ki, dedi,qurtardı, burada ikinci bir söhbət ola bilməzdi.

Burun bu xəbəri eşidəndə özündən çıxdı, Ağakərimi də, Vasilini də, Mirzəibini də söyüb biabır elədi, hədələdi və bu adamların yalvarıb-yaxarmaqlarına baxmayaraq, günorta, qardaşı Gülbala ilə birlikdə Əbdül Qafarzadənin kabinetinə girdi.

Burunun əsl adı Soltanmurad idi, amma burnu həddən artıq böyük olduğu üçün ləqəbinə çevrilmişdi. On səkkiz yaşındaikən adam öldürmüş, on beş il həbsdə yatmış, sonra günün günorta çağı əmanət kassasını qarət etdiyinə görə yenidən on beş il həbsə məhkum olmuş və bu müddətin də on ilini yatıb çıxmış bu adam

Bakının bütün yuxarı məhəllələrində məşhur idi. Həmin məhəllələrin «blatnoy» cavanları arasında ən etibarlı andlardan biri Burunun canı idi: «Soltanmurad canı!»

Həbsdən qayıdandan sonra Burun taksi sürücüsü işləyirdi, amma onun taksidən götürdüyü qazanc Tülkü Gəldi Qəbiristanlığındakı gecə həyatından götürdüyü qazancın heç onda biri də deyildi.

Burunun kiçik qardaşı Gülbala təxminən iki metr boyu, yüz əlli kilo da çəkisi olan keçmiş boksçu idi və o da taksi sürürdü. Qardaşlar təkcə taksi sürücüləri arasında yox, ümumiyyətlə, şəhərin sex və restoran müdirlərindən tutmuş, milis işçilərinəcən camaatın arasında tanınan adamlar idi. Burunun sədəf rəngli «Qaz-24»ü də Bakının küçələrində öz sahibindən az məşhur deyildi.

Əbdül Qafarzadə kabinetində tək idi və onda da indiki kimi qəzetləri beləcə dəstəçin yığıb oxumaqla məşğul idi.

Burun özündən xeyli hündür və canlı qardaşını əli ilə kənara itələdi və düz Əbdül Qafarzadənin qabağına yeridi:

– Bağlayırsan morqu, hə?

Əbdül Qafarzadə əlindəki qəzeti mizin üstünə qoydu. Buruna baxdı, qardaşı Gülbalaya baxdı, sonra başını tərpətdi, yəni ki, hə, bağlayıram və ürəyində də fikirləşdi ki, dünyanın qəribə işləri var, iki doğma qardaşdı, amma birinin burnu o boyda, o birisinin isə özü zırpı, burnu adi burun.

Burun hirsdən oynayan gözləri ilə Əbdül Qafarzadəyə baxa-baxa və dərisi qaralıb codlaşmış boğazının iri damarları şişə-şişə:

– Bilirsən mən kiməm?! – qışqırdı.

Əbdül Qafarzadə gözlərini qarşısında dayanmış əlli dörd-əlli beş yaşlı bu dəlisov adamdan çəkməyərək altındakı kürsünü düzəldib yerini rahatladı, dirsəklərinin ikisini də mizin üstünə qoydu, əllərini bir-birinə sürtüb:

– «Domal» bilirsən nədi?– soruşdu.

Burun:

– Yox! – qışqırdı.

Əbdül Qafarzadə həmişəki kimi aram-aram:

– Hardan biləsən? Evdə bişməyib, qonşudan gəlməyib!.. – dedi. – Özü də çətin tapılır. QDR buraxır. Itə-qurda gərək ağız açasan ki, bir yeşik göndərsin evə... Paraşokdu. Zaxodu-zadı yuyurlar onuynan. Bax, Soltanmurad, – Əbdül Qafarzadə diqqətlə Burunun gözlərinin içinə baxdı. – səni elətdirərəm o cür paraşok! O yekə burunun var a, sən öləsən, onu da ət maşınından keçirtdirib yedirdərəm arvaduva, uşaqlaruva!..

Burunun ürəyi az qalırdı sinəsindən qopub çıxsın və bu dəqiqə o öz doğma anasını da öldürərdi, amma indi yerindən tərpənə bilmirdi, ağzını açıb bir söz də deyə bilmirdi, çünki bu dəm Soltanmurad Əbdül Qafarzadənin çeşməyin ardından diqqətlə baxan boz gözlərində elə bir soyuqluq hiss edirdi ki, bu soyuq ömrünün çoxunu həbsxanalarda keçirmiş, kriminal aləmdə canavar hesab olunan bu adamın bütün içini birdən-birə üşütməyə başlamışdı; Soltanmurad təkcə duyğuları ilə yox, bütün bədəni ilə hiss edirdi ki, yumşaq kürsüdə oturub mizə dirsəklənmiş bu boz gözlü, qara qalstuklu, eynəkli adam dediklərinin hamısını indicə yerinə yetirdə bilər.

Ağappaq ağarmış və hirsindən yerində, az qala, uçunan Gülbala, elə bil, birdən özünə gəldi, Əbdül Qafarzadəyə tərəf yerimək istədi, amma Burun gözlərini Əbdül Qafarzadədən çəkməyərək əli ilə qardaşını saxladı və təkcə:

– Baxarıq!.. – deyə bildi, sonra sərt hərəkətlə geri dönüb qardaşını da ardınca çəkə-çəkə kabinetdən çıxdı.

Həmin hadisədən sonra Burun daha Tülkü Gəldi Qəbiristanlığında görünmədi, amma aradan təxminən iyirmi-iyirmi beş gün keçmiş köhnə «Inturist»in restoranında təsadüfən Vasili ilə rastlaşdı, özünü saxlaya bilməyib cavan qızın yanında (Vasili restorana növbəti cavan və gözəl bir qızla gəlmişdi) Vasilinin başına yarımçıq bir şüşə konyak boşaltdı, konyakdan yaşarmış sifətinə də bir dənə yağlı sillə şəkdi. Burun öz aləmində Əbdül Qafarzadədən intiqamını bu cür aldı.

Əlbəttə, Əbdül Qafarzadə bu restoran əhvalatından o saat xəbər tutdu və iki gündən sonra, axşamüstü Burunun sürdüyü taksiyə dörd nəfər cavan oğlan oturdu, maşını Zuğulbaya tərəf sürdürdü, Bakıdan bir az aralanmış maşını saxlatdırdı, dördü də Burunun üstünə düşüb onu huşunu itirənəcən döydülər, sonra da şalvarını çıxardıb çıxıb getdilər. Həmin axşamın səhəri o şalvarı bayraq kimi Burunun yaşadığı evin küçə qapısının üstündən asmışdılar və məhəllənin bütün cavanları, arvad-uşaq – hamı küçədə asılmış o şalvarı görmüşdü.

Bundan sonra Burun da, Gülbala da üç dəfə Əbdül Qafarzadəyə hücum etmək istəmişdilər, amma hər dəfə də elə bir rüsvayçılıqla geri çəkilmişdilər ki, həmin rüsvayçılıq Əbdül Qafarzadəyə ləzzət vermişdi, ürəyi darıxan vaxtlar yadına düşəndə kefi kökəlmişdi. Sonra bir müddət görünməmişdi, amma günlərin bir günü Əbdül Qafarzadənin kabinetinin qapısı açıldı və Burun içəri girdi:

– Mənə kömək elə, Əbdül qədeş!

Məlum oldu ki, Səmərqənddəki fizika müəllimi Sayzulla Mirzəmuhəmmədov Burunu elə aldadıb və Burunun başına elə bir iş açıb ki, indi Burun çapalayır, o işin altından çıxa bilmir.

Və Əbdül Qafarzadə Buruna kömək elədi.

Əbdül Qafarzadə eləcə kömək əlini uzadandan sonra Burun əlində bir qəzet bükülüsü kişinin kabinetinə girdi ki, hörmətini bildirsin və hədiyyə versin. Əbdül Qafarzadə isə boz gözləriylə çeşməyinin altından o qəzet bükülüsünə ötəri bir nəzər salıb:

– Lazım deyil... – dedi. – Bayramlarda təbrik eləyərsən...

Onda Novruz bayramının ərəfəsiydi və həmin vaxtdan etibarən Burun bütün Novruz bayramlarında Əbdül Qafarzadəni hədiyyə ilə təbrik etməyə başladı. Bir dəfə isə Əbdül Qafarzadə Ağakərimi yanına çağırtdırdı:

– Novruz bayramından başqa bayram yoxdu, bəyəm? Burun sovet adamı döyül? 7 Noyabr var, 1 May var, Konstitusiya günü var... Mən yuxarıları təbrik eləyirəm, amma bu özünü elə aparır ki, elə bil, Iranda yaşayır, Xomeyninin bacısı oğludu, Novruzdan başqa bayram tanımır... Iki yüz milyondan çox sovet adamı necə, Burun da elə!.. Get çatdır ona!

Bundan sonra Burun Əbdül Qafarzadəni bütün bayramlarda təbrik edirdi və Əbdül Qafarzadə də o hədiyyələri gülümsəyə-gülümsəyə xüsusi bir ləzzətlə qəbul edirdi. Bu gözəl və ləzzətli iş o yerə gəlib çıxmışdı ki, Əbdül Qafarzadə ilə nəşə davası eləyən Burun indi onun yanında siqaret çəkməyə cəsarət etmirdi ki, hörmətsizlik olar.

Əbdül Qafarzadə Ağakərimə tapşırdı və morqu hərəsindən ayı 70 manata altı tələbəyə – hər otaqda iki nəfər – kirayə verdilər. Uzaq kəndlərdən gəlib Bakıda

texnikumda oxuyan bu tələbələr sakit adamlar idi və Ağakərim, Mirzəibi, Vasili iş çox olanda həmin tələbələrə də alkoqoliklər kimi pulsuz qəbir qazdırırdılar.

Tələbələr hər ay 420 manat pulu qarovulçu Əflatuna verirdilər (kirayənişinlərin məsuliyyəti qarovulçu Əflatunun boynunda idi, yəni işdi-şayət, bu kirayənin üstü açılsaydı, cavabdeh Əflatun idi, Əbdül Qafarzadənin isə, əlbəttə, bu işdən xəbəri yox idi) və Əflatun da o pulu gətirib verirdi Əbdül Qafarzadəyə. Əbdül Qafarzadə bu pulun 20 manatını qarovulçu Əflatuna verirdi (qarovulçu Əflatun da həmişə eyni sözlərlə o pulu alıb cibinə qoyurdu: «–Allah səni, o adı nədi, şey, bizim başımızın üstündən əskik eləməsin!.. Allah sənin cibinə o adı nədir, şey, min bərəkət versin!.. Biz də sənin kölgəndə dolanırıq!..»), qalanını özü götürürdü. Əlbəttə, ayda dörd yüz manat Əbdül Qafarzadə üçün bir şey deyildi, amma hər şeydə gərək qayda-qanun və dəqiqlik olaydı; bir də ki, Əbdül Qafarzadə böyük pullar qazandığı üçün, kiçik məbləğlərdən imtina edən adam deyildi – hər məbləğin öz yeri və öz qiyməti var.

Həmin aprel günü Əbdül Qafarzadə əvvəlcə Fərid Kazımlının, sonra da Burunla qardaşını yadına saldı, qollarını geniş açıb ləzzətlə gərnəşdi, gülümsədi, zəngi basıb o cavan və gözəl katibə qızı çağırdı və katibə qız içəri girəndə Əbdül Qafarzadə on gündə birinci dəfə bu qızı təpədən-dırnağacan əməlli-başlı nəzərdən keçirdi, sonra:

– Vasilini çağır bura... – dedi.

Əbdül Qafarzadənin nəzərləri altında qıpqırmızı qızarıb pörtmüş o katibə qız heç bilmədi ki, kabinetdən necə çıxdı; ömründə heç vaxt və heç kim ona beləcə açıq-saçıq baxmamışdı; eyni zamanda Əbdül Qafarzadə bu qıza elə baxırdı, elə bil, bazarda qarpıza, ya yemişə baxırdı ki, alandan sonra içi necə çıxacaq...

Qəbiristanlıq Idarəsində işləyən qadınların, demək olar ki, hamısı öz işlərinin gözəl mütəxəssisləri olmaqla bərabər, həm də bir qadın kimi gözəl idilər. Makinaçı Bədurə xanımdan tutmuş baş mühasib Yevdokiya Stanislavovnayacan, bu qadınları Əbdül Qafarzadə özü bir-bir seçib işə götürmüşdü. Düzdü, bu qadınların bəzisi daha qocalmışdı, amma buna baxmayaraq, Əbdül Qafarzadə onları işdə saxlayırdı və həmişəki kimi də hörmət edirdi; həmişəki kimi– yəni cavan vaxtlarında olduqları kimi; bu qadınların hər biri öz vaxtında Əbdül Qafarzadənin sevimli qadınları olmuşdu...

Bir dəfə fasilə zamanı qadınlar bir yerdə oturub evdən gətirdikləri naharı yedikləri zaman baş mühasib Yevdokiya Stanislavovna, nədənsə, birdən-birə xəyala dalmışdı, göy gözləri dolmuşdu, dərindən köksünü ötürüb: «– Abdul vsex nas nadul...» – demişdir. Kassir Marqarita Iosifovna isə baş mühasibin sözlərinə belə düzəliş vermişdi: «– Abdul vsyu Sovetskuyu vlast nadul!..» Nə isə... Bütün bunlar Tülkü Gəldi Qəbiristanlığının mətbəx söhbətləri idi...

Əbdül Qafarzadə Vasili Mitrofanovu Rostovda yaşayan dostlarının zəmanəti ilə işə götürmüşdü və Vasili də qoca anası ilə birlikdə Rostovdan köçüb Bakıya gəldiyi, Qəbiristanlıq Idarəsində işlədiyi bu on iki ildə həmin zəmanəti yüz faiz doğrultmuşdu. Göygöz, sarışın, arıq, yaraşıqlı və ilk baxışda sadəlövh görünən bu oğlan Əbdül Qafarzadənin bircə təbəssümündən, bircə baxışından kişinin nə istədiyini başa düşürdü və elə buna görə də Əbdül Qafarzadəyə bəlkə də ən yaxın adam idi (əlbəttə, ailə üzvlərindən başqa: ümumiyyətlə, yer üzündəki adamlar Əbdül

Qafarzadə üçün iki yerə bölünürdü: ailə üzvləri, yəni Qaratel, Sevil, Ömər, balaca Əbdül (əvvəllər o yazıq Orduxan!..), bir də ki, qalan bütün insanlar).

Əbdül Qafarzadə Vasiliyə Bakıda ikiotaqlı mənzil almağa kömək etmişdi və Vasili əntiqfiruş əşyalarla, gözəl rəngkarlıq əsərləri ilə xüsusi zövqlə bəzədiyi o ikiotaqlı mənzildə təkcə anası ilə bir yerdə yaşayırdı. Hərdən o mənzil Əbdül Qafarzadəyə lazım olurdu və o zaman Vasili evin açarını gətirib verirdi Əbdül Qafarzadəyə, qoca anasını da götürüb Bakıdakı saysız-hesabsız dostlarının birinin evinə gedirdi və yalnız Əbdül Qafarzadə sifariş göndərəndən sonra, öz mənzilinə qayıdırdı – üç saatdan sonra, yaxud üç həftədən sonra...

Əbdül Qafarzadə Vasilinin şəklini, qabaqcıl bir fəhlə kimi, rayon əmək qabaqcıllarının fəxri lövhəsinə vurdurmuşdu və ümumiyyətlə, cürbəcür zəfər raportlarında, məruzələrdə, hətta mətbuatda Vasilinin adı tez-tez nümunə çəkilirdi, iki dəfə medal almışdı və indi Əbdül Qafarzadə onu ordenə təqdim etmək istəyirdi. Əbdül Qafarzadə hərdənbir kefinin kök çağlarında gülə-gülə Vasiliyə deyirdi: «Hayıf adın qəbirqazandı də!.. Bizdə qəbirqazana qiymət qoyan yoxdu.., başqa işdə işləsəydin, doroqoy, lap dəllək də olsaydın, indi səni geroy eləmişdim, bütün ölkə indi səndən danışırdı! Vallah, səni lap deputat eləyərdim! Neyniyim? Qəbiristanlığın üzü qara olsun!..»

Düzdü, Əbdül Qafarzadə Vasilini Sosialist Əməyi Qəhrəmanı eləməmişdi, deputat da eləməmişdi, amma onu partiyaya keçirmişdi və bir müddətdən sonra Qəbiristanlıq Idarəsi ilk partiya təşkilatının katibi seçilmişdi – fəhlə, özü də ki, rus– həm sarsılmaz xalqlar dostluğuna bir nümunə idi, həm də ki, Əbdül Qafarzadənin sədaqətə verdiyi qiymət idi.

Vasili Mitrofanov Rostovda bəzi vəzifəli və pullu adamların eyş-işrət məsələlərinin yüksək səviyyəli təşkili ilə özünə pul qazanırdı (və az da qazanmırdı!). Bakıya gələndə Tülkü Gəldi Qəbiristanlığının gündüz və gecə həyatına bələd olandan sonra buradakı əlverişli şəraiti o saat düzgün qiymətləndirə bildi və bir müddət əvvəlki peşəsindən istifadə etməyə başladı, tanış qızları vaxtaşırı Rostovdan Bakıya qonaq dəvət elədi, Bakıdakı fahişələrlə işgüzar əlaqəyə girdi və gecələr Tülkü Gəldi Qəbiristanlığına gələn müştərilər araq, yaxud nəşə almaqdan başqa, Vasiliyə müəyyən miqdarda (bu baxırdı fahişəyə və müştəriyə!) pul verib (bu pulun altmış faizi fahişəyə, qırx faizi isə Vasiliyə çatırdı), özü ilə bir gecəlik fahişə apara bilərdi (fahişə əlavə olaraq müştəridən nə qoparacaqdı – bu onun öz işi idi və baxırdı həmin fahişənin səriştəsinə və bacarığına!), amma Vasilinin get-gedə qızışan bu fəaliyyəti uzun çəkmədi, Əbdül Qafarzadə Tülkü Gəldi Qəbiristanlığına fahişə gətirməyi və ümumiyyətlə, Vasilinin belə axmaq bir işlə məşğul olmağını qəti qadağan etdi.

Vasili bir daha Tülkü Gəldi Qəbiristanlığına fahişə gətirmədi, amma Bakıda, Bayıl tərəfdə yaşayan və anaşaya öyrənmiş bəzi cavan rus qızlarından istifadə etməyə başladı: həmin qızları anaşa ilə təmin edirdi və onları Azərbaycanın rayonlarında, eləcə də qonşu Gürcüstanın, Ermənistanın, Dağıstanın rayonlarında, Krasnodar və Rostov vilayətlərində işləyən pullu kolxoz sədrlərinin, sovxoz müdirlərinin, rayon səviyyəli rəhbər partiya və sovet işçilərinin müvəqqəti istifadəsinə verirdi. O rayon xadimləri məzuniyyətə çıxıb Kislovodskda, Soçidə, Yurmalada sanatoriyaya gedirdilər və qızlar da Vasilidən bir aylıq anaşalarını (bəziləri morfiyə, kokainə keçmişdi və Vasili də onların qarasına deyinə-deyinə

anaşadan xeyli baha olan bu narkotikanı tapıb almağa məcbur olurdu) alırdılar, o rayon xadimlərinin hesabına Kislovodskda, Soçidə, Yurmalada sanatoriyalara yaxın gözəl evlərdə kirayə qalırdılar, qəyyumlarına kef verirdilər, təzədən Bakıya qayıdırdılar, Vasili bu qızlardan da haqq alırdı, o möhtərəm rayon xadimlərindən də; qızlar özləri də pis qazanmırdılar.

Əbdül Qafarzadə belə hesab edirdi ki, kişi olan kəs işlərini gərək elə qursun, fahişədən asılı olmasın: ümumiyyətlə, o işə ki, arvad qarışdı (özü də ki, fahişə!), onda o işin axırı olmaz! Buna görə də Vasili Mitrofanov Tülkü Gəldi Qəbiristanlığının işlərindən başqa, burada yalnız Əbdül Qafarzadənin özünün intim işlərinin vasitəçisi və təşkilatçısı idi.

Vasili, Əbdül Qafarzadəyə bu dərəcədə məhrəm adam olsa da, həmişə öz yerini bilirdi, bu məhrəmlikdən sui-istifadə etmirdi, kişinin yanında siqaret də çəkmirdi (əlində siqaret olsaydı, Əbdül Qafarzadəni görən kimi, siqareti arxasında gizlədirdi), içki də içmirdi və Əbdül Qafarzadə də bunu yüksək qiymətləndirirdi, özünün ezamiyyət məsələlərini Vasiliyə həvalə edirdi.

Əbdül Qafarzadə başqa şəhərlərə ezamiyyətə, əsasən, iki məsələ ilə bağlı gedirdi: ya məhəbbət məsələlərinə görə, ya da ki, qumara (işgüzar məsələləri, əsasən, Bakıda həll edirdi. SSRI-nin başqa şəhərlərində yaşayan dostlara ehtiyac olanda, onları Bakıya dəvət edirdi). Çoxdan idi qumar oynamırdı və məsələ onda deyildi ki, sonuncu dəfə qumar toplantısına gedəndə (Riqaya yığışmışdılar) bir gecədə yüz on min manat nəqd pul uduzmuşdu – qumar, qumardır və qumar oynayan kəs udmağı bacardığı kimi, uduzmağı da bacarmalıdır; məsələ onda idi ki, daha əvvəlki oyunçular yox idi, çoxu ölmüşdü, kimisi öldürülmüşdü, kimisi sovet vətəndaşlığından çıxıb Israil adı ilə xaricə getmişdi və indi soraqları ABŞ-dan, AFR-dən, Italiyadan, Türkiyədən, Yunanıstandan, elə Israilin özündən gəlirdi...

Vaxtıyla Moskvada, Leninqradda, Tiflisdə, Daşkənddə, Irəvanda, Tallində, başqa şəhərlərdə yaşayan bu adamlar sanballarına görə, yəni yalnız pullarının çoxluğuna görə yox, təmkinləriylə (ağır oturub batman gəlirdilər!), tədbirləriylə, özlərini aparmaqlarıyla Əbdül Qafarzadəyə bab idilər, gədə-güdə deyildilər, xırda-xuruş oğurluqla işləri olmazdı, amma indi o dünyagörmüş kişilərin yerini ağzından süd iyi gələn adamlar tutub və düzdü, bunların pulları əvvəlkilərdən də artıqdır, amma özləri bir qara qəpiyə dəyməzlər. Bu yeni nəsil daha böyük əraziləri idarə edirdi, yəni həmin ərazilərin bir partiya-sovet rəhbərliyi var idi, bir də ki, yüngül sənaye zavod fabriklərini, ticarəti, iaşə və məişət xidmətini, narkotika alverini, fahişəliyi əllərinə almış həmin gizli rəhbərlik, bəzən isə gizli rəhbərliklə rəsmi rəhbərlik arasında da yaxşı bir əlaqə yaranırdı; bunlar belə idi, amma yeni nəsil tamam cırtqoz adamlardan ibarət idi. Əlbəttə, köhnə dostlardan da salamat qalanlar (Əbdül Qafarzadə kimi!) az deyildi, amma qocalırdılar... Hərdən bu barədə fikirləşəndə Əbdül Qafarzadə öz-özünə gülümsəyirdi, çünki bütün sovet qəzetləri, radio-televiziya səhərdən axşamacan mənfur kapitalist ölkələrindəki mafiyadan yazırdı, deyirdi, göstərirdi və bəzən elə həmin qəzetlərin özündə Orta Asiyadan hansı bir Sosialist Əməyi Qəhrəmanı, kolxoz sədrininsə, yaxud Rostov vilayətindən, Pribaltika respublikalarından hansı bir görkəmli təsərrüfat rəhbərininsə haqqında təriflərlə dolu yazılar dərc edilirdi və bu həmin Sosialist Əməyi Qəhrəmanı, həmin təsərrüfat rəhbəri olurdu ki, Əbdül Qafarzadə şəxsən onunla Odessada, yaxud Irəvanda, yaxud Kislovodskda qumar oynamışdı, işgüzar məsələlər həll eləmişdi...

Yeni nəslin həyat tərzi qətiyyən Əbdül Qafarzadənin xoşuna gəlmirdi və buna görə də daha qumara getmirdi, işgüzar əlaqələr isə, əlbəttə, əvvəlki kimi qalmışdı. Bu cavan adamların gündəlik güzəranının zahiri cəhətləri: içdikləri viski də, yanlarında gəzdirdikləri qəhbələri ən son dəblə geyindirmələri və qaş-daşla bəzəmələri də, özlərinin nəşə çəkməsi, morfi vurdurması da, hər dəfə restoranda yeyib-içəndən sonra xörəkpaylayanlara yüz manat, iki yüz manat artıq pul verməkləri də, daha heç nədən çəkinməyib açıq-aşkar malikanələr tikdirmələri, camaatın gözü qabağında şəxsi «Mersedes» lərində gəzməkləri də Əbdül Qafarzadənin ürəyincə deyildi. Partiya və sovet işçiləri, respublikaların, vilayətlərin, şəhərlərin rəhbərliyi, inzibati orqan işçiləri nə qədər rüşvət alsalar da, hər halda, bu yeni nəsil nümayəndələri kimi, gəmidə oturub gəmiçiyə bu qədər açıq-aşkar meydan oxumaq olmazdı və Əbdül Qafarzadənin fikrincə, elə ola bilərdi ki, bunun axırı yaxşı qurtarmasın. Düzdü, dünyanın işlərini bilmək olmaz, amma belə görünür ki, Brejnevin ömrünün sonuna az qalıb, qolundan tutub gəzdirirdilər, iclaslarda danışanda da o qədər ağzını marçıldadırdı ki, adam heç nə başa düşmürdü. Tarix göstərir ki, Sovet Ittifaqında birinci şəxsin əxlaqından və əqidəsindən çox şey asılıdır. Brejnevdən sonra kim gələcəkdi? Əlbəttə, elə birisi gələ bilərdi ki, işlər lap Brejnevin vaxtından da yaxşı getsin (və Əbdül Qafarzadə, əslində, əmin idi ki, elə belə də olacaq! Bir cəmiyyətdə ki, bu dərəcədə bir söz deyib, başqa iş görürlər, onu düzəltmək mümkün deyil, çünki dağıla bilər, buna görə də seçdiyi rəhbərlik özünə bab olmalıdır!), amma şər deməsən, xeyir gəlməz, elə birisi də iş başına keçə bilərdi ki (buna Sovet Ittifaqı deyərlər – və tarix deyərlər!– nə desən, ola bilər!), aləmi qatışdırsın bir-birinə... Düzdü, Əbdül Qafarzadə dünyada heç nəyə inanmasa da, pulun gücünə yüz faiz inanırdı, amma, hər halda, o cür ki, bu yeni nəsil özünü aparır– düz deyildi, qəti düz deyildi!

Əvvəllər Moskvadan tutmuş Xersonacan ölkənin cürbəcür şəhərləri ilə zəngləşərdilər, bir yerə yığışardılar və o zaman qumar da, eyş-işrət də, kef məclisləri də, əslində, bir bahanə olardı, çünki əsas məqsəd başqa idi: bir-birilərinə fikir söyləyərdilər, məsləhət verərdilər, kömək əli uzadardılar, bir-birilərini öz işləri ilə tanış edərdilər və gələcək işgüzar görüşləri hazırlayardılar... Indi isə məqsəd qumarın özüdür, kefin özüdür, çünki pulu çox qazanırlar, əvvəlkindən asan qazanırlar, rüşvəti də çox verirlər, çünki alan da çoxdur. Əvvəllər o kişilərin oturub-durduqları adamlar professorlar olurdu, görkəmli artistlər, bəstəkarlar, rəssamlar, yazıçılar olurdu, məşhur həkimlər olurdu... Düzdü, bu yeni nəslin də əlinin altında (!) professorlar, rəislər, nazirlər var idi, amma iş burasında idi ki və Əbdül Qafarzadə günlər keçdikcə buna daha artıq dərəcədə əmin olurdu ki, indiki bu professorların, bu vəzifə sahiblərinin özləri də cırlaşıblar və cırlaşmaqda da davam edirlər, əvvəlki kişilər yox idi...

... Vasili içəri girəndə Əbdül Qafarzadə gözünü qəzetdən çəkib:

– Moskvaynan danış, – dedi. – Qastinisada iki nəfərlik yer lazımdı sabaha.

Vasili, təəccüb etdi və təmiz Azərbaycan dilində (dil öyrənməyə, görünür, xüsusi istedadaı var idi, Əbdül Qafarzadənin dəvəti ilə Bakıya köçəndən bircə il sonra, azərbaycanca təmiz danışırdı) soruşdu:

– Moskvaya gedirsiz, Əbdül Orduxanoviç?

Əbdül Qafarzadə Fərid Kazımlının baldızı oğlunun qarasına üz-gözünü turşudub:

– Yox, – dedi, – tanış adamlar gedir.

– Lyüks olsun, Əbdül Orduxanoviç?

– Olsun də... – Əbdül Qafarzadə çeşməyini gözündən çıxarıb dəsmal ilə şüşəsini təmizləyə-təmizləyə yüngülcə gülümsədi. – Xalası ərinin pulu çoxdu...

Vasili, Əbdül Qafarzadənin bu sözlərindən heç nə başa düşmədi, amma heç nə başa düşməyəndə də sual verib belə şeyləri aydınlaşdırmaq Vasilinin xidmət üsuluna daxil deyildi, buna görə də həmişəki kimi:

– Başqa bir şey lazım deyil, Əbdül Orduxanoviç? – soruşdu.

– Yox, daraqoy. Ancaq sənin sağlığın lazımdı.

– Çox sağ olun. Mən gedə bilərəm, Əbdül Orduxanoviç?

– Get məşğul ol, daraqoy, axşam evdə olacağam, zəng elə, mənə de.

– Baş üstə.

Vasili kabinetdən çıxdı, amma o Moskva söhbətindən sonra Vasilinin kabinetdən çıxması ilə otağa qəribə bir yaz ab-havası doldu və Əbdül Qafarzadə, əlbəttə, bu yaz ab-havasını o saat hiss etdi, duydu, tanıdı; o yaz ab-havası xatirədə də təzə, təravətli qalmışdı və birdən-birə yada düşən o xatirələr yenə də o gözəl günlərdəki kimi, kişinin içinə bir cavanlıq həvəsi gətirdi, elə bil ki, bütün qayğılarını, dərdini-sərini götürüb apardı, təzə hisslər, təzə duyğular baş qaldırdı. Düzdü, Rozanın o balıq kimi sürüşkən bədəni birdən-birə sürüşüb qucağından çıxdı, amma o yaz təravətli təzə hissləri, təzə duyğuları özü ilə aparmadı, o hisslər, o duyğular həmişəlik Əbdül Qafarzadə ilə qaldı və hərdən beləcə qəflətən yada düşürdü.

Rozanın iyirmi səkkiz yaşı var idi, yəni keçən yaz – o gözəl, o unudulmaz, hərdən yada düşüb adamın qanını qaynadan o yaz çağlarında – iyirmi səkkiz yaşı var idi və ömründə çox qadınlar görmüş Əbdül Qafarzadə bilirdi ki, Rozanın əsl sevilməli vaxtıdı, beş ildən sonra, hətta üç ildən sonra, daha gec olacaq, Roza indiki Roza olmayacaq. Əbdül Qafarzadə Rozanı birinci dəfə görəndə bu qadının bədənini necə təsəvvür etmişdisə, Rozanın bədəni, doğrudan da, o cür idi, Rozanın ağappaq, hamar və sağlam bədəni, dolu baldırları, qarnının dərininə çəkilmiş göbəyi, ding-ding dingildəyən, canlı və həmişə isti, hərarətli döşləri başdan-başa bir xoşbəxtlik idi və bu xoşbəxtlik keçən yaz Əbdül Qafarzadə kimi bir adamın belə, az qalmışdı ağlını başından çıxarsın. Roza özü də yaxşı bilirdi ki, indi ömrünün hansı çağıdır, bilirdi ki, beş ildən sonra, əlbəttə, gözəlliyini saxlayacaq, yəqin şövqünü, həvəsini də saxlayacaq, amma daha indiki Roza olmayacaq və Roza adamın ağlını başdan çıxarmağı bacarırdı.

Roza Səkkizinci kilometrdə, köhnə üçmərtəbəli bir bina ilə üzbəüz əmanət kassasında işləyirdi, tanış-bilişlərinin arasında Bakının nəinki Səkkizinci kilometrdə, ümumiyyətlə, ən gözəl qadınlarından biri hesab olunurdu və onunla ilk dəfə Vasili özünün saysız-hesabsız məclislərindən birində tanış olmuşdu. Vasili bu qadının gözəlliyini, işvəsini o saat qiymətləndirmişdi və buna görə də onu özünə yox, Əbdül Qafarzadəyə layiq bilmişdi; Rozanın gözəlliyi, işvəsi o qədər təsirli idi ki, hətta şeytan, Vasili Mitrofanovu yoldan çıxarmaq istədi, bu cavan adam Əbdül Qafarzadəyə xidmət etdiyi bütün bu müddət ərzində ilk dəfə az qaldı «xəyanət» yoluna düşsün. Vasili Əbdül Qafarzadənin zövqünə bələd idi və tamam əmin idi ki, Əbdül Qafarzadə bu qadına bir könüldən min könülə aşiq olacaq və Vasili burasını da çox yaxşı bilirdi ki, beləcə aşiq vaxtlarında Əbdül Qafarzadə pula pul demir;

Vasili Roza ilə əlbir ola bilərdi, Əbdül Qafarzadədən qoparılacaq qazancı bu qadınla yarıbayarı bölərdi və əlbəttə, qazanc da həmişəkindən çox olardı (çünki Vasili Mitrofanov Əbdül Qafarzadəni xərcə salmağın ən incə yollarını belə yaxşı bilirdi və Rozanın köməyi ilə bu yollardan gizlincə istifadə edərdi), amma Vasili çox çətinliklə də olsa, özünü məcbur etdi və «– Lənət şeytana!»– dedi.

Roza kimsəsiz, tək adam idi və Vasilinin təklifinə yəqin ki, razı olardı, amma Vasili bircə anlıq belə təsəvvür edəndə ki, Əbdül Qafarzadə bu «xəyanət»dən xəbər tutar, cavan olmağına baxmayaraq, dünyanın çox üzünü görmüş və görmədikləri barədə də nəzəri təsəvvürü olan bu adamın bütün içi uçum-uçum uçunurdu və həmin qorxu hissi Vasilini məcbur etdi ki, bu dəfə də, həmişəki kimi, Əbdül Qafarzadəyə sədaqətlə xidmət göstərsin, Roza ilə kişinin arasında sadiq bir vasitəçi olsun.

Əbdül Qafarzadə Rozanı görəndən sonra, bu qadınla Bakıda gizli və tələsik görüşmək istəmədi; əvvəlcə Vasili Moskvaya gedib hazırlıq gördü, sonra Roza Moskvaya gəldi, sonra da Əbdül Qafarzadə gəldi və Əbdül Qafarzadə heç vaxt ağlına da gətirə bilməzdi ki, canında hələ bu qədər gənclik ehtirası var imiş; Roza Əbdül Qafarzadəni bir yeniyetmə oğlan kimi, təzədən ayıltmışdı. Son vaxtlar, xüsusən, yazıq Orduxandan sonra Əbdül Qafarzadəyə elə gəlirdi ki, həyat daha yaşanıb qurtarmaq üzrədir, amma keçən yaz Moskvadakı o Rozalı günlər, elə bil, kişini təzədən yeni bir həyata qaytardı, o Rozalı günlər otuz il bundan əvvəlki hisslərin, həyəcanların yalnız xatirəsini, təəssüratını yox, o hisslərin, həyəcanların özlərini qaytarıb gətirdi.

Roza milliyətcə aysor idi və elə anlar olurdu ki, boş vaxtlarında qədim Assuriya haqqında çox kitablar oxumuş Əbdül Qafarzadəyə elə gəlirdi, elə bil, iri qara gözləri işım-işım işıldayan bu qadın Bakıdakı əmanət kassalarının birindən yox, o qədim dövrlərdən gəlib onun ömrünə daxil olub.

Roza Moskvanın lap mərkəzindəki o üçotaqlı lüks mehmanxana nömrəsində əyninə heç nə geymirdi, hil çeynəyə-çeynəyə (Əbdül Qafarzadənin hil iyindən xoşu gəlirdi) otaqlarda çılpaq gəzirdi və çarpayıda uzanıb, yaxud kresloda oturub bu sağlam, bu ehtiraslı qadına baxmaqdan doymayan Əbdül Qafarzadə heç vaxt heç hansı pulla, heç hansı bir ziynətlə, daş-qaşla o dəqiqələrdə Roza ilə öyündüyü kimi, öyünməmişdi, qürur hissi keçirməmişdi; həmin anlarda Roza, Əbdül Qafarzadənin bütün ömründə əldə etdiyi ən qiymətli şəxsi əmlak idi.

Əbdül Qafarzadə istədiyi vaxt Sovet Ittifaqının istədiyi şəhərinə istədiyi müddətə ezamiyyət götürürdü, həmin Moskva səfərini də on beş günlük nəzərdə tutmuşdu və o on beş günün birinci beş günü gecəli-gündüzlü bütöv bir an – hisslərlə, həyəcanlarla dolu nəhəng bir an kimi ötüb keçdi, həmin beş gündə nə Əbdül Qafarzadə, nə də Roza o üçotaqlı lüks nömrədən çıxdılar, heç restorana da getmədilər (ümumiyyətlə, təbiəti etibarilə xudmaniliyi xoşlamayan Əbdül Qafarzadənin restoranlarda oturmaqla arası yox idi və o beş gündə Roza heç imkan tapıb əmisi Asatura zəng də eləyə bilməmişdi).

Rozanın ən işıqlı, ən hərarətli uşaqlıq xatirələrindən biri və bəlkə də birincisi Asatur əmisinin ildə-iki ildə bir dəfə Moskvadan Bakıya gələndə ona hədiyyə gətirdiyi iri bir qutu rəngli karandaşlar idi. Bəzən elə bil ki, o karandaşların qırmızısı, yaşılı, sarısı, çəhrayısı, narıncısı on iki, on üç, on dörd yaşlı bir qız uşağının – Roza üçün həmişəlik bir keçmişdə qalmış təmiz, sadəlövh, səmimi hisslərinin, həyəcanlarının rənginə çevrilirdi və həmin vaxtlar Rozaya elə gəlirdi ki,

birdən-birə xatirələri bürümüş o qırmızının, o yaşılın, sarının, çəhrayının, narıncının işıltısında qəribə bir mütəəssirlik, hətta göz yaşı var və belə anlarda Rozanın özünün gözləri dolurdu, bu gözəl qadın həyatının indi beləcə çiçəkləyən bir çağında heç bir səbəb olmadan için-için ağlamaq istəyirdi.

Asatur əmi Moskvada tramvay sürürdü və doğma qardaşı, yəni Rozanın atası vəfat edəndən, Rozanın anası qonşuluqda yaşayan dul azərbaycanlı bərbərə ərə gedəndən sonra, on üç-on dörd il idi ki, Bakıya gəlmirdi, amma bütün bayramlarda – Yeni ildə, 8 Martda, 7 Noyabrda, 1 Mayda, Azərbaycanda Sovet hakimiyyəti qurulması münasibətilə 28 Apreldə, eləcə də hər il ad günündə Rozaya təbrik açıqcaları göndərirdi və Asatur əmi bütün dünyada yeganə adam idi ki, Rozaya beləcə təbrik açıqcaları göndərirdi.

Vasili Mitrofanov Əbdül Qafarzadənin adından Roza ilə, necə deyərlər, danışıqlar aparanda və Roza bu gözəl Moskva səfərinə razılıq verəndə o qırmızının, yaşılın, sarının, çəhrayının, narıncının o mütəəssir işıltısı bir gecə vaxtı yenə də xatirələrə dolmuşdu və həmin xatirələrdə Asatur əminin siması Rozanın o uşaqlıq hissləri, həyəcanları kimi, bir təmizlikdən, paklıqdan xəbər verirdi. Roza Moskvada Asatur əmiyə mütləq zəng etmək, onunla görüşmək, evinə getmək istəyirdi və bu barədə Əbdül Qafarzadəyə də demişdi, amma Asatur əminin tramvaysürən olduğunu deməmişdi, utanmışdı, demişdi ki, əmisi SSRI Ticarət Nazirliyində işləyir; bunu demişdi və özü öz sözlərindən nigaran qalmışdı, çünki birdən Əbdül Qafarzadə Ticarət Nazirliyində işləyən o adamı görmək istəyərdi, onunla tanış olmaq istəyərdi...

Amma Roza nahaq yerə nigaran qalırdı, çünki Əbdül Qafarzadə dünyadakı rozalara və qeyri-rozalara yaxşı bələd olduğu üçün, sövq-təbii ilə o saat başa düşdü ki, Roza yalan deyir və öz kefini pozmamaq üçün dərininə getmədi...

O beş gündə o üçotaqlı nömrədən dişardakı həyatı təkcə Vasili Mitrofanovun zəngləri yada salırdı; Vasili də həmin mehmanxanadakı nömrələrdən birində qalırdı və hər gün bir dəfə səhər, bir dəfə də axşam zəng eləyirdi: «– Bir şey lazım deyil, Əbdül Orduxanoviç?» Əbdül Qafarzadəyə nə lazım olacaqdı? – keçənilki o gözəl yaz günlərində, o üçotaqlı lüks nömrədə Rozadan başqa Əbdül Qafarzadəyə dünyanın heç bir ləl-cəvahiratı, heç bir şeyi lazım deyildi; amma həmin beşinci günün axşamı Vasili zəng eləyəndə Əbdül Qafarzadə:

– Ürəyimə kamança düşüb, Vasya... – dedi və bu sözləri elə yanıqlı, elə ürəkdən dedi ki, Vasili, kişinin səsini heç vaxt beləcə mütəəssir eşitməmişdi.

Əbdül Qafarzadə heç özü də bilmədi necə oldu ki, ürəyi kamança istədi; adətən, qəmli, kədərli vaxtlarında kamançaya qulaq asardı, amma Moskvadakı o yaz günlərində Əbdül Qafarzadənin ürəyi də, elə bil, yüz ilin ağacıydı, təzədən çiçəkləmişdi və kişi dünyanın bütün dərdini-sərini unutmuşdu; amma, hər halda, görünür, ürəkdə nəsə varmış...

Rozadan fərqli olaraq, Əbdül Qafarzadə heç vaxt o lüks nömrədə çılpaq gəzmirdi, çarpayıdan qalxan kimi, əyninə paltar geyirdi; Rozanın o ağappaq, sim kimi tarım çəkilmiş bədəninin müqabilində özü özünün yekə və tüklü qarnından, özü özünün yaşından həyalanırdı, hətta eşq aləminə, məhəbbət işlərinin bütün incəliklərinə yaxşı bələd olan Rozanın gülə-gülə, şövqlə, ehtirasla çağırmağına baxmayaraq, Əbdül Qafarzadə onunla birlikdə duşun altına da girmirdi, gəlib vanna otağında Rozanı iri Çin məhrabasına bürüyüb qucağına alırdı, çarpayıya aparırdı.

Vasili səhər tezdən Bakıya uçdu və axşam reysi ilə məşhur kamança çalan Əhməd Şirkərimlə birlikdə Moskvaya qayıtdı, Vnukova aeroportundan taksini birbaşa Moskva Mərkəzi Bazarına sürdürdü, abşeronlu gülsatanlardan Roza üçün bir qucaq qönçə qızılgüllər aldı, elə həmin axşam Əhməd Şirkərimi o üşotaqlı lüks nömrəyə gətirdi və Əbdül Qafarzadə ilə Roza da səliqə ilə geyinib Əhməd Şirkərimin çalğısına qulaq asdı.

Əhməd Şirkərim kamançanı köklədi, həmişəki kimi, gözlərini yumdu və əvvəlcə bir «Segah» çaldı və o «Segah»ı o qədər ürəkdən çaldı ki, o «Segah» Moskvadakı o mehmanxana nömrəsində o qədər sirli, gözlənilməz, eyni zamanda, məhrəmanə səsləndi ki, kamançanı sevməyən, muğamatı da başa düşməyən Vasili ilə Roza da, doğrusu, bu çalğıdan həzz aldılar. Sonra Əhməd Şirkərim Azərbaycan xalq mahnılarını, oyun havalarını çaldı, təzədən muğamata qayıtdı, sonra Əbdül Qafarzadənin xahişi ilə «Sarı bülbül» çaldı; bu mahnını rəhmətlik Xıdır çox xoşlayırdı və indiki kimi Əbdül Qafarzadənin yadında idi: Xıdır qışın soyuğunda da həyətlərindəki krantdan axan buz kimi suyun altında yuyuna-yuyuna «Sarı bülbül»ü oxuyurdu – «Sarı bülbül» həmənki «Sarı bülbül» idi, Xıdır isə çoxdan haqq dünyasında idi və elə bil ki, Əhməd Şirkərim də bundan xəbərdar idi, Əbdül Qafarzadənin ürəyini sızıldadan bu xatirələri kamançanın diliylə söyləyirdi – Əbdül Qafarzadənin gözləri yaşardı; axırda «Kəsmə şikəstə» çaldı və Əhməd Şirkərim gözlərini yumub kamanın simlər üstündəki get-gəli ilə həmahəng başını yırğalaya-yırğalaya o «Kəsmə şikəstə»ni çaldlqca Əbdül Qafarzadəyə elə gəlirdi ki, kamançanın bu səsiylə, «Kəsmə şikəstə»nin bu sədaları ilə Rozanın o iri qara gözləri, o ağappaq tarım bədəni arasında bir doğmalıq var; bu doğmalıq qan doğmalığı deyildi, vaxt, zaman doğmalığıydı, dünyanın qədim çağlarından, tarixin səsçatmazlığından, ünyetməzliyindən xəbər verirdi və Əbdül Qafarzadə də gözlərini yumub kamançanı dinləyə-dinləyə o qədimlərə, o səsçatmaz ünyetməzliyə getmişdi.

Əhməd Şirkərim «Kəsmə şikəstə»ni çalıb qurtarandan sonra, o mehmanxana nömrəsinə qəribə bir sükut çökdü və bu sükutun özündə də bir qədimlik var idi; sonra Əbdül Qafarzadə əlini pencəyinin döş cibinə saldı. Timsah dərisindən tikilmiş və az qala otuz ildən bəri cibində gəzdirdiyi iri portmanesini çıxartdı və Əhməd Şirkərimin qabağına on dənə yüzlük sayıb:

– Halal olsun, – dedi.

Vasili özündən razı halda Əhməd Şirkərimə baxdı və başını tərpətdi, yəni ki, gördün də...

O şax yüzlüklərdən, Əbdül Qafarzadənin musiqini beləcə qiymətləndirməsindən vəcdə gəlmiş Əhməd Şirkərim ayağa qalxdı, kamança ilə birlikdə Bakıdan gətirdiyi skripkasını qoburdan çıxartdı, gəlib Rozanın qarşısında dayandı və yenə də gözlərini yumub Rozaya ithaf etdiyi «Oçi çernıe» çaldı...

O gecə çarpayıda Əbdül Qafarzadənin böyrünə qısılıb yuxuya gedən Roza o üçotaqlı lüks nömrənin sakitliyi və qaranlğı içində kişinin ürəyinin döyüntüsünü aydınca eşidirdi və o döyüntüdə heç vaxt duymadığı bir doğmalıq duyurdu; həmin anlarda Rozaya elə gəlirdi ki, bu yekə və tüklü qarınlı, yaşlı kişini, həqiqətən, ürəkdən sevməyə başlayıb, hətta o yad, eyni zamanda, birdən-birə bu dərəcədə doğma olmuş kamança da, elə bil, təzədən harada isə həzin-həzin çalmağa başladı, o çalğının uzaq səsi sakitlik içindən süzülüb gəldi. Roza yuxuya gedə-gedə elə təsəvvür etdi ki, bura mehmanxana nömrəsi yox, öz evidi, yanında uzanmış bu kişi

də onun əridi; Roza bir ər-arvadlıq doğmalığı, ailə mehribanlığı hiss etdi və tamam yuxuya getməzdən əvvəl Əbdül Qafarzadənin tüklü sinəsini yüngülcə tumarladı.

Bakıda, Səkkizinci kilometrdə Rozanın işlədiyi əmanət kassası ilə üzbəüz köhnə üçmərtəbəli binanın üçüncü mərtəbəsində, küçə pəncərələrinin yuxarısı ilə damın arasında daşdan belə bir yazı yonulmuşdu:

*1867.*
*MƏŞƏDI MIRZƏ MIR ABDULLA*
*MƏŞƏDI MIR MƏMMƏDHÜSEYN OĞLU*

Və əmanət kassasının pəncərəsindən o yazıya baxanda həmişə Rozaya elə gəlirdi ki, o rəqəmin qədimliyi, Məşədi Mirzə ömrünün həmin uzaqlığı müqabilində özünün, yəni Rozanın yaşadığı həyat, keçirdiyi hiss-həyəcanlar bir uşaq oyunudur. Indi o üçotaqlı lüks nömrədə yuxuya getməzdən əvvəl Əbdül Qafarzadənin tüklü sinəsini yüngülcə tumarladıqca Roza elə bilirdi ki, çarpayıda yox, o qədimliyin içindədi, bu etibarsız dünyada yalnız o qədimliyə etibar etmək, arxalanmaq olar və belə bir etibar hissi, arxayınçılıq duyğusu o cavan qadının bütün bədəninə bir sakitlik, rahatlıq gətirirdi...

Amma elə həmin gecə telefon zəng çaldı və telefonun səsindən Əbdül Qafarzadə başa düşdü ki, zəng Bakıdandır, Bakıda nəsə olub; bura gəldiyi birinci gün Bakıya zəng eləyib, hər ehtimala qarşı, nömrəsini Qaratelə vermişdi (başqa şəhərlərdə olanda həmişə belə edirdi); tələsik yerindən qalxıb telefonun dəstəyini götürdü.

Danışan Ömər idi.

– Zdravstvuyte, dyadya Abdul. Eto Omar qovorit. Necəsiz?

– Nə olub?

– Çto?

– Nə olub, soruşuram.

– Mama xəstələnib, dyadya Abdul.

Əbdül Qafarzadə elə başa düşdü ki, söhbət Ömərin öz anasından, yəni Mürşüd Gülcahaninin arvadından gedir və ürəyi sakit oldu, rahat nəfəs aldı.

– Ciddidi vəziyyəti?

– Çto?

– Soruşuram ciddidi vəziyyəti, ağırdı?

– Hə, ağırdı.

– Balam, sənin anan yazıq, sağlam adamıydı...

– Mənim anam yox e, dyadya Abdul, Qaratel mama xəstələnib. Biz də gəlmişik bura. Sizin kvartiradan danışırıq. Sevil skazala, çtob ya pozvonil vam, a to ya ne bespokoil bı vas. Ona oçen boitsya...

Əbdül Qafarzadənin birdən-birə bir uşaq kimi, bütün bədəni uçunmağa başladı (Orduxanın ölümü onu qəfil ölümlərdən beləcə qorxutmuşdu...), nə qədər çalışdısa da özünü ələ alsın, mümkün olmadı və daha heç nə soruşmayıb, dəstəyi aparatın üstünə atdı. O Roza xoşbəxtliyi də, Moskvadakı bu altı gündə bütün içini bürümüş o yaz təravəti də bircə anın içində çıxıb getdi işinin dalınca; Əbdül Qafarzadə tələsik soyuq su ilə əl-üzünü yuyub geyinməyə başladı.

Yuxudan oyanmış Roza əlini qaldırıb başının üstündəki branı yandırdı və qalxıb çarpayıda oturdu, adyal sinəsindən sürüşüb baldırlarının üstünə düşdü və indi Rozanın branın işığında görünən döşləri də adi qadın döşləri idi...

– Çto sluçilos?

– Mən gedəsi oldum, Roza...

– Hara?

– Bakıya.

– Bəs mən?

– Sən nə qədər istəyirsən, gəz-dolan burda. Get, nədi, deyirdin o kişinin adı? Hə, Asatur, get onu gör... Vasya da burda qalacaq, haçan istəsən, səni Bakıya gətirəcək.

Əbdül Qafarzadə pencəyini geyinə-geyinə özü zəng eləyib Vasilini yuxudan durquzdu, tapşırdı ki, aşağı düşüb mehmanxananın birinci mərtəbəsində onu gözləsin, sonra əlini pencəyinin döş cibinə saldı, timsah dərili o yekə portmaneni cibindən çıxartdı, üç min manat pul götürüb televizorun üstünə qoydu və hələ də yuxulu gözləri ilə ona baxan Rozaya dedi:

– Bu sənindi.

Roza gözlərini qıyıb diqqətlə Əbdül Qafarzadəyə baxdı:

– Nə?

– Bu pul sənindi.

Bayaqdan bəri susub heç nə deməyən Roza birdən-birə pişik kimi yerindən sıçradı, televizorun qabağına atıldı və o üç min manat pulu televizorun üstündən qapıb yerə çırpdı:

– Mən kiməm bəyəm səninçün? Mənə pul verirsən? Za usluqu?..

Əbdül Qafarzadə elə həmin gecə Bakıya uçdu.

Əlbəttə, Rozaya aldığı su samuru xəzindən şubanın, qızıl bilərziyin, mirvari boyunbağının, brilyant üzük və sırğa komplektinin, iyirmi dörd nəfərlik yapon servizinin müqabilində üç min manat pul bir heç idi, amma Rozanın o gecəki hərəkəti, «Mən kiməm bəyəm səninçün? Mənə pul verirsən?» – sözləri Əbdül Qafarzadənin o qədər xoşuna gəlmişdi ki, o vaxtdan bir daha Roza ilə yaxınlıq eləməsələr də (Əbdül Qafarzadə təkrarı xoşlamırdı), yayda onu Vasilinin vasitəçiliyi ilə Xalq Təsərrüfatı Institutunun qiyabi şöbəsinə qəbul elətdirdi ki, gələcəkdə ixtisaslı iqtisadçı olsun; ümumiyyətlə, o gözəl, o unudulmaz Moskva yazından sonra Əbdül Qafarzadə tez-tez Roza barədə fikirləşirdi, sidq-ürəkdən bu cavan qadının xoşbəxt olmağını istəyirdi, istəmirdi ki, Roza gələcəkdə daha artıq pozulsun, pis əllərə düşsün, hətta fikirləşirdi ki, bəlkə Rozanı Vasiliyə alsın; amma hələ qəti qərara gəlməmişdi.

O üç min manat isə eləcə o lüks nömrənin döşəməsinə səpilib qaldı və Əbdül Qafarzadə çıxıb gedəndən sonra Roza, əlbəttə, o şax yüzlikləri bir-bir yerdən yığıb götürməli oldu...

## 12

## GÖRÜŞ

Xosrov müəllim həyatda heç vaxt Kələntər müəllimin qızlarını görməmişdi, amma əvvəllər tez-tez, get-gedə gec-gec, hətta indinin özündə – əsrin təqvimi səksəni adlayandan sonra da hərdənbir o qızları yuxuda görürdü. O qızların sifəti

yox idi, daha doğrusu, elə bil ki, sifətləri iki-üçqat tül arxasında idi, amma Xosrov müəllim yuxuda bilirdi ki, bu qızlar Kələntər müəllimin qızlarıdı və Kələntər müəllimin o qızları bir ucdan ağlayırdılar, gözlərindən axan su sel kimi, küçələrdən keçirdi, bir dəniz əmələ gətirirdi və Xosrov müəllim yuxuda qorxurdu ki, o dənizdə boğulub ölər. Kimsə, çox güman ki, Kələntər müəllimin arvadı idi– aradan keçən bu uzun illər ərzində Xosrov müəllim o arvadın sifətini yadından çıxarmışdı – tez-tez o qızlara da, Kələntər müəllimə də bütün bunları yuxuda görən (və yuxuda da bilən ki, bunlar yuxudur...) Xosrov müəllimə də toxtaqlıq verirdi: «– Su aydınlıqdı... Su aydınlıqdı...»

Düzdü, Xosrov müəllim bilirdi ki, bütün bunlar yuxudu, amma bunu bilə-bilə də o dənizdə batmaqdan qorxurdu, Kələntər müəllim isə balaca bir qayıqda oturub o dənizdə üzürdü: «– Əşşi, mənim işim əladır, – deyirdi. – Çünki əvvəldən baxtım gətirib, yeddi qız atası olanda nə olar? Bizim arvad yarımca kilo ətdən o qədər çoxlu, özü də dadlı xörək bişirir ki, yeyib qurtara bilmirik. Heç nədən bir şey bişirir. Qarın da ki, tox oldu, vəssalam. Deməli, işlər əladır. Deməli, kimyanı da uşaqlara yaxşı öyrədəcəksən». Və Kələntər müəllim gülürdü, amma Xosrov müəllim bilirdi ki, əslində bu, gülmək deyil, ağlamaqdı, çünki Kələntər müəllimin də gözlərindən axan yaş o qayığı doldururdu, o qayıq yox olurdu, Kələntər müəllim də yox olurdu və Xosrov müəllim bilirdi ki, Kələntər müəllim batdı o dənizdə, sonra yenə də qorxurdu ki, özü də batar və o qızlar da elə hey ağlayırdı, o dənizin də suyu çoxalıb doğrudan-doğruya adamı boğurdu...

Onda Arzu Xosrov müəllimə demişdi: «– Əşşi, mənə nə vardı e, tək canımıydı... Kələntər müəllimin isə, yazığın yeddi qızı qalmışdı...»

Və Arzu o sözləri deyəndən sonra, Xosrov müəllim bir müddət harada dilənçi, səfil arvad görürdü, elə bilirdi ki, Kələntər müəllimin qızlarıdı, heç cürə özü ilə bacara bilmirdi, dayanıb o dilənçi, o səfil arvada baxırdı, o arvadla Kələntər müəllim arasında bir oxşarlıq tapmaq istəyirdi və o qədər baxırdı ki, dilənçi qorxub qaçırdı...

Xosrov müəllimin yuxuda gördüyü qızların sayı çox olurdu, amma o qızların sayı nə qədər çox olsaydı da, onlar Kələntər müəllimin o yeddi qızı idi, Xosrov müəllimin həyatda heç üzlərini də görmədiyi o qızlar idi.

Onda yetmişinci illərin sonu idi və Xədicə arvad düz deyirdi: Xosrov müəllim uzun ömründə birinci dəfə (və belə görünür ki, sonuncu dəfə...) yayda istirahət eləməyə getdi, avqust ayı idi, Bakının isti vaxtlarıydı, Xosrov müəllim poçtdan məzuniyyət pulunu aldı (köşkdə işlədiyinin sonuncu ili idi, sonra təqaüdə çıxdı), illərdən bəri yığdığı iki yüz manatın üstünə qoydu və «Bakı – Kislovodsk» qatarında ümumi vaqona bilet alıb axşamçağı Bakıdan çıxdı.

Xosrov müəllim sonuncu dəfə qatara 1956-cı ildə Tomsk vilayətindən Bakıya qayıdanda minmişdi, günlərlə beləcə bir ümumi vaqonun pəncərəsi qarşısında oturub bir-birini əvəz edən yol mənzərələrinə baxmışdı, amma, əslində, o mənzərələrin heç birini görməmişdi, Ovanesin Şuşaya qalxan faytonunu görmüşdü, – o rəngbərəng ölü xoruzu görmüşdü. Hadruta aparan yolu kəsmiş yolbəndin yanında dayanan Qırmızı Yaqubu görmüşdü, Hadrutun altı kilometrliyində yanan o tonqala baxmışdı, səbrlə, tələsmədən Xıdır müəllimin (onda hələ Xıdır müəllimin on yeddi il əvvəl– 1939-cu ilin həmin qış günlərindən birində güllələndiyini bilmirdi, bunu Bakıya gələndən sonra öyrəndi...) sifətinə baxmışdı, o sifətin bütün cizgilərini bir-bir gözlərinin qabağından keçirmişdi, yenə də Xıdır müəllimi tanımaq, başa

düşmək istəmişdi və hərdən ona elə gəlmişdi ki, Xıdır müəllim Xıdır müəllim yox, müstəntiq Məmmədağa Ələkbərovdu, çünki on yeddi illik ayrılıqdan sonra Bakıya gedən o qatarda, o ümumi vaqonun pəncərəsindən baxa-baxa Xıdır müəllim haqqında fikirləşəndə birdən-birə müstəntiq Məmmədağa Ələkbərovun sifəti gəlib qonurdu şüşəyə...

Tomsk vilayətindən gələn o qatar da, o ümumi vaqonun pəncərəsi qarşısında oturduğu günlər də keçmişdə qalmışdı və illər bir-birini əvəz etdikcə Hadrutun altı kilometrliyində qalanmış o tonqal da, Ələsgər müəllimin evindəki o qonaqlıq da, Narımın o soyuğu da – hər şey bir-birinə qarışırdı, bir kütlə əmələ gətirirdi və bəzən elə olurdu ki, o kütlə sıxılırdı, sıxılırdı, sıxılırdı, bir qoz boyda olub Xosrov müəllimin boğazında ilişib qalırdı və o cür vaxtlarda kişiyə elə gəlirdi ki, indicə ürəyi partlayacaq, indicə öləcək, amma ölmürdü, ürəyi partlamırdı və belə məlum olurdu ki, dünya yaşadıqca elə Xosrov müəllim də yaşayacaqdı...

Həmin avqust axşamı Xosrov müəllim Kislovodska gedən qatarın ümumi vaqonuna qalxdı, bileti bələdçiyə göstərib yerini soruşmaq istədi, amma çox kök, yaşlı bir qadın olan bələdçi öz kupesində oturub o cırhacır bürküdə yekə bir duzlu xiyarı əlinə alıb xırçaxırç yeyə-yeyə köhnə bir kitab oxuyurdu və heç başını da qaldırmadan:

– Davay... Davay... – deyirdi. – Proxodi...

Xosrov müəllim vaqonun içinə keçib yerini tapdı (yenə pəncərənin kənarında idi), balaca əl çamadanını taxta oturacağın altına qoydu və ümumi vaqonun cürbəcür iylər qarışmış ağır və həddən artıq isti havasıyla nəfəs ala-ala fikirləşdi ki, bu bələdçi qadını hardan tanıyır? Və elə ki, qatar yola düşdü, elə ki, bir az keçəndən sonra o kök bələdçi qadın sağ əlini şəhadət barmağının uzun dırnağı ilə dişlərinin arasında qalmış duzlu xiyar qırıntılarını təmizləyə-təmizləyə, sərnişinlərin biletlərini yoxlaya-yoxlaya gəlib Xosrov müəllimin qabağında dayandı, kişi lap əmin oldu ki, bu qadını hardansa yaxşı tanıyır, amma kim olduğunu heç cürə yadına sala bilmirdi.

Bələdçi qadın bütün vaqon eşitsin deyə bərkdən:

– Tualeti təmiz saxlayın!– qışqırdı. – Kim tualetdə biyabırçılıq eləsə, əsgini verəcəyəm əlinə, özünə yudurdaciyəm!– Sonra dırnağı ilə dişlərini qurdaladığı əlini Xosrov müəllimə tərəf uzatdı. – Davay tez elə! Bileti ver görüm!

Xosrov müəllim əlində hazır tutduğu bileti bələdçi qadına uzatdı, amma o bələdçi qadın bileti götürmək əvəzinə, sürətlə gedən vaqonun işığında diqqətlə Xosrov müəllimə baxdı və birdən:

– A-a-a... Xosrov məllimsən sən? – soruşdu, gözləri əməlli-başlı bir maraqla işıldadı. – A kişi, bəs, səni güllələməyiblər?! Hardan xortdamısan sən belə?.. Niçeqo sebe!..

Xosrov müəllim bilirdi ki, bu qadını yaxşı tanıyır, lap yaxından tanıyır, amma kim olduğunu heç cürə yadına sala bilmirdi, amma içindən nəsə pis, bəd bir hiss əvvəlcədən baş qaldırmağa başladı, o ümumi vaqonun tər qoxusuna, soyutma yumurta, kolbasa, soğan, sarımsaq qoxusuna qarışıb az qaldı kişinin ürəyini bulandırsın.

Bələdçi qadın Xosrov müəllimin biletini alıb baxdı:

– Fiktivni döyül ki?.. – deyib bərkdən güldü və soruşdu: – Məni tanımadın?

Xosrov müəllim bu kök, adda-budda ağarmış saçları sir-sifətinə tökülmüş, güləndə dodağının kənarlarından əprimiş metal dişləri görünən qadına baxırdı... bu

qadını, əlbəttə, tanıyırdı... bilirdi ki, bu qadın kimdir... bilirdi... amma kim idi bu qadın?.. və o pis, o bəd hiss gəlib yenə də Xosrov müəllimin boğazına dirənmişdi və kişi udqunduqca nazik boğazının uzun hülqumu eləcə enib-qalxırdı.

Bələdçi qadın:

– Mənəm də!.. – dedi. – Tanımadın?.. Arzuyəm də, Ələsgər müəllimin qızı!..

Xosrov müəllim eləcə udqunurdu və heç nə demirdi, kişinin alnından süzülən tər gəlib burnunun ucundan sallanırdı, sonra dizinə düşüb parusin şalvarının balağına yaş ləkə salırdı.

Bələdçi qadın (Arzu!) yenə də güldü:

– Elə əvvəlki kimi danışıb-eləyən döyülsən, hə?..Vay səni!.. Mən elə bilirdim, çoxdan güllələyiblər səni, indi sümüylərin də çürüyüb!.. Ancaq, yaxşı qalmısan vallah!.. – Və bu kök bələdçi qadın da susdu, birdən-birə nəsə çox uzaqlara getdi, sonra dedi:– Je vu felisit, madmuazel... Yaduva gəlir?..

Qəribə idi, hər şey Xosrov müəllimin yadında idi və eyni zamanda, heç nəyi xatırlamırdı, beynində, hisslərində hər şey bir-birinə qarışmışdı və o qarışıqlıq içində ən gözlənilməzi bu idi ki, Xosrov müəllim haradansa uzaqlardan yenicə doğulmuş bir çağanın cığırtısını eşidirdi... Kim idi o çağa? Cəfər idi? Aslan idi? Azər idi? Yoxsa elə bu Arzu idi? Kim idi?..

O çağa isə çığırırdı...

Bu vaxt vaqonun işığı söndü və sərnişinlər hay-küy saldı:

– Sapojnik!..

– Atanda!..

– Əlivi çək!..

– Pojarnı!..

Və o hay-küy içində o bələdçi qadının (Arzunun!) bu vaqonun əsl sahibi kimi, amiranə və xırıltılı səsi eşidildi:

– Oğurluq eləməyin a!.. Milsianer qonşu vaqondadı!

Sonra işıq da yandı, səs-küy də kəsildi, sərnişinlər oturduqları yerdə yavaş-yavaş yatmağa başladı, sonra qatar Dərbənd stansiyasından keçdi və əlbəttə, hərgah Gülzar sağıydısa, heç ağlına da gəlməzdi ki, o gecə vaxtı, Xosrov müəllim Dərbənddən keçən o qatarın apardığı sərnişinlərin arasındadı...

Sonra gecənin bir aləmi o bələdçi qadın (Arzu!..) yenə də gəlib dayandı Xosrov müəllimin qabağında və iri döşlərinin lifçiyinin kənarları görünən açıq sinəsinin tərini əlindəki yaş dəsmalla silə-silə:

– Niyə yatmırsan, ay Xosrov məllim?.. – dedi. – Yatmaqdan yaxşı şey var dünyada? Həsrətəm mən doyunca yatmağa... Niyə yatmırsan sən?

Xosrov müəllim gözlərini qaranlıq pəncərə şüşəsindən çəkib çiyinlərini bir-birlərinə söykəmiş, boyunlarını büküb kimisi şirin, kimisi narahat bir yuxu ilə yatmış o sərnişinlərə baxdı, sonra Arzuya baxdı və heç nə demədi.

Arzu dərindən əsnədi, ağzından spirt iyi gəldi, gözləri sulandı və əsnəyə-əsnəyə də:

– Səni gördüm, – dedi, – çox şey yadıma düşdü... Hardan gəldin çıxdın e, sən bu vaqona?.. – Yenə əsnədi və yenə də əsnəyə-əsnəyə həmin sözləri dedi:– Əşşi, mənə nə vardı e, tək canımıydı!.. Kələntər məllimin isə, yazığın yeddi qızı qalmışdı!

Və həmin də gecədən sonra, heç üzlərini görmədiyi Kələntər müəllimin o yeddi qızı Xosrov müəllimin yuxusuna girməyə başladı və Xosrov müəllim o eyni

yuxuya o qədər öyrənmişdi ki, elə bil, o yuxu da Hadrutun altı kilometrliyində yanan o tonqal kimi, müstəntiq Məmmədağa Ələkbərovun o tüpürcəkləri kimi, Gülzarın bir sürücüyə gedib Dərbəndə köçməyi kimi, həqiqətən, baş vermişdi, Xosrov müəllimin ömrünün bir hissəsi idi, beynindəki bir yumaq kütlənin içinə dolmuşdu...

Xosrov müəllim Kislovodskda bir ay qaldı, hər gün müftə «Narzan» içdi, kirayə qaldığı evin yaxınlığında sakit bir bağça var idi, hər gün gəlib o bağçada oturdu və bir gün yenə də hardansa uzaqlardan gələn o çağa çığırtısını eşitdi və Xosrov müəllimə elə gəldi ki, o çağanı üsulluca ana bətnindən çıxaran professor Fazil Ziyanı gördü, hətta professor Fazil Ziya gəlib Xosrov müəllimlə yanaşı oturdu... Xosrov müəllim professor Fazil Ziyanı bir-iki dəfə Ələsgər müəllimin o qonaqlıqlarında görmüşdü və o vaxtdan bəri bu adamı birinci dəfə yadına gətirirdi, bu adam məsləhətlər vermişdi, yollar göstərmişdi, Arzu dünyaya gəlmişdi və aradan keçən bu müddət ərzində heç dəyişməmişdi... Xosrov müəllim Kislovodskdakı o sakit bağçada diqqətlə professor Fazil Ziyaya baxırdı, sonra uzaqdan gələn o çağa çığırtısı altı yaşlı Cəfərin, dörd yaşlı Aslanın, iki yaşlı Azərin səsinə çevrildi və professor Fazil Ziya da birdən-birə oldu professor Lev Aleksandroviç Zilber...

Xosrov müəllimin o bir ay ərzində Kislovodskdakı o sakit bağçada belə görüşləri tez-tez olurdu...

O bir ay ərzində Kislovodskdakı o bağçada oynayan uşaqlar, o bağçaya gəlib-gedən cavanlar hərdən öz-özünə danışan o uzun, arıq qocaya da oradakı skamyalar kimi, ağaclar kimi adət etdilər; sonra o arıq, uzun qoca yox oldu, amma o nə o bağda oynayan uşaqlar, nə də o bağa gəlib-gedən cavanlar bunun fərqinə vardı, o skamyalar, o ağaclar da eləcə o baxçada qaldı...

Xosrov müəllim Bakıya qayıtdı, sonra payız başladı və Xosrov müəllim nəsə o ilki payızı çox pis keçirdi; Kislovodskın o gözəl havasından sonra Bakının hisli-paslı havasına təzədən öyrəşə bilmirdi, nəyidisə, çöldə də, evdə də çox narahat idi, bəzən gecə təngnəfəs olub yuxudan ayılırdı və səhərə kimi yerində oturub yata bilmirdi.

Sonra qış başladı, Bakıya bir-iki günlük qar yağdı, sonra əriməyə başladı və qarın əridiyi o günlərdən birində– bir bazar günü idi– Xosrov müəllim bazara getdi, kiloyarım alma aldı, kiloyarım gözəl ətri gələn heyva aldı, bir kilo da narıngi alıb avtobusa mindi və Səkkizinci kilometrə yollandı.

O zaman səhər tezdən ki, qatar gəlib dayanmışdı Kislovodskda, Arzu ünvanını yazıb Xosrov müəllimə vermişdi və Xosrov müəllim də o vaxtdan o ünvanı cibində gəzdirmişdi və indi də Səkkizinci kilometrdə avtobusdan düşüb o ünvanı soraqlaşa-soraqlaşa gəlib üçmərtəbəli köhnə bir bina ilə üzbəüz dayandı.

O üçmərtəbə köhnə binanın daş divarları qapqara qaralmışdı, pəncərələrin, eyvan sürahılarının taxtasının rəngi quruyub tökülmüşdü və qar əridiyinə görə o sürahılardan, damdan damcı-damcı çirkli su tökülürdü. O binanın lap yuxarısında, dam ilə üçüncü mərtəbədəki pəncərələri arasında daşdan yonulmuş və indi güclə sezilən bir yazı var idi:

1867.<br>MƏŞƏDI MIRZƏ MIR ABDULLA<br>MƏŞƏDI MIR MƏMMƏDHÜSEYN OĞLU

Bu bina Xosrov müəllimdən otuz üç yaş böyük idi və Məşədi Mirzə Mir Abdulla Məşədi Mir Məmmədhüseyn oğlu adlı o şəxsin tikdirdiyi bu bina o vaxtdan

da beləcə lal-dinməz dayanıb dünyanın işlərinə tamaşa edirdi və o dəm Xosrov müəllimə elə gəldi ki, həmin bina ilə tanışdır, onu hardansa tanıyır, yəni elə bil ki, o bina da adam idi, tanış gəlirdi və fikirləşirdi ki, mən bunu hardan tanıyıram?..

Ümumiyyətlə, hərdən Xosrov müəllimə elə gəlirdi ki, uzun illər boyu yaşadığı ömür, əslində, ikinci ömürüdür, yəni ona elə gəlirdi ki, haçansa bir dəfə də bu dünyada yaşayıb, indi ikinci dəfədir ömür sürür...

Xosrov müəllim həyətə girdi və birinci mərtəbədəki yeddi nömrəli qapının ağzında dayandı. Qapının sol tərəfində, asfaltın üstündə üç dənə taxta yeşikdən hinə oxşayan bir şey düzəltmişdilər, illərdən bəri pas atmış dəmir torla çəpərə almışdılar və çirkli qar suyunda islanmış o taxta-tuxtanın arasında on-on beş toyuq Xosrov müəllimi görən kimi, qaqqıldamağa, çəpərin içindəki o kiçik sahədə bir-birlərinə toxuna-toxuna ora-bura qaçışmağa başladı.

O hindəki zir-zibildən elə kəskin bir iy gəlirdi ki, Xosrov müəllim, istər-istəməz, başını yana tutdu və çox qəribədir, elə həmin anda da Xıdır müəllim Xosrov müəllimin yadına düşdü, Xıdır müəllimin sağlam bədəni, başını dik tutub sərrast addımlarla şax gəzməyi gözlərinin qabağına gəldi, hətta Xosrov müəllimin tükü ürpəşdi, çünki ona elə gəldi ki, bu toyuq zılının, zibilin iyi o əldəqayırma hindən yox, Xıdır müəllimin o sağlam, əzələləri oynayan bədənindən gəlir.

Xosrov müəllim elə bilirdi (və buna yüz faiz əmindi!) ki, 1939-cu ilin o qış günü onları Xıdır müəllimin şeytançılığı ilə tutmuşdular və Xosrov müəllim heç vaxt bilməyəcəkdi ki, əslində, onları Ələsgər müəllimin verdiyi məlumata görə həbs etmişdilər və hərgah dünyada, doğrudan da, ruh deyilən bir şey vardısa, Xosrov müəllimin belə bir xəbərsizliyindən Ələsgər müəllimin ruhu yəqin ki, özünə bir o qədər də təskinlik tapmırdı...

Xosrov müəllim əlini qaldırıb 7 nömrəli qapını döymək istədi, amma bu zaman Arzu özü toyuqların qarasına deyinə-deyinə qapını açdı:

– Bunnar necə acgöz heyvandı belə, ay balam?! Indicə çörək vermədim sizə, ay çinədanları yırtılmışlar?! – Və Arzu qarşısında dayanmış Xosrov müəllimi görəndə bir balaca duruxdu, hətta elə bil səksəndi. – A-a-a... – dedi. – Sən hardan gəlib çıxmısan bura, ay kişi? Səni görəndə qorxuram e, elə bil, ölü dirilib...

Arzu bir əlində içində vermişelli sup qalığı olan boşqab tutmuşdu, o biri əli ilə evdə geydiyi, çiyinləri süzülmüş göy rəngli köhnə bələdçi köynəyinin yaxasını bağlaya-bağlaya:

– Keç, keç içəri! – dedi. – Xoş gəlmisən!..

Arzu kənara çəkildi, Xosrov müəllim içəri girdi, darısqal dəhlizdə Arzunun tuluq kimi şişman və lırt bədəninə toxuna-toxuna ayaqqabılarının üstündən geydiyi qaloşlarını çıxartdı, əlindəki kağız torbacıq üçün bir yer axtardı, tapa bilməyib dəhlizdə yerə qoydu, paltosunu soyunmağa başladı.

Arzu:

– Bu saat!.. Qoy bunu verim o acgözlərə... – dedi. – O qədər yemək verirəm bunnara ki, astarı üzündən baha başa gəlir!.. Ancaq yumurtaları dadlı olur şoqəriblərin... bunnarı bir-bir Stavropoldan alıb gətirmişəm... – Tələsik həyətə çıxıb boşqabdakı sup qalığını dəmir tordan toyuqlara atdı, vermişellərin, kartof qırıntısının bir qismi ilişib dəmir torda qaldı və Stavropoldan gəlmiş o toyuqlar o çirkli-qış günü, elə bil, aclıqdan çıxmışdılar, bir-birlərinə macal vermədən, yerdəki, tordakı o sup qalığını dimdikləməyə başladılar.

Arzu içəri keçib əlindəki çirkli boşqabı dəhlizdəki krantın altındakı başqa çirkli boşqabların, qazanın üstünə qoydu, krantı açıb tələsik əllərini, suplu dodaqlarını yudu, divardakı mismardan asılmış məhrəba ilə tələsik də qurulandı, sonra əllərini sövq-təbii bir-iki dəfə evdə geydiyi köhnə bələdçi yubkasının ətəyinə sildi:

– Gəl e, gəl görək!.. – dedi. – Çox yaxşı iş görmüsən gəlmisən!.. – Və Xosrov müəllimlə birlikdə o darısqal dəhlizdən otağa keçdi, girdə mizin arxasındakı taxta kürsülərdən birini çəkib yer göstərdi. – Otur burda... Dayan, döşəkçə verim, altıva sal...

– Yox, lazım deyil... – Xosrov müəllim əyləşmək istədi.

– Necə lazım deyil?.. – Arzu bərkdən güldü və gözlərinin altı torba bağlamış, güldükcə ətli buxağı sinəsinə yayılan bu arvadın əprimiş metal dişləri göründü. – Qupqurusan, zapasın-zadun yoxdu sənin!.. Oturacaqsan, taxta sümüklərivi kəsəcək...

Arzu oturacağında, söykənəcəyində dəmir yayları hiss olunan köhnə divanın üstündən kiçik və girdə bir döşəkçə götürdü, Xosrov müəllimin altına basdı və özü də gəlib kişiylə üzbəüz oturdu. Bir müddət heç biri bir söz demədi, sonra Arzu yenə də güldü:

– Vay səni, Xosrov məllim!.. Niçeqo sebe!.. – dedi. – Elə əvvəlki adamsan a!.. Elə bil, heç qırx il keçməyib, hə? Nə qırx il, qırxdan da artıq!.. Bir danış görək də, nə var, nə yox?.. Bəs səni necə oldu güllələmədilər? Birdən stukaç-zad olarsan a?!.

Xosrov müəllim bir söz demirdi, elə hey udqunurdu, uzun hülqumu nazik boğazında enib-qalxırdı və bayırdakı o hinin iyi dəhlizdən keçib otağa da gəlirdi.

«Əziz dostlar! Tamadadan min dəfə üzr istəyirəm ki, onu afsaytda qoyuram. Ancaq ürəyimə bir gözəl sağlq gəlib ki, onu da bu gözəl məclisdə mən deməliyəm!..»

– Yaxşı sveji çay var, qoy çay gətirim sənə! – Arzu ayağa qalxıb divanın yanındakı dolabın gözünü açdı, iki dənə stəkan-nəlbəki götürdü, yarım litrlik bankada yarımçıq alma mürəbbəsi götürdü, bankanı gətirib Xosrov müəllimin qabağına qoydu. – Yaxşı mürəbbədi, Saratovdan almışam. Orda xalturit eləmirlər, bizimkilər kimi oğru döyüllər!.. Özü də ucuz... – Sonra gedib dəhlizin başında yanan qaz plitəsinin üstündən çayniki götürdü, stəkanları çayla doldurub gətirdi. – Dayan, qoy qaşıq da gətirim. – Və dolabın elə həmin gözündən də iki dənə çay qaşığı gətirdi, biri ilə alma mürəbbəsindən götürüb Xosrov müəllimin stəkanına saldı. – Iç... – Və birdən Arzu yenə də güldü, amma budəfəki gülüşü başqa idi, elə bil ki, indicə bu qadının sifətindəki o təbəssüm həm onun özününkü idi, həm də kiminsə bir başqa adamın (bir başqa Arzunun!) təbəssümü gəlib qonmuşdu üzünə. – Yadıva gəlir, anam rəhmətlik Ordubaddan gəlmiş ləpə qoyardı stolun üstünə?..

Xosrov müəllim gözlərini Arzunun sulanmış və elə bil ki, rəngini itirib açılmış göy gözlərindən çəkdi, basmadüymələrlə otağın divarına sancılmış fotoşəkillərə, divanın yanındakı küncdə iki dənə yanaşı kürsünün üstündə, az qala, tavana qədər üst-üstə qalanmış kitablara baxdı. Arzunun isə sifətindəki o təbəssüm hələ keçib getməmişdi.

– Əlibaba məllim yadıva gəlir? Mənə deyirdi ki, Sofya Kovalevskaya olacayam... Ay səni!.. Nolsun e, Sofya cəmi qırx bir il yaşadı, amma mən əllini keçmişəm, heç ölmək fikrim də yoxdu!..Oxuyuram özümçün gözəl-gözəl kitabları!.. Öldürsə məni, o toyuqların acgözlüyü öldürəcək!..

Arzu yenə də bərkdən güldü və Arzunun o əprimiş metal dişləri, elə bil ki, üçmərtəbəli binanın yuxarısındakı o yazı kimi:

*1867.*
*MƏŞƏDI MIRZƏ MIR ABDULLA*
*MƏŞƏDI MIR MƏMMƏDHÜSEYN OĞLU*

– dünyanın ölüm-itimindən xəbər verirdi, qatarların getdiyi uzaq-uzaq yollardan və o uzaq-uzaq yollar boyunca yaşayan milyon-milyon gəldi-gedər insanın hərəsinin öz taleyindən deyirdi...

– A kişi, sən gəlmisən bura ki, heç ağzıvı açıb bir kəlmə söz deməyəsən?.. Yaxşı, çayıvı iç!.. Əntiqə mürəbbədir, Saratovdan almışam... Özün təksən? Təksən də, sifətində yazılıb ki, kimsəsizin birisən!.. Bəs kim qulluq eləyir sənə? Bəlkə məni alasan, hə?– Arzu bu dəfə lap bərkdən, lap ürəkdən güldü. – Eh, neynirsən məni, hayhayım gedib, vayvayım qalıb!.. Görmürsən, şəkillərə baxırsan... hə də, mənim nəyimə baxasan?..

Divardan asılmış o şəkillərdən bir-birinə oxşamayan oğlanlar Xosrov müəllimə baxırdı və o dəm Xosrov müəllimə elə gəlirdi ki, bayırdakı hindən gələn o qoxunu fotodakı həmin oğlanlar da hiss edirlər...

Arzu ayağa qalxıb o şəkillərə yaxınlaşdı:

– Üçü də oğlanlarımdı!.. – dedi. – Bunu görürsən, bunun atası Cümşüdlüdü... Yadıva gəlir? Raykomda işləyirdi, əyyaşın, pozğunun biri idi oğraş!.. Məktəbdə «izhari-nifrət» mitinqlərində gəlib mənə əl çalırdı, məni nümunə göstərirdi... Sonra guya bizə yazığı gəlirdi, anamı dəlləkxanaya süpürgəçi düzəltdi... O vaxtdan elə gözü varıymış məndə köpək oğlunun, anam ölən kimi, müharibənin axırlarında, gəlib tapdı məni... 15-16 yaşım var idi, amma 20 yaş verərdin. Kök idim də, vaxtından əvvəl yetişmişdim!.. – Arzu gülə-gülə Xosrov müəllimə baxdı. – Sən danışmırsan, heç olmasa, mən danışım də... Hə, bunun atası o oğraş idi, gorbagor oldu, öləndə heç üstünə gələn də olmadı! Özünün arvad-uşağı vardı, ayrıca da bir ev kirayə eləyib məni saxlayırdı... Pozğunun biri idi!.. Məndə sağ yer qoymamışdı, oğraş! Göydən düşmüşdüm də əlinə, gözünə təpirdi məni, doymaq bilmirdi köpək oğlu!.. Yaxşı ki, bu, atasına oxşamır. Ancaq arvadı çatlağın biri çıxdı. Qonşuların yanında mənim saçımı yolurdu, qəhbə!.. Ər-arvad, ikisini də qovdum yanımdan! Əh, guya ki, qonşular onnan fərlidir?.. Bunu görürsən, bu...

Arzu sözünü kəsib diqqətlə qulaq asdı və o sakitlik içində həyətdəki toyuqların qaqqıltısı aydın eşidilirdi.

– Eşidirsən o toyuqların səsini? Vay, bunların qarnına şiş girsin! Indicə bir boşqab sup verdim e, onlara!.. Doymaq bilmirlər ki!.. Mən də burada olmayanda həyətin uşaqları gəlib yumurtalarını oğurlayırlar... Qonşular da bir tərəfdən milisə şikayət yazırlar ki, guya bu toyuqlar həyəti batırırlar... Cəhənnəmə yazsınlar! Belə şeylər mənə kar eləməz!.. Iç, çayıvı iç...

Xosrov müəllim stəkanı ehtiyatla qaldırıb çayı içməyə başladı; nədənsə kişiyə elə gəlirdi ki, indicə stəkanı əlindən yerə salacaq, çay da, o alma mürəbbəsi də mizin üstünə, yerə töküləcək, şüşələr sınacaq... Və ümumiyyətlə, Xosrov müəllimə elə gəlirdi ki, bu stəkanın içindəki heç çay deyil, toyuqlara atılan o sup qalığı kimi bir şeydi...

Arzu:

– Hə, bu... – dedi və divardakı fotoşəkildən baxan ikinci oğlunu göstərdi. – Barnaulda yaşayır, eşitmisən, belə bir şəhər? Barnaul! Milsianerdi orda, atası da elə milsianer idi, rəhmətə gedib. Bunun arvadı rusdu... Oğlanlarımın arasında fərlisi elə budu, amma əfəldir. Əfəl olmasa, gedib milsianer işləməz ki!.. Arvadı da, deyəsən, yaxşı adamdı. Nə bilim, görmüşəm bəyəm? Yolum heç düşməyib Barnaula... Əsgəriydi orda, əsgərlikdən sonra da elə qaldı orda, arvadı da aldı orda... Keçən il mənə pasılka göndərmişdilər, içində konfet varıydı, bir də bir ayaqqabı. Yaxşı ayaqqabıydı, ancaq hayıf, ayağımı sıxdı, Rostovda satdım getdi... Iki də uşaqları var, şəkillərini göndərmişdilər, ikisi də sir-sifətdən xalis rusdu... Bu da ki, üçüncü oğlumdu, – Arzu əlini üçüncü oğlunun fotosuna tərəf elə uzatdı ki, elə bil, gözünü çıxarmaq istəyirdi, – əclafın biri çıxdı!.. Atası pis adam döyüldü, pravadnikiydi o da, tutdular yazığı ki, nə var, nə var, stansiyalarda xırda alver eləyir... Elə türmədə də öldü yazıq... Bu ev də onunkuydu, arvadı öləndən sonra ona ərə getdim, köçüb gəlib yığışdım bura... O vaxta qədər orda-burda qalırdım... Atamdan sonra axı, bizim evi aldılar, anamla məni də atdılar küçəyə... Bu əclafa atamın adını qoymuşdum, Ələsgər idi adı, ancaq zay çıxdı... Mənnən qalırdı. Pravadnik adamam, çıxıb gedirdim, ev qalırdı bunun ixtiyarına... Yüz oyundan çıxırdı burda... Piyaniskalıq eləyirdilər, qumar oynayırdılar... Özü yaxşı kafelşikdi, istəsə, bilirsən nə qədər pul qazanar?.. Sonra da bir assori qızına aşiq oldu, özündən böyükdü yaşda, Rozadı adı, bizim yanımızda, ode, orada sberkassada işləyir, tanıyıram, modnı geyinən qəhbələrdən biridi!.. Özünü sırıyıb bu axmağa!.. Kim alacaqdı onu? Ancaq bu axmaqla zaksa getdilər... Alıb o qəhbəni bura gətirmək istəyirdi, qovdum evdən! Indi içib keflənəndə gəlir əclaf, məni qorxudur ki, səni suda verəcəyəm, evin yarısı mənimdi!.. Mən sənə ev verərəm? Ay sən öləsən! Ancaq neyniyim?.. Şəklini asmışam burdan də, oğlumdu... Neynim?.. Əclaf gəlib hər dəfə aləmi qatır bir-birinə!.. Hələ ki, o qəhbənin evində qalır...

Arzu gəlib yenə də Xosrov müəllimlə üzbəüz oturdu və Xosrov müəllimin içib qurtardığı boş stəkana işarə edib:

– Yenə çay gətirim sənə? – soruşdu.

Xosrov müəllim:

– Yox, çox sağ ol... – dedi.

– Onda mürəbbə ye!

– Istəmirəm, sağ ol...

– Yaxşı mürəbbədi e! Saratovda pis şey satmırlar...

«Əziz dostlar! Tamadadan min dəfə üzr istəyirəm ki, onu afsaytda qoyuram. Ancaq ürəyimə bir gözəl sağlıq gəlib ki, onu da bu gözəl məclisdə mən deməliyəm!..»

– Evim pis döyül, hə? Düzdü, kuxnam yoxdu, ancaq iki otaqdı, kalidorda da, görürsən, qaz da var, su da var. Tualet də həyətdədi. Bunu assori qəhbəsinə verim, özüm yenə küçələrə düşüm?.. Hə?!. Bəs sənin o arvadın nə oldu? Təzə almışdın e!.. Adı da Gülzarıydı, yadımdadı...

Xosrov müəllim cavab vermədi, amma birdən-birə, elə bil ki, indiyə qədər tamam yaddan çıxmış, əlçatmaz, ünyetməz bir uzaqlıqda qalmış Gülzarın qucağının istisini duydu və o hərarət o çirkli qış günü Xosrov müəllimin sümüklərinə nəsə bir ılıqlıq gətirmək istədi, amma sonra həyətdəki o hindən gələn qoxunun içində əriyib yox oldu.

– Gözləmədi, hə səni? Yadıma gəlir, elə bil, indiki kimi görürəm onu... Yanaqları od tutub yanırdı... o cür arvadlar kişisiz qala bilməz!.. – Arzu güldü. – Neynəsin e, yazıq? Kişisiz çətin olur də...

Xosrov müəllim ayağa qalxdı.

– Nə oldu?

– Mən gedim...

– Niyə? Otur də, niyə belə tez gedirsən? Qoy bir su qızdırım, yaxşıca başıvı yuyum sənin, hə? Tək adamsan, bir yaxşıca istirahət elə!..

– Yox, çox sağ ol...

– Nə çox sağ ol e?.. Onda, Varonejdən əntiqə göbələk qurusu almışam, qoy sənə bir sup bişirim!

– Yox, sağ ol..

– Yüz qram da araq verərəm sənə, vurarsan! Hə? Yoxsa, day, elə qocalmısan, araq da içə bilmirsən, hə? Nə deyirsən?

– Yox...

– Qorxma e!.. Səni göndərmiyəceyəm mağazaya araq dalınca!.. Özümdə var e!.. Gətirim?

– Yox...

Xosrov müəllim dəhlizə keçdi, əyilib qaloşunu geydi, papağını qoydu, sonra paltosunu geyinməyə başladı və Arzu da o darısqal dəhlizdə Xosrov müəllimlə üzbəüz dayanmışdı, köhnə bələdçi köynəyinin dəqiqədə-bir açılan yaxasını düymələyirdi.

«Niyə qoymursuz səhərdən bəri bu gözəl qızın sağlığına içək, bu gözəl qızı təbrik edək?»

«Bir dəqiqə, bir dəqiqə, Xosrov müəllim! Arzu qaçmır ki, burdadı, özümüzünküdü, sağlığına da içəcəyik, təbrik də edəcəyik. Ancaq bu qədəhləri qaldıraq Xıdır müəllim deyən sağlığa! Doğrusu, bizi qabaqladı Xıdır müəllim, yaxşı da elədi... Hamımızın ürəyindən dedi, sənin də ürəyindən dedi, Xosrov müəllim!..»

Toyuqlar lap bərkdən qaqqıldamağa başladı.

Arzu:

– Bilirlər ki, indi qapı açılacaq... – dedi. – Bu qədər acgöz heyvan görməmişəm... Aldadıblar da məni! Stavropolda bunların qarnını necə doldururmuşlar?.. Axırda mənim özümü də yeyəcəklər!..

Dəhlizin yuxarı başındakı qaz plitəsinin üstündə çaydanın suyu qaynayırdı və qapağını titrədirdi.

Xosrov müəllim:

– Sağ ol... – dedi.

Arzu dəhlizin döşəməsindəki o kağız torbaçığı göstərərək:

– O nədi elə? – soruşdu.

– Bir az meyvədi, sənə gətirmişəm...

O çaydanın qapağı elə-eləcə titrəyirdi.

– Bəs mən sənə nə bağışlayım? – Arzu, elə bil, birinci dəfə görürmüş kimi, gözlərini darısqal dəhlizdə ora-bura gəzdirdi. – Hə? Nə bağışlayım?

– Sağ ol...

Arzu deyəsən axtardığını tapdı:

– Hə, bilirsən sənə nə bağışlayacağam? Bax!.. – Sonra xırıltılı səsiylə sözləri eynilə qırx il bundan əvvəlki kimi, sərrast tələffüz edə-edə, xüsusi ahənglə bərkdən söyləməyə başladı:

Vı bıli vçera
bezımennı,
Sedaya zurna Suleymana...

Xosrov müəllim qapını açıb həyətə çıxdı.
Toyuqlar daha da bərkdən qaqqıldadı.
Hindən gələn o qoxu adamın beynini deşirdi.
Və Xosrov müəllim o üçmərtəbəli binanın həyətindən uzaqlaşdı, amma bir müddət hinin o qoxusu da, açıq qapının ağzında dayanıb bərkdən, get-gedə lap qışqıra-qışqıra şer söyləyən Arzunun xırıltılı səsi də Xosrov müəllimi müşayiət etdi.

Djambula
sedaya dombra...
Tak poyte je
Stalinu
slavu
Stixami,
podobnımi splavu
Zolota
i serebra!..

Sonra üstündə

*1867.*
*MƏŞƏDI MIRZƏ MIR ABDULLA*
*MƏŞƏDI MIR MƏMMƏDHÜSEYN OĞLU*

yazılmış o köhnə üçmərtəbəli bina da, o bina ilə üzbəüz əmanət kassası da arxada qaldı...
və o səs də kəsildi...
o qoxu da yox oldu...
və o çirkli qış gecəsi də Xosrov müəllim Kələntər müəllimin o yeddi qızını yuxuda gördü...
o üçmərtəbəli binada, 7 nömrəli mənzildə yaşayan o bələdçi arvadı isə heç vaxt yuxuda görmədi...
amma hərdən qorxurdu ki, toyuqlar doğrudan da o arvadı yeyərlər...
siçanlar zirzəmidə çağanı yeyən kimi, toyuqlar da o üçmərtəbəli binada, 7 nömrəli mənzildə yaşayan o kök arvadı eləcə yeyərlər...
və hərdən o çağa eləcə qışqırırdı...
və həmişə Kələntər müəllimin o yeddi qızını yuxuda görürdü...
amma elə yuxudaca Xosrov müəllim bilirdi ki, o on yaşlı çoxbilmiş əlaçı qız da, əslində, Kələntər müəllimin bu yeddi qızının arasındadı...
özü görünmür, amma o da o yuxunun içindədi...
o solğun işıltı da həmin əprimiş metal dişlərin işıltısıdı...
və o qızlar bir ucdan ağlayırdılar...
və o qızların gözlərindən axan su sel kimi küçələrdən axırdı, bir dəniz əmələ gətirirdi...
və o dənizdə həmin əprimiş metal dişlərin işıltısı altında qayıqlar üzürdü...
o qayıqların heç bir imdad yeri yox idi...
o qayıqlar batacaqdı...

Xosrov müəllim də Kələntər müəllim kimi, o qayıqda üzürdü...
və Xosrov müəllim səksəni keçəndən sonra da, batmaq istəmirdi...
yaşamaq istəyirdi...
görəsən, Məşədi Mirzə Mir Abdulla Məşədi Mir Məmmədhüseyn oğlu adının bu uzunluğuna müqabil uzun da bir ömür sürə bilmişdimi?..
əlbəttə, Xosrov müəllimin Tülkü Gəldi Qəbiristanlığındakı qəbirlərdən xəbəri yox idi və bilmirdi ki, o qəbristanlığın tarixi elə bu şəxsin qəbri ilə başlayır...

## 13

## QUZU BUDU

Gecə dərinləşdikcə yollarda maşınlar azalırdı, elə bil ki, torpağa, asfaltın üstünə bir əmin-amanlıq çökməyə başlayırdı və Abşerona gəlmiş yazın ab-havası get-gedə aşkar hiss olunurdu və həmin aprel gecəsi dişində kiçik bir quzu budu tutmuş Gicbəsər asfalt yol boyu axsaya-axsaya daha qaçmırdı, aramla gedirdi. Düzdü, Gicbəsər çox ac idi, dişindəki bu soyuq budu tez yemək istəyirdi, amma yollar daha tamam maşınsız idi, hər iki tərəfdəki evlərin, həyətlərin də işığı yanmırdı və o dəm o gecənin işığı təkcə ayda, ulduzlarda idi; bu sakitlik Gicbəsərin bütün içinə bir arxayınçılıq gətirmişdi və Gicbəsər bu həndəvərdə başqa bir it iyi də duymurdu; bu dəmir tor çəpərlər haradasa qurtaracaqdı və Gicbəsər də yoldan çıxıb rahatca o kiçik quzu budunu yeyəcəkdi.

Sakit olsa da, maşınsız, sürətsiz olsa da, o aydınlıq gecədə uzanıb gedən o asfalt yolda və ümumiyyətlə, gözünü açıb gördüyü bütün asfalt yollarda Gicbəsər üçün bir yadlıq, yabançılıq var idi, asfalt yollar beləcə ən sakit, ən səssiz vaxtlarında da Gicbəsər üçün gizli bir qorxu mənbəyi idi. Tülkü Gəldi Qəbiristanlığındakı torpaq sahələri nəzərə almasan, bütün ömrünü asfalt üzərində (Qəbiristanlıq İdarəsinin həyətində...) keçirməyinə baxmayaraq, Gicbəsər yalnız asfaltdan çıxanda, torpağın üstündə olanda özünü sərbəst hiss edirdi və görünür, bunda ibtidaidəngəlmə nəsə bir sövq-təbiilik var idi.

O gecəyarısı Gicbəsərin dişində balaca quzu budu tutub getdiyi o asfalt yol Abşeronun dənizkənarı kəndlərindən birindəki bağlararası yol idi və bu yolun hər iki tərəfi dəmir torlarla çəpərə alınmışdı, daş hasarlarla tikilmişdi, çünki hər iki tərəf Bakı sakinlərinin bağları, xüsusi sahələri idi və bu yerlərdə hər bağ da hərənin öz qalası idi.

Gicbəsərin qaçmağa taqəti yox idi, amma axsaya-axsaya sürətlə addımlayırdı, bu dəmir torlar, daş hasarlar da qurtarmaq bilmirdi ki, it yoldan çıxsın. Ət çox soyuq idi, amma Gicbəsərin ağzında olan hissə yavaş-yavaş qızmışdı və bu daş hasarlar, bu dəmir torlar qurtaran kimi, Gicbəsər bu əti yeyəcəkdi, amma elə indidən itin dişlərinin arasından axan su adda-budda asfalta tökülürdü.

Gicbəsər neçə gün idi ki, o böyük şəhəri arxada qoymuşdu, böyük küçələr, böyük binalar, böyük həyətlər arxada qalmışdı və Gicbəsər bu müddət ərzində zavodların yanından, neft buruqlarının arasından keçib, yerli itlərin təqibindən qaçıb, bir-birini əvəz edən Bakı kəndlərindən ötmüşdü və ayaqları bu iti hara aparırdısa, ora da gedirdi.

Gicbəsərin yaralı ayağı ağrıyırdı, zədələnmiş boğazı get-gedə daha artıq göynəyirdi, başını tərpədə bilmirdi, amma o aylı-ulduzlu erkən yaz gecəsinin

sakitliyi, elə bil, həmin anlarda bir məlhəm kimi, itin Tülkü Gəldi Qəbiristanlığından çıxdığı vaxtdan bəri keçən bütün günlərinin əzab-əziyyətinin üstünə yayılırdı və Gicbəsər o asfalt yolla, elə bil ki, (nəhayət!), əbədi bir toxluğa və əbədi bir rahatlığa doğru gedirdi.

Gicbəsərin dişində apardığı o balaca quzu budu, diş həkimi Nəcəf Ağayeviçin soyuducusundan çıxmışdı.

Nəcəf Ağayeviç hər şənbə günü Nadejda Fyodorovna ilə birlikdə «Jiquli» maşınlarına minib Bakıdan 35 kilometr aralıdakı bağlarına gəlirdilər, gecə bağda qalırdılar, bazar günü axşam sərini təzədən Bakıya qayıdırdılar. Bu ər-arvadın heç bir qohumu, tanış-bilişi bu bağı tanımırdı, illərdən bəri – o zamandan ki, Nəcəf Ağayeviç beynəlmiləl ailəsini, xalqlar dostluğunu əsas tutub Azərbaycan KP MK-ya, Moskvaya, Sov.IKP MK-ya, şəxsən L.I.Brejnevə yazdlığı ərizələrdən («Beynəlmiləl ailə qurmuşuq, mən azərbaycanlı, həyat yoldaşım isə rusdur, gərgin əməkdən sonra istirahət etməyə yerimiz yoxdur!»), Nadejda Fyodorovnanın rayon Icraiyyə Komitəsindən tutmuş, şəhər partiya komitəsinəcən hər yerə girib-çıxmasından sonra, nəhayət ki, bu bağı, təmir olunmuş gözəl üçotaqlı bina ilə birlikdə hökumətdən kirayəyə götürmüşdü – bura bir nəfər də ayaq basmamışdı. Nəcəf Ağayeviç bağa telefon da çəkdirmişdi və bu beynəlmiləl ailə hər şənbə, bazar günü dünyanın bütün alış-verişindən, hərc-mərcliyindən, fitnə-fəsadından çox uzaq olan bir ada kimi, bu bağda istirahət edirdilər, heç kim onları narahat edə bilmirdi.

Nəcəf Ağayeviçlə Nadejda Fyodorovna bu şənbə Bakıda Musiqili Komediya Teatrında Offenbaxın «Gözəl Yelena» operettasının ilk tamaşasına getdikləri üçün, bağa gecə gəlib çıxdılar və dəmir qapılarının saysız qıfıllarını açdıqdan sonra, evə girəndə Nadejda Fyodorovna adəti üzrə birinci növbədə fin soyuducusunun içinə baxdı və tamaşa etdikləri operettanın o gözəl təsirindən hələ də çıxmadığı üçün üz-gözünü xüsusi bir nifrətlə turşudub:

– Oy!..– dedi. – Tvoya ta baranina ujasno vanyayet!..

Məsələ burasında idi ki, Nadejda Fyodorovnanın qoyun əti ilə arası yox idi, dana ətini, yağsız çoşka ətini, toyuğu, hinduşkanı, təzə ağ balığı üstün tuturdu və buna görə də bu ər-arvad heç vaxt qoyun əti almırdı. Nəcəf Ağayeviç isə qoyun ətini xoşlayırdı, hətta bəzən dalbadal mal əti yeyəndə zəiflədiyini hiss edirdi, qoyun əti Nəcəf Ağayeviçə, elə bil ki, qüvvət verirdi, şəhərdəki saysız-hesabsız işlərini daha cəld və daha artıq bir şövqlə görürdü və qoyun əti yediyi günlərdə gecələr Nadejda Fyodorovna da ərindən razı qalırdı...

Qoyun ətini Nəcəf Ağayeviç üçün rayonlardan, Bakının ətraf kəndlərindən gəlmiş müştəriləri, yəni xəstələri nəğd verəcəkləri puldan əlavə, hərdənbir pay gətirirdilər. Bu körpə quzu şaqqasını da keçən həftə pay gətirmişdilər, Nəcəf Ağayeviç o şaqqanın yuxarı hissəsini – qabırğaları, qolu yeyib qurtarmışdı, bu kiçik budu isə yeməyə macal tapmamışdı və o bud keçən bazar günündən bağdakı soyuducuda qalıb ağırlaşmışdı.

Nəcəf Ağayeviç gəlib sellofana bükülmüş əti soyuducudan çıxartdı, burnuna tutub iylədi – ət, doğrudan da, ağırlaşmışdı, amma Nəcəf Ağayeviç hər ehtimala qarşı:

– Seyças vımyu. Mojet proydet zapax...

Nadejda Fyodorovna daxilən yenə də Offenbaxın operettasına qayıtmışdı və bu yaraşıqlı qadından çıxmayan bir səxavətlə:

– Da bros tı etu baraninu!– dedi. – Çto uvideli tvoi dikari v baranine, a, ne kak ne poymu?.. Aziat tı vsyo je, aziat!.. – Və Nadejda Fyodorovna gözəl Yelenanın ariyasını zümzümə edə-edə otaqda dövrə vurdu, hər ay Israildən içi pal-paltarla dolu bağlamalar gətirdən alverçidən (daimi müştərisindən) aldığı enli və uzun donunun balaqları çətir kimi hava ilə doldu.

Nəcəf Ağayeviç əlində tutduğu o kiçik quzu buduna baxdı, sonra Nadejda Fyodorovnaya baxdı və arvadının o gözəl ovqatını pozmasın deyə, evdən çıxdı, üç metrlik daş hasara aldığı həyətdən də çıxdı və əti bağın dəmir darvazası ilə üzbəüz ucalmış xartut ağacının dibinə qoydu – qurd-quş götürüb aparacaqdı... Nəcəf Ağayeviç dərindən köksünü ötürüb evə qayıtdı: o gözəl operettadan sonra kefi qalxmış Nadejda Fyodorovnanı hələ gecə də razı salmaq lazım idi...

O əti o böyük xartut ağacının dibindən tapan isə Gicbəsər oldu və taqəti qalmadığı, yaralanmış qılçı ağrıdığı, boynu sızıldadığı üçün güclə addımlayan bu it, o əti ağzına alan kimi, elə bil, o ətlə bərabər, o böyük xartutun kötüyündən bir qüvvə də aldı, hansı bir başqa itinsə, hansı bir başqa varlığın, ya qeyri-varlığınsa o əti ağzından qapacağından qorxa-qorxa qulaqlarını qısıb axsaya-axsaya qaçdı, Nəcəf Ağayeviçin dəmir darvazası tərəflərdən uzaqlaşdı.

Nəcəf Ağayeviçin bağı bağların arası ilə dənizə gedən əsas asfalt yolun kənarında idi və o böyük xartut ağacının yanından qaçıb bu yola düşmüş Gicbəsər addımlarını yavaşıtmışdı, o quzu budunun ağzında saxladığı isinmiş hissəsi, o aydınlıq aprel gecəsi həyatının yaxşı məqamlarını itin yadına salırdı: haradasa, haçansa bayırın soyuğunda, çovğununda isti bir yerdə yatmasını, haradasa, haçansa – çox-çox uzaqda qalmış vaxtlarda tumarlanmasını, hardasa, haçansa ağappaq bir qancığın onun dalına düşməsini... və bütün bu görümlərin hamısı Gicbəsərin beynində bir dumana bürünmüşdü, bir-birinə qarışmışdı, amma o dumanın da, qatmaqarışıqlığın da içində indi nəsə bir ılıqlıq, mülayimlik hiss edirdi (indicə yeyəcəyi o quzu buduna görə?) və həmin hiss Gicbəsərin ayağının ağrısını da, boğazının ağrısını da, elə bil ki, azaldırdı.

Və bu vaxt Gicbəsər uzaqdan gələn maşının iyini duydu, səsini eşitdi və qəribədir, həmin gecə sakitliyi içindəki yaxınlaşan o səs Gicbəsərə heç bir bəd əməldən xəbər vermədi, Gicbəsəri diksindirmədi, təşvişə salmadı, elə bil ki, Abşerondakı o aydınlıq gecədə, dənizə gedən o yolda heç bir pis iş, heç bir bəd əməl ola bilməzdi.

Maşının işığı göründü, o maşının ardınca ikinci bir maşın da döngəni buruldu və Gicbəsər sürətini bir az artırıb yolun kənarına çəkildi.

... Irəlidə gedən «Jiquli»də dörd nəfər əyləşmişdi: maşının sahibi və sürücüsü gənc nasir Səlim Bədbin, qabaqda onunla yanaşı oturmuş tanınmış şair, əməkdar incəsənət xadimi Ərəstun Bozdağlı, arxada da iki nəfər gənc şair.

Səlim Bədbin nəşriyyatda redaktor işləyirdi və bu «Jiquli»ni də iki ildən bəri qaytarıb qurtara bilmədiyi borc pulla almışdı ki, nəşriyyat müdiri, əzazil və nadan Islamzadə kimilərinin, qrafoman və əqidəsiz Mürşüd Gülcahani kimilərinin, otuz il qəzetlərdə ədəbiyyat şöbələrinə müdirlik edib qarınlarının marağını və təəssübünü Azərbaycan bədii ədəbiyyatının marağına və təəssübünə çevirmiş Muxtar Xudavəndə kimilərinin, adını gənc şair, gənc nasir, gənc tənqidçi qoyub vətənin və millətin yox, öz şəxsi mənafelərini güdən, Səlim Bədbinin bədii nailiyyətlərinə paxıllıq edən bəzi başqa həmqələmlərin gözünə girsin. Səlim Bədbin ac qarnına

sükan arxasında oturanda da maşını elə şəstlə sürürdü ki, Mürşüd Gülcahani kimi naftalin iyi verən soxulcanlar hiddət və qeyzlərindən bilmirdilər nə eləsinlər.

On il Allahın hər verən günü gecələr üç uşağı və arvadı yatandan sonra, birotaqlı mənzilinin mətbəxində, az qala, səhərə kimi işləyə-işləyə özünü ədəbiyyata həsr edən, qələmi ilə millətin qeyrətini çəkməyə çalışan Səlim Bədbinin nəhayət ki, ikinci hekayələr kitabı çapdan çıxmışdı və qabaqcıl cavanları gözü götürməyən, onların yazısından bir şey başa düşməyən mühafizəkar müdir Islamzadənin müqavilədə o kitabın qonorarını ən aşağı məbləğlə müəyyənləşdirdiyinə baxmayaraq, dünən nəşriyyatın mühasibatından pul almış Səlim Bədbin bu gün dostlarını və həmişə gənclərlə yaxınlıq eləyən, gənclərlə oturub-duran Əməkdar incəsənət xadimi şair Ərəstun Bozdağlını Abşerondakı gözəl kababxanalardan birinə dəvət etmişdi, dörd-beş saat o kababxanada oturub qoyun və ağ balıq kababı yeyə-yeyə yeni kitabı əməlli-başlı yumuşdular və həmin aylı-ulduzlu şənbə gecəsi dəniz sahilinə gedib Xəzərin mənzərəsinə tamaşa etmək istəyirdilər; arxadan gələn «Jiquli»də də Səlim Bədbinin dostlarından üç nəfər cavan qələm əhli əyləşmişdi.

«Jiquli»nin bütün pəncərələrini açdırsa da, külək sürətlə gedən maşının içində qıy vursa da, kababxanadakı məclisdən sonra, əməkdar incəsənət xadimi şair Ərəstun Bozdağlıya hava çatışmırdı və bu yekəpər, canlı adam hər dəfə də havanı dərindən ciyərinə çəkib deyirdi:

– Tarixi bir qonaqlıq oldu, igid. Mürşüd Gülcahani yetmişi keçib, lakin xəsis, bütün ömründə bizi bircə dəfə qonaq edib, o da ki, oğlunun toyunda. Xəsis və quru. Zalım oğlu, «Pravda» qəzetinin baş məqalələrinə oxşayır.

Söhbət Mürşüd Gülcahanidən düşəndə Səlim Bədbin özünü saxlaya bilmirdi və bu dəfə də nifrətlə üz-gözünü türşudub:

– Həmin toya görə indi Islamzadə ona yaltaqlanır, – dedi. – Bizdə ən böyük vəzifə Əbdül Qafarzadənin qohumu olmaqdı. Tanıyırsız də onu, Ərəstun məllim? Qəbiristanlığın direktorudur...

– Necə tanımıram, igid? Dabbaqda gönünə bələdəm.

– Bir dəfə üzünə dedim.

Əməkdar incəsənət xadimi, tanınmış şair Ərəstun Bozdağlı həmin tarixi məclisdə çox içsə də, hər halda, ayıqlığını tamam itirməmişdi və təəccüblə Səlim Bədbinin o aydınlıq gecədə daha da zəif və solğun görünən sifətinə baxa-baxa:

– Kimin üzünə dedin, qoçaq? – soruşdu. – Əbdül Qafarzadənin?

Bayaqdan bəri arxada oturub hıçqıra-hıçqıra sükut edən gənc dost:

– Onun üzünə desəydi, indi sümüyü çürüyürdü Tülkü Gəldi Qəbiristanlığında... – dedi.

Ərəstun Bozdağlı gözlərini Səlim Bədbinin solğun sifətindən çəkib əzəmətli başını arxaya çevirdi, yoğun səsi ilə bərkdən və acı-acı güldü.

Ikinci kitabının nəşri uğrunda illərdən bəri apardığı mübarizə Səlim Bədbinin əsəblərini tamam korlamışdı və gənc nasir bütün içindən axıb gələn bir hiddətlə sükanı sıxa-sıxa:

– Eybi yoxdu... – dedi. – Bu millətin də oyanan vaxtı olacaq. Onda Əbdül Qafarzadələrin də üzünə tüpürəcəyik...

Əməkdar incəsənət xadimi Ərəstun Bozdağlı yenə də gənc qələm dostunun solğun bənizinə baxdı:

– Deməli, o zaman daha Əbdül Qafarzadələr olmayacaq, igid?

– Xeyr, ustad, xeyr... millət oyanacaq... O zaman yalnız millətini sevən insanlar yaşayacaq... O gün gələcək, ustad, gələcək... Mütləq gələcək... – və bu sözləri deyə-deyə gənc nasir Səlim Bədbin kövrəldi (millətdən söhbət düşəndə həmişə beləcə kövrəlirdi). – Yazıq millət... Bədbəxt millət...

... Maşının işığı yaxınlaşdıqca Gicbəsər nəsə daha artıq həyəcanlanmağa başladı və bu işıq itin üstünə düşəndə, Gicbəsər, nəhayət ki, elə bil, nəyisə qabaqcadan hiss edib, nədənsə ürküb sürətini artırdı, qaçmağa başladı.

Maşında oturanlar birdən-birə qabaqlarında peyda olmuş bu heyvanı tanımadılar:

– Canavar...

– Yox, çaqqaldı, çaqqal...

– Ət aparır...

– Itdi...

– Hə, hə, itdi...

Ərəstun Bozdağlı nəhəng qolunu irəli uzadıb:

– Bu it də Mürşüd Gülcahani kimi hərisdi... – dedi.

Səlim Bədbin bayaqkı hiddətdən sonra əmələ gəlmiş bir ikrah hissi ilə:

– Camaat yeməyə ət tapmır, bunun ağzındakı ətə bax... – dedi.

– Zəhmətkeş ətidir o...

– Camaat əti talonla yeyir...

– Fəhlə ətidir, kolxozçu ətidir o...

Səlim Bədbin maşının sürətini artırıb asfaltın üstü ilə iti qovmağa başladı və it yolun sağına-soluna tərəf atıla-atıla qaçıb qurtarmaq üçün, dəmir tor çəpərlərin, daş hasarların arasından bir imdad yeri, bir sığınacaq axtarırdı, amma bütün bu cəhdlərin hamısı boş idi – dəmir torlar, daş hasarlar qurtarmaq bilmirdi.

– Qov onu...

– Qov...

– Qov...

Maşın asfaltın üstündə vurnuxduqca Ərəstun Bozdağlı başı şüşəyə dəyməsin deyə, əzəmətli əllərini qabağa dirəyib:

– Sən Bədbin yox, Boransan, qoçaq, – dedi. – Səlim Boran. Arxada oturanlar isə, elə bil ki, o gözəl məclisin xumarından ayılıb, fürsət düşdüyü üçün ədəbiyyat, mənəviyyat və millət məsələlərindən canlarını qurtarıb açıq-aşkar bir ovçu ehtirası ilə gözlərini irəlidə qaçan, həyatını və ağzındakı əti xilas etmək üçün, özünü yolun sağına, soluna atan itdən çəkmirdi və qışqırırdı:

– Qov onu...

– Qov...

– Qov...

Gənc nasir Səlim Bədbin iki əli ilə də sükanı sıxıb, elə bil ki, bu qovhaqovla nəşriyyat müdiri Islamzadədən, əqidəsiz Mürşüd Gülcahani və məşhur müftəxor Muxtar Xudavəndə kimilərindən, adını gənc yazıçı qoyub paxıllıq edənlərdən, dedi-qodu ilə məşğul olanlardan intiqam alırdı, sükanı sürətlə sağa-sola fırladıb, maşının qazını artırıb iti təqib edirdi.

Gicbəsər onu qovan o maşının qorxusunu, dəhşətini bütün varlığı ilə hiss edirdi, amma yaralı ayağına, zədəli boğazına, taqətsizliyinə baxmayaraq, iti eləcə sürətlə, eləcə dəli kimi qaçmağa məcbur edən yalnız o maşının qorxusu, dəhşəti

deyildi, bəlkə də daha artıq dərəcədə ağzındakı o əti yerə sala biləcəyinin qorxusu idi. Gicbəsərin əngi elə sıxılmışdı ki və it ağzının o kipliyinə o qədər güc sərf etmişdi ki, elə bil, o balaca quzu budu da indi bu itin özünün bədəninin bir hissəsi idi.

– Qov...

– Qov...

– Qov...

Gicbəsəri, elə bil, sonu görünməyən, bitib qurtarmaq bilməyən uzun bir dəmir və daş qəfəsə salmışdılar – bu qəfəs uzanırdı, uzanırdı, it daha nəfəs ala bilmirdi, ürəyi az qalırdı o quzu budu ilə birlikdə ağzından çıxıb asfaltın üstünə düşsün.

Gicbəsər qaça-qaça özünü təzədən yolun sağ tərəfinə atanda gənc nasir Səlim Bədbin (Boran) iti keçdi və bu dəfə it iki maşının arasında qaldı; arxadan gələn ikinci «Jiquli» də işığı Gicbəsərin üstünə salmışdı və o maşında oturmuş cavan qələm əhli də ehtirasla qışqırırdı:

– Qov onu...

– Qov...

– Ay əclaf, biz əti talonla yeyirik, sən müftə?

– Qov...

– Qov...

Gicbəsər iki maşının arasında qaçırdı və bu maşınlardan arxada gələni onu qovur, irəlidə gedən isə iti qabağa buraxmırdı və o şənbə gecəsi, Abşerondakı o asfalt yolda Gicbəsər yəqin ki, bütün ömründə duymadığı bir dəhşət içində idi, hətta o Qara itin onu boğazlamağı da indi bu dəhşətin yanında bir heç idi; daha hər şey, dişlərinin arasında sıxdığı o kiçik quzu budu da Gicbəsərin yadından çıxmışdı və Gicbəsər bu qovhaqovda, motorların və əyləclərin tükürpədən səsindən maşınlardan gələn dəli qışqır-bağırdan canını qurtarmaq istəyirdi.

– Qov onu...

– Qov onu...

– Qov... Qov... Qov...

Bu dəfə yolun sağ tərəfindəki dəmir torun aşağısında Gicbəsər bir yırtıq tapdı və bütün gücü ilə özünü o yırtığa təpdi, Gicbəsər heç özü də hiss etmədi ki, ağzındakı kiçik quzu budu dəmir tora ilişib necə yerə düşdü, torun yırtılmış yerinin iti uclu məftilləri itin bədənini necə kəsdi, cızdı, qanatdı; it yırtıqdan keçib əncir ağaclarının arası ilə qaçdı və üzümlüyə girdi. Bura bağ həyəti idi və Gicbəsər ləhləyə-ləhləyə, canı, az qala, ağzından çıxa-çıxa o həyətdə başqa bir it hiss etdi, o başqa itin hənirtisi gələn kimi, böyük darvazanın kənarındakı dəmir torda yenə bir yırtıq tapdı (xoşbəxtlikdən bu bağın yiyəsi həyət-bacaya yaxşı fikir vermirdi...) və zəhmli hənirtisi yaxınlaşan o başqa it onu qamarlamamış özünü həmin yırtığa dürtüb eşiyə çıxdı, dəmir məftillər yenə də üz-gözünü, bədənini kəsdi, cızdı, qanatdı, tüklərini yoldu...

Asfalt yoldakı o iki maşının dibinəcən sıxılan əyləclərinin səsi bütün o ətrafdakı əncir, xartut, gilənar, ərik,alça, nar, iydə, badam ağaclarının, meynəliyin həmin gecə dincliyini pozdu, elə bil ki, o aprel gecəsi Abşeronun göyündəki ayı-ulduzları da dağıtdı.

Irəlidə isə dəniz uğuldayırdı və Gicbəsər dili ağzından çıxa-çıxa, ləhləyə-ləhləyə, təkcə qılçı və boğazı yox, bütün bədəni ağrıya-ağrıya, gizildəyə-gizildəyə dənizə tərəf getdi, böyrü üstə dəniz kənarındakı nəm qumun üstünə düşüb qaldı.

Artıq uzaqdakı o maşınların motoru yenidən işə düşdü və Gicbəsər get-gedə itib yox olan o motor səsini sona qədər eşitdi. Maşınların uzaqlaşıb itən o səsində indi bir təmkin, bir aram var idi, elə bil ki, hər şey Gicbəsərin dəniz kənarında beləcə düşüb qalmasına bağlı imiş...

Gicbəsər başa düşdü ki, o qorxulu, o dəhşətli qüvvələr ondan uzaqlaşdı, amma bu – Gicbəsərin əzablarını qətiyyən azaltmadı, Gicbəsərə heç bir rahatlıq gətirmədi.

Yüngülcə meh əsirdi, dəniz dalğalı deyildi, amma yuxarı qalxmayan, aşağı düşməyən eyni bir uğultuyla uğuldayırdı və bu uğultu elə bil ki, göydəki o ayla, ulduzlarla heç uyuşmurdu.

O aprel gecəsi diş həkimi Nəcəf Ağayeviçin fin soyuducusundan çıxmış o balaca quzu budu da toza-torpağa batıb elə-eləcə o tor dəmir çəpərin yanında qalmışdı və əlbəttə, Gicbəsər indi qalxıb geri qayıtsaydı, bəlkə də həmin əti tapardı; bir azdan gec olacaqdı, başqa qurd-quş, başqa itlər (elə həmin həyətdəki it) gəlib o quzu budunu tapacaqdı; amma Gicbəsər, ayağa qalxmadı, o ətin ardınca getmədi və Gicbəsər elə bil ki, ümumiyyətlə, bütün dünyanı yadından çıxarmışdı, yalnız dənizin səsini eşidirdi və bu uğultu özündən, yəni dənizdən savayı başqa heç nədən xəbər vermirdi...

## 14

## ƏBDÜL QAFARZADƏ

Əbdül Qafarzadə o aprel günü cavan katibə qızın dükandan alıb gətirdiyi pendir-çörəyi yeyəndən və Bədurə xanımın həmişəki kimi, əla dəmlədiyi hil qarışıq hind çayından iki armudu stəkan içəndən sonra, kabinetindəki pəncərənin qabağında dayanıb buradan aşağı-yuxarı – bütöv mənzərəsi görünən Tülkü Gəldi Qəbiristanlığına baxırdı; elə bil ki, qəbiristanlıq tamam başqa bir dünyadan – təpədən dırnağacan kədərli, qəmli dünyadan, tamam fərəhsiz, tamam əlacsız bir dünyadan xəbər verən, həyatın mənasızlığından, ömrün vəfasızlığından deyən bir şəhərcik idi və pəncərədən görünən bu saysız-hesabsız qəbirlərin başdaşları da həmin kədərli, həmin fərəhsiz və əlacsız şəhərciyin əbədi bir sükuta, hərəkətsizliyə qapanmış sakinləri idi.

Əlbəttə, həkim Bronşteyn ilə professor Mürsəlbəyli tamam başqa-başqa adamlar idi, amma indi, nədənsə, Əbdül Qafarzadəyə elə gəldi ki, həkim Bronşteynin rənglənmiş saçı və bığı ilə professor Mürsəlbəylinin ağappaq nişastalı xalatı və tüklü sinəsi arasında nəsə bir yaxınlıq var və ən qəribəsi isə bu oldu ki, həmin dəm Əbdül Qafarzadəyə elə gəldi ki, elə bil, o rənglənmiş saç və bığla, o nişastalı ağappaq xalat və tüklü sinə ilə bu Tülkü Gəldi Qəbiristanlığı arasında da nəsə bir yaxınlıq, hətta doğmalıq var; bu çox xoşagəlməz bir hiss idi və Əbdül Qafarzadə çalışdı ki, bu hissi özündən uzaqlaşdırsın.

Düzdür, Əbdül Qafarzadə bu gün sübh tezdən gözünü açanda qışdan sonra birinci dəfə günəşin istisini hiss etdi, günəşin o hiss olunan şüalarında bir nikbinlik, bir ruh yüksəkliyi var idi, sonra, bax, kabinetdəki bu pəncərə yadına düşdü, bu qəbir daşları gözünün qabağına gəldi və səhər sübhdən günəşin gətirdiyi o təmizlik, o

hərarət, elə bil ki, bir çirkab içində yox olub getdi; belə idi, qəbiristanlıq dünyanın ən bədbin bir yeri idi, amma bununla bərabər, qəbiristanlığa çirkab bir şey kimi baxmaq da, əslində, günah idi və dünyanın faniliyinin, həyatın mənasızlığının bir ümidsizlik gətirdiyi belə anlarda Əbdül Qafarzadə çalışırdı təskinliyi onda tapsın ki, dünyaya gəlmiş və bir gün də dünyadan köçəcək nə birinci, nə də sonuncu insandır və bir halda ki, belədir, bir halda ki, dünyanın böyük-böyük alimləri (Ibn Sina!), şairləri (Füzuli!), sərkərdələri (Napoleon!), dövlət adamları (Lenin!) həyatın bu mənasızlığı müqabilində ruhdan düşməyiblər, öz böyük işlərini görüblər, deməli, həmin mənasızlıq barədə heç fikirləşmək də düzgün deyil; o şey ki, səndən asılı deyil, nə üçün fikirləşib özünə dərd edirsən?

Əbdül Qafarzadə dəsmalını çıxarıb çeşməyinin şüşələrini sildi, sonra qalın və tüklü barmaqları ilə boz gözlərinin ətarafını ovxaladı, çeşməyi təzədən gözünə taxdı, həmişəki kimi, əllərini arxasında birləşdirib sinəsini qabağa verdi və fikirli-fikirli kabinetdən çıxdı, onu görən kimi dik ayağa qalxan cavan katibə qızın yanından ötdü və Qəbiristanlıq Idarəsinin həyət qapısı ağzında dayanıb irəlidəki bütün yamac boyu torpağa döşənmiş qəbirləri gözdən keçirdi.

İllərdən bəri dillərinin üstündəki hərflər pozulub oxunmaz olmuş makinasında bu dəfə Bakının meyvə-tərəvəz köşklərinə meyvələrin maşınlarla daşınmasının iqtisadi məsələlərinə həsr olunmuş bir namizədlik dissertasiyası çap eləyən Bədurə xanım (bu makinada Bədurə xanımdan başqa heç kim heç nə çap edə bilmirdi) gözləmə otağından keçib həyətə adlayan Əbdül Qafarzadəyə baxdı, iri çeşməyinin arxasında fikrə dalmış boz gözlərini görəndə başa düşdü ki, kişi yenə qəbiristanlığı gəzməyə gedir; adamda bəzən bir həvəs əmələ gəlir ki, bulvarda gəzməyə çıxsın, yaxud dağda, meşədə, çəmənlikdə gəzsin və Bədurə xanım da Qəbiristanlıq Idarəsində işlədiyi bu uzun illər ərzində bilirdi ki, Əbdül Qafarzadənin də içindən hərdən belə bir həvəs baş qaldırır ki, qəbiristanlığı gəzsin, özü də bu, kədərli, qüssəli bir həvəsdir. Axır vaxtlar kişidəki bu həvəs, elə bil ki, artmışdı, böyümüşdü, bir ehtiyaca çevrilmişdi, az qala, nəfəs alınası havaya, yeyiləsi çörəyə dönmüşdü və elə bil ki, o kədər, o qüssə də artmışdı. Belə məqamlarda Bədurə xanımın Əbdül Qafarzadəyə yazığı gəlirdi, hətta, avtomat kimi, makinanın yazısız dilləri üzərində gəzən barmaqlarını saxlayıb bir anlıq qəhərlənirdi də (sonra barmaqlar yenə avtomat kimi, işə başlayırdı).

Bədurə xanımın dünyasında Əbdül Qafarzadə, əlbəttə, dəhşətli bir adam idi,bu adam Bədurə xanımın bütün həyatını məhv etmişdi (hər halda, Bədurə xanımın özünə belə gəlirdi və illər keçdikcə bu tək qadın daha artıq bir əlacsızlıqla, daha artıq bir ədavətlə, kin-kidurətlə Əbdül Qafarzadəni öz tənhalığının, kimsəsizliyinin, köməksizliyinin, hətta qocalmağının yeganə təqsirkarı hesab edirdi), amma bununla belə, ürəyinin lap dərinlərində hərdən bu adamla bağlı nəsə doğma bir hiss də baş qaldırırdı, bu hiss çox ötəri olurdu, çox yüngül idi, amma baş qaldırırdı və həmin ötərilik, həmin yüngüllük o hissə bir zəriflik, bir xəfiflik gətirirdi. Əbdül Qafarzadə olanda nə olar, o da ata idi və o atanın balası bu qəbiristanlıqda yatırdı...

Qarovulçu Əflatun Tülkü Gəldi Qəbiristanlığına elə öyrənmişdi ki, gündüzlərini də gəlib burada keçirirdi və bu kiçik boylu, bir dəri, bir sümük olan arıq, amma çox diribaş, necə deyərlər, qayışbaldır adamın sutka ərzində nə vaxt yatmağı məlum deyildi; həmin aprel günü də qarovulçu Əflatun burnunu çəkə-çəkə Tülkü Gəldi Qəbiristanlığının həyətində ora-bura girib çıxırdı və qapının ağzında

dayanmış Əbdül Qafarzadəni görən kimi, kişinin üstünə yüyürdü, dili ağzında böyük olduğu üçün kələ-kötür danışa-danışa:

– Salaməleyküm, Əbdül!– dedi. – Bu adı nədi, şey, mənə görə qulluğun? Bir şey-zad lazımdı?

Qarovulçu Əflatun bütün Qəbiristanlıq Idarəsində yeganə adam idi ki, Əbdül Qafarzadəni adı ilə çağırırdı (və bununla təkcə Tülkü Gəldi Qəbiristanlığında yox, evdə arvadının, oğlu Kolxozun və üçü ərə getmiş, ikisi hələ də ər gözləyən qızlarının, nəvələrinin yanında da göz-görəti fəxr edirdi), qalan camaat isə – dülgərdən, bənnadan, fotoqraf Əbülfəzdən tutmuş makinaçı Bədurə xanıma kimi, hamı kişiyə «Əbdül Orduxanoviç» – deyə müraciət edirdi; təkcə alkoqolik qəbirqazanlardan başqa; alkoqolik qəbirqazanlar Əbdül Qafarzadənin heç adını da bilmirdilər, bilsələr də, yadlarında saxlamırdılar, amma bu adamdan, yəni Əbdül Qafarzadədən dəhşətli dərəcədə, heyvani bir vahimə ilə qorxurdular, çünki hərdənbir nədən ötrüsə alkoqoliklərə acığı tutanda, qəzəblənəndə Əbdül Qafarzadə çilingər Ağakərimi çağırırdı, alkoqolikləri yerə yıxdırıb yaxşıca döydürürdü.

Alkoqolik qəbirqazanlar çilingər Ağakərimin zindan kimi ağır təpiyinə, yumruğuna dözərdilər, amma Əbdül Qafarzadə onları eşşək kimi döydürəndən sonra, qarovulçu Əflatunun köşkünə saldırırdı, qapını qıfılla bağladırdı, tapşırırdı ki, bir sutka ərzində onlara bircə qram da araq verməsinlər (heç su da verməsinlər) və alkoqolik qəbirqazanlar, bax, buna dözə bilmirdilər, bu müsibət bir işgəncə idi, dəhşətli bir cəza idi və onlardakı o heyvani qorxu hissini də həmin cəza yaratmışdı.

Alkoqoliklər beləcə cəza alanda qarovulçu Əflatun bütün sutka ərzində bayırda qalırdı, soyuq havalarda gecələr darvaza boyu ora-bura yüyürə-yüyürə (yağış yağanda isə işlər lap pis olurdu), taksiləri, araq müştərilərini gözləyə-gözləyə hərdən köşkə yaxınlaşırdı, içəridə zarıldayan alkoqolikin qarasına: «– Öl, o adı nədir, şey, köpək oğlu!» – deyirdi, sutka tamam olandan və alkoqolik azad ediləndən sonra, ayaqyolu iyi verən köşkə girib yenə də alkoqoliklərin qarasına eləcə deyinə-deyinə təmizlik işləri aparırdı. Heç vaxtıyla bu köşkdə qalan Gicbəsər də (bu it axır günlər gözə dəymirdi – itmişdi, ölmüşdü, nə olmuşdu?..) it ola-ola bu köşkü bu alçaq alkoqoliklər kimi, beləcə batırmırdı...

Əbdül Qafarzadə qarşısında dayanıb qulluq gözləyən bu balaca adama baxdı; gözünü açandan məhəllədə Əflatunu elə beləcə görmüşdü – bu adam qocalmırdı və bunlar nəsillikcə beləcə çox yaşayan, beləcə qıvraqdılar. Bunun bir anası vardı, yaşı yüzdən keçmişdi, amma civə kimiydi, bir yerdə dayanmaq bilmirdi, bişirirdi, yuyurdu, süpürürdü... Birdən-birə xərçəng xəstəliyindən öldü (xərçəng tapmasaydı, hələ indi də yaşayardı) və deyirdilər ki, guya o arvadın ağrılarını sakitləşdirmək üçün aptekdən verilən narkotik dərmanları bu əclaf Əflatun anasına vermirmiş, baha qiymətə narkomanlara satırmış... Nə desən olar, bu qarovulçu Əflatundan nə desən çıxar. Bəlkə də elə-belə deyirdilər, kim bilir, yalan sözlər idi bəlkə? Adamın adı çıxınca, canı çıxsa yaxşıdır, amma deyirdilər, başqa sözlər də deyirdilər... Şayiə gəzirdi ki, guya, bu Əflatun cəlladdı, yəni güllələnməyə məhkum olunmuşları bu gedib həbsxanada güllələyir və xüsusi maaş alır... Əbdül Qafarzadə bu şayiəni dəqiqləşdirmək üçün, Əflatundan heç nə soruşmamışdı, başqa yerlərdən də öyrənməmişdi (istəsəydi, əlbəttə, öyrənə bilərdi), çünki qarovulçu Əflatun nə qədər iyrənc məxluq olsa da, Xıdırla dost olmuşdu və doğrudan da məlum olsaydı ki, Əflatun cəlladdır, bu, Əbdül Qafarzadəyə pis təsir edərdi.

Onda Əflatun tramvay sürürdü, Əbdülgil də məhəllənin uşaqları ilə qaçıb gedib o tramvaya minirdilər, gedə-gedə tramvaydan atılırdılar və bir dəfə Əflatun bunu Xıdıra xəbər vermişdi və yazıq Xıdır, Allah ona min kərə rəhmət eləsin, bu işin üstündə Əbdülü o qədər döymüşdü ki, yadına düşəndə, indi də o sillələrin, o təpiklərin yerini hiss edirdi. Xıdır bir dəfə də Əbdülü papiros çəkmək üstündə beləcə döymüşdü. Xıdır istəyirdi ki, Əbdül güclü olsun, sağlam olsun, Xıdır istəyirdi ki, bu canavar dünyada Əbdüldən çəkinsinlər, Əbdül yem olmasın, yeyən olsun. Yazıq Xıdır gərək indi sağ olaydı...

Hər dəfə Xıdır yadına düşəndə Əbdül Qafarzadənin ürəyində, elə bil, təptəzə yara yeri ağrıyırdı, illər keçirdi, amma o yara sağalmırdı, hətta Orduxan bu dünyadan köçəndən sonra, Əbdül Qafarzadənin ürəyində Orduxanın o dəhşətli yarası ilə bir yerdə Xıdırın da yarası öz yerində qalırdı – Orduxanın o dəhşətli yarası Əbdül Qafarzadənin ürəyində Xıdırın yarasını yox etməmişdi.

Xıdır indi qırx ildən artıqdır ki, dünyada yoxdu, amma bu balaca adam, bu Əflatun necə vardısa, eləcədi, civə kimi bir şeydi, burnunu çəkə-çəkə, «o adı nədi, şey...» – deyə-deyə burdan vurub ordan çıxır. Nə olar, dünyadı, qoy yaşasın... Xıdır ilə Əflatunun münasibətləri yaxşı idi; bədəni, elə bil, tuncdan tökülmüş Xıdırın yanında balaca Əflatun həmişə kiçiklik etmişdi, birdən-birə partiyaya keçəndən, tramvay sürməyi buraxıb məktəbdə müdir müavini işləməyə başlayandan sonra da o pis zəmanədə Əflatun Xıdırın yanında qudurmamışdı, əksinə, əlləşib-köməkləşib Xıdırı həmin məktəbə idman müəllimi düzəltmişdi və Əbdül Qafarzadə bunu heç vaxt yadından çıxartmayacaqdı, ömrünün axırına kimi Əflatuna çörək verəcəkdi.

– Yox, Əflatun, heç nə lazım deyil, çox sağ ol. – Əbdül Qafarzadə bu sözləri dedi və fikirləşdi ki, əslində, hərgah dünyada, doğrudan da, xoşbəxtlik deyilən bir şey varsa, onda, bax, bu balaca adam, bu Əflatun dünyanın elə ən xoşbəxt adamıdı ki, var – beşdə alacağı yox, onda verəcəyi, qəpik-quruşunu qazanır, ailəsini dolandırır, həyatdan da razıdır, vəssalam; Əbdül Qafarzadənin hərdənbir beləcə «balaca adam» lara həsəd aparmağı var idi və ona elə gəlirdi ki, bu həsəd hissi tamam sidq-ürəkdəndir.

Qarovulçu Əflatun bir müddət eləcə dayanıb Tülkü Gəldi Qəbiristanlığına tərəf gedən Əbdül Qafarzadənin ardınca baxdı... Əflatun iclaslarda Mir Cəfər Bağırovu çox görmüşdü, o gözəl vaxtlarda ki, partiya fəalı idi, Bakıdakı bütün iclaslara gedirdi. Doğrudan gözəl vaxtlar idi, hamı Əflatundan qorxub çəkinirdi və Əflatun da partiyanın yolunda canını qoymuşdu. Bir dəfə – 1939-cu ilin yazı idi, Bakı maarif işçilərinin filarmoniyanın binasında keçirilən siyasi yığıncağında filarmoniyanın qapısından içəri girən Mir Cəfər Bağırov dəhliz boyu hər iki tərəfdən divar dibinə çəkilib heykəl kimi dayanmış adamlarla görüşəndə Əflatunla da əl tutuşmuşdu və Mir Cəfər Bağırovun çeşməyin altındam baxan gözləri, sifəti heç zaman qarovulçu Əflatunun yadından çıxmırdı, o gözlərdə, o sifətdə elə bir daxili soyuqluq vardı ki, adamın bədəninə üşütmə salırdı. Və qarovulçu Əflatun Əbdül Qafarzadə ilə də, beləcə yaxından üzbəüz dayananda onu Mir Cəfər Bağırova oxşadırdı və təbiət qarovulçu Əflatuna zəngin hisslər bəxş etməsə də, həmin daxili soyuğu, Əbdül Qafarzadənin də baxışlarında, qalın dodaqlarının təbəssümündə hiss edirdi, münasibətləri çox yaxşı olsa da, əslində, bu adamdan da vaxtilə Mir Cəfər Bağırovdan qorxduğundan az qorxmurdu...

Əbdül Qafarzadə eləcə fikirli-fikirli Qəbiristanlıq Idarəsinin həyətindən çıxıb Tülkü Gəldi Qəbiristanlığının içinə girdi və onu görəndə özlərini yığışdıran – kimisi gülməyini saxlayırdı, kimisi əlindəki siqareti gizlədirdi, kimisi danışığını kəsirdi – işçilərinə fikir vermədən, o işçiləri heç görmədən Idarədən uzaqlaşdı.

Əflatun, Xıdırı kaş o məktəbə heç düzəltməyəydi, Xıdır o məktəbdə satqın adamların, alçaqların qurbanı oldu və 1939-cu ilin o qarlı qış gecəsi üç nəfərin qapını döyərək içəri girib Xıdırı aparmaqları bütün təfərrüatı ilə Əbdül Qafarzadənin yadında idi.

Həmin qış gecəsi Əbdül qalın yorğanın altında yatmaq istəyirdi, amma yata bilmirdi, çünki Əbdül dünənki gecədən hiss etmişdi ki, nəsə olub və bu «nəsə» xeyirliyədir, bu elə bir «nəsə»dir ki, Xıdırın işləri yaxşı olacaq, Xıdır daha da böyüyəcək. Bu «nəsə» dünən gecə olmuşdu, Xıdır məktəb müdirinin qızının ad gününə getmişdi, Əbdül bunu bilirdi və orada nəsə bir hadisə baş vermişdi. Əbdül bilmirdi ki, bu nə hadisədir, amma hiss edirdi ki, Xıdırın işləri yaxşı olacaq.

Xıdır qonaqlıqdan gec gəldi, soyunub yerinə girdi, amma səhərə kimi yata bilmədi, otağın qaranlığında Əbdülün də yatmadığını hiss etdi: «– Sən niyə yatmırsan?» – soruşdu, «– Yat» – dedi, amma bilirdi ki, Əbdül yatmayacaq, çünki Əbdül Xıdıra o qədər öyrənmişdi ki, Xıdırı o qədər istəyirdi ki, Xıdırla baqlı bütün hissləri açıq elektrik xətti kimi həssas idi, böyük qardaşının həyəcanını o saat duyurdu.

Və qonaqlıqdan qayıtdığı o gecə Xıdır: « – Yat... – dedi. – Yat... Hər şey əla olacaq. Bizimki hələ bunnan sonradı. Əntiqə günlər hələ bunnan sonradı. Sənin üçün də əntiqə olacaq, yat!» Xıdır o sözləri elə dedi ki, o sözlərdə də Xıdırın bədənindəki əzələlər kimi bir güc, bir inam var idi və balaca Əbdül onda o qalın yorğanın altında Xıdırın dediyi o «əntiqə» sözünün ürəyə yayılan, xoş, mülayim, hətta yorğan-döşəyin içinə bir nəvaziş gətirən təsiri ilə yuxuya getdi.

Ikinci növbədə oxuyan Əbdül qonaqlığın səhəri məktəbdən qayıdanda Xıdır evdə idi, kefinin kök çağlarında olduğu kimi, fitlə «Sarı bülbül» çalırdı (indi də hər dəfə «Sarı bülbül» çalınanda, oxunanda Əbdül Qafarzadənin bütün daxili aləmi riqqətə gəlirdi və hər dəfə elə bil ki, o «Sarı bülbül» Xıdırın bəxtsiz taleyi üçün çalınırdı, oxunurdu), soğanla qoyun əti qızartmışdı ( Xıdırın bişirdiyi o sonuncu xörəyin, o ət qızartmasının dadı indiyə kimi Əbdül Qafarzadənin yadında idi, xatırladıqca o dadı ağzında hiss edirdi), Əbdülə bir şüşə limonad, özünə bir qrafin pivə almışdı; iki qardaş mizin arxasında oturub çörək yedilər. Xıdır hərdən baş barmağını qaldırıb özündən, az qala, iyirmi yaş kiçik olan qardaşına göstəriridi «– Əla olacaq işlər, əla» – deyirdi. Əvvəlcə Əbdülə elə gəlirdi ki, söhbət hansısa bir idman yarışından, idmanla bağlı nədənsə gedir, amma mizin arxasında Xıdırla üzbəüz oturub o gözəl ət qızartmasını yedikcə o on yaşlı balaca oğlan başa düşürdü ki, yox, bu dəfə söhbət idmandan getmir, bu dəfə nəsə daha böyük bir iş olacaq və o böyük iş Xıdırı da, Əbdülü də daha artıq xoşbəxt edəcək. Əbdül heç nə soruşmurdu, çünki bir-birlərini çox istəsələr də, bu iki qardaş arasında böyük-kiçiklik var idi, lazım bilirdisə Xıdır özü deyəcəkdi, lazım bilmirdisə Əbdülün sual verməyi hörmətsizlik olardı.

Həmin qış gecəsi Əbdül yenə də qalın yorğanın altında idi. O qalın yorğan evdə tək idi və Xıdır o qalın yorğanı Əbdülə vermişdi, özü qışda da üstünə adyal salırdı. Çox soyuq olanda adyalın üstündən paltosunu salırdı. O qalın yorğan

Əbdülün üzünü görmədiyi atasından, güclə xatırladığı anasından qalmışdı və o yorğanın ən gözəl, ən şirin cəhəti o idi ki, Xıdır onu özünə qıymırdı, o qalın yorğanla Əbdülü elə bil ki, təkcə soyuqdan qorumurdu, ümumiyyətlə, dünyanın buz kimi üşüdən işlərindən, bəd əməllərindən qoruyurdu.

Sonra qapı döyüldü, o üç nəfər içəri girdi, yorğan-döşəkdən qalxmış yuxulu Xıdıra geyinməyi əmr elədilər, sonra da Xıdırı qabaqlarına qatıb apardılar.

O on yaşlı uşaq o saat başa düşmüşdü ki, bu üç nəfər xeyir işdən ötrü gəlməyiblər və qorxudan daha çox anlaşılmaz bir təəccüb, heyrət hissi o uşağın kiçik varlığını bürümüşdü: dünən gecəki o gözəl «əntiqə» sözündən sonra, axşamüstü mizin arxasında oturub yedikləri o gözəl qızartmadan sonra, Xıdırın hərdənbir baş barmağını qaldırıb dediyi o «əla» lardan sonra bu üç nəfərin gecəyarısı bu cür gözlənilməz gəlişi, Xıdırla bu cür hörmətsiz rəftarı o on yaşlı uşağı çaşdırıb mat qoymuşdu və həmin uşaq yalnız o vaxt özünə gəldi ki, o üç nəfər Xıdırı otaqdan çıxarır.

Əbdül qalın yorğanı üstündən bir tərəfə atıb ayağa sıçradı, dəli kimi qışqırdı və o zaman Xıdır arxaya çevrilib otaqda yanan onluq nöyüt lampasının işığında Əbdülə baxdı. «Qorxma, – dedi, – qayıdacağam». Xıdırın o sözlərindən sonra Əbdülün ürəyinə bir arxayınlıq gəldi, Əbdül sakitləşdi, çünki Xıdır kimi güclü adama kim nə edə bilərdi? (Bu balaca axmaq – Əbdül – o zaman Stalin baba haqqında ancaq gözəl nağıllar eşitmişdi: Stalin baba yetmiş iki dil bilir, Stalin baba sovet idmançılarının dostudur – bunu yazıq Xıdır tez-tez deyirdi – Stalin baba Kursk vağzalında bir yetim oğlanı ac görüb ağlayıb, öz maşınını həmişəlik o oğlana bağışlayıb... Amma əziz Stalin baba canavardır – bunu o balaca axmaq hardan biləydi?.. ) O onluq lampanın işığında Xıdırın sifətində elə bir mehribanlıq vardı, dodaqlarındakı təbəssümdə elə bir doğmalıq vardı ki və bu mehribanlıq, bu doğmalıq o üç nəfərin sifətindəki, hərəkətindəki, danışığındakı soyuqluqdan, yadlıqdan o qədər seçilirdi ki, Əbdül o arxayınçılığa baxmayaraq ağlamağa başladı.

Küçədə maşının çırpılan qapısının səsi eşidildi, sonra maşın yerindən tərpəndi və o maşının səsi içində apardığı Xıdırla birlikdə Əbdülgilin evindən uzaqlaşdı. Əlbəttə, 1939-cu ilin o qarlı qış gecəsi o on yaşlı uşağın ağlına gələ bilməzdi ki, o maşın Xıdırı, əslində, bir yoxluğa apardı, həmişəlik apardı; o on yaşlı uşağın ağlına gələ bilməzdi ki, indən belə qocalıb əldən düşmüş bibisinin himayəsində bir qarnı ac, bir qarnı tox, kimsəsiz və köməksiz böyüyəcək... Bu azad və xoşbəxt ölkədə özü özünə bir gün ağlayacaq, özündən başqa bir köməyi, bir dayağı olmayacaq...

Hər şey keçib gedir və bütün bunlar da həmişəlik bir keçmişdə qalmışdı, bütün bunlardan nə yazıq Orduxanın xəbəri vardı, nə Sevilin xəbəri vardı, nə də balaca Əbdülün xəbəri vardı; bütün bunlar Əbdül Qafarzadənin həyatının qisməti idi və bütün bu acı xatirələr yalnız ona məxsus idi; hər bir adam öz taleyini öz çiyinlərində daşımağı bacarmalı idi.

Iki gün əvvəl yağış yağmışdı və qəbiristanlığın içi ilə gedən yeganə asfalt yolun hər iki tərəfindəki torpaq hələ də qurumamışdı, adda-budda xırda gölməçələr var idi, palçıq idi. Amma o çirkli gölməçələr də, o palçıq da qəribə idi, bu dəm elə bil ki, Tülkü Gəldi Qəbiristanlığına nəsə kiçicik bir həyat əlaməti gətirirdi, çünki o aprel günü əllərini arxasında birləşdirib, sinəsini qabağa verərək asta-asta addımlayan Əbdül Qafarzadə qəbiristanlıqda heç zaman duymadığı bir quruluq hiss

edirdi; bu qəbir daşları da, elə bil, qupquru quma dönmüşdü, indicə tökülüb dağılacaqdı.

Bu quruluq hissi, elə bil ki, qəbiristanlıqdan qalxıb Əbdül Qafarzadənin özünün bədəninə keçmişdi, içinə dolmuşdu, bu dəm kişinin bədəni də, iç-ciyəri də qupquru qum idi, qum saatındakı kimi, indicə süzülüb asfaltın üstünə töküləcəkdi; iki stəkan çay içdiyinə baxmayaraq, kişinin ağzında da bir quruluq var idi və bu quruluq da öz növbəsində, elə bil ki, fikirlərə, düşüncələrə, xatirələrə keçirdi və indicə o fikirlər, düşüncələr də, o xatirələrdə qupquru qum olub o qəbir daşları kimi, yerə töküləcəkdi.

Birdən-birə baş qaldırmış bu quruluq hissi o qədər gücləndi ki, Əbdül Qafarzadəyə elə gəldi, elə bil, burnu, qulaqları, gözləri də, saçı da o qupquru qumla dolub və kişi az qaldı əlini arxasından çəkib saçını, qulağını qumdan təmizləsin; bu quruluq hissi Əbdül Qafarzadənin həmişəki təmkininə güc gəldi, kişi sürətlə addımlaya-addımlaya, az qala qaça-qaça üç il bundan əvvəl qəbiristanlığın ortasında, yolun kənarında düzəltdirdiyi bulağa tərəf gəldi.

Iki gün bundan əvvəl Molla Əsədulla bu bulağın qabağında idi, qəhvəyi rəngli Buxara papağını başından götürüb bulağın daş sürahısının üstünə qoymuşdu və tələsmədən əl-üzünü yuyurdu, Əbdül Qafarzadənin gəldiyini görəndə dərhal suyun yanından kənara çəkildi və qız əli kimi zərif əlləri ilə ağappaq qısa saqqalını sığalladı. Iki gün bundan əvvəl Əbdül Qafarzadə, bax, bu bulağın başında Molla Əsədullaya tamam-kəmal bir salam verdi:

– Əs-səlami əleyküm, molla dayı.

Molla Əsədulla yaxınlıq eləməsə də, bu adamın, yəni Qəbiristanlıq Idarəsinin müdirinin Bakının çox mükəmməl kişilərindən biri olduğunu yaxşı bilirdi. Əbdül Qafarzadənin qudası (deyirdilər ki, guya, yazıçıdır) Mürşüd Gülcahani bir müddət Molla Əsədullagilin həyətində yaşamışdı (faytonçu Əliməmmədin – çoxdan rəhmətə gedib – qızı Ədiləni almışdı və öz evi olmadığı üçün Əliməmmədgildə qalırdı, duzsuzun, qanıb-qandırmazın biri idi, o necə yazıçı olub, Allah bilir...) və Molla Əsədulla uzaqdan-uzağa da olsa, Qafarzadələrin ailəsinə bələd idi, buna görə də Əbdül Qafarzadənin yarıistehzalı, yarızarafat salamını ciddi qəbul etdi (başa düşürdü ki, belə adamlarla zarafatın axırı onun üçün yaxşı qurtarmaz) və bu salama tam dəstgahı ilə cavab verdi:

– Əleyküm əs-salam və rəhmətullahi və bərəkətühü!1, dadaş.

Əbdüll Qafarzadənin Tülkü Gəldi Qəbiristanlığına gəlib-gedən mollaların heç biri ilə xüsusi tanışlığı yox idi və ümumiyyətlə, bu adamın mollalardan xoşu gəlmirdi, çünki indi əsl mollaları barmaqla saymaq olardı, əksəriyyəti fırıldaqçı idi, pul qazanırdı. Əbdül Qafarzadə, xüsusən, axır vaxtlar dinlə çox maraqlanırdı, axşamlar boş vaxtlarında (o vaxtlar ki, evdə ikisi olurdu – Qaratellə Əbdül Qafarzadə və Qaratel də taqətsiz halda divanda uzanıb gözlərini yumurdu) kresloda oturub özü dəmlədiyi hil qarışıq hind çayından içə-içə dini kitablar oxuyurdu və hər dəfə də bu qərara gəlirdi ki, din başqa şeydir, mövhumat başqa şeydir: din – ciddi məsələdir, mövhumat isə nadanlıq və cəhalətdir.

Əbdül Qafarzadə Tülkü Gəldi Qəbiristanlığındakı dəfn mərasimlərində iştirak edib pul qazanan mollalarla şəxsən tanış olmasa da, bu adamların hamısı haqqında məlumatı var idi və o cümlədən, indi bulağın qabağında onunla üzbəüz dayanmış bu

Molla Əsədullanın da hansı yuvanın quşu olduğunu yaxşı bilirdi, buna görə də həmin istehzasını – zarafatını davam etdirdi:

– Riba nə deməkdir, molla dayı?

Molla Əsədulla nə diksindi, nə də gözünü qırpdı, əksinə, bir müəllim ədası ilə Əbdül Qafarzadənin sualına cavab verdi:

– Ribanın mənası müamilə deməkdir, dadaş, yəni ki, sələmçilik. Bizim indiki dilimiznən desək, dadaş, yəni ki, borcun faizi. Riba qadağandır, dadaş və nəinki riba özü qadağandır, o şeyə ki, ribanın kiçik bir ünsürü var, o da qadağandır, misal üçün, lotereya. Belədir, dadaş!..

– Bay? Başıva dönüm sənin, molla dayı, yəni Quranda bir şey yazılıb bu barədə?

– Əlbəttə, yazılıb, dadaş, əlbəttə! Bəs necə yazılmayıb? Quranda deyilir ki, «Allah alış-verişi halal, sələm almağı isə haram etmişdir». Bir başqa ayədə də deyilir ki, dadaş, «Allah sələmlə qazanılan malın bərəkıtini məhv edər, sədəqəsi verilmiş malın isə bərəkətini artırar».

Cəmi məxluqatın əşrəfi olan insan, doğrudan da, eyni zamanda dünaynın ən qəribə məxluqu idi: Əbdül Qafarzadə yaxşı bilirdi ki, indi beləcə mömin bəndə olub mollalıq edən bu adam – Molla Əsədulla, müharibənin bütün dörd ilinin dördünü də ərləri, ataları, oğulları, qardaşları cəbhədə vuruşan, öldürülən, itkin düşən arvadların, uşaqların sonuncu qızıl üzüyünü, qızıl saatını, boyunbağısını müamilə ilə girov götürüb və o dörd ildə – 1941 ilə 1945 arasında bir padşah xəzinəsi qızıl yığıb. Uşaqlarına bir qarın çörək almaqdan ötrü sonuncu üzüyünü gətirib yüksək faizlə Əsədullanın yanında girov qoyan arvadların çoxu sonradan pul tapıb gəlib o nişan üzüyünü, yaxud ata-babadan qalmış o qızıl saatı, yaxud anasından, nənəsindən qalmış yeganə qızıl boyunbağını, bilərziyi, sırğanı Əsədulladan geri götürə bilmirdi və bütün o varidat qalırdı papaqçı Əsədullaya. Əsədulla o vaxtlar papaq tikən idi, mollalığa sonralar başladı, müharibədən xeyli keçmiş – N.S. Xruşşovun vaxtında...

Molla Əsədulla mollalıqdan çoxlu pul qazanmağına baxmayaraq, hərdənbir – oğlanlarını evləndirəndə, ya qızlarını ərə verəndə – yığdığı o qızıllardan xırım-xırım satırdı və Molla Əsədullanın heç xəbəri də yox idi ki, Qəbiristanlıq İdarəsində işləyən ocaqçı Mirzəibiyə satdığı (əsasən, ona satırdı) qızılların hamısı gəlib çatırdı Əbdül Qafarzadəyə; bu qızılları Mirzəibinin vasitəsilə Molla Əsədulladan Əbdül Qafarzadə alırdı.

Molla Əsədulla yenə yaxşı idi, heç olmasa, Quranı bilirdi, düzdü, «riba» sözünü izah edəndə heç utanıb-qızarmırdı, amma hər halda, Qurandan sitatlar gətirirdi; indi bu qəbiristanlığa elə lotu mollalar gəlib gedirdi ki, əslində heç Qurandan xəbərləri də yox idi: həbsxanadan çıxmış keçmiş dələduzlar, vaxtilə elmi ateizmdən mühazirələr oxuyan keçmiş müəllimlər, hətta bir nəfər keçmiş sirk artisti...

Əbdül Qafarzadə iki gün bundan əvvəl boz gözlərini qıyıb çeşməyinin üstündən düz Molla Əsədullanın gözlərinin içinə baxdı və:

– Bizim bu qəbiristanlığa gələn mollaları tanıyırsan? – soruşdu.

Molla Əsədulla:

– Niyə tanımıram, dadaş? – dedi. – Əlbəttə, tanıyıram.

– Hamısını?

– Çoxunu! – Molla Əsədulla bu sual-cavabların mənasını başa düşməsə də – müdir onun biliyini yoxlayırdı, nədi? – səbrlə və ciddi cavab verirdi. – Çoxunu tanıyıram.

Hərgah Molla Əsədulla bu mollaların çoxunu tanıyırdısa, deməli, yaxşı bilirdi ki, bunların hamısı lotu-potudur. Əbdül Qafarzadə indicə verəcəyi suala əvvəlcədən gülümsədi, çünki bu sualla, elə bil ki, Molla Əsədulladan kiminsə, nəyinsə intiqamını alırdı və soruşdu:

– Sən öləndə bu mollalardan hansı gəlib sənin üstündə yasin oxuyacaq?

Əbdül Qafarzadənin hərdən sözü beləcə şax, beləcə üzə deməyi vardı, amma Molla Əsədulla da köhnə qurd idi, heç gözünü də qırpmadı və əlini narın və ipək kimi yumşaq ağ saqqalına çəkib:

– Mən hələ ölənəcən, dadaş, – dedi, – özüm çox adamın üstündə yasin oxuyacağam!..

Bu vaxt hardansa birdən-birə fotoqraf Əbülfəz peyda oldu, elə bil, qəbirlərdən birinin içindən çıxdı və o saat da fotoaparatı gözünün qabağına tutub bulağın yanında Əbdül Qafarzadə ilə Molla Əsədullanın şəklini çəkdi:

– Çox gözəl dayanmışdız, Əbdül Orduxanoviç, əsl bədii foto olacaq! Bir azdan gətirib sizə verəcəyəm!

Molla Əsədullanın o ikibaşlı sözlərindən sonra, fotoqraf Əbülfəzin birdən-birə beləcə peyda olması və onların şəklini çəkməsi iki gün bundan əvvəl Əbdül Qafarzadəyə pis təsir etdi. Əbdül Qafarzadə, ümumiyyətlə, şəkil çəkdirməyi xoşlamırdı, şəkil çəkdirdiyi anlarda, elə bil ki, gələcəyin təəssüfünü, gələcəkdəki yoxluğu hiss edirdi: haçansa kimsə bu şəklə baxıb deyəcək: «–Bu, Molla Əsədulladır, əclafın, alçağın biri idi, indi yəqin sümükləri də çürüyüb qəbirdə!.. Gorbagor olsun! Yetim-yesirin puluyla bəslədi özünü də, uşaqlarını da... Bu da Əbdül Qafarzadədi, bir vaxtlar Bakıda Tülkü Gəldi Qəbiristanlığı var idi, həmin qəbiristanlığın müdiri idi...»

Sonra nə deyəcəkdilər?

Gör fikir onu hara aparıb çıxartdı...

Hə, sonra, sonra nə deyəcəklər?

Iki gün bundan əvvəlki o görüşü niyə indi beləcə yadına saldı?

Həmin aprel günü Əbdül Qafarzadə az qala qaça-qaça özünü bu bulağa yetirdi, çeşməyini tələsik gözündən çıxartdı, ovcunu su ilə doldurub üç-dörd dəfə üzünə çırpdı, yaş əlini boynuna-boğazına çəkdi. Bulağın suyu elə bil ki, o qumu yuyub apardı, o quruluq hissinə də bir nəmlik gətirdi, elə bil, qumu malaya çevirdi (dəfn mərasimi zamanı qəbirlərin üstünü, bax, belə mala ilə hamarlayırdılar), Əbdül Qafarzadənin fikrinə, rəyinə bir genişlik gətirdi və kişi elə bil, bir balaca özünə gəldi; bayaqkı o gözlənilməz (və xoşagəlməz) hissin – həkim Bronşteynin rənglənmiş saçı və bığı ilə, professor Mürsəlbəylinin ağappaq nişastalı xalatı və tüklü sinəsi ilə bu qəbir daşları arasındakı yaxınlıq, doğmalıq hissinin ürəyində özünə yer tapmış çöküntüsü də, deyəsən, yavaş-yavaş yox olub gedirdi...

Ancaq... Sonra, sonra nə deyəcəklər?

– Nə deyəcəklər?..

Əbdül Qafarzadə həmişə birdən-birə qəflətən doğan bu cür suallardan qaçırdı və bu dəfə də tələsik fikirləşdi ki, mollalar açıq-aşkar qudurub; düzdü, indi keşişlər də mollalardan geri qalmırdı, neçə il idi ki, Əbdül Qafarzadəgilin qonşuluğunda bir

keşiş yaşayırdı, səhərdən axşamacan araq içib qarımış bacısı ilə söyüşürdü, amma Tülkü Gəldi Qəbiristanlığına keşiş gəlmirdi, molla gəlirdi və bulaqdan uzaqlaşıb qəbiristanlığın içinə doğru gedən Əbdül Qafarzadə fikirləşdi ki, bu mollaların (Molla Əsədulla qarışıq) dərsini vermək lazımdı, onları daha artıq sıxmaq lazımdı, lap sıxıb sularını çıxarmaq lazımdır.

Əbdül Qafarzadə, əlbəttə, mollaları yaddan çıxarmamışdı və bu işi çilingər Ağakərimə tapşırmışdı. Çilingər Ağakərim hər bazar günü Tülkü Gəldi Qəbiristanlığına gəlib-gedən mollaların (təxminən on beş molla idi) hər birindən iyirmi manat pul alırdı və hamısını bir yerə yığıb bazar ertəsi işə gələn Əbdül Qafarzadəyə verirdi, Əbdül Qafarzadə də kefinə düşəndə o pulun üstündən bir dənə, kefinə düşəndə iki dənə, hətta bəzən üç dənə iyirmibeşlik götürüb Ağakərimin cibinə basırdı. Mollaların hər birinin hər həftə verdikləri o iyirmi manat, bir növ, yer pulu idi, verməzdilər, Ağakərim də onları Tülkü Gəldi Qəbiristanlığından qovardı, qoymazdı ki, bir də ayaqlarını bura bassınlar. Mollalar kimə şikayət edəcəkdilər? Heç biri rəsmi molla kimi məsciddə qeyd olunmamışdı, kim idi bu əldəqayırma mollaların şikayətinə baxan? Gedib hökumətə şikayət edəcəkdilər, hökumət də Qəbiristanlıq Idarəsinin müdirinə bir dənə təzə Fəxri Fərman verəcəkdi ki, ictimaiyyətə yad ünsürlərə qarşı yaxşı mübarizə aparırsan! Mollalar bunu yaxşı bilirdi və belə bir soyğunçuluğa görə ürəklərində həm hökuməti, həm də Tülkü Gəldi Qəbiristanlığının sahiblərini söyə-söyə pulu Ağakərimə verirdilər.

Indi əllərini arxasında birləşdirib, sinəsini qabağa verə-verə qəbirlərin arası ilə gedən Əbdül Qafarzadə tamam qət etdi ki, bundan sonra bu lotu-potu mollaların (o cümlədən, Molla Əsədulladan) hər birindən həftədə iyirmi manat yox, otuz manat (hələlik, otuz manat, sonrasına hələ baxacaq...) alacaq, kim də bu pulu vermək istəmədi, it kimi qovduracaq buralardan...

Bu əldəqayırma mollalar, əslində, elə sümsük it kimi bir şey idilər və həftədə gətirib o otuz manatı verməkdən başqa əlacları yox idi. Dilənçiləri də sıxmaq lazım idi... Düzdü, Ağakərim Tülkü Gəldi Qəbiristanlığının daimi dilənçilərindən də həftədə on beş manat pul yığırdı, amma dilənçilər də qudurmuşdular və Əbdül Qafarzadənin eşitdiyinə görə, onlardan biri əvvəllər– inzibati orqanlarda işləmiş Məmmədağa Ələkbərov adlı, arvada oxşayan alçaq gizlincə bir «Jiquli» almışdı (hökumətdən də pensiya alırdı)... Dilənçilərin də vergisini mollalar kimi həftədə otuz manata qaldırmaq lazım idi!..

Əbdül Qafarzadə həmişə qəti bir qərara gələndə özünü yüngül hiss edirdi, indi də belə oldu. Bayaqkı o quruluq hissi keçib getmişdi və Əbdül Qafarzadə Tülkü Gəldi Qəbiristanlığındakı qəbirlərin arası ilə addımladıqca başdaşlarına həkk olunmuş şəkillərdə bəzən tanış sifətlər görürdü, gözü tanış adlara sataşırdı – bu adamlardan kiminləsə yaxın, kiminləsə uzaq tanış idi və indi onların hamısı torpağa tapşırılmışdı; əlbəttə, bu, kədərli bir təəssüb hissi doğururdu, amma o kədərli təəssüf hissi ilə bərabər, bu dəm Əbdül Qafarzadə birdən-birə nəsə bir nikbinlik, bir ruh yüksəkliyi də hiss etdi: o yaxın və uzaq tanışlar, heç tanış da olmayan bütün bu adamlar indi torpağın altında idi, amma Əbdül Qafarzadə on il, iyirmi il, otuz il bundan əvvəl olduğu kimi, sağ və salamat idi; elə ola bilərdi ki, indi bu adamlardan biri beləcə gəzərdi, Əbdül Qafarzadə isə qara torpağa qarışmış olardı, amma belə deyildi, sağ adam Əbdül Qafarzadə idi və bunun özündə də, görünür, bir naxış, bir bəxt var idi, o naxışı, o bəxti bəzi vaxtlar Əbdül Qafarzadə az qala cismani hiss

edirdi; düzdü, Əbdül Qafarzadənin çətin günləri olmuşdu, lap dəhşətli günləri də olmuşdu, amma hər halda, o naxış, o bəxt həmişə onun taleyinin üstündə idi və həmişə də belə olacaqdı – Əbdül Qafarzadə buna tamam inanırdı. Bayaqkı o quruluq hissindən sonra, indi keçirdiyi bu hiss, bəzi uşaqların özlərinin, ya atalarının, analarının heç vaxt ölməyəcəyinə, həmişə yaşayacaqlarına inam hissinə bənzəyirdi və Əbdül Qafarzadə özü də ürəyinin hansı bir dərin nöqtəsində isə bunu başa düşürdü, amma o dərin nöqtəyə enmək istəmirdi.

Hər bir yaxşı, işgüzar mer, bələdiyyə rəisi, sovet sədri şəhərin, qəsəbənin bütün küçələrini, dalanlarını, binalarını tanıdığı kimi, Əbdül Qafarzadə də Tülkü Gəldi Qəbiristanlığındakı təzəli-köhnəli bütün qəbirlərin, demək olar ki, hamısını tanıyırıdı, qəbirlərarası torpaq yollara, cığırlara bələd idi. Bu qəbiristanlıq köhnə olduğu üçün, sahəsi bitib-tükəndiyi üçün burada yer götürmək, ölünü dəfn etmək çox çətin iş idi. Bəzi ölülərin burada ata-baba sahəsi var idi və onları gətirib həmin sahədə dəfn edirdilər. Bu ölü sahiblərinin xərci də az çıxırdı, amma o adamların ki, burada yeri yox idi, xərcləri beşqat, bəzən lap onqat artıq çıxırdı. Təzə salınmış sadə və səliqəli qəbiristanlıq şəhərdən xeyli uzaqda idi və o qəbiristanlığın şəhər sakinləri arasında heç bir qiyməti-hörməti yox idi. Bakı sakinləri şəhərin mərkəzində, dənizə yaxın yerlərdə mənzil alıb yaşamaq istədikləri kimi, ölülərini də Tülkü Gəldi Qəbiristanlığında dəfn etmək istəyirdilər, təzə salınmış o səliqəli-səhmanlı qəbiristanlıq isə elə bil ki, panel binaları bir-birindən seçilməyən mikrorayonlar idi və o mikrorayonlarda yalnız köməksiz, yuxarılarla əlaqəsi olmayan, əsasən, kasıb adamlar yaşayırdı...

Tülkü Gəldi Qəbiristanlığında ölülərini basdırmaq üçün yer almaq istəyən adamlar ya Ağakərimlə, ya Mirzəibi ilə, ya da Vasili ilə danışıqlar aparırdı, sayılan, hörmətli adamlar isə bilavasitə Əbdül Qafarzadənin özünə müraciət edirdilər. Əbdül Qafarzadə bu adamlara qəbir yeri götürməyə icazə verəndən sonra, onları yenə də ya Ağakərimin, ya Mirzəibinin, ya da Vasilinin üstünə göndərirdi, çünki özü bilavasitə pul haqq-hesabı eləmirdi. Əbdül Qafarzadə qəbiristanlıqda görümlü yerdə olan, rahat yollu (yəni o yeganə asfalt yolun kənarlarında) su kəmərinin yaxınlığındakı qəbir yerlərinin qiymətini çox baha müəyyən eləmişdi və bu yerlər, adətən, mağaza və restoran müdirlərinə, əli pulla oynayan başqa adamlara qismət olurdu. Qəbiristanlığın mərkəzində basırıq olmayan geniş bir sahəni isə Əbdül Qafarzadə vəzifəli adamların qohum-əqrəbası üçün saxlamışdı və bu sayaq ölülər üçün qəbir yerini Fərid Kazımlı zəng çalıb sifariş verirdi, tək-tük hallarda isə Rayon Partiya Komitəsinin birinci katibi M.P. Qəribli özü zəng edirdi – bu baxırdı ölmüş adamın yaxınının, qohumunun vəzifəsinin yüksəkliyinə, Əbdül Qafarzadə vəzifəli adamların ölülərinə verilən qəbir yerindən ötrü, əlbəttə, özünə bir qəpik də pul götürmürdü, bu ölülər qanunla dəfn olunurdu, hansı xidmət göstərilirdisə mühasibatda dövlət pereskurantı ilə pulu alınıb qəbzi verilirdi. Əslində, Qəbiristanlıq İdarəsininm mühasibatı yalnız bu zaman – vəzifəli şəxslərin ölüləri dəfn olunarkən bilavasitə ölü sahiblərindən qəbir yeri üçün, xidmət üçün pul alıb qəbz verirdi, qalan vaxtlar isə mühasibat öz işini yalnız Ağakərimin, ya Mirzəibinin, ya da Vasilinin göstərişlərinə əsasən, qururdu, planı doldurmaq üçün gündəlik nə qədər qəbz lazımıydısa, yazılıb mühasibat dəftərində qeydiyyatdan keçirilirdi, surəti saxlanır, əsli isə cırılıb tullanırdı (guya ki, müştəridədir) və hər ayın axırında da baş mühasib Yevdokiya Stanislavovna maaşdan əlavə yenə də ya Ağakərim, ya Mirzəibi, ya da Vasili

vasitəsilə Əbdül Qafarzadədən 500 manat, kassir Marqarita Iosifovna isə 300 manat pul alırdı. Bu əməliyyat illərdən bəri elə qurulub qaydasına düşmüşdü ki, hər şey Bədurə xanımın 50 yaşının tamam olması münasibətilə Əbdül Qafarzadənin hədiyyə alıb bu qadına bağışladığı yapon qol saatı kimi dəqiq işləyirdi (Bədurə xanımın 50 yaşının tamam olmasını isə Əbdül Qafarzadədən başqa Tülkü Gəldi Qəbiristanlığında heç kim bilmirdi – Bədurə xanım bunu faciəli bir sirr kimi gizlədirdi).

Tülkü Gəldi Qəbiristanlığında üstünü ot-alaq basmış, unudulmuş, daha heç kimin ziyarət etmədiyi xeyli miqdarda köhnə qəbirlər var idi və Əbdül Qafarzadə bəzən həmin qəbirləri də təzədən qazdırıb, yeni sahələr kimi camaata verdirirdi, o köhnə qəbirlərdən çıxan sür-sümükləri isə alkoqoliklər dərin qazdıqları quyuya tullayırdılar.

Bəzi adamlar isə hələ sağ ikən özləri üçün Tülkü Gəldi Qəbiristanlığında yer götürürdülər, qəbri qazdırıb hördürürdülər, hətta boş qəbrin üstündə günbəz tikdirirdilər, ətrafında söyüd, nar, əncir ağacı, gül-çiçək əkirdilər, özləri də həftədə bir-iki dəfə gəlib gələcək qəbirlərinin yanındakı o ağacları, o gül-çiçəyi sulayırdılar. Bu adamlar, əsasən, ömrünün sonunu yaşayan qocalar idi, ya öz pullarına, ya da oğullarının, kürəkənlərinin pullarına Əbdül Qafarzadədən həmin yeri on beş, iyirmi qat baha qiymətə alırdılar (həmin pula birotaqlı kooperativ mənzil tikdirmək olardı) və əlbəttə, bu qəbirlər Qəbiristanlıq Idarəsində heç bir qeydiyyatdan keçmirdi; amma axır vaxtlar yavaş-yavaş bir dəb əmələ gəlirdi: sex açıb dövlətin müəssisəsini əslində öz şəxsi gəlir mənbəyinə çevirən, yaxud alverə qurşanıb birdən-birə pul qazanan (və s.) qırx beş-əlli yaşlarında cavan və sağlam adamlar da ev, bağ, maşın alandan sonra özlərinə qəbir yeri də götürürdülər, hətta özlərinə heykəl də qoydururdular. Əbdül Qafarzadə bu cür adamlar üçün qəbir yerinin qiymətini xüsusi qaldırırdı və ürəyində bu adamların hamısını, əlbəttə, axmaq hesab edirdi...

Əbdül Qafarzadə əllərini eləcə arxasında birləşdirib, sinəsini irəli verib, qəbirlərin arası ilə asta-asta addımlayıb gedirdi və özü də yaxşı bilirdi ki, ayaqları onu hara aparır; indicə bu adamın içində baş qaldırmış o nikbinlikdə, ruh yüksəkliyində yavaş-yavaş bir nigarançılıq əmələ gəlirdi və yarımca saatın içində bu cür müxtəlif ovqatlara düşməyi onu yorurdu.

Iki gün bundan əvvəl o fotoqraf Əbülfəz (o əclafı buralardan qovmaq lazımdır!..) necə oldu ki, gəlib o bulağın üstünə çıxdı və Molla Əsədulla ilə birlikdə şəklini çəkdi?

Niyə gəlib o şəkli çəkdi?

Yəni bunun bir mənası var? Çəkdi, çəkdi də...

Hər halda, həmin aprel günü Tülkü Gəldi Qəbiristanlığındakı qəbirlərin arası ilə gedən Əbdül Qafarzadə bir fotosoyuqluğu, bir fotocansızlığı hiss etdi və həmişə belə məqamlarda olduğu kimi, Əbdül Qafarzadə fikrini yayındırmaqdan ötrü öz işi barədə, təsərrüfatı barədə fikirləşməyə başladı.

Əbdül Qafarzadə bir anlıq ayaq saxlayıb başını daha da qaldırdı və yalnız ətrafındakı qəbirlərə yox, bütün qəbiristanlığa baxdı: bu Tülkü Gəldi Qəbiristanlığı bir xəzinə idi, özü də yalnız məcazi mənada yox, elə həqiqi mənada xəzinə idi; burada torpağın altında nə qədər qızıl diş protezləri var idi, yığsaydın, yəqin ki, tonqan az eləməzdi... Bir ton qızıl... Heç ton olmasın, yüz kiloqram olsun... Lap əlli kiloqram olsun...

Nə vardı ki, iki alkoqolikə tapşıracaqdı, gecə düşəndən sonra gəlib qəbirləri açacaqdılar, meyitlərin, skeletlərin çənəsini götürüb protezləri çıxaracaqdılar, sonra da qəbrin üstünü əvvəlki qaydasında düzəldəcəkdilər. Kimin xəbəri olacaqdı? Heç kimin... Kim biləcəkdi, eşidəcəkdi? Heç kim...

Son üç ildə bu fikir itirdi, batırdı, yenə də təzədən pırtlayıb çıxırdı və Əbdül Qafarzadə hər bir yeni ideyasını həyata keçirməzdən əvvəl hərtərəfli hazırlıq gördüyü üçün, yüz ölçüb bir biçdiyi üçün, hətta həmişə kabinetindəki seyfdə saxladığı Azərbaycan SSR Cinayət Məcəlləsini götürüb baxmışdı da. Azərbaycanda indiyə qədər belə hadisə olmamışdı – Əbdül Qafarzadə bunu dəqiq bilirdi və elə buna görə də Cinayət Məcəlləsinin 231-ci maddəsində belə bir işdən ötrü cəmi 2 il həbs cəzası nəzərdə tutulurdu. Pudlarla qızılın müqabilində cəmi 2 il həbs – bu lap gülməli idi... Hərgah bu işin üstü açılsaydı da, – amma Əbdül Qafarzadə bu əməliyyatı elə tədbirlə keçirə bilərdi ki, heç vaxt üstü açılmazdı – hər halda, açılsaydı da, Əbdül Qafarzadə elə Mirzəibinin özünə tapşırardı ki, get, başına dönüm sənin, iki ili yat, bu da əvəzində sənin üçün bir pud qızıl! Qalan ömrünün sonuna kimi ye iç, kef elə...

Düz üç il idi ki, bu fikir Əbdül Qafarzadəyə rahatlıq vermirdi və kişi bütün həyatında, bütün fəaliyyətində ilk dəfə qəti bir qərara gələ bilmirdi və bundan əzab çəkirdi. Əlbəttə, dünyada gor eşməkdən murdar bir iş ola bilməzdi, amma o biri tərəfdən də baxanda, axı, bu qədər qızıldan (havayı, tamam havayı qızıldan!) keçmək də düzgün deyildi; o rəhmətliklərin ki, indi az qala sümükləri də çürüyür (heç çürüməsin! nə fərqi var? Dünən ölən adamla, 1913-cü ildə bu dünyadan getmiş və Tülkü Gəldi Qəbiristanlığında torpağa tapşırılmış o Məşədi Mirzə Mir Abdulla Məşədi Mir Məmmədhüseyn oğlu arasında heç bir fərq yox idi, ikisi də haqq dünyasında idi...), indi o qızıl diş protezlərinin onlar üçün nə əhəmiyyəti, nə mənası var? Əbdül Qafarzadə dəfələrlə özü özünün bu sualına cavab verirdi ki, heç bir mənası və heç bir əhəmiyyəti yoxdur! Amma yenə də qəti qərara gələ bilmirdi...

Yenə o dözülməz, hər dəfə ürəyinə saplağına qədər xəncər soxan o dəli hiss bir ildırım kimi, Əbdül Qafarzadənin içindən keçdi: bu torpağın altında onun öz balası da yatır və onun balasının da qızıl dişləri var idi...

Bilirdi, bilirdi ki, ayaqları onu hara aparır, bilirdi ki, niyə hər dəqiqədə bir ovqata düşür, bilirdi ki, o yazığın qəbri çəkir onu, yəqin elə gecə ikən, elə yuxuda ikən o yazığın qəbri sövq-təbii onu özünə çəkirmiş və sübh tezdən birdən-birə ovqatının o cür təlx olması da yəqin elə həmin sövq-təbiinin nəticəsi idi...

Düz altı il bundan əvvəl o soyuq dekabr günü Orduxanı da burada, bu Tülkü Gəldi Qəbiristanlığında dəfn eləmişdilər və Orduxanın qəbri qəbiristanlığın yuxarı hissəsinin qurtaracağında, kiçik bir təpəciyin üstündə idi, o təpəcəyin arxa tərəfi Sulu dərə idi, qarşıda bütün qəbiristanlıq, qəbiristanlıqdan aşağıda isə bütün şəhər görünürdü. O vaxt Əbdül Qafarzadə özü bu yeri seçmişdi, bu yerin axar-baxarlı olması, elə bil ki, nə isə kiçicik bir təskinlik idi.

Əbdül Qafarzadə əvvəlcə Orduxanın qəbrini elə düzəltdirmək istəyirdi ki, həmin qəbir dünyadan nakam getmiş o gözəl, o günahsız məxluqa layiq olsun, bütün başqa qəbirlərdən seçilsin, istəyirdi burada elə bir abidə ucaltsın ki, o abidənin yüz illərlə ömrü olsun, Bakının ən görkəmli – Babəkin, Koroğlunun, Leninin, Kirovun, əvvəllər isə Stalinin heykəllərinə görə yüksək adlar, böyük mükafatlar almış – heykəltəraşlarını, arxitektorlarını bu işə cəlb etsin, lap gedib Moskvadan məşhur

sovet sənətkarlarını bu işdən ötrü Bakıya gətirsin, amma yavaş-yavaş həmin istək soyudu və Əbdül Qafarzadənin həmişə ayıq olan zehni bu dəfə də o ehtiraslı atalıq hissini üstələdi; o cür dəmdəstgahlı qəbir, əlbəttə, camaatın diqqətini cəlb edəcəkdi, söz-söhbətə səbəb olacaqdı, toyda da deyəcəkdilər, yasda da və əlbəttə, ayda 135 manat maaş alan bir adamın camaatın gözü qabağında öz oğlu üçün o cür cəh-cəlallı bir qəbir düzəltdirməyi düzgün deyildi...

Kapitalist ölkəsi olsaydı, Türkiyə, Iran olsaydı, başqa məsələ... Sovet Ittifaqı qəribə bir ölkə idi, burada hökuməti də, camaatı da aldada-aldada nə qədər istəsən şəxsi varidat qazanmağa imkan, şərait var idi, amma o varidatı açıq xərcləməyə imkan yox idi... Hər halda, ehtiyatlı olmaq lazım idi – dünyada hələ heç kim ehtiyatdan zərər çəkməmişdi...

Orduxanın qəbri sadə, səliqəli və yaraşıqlı idi... Yaşıllıq, güllər, çiçəklər, kiçik bir çarhovuz, çarhovuzun yanında hələ qol-qanaq açmamış sütül bir söyüd ağacı, bir az aşağıda yayda qıpqırmızı güllər açan, payızda ovuc dolusu iri-iri bar gətirən nar ağacı, o nar ağacının yanında ağ mərmərdən sinə daşı, çəhrayı qranitdən başdaşı və üstündə də yazı:

*QAFARZADƏ ORDUXAN ƏBDÜLƏLI OĞLU*
*(1951-1976)*

Hər dəfə çəhrayı qranitin üstündə həkk olunmuş bu yazını oxuyanda Əbdül Qafarzadənin bütün bədəni uçunurdu, altıncı il idi keçirdi, amma kişi heç cürə bu yazıya alışa bilmirdi, onun şüuru, əlbəttə, dərk edirdi ki, bu çəhrayı qranitin, bu ağ mərmər daşın altındakı onun balasıdır, amma ürək bunu heç vəchlə qəbul eləmirdi.

Həmin aprel günü Əbdül Qafarzadə yenə də o çəhrayı qranitlə üzbəüz dayandı, dəsmalını cibindən çıxarıb çeşməyinin şüşələrini sildi, yenidən çeşməyi gözünə taxdı və indi o çeşməyin tərtəmiz şüşələrinin arxasından baxan o boz gözlərdə bir dünya dərd, ələm var idi.

Hər gün, Qəbiristanlıq Idarəsinin başqa işçiləri yox, şəxsən ya Ağakərim, ya Mirzəibi, ya da Vasili gəlib Orduxanın qəbrinin ətrafındakı gülləri, çiçəkləri, o sütül söyüd ağacını, o narı sulayırdılar, təzə-tər otların üstünü eyni ölçüdə biçirdilər, o ağ mərməri, o çəhrayı qraniti dəsmal ilə tər-təmiz silib par-par parıldadırdılar, bu geniş qəbir sahəsini səliqə ilə kvadrata almış qısa daş hasarın dişarını da silib süpürürdülər; bu işi hər gün – qışın qarında-çovğununda da, yayın cəhənnəm istisində də gəlib görürdülər, bu iş bir növ rituala çevrilmişdi, Vasili də, Ağakərim də, Mirzəibi də bunu Əbdül Qafarzadənin qarşısında özlərinin mənəvi borcları bilirdilər və Əbdül Qafarzadə də hər dəfə bura gələndə bunu görürdü, torpağın üstündəki təzə süpürgə izi, o ağ mərmərin, o çəhrayı qranitin eləcə tərtəmizliyi, o biçilmiç təzə tər otun ətri, elə bil ki, belə məqamlarda kişinin uçum-uçum uçunan ürəyinə bir təpər gətirirdi; Vasilinin, Mirzəibinin, Ağakərimin belə bir sədaqəti, vəfadarlığı az qalırdı Əbdül Qafarzadəni kövrəltsin və bəzən kövrəldirdi də.

Sevilin zövqündə bir qız zərifliyi var idi və Orduxanın qəbrində də o qız zərifliyi hiss olunurdu; elə bil ki, bu qız zərifliyi ilə Orduxanın taleyi arasında bir yaxınlıq, doğmalıq var idi. Sevil atasından xahiş etmişdi və qəbir sahəsini kvadrata almış o qısa hasar üçün mişar daşı yox, mərmər yox, irili-xırdalı adi çay daşları gətirtmişdi və Əbdül Qafarzadə bu altı ildə bura o qədər gəlmişdi ki, hasar hörülmüş o çay daşlarını da bir-bir tanıyırdı. Sevil də, ən azı, həftədə bir dəfə, iki dəfə, çox

zaman da balaca Əbdüllə birlikdə maşını sürüb bura gəlirdi. Əbdül Qafarzadə istəmirdi ki, balaca Əbdül qəbiristanlığa gəlsin, bu vaxtından uşağın ürəyi qısılsın, amma Sevil « – Net, papa, – deyirdi. – Pust on vseqda pomnit yeqo... Pust znayet kem on bıl dlya nas!..» – və Sevil dolmuş gözlərini gizlədirdi, istəmirdi ki, atası bu dolmuş gözləri görsün və ürəyi daha artıq sıxılsın: sağ olsun, yaxşı övlad idi, qeyrətli bacı idi, amma həyat da öz işini görürdü, hər şey vaxta baxsa da, vaxt heç nəyə baxmırdı, balaca Əbdül Orduxanı daha tamam yadından çıxartmışdı, yəni bilirdi ki, Orduxan adında bir dayısı olub, bura onun qəbridir, Orduxan anası üçün də, nənəsi üçün də, babası üçün də həddən artıq əziz bir adam olub, bu qəbir də onlar üçün müqəddəs bir yerdir, amma Orduxanın özünün sifətini, Orduxanın səsini, Orduxanın gülüşünü tamam yaddan çıxarmışdı, çünki Orduxan öləndə balaca Əbdülün cəmi iki yaşı var idi.

Orduxandan da Xıdır kimi, heç nə qalmamışdı bu dünyada,  təkcə özü atasının, anasının, bacısının xatirələrində qalmışdı, bir də ki, yəqin dostlarının, gəzdiyi qızların, qadınların xatirələrində qalmışdı, illər keçəcəkdi, nəsillər bir-birini əvəz edəcəkdi, Orduxanın xatirəsi o dostlarla, o qızlarla birlikdə qəbrə gedəcəkdi, dünyaya gələn yeni Qafarzadələr isə, yəni Sevilin törəmələri (onların famili nə olacaqdı? Allah bilir...Balaca Əbdülün famili Gülcahani idi və Əbdül Qafarzadə bunu da daxilən heç cürə qəbul edə bilmirdi) Orduxan barədə heç nə bilməyəcəkdilər; Orduxanın saralıb solmuş şəkilləri yəqin ki, köhnə ailə albomlarında qalacaqdı və həmin aprel günü o ağ mərmərlə, o çəhrayı qranitlə üzbəüz dayanmış Əbdül Qafarzadə elə bil ki, əlli il bundan sonra öz gələcək törəmələrinin Orduxanın o saralıb-solmuş şəklinə baxa-baxa dedikləri sözləri eşitdi: «– Ana, bu kimdi, belə?» « – Nə bilim, deyəsən, mənim nənəmin qardaşıdı...»

Orduxanla bağlı əlli ildən sonrakı o danışıq elə bil ki, kobud, döyənəkli bir ovuc olub Əbdül Qafarzadənin ürəyini sıxdı və kişi fikirləşdi ki, təkcə adamlar adamlara oxşamır, ağaclar da adamlara oxşayır: bax, bu sütül söyüd, elə bil ki, Orduxan özüdür, təmiz, köməksiz, günahsız, amma vaxt gələcək bu söyüd də qol-budaq açacaq və o zaman bu söyüd daha Orduxana oxşamayacaq, o zaman o söyüd... Əbdül Qafarzadənin özünə oxşayacaq.

Bu gözlənilməz müqayisə kişini diksindirdi və bu dəfə Əbdül Qafarzadə o çəhrayı qranitin üstündə yazılmış o

*ƏBDÜLƏLI*

sözündə qara torpaq nəmliyi, qara torpaq zülməti hiss etdi; bu hiss kişinin içinə bir havasızlıq gətirdi və Əbdül Qafarzadə özünü ələ alıb bu hissi uzaqlaşdırmaq istədi, bu hissdən qaçmaq istədi və Qarateli yadına saldı.

Əbdül Qafarzadə də, Sevil də, Qarateli buralara qoymurdu, çünki ikisi də yaxşı bilirdi, Qaratel bircə dəfə də bura gəlsə idi, daha evə sağ qayıtmayacaqdı. Qaratel hərdən için-için, səssiz-səssiz ağlaya-ağlaya: «– Eybi yoxdur, – deyirdi, – dirimi buraxmırsız balamın yanına, ölümü apararsız onun yanına...» Qaratelin taqəti yox idi ki, dava-qırğın salsın, özü bura gəlsin...

Dünyada nə qədər ev var, hərəsinin də bir dərdi, bir faciəsi var...

Kənardan baxanda nə var ki?..

Əbdül Qafarzadə, o ağ mərmərə, o çəhrayı qranitə baxa-baxa fikirləşdi ki, bu altı ildə o qədər özü öz içində ağlayıb ki, əslində, bütün bədəninin nəmi çəkilib və bayaqkı o quruluq hissi də elə buna görə yaranmışdı.

Oğluna ağlayıb, yoxsa öz gününə?

Bu dəm saqqallı bir adamın tanış siması, sapsarı şəkli, elə bil ki, birdən-birə o çəhrayı qranitə həkk olundu və o saqqallı kişi o aprel günü qəbiristanlıqda Əbdül Qafarzadəyə elə baxırdı ki, elə bil, dünyanın bir dərdli adamı nəhayət ki, başqa bir dərdli adam tapıb. Yox, Əbdül Qafarzadə heç vəchlə o saqqallı kişinin o sapsarı baxışları ilə beləcə üz-üzə dayanmaq istəmirdi. Heç vəchlə o dəhşətli, o yağışlı qış gecəsini xatırlamaq istəmirdi, amma ayaqları onu bu ağ mərmərin, bu çəhrayı qranitin yanına dartıb gətirəndə bilirdi ki, hər şey bununla qurtaracaq, bu dəhşətli xatirə yenidən gəlib gözlərinin qabağından keçəcək, yenidən onu qocaldacaq, yenidən onu öldürəcək...

O sapsarı baxış elə bil ki, güclü bir maqnit kimi Əbdül Qafarzadənin bütün içini çəkib çıxarırdı və belə anlar Əbdül Qafarzadə, doğrudan da, az qalırdı ki, həlak olsun.

O saqqallı adam, o sapsarı baxışların sahibi Nikolay Romanov idi, keçmiş imperator II Nikolay və o sarı da qızıl sarısı idi – II Nikolayın bu dəm çəhrayı qranitdən baxan siması qızıl onluğun, qızıl beşliyin üstündəki sifət idi və elə bil, o qəbiristanlıq sakitliyi içində, o aprel günündə II Nikolayın hissiz-həyəcansız, donub qalmış o sapsarı sifəti birdən -birə titrədi, tərpəndi və II Nikolay qarşısında dayanmış bu hündürboylu, iri sümüklü, qaraşın, qalın çeşməkli adama daha da zəndlə baxdı və soruşdu:

«– Nə var, nə yox?»

Əbdül Qafarzadə bu sözləri aydın eşitdi, bu sözlər elə bil ki, tamam başqa bir dünyadan gəlirdi, tamam başqa bir keyfiyyətdə idi, amma o səsdə bu dünyanın dəhşətli bir ağrısı, dəhşətli bir ələmi var idi, bu ağrı, bu dərd, əlbəttə, II Nikolayın özünün içindən tökülüb gəlirdi, bu, Nikolay Romanov taleyinin ağrısı, ələmi idi, amma eyni zamanda o səs Əbdül Qafarzadənin də halına acıyırdı:

«– Nə var, nə yox?»

Sonra o sapsarı sima ən dərin bir təəssüf hissi ilə ən yaxın bir həmdərd kimi, elə bil, Əbdül Qafarzadənin dərdini bölüşdü:

«– Hər şey var, heç nə yoxdu... Hə?»

Sonra o sapsarı sima yenə də dondu, o sapsarı bəbəksiz gözlər heç nə görmədi, heç hara baxmadı və o sarı sima, o bəbəksiz gözlərlə birlikdə çəhrayı qranitin üzərində yavaş-yavaş əriyib yox oldu...

Əbdül Qafarzadənin gizli işləri çox idi, amma bütün o gizli işlər içində bu adamın elə bir sirri var idi ki, bu sirdən dünyada heç kimin xəbəri yox idi və əlbəttə, heç kimin də xəbəri olmayacaqdı; bu işdən, görünür, heç Allahın da xəbəri yox idi, çünki xəbəri olsaydı, qoymazdı.

Altı il bundan əvvəl, o 27 dekabr günü, qışın o oğlan çağında Bakıda şıdırğı bir payız yağışı yağırdı və həmin o yağışın səsi indiyə qədər Əbdül Qafarzadənin yadından çıxmamışdı və nə qədər ki, yaşayacaqdı, heç vaxt yadından çıxmayacaqdı. Əlbəttə, yağış yağışdı, amma o 27 dekabr gününün, o qara günün, o amansız, o cəllad günün yağışının şırıltısında Əbdül Qafarzadənin ürəyinə hopmuş xüsusi bir ahəng, xüsusi bir inilti, ümidsizlik var idi; Qaratelin o dəli fəryadı da, Sevilin o

hönkürtüləri də, qohumun, tanış-bilişin o ağlayışı da bir tərəfə idi, o şıdırğı yağış şırıltısının həmin xüsusi ahəngi, həmin iniltisi, ümidsizliyi bir tərəfə idi.

Orduxan bircə həftənin içində getdi, qripdən getdi, o bədbəxtin görünür, alnına belə yazılıbmış: qrip oldu, qripin fəsadı böyrəklərinə verdi və heç kim uşağı xilas edə bilmədi. Hətta Vasili ilə Mirzəibinin təcili uçub bir günün ərzində Moskvadan gətirdikləri akademik Ivan Sergeyeviç Frolovski də Orduxanı müayinə edib rentgen şəkillərinə baxaraq: «– K sojeleniyu uje pozdno...» – dedi və elə həmin gün də Vasili ilə Mirzəibi akademiki təyyarə ilə Moskvaya yola saldı. Əbdül Qafarzadə oğlunu Azərbaycan Dövlət Universitetinin hüquq fakultəsinə qoymuşdu ki, prokuror olsun (yazıq Orduxanın görkəmi, yaraşığı, elə bil, deyirdi ki, «məni prokuror elə!», amma sonra fikrini dəyişdi – Orduxan partiya işində işləməli idi, raykomun birinci katibi olmalı idi (özü də Bakı rayonlarından birinin!), çünki Sovet Ittifaqında raykom katibindən yaxşı vəzifə yox idi; restoran müdirinin də, sex müdirinin də, univermaq müdirinin də hamısının bir yerdə qazandığı raykom katibinin qazancının yanında bir heç idi. Hörmət, izzət də öz yerində: deputat, ordenlər, Sov. IKP MK-nın gül kimi sanatoriyaları, maşın, sürücü– nökər... buna görə də universiteti bitirdikdən sonra uşağı aspiranturada saxlatdırdı ki, qoy əvvəlcə müdafiə eləsin...

Sən saydığını say, gör fələk nə sayır?..

Orduxan həm də gözəl idmançı idi (əsl idmançı!), Azərbaycanın yığma voleybol komandasında oynayırdı, üç dəfə SSRI yığma komandasında oynamışdı və xəstəliyindən üç-dörd gün əvvəl yenə də Moskvadan teleqram almışdı ki, onu SSRI yığma komandasının məşqlərinə dəvət edirlər.

Vaxtilə Xıdırın idmana həvəsi, idmanla bağlı arzuları indi Əbdül Qafarzadəyə, əlbəttə, sadəlövh görünürdü, amma o sadəlövhlükdə bir kövrəklik, bir əzizlik var idi və Orduxanın beləcə məşhur idmançı olmağı Əbdül Qafarzadə üçün elə bil ki, o kövrəkliyin, o əzizliyin davamı idi. 25 yaşlı Orduxan Bakının ən sayılan hörmətli oğlanlarından biri idi və Qaratel tanınmaz-bilinməz qızların zənginin əlindən az qalırdı qayçını götürüb telefon xəttini kəssin – Orduxan Bakının gözəl qızlarının sevdiyi oğlan idi.

Dekabrın 27-də vəfat etdi (o vaxtdan nə Əbdül Qafarzadə, nə də Sevilgil Yeni ili bayram eləmirdilər və Sevilgildə ənənə belə idi ki, hər il dekabrın 27-dən yanvarın 2-nə kimi yeddi gün Ömər evdə, royalda Şopenin və Skryabinin fortepiano üçün qəmli pyeslərini çalırdı, daha doğrusu, çalmağa məcbur idi; o vaxtdan Vasili də, Mirzəibi də, Ağakərim də Yeni ili qeyd eləmirdilər, dekabrın 31-də axşam Əbdül Qafarzadənin evinə gəlirdilər, ordan-burdan söhbət edib çay içirdilər, çıxıb gedirdilər və Əbdül Qafarzadə dəqiq bilirdi ki, Vasili də, Ağakərim də, Mirzəibi də, hərə öz evinə gedir, yeyib-içib məclis keçirmir), dekabrın 28-də isə bu Tülkü Gəldi Qəbiristanlığında, bax, bu yerdə Orduxanı dəfn elədilər. O dəfn mərasimində Əbdül Qafarzadənin saysız-hesabsız tanışlarından (təkcə Azərbaycanın yox, SSRI -nin bir çox şəhərlərindən də gəlmişdilər və şəxsən gələ bilməyən tanışlar, dostlar isə öz adlarından başsağlığı vermək üçün nümayəndələr göndərmişdilər) savayı, Bakının az qala bütün cavanları da iştirak edirdi, gözəl qızların, qadınların ağlamaqdan qızarmış gözlərində o dəm əbədi görünən bir matəm var idi, amma o dəfn gününün heç bir təfərrüatı Əbdül Qafarzadənin yadında deyildi, çünki Əbdül Qafarzadə o dəfn mərasiminə qədər dünyanın ən dəhşətli bir gecəsini keçirmişdi.

Dekabrın 26-da günorta Binə aeroportundan birbaşa xəstəxanaya, Orduxan üçün xüsusi ayrılmış palataya gələn (Vasili və Mirzəibinin müşayiəti ilə) akademik Ivan Sergeyeviç Frolovski: «– K sojeleniyu uje pozdno...» – deyəndən sonra Əbdül Qafarzadə başa düşdü ki, daha heç bir möcüzə baş verməyəcək, fələk Orduxanı aparır və həmin dəqiqədən də son günlərin əzab-əziyyətindən, iztirablarından sonra, kişinin beynində qəribə bir aydınlıq yarandı: taledən qaçmaq mümkün deyildi. Əbdül Qafarzadə boz gözlərini diqqətlıə akademik I.S.Frolovskiyə zilləyib dedi: «– Ya moqu ustroit yeqo daje v kremlyovskuyu bolnitsu, professor...» I.S.Frolovski dərindən köksünü ötürüb: «– Ne pamojet... Boyus, çto seqodnişniy den posledniy den yeqo jizni....» – dedi.

Əbdül Qafarzadə Vasiliyə və Mirzəibiyə tapşırdı ki, akademiki lap yaxşı hörmətlə Moskvaya yola salsınlar (bu o deyən söz idi ki, akademikə veriləcək nəğd pulun, qara kürünün, konyakın miqdarını və həcmini əvvəlcədən danışılandan da xeyli artıq eləmək lazım idi). Özünü öldürən Qarateli palataya buraxmadı, Ağakərimin vasitəsilə evə göndərtdi və Sevilə də tapşırdı ki, anasının yanında olsun, qohum-əqrəbaya xəbər göndərdi, dost-tanışlara sifarişlər, tapşırıqlar verdi, Şeyxülislamın evinə adam göndərdi ki, ən savadlı mollalardan birini sabah üçün ehtiyatda saxlasın, özü isə bütün günü və gecəni Orduxanın çarpayısının kənarında oturdu. Səhər saat 5 ərəfəsində Orduxan, elə bil ki, diksinib gözlərini açdı, Əbdül Qafarzadənin əlindən yapışdı: «– Heç hara getmə...» dedi və çarpayının kənarında balasının yanında oturmuş Əbdül Qafarzadə hiss etdi ki, oğlu ölümdən qorxur, «– Heç hara getmə...» – sözləri o ölüm xofunun ifadəsi idi və həmin dəqiqədən də Orduxan gözlərini yumsa da, atasının əlini buraxmadı, həkimlər, şəfqət bacıları gəlib xəstə ilə məşğul olanda da əlini atasının əlindən ayırmadı (o əlin istisi də, soyuğu da, o əlin söylədikləri də həmişə Əbdül Qafarzadə ilə birgə idi və birgə də olacaqdı – hər halda, Əbdül Qafarzadə belə hesab edirdi). Səhər saat 8-ə işləmiş Orduxan birdən yerindən dikəldi, məktəbi və universiteti rus dilində oxusa da, evdə də, yoldaşlarıyla da, qızlarla da, adətən, həmişə rus dilində danışsa da, bu son məqamda Azərbaycan dilində «–Ay ata, ölürəm axı...» – pıçıldadı, Orduxanın gözləri doldu, Əbdül Qafarzadə isə çeşməyinin altında gözlərini yumdu. Bütün iyirmi altı illik ömrü ərzində Orduxan yəqin ilk dəfə idi ki, atasını beləcə köməksiz görürdü. Səhər saat 8-ə düz on beş dəqiqə qalmış Orduxan atasının qollarının üstündə son dəfə nəfəsini dərdi və gedər-gəlməzə uçdu.

Orduxanın cənazəsini xəstəxanadan əvvəlcə Təzə pir məscidinə apardılar, yuyub kəfənə bükdülər, sonra evə gətirdilər və o günün, yəni dekabrın 27-sinin bütün təfərrüatı Əbdül Qafarzadənin yadında idi, evə başsağlığı verməyə gələn saysız-hesabsız adamları da sonralar bəzən gözlərini yumub bir-bir xatırlaya bilirdi (o vaxtdan keçən müddət ərzində o adamların da bir qismi indi bu Tülkü Gəldi Qəbiristanlığında yatırdı), elə bil ki, həmin 27 dekabr günü Əbdül Qafarzadənin beyni əlacsızlığın, fələyin qarşısında tamam gücsüzlüyün əlindən elə oyanmışdı ki, saat kimi dəqiq işləyirdi, beyin bəzən dərddən alovlanıb yanmaq istəyən hisslərin, həyəcanların üstünə su səpirdi; Orduxanı layiqincə dəfn eləmək lazım idi.

Yağış həmin 27 dekabr günü başladı.

Orduxanın cənazəsini qonaq otağındakı mizin üstünə qoymuşdular, royaldan tutmuş televizoracan otaqdakı bütün əşyaları boşaltmışdılar və o qırx kvadrarmetrlik otaqda hər tərəfə xalı-gəbə döşəmişdilər, dörd divar boyunca da kürsülər

düzmüşdülər, başsağlığı vermək üçün gələn saysız-hesabsız kişilər, Orduxanın cavan dostları o kürsülərdə otururdular. Şeyxülislamın şəxsən göndərdiyi və Bakının məşhur savadlı mollalarından biri olan doxsan yaşlı Axund Fətulla Ağa cənazənin baş tərəfində, Əbdül Qafarzadə isə cənazənin yanında əyləşmişdilər. Qadınlar o biri otaqda oturmuşdular və onların ağlayışı, vay-şivəni kişilər oturan otaqda da aydınca eşidilirdi və Əbdül Qafarzadəyə başsağlığı vermək üçün gələn dəmir kimi möhkəm kişilərin də gözlərini yaşardırdı.

Əbdül Qafarzadə o vaxt iyirmi ildən artıq idi ki, Sov. IKP-nin üzvü idi (1956-cı ildə şəxsiyyətə pərəstiş ifşa olunandan, Xıdır günahsız güllələnmiş şəxs kimi bəraət alandan sonra, partiyaya keçmişdi və indi iyirmi beş illik partiya stajı var idi), amma akademik I.S.Frolovski deyəndə ki: «– K sojeleniyu uje pozdno...», başa düşəndə ki, daha heç bir möcüzə baş verməyəcək, qət etdi ki, belə bir məqamda heç nədən çəkinməyəcək, yeganə oğlunu əsl müsəlman qaydasıyla, «əl-rəhman»la götürəcək. Qoy nə deyirlər-desinlər, qoy çığır-bağır salsınlar ki, partiya üzvlüyü ilə dindarlıq bir araya sığmaz, necə qət etmişdisə, elə də eləyəcəkdi (elə də elədi!).

Yağış başlayandan sonra, həmin 27 dekabr günü Axund Fətulla Ağa həlim səsiylə əzbərdən Quran oxuduqca, Əbdül Qafarzadə o yağışın səsinə qulaq asmağa başladı və yavaş-yavaş Axund Fətulla Ağanın səsini də, arvadların qonşu otaqdan gələn vay-şivənini də eşitmədi, elə bil ki, bütün dünyada təkcə o yağışın səsi idi, vəssalam, daha heç bir səs yox idi dünyada və o yağış səsinin müşayiəti ilə Orduxanın anadan olduğu gündən başlamış qollarının üstündə can verdiyi vaxtacan, bütün uşaqlıq, yeniyetməlik, cavanlıq çağları Əbdül Qafarzadənin gözlərinin qabağından keçməyə başladı: gözünün qabağına gələn o görümlər suyun içində idi, elə bil, hələ qurumamış, yaş fotoşəkillər idi və o su təkcə eşikdə yağan o yağışdan axıb gələn xatirələrə dolmamışdı – heç kim Əbdül Qafarzadənin göz yaşlarını görmürdü (çünki yox idi!), o dəm Əbdül Qafarzadənin hissləri beyninin nəzarəti altında idi, amma buna baxmayaraq, kişinin görünməyən o göz yaşları bir sövq-təbii ilə o xatirələrə dolurdu.

Əbdül Qafarzadə hiss edirdi ki, bütün bu xatirələrin, bütün bu iztirabların arxasında beynində nəsə bir lay, bir qat yaranıb, daha doğrusu, beynində nəsə bir qərar yaranıb və yeganə oğlunun cənazəsinin yanında oturmuş bu adam var qüvvəsi ilə çalışırdı ki, beynindəki o laya, o qata enməsin, elə-eləcə xatirələrə dalsın, çünki əslində həmin qərarın nə olduğunu bilirdi və özü özünün çıxardığı o qərardan qorxurdu...

Gəlib-gedənlərin sayı gecəyə yaxın seyrəlməyə başladı, otaqda təkcə yaxın adamlar qaldı: bəzi qohumlar, dostlar, Ömər, Mürşüd Gülcahani, Mirzəibi, Vasili, Ağakərim, tez-tez o biri otağa keçib Qaratelə sakitləşdirici iynələr vuran həkim Bronşteyn, xüsusi hörmət əlaməti olaraq (aydındı ki, bu hörmət xüsusi də qiymətləndiriləcəkdi!) evinə getməyib gecəni cənazənin yanında oturmuş Axund Fətulla Ağa...

Orduxanın dostları o qış gününün get-gedə bərkiyən şıdırğı yağışına baxmayaraq, gedib hərbi hissədən nəhəng bir çadır alıb gətirdilər, həyətdə qurdular, içinə işıq çəkdilər, soba yandırdılar, qonşuluqdakı məktəbdən xeylaq kürsü, miz gətirib çadıra düzdülər və özləri də səhərə kimi həmin çadırda oturdular.

Əbdül Qafarzadə bütün gün ərzində bir tikə də çörək yeməmişdi, bircə qurtum da su, çay içməmişdi və gecə saat bir radələrində cənazə qoyulmuş o böyük otağın

bir küncündə oturub özündən asılı olmayaraq, mürgü döyən Mürşüd Gülcahani gözünü açıb təzədən ətrafa baxdı, otaqda oturanların xeylaq seyrəldiyini gördü və ərkiçatan adam kimi yerindən qalxdı, cənazənin yanında oturub boz gözlərini çeşməyinin arxasından naməlum bir nöqtəyə zilləmiş Əbdül Qafarzadəyə yaxınlaşdı, əyilib kişinin qulağına pıçıldadı:

– Get bir stəkan çay iç, bir tikə çörək ye... Belə olmaz axı... Sabah da bütün günü ayaq üstə olacaqsan.

Əbdül Qafarzadə boz gözlərini o naməlum nöqtədən çəkdi, başını çöndərib Mürşüd Gülcahaniyə baxdı və həmin an yazıçı Mürşüd Gülcahaniyə elə gəldi ki, qudası onu başa düşmədi və ümumiyyətlə, onu heş tanımadı da; bütün qohumluqları ərzində Mürşüd Gülcahaninin bu adama ilk (və sonuncu!) dəfə yazığı gəldi, təkrarən pıçıldadı:

– Get bir stəkan çay iç, bir tikə çörək ye...

Əbdül Qafarzadə elə-eləcə Mürşüd Gülcahaniyə baxdı və birdən gülümsədi və oğlunun cənazəsi yanında oturmuş qudasının o gecəki həmin təbəssümündən Mürşüd Gülcahaninin kürəyinə bir üşütmə düşdü, yazıçının yuxusu qaçdı, daha bir söz deməyib küncdəki kürsüsünə tərəf qayıtdı.

Əbdül Qafarzadə isə ayağa qalxdı, o böyük otaqdan çıxdı, qadınlar oturan otağın (ağlamaqdan, qışqırmaqdan səsi batmış Qaratel elə hey inildəyirdi) qabağından keçib yataq otağına girdi və qapını ardıyca açarla bağladı – Əbdül Qafarzadəgilin beşotaqlı mənzilində hər otağın qapısının da ayrıca açarı var idi; sonra işığı yandırıb, çarpayıların arasından keçdi, divara vurulmuş kitab rəflərinin qarşısında dayandı. Bu həmin kitablar idi ki, Əbdül Qafarzadə yuxuya getməzdən əvvəl bəzən onları varaqlayardı, bəzisini oxuyardı və bu rəfləri də üç-dörd il bundan əvvəl usta çağırıb öz layihəsi ilə divarın içinə saldırmışdı.

Ayaq üstə hərəkətsiz dayandı, elə bil, nəyəsə qulaq asırdı, yaxud nəfəsini dərirdi, özünü ələ alırdı; sonra cəld və qəti hərəkətlə yuxarıdan üçüncü rəfin şüşələrini açdı, həmin rəfdəki tarixə, dinin (o cümlədən, xristian və yəhudi dinlərinin də) şərhlərinə aid kitabları bir-bir çıxarıb Qaratelin güzgülü tualet mizinin üstünə yığdı, sonra iki əli ilə boş rəfin kənarlarından yapışıb sərt bir hərəkətlə özünə tərəf çəkdi və rəf divarın içindən çıxdı, Əbdül Qafarzadə həmin rəfin arxasındakı nazik sellofan bağlamaları çıxartdı və həmin bağlamaları qucağında tutub bir müddət yenə də hərəkətsiz dayandı, yağışın bayırdan gələn şırıltısına qulaq asdı.

Həmin üçüncü rəfin arxasındakı o sellofan bağlamalardan heç kimin, hətta Qaratelin də xəbəri yox idi. Bağlamalarda 500000 (beş yüz min) manat pul, 100000 (yüz min) dollar, əlli ədəd (Əbdül Qafarzadə bütün bu rəqəmləri dəqiq bilirdi) qızıl Nikolay onluğu, əlli ədəd qızıl Nikolay beşliyi, əlli adda da ləl-cəvahirat var idi: brilyant üzük və sırğalar, daş-qaşla bəzədilmiş boyunbağılar, bilərziklər...

Bu – qara günün varidatı idi, dünyanın işlərinə etibarı olmayan Əbdül Qafarzadənin ehtiyatı idi (hər halda, özü belə düşünürdü) və mənzilində saxladığı bu ehtiyat Əbdül Qafarzadəyə rahatlıq vermirdi, həmin üçüncü rəfin arxasındakı o gizli yer həmişə Əbdül Qafarzadəyə, əslində, etibarsız bir yer kimi görünürdü, o yerin o etibarsızlığı həmişə kişini səksəkə içində saxlayırdı.

Əbdül Qafarzadə qucağındakı sellofan bağlamaları çarpayıya tökdü, içində 500000 manat pul olan bağlamanı götürüb rəflərin arasında əvvəlki yerinə atdı, tumbanın üstündəki ortası çəllək kimi şişman büllur güldanı götürdü və səliqə ilə

sellofana bükülüb iplə bağlanmış həmin bağlamaları – dolları, qızılları, ləl-cəvahiratı bir-bir gülqabının içinə yığmağa başladı və sonuncu bağlamanı gülqabının içinə pərçim eləyəndə Əbdül Qafarzadənin bütün içindən dəli bir ehtiras baş qaldırdı: əli ilə hiss edirdi ki, bu sonuncu bağlamanın içindəki, qızıl Nikolay beşlikləridir və Əbdül Qafarzadə o gecə yarısı, o şıdırğı yağış şırıltısının müşayiəti ilə həmin qızıllara baxmaq, həmin kiçik qızıl sikkələri gözü ilə görmək istədi; bu – qarşısıalınmaz bir ehtiras idi, bu ehtirası heç cürə boğmaq mümkün deyildi.

Bütün bu dəqiqəyəcən hər bir işi, elə bil ki, əvvəlcədən yüz dəfə məşq edibmiş kimi, soyuqqanlıqla, sürətlə görən Əbdül Qafarzadənin birdən-birə ürəyi şiddətlə döyünməyə başladı, kişi nəfəsini dərib qapıya tərəf baxdı, ona elə gəldi ki, ürəyinin döyüntüsü bütün otaqlara yayılıb, sonra elə bil ki, qəflətən dərin bir sükut çökdü, bayırdakı o şıdırğı yağışın şırıltısı da eşidilməz oldu və Əbdül Qafarzadə o dərin sükutun yaratdığı daxili bir çəkisizlik içində titrəyən barmaqları ilə o sonuncu bağlamanın ipini ehtiyatla açmağa başladı.

Əbdül Qafarzadə sağ əlinin ovcunu qarnının üstündə tutub, sol əli ilə bağlamadakı qızıl Nikolay beşliklərinin bir qismini ehtiyatla ovcuna boşaltdı. Qızıl Nikolay beşlikləri bir yerdə ağır idi, amma eyni zamanda, ayrı-ayrılıqda o qızıl sikkələrdə qəribə bir yüngüllük, qəribə bir zəriflik, hətta nəvaziş var idi. Əbdül Qafarzadəyə elə gəlirdi ki, yenə də uşaq vaxtlarındakı kimi o qalın yorğanın altındadır və o nəvaziş də həmin yorğanın içindəki nəvazişdir, həm də o qalın yorğan Əbdül Qafarzadəni hamıdan, hər şeydən, ağlasığan və sığmayan bütün qüvvələrdən qoruyurdu. Kişi ovcunu tərpətmədən (qorxurdu ki, qızıl sikkələr yerə dağılar) başını aşağı əyib qalın çeşməyinin ardından o Nikolay beşliklərinə baxırdı və həmin gecə yenə də bu adamın içindən dəli bir ehtiras baş qaldırdı: o bir ovuc qızıl beşlikləri və ümumiyyətlə, güldana pərçim edib doldurduğu bütün o qızılı təzədən saymaq istədi, amma bu dəfə bu dəli ehtirası üstələyə bildi və ovcundakı qızılı elə-eləcə büllur güldanın içinə boşaltdı, ovcunda qalmış sonuncu sikkəni işığa tərəf yuxarı tutub diqqətlə baxdı – bu dəm Əbdül Qafarzadə üçün dünyada heç kim və heç nə yox idi, yalnız II Nikolayın o sapsarı, donmuş siması var idi. Həmin sonuncu sellofanın içində qalmış qızıl beşlikləri də tələsik büllur güldana boşaltdı, sonra o sellofanla güldanın ağzını örtdü, ip ilə bərk-bərk bağladı (elə bil, içinə mürəbbə yığılmış balonun ağzını bağlayırdı), paltar dolabını açıb həmişə üst gözdə saxlanılan təzə dəyişiklərin, təzə köynəklərin sellofanını cırıb çıxartdı, büllur güldanı bu sellofanlara səridi, sonra əlinə keçən bir köynəyi – bu, Qaratelin həmişəki kimi, valyuta dükanından aldığı fransız gecə köynəyi idi – dolabdan götürüb, güldanı sellofanların üstündən o köynəyə bükdü və o böyük bağlamanı sağ əli ilə böyrünə sıxıb qətiyyət və eyni zamanda, ehtiyatla qapını açdı, yataq otağından çıxdı, Qaratelin inildədiyi otağın, sonra boş mətbəxin qabağından keçib girişdəki asılqandan paltosunu götürdü, şlyapasını başına qoydu və üçüncü mərtəbədəki mənzilindən çıxdı.

Qaratelin iniltisi eşidilməz oldu, hər tərəfi o şıdırğı yağışın şırıltısı bürüdü və yağışın o səsi, elə bil ki, özü ilə bir sərinlik gətirdi, Əbdül Qafarzadə sinədolusu nəfəs aldı, paltosunu cəld əyninə geydi, ağır və iri güldanı bərk-bərk böyrünə sıxıb qaranlıq pilləkənləri aşağı düşdü.

Həyət qaranlıq və adamsız idi. Orduxanın yoldaşları, cavanlar hamısı çadırın içinə yığılmışdılar və çadırdan gələn işıq həyət boyu bir-birinin yanında dayanmış

maşınları – Orduxanın dostlarının, qohum-əqrabanın, Vasilinin, Mirzəibinin, Ağakərimin maşınlarını güclə işıqlandırırdı. Əbdül Qafarzadə qaranlıq ağaclığın arası ilə sürətlə addımlayıb həyətdən çıxdı və eləcə sürətli addımlarla da öz küçələrindən uzaqlaşdı.

Yağış Əbdül Qafarzadənin bütün üst-başını, ayaqlarını islatmışdı, amma hərdənbir yanından ötən taksiləri saxlamırdı, çünki taksi sürücüləri onu tanıya bilərdilər. Külək yağışı Əbdül Qafarzadənin sifətinə çırpırdı, amma həmin dəm bu adam nə yağışın, nə də o qış küləyinin soyuğunu hiss edirdi, əksinə, tərləmişdi və bütün içi buğlanırdı, elə bil, qızdırma içində idi, hərarət bütün daxilini bişirirdi; eyni zamanda, o böyük və ağır güldanı böyrünə sıxmış Əbdül Qafarzadə gecənin o çağında, yağışın altında, Bakı küçələrinin adamsızlığı içində qətiyyən qorxu və tərəddüd hissi keçirmirdi – qərara almışdı, vəssalam, belə də olacaqdı.

Nəhayət ki, qarşıdan gələn iri bir maşın faralarının işığı o şıdırğı yağışı yararaq Əbdül Qafarzadənin üstünə düşdü və Əbdül Qafarzadənin sövq-təbii ilk istəyi bu oldu ki, qaçıb həmin işıqdan gizlənsin – ona görə yox ki, qorxurdu, ona görə ki, elə bil, o işıq bütün bu gecə əməliyyatına yad və yabançı idi; Əbdül Qafarzadənin həyata keçirməyə başladığı bu əməliyyatla işıq bir-birinə tamam zidd idi.

Bu adamın dəqiq işləyən beyni yenə də bütün hissləri, həyəcanları üstələdi, Əbdül Qafarzadə o iri maşının sürücüsünün gözü ilə özü özünü uzaqdan gördü: gecənin yarısı, o şıdırğı yağışın altında qara paltolu, qara şlyapalı hündür bir kişi böyrünə bir bağlama sıxıb bomboş küçə ilə sürətlə addımlayır...

Hər halda, o maşını saxlamaq lazım idi. Əbdül Qafarzadə dayandı, sağ əli ilə bağlamanı qaldırıb bərk-bərk sinəsinə sıxdı və sol əlini qaldırdı. Bu dəm Əbdül Qafarzadə özü də hiss edirdi ki, lazım gəlsə, o, sürücünü öldürməyə hazırdır – heç bir tərəddüd keçirməz və öldürər.

Maşın gəlib qabağında dayananda Əbdül Qafarzadə gördü ki, bu, zibil maşınıdır; o yağışın, küləyin içində, gecənin yarısı bu zibil maşını Bakının küçələrində nə eləyirdi? Allah bilirdi...

Əbdül Qafarzadə qalxıb kabinkada oturaraq əli ilə üz-gözünün suyunu sildi, o bağlamanı qucağına aldı, sonra cibindən bir dənə onluq çıxarıb əvvəl başdan sürücüyə verdi və həmin zibil maşınını Tülkü Gəldi Qəbiristanlığına tərəf sürdürdü. Yaxşı ki, sürücü rus idi, azərbaycanlı, ya erməni olsaydı, marağından alışıb yanacaqdı, sorğu-suala başlayacaqdı, amma bu rus sürücü qırmızı onluğu cibinə basdı, təkcə:

– Çert!.. Kakoy dojd a?! – deyib maşınını üzüyuxarı, birbaşa Tülkü Gəldi Qəbiristanlığına tərəf sürdü.

Əbdül Qafarzadə zibil maşınını Qəbiristanlıq Idarəsinin yox, Tülkü Gəldi Qəbiristanlığının arxa tərəfində, köhnə torpaq yolun yanında saxlatdı. Buralarda günün günorta çağı da heç kim olmurdu, o ki, qala belə bir yağışlı-çovğunlu qış kecəsi və həmin anda Əbdül Qafarzadə fikirləşdi ki, bu külək ona kömək eləmək üçün beləcə əsir, bu yağış da ona kömək eləmək üçün beləcə şıdırğı yağır; bu – taledi, taledən isə qaçmaq mümkün deyil.

Zibil maşınından düşüb, az qala, topuğa qədər palçığa bata-bata qəbiristanlığa girdi və o zibil maşınının səsi sürətlə uzaqlaşa-uzaqlaşa (sürücü o qırmızı onluğa baxmayaraq yəqin bu yerlərdən və bu sərnişindən tez uzaqlaşmaq istəyirdi) yağışın şırıltısı içində eşidilməz olanacan köhnə bir qəbrin yanındakı hündür küknar

ağacının altında dayanıb gözlədi, sonra birdən-birə yağışın yuyub təmizlədiyi o küknar ağacının iyini hiss etdi. Bu iy ölü yerinə gətirilən əklillərin iyinə bənzəyirdi və Əbdül Qafarzadə bir an, cəmi bircə an indicə qonaq otağındakı mizin üstündə qoyub gəldiyi o cənazəni xatırladı, sonra yenə əli ilə üz-gözünün suyunu sildi, bütün ətrafda heç kimin olmadığını dəqiq elədi və sürətlə Tülkü Gəldi Qəbiristanlığının yuxarı hissəsinə, o təpəciyə tərəf addımladı.

Orduxanın cənazəsini xəstəxanadan Təzə Pir məscidinə aparanda Əbdül Qafarzadə Mirzəibiyə, Vasiliyə, Ağakərimə bu yeri nişan vermişdi və oğlunun qəbrini burada qazdırmağı tapşırmışdı. Bu yer Əbdül Qafarzadənin şəxsi ehtiyatı idi, buranı ən mötəbər vəzifə sahiblərinin də qohumlarından gizlətmişdi, elə bil, fəhmi kişiyə deyirdi ki, saxla, lazım olacaq.

Təpəciyin üstündə qəbri qazıb qurtarmışdılar və axşam yağış başladığını görüb orada tələsik bir talvar da düzəltmişdilər ki, yağış təzə qəbri korlamasın. Əbdül Qafarzadə hər addımına bələd olduğu qəbiristanlığın içi ilə palçığa bata-bata o təpəciyin yanına gəlib çıxdı və torpaq sürüşkən olduğu üçün az qala iməkləyə-iməkləyə təpəciyə qalxdı, əlindəki o bağlamanı qazılmış qəbrin kənarına yığılmış torpağın üstünə qoydu, diqqətlə ətrafa baxdı, amma o qaranlıq içində gözünə nə taxta, nə də dəmir parçası sataşdı, sonra əlini paltosunun cibinə salıb həmişə özü ilə gəzdirdiyi açarları (mənzilin, kabinetin və seyfin açarlarını) çıxartdı və təzə qəbrin içinə girdi. Qəbrin aşağısını da, kənarlarını də mişar daşlarıyla səliqə ilə hörmüşdülər, amma hava rütubət olduğu üçün, o talvar yağışın qabağını tamam ala bilmədiyi üçün, mişar daşlarının arasındakı suvaq hələ qurumamışdı və Əbdül Qafarzadə aşağı çöməlib açarlardan ən uzunu ilə qəbrin aşağısına döşənmiş mişar daşlarının arasını sürətlə qazıb-qaşımağa başladı.

Əbdül Qafarzadə açarla qazır, barmaqlarını mişar daşlarının arasına salıb suvağı çıxarır və heç nə barədə fikirləşmirdi, təkcə tez-tez qəbrin kənarına qoyduğu o böyük bağlamaya baxırdı; əlbəttə, bu dəm o həndəvərdə heç kim yox idi və heç kim də gəlib o bağlamanı oradan qaçıra bilməzdi (hətta bayaq o küknar ağacının altında xüsusi dayandı ki, zibil maşınının çıxıb getməyini gözləri ilə görsün, hərçənd o rus sürücü görkəmindən əfəlin birinə oxşayırdı), Əbdül Qafarzadə bunu başa düşürdü, amma buna baxmayaraq, ürəyində bir nigarançılıq var idi, ona elə gəlirdi ki, növbəti dəfə həmin yerə baxanda o bağlamanı orada görməyəcək; ürəyindəki o nigarançılıq bütün ətrafı basıb-bürümüş o şıdırğı yağışın altında, elə bil ki, bu adamı daha da tələsdirdi və o iyirmi dəqiqənin ərzində qəbrin aşağısından iki mişardaşı çıxartdı, açarla, barmaqları ilə o iki mişar daşın altında təxminən yarım metr dərinliyində, o bağlama enində bir deşik açdı, qəbrin kənarına qoyduğu büllur güldanı götürüb ehtiyatla həmin deşiyin içinə soxdu, sonra eşib çıxartdığı torpaqla da basa-basa o bağlamanın üstündən deşiyin ağzını örtüb hamarladı, mişar daşlarını öz yerinə qoydu, çıxartdığı qırıntılarını torpaqla qarışıq mişar daşlarının arasına yeritdi, ayağa qalxıb bir-iki ovuc torpaqla qəbrin aşağısını tamam hamarladı, qəbirdən çıxıb kənarda yenə də aşağı çöməldi, əlini uzadıb qəbrin içində ayaqlarının izini də palçıqla hamarladı.

O yağışlı qış gecəsi qara gün üçün saxlanmış o varidat Tülkü Gəldi Qəbiristanlığında beləcə basdırıldı; bu yeri Əbdül Qafarzadədən başqa dünyada heç bir kimsə bilməyəcəkdi və yəqin ki, indi bütün Bakıda heç kimin var-dövləti beləcə etibarlı bir yerdə saxlanmırdı...

Hər şey qurtardı, bütün bu əməliyyat başa çatdı və yalnız bundan sonra, Əbdül Qafarzadə qəbrin kənarında oturub nəfəsini dərdi, əllərini yanında uzatdı, kürəyini qəbrin içindən çıxarılmış torpağa söykədi (sabah o torpağı Orduxanın cənazəsi üstünə tökəcəkdilər), paltosunun, pencəyinin, köynəyinin, maykasının, şalvarının, tumanının, corabının yaşını hiss etdi və birdən-birə bu adamın bütün içindən fəvvarə kimi bir hönkürtü qopdu, gözlərinin yaşı sir-sifətində hələ də qurumamış yağışa qarışdı, sinəsindən dağlanmış yağ kimi, bütün varlığının cızdağını çıxaran bir inilti qopdu: «– Bu nə gündü mən düşmüşəm, ay Allah?!.»

Qonaq otağında qoyub gəldiyi o cənazə də indi Əbdül Qafarzadənin gözlərinin qabağında idi və bu adam o təzə qəbrin kənarında həm dünyadan getmiş və sabah bu qara torpağa tapşırılacaq oğlu üçün ağlayırdı, həm də öz gününə.

Əbdül Qafarzadə yenə də özünü kənardan gördü, yəni onun beyni bu məqamda da tam dəqiqliyi ilə işləyirdi, həmin yağışlı qış gecəsi öz vəziyyətinin bütün dəhşətini dərk edirdi. Yeganə təskinlik o idi ki, bunu heç kim bilməyəcəkdi və o dəhşətin yeganə şahidi Əbdül Qafarzadə özü idi...

Təzə qazılmış qəbrin kənarından gələn o hönkürtü yağışın şırıltısına qarışıb Tülkü Gəldi Qəbiristanlığının Sulu dərəyə yaxın hissəsinə yayılmışdı və elə bil ki, o gecə çağı o hönkürtü həmin yağışın və həmin gecənin özünün hönkürtüsü idi...

Əbdül Qafarzadə evə gəlib çatanda səhər saat 5-ə az qalırdı. Həyət dayanmaq bilməyən yağışın altında eləcə bomboş idi, çadırdan gələn işıq da eləcə maşınların üstünə düşmüşdü və Əbdül Qafarzadə yenə də qaranlıq ağaclıqdan keçib üçüncü mərtəbəyə qalxdı; hər şey yenə də üç-dörd saat bundan əvvəlki kimi idi.

Əbdül Qafarzadə mənzilin açıq qapısından içəri girəndə Mürşüd Gülcahani tualetdən çıxırdı, arakəsmədə rastlaşdılar və yazıçı qudasını beləcə suyun-palçığın içində görəndə, yaş sifətinin rənginə və ifadəsinə baxanda yerində donub qaldı: ömrünün az qala qırx ilini yazıçılığa həsr etmiş Mürşüd müəllim ömründə bu görkəmdə, bu sifətdə adam görməmişdi( özü də ki, bu adam Əbdül Qafarzadə idi!). Əbdül Qafarzadə yağışın altında əsgiyə dönmüş şlyapasını, suyu axan palçıqlı paltosunu çıxarıb Mürşüd Gülcahaninin üstünə atdı və ardınca arakəsmənin parket döşəməsində iri ayaqqabılarının palçıqlı izlərini sala-sala birbaşa yataq otağına keçdi.

Mürşüd Gülcahani arakəsməyə göz gəzdirdi ki, suyu tökülən bu soyuq paltonu, şlyapanı hara qoysun, nəhayət, əlindəkiləri boş bir kürsünün üstünə atıb Əbdül Qafarzadənin ardınca yataq otağına tərəf getdi. Mürşüd müəllim bayaqdan elə bilirdi ki, Əbdül Qafarzadə gedib yataq otağında yatıb, hətta ürəyində qudasının qarasına deyinirdi də ki, özü gedib yatıb, biz isə məcburuq ki, səhərə kimi bu otaqda, cənazənin yanında oturaq... Amma, sən demə, evdə deyilmiş... Özünü öldürmək istəyirmiş, nədir?..

Mürşüd Gülcahani yataq otağına girəndə Əbdül Qafarzadə arxası qapıya tərəf, otağın düz ortasında, palçıqlı ayaqqabıları ilə hələ inqilabdan əvvəl toxunmuş və təravətini olduğu kimi saxlamış gözəl Təbriz gəbəsinin üstündə dayanmışdı. Mürşüd Gülcahani bir-iki addım irəli atıb dayandı, ayaqqabıları ilə o gözəl Təbriz gəbəsinin üstünə çıxmağa cürət eləmədi və sidq-ürəkdən gələn həzin və asta bir səslə:

– Belə olmaz, ay qardaş, özünü ələ al... – dedi.

Əbdül Qafarzadə sərt hərəkətlə üzünü arxaya çöndərdi, qıpqırmızı qızarmış və qapaqları da qızarıb şişmiş gözlərindən nifrət və qəzəb yağa-yağa Mürşüd Gülcahaniyə baxdı, boğuq bir səslə bağırdı:

– Itil burdan! Itil! Itil, dedim sənə! – Sonra yaş pencəyiylə, palçıqlı ayaqqabılarıyla, yaş balaqları tamam palçığa batmış şalvarıyla birlikdə özünü üzüqoylu çarpayının üstünə atdı.

Mürşüd Gülcahani ürəyi uçuna-uçuna, dizləri əsə-əsə, yataq otağından çıxdı...

...Indi o qara gecədən altı il keçmişdi, amma həmin yağışın səsi indiyəcən Əbdül Qafarzadənin yadından çıxmamışdı, o yağışın kişinin ürəyində hopub qalmış xüsusi ahəngi də, iniltisi də bütün bu altı il ərzində onunla birgə olmuşdu – bəzən açıq-aşkar, bəzən də dibdə qalmış çöküntü kimi; o yaş kostyumun, o yaş alt paltarının soyuğu da hərdən yada düşəndə, Əbdül Qafarzadənin bədəninə bir üşütmə gətirirdi.

Həmin aprel günü o ağ mərmərlə, o çəhrayı qranitlə üzbəüz dayanmış, əllərini arxasında birləşdirib çeşməyinin ardından baxan boz gözlərini

*QAFARZADƏ ORDUXAN ƏBDÜLƏLI OĞLU*
*(1951 – 1976)*

sözlərinə dikmiş Əbdül Qafarzadənin ürəyində həyəcanla və bütün varlığını yandırıb-yaxan inamsızlıq hissi ilə dolu bir istək var idi: heç olmasa, özü özünü əmin etsin ki, hər dəfə yalnız (yalnız və yalnız!) oğluna görə bu qəbri ziyarət edir; amma belə məqamlarda, elə bil ki, bu adamın içinə bir şeytan girirdi və təngnəfəs ola-ola nəbz kimi elə hey vururdu.

Yox, təkcə oğluna görə gəlmirsən bura!..
təkcə oğluna görə gəlmirsən bura!..
təkcə oğluna görə gəlmirsən bura!..
təkcə oğluna görə gəlmirsən bura!..
təkcə oğluna görə gəlmirsən bura!..
. . . . . . . . . . . . . . . . . . . . . . . . .
. . . . . . . . . . . . . . . . . . . . . . . . .
. . . . . . . . . . . . . . . . . . . . . . . . .

və II Nikolayın da sapsarı donmuş sifəti təzədən o çəhrayı qranitin üzərinə həkk olunurdu və II Nikolayın o sapsarı donmuş sifəti birdən-birə adamın tükünü ürpərdən bir ifadə ilə gülümsəyirdi – elə bil ki, meyit üzünü, dodaqlarını tərpədib-gülümsəyir...

Əbdül Qafarzadə geri çöndü və yenə də əlləri eləcə arxasında asta addımlarla o təpəcikdən aşağı endi, Tülkü Gəldi Qəbiristanlığının ensiz torpaq cığırları ilə Qəbiristanlıq Idarəsinə tərəf yollandı. Kişi özü də hiss edirdi ki, hər dəfə oğlunun qəbrinə gəlib-gedəndə yüz il qocalır; düzdü, bir müddət keçir və hər şey yenə də öz qaydasına düşürdü, amma, hər halda, ürək də dəmirdən deyildi və bütün bu iztirabları beləcə ürəyinin içinə salanda dözmürdü... dözməzdi...

Əbdül Qafarzadə üzüaşağı gələ-gələ o çəhrayı qranitin üzərindəki

***ƏBDÜLƏLI***

sözlərini xatırladı və bu dəfə kişinin daxilini bəlkə də həmin dəqiqəyəcən heç vaxt duymadığı bir vahimə bürüdü, hətta gözlərinin qabağına haçansa hansı bir qəbir daşınınsa üzərində yazılacaq

*QAFARZADƏ ƏBDULƏLI ORDUXAN OĞLU*
*(1929 – ?)*

sözləri gəldi, istər-istəməz, bir an ayaq saxladı, onu soyuq tər basdı, ona elə gəldi ki, ürəyi bulanır, başı gicəllənir.

Yox, belə olmazdı, yaşdan idi, nə idi? Öz tarixinin hansı bir məqamında isə insan çox sadə və eyni zamanda, dünyanın ən müdrik bir həqiqətini dərk edib: adam bir dəfə yaşayır və bir dəfə, cəmi bircə dəfə verilmiş bu ömrü beləcə iztirablarla, beləcə içini yeyə-yeyə, özünə işgəncə verə-verə yaşamaq düzgün deyildi; bircə dəfə verilmiş o ömrün, düzdü, əvvəli və sonu var idi, amma, əslində, o ömür özü-özlüyündə bir əbədiyyət idi və həmin əbədiyyəti yaşamağı bacarmaq lazımdır.

O hisslər, həyəcanlar yavaş-yavaş sakitləşməyə başladı, Əbdül Qafarzadənin beyni yenə də, elə bil ki, dumanın, çənin içindən çıxıb aydınlaşdı, dəqiq işləməyə başladı, baş qaldırmış o vahimənin üstünə közmüş kimi, su səpib söndürdü və nəhayət ki, kişinin içində bir sakitlik yaranmağa başladı.

Əbdül Qafarzadə Qəbiristanlıq Idarəsinin həyətinə girib öz kabinetinə tərəf getdi.

## 15

## HƏR ŞEY KEÇIB GEDIR...

Tələbə Murad İldırımlı gecəni Bayıldakı şəxsi maşın dayanacağında keçirdi. Əvvəlki qarovulçular meyvə-tərəvəz daşımaq üçün işlədilən taxta yeşikləri söküb daldalanmaq üçün burada köşkə bənzər bir şey düzəltmişdilər və qış arxada qaldığı üçün tələbə gecələr burada daha dəhşətli soyuq içində olmurdu, əvvəlki qarovulçulardan yadigar qalmış köhnə «kerosinka»nın istisi o köşkə bənzər yerə kifayət edirdi, hər halda, tələbə taxta kətildə oturub əyin-başının üstündən yenə də əvvəlki qarovulçulardan yadigar qalmış, adda-budda didilib sökülüb cındıra dönmüş yun şala bürünərək ayaqlarının yanında yanan o «kerosinka»nın istisini hiss edirdi.

Tələbə tamam sakit idi və o köşkəbənzər yerin boş gözlüyündən o aprel gecəsinin zülmətinə tamaşa edirdi: yer ilə göyün zülməti bir-birinə qarışmışdı və lap dərinliklərdə o qaranlıq içində güclə sezilən bir-iki ulduz görünürdü. Tələbə o uzaq ulduzlara baxırdı və düşünürdü.

Quranın elə birinci «Fatihə surəsi» insanın belə bir müraciəti, belə bir inamı və istəyi ilə başlayırdı:

«Rəhm edən, bağışlayan Allahın adı ilə (başlayıram).

(Allah) rəhm edən, bağışlayandır.

Cəza gününün sahibidir.

Ancaq Sənə ibadət edirik və yalnız Səndən kömək diləyirik.

Bizi doğru yola yönəlt!»

Bunu insan özü istəyir, bu istək insanın bütün içindən axıb gəlir, bunu insan şüuru da dərk edir: «Bizi doğru yola yönəlt!» Bəs, nə üçün Allah həmişə hamını doğru yola yönəltmir və nə üçün əyri yol da mövcuddur ki, insan özü özünü o yoldan sapındırmağı xahiş edir, məgər hər şey Allahın əlində deyilmi? Quranın ki «Bəqərə surəsi»ndə insana müraciətlə deyilir:

«Məgər sən bilmirsən ki, göylərin və yerin səltənəti (hökmranlığı) ancaq Allaha məxsusdur və sizin Ondan başqa bir haminiz və yardımçınız yoxdur?»

Bir halda ki, göylərin və yerlərin səltənəti Allaha məxsusdur və Allah da Quranın dəfələrlə yazdığı kimi, adildir, bəs, nə üçün bu səltənətdə doğru yolla bərabər, əyri yol da mövcuddur və Allah nə üçün belə bir mövcudluğu qəbul edir, bununla barışır? Yenə də «Bəqərə surəsi»ndə deyilirdi:

«Göyləri və yeri icad edən (yoxdan yaradan) Odur. Bir işin yaranmasını istədiyi zaman, ona (o işə və ya şeyə) «OL!» deyər (fövran), o da olar».

Bəs, nə üçün, nə üçün o həmin əyri yolları doğru yollara çevirmək üçün bir dəfə «OL!» demir? Axı, belə olsa, o zaman heç cəhənnəmə də ehtiyac olmaz, Cəza günündə, yəni Qiyamət günündə, pis əmələ qarşı pis əvəz, yaxşı əmələ qarşı yaxşı əvəz verilməz, çünki, ümumiyyətlə, pis əməl olmaz və hamı cənnətlik olar. Quranın «Nisa surəsi»ndə deyilirdi:

«Yaxşı əmələ yardım göstərən şəxsə ondan (o işin savabından) bir hissə, pis əmələ yardım göstərənə isə ondan (o işin günahından) bir pay veriləcəkdir. Əlbəttə, Allah hər şeyə qadirdir!»

Bir halda ki, belədir, bir halda ki, belə bir qadirlik var, bəs, nə üçün O kiminsə pis əmələ yardım göstərməyinə və ümumiyyətlə, pis əməlin mövcudluğuna imkan verir? Yalnız ona görə ki, Qiyamət günündə həmin günahların əvəzi veriləcək, günah işlədən insanlar cəzalanacaq? Bəlkə tələbə bütün bunları öz insan ağlı ilə fikirləşir və mahiyyətdən xəbəri yoxdur? Yəqin elə belədir...

Yəqin, yəqin elə belədir...

Günaşırı Bayıldakı o şəxsi dayanacaqda qarovul çəkdiyi gecələr tələbə Murad İldırımlı üçün ayıqlıqla yuxu arasında keçirdi, nə yata bilirdi, nə də ayıq qalırdı, mürgü içində zehni işləyirdi, tələbəni yorurdu və elə ki, səhər açılırdı, tələbə birbaşa universitetə gedirdi, dərsdən sonra evə qayıdırdı, o yazıq Xədicə arvad kirayənişininə baxıb: «– Anan ölsün sənün, bu nə gündü düşmüsən belə?! – deyirdi. – Nöş əziyyət çəkirsən sən belə, ay fağır? Nöş canuva cəfa eləyirsən belə?!» Əlbəttə, tələbə cavab verə bilmirdi ki, bu əziyyətin səbəbi ayda gətirib sənə 70 manat verməkdən ibarətdir... Yuxusuzluqdan tələbənin gözləri yumulurdu, amma elə ki, öz otağında dəmir çarpayıda uzanıb o göyümtül adyalı üstünə çəkirdi, heç cürə yuxuya gedə bilmirdi; ya qatmaqarışıq bir xəyal aləminə qapılırdı, ya heç vaxt həyatda görmədiyi, amma təsəvvür etdiyi erotik görümlər universitetdə bir yerdə oxuduqları qızların simasında gözlərinin qabağına gəlirdi və bütün görümlərin, xəyalların, kin-küdurətin əzabından canını qurtarmaq üçün durub M. F. Axundov adına Respublika Dövlət Kitabxanasına gedirdi, sessiya imtahanlarına hazırlaşırdı, köhnə qəzet-jurnalları vərəqləyirdi, bədii əsərlər oxuyurdu, ingilis dilini öyrənməyə çalışırdı və hekayələr yazırdı. O hekayələr isə heç harada çap olunmurdu (indiyə qədər bir yazısı da dərc edilməmişdi!), illərlə qəzetlərin, jurnalların Muxtar Xudavəndə kimi ədəbiyyat şöbəsi müdirlərinin mizlərinin gözündə yatıb qalırdı... Muxtar Xudavəndə havayı yerə hekayə çap etmirdi, ya gərək tapşırılaydın, ya gərək pul tapıb bir-iki dəfə restorana aparaydın, ya da ki, gərək kənddən ətdən, toyuqdan, motaldan, baldan bir pay gətirib Muxtar Xudavəndənin evinin qapısını döyəydin... Düzdü, indi kənddəkilər özləri yeməyə bir şey tapmırdılar, gəlib Bakıdan ucuz hökumət pendiri, hətta marqarin yağı alıb kəndə aparırdılar, amma bunun mətləbə dəxli yox idi...

Dünən Xosrov müəllimlə birlikdə Tulkü Gəldi Qəbiristanlığından qayıdanda və məlum olanda ki, o yazıq Xədicə arvadı torpağa tapşırmaq üçün yer ala bilməyiblər, məhəllə camaatı narazılıqla gah Xosrov müəllimə, gah da tələbəyə

baxa-baxa bir-biri ilə pıçıldaşdı, çörəkçi Ağabalanın əsgərlikdən təzə qayıtmış oğlu dodaqaltı söyüş söyə-söyə yerində qurcalandı və həmin anlarda tələbə Murad İldırımlı başa düşdü ki, iyirmi yeddi illik ömrünün ən məsul dəqiqələrini yaşayır, çünki birdən-birə heç vaxt bu dərəcədə hiss etmədiyi bir qətiyyət bu cavan adamın bütün varlığına hakim kəsildi: tələbə Murad İldırımlı Tülkü Gəldi Qəbiristanlığının müdirini öldürməli idi və öldürəcəkdi!

Həmin dəqiqələrdə bir-biri ilə pıçıldaşan, bir-biri ilə məsləhətləşən məhəllə kişilərinə, dünyadakı pis-pis adamların qarasına qarğış eləyən məhəllə arvadlarına baxa-baxa tələbə başa düşdü ki, əslində, dörd il bundan əvvəl uzaq dağların qoynundakı o kimsəsiz, o miskin kənddən də elə bu qətldən ötrü Bakıya gəlib, elə bu qətl naminə dörd il Bakıda tələbəlik edib, bəlkə də elə bu qətl naminə təkcə Bakıya yox, ümumiyyətlə, dünyaya gəlib və o yazıq Xədicə arvad elə bu qətl naminə vəfat edib; hətta tələbəyə elə gəldi ki, Xədicə arvad vəfat etməyib, bu qətl yolunda həlak olub...

Məhəllə camaatı məsləhətləşib bu qərara gəldi ki, yox, o qoca arvadı, o mömin arvadı aparıb Bakı Şəhər Sovetinin çöllü-biyabanda açdığı Təzə Qəbiristanlıqda basdırmaq günah bir işdir və məhəlləyə yaraşmaz, Xədicə arvadı dədə-baba qəbiristanlığında dəfn eləmək lazım idi; sonra Molla Əsədulla belə bir məsləhət verdi ki, məhəllədə pul yığmaq lazımdır və o pulu aparıb Tülkü Gəldi Qəbiristanlığının sahiblərinə vermək lazımdır ki, mərhuməyə torpaq ayırsınlar və bu gün daha keçdi, arvadı sabah Tülkü Gəldi Qəbiristanlığında dəfn etsinlər. Çörəkçi Ağabalanın əsgərlikdən təzə qayıtmış oğlu tələsik quru buz dalınca getdi ki, Xədicə arvadın cənazəsinin üstünə düzsünlər, meyit sabaha kimi ağırlaşmasın.

– Gərək elə əvvəldən belənçinə ələyəydik!.. Day bunnarı da əliboş ora göndərmiyəydik!.. – Bu sözləri də Molla Əsədulla dedi, bütün təqsirlər Xosrov müəllimlə bu yöndəmsiz tələbə kirayənişindəymiş kimi, kinlə onlara baxıb təsbehinin dənələrini daha artıq bir sürətlə çevirə-çevirə bu dəfə də gözlərini Balaniyaza zillədi, elə günorta oturduğu yerdə oturmuş Balaniyaz, elə bil ki, bütün bu hadisələrdən qat-qat uca, ali bir məqamda idi və iti gözlərini artıq qaranlıq düşmüş həyatin günc-bucağında gəzdirirdi; Molla Əsədulla özünü saxlaya bilmədi, sol əlini havada yellədi, yəni ki, ay-hay...

Molla Əsədullanın o sözlərinin də, gözlərindəki o ədavətin də, həyətə toplaşmış məhəllə camaatının pıçhapıçı da, hətta lal sükut içində dayanmış Xosrov müəllimin gözlərində hələ də keçib getmək bilməyən o ağrının da daha tələbə Murad İldırımlı üçün heç bir təsiri və mənası yox idi; hər şey tam dəqiqliyi ilə qət edilmişdi: Tülkü Gəldi Qəbiristanlığının müdiri qətlə yetirilməliydi və tələbə bütün varlığıyla hiss edirdi ki, belə də olacaq, o çeşməkli və dəhşətli adamı öldürəcək; hərgah belə eləməsə, öldürməsə, özü, yəni tələbə Murad İldırımlı bu həyatda yaşaya bilməyəcək.

Məsələ yalnız o müdirdə deyildi, yəni yalnız onun şəxsiyyətində deyildi – tələbə bu adamı bütün ömründə birinci dəfə görürdü – məsələ onda idi ki... nədə idi? – tələbə bunu özü üçün dəqiqləşdirə bilmirdi, amma o adam ölməli idi və bu qətli məhz tələbə Murad İldırımlı yerinə yetirməli idi. Istintaqda, əlbəttə, cavab verə bilməyəcəkdi, bu adamı nə üçün öldürdüyünün səbəbini izah edə bilməyəcəkdi, çünki Tülkü Gəldi Qəbiristanlığındakı o təhqirə görə, hesabla daha artıq dərəcədə milis mayoru Məmmədovu öldürməli idi, amma müdiri öldürəcəkdi və o anlarda

tələbəyə elə gəlirdi ki, müdir həmin adamdır, daha doğrusu, cəmiyyətdəki həmin qüvvədir ki, insanları «Əzizimin cəfası» romanını oxutmağa məcbur edir, çünki o yazılmamış romanın müəllifi elə Tülkü Gəldi Qəbiristanlığının həmin müdirinin özüdür...

Tələbə Murad İldırımlı sözləri heç zaman bu cür tələffüz etmədiyi bir səlistliklə deyə-deyə, heç zaman bu dərəcədə (və ümumiyyətlə!) hiss etmədiyi bir sakitlik və qətilik içində məhəllə kişilərini inandırmağa çalışdı ki, pul yığmaq lazım deyil, sabah Tülkü Gəldi Qəbiristanlığında mütləq yer verəcəklər, səhər tezdən yenə ora gedəcək və mütləq yer alacaq.

Həmişə sıxılan, həyəcanlanan bu yöndəmsiz kirayənişinin birdən-birə belə bir sakitliklə, arxayınlıqla, inamla danışması, hətta, deyəsən, Balaniyaza da təsir etdi və Balaniyaz gözlərini həyətin künc-bucağından çəkib heyran-heyran tələbəyə baxdı və özünü saxlaya bilməyib:

– Molodçik! – dedi.

Molla Əsədulla bu dəfə açıq-aşkar bir nifrətlə Balaniyaza baxdı, sonra tələbəni başdan ayağacan süzdü, gözlərinin ifadəsi ilə, dodaqlarının acı bir rişxəndlə dolu təbəssümü ilə, elə bil ki, tələbənin miskinliyini bir daha məhəllə camaatına göstərdi və dedi:

– Nəlbəki boyda boyun var sənün!.. Sən gedib oradan necə yer alacaqsan, hə?!. Belə yer alanuydun, alaydun də! Avara aləmə camaatı!..

Bu qədər adamın içində onu bu dərəcədə kiçildən, alçaldan həmin sözlər o dəm tələbə Murad İldırımlıya qətiyyən təsir etmədi və eyni sakitliklə, qətiyyətlə bir də təkrar etdi ki, sabah səhər Tülkü Gəldi Qəbiristanlığında Xədicə arvad üçün mütləq yer götürəcək. Rayondan gəlmiş bu cavan adamın, bu yöndəmsiz kirayənişinin beləcə bir qətiyyəti Molla Əsədullanı da, görünür, şübhəyə saldı və kişi pul yığmaq məsələsini daha təkid etmədi; molla bilirdi ki, ilk baxışda bu cürə nəzərə çarpmayan adamlardan nə desən gözləmək mümkündü; vaxtıyla məhəllədə kirayənişin olmuş bir beləsi indi Mərkəzi Komitədə işləyirdi və dəniz kənarında beşotaqlı mənzili var idi... Bir də ki, əgər pul yığsaydı, əvvəlinci elə gərək Molla Əsədullanın özü pul verəydi...

O yazıq Xədicə arvadın evinin həyətə baxan pəncərəsindən – tələbənin kirayənişin qaldığı otağın pəncərəsindən gözlərini həyətə dikmiş və kişilərin görəcəkləri tədbirdən, gələcəkləri qərardan xəbərdar olmağa çalışan məhəllə arvadları da ərlərinin artıq xərcə düşməyəcəkləri üçün açıq-aşkar bir fərəhlə tələbə Murad İldırımlıya baxa-baxa səhər Molla Əsədullanın dediyi sözləri təkrar eləməyə başladılar:

– O rəhmətlik arvad sənün xətrüvü o qədərnə çox istəyirdi ki!..

– Səni oğlunnan çox istəyirdi, vallah!..

– Allah sənün canuvu sağ eləsin!..

– Allah sənün kimi oxumuşları bizim başımızın üstünnən əskik eləməsin!.. Süz ağıllı olursuz!..

Balaniyaz da başını tərpədə-tərpədə məhəllə arvadlarının dediklərini təkrar edirdi:

– Əl-əlbət belədür!.. Əl-əlbət!..

Xosrov müəllim isə eləcə lal sükut içində tələbəyə baxırdı.

Tələbə məhəllədən çıxıb Bayıldakı şəxsi maşın dayanacağına gələndə yolda avtobusdan düşüb Bayıl tərəfə gedən marşrutla ikinci dəfə avtobusa minməzdən əvvəl təsərrüfat malları dükanına girdi və iki günlük yemək-içməyinin pulunu verib bir manat doxsan qəpiyə uzun və iti bir çörək bıçağı aldı. Indi o köşkə bənzər yerdə şala bürünüb taxta kətilin üstündə oturmuş tələbəyə elə gəlirdi ki, pencəyinin döş cibində gizlətdiyi o uzun çörək bıçağının soyuğu hərdən bu «kerosinka»nın istisini kəsir və o zaman tələbə bıçağın o buz soyuğunu bütün bədəni ilə hiss edirdi, amma bu hiss tez də keçib gedirdi, Bayıl tərəfin həmin gecə qaranlığı və sakitliyi içində əriyib yox olurdu.

Tələbə Bayıldakı bu şəxsi avtomobil dayanacağının iyini buraya iki-üç tin qalmış hiss edirdi və əvvəllər benzin, yağ, dəmirqarışıq bu dayanacaq qoxusunda tələbəni hərdən həyəcanlandıran sirli bir gecə ovqatı olurdu, çünki bəzən gecələr dayanacağa gələn maşınlarda maşın sahiblərindən – sürücü oğlanlardan, kişilərdən başqa, yanlarında oturmuş və maşının pəncərəsindən görünüb tanınmasınlar deyə çox zaman sifətlərini gizlətməyə çalışan qızlar, qadınlar da olurdu. Həmin maşın dayanacaqdakı başqa maşınların arasında dayanırdı, amma oğlanla qız, yaxud kişiylə qadın maşından çıxmırdı və lap sakitlik olanda tələbə həmin maşından gələn səsləri eşidirdi... Sonra o maşın ya təzədən dayanacaqdan çıxıb gedirdi və bir muddətdən sonra yenə qayıdırdı, daha içində qız, qadın olmurdu, ya da ki, maşın eləcə dayanacaqda qalırdı, içindəkilər çıxırdı, oğrun-oğrun maşınların arasından keçib qarovulçu köşkünün yanından ötürdülər və qaranlıqda gözdən itirdilər. Ürəyi döyünə-döyünə köşkdəki gözlüyə bənzər açıqlıqdan o kişiyə, o qıza, qadına baxan tələbə o saat müəyyən edirdi ki, bu, pul qazanan fahişədir (onların bir qismini axşamlar şəhərdə «Azərbaycan» kinoteatrının qabağında görmüşdü, hətta bir-iki dəfə tələbəyə göz vurub sataşmışdılar da, tələbə də həyəcandan boğula-boğula addımlarının sürətini daha da artırmış, çıxıb getmişdi), yoxsa gizli məhəbbət qurbanlarıdı; bəzən qaranlıqda onların sifətlərini, geyimlərini aydın görmürdü, amma yerişlərindən, hərəkətlərindən bunu o saat müəyyən edirdi (hər halda, tələbəyə belə gəlirdi...). Bu cür vaxtlar bəzən şəxsi maşın sahibi qadını irəli ötürürdü, özü isə, köşkün əldəqayırma qapısını açıb heç bir söz demədən tələbənin cibinə üç manat, beş manat pul basırdı və belə hallar o qədər sürətlə baş verirdi, gecənin qaranlığı, sakitliyi ilə, dayanacağın qoxusu ilə o qədər həmahəng olurdu ki, tələbə özündən çıxmağa, etiraz etməyə macal tapmırdı, hər dəfə həyəcanlanırdı, hirs və pərtlik onu boğurdu, amma səsini çıxartmırdı. Əvvəllər həmin üçlüyü, beşliyi uzun müddət eləcə cibində gəzdirirdi, bilmirdi ki, nə eləsin, tələbəyə elə gəlirdi ki, cibində nəsə murdar bir şey gəzdirir və o murdar şey içinə girəcək, bütün içini murdarlayacaq, sonra həmin üçlükləri, beşlikləri aparıb Bakının Təzə Pir məscidinin ətrafındakı küçələrdə oturmuş dilənçilərə verməyə başladı... Şəxsi maşın sahibləri arasında orta yaşlarında, hündür, iri sümüklü bir qadın da var idi (deyirdilər guya hardasa Mənzil Istismar Idarəsinin rəisidir) o qadın bura hərdənbir cavan oğlanlar gətirirdi...

Tələbə indi də o dayanacaq qoxusunu hiss edirdi, o qoxu «kerosinka»dan gələn nöyüt iyindən fərqlənirdi, amma o dayanacaq qoxusunda daha heç bir həyəcanlı və sirli şey yox idi və məsələ bunda deyildi ki, həmin aprel gecəsi Bayıldakı o şəxsi maşın dayanacağında heç kim yox idi; məsələ onda idi ki, axşamüstü məhəllədə birdən-birə bütün varlığına hakim kəsilmiş o qətiyyət, elə bil

ki, tələbə Murad İldırımlının bütün dünyasını dəyişmişdi, o dünyanın hisslərinə, görümlərinə, bütün çalarlarına elə bir sərtlik gətirmişdi ki, daha əvvəllərdə olduğu kimi, dəqiqədə-bir həyəçanlanmırdı, əsəbiləşmirdi, kövrəlmirdi; elə bil ki, haçansa divara vurulmuş və illərdən bəri qurumaq bilməyən suvaq indi birdən-birə qupquru qurumuşdu, bir zərrə belə nəmi qalmamışdı.

Sonrakı nə idi? Mürgü idi?.. Yuxu idi?.. Qarabasma idi?..

Hamı tülkünün ardınca qaçırdı...

hamı qışqırırdı...

–...tülkü gəldi!..

–...tülkü gəldi!..

–...tülkü gəldi!..

tülkü özü görünmürdü, amma hamı onu təqib edirdi, hamı tülkünün ardınca qaçırdı və hamının üstünə par-par parıldayan kürən-sarımtıl bir işıq düşmüşdü, ucu-bucağı görünməyən bir kütlə bu kürən-sarımtıl işıq altında çığır-bağır sala-sala tülkünü axtarırdı...

–...tülkü gəldi!..

–...tülkü gəldi!..

–... tülkü gəldi!..

və Xədicə arvad da küpəgirən qarı kimi, bir sümükdən, bir dəridən ibarət idi, vaxtı ötmüş xınadan qıpqırmızı qızarmış saçları pırpızlaşıb çiyinlərinə, sinəsinə tökülmüşdü və Xədicə arvad da tülkünün ardınca qaçırdı...

qaçmırdı, elə bil, uçurdu...

Xədicə arvad uçurdu...

Balaniyaz... Əməkdar incəsənət xadimi Ərəstun Bozdağlı... Molla Əsədulla... çörəkçi Ağabalanın əsgərlikdən qayıtmış oğlu... ədəbiyyat şöbəsinin müdiri Muxtar Xudavəndə... milis mayoru Məmmədov... gənc yazıçı Səlim Bədbin... ağsaçlı, ağsaqqallı Süleyman peyğəmbər... milisioner Əsgər... Mənzil Istismar Idarəsinin rəisi qadın...

–...tülkü gəldi!..

–...tülkü gəldi!..

–...tülkü gəldi!..

və Xosrov müəllim yanpörtü çiynini dirəyib Tülkü Gəldi Qəbiristanlığı müdirinin otağının içi pambıqla dolu meşin qapısını tutub saxlamışdı...

o meşin qapı da kürən-sarımtıl tülkü rəngində idi...

birdən-birə bir sükut çökdü, o saysız-hesabsız izdiham lal oldu və hərəkətsiz dayandı...

və tələbənin beyni bu sözləri pıçıldamağa başladı: tülkü burdadı!.. tülkü burdadı!.. tülkü burdadı!.. bax!.. bax!.. o kürən-sarımtıl tülkü rəngli meşin qapı taybatay açıldı... içəri izdihamla dolu idi...

içəridə o qədər insan var idi ki, daha o izdihamın arasında heç kimi tanımaq mümkün deyildi, heç kimin sifəti yox idi...

Yalnız əyninə keşiş paltarına bənzər bir libas geymiş Əbdül Qafarzadə ortada dayanıb yoğun bir səslə Sovet Ittifaqının himnini oxuyurdu və Əbdül Qafarzadənin başının çevrəsində par-par parıldayan kürən-sarımtıl rəngli qövsi-müqəddəs var idi...

Tülkünü təqib edənlər də, içəridəkilər də – hamı bir-birinə qarışdı...

Hər tərəf qırmızı transparantlar idi, qırmızı çit üstündə; iri ağ hərflərlə yazılmış şüarlar idi: «On birinci beşilliyin planlarını rəşadətlə yerinə yetirək!» «Yaşasın sovet xalqlarının sarsılmaz dostluğu!» «Sov.IKP-nin XXV qurultayının tarixi qərarlarını həyata keçirək!» «Sovet Ittifaqı Kommunist Partiyasının leninçi Mərkəzi Komitəsinə eşq olsun!»...

və hər tərəf Leonid İliç Brejnevin şəkilləri ilə dolu idi və bu şəkillərin də hamısı kürən-sarımtıl rəngdə idi...

və Siyasi Büro üzvlərinin də şəkilləri bir-birindən seçilmirdi, hamısı kürən-sarımtıl rəngdə idi: Suslov... Tixonov... Qrişin... Kirilenko... Qromıko... Ustinov... Çernenko... Romanov... Andropov... Kunayev... Pelşe... Şerbitski...

rəhbərin maşının pəncərəsindən çıxan əli göründü...

sonra Leonid İliç Brejnev əlini kürən-sarımtıl rəngli saçlarına çəkdi, bədənini tarım tutdu və ağzını marçıldada-marçıldada Əbdül Qafarzadənin bayaqkı keşiş səsiylə «Beynəlmiləl» oxumağa başladı...

Əbdül Qafarzadə də indi «Beynəlmiləl» oxuyurdu...

sonra hamı bir yerdə – heç kimi sifətdən tanımaq mümkün olmayan bütün bu izdiham L. I. Brejnevlə birlikdə «Beynəlmiləl» oxudu...

...Səhər tələbə Murad İldırımlı Tülkü Gəldi Qəbiristanlığına gələndə və Qəbiristanlıq Idarəsinin darvazasından içəri keçəndə, əlbəttə, dünən milis mayorunun onu buradan itələyib qovmasını bütün təfərrüatı ilə yadına saldı, amma əvvəlkilər kimi, həyəcanlanmadı, özünü təhqir olunmuş, alçaldılmış hiss etmədi, çünki bu cavan və inadkar adamın içindəki o qətiyyət bütün bu uzun gecə ərzində zərrə də olsun azalmamışdı: Tülkü Gəldi Qəbiristanlığının müdirini öldürməli idi və bu gün öldürəcəkdi.

Tələbə müdirin gözləmə otağının qapısını açıb içəri girdi və dünən axşamdan bəri ilk dəfə ürəyi həyəcanla və bir az da nigarançılıqla döyündü: Xosrov müəllim plaş əynində, şlyapa başında, dünən oturduğu yerdə – gözləmə otağının küncündəki kürsüdə oturmuşdu və bu dəfə gözlərini müdirin içi pambıq dolu qəhvəyi meşin qapısına yox, gözləmə otağının həyət qapısına zilləmişdi, açıq-aşkar tələbəni gözləyirdi və tələbə içəri girən kimi, onların gözləri bir-birinin içinə baxdı və yalnız bu dəm tələbə fikirləşdi ki, tutalım müdiri öldürdü (və öldürəcəkdi!), bəs o yazıq Xədicə arvad üçün qəbir yerini kim alacaq və məhəllə camaatı o arvadı gətirib burada necə dəfn edəcək?

Xosrov müəllim tələbəyə baxa-baxa tez-tez udqunurdu və udqunduqca da nazik boğazının ucu – iti, uzun hülqumu qalxıb-enirdi.

Makinaçı qadın dünənki kimi, öz yerində oturub makinanın dillərini döyəcləyirdi; bu arvadın gözlərinin altı daha artıq torbalanmışdı, kipriklərinin dibi şişib qızarmış, elə bil ki, bütün gecəni yatmayıb ağlamışdı və indi başını bir an da olsun makinanın üstündən qaldırmırdı, nə cavan katibə qıza baxıb dünənki kimi güclə seziləcək bir təbəssümlə gülümsəyirdi, nə də Xosrov müəllimə və indicə içəri girən tələbəyə fikir verirdi.

O gözəl və cavan katibə qız isə yenə də tez-tez o qıpqırmızı telefonun dəstəyini qaldırıb:

– Yoldaş Qafarzadə yoxdur!.. Hələ gəlməyib!.. – deyirdi və telefon zəngi əvvəlki kimi astadan civildəsə də, daha qəbir daşlarından xəbər vermirdi, əksinə, tələbə indi bu balaca gözləmə otağında da birdən-birə bir işgüzarlıq hiss etdi,

Qəbiristanlıq Idarəsinin həyətindəki o qarışqa qaynaşmasının, o tələsik tapşırıqların, o tələsik itaətlərin həyəcanı, elə bil ki, gözəgörünməz dalğalar kimi, bu balaca gözləmə otağına dolmuşdu.

– Yoldaş Qafarzadə yoxdur!..

– Yoldaş Qafarzadə yoxdur!..

– Yoldaş Qafarzadə yoxdur!..

Tələbəyə elə gəldi ki, bir az da beləcə qapı ağzında dayansa, bu balaca gözləmə otağının havası ilə bir az da nəfəs alsa, ürəyi partlayacaq... Nə üçün? Qorxurdu? Bu qorxu haradan gəlmişdi birdən-birə? Bəs, Xosrov müəllim gözləri ilə nə deyirdi elə? Elə bil ki, bu cavan adamın içində birdən-birə dözülməz istisi adamın nəfəsini kəsən buxar qaynadı və o buxar indicə sinəsini dağıdıb dişara çıxacaq. Tələbə içəri girdiyi kimi, səssiz-səmirsiz də içəridən çıxdı. Xosrov müəllim də yerindən qalxıb tələbənin ardınca Qəbiristanlıq Idarəsinin həyətinə çıxdı.

Həmin aprel səhəri göyün üzündə kiçicik bir bulud da yox idi və günəşin Qəbiristanlıq Idarəsinin üstünə düşmüş şüalarında elə bir təmizlik var idi ki, o təmizlik dünən tələbə üçün bütün bu ətrafda hökm sürən meyit ab-havasını tamam yuyub, əridib yox eləmişdi və bu açıq havada o gün şüalarının təmizliyi, elə bil ki, tələbə Murad İldırımlının içinə də sirayət etdi, içindəki o ağırlığı da əritdi, bir yüngüllük gətirdi və dünən axşamdan bu tərəfə ilk dəfə tələbədə bir şübhə oyandı: Qəbiristanlıq Idarəsinin müdirini, həqiqətən, öldürə biləcəkdimi? Daha doğrusu, bir insan – tələbə Murad İldırımlı başqa bir insanı – müdiri öldürə bilərmi? öldürməlidirmi? buna haqqı varmı?

Qəribə idi, birdən-birə oyanmış bu şübhələr, bu tərəddüdlər içində tələbə, həyatında birinci dəfə idi ki, özünü tənə etmirdi, öz qorxaqlığının, qətiyyətsizliyinin pərtliyini çəkmirdi, özü özünə nifrət etmirdi ki, qərara aldın! Bıçağı cibinə qoydun! Indi isə qorxursan! Çünki qorxaqsan! Çünki miskin və mənasız bir məxluqsan! Yox, tələbə hiss edirdi ki, öldürə bilər (və bəlkə də öldürəcək!), qorxmur, bu, qorxaqlıq deyil, amma bir insanın, bıçağı o biri insanın ürəyinin başına sancmağa haqqı varmı? Insan bu sualı minilliklər boyu verirdi və minilliklər boyu da öldürürdü; suala cavab vermək əvəzinə öldürürdü... Axı, tələbə kim idi ki, öz daxili məhkəməsi ona haqq versin ki, insan öldürsün? Tələbə Allah deyildi! Insanın ölüm hökmünü yalnız Allah verə bilərdi! Allahın səlahiyyətinə şərik çıxmaq olardımı? Quran yazırdı: «Allah ona şərik qoşmağı əsla bağışlamaz. Bundan başqalarını isə istədiyi şəxsə bağışlar. Allaha şərik qoşan (şərik çıxan) şəxs, şübhəsiz ki, haqq yolundan çox uzaq olan bir azğınlığa düşmüşdür».

Onsuz da, yer üzündəki bütün insanlar, bütün canlılar ölümə məhkum idi və «yaxşı insan», «pis insan» əslində nisbi məfhumlar idi, «yaxşı quruluş» və «pis quruluş» da nisbi idi və ümumiyyətlə, Xeyirlə Şər də nisbi məfhumlar, nisbi qüvvələr idi... Bu nə idi? Tələbə öz miskinliyinə, öz qorxaqlığına bəraət qazandırmaq istəyirdi? Yalançı fəlsəfəyə qapılırdı?

Yox, hər halda, tələbə Murad İldırımlı Allah deyildi! Amma... amma axı... Əbdül Qafarzadə də insan deyildi... Nə üçün? O da anasının qarnından çıxmamışdı? O da bu hava ilə nəfəs almırdı? Onun uşaqları yox idi? O da ağrı-acı hiss etmirdi, sevinmirdi? O, insan idi, əlbəttə, insan idi!.. Tələbə Murad İldırımlı isə Allah deyildi!

Tələbə Murad İldırımlı özü də hiss etmədən Qəbiristanlıq Idarəsinin həyətindən çıxmışdı, Tülkü Gəldi Qəbiristanlığının içinə girmişdi və dünənki kimi, qəbir daşlarının arası ilə dolaşırdı, amma bu qəbir daşları dünənki kimi soyuq deyildi və bütün buralara hakim kəsilmiş o lal sükut da dünənki kimi müdhiş deyildi, əksinə, bu gün o saysız-hesabsız qəbir daşlarının lal sükutunda tələbənin heç vaxt heç harada – o uzaq dağların, o sıx meşələrin, o geniş düzlərin sakitliyində və yalqızlığında da, Nurlu bulağın yüngül şırıltısında da hiss etmədiyi bir müdriklik, bir məna hiss edirdi və elə bil ki, haçansa bu qəbiristanlıqdakı məna açılsaydı, o zaman yaşayışın da sirri açılardı, insanın nə üçün dünyaya gəlməsinin, çiçəyin nə üçün açmasının, yerin, göyün, bütün kainatın sirri açılardı...

Xosrov müəllim tələbədən bir addım arxada gedirdi və elə cidd-cəhdlə addımlayırdı ki, elə bil, tələbəni hansı bir qəfil həmlədənsə qorumaq istəyirdi, o həmlədən ki, indi tələbənin o pusqudan, o təhlükədən xəbəri yox idi...

...o gecəyarısı o tonqal isə eləcə yanırdı...

...o qurbağalar da eləcə quruldayırdı...

Tələbə Murad İldırımlı isə o dəm o saysız-hesabsız qəbir daşları arasında özünü Bakıya gəldiyi bu dörd ildə heç zaman duymadığı narahat bir sərbəstlik, narahat bir azadlıq içində hiss edirdi və indi daxilində bir istək var idi: cibindəki o soyuq bıçağı elə bir yerə atsın, elə bir yerdə gizlətsin ki, heç kim onu görməsin və heç vaxt onu tapmasın...

...Onlar Qəbiristanlıq Idarəsinin həyətinə qayıdanda, qəribə idi, tələbə Murad İldırımlı nəyə görəsə inanırdı ki, o yazıq Xədicə arvadın qəbir yeri məsələsi düzələcək, hansı bir möcüzəsə baş verəcək və Tülkü Gəldi Qəbiristanlığında yer alıb məhəlləyə qayıdacaqlar və doğrudan da, tələbə ilə Xosrov müəllim yaxınlaşanda gözləmə otağının qapısı açıldı, Muxtar Xudavəndə həyətə çıxdı, tələbə Murad İldırımlını da görən kimi tanıdı:

– Sən buralarda nə gəzirsən? – Sonra nəsə yadına düşdü. – Hekayən yaxşı hekayədi!.. Vaxt tapdım, oxudum! Heç kim mənnən xahiş eləməmişdi, deyim sənə, özüm oxudum! Sənnən bir şey çıxacaq! Özün qaraqabaqsan, suyun lal axanı, adamın yerə baxanı, hə?! Nə isə, amma hekayən işıqlıdı... Qırmızı balıqlar saxlayır, hə? Balıqlarla məşğuldu, ay səni!..

– Yox, kəpənək saxlayır...

– Hə, hə!.. Kəpənək saxlayır, düzdü!.. Sənnən xoşum gəlir. Dəqiqədə-bir, deyim sənə, özünü redaksiyaya dürtmürsən ki, yazımı çap eləyin! Afərin!.. Anektodu bir az tanışdı, deyim sənə, işlənmiş mövzudu, amma özü yaxşı hekayədi! Kəpənəklərlə oturub-durur!.. Adı nədi?

– «Hər şey keçib gedir...»

– Hə, hə!..

Xosrov müəllim dinməzcə dayanıb gah tələbəyə baxırdı, gah Muxtar Xudavəndəyə baxırdı, diqqətlə qulaq asırdı və tez-tez udqunurdu, udqunduqca da uzun hulqumu eləcə qalxıb-enirdi...

– Hə, hə!.. Amma mən sənin yerində olsaydım, deyim sənə, adını qoyardım «Kəpənəklərə həsr edilmiş ömür...» Necədi, xoşuna gəlir? Addan çox şey asılıdı! Mən, bax, deyim sənə, – Muxtar Xudavəndə sağ əlinin baş barmağı ilə çiyninin üstündən arxanı – gözləmə otağını göstərdi, – kişinin haqqında, Əbdül Qafarzadəni deyirəm, onun haqqında «Kommunist» qəzeti üçün oçerk yazıram. Dağ boyda

kişidi! Əmək veteranıdı! Dörd ordeni var, medalları var! Özü də, deyim sənə, kolxozda işləmir e, qəbiristanlıqda işləyir! Burada əmək veteranı olmaq bilirsən nə deməkdi?! Altı dəfə Azərbaycan SSR Ali Soveti Rəyasət heyətinin Fəxri Fərmanını alıb! Altı dəfə e, rekorddu! Indi, deyim sənə, oçerkə gərək elə bir ad qoyasan ki, mövzusuna layiq olsun, oxucunu çağırsın, gəl məni oxu desin!

Muxtar Xudavəndənin kefi açıq-aşkar yuxarı idi və tələbə «bu adamı heç vaxt bu cür həvəsli, bu cür çox danışan görməmişdi; görünür, Muxtar Xudavəndə mudirin – oçerkinin gələcək qəhrəmanının otağından cibiboş çıxmamışdı.

– Bilirsiz... Mən... Biz...

Muxtar Xudavəndə daha ayrılmaq istəyirdi:

– Nə «mən», «biz» salmısan? Imkan tapan kimi çap eləyəcəyəm hekayəni! Imkan tapanda...

– Yox... Onu demirəm... Bizim sizdən xahişimiz var...

Və tələbə heç özü də gözləmədiyi bir tələsikliklə xahiş etməyə başladı ki, Muxtar müəllim kömək əlini uzatsın, müdirlə danışsın, o yazıq Xədicə arvad üçün burada qəbir yeri götürə bilsinlər, tələbə bir də heç vaxt heç nə barədə Muxtar müəllimdən bir xahiş etməyəcək, hamı Muxtar müəllimi tərifləyir, hamı deyir ki, Muxtar müəllim fağır-füqəraya əl tutan adamdı, təmənnasız kömək eləyəndi, xeyirxahdı, məhəllə camaatının pulu yoxdu, kasıbdılar, Muxtar müəllim kömək eləsin, o yazıq arvadın bu dünyada heç kimi yoxdu, Muxtar müəllim kömək eləməsə, o arvada heç kim kömək eləməyəcək...

Tələbə bu sözləri deyirdi və özü də başa düşürdü ki, əslində Təzə Pirin ətrafında oturan o dilənçilər kimi yalvarır və tələbə özü öz sözlərinə mat qalırdı, o sözləri deyə-deyə öz yazıqlığına, öz miskinliyinə nifrət edirdi və beləcə köməksizliyi, bu böyük dünyada beləcə kiçikliyi tələbənin gözlərini doldururdu və dolmuş gözləriylə də yalvarmağını davam edirdi. Tələbə heç vaxt bu cür alçalmamışdı, ilk dəfə idi ki, bir başqası yox, özü özünü bu cür alçaldırdı və yalvardıqca da ikinci bir duyğuyla fikirləşirdi ki, dünən milis mayoru Məmmədov, əlbəttə, əlbəttə, düz etmişdi, onu buradan iti qovan kimi qovmuşdu, tələbə kimi adamlar təkcə buradan yox, hər yerdən qovulmalıydı, dünyadan qovulmalıydı, bir halda ki, birdən-birə (ən başlıcası isə özü üçün gözlənilmədən) belə bir miskinliyi üzə çıxmışdı, deməli, həqiqətən, dünyanın ən lazımsız bir varlığı idi; bayaq qəbiristanlıqda hiss etdiyi o müdriklik, oradakı o sərbəstliyi, azadlığı – hər şey, bütün ləyaqət hissi yox olub getmişdi.

Məhəllədə hamı oturub tələbəni gözləyirdi və hamı tələbənin üzünə tüpürəcəkdi və o tüpürcəkləri üzündən silmək üçün, tələbə indi özü öz üzünə tüpürürdü. Muxtar Xudavəndiyə yalvarırdı, yaltaqlanırdı, ağ yalan deyirdi, bütün cavanlar Muxtar müəllimin təmizliyindən danışır. Muxtar müəllim hamıya kömək eləmişdi, indi də o yazıq arvadın ölüsünə kömək eləməliydi, o arvadı basdıra bilmirdilər, qalmışdı öz daxmasında, Muxtar müəllim kömək eləməsəydi, ona heç kim kömək eləməyəcəkdi, bu yaxşılıq yerdə qalmazdı, tələbə ömrü boyu Muxtar müəllimə dua eləyəcəkdi, Muxtar müəllim savab qazanacaqdı, uşaqları xoşbəxt olacaqdı.

Eynilə dilənçi kimi yalvarırdı...

Xosrov müəllim əllərini qara plaşının ciblərinə soxub və bü cür mülayim havada elə bil ki, üşüyərək belini qısmışdı, cınqırığını da çıxarmadan tələbənin yalvarışlarına qulaq asırdı və diqqətlə tələbənin üzünə baxırdı...

...o gecə yarısı o tonqal isə eləcə yanırdı...

... və o qurbağalar da eləcə quruldayırdı...

Muxtar Xudavəndə bərəlmiş gözləriylə, hətta özünü bir az itirmiş halda gah tələbəyə, gah da bu uzun, arıq, ağzını açıb bir kəlmə deməyən adama baxırdı, düz iyirmi altı il ədəbiyyat şöbəsinin müdiri işlədiyi müddətdə heç bir gənc yazıçı ona bu cür sözlər deməmişdi, heç vaxt Muxtar Xudavəndənin mənəvi təmizliyindən danışmamışdı, xeyirxahlığının qədrini bilməmişdi, əksinə, daldada onun haqqında ağızlarına gələni demişdilər, bir şaqqa ət pay gətirəndə, yaramazlar, üç qoyunun hörmətini tələb eləmişdilər, onu o sırtıq Ərəstun Bozdağlıdan da artıq müftəxor bilmişdilər...

Həmişə sir-sifətindən zəhrimar yağan (elə bil ki, öd kisəsiydi!) bu cavan adam – tələbə Murad İldırımlı indi arvad kimi yalvarışlarıyla elə bir həmləyə keçmişdi ki, Muxtar Xudavəndə o həmlənin qabağında dayana bilmədi.

– Yaxşı da... Qoy gedim kişiylə danışım... Indi gəlib kabinetinə... Bir yerdə gəldik... Kefi kökdü... Yaxşı... Siz burda durun, deyim sizə, gedim görüm neynirəm... – Muxtar Xudavəndə bu sözləri dedi və gözləmə otağının qapısını açıb yenidən geri qayıtdı.

Yüngül bir meh əsdi və tələbə o yüngül mehi, elə bil, yalnız sifəti ilə, əlləri ilə yox, paltarının altından bütün bədəni ilə hiss etdi, ürəyi o qədər həyəcanla döyünürdü ki, elə bil, Xosrov müəllim də döyüntünün səsini eşidirdi.

Eybi yox...

Eybi yox... hər şey keçib gedir... Bu da keçib gedəcək... Bu günlər də keçib gedəcək, əbədi bir uzaqlıqda qalacaq və indiki kimi tələbəyə əzab verməyəcək...

Bu həyat necə şeydi?.. Nə üçün insan bu cür bir həyatdan əl çəkə bilmirdi. Bu həyat nə olan şeydi ki, dünyaya ardı-arası kəsilməyən adamlar gəlir və bütün ömürləri boyu da, əslində, həyatdan getmək qorxusu ilə yaşayır? Hər şey keçib gedir...

Həmin hekayəni keçən ilin payızında yazmışdı və qəribə idi, heç bir dəxli olmadan nənəsinin qardaşının xatirəsinə həsr etmişdi: «INQILAB YOLUNDA CANINDAN KEÇMIŞ MURAD ILDIRIMLININ XATIRƏSINƏ» – hekayənin yuxarısına belə bir ithaf yazmışdı, sonra dəxli olmadığı üçün pozmuşdu, sonra təzədən yazmışdı, sonra yenə də pozmuşdu...

Tələbənin Züleyxa nənəsinin Murad İldırımlı adında bir böyük qardaşı olmuşdu, inqilabçı idi, çekist idi, iyirminci illərdə Hadrutda həlak olmuşdu (necə həlak olmuşdu? – tələbə bunu bilmirdi, yəqin banditlərlə mübarizədə vuruşmuşdu...) və indi heç bir yerdə onun adını çəkmirdilər (o qədər eləcə qurban gedənlər olmuşdu ki, onların hamısı haqqında kitab yazmaq, hamısının təntənəli yubileyini keçirmək mümkün deyildi...); təkcə nənəsi uzun qış gecələri odunsuzluqdan sönən ocağın soyuğunda həmişə ürək dolusu qardaşından danışardı, qardaşının igidliyindən, canavar vurmağından, sübh tezdən çılpaq atın belinə sıçrayıb kəndin aşağı başındakı Nurlu bulağa suvarmağa aparmasından və bu zaman kənd qızlarının nəvəsinə də nakam getmiş, dünyada özündən sonra heç bir yadigarı qalmamış qardaşının adını qoymuşdu: Murad.

...Hər şey keçib gedir....

Həmin sakit, yuxulu payız gecəsi üstünə saldığı yun adyalın yumşaqlığından və istisindən ləzzət ala-ala və elə hey dünyanın qəribə, ağlasığmaz işləri barədə fikirləşə-fikirləşə hiss etdi ki, yağış yağır.

Maşınların, avtobusların, sübh tezdən işə başlayan trolleybusların səsini azaltmaq üçün ikiqat küçə pəncərələrini kip örtmüşdülər və buna görə də yağışın səsini eşitmədi, amma o kip örtülmüş pəncərələrdən belə o payız yağışının qoxusu birdən-birə yataq otağına doldu və həmin yağış qoxusunu həmin dəqiqə də duydu, nəfəsi ilə ciyərinə çəkdi və Tahirə oyanmasın deyə, astaca yerindən qalxıb küçəyə baxmaq, yağışa tamaşa eləmək istədi, amma birdən-birə haçansa gördüyü o iri narların, o xəzan yarpaqlarının qırmızısı, sarısı gözlərinin qabağına gəldi; o qırmızı da, o sarı da həmin dəm elə bil, canlı idi, qaranlıq içində işıldaya-işıldaya gülürdü və adamın içinə bir hərarət, bir sevinc gətirirdi, dünyanın gözəl işlərindən xəbər verirdi və dünyanın gözəl kəpənəklərinin rəngini xatırladırdı.

Haçansa gördüyü həmin nar ağacı indiki kimi gözlərinin qarşısında idi: çiskinli bir payız günü idi (payızın sonları idi), yağış o nar ağacının sapsarı yarpaqlarını tərtəmiz yumuşdu, yumşaltmışdı və o sarı yarpaqlar çiskin içində, elə bil ki, yaz günəşinin altındaydı, işım-işım işıldayırdı və o xəzan yarpaqlarının arasındakı iri narları da yağış tərtəmiz yumuşdu, o qıpqırmızı narlar da işım-işım işıldayırdı.

Bunu nə vaxt görmüşdü, harda görmüşdü? – bilmirdi, yadına gəlmirdi və əslində, heç bu barədə fikirləşmirdi də, üstündəki yun adyalın yumşaqlığı və istisi içində gözlərini yumub həmin sayrışan nar qırmızısına, xəzan sarısına baxa-baxa, eşikdə yağan yağışın şövqünü duya-duya öz-özünə gülümsəyirdi.

Tahirə qəflətən işığı yandırıb ərinin gecənin yarısı yerində uzanıb beləcə öz-özünə gülümsəməyini görsəydi, yəqin məəttəl qalardı və fikirləşərdi ki, görəsən, bu nə işdi belə və yəqin ki, bayaqkı sualını bir də təkrar edərdi: « – Sənə nə olub?»

O yenə də gülümsədi; ömründə duymadığı bir rahatlıq içində idi və bu dəm hər şey ona ləzzət verirdi: həmişəki çarpayısının indiyəcən fikir vermədiyi gen-bolluğu da, həmişə üstünə saldığı yun adyalın bugecəki yumşaqlığı və istisi də, o gecə sakitliyi içində Tahirənin hərdən dərindən nəfəs alması da, hətta gecənin yarısı hərdənbir küçədən keçən maşınların kip örtülmüş ikiqat pəncərənin arxasından nisbətən zəif eşidilən səsi də ləzzət verirdi; ən başlıcası isə, həmin sakit, yuxulu payız gecəsi heç vaxt fərqinə varmadığı, varanda da onu qıcıqlandıran, hətta əsəbiləşdirən hər şey indi gözəl və əvəzedilməz idi.

Onun adı Məlik, atasının adı Yusif, familі isə Əhmədli idi və Məlik Yusif oğlu Əhmədlinin qırx yaşı var idi, elmlər namizədi idi, Zoologiya Institutunda baş elmi işçi işləyirdi, evli idi, dörd uşağı – iki oğlan (Adil və Kamil), ikisi qız (Aytən və Zəhra – lap kiçik qızına anasının adını qoymuşdu), beşinci mikrorayonda üçotaqlı mənzili, «Jiquli» maşını və evinin cəmi üç kilometrliyində qarajı var idi.

Həmin ağlasığmaz, heç kimin heç vaxt inanmayacağı hadisə isə srağagündən dünənə keçən gecə başladı.

Bu hadisəni kimə danışmaq olar? Buna kim inanar?

Srağagün adi günlərdən (kimin ağlına nə gələrdi!) biri idi: səhər tezdən yerindən qalxıb mətbəxdəki qaz plitəsini yandırdı, çaydanı su ilə doldurub plitənin

üstünə qoydu, yuyundu, üzünü qırxdı, geyinib evdən çıxdı, üç kilometri tez-tez addımlaya-addımlaya qaraja getdi.

Bərk külək əsirdi, amma Məlik Əhmədli avtobusa minmədi (evlərindən qaraja avtobusla cəmi bir dayanacaq yol idi), çünki başı kəpənəklərə o qədər qarışmışdı ki, özü yadından çıxmışdı, nə idman edirdi, nə piyada gəzirdi, nə də yeməyinə-içməyinə fikir verirdi və günlərin bir qəmgin günündə - ötən yazın son günləri idi – az qaldı infarkt olsun, təzyiqi qalxdı, ömründə ilk dəfə xəstəxanaya düşdü və iyirmi gün xəstəxanada yatdı. Bundan sonra Tahirə də qorxdu, özü də qorxdu və sağlamlığına fikir verməyə başladı; indi səhər tezdən bu üç kilometr yolu tez-tez piyada getmək, əslində, onun üçün səhər idmanı idi.

Son zamanlar özünü nisbətən yaxşı hiss edirdi, amma qollarının, qılçalarının oynaqları ağrıyırdı, hərdən ürəyi döyünürdü, nəfəsi çatmırdı, gah böyründə, gah ürəyində sancılar olurdu, bir sözlə, kəpənəklərə həsr edilmiş oturaq həyat Məlik Əhmədlini vaxtsız qocaltmağa başlamışdı.

Nə isə, «Jiquli»ni qarajdan çıxarıb əvvəlcə həmişəki kimi, çörək dükanına sürdü, təzə çörək alıb evə qayıtdı. Tahirə də, uşaqlar da durmuşdu. Tahirə çayı dəmləmişdi, ərinin buterbrodunu da yaddan çıxmasın deyə, əvvəlcədən hazırlayıb yazı mizinin üstünə qoymuşdu. Məlik Əhmədli buterbrodu (pendir-çörək idi) portfelinə qoydu, kağız-kuğuzlarına da baxdı ki, yaddan çıxan bir şey olmasın, sonra mətbəxdə divardan asılmış radionu yandırıb son xəbərlərə qulaq asa-asa uşaqlarla birlikdə səhər naharı elədi.

Son xəbərlərin axırında diktor maraqlı bir məlumat verdi:

– Bütün dünyada ən tənha ağac Böyük Səhranın Terer vahəsində bitən palmadır, həmin palmaya ən yaxın ağac onun 1000 kilometrliyindədir.

Tahirə çayın axırıncı qurtumunu içə-içə:

– Yazıq palma... – dedi.

Adil və Aytən Tahirənin dərs dediyi məktəbdə oxuyurdular və Tahirə onlarla avtobusa minib məktəbə getdi, Məlik Əhmədli də həmişəki kimi, Zəhranı maşına mindirib bağçaya apardı (Kamil ikinci növbədə oxuyurdu və məktəbə özü gedəcəkdi), sonra işə sürdü.

Işdə məlum oldu ki, Ibrahimin arvadı yazıq Əminə axırı ki, əzab-əziyyətdən qurtarıb, gecə vəfat edib və bu gün onu dəfn edəcəklər. Əlbəttə, bu xəbər hamının qanını qaraltdı, çünki Ibrahim (o da baş elmi işçi idi) institutda işləyən yeganə adam idi ki, həmişə hər yerə arvadı ilə birlikdə gələrdi (təntənəli iclaslara, müdafiə banketlərinə, bayram nümayişlərinə, yas yerlərinə) və buna görə də institutda işləyənlərin çoxu Əminəni tanıyırdı. Həmin yazıq Əminənin, bu yaraşıqlı, mehriban adamın heç qırx yaşı tamam olmamışdı, yazıq beş-altı ay idi ki, xərçəng xəstəliyinə tutulmuşdu.

Nə isə, Əminənin ölümü hamıya ağır təsir etdi, amma institutun işi də həmişəki qayda ilə davam etdi və Məlik Əhmədli Əminənin dəfninə çatmaq üçün günün ikinci yarısı işdən tez çıxdı, Zəhranı da vaxtından əvvəl bağçadan götürüb evə apardı, sonra maşını qaraja sürdü; yas yerlərinə (eləcə də müdafiə banketlərinə, institut işçilərinin uşaqlarının toy məclisinə və s.) maşınla getmirdi, çünki tanış-biliş minirdi maşına, mərasim (məclis, iclas, nümayiş...) qurtarandan sonra bu adamları gərək bir-bir aparıb evlərinə qoyaydın – birinin evi şəhərin o başında, o birinin evi bu başında; maşını qaraja salıb bağladı və avtobusa minib Ibrahimgilə getdi.

Külək lap bərkimiş, hava da xeyli soyumuşdu və Məlik Əhmədli haçansa bir dəfə – deyəsən, Ibrahimlə yazıq Əminənin toylarının 10 illik yubileyi idi – gəldiyi evi axtarıb tapanacan əməlli-başlı üşüdü.

Ibrahimgilin evi Bakının kənarlarındakı köhnə məhəllələrdən birində, ikimərtəbəli bir binada idi, həyətdə çadır qurmuşdular və Məlik Əhmədli çadıra girib tanımadığı adamların arasında oturdu. Külək az qalırdı nəhəng brezent çadırı qoparıb aparsın və dörd-beş oğlan brezenti məftil ilə dəmir dayaqlara bərkidirdi və Məlik Əhmədli də qabağına gətirib qoyduqları isti çaya limon salıb içə-içə həmin oğlanlara baxırdı. Məlik Əhmədliyə elə gəldi ki, bu oğlanlar, əslində, brezenti bərkitmirlər, məftillə Əminə adında cavan bir qadının ömrünün sonunu düyünləyirlər.

O yazıq Əminə dünyada nə gördü? Kim bilir, bəlkə nəsə də görüb, Məlik Əhmədli o yazığı yaxından tanımırdı, yəqin ki, sevinci də olub, yaxşı günü də olub, bəlkə məhəbbəti də olub, bəlkə elə öz ərini sevirmiş, amma hər halda, bunlar hamısı artıq sona yetdi və Məlik Əhmədli fikirləşdi ki, əslində, insan ömrü ilə iki günlük kəpənək ömrü arasında heç bir fərq yoxdur; Əminəni, o ətli-qanlı, gülərüz cavan qadını gözlərinin qabağına gətirdi və doğrusu, çox dərindən həyəcanlandı, ürəyi bərkdən döyünməyə başladı, o cavan, o gözəl qadının birdən-birə beləcə yox olmağı, heçə dönməyi Məlik Əhmədlini sarsıtdı.

Külək get-gedə daha da bərkiyirdi və Abşeronda bu cür küləklər şiddətlənəndə bəzən taxtapuşları götürüb aparırdı, yekə-yekə ağacları gövdəsindən sındırırdı, kökündən dartıb çıxarırdı, amma o yüngül kəpənəklərə, o zərif, o kövrək kəpənəklərə heç nə edə bilmirdi; kəpənəklər özlərinə elə yer seçirdi, elə gizlənirdi ki, salamat qalırdı və Məlik Əhmədli bunu fikirləşib gülümsədi; qəribə idi, həmişə çətinə düşəndə, qanı qaralanda, işi düz gətirməyəndə kəpənəklər, elə bil, bundan xəbər tuturdu, köməyə gəlirdi.

Məlik Əhmədli universiteti bitirdikdən sonra, düz on səkkiz il idi ki, ömrünü lepidopteroqluğa həsr etmişdi, yəni bu o deyən söz idi ki, Məlik Əhmədli düz on səkkiz il idi kəpənəkləri öyrənməklə məşğul idi və bu müddət ərzində Zəhra kimi bir kəpənəyi dünya entomologiya elminə bəxş etmişdi. Məsələ burasında idi ki, Məlik Əhmədli Yer kürəsində indiyədək məlum olmayan bir kəpənək növü kəşf etmişdi və həmin gözəl kəpənəyə rəhmətlik anasının və kiçik qızının adını qoymuşdu; Zəhra.

Zəhra kəpənək bu boyda yer üzündə təkcə Ismayıllı dağlarında yaşayırdı, çünki Zəhra kəpənəyin qurdunun yediyi Məxməri çiçəklər təkcə o dağlarda bitirdi.

Ibrahimgilin evinin arxa tərəfindən elektrik qatarları keçirdi və indi də arabir o qatarların səsi gəlirdi; o dəm o keçib gedən qatarların səsi, elə bil ki, bir uzaqlıqdan, ünyetməzlikdən xəbər verirdi və həmin uzaqlığın, ünyetməzliyin müqabilində insan ömrü, əlbəttə, kəpənək ömrü kimi bir şey idi.

Səhər radiodan eşitdiyi o tənha palma birdən-birə Məlik Əhmədlinin yadına düşdü və həmin palma tənhalığının miqyası ilə, elə bil ki, Ibrahimgilin evinin arxa tərəfindən keçən elektrik qatarlarının səsi arasında nəsə bir yaxınlıq, bir münasibət var idi.

Yazıq Əminənin cənazəsini həyətə çıxardılar və Ibrahimin qapıbir qonşusu tarzən Abdulla tarı sinəsinə sıxıb gözlərini yumdu və yanıqlı bir «Segah» çalmağa başladı, arvadların hönkürtüsü, qohumların, yaxınların vay-şivəni bir-birinə qarışdı, yazıq Ibrahim də arvadının cənazəsindən bir az kənarda dayanıb qıpqırmızı qızarmış

gözlərini yerə dikmişdi və titrəyən barmaqları arasındakı siqareti sumürə-sümürə tüstünü ciyərinə çəkirdi.

Cənazənin üstünə yaşıl ipək örtük salmışdılar və külək götürüb aparmasın deyə, paltar sərilən iri taxta sancaqlarla o örtüyü dörd tərəfdən də tabutun qıraqlarına bərkitmişdilər və Məlik Əhmədli də tabutun kənarlarındakı o iri taxta sancaqlara baxa-baxa həyətin bir kənarında dayanmışdı.

Bir azdan Əminənin cənazəsi torpağa tapşırılacaqdı və bir müddətdən sonra o cavan, o yaraşıqlı, o gülərüz qadın tamam torpağa qarışacaqdı. Yerin üz qatındakı torpağın tək elə bircə kvadratmetrində mindən artıq həşərat, cücü yaşayır və bu həşəratın, cücülərin bir qismi bitkini yeyir, bir qismi bitkilərin kökünü yeyir, bir qismi çürüntüləri yeyir, bir qismi də bir-birini yeyir və Əminə də həmin torpağa qarışacaqdı, yer üzündəki bütün insanlar həmin torpağa qarışacaqdı. Məlik Əhmədli küləkdən üşüyə-üşüyə bütün bunları fikirləşib bir siqaret yandırmaq istədi, amma xəstəxanadan sonra siqareti tərgitmişdi və cibində siqaret yox idi.

Yer üzündəki həşəratların isə ən gözəli, əlbəttə, kəpənəklər idi və kəpənəklərin də içərisindəki ən gözəl kəpənək Zəhra kəpənək idi; elə bil ki, o gözəl Zəhra kəpənəyin yüngüllüyü, Məlik Əhmədlinin də ürəyinə nəsə kiçik bir yüngüllük gətirdi.

Yenə də arxa tərəfdən keçib gedən elektrik qatarının səsi gəldi və o səs qısa bir müddət Abdullanın çaldığı tarın səsini üstələdi, həyətə toplaşan camaat başını qaldırıb evin arxa tərəfinə baxdı, elektrik qatarından narazı halda başını buladı, sonra səs ötüb getdi və camaat yenə də cənazəyə baxdı.

O vaxt ki, Məlik Əhmədligil Ibrahimlə yazıq Əminənin toyunun 10 illik yubileyinə gəlmişdilər, onda da həmin məclisdə tarzən Abdulla tar çalırdı, deyib-gülürdülər, yeyib-içirdilər və deyib-gülən, yeyib-içən adamlardan biri də o yazıq Əminənin özü idi.

Abdulla o yanıqlı «Segah»ı çalıb qurtardı, arvadların, qohum-əqrəbanın hönkürtusü, vay-şivəni daha da artdı, Ibrahim də siqareti tullayıb əlləri ilə üzünü qapadı, çiyinləri titrəyə-titrəyə ağladı, sonra yaxın adamlar Əminənin cənazəsini çiyinlərinə qaldırıb irəli düşdü, həyətə toplaşmış camaat da cənazənin ardınca getdi.

Izdiham küçəyə çıxdı və üç-dörd yüz metr irəlidə dayanmış maşınlara tərəf getdi. Burada tabutu – o yazıq Əminənin cənazəsini maşına qoyacaqdılar, dost-tanış da maşınlara minəcəkdi, qəbiristanlığa gedib Əminəni torpağa təhvil verəcəkdi.

Institutda təsərrüfat işlərinə baxan Uzun Cəfərqulu adamları aralaya-aralaya Məlik Əhmədliyə yaxınlaşdı və heç vaxt açılmayan boğuq səsi ilə:

– Maşınlasan? – soruşdu.

Məlik Əhmədli «yox» mənasında başını buladı və Uzun Cəfərqulu da bir söz deməyib açıq-aşkar narazılıqla ora-bura baxa-baxa, adamları aralaya-aralaya başqa maşınlı bir kəs axtarmağa başladı.

Küçədə elektrik qatarlarının səsi nəinki eşidilirdi, ötüb keçəndə hətta yeri bir az titrədirdi də və Məlik Əhmədli ötüb keçən o elektrik qatarının hərəkətini bu dəfə, necə deyərlər, bütün sinirləri ilə hiss etdi.

– Gördün də yazıq Ibrahimin başına nə iş gəldi? – Beləcə, təəssüflə Məlik Əhmədliyə müraciət edən, institutun şöbə müdiri, professor Fazilzadə idi. – Maşını gətirmisən?

– Yox...

Professor Fazilzadə də qalın şüşəli çeşməyinin arxasından izdihama baxa-baxa uzaqlaşdı.

Kəpənəklər qatardan qorxmurdu; relsin üstünə qonurdu, qatar lap bir metrliyə gəlib çatanda yüngülcə yerindən qalxıb relslərin arasındakı taxtaya qonurdu, vaqonlar sürətlə kəpənəyin başının üstündən keçib gedirdi, kəpənək yenə də yüngülcə qalxıb bayaqkı yerinə qonurdu və Məlik Əhmədli cənazənin ardınca gedə-gedə bir anlıq təsəvvüründə göz işlədikcə uzanıb gedən dəmir yolu relsinin üstünə qonmuş o ağappaq kəpənəyi gördü.

Altı-yeddi il bundan əvvəl, günlərin bir günündə laboratoriyada oturub yenicə izinə düşdüyü kəpənəyi (gələcəyin gözəl Zəhra kəpənəyini!) öyrəndiyi vaxt birdən-birə bütün ömrü özünə boş və mənasız göründü, ona elə gəldi ki, dünyada kəpənəklə məşğul olmaqdan əbləh bir iş yoxdur. Iri kağızlara tikilib laboratoriyanın divarlarından asılmış quru kəpənəklərə, ayrı-ayrı şəkillərdə, sxemlərdə yüz dəfə, min dəfə böyüdülmüş kəpənək gözlərinə, qanadlarının, ayaqlarının, boynunun, başının hissəciklərinə baxdı və o zaman Məlik Əhmədli özü özünə dünyanın ən miskin, ən bədbəxt bir adamı kimi göründü, amma bir neçə gündən sonra həmin hisslər tamam keçib getdi, sonra gözəl Zəhra kəpənəyi kəşf etdi.

– Maşının var, ə? – Bunu da baş elmi işçi Musa Bağırlı soruşdu. Musanın özünün də maşını var idi, amma hər dəfə belə yerlərə gəlmək lazım olanda maşını xarab olurdu. – Ə, mənimkinin karbüratoru buraxdı...

Məlik Əhmədli başını buladı və Musa Bağırlı da tələsik uzaqlaşdı.

Camaat maşınların yanında dayandı. Cənazəni içinə xalça-gəbə döşənmiş açıq yük maşınına qoydular, molla da, yaxın kişi qohumlar, o cümlədən, Ibrahim də həmin üstü açıq yük maşınına qalxıb cənazənin ətrafında ayaq üstə dayandılar. Adamların bir qismi yüngül maşınlara mindi, yüngül maşın tapmayanlar xüsusi sifarişlə gəlmiş avtobusa mindi və bu dəfə də cənazə aparan maşın irəli düşdü, qalan maşınlar da onun ardınca qəbirirstanlığa tərəf tərpəndi.

Məlik Əhmədli avtobus pəncərəsindən küçənin aşağı başında Ibrahimgilin evinə sarı baxdı, o evin arxasından keçən elektrik qatarlarının səsi daha eşidilmirdi, amma bircə an, cəmi bircə an Məlik Əhmədliyə elə gəldi ki, camaatla birlikdə avtobusda oturub qəbiristanlığa getmir, həmin elektrik qatarına minib əlçatmaz, ünyetməz bir uzaqlığa yola düşür və bu yol onu tənha palma ağacına çatdıracaq və hər şey, hətta o gözəl kəpənəklər də əbədi bir keçmişdə qalacaq.

Külək qəbristanlıqda lap fironluq edirdi. Və az qalırdı ki, yuyulmuş paltarları sərmək üçün işlədilən iri taxta sancaqları qoparıb yaşıl ipək örtüyü tabutun üstündən aparsın; iki-üç kişi örtüyü tabutun üstündə güclə saxlayırdı. Küləyin əlinlən hərə bir tərəfdə daldalanıb dayanmışdı.

Musa Bağırlı da yüngül maşın tapa bilməmişdi, avtobusa minib qəbristanlığa gəlmişdi və indi bir əli ilə Məlik Əhmədlinin qolundan tutdu, o biri əli ilə də başındakı şlyapanın kənarından yapışdı ki, külək aparmasın və:

– Ə, vicdan haqqı, – dedi, – bu külək də o yazıq ölənin baxtındandı e!.. Ə, bu həyat nə mənasızdı!.. – Sonra Məlik Əhmədlinin qolunu buraxıb iki əlilə də başındakı şlyapanı lap gözlərinin üstünəcən aşağı basdı. – Ə, yaxşı bir karbürator ustası tanımırsan?

Məlik Əhmədli qəbiristanlıqda daha artıq üşüyə-üşüyə başını buladı, yəni ki, tanımıram.

Əminəni torpağa tapşırdılar.

Camaat yenə də eyni minvalla maşınlara doluşdu və hamı geri qayıdıb Ibrahimgilin evinin qabağına yığışdı. Hava tamam qaralmışdı və külək də elə şiddətlənmişdi ki, küçədə dayanmaq mümkün deyildi. Adamlar bir-bir Ibrahimə yaxınlaşıb başsağlığı verirdi, Ibrahim də hamını həyətdəki mağarda qurulmuş məclisə dəvət edirdi, amma əksəriyyət üzrxahlıq edib gedirdi və həyətə ən yaxın adamlar girirdi. Məlik Əhmədli də evə qayıtmaq istəyirdi, üşüyürdü, ürəyində nəsə bir narahatlıq var idi, amma Ibrahim qoymadı:

– Məni tək buraxmayın, – dedi və Məlik Əhmədli də həyətə girib mağarda oturdu.

Kim bilir, həmin gecə Məlik Əhmədli Ibrahimgildə ləngiməsəydi, camaatla bir yerdə çıxıb getsəydi, bəlkə heç o ağlasığmaz hadisə də baş verməyəcəkdi, o heyrətamiz görüş olmayacaqdı?..

Külək elə qıy vururdu ki, mağarın dəmir qurğusunu tir-tir titrədirdi, brezent çadırın boş yerlərini şappıldadırdı, amma o dəm Ibrahimin qıpqırmızı qızarmış gözlərində o qədər dərd, kədər var idi ki, küləyin beləcə qıy vurmağı da, bu vıyıltı içində elektrik qatarlarının güclə eşidilən səsi də daha Məlik Əhmədlini narahat etmirdi, hətta üşüməyi də, elə bil ki, azalmışdı, amma bayaq yaşıl ipək örtüyü dörd tərəfdən də tabutun üstündə tutub saxlamış o taxta sancaqlar heç cürə yadından çıxmırdı; o taxta sancaqlar da yəqin ki, yaşıl ipək örtüklə, xalı-gəbə ilə birlikdə evə qayıtmışdı, bir-iki gün keçəcəkdi, yenə paltarlar yuyulacaqdı və yuyulmuş paltarlar həmin sancaqlarla zivədən asılacaqdı...

Burada təəccüblü, yaxud xüsusi mənası olan nə vardı ki, Məlik Əhmədliyə təsir edirdi?

Mağarda Məlik Əhmədligilin qarşısındakı mizin üstünə ağ süfrə salınmışdı və elə bu süfrənin özünü də (əgər qonşudan, yaxud prokatdan götürməyiblərsə) ola bilsin ki, sabah yuyub həmin taxta sancaqlarla zivədən asacaqdılar və burada qeyri-təbii nə var ki?

Mağarda söhbət elə gətirib çıxardı ki, Ibrahim qızarmış gözlərini, yəqin ki, ağrıdığı üçün hərdən kip-kip qırpa-qırpa dovşanlardan danışmağa başladı və Ibrahim, həmişə olduğu kimi, bu dəfə də dovşanlardan elə maraqlı şeylər danışırdı ki, adam bu uzunqulaq, cəld heyvanların ağlına məəttəl qalırdı. Ibrahim iyirmi beş ildən artıqdı ki, dovşanlarla məşğul idi və bütün bu müddət ərzində yorulmadan yeni dovşan cinsi yetişdirmək üzərində çalışırdı.

Məlik Əhmədli getmək istəyirdi, çünki yenə də üşüməyə başlamışdı, evlərinə də buradan xeyli yol idi, gecə saat on birə, on ikinin yarısına ancaq gedib çıxacaqdı, amma mağarda oturanlar Ibrahimə elə diqqətlə qulaq asırdılar ki, elə bil, vaxtı da, bu küləyi də yaddan çıxarmışdılar. Ibrahim də elə ürəkdən danışırdı ki, elə bil, qısa bir müddətə olsa da, dərdini yadından çıxarmışdı və Məlik Əhmədli də Ibrahimin sözünü kəsib onu yenidən öz dərdli dünyasına qaytarmaq istəmirdi.

Bu zaman külək birdən-birə elə qıy vurdu ki, brezent çadırı bir göz qırpımında məftillərdən qoparıb göyə qaldırdı və aparıb Ibrahimgilin ikimərtəbəli binalarına çırpdı, sonra o boyda brezent çadırı təzədən göyə qaldırdı və çadır elə bil ki, tarixə qədərki dövrlərin, dinozavrlar zamanının nəhəng kəpənəyi kimi, ikimərtəbəli binanın üstündən uçub qaranlıqda yox oldu.

Külək mağarda uzun mizin üstündəki çay stəkanlarını, qənd-qabını, külqabını yerə çırpdı, kürsüləri aşırdı, kiminin papağını apardı, kiminin şərfini boğazından çıxardı, ağ süfrəni uçurub mağarın dəmir qurğularına ilişdirdi, işıq söndü və ağız deyəni qulaq eşitmədi, daha Ibrahimlə sağollaşmaq, təskinlik vermək vaxtı deyildi, qonşular özlərini güclə öz qapılarına yetirdilər, kimi həyətdən çıxıb yuxarı tərəfə, kimi aşağı tərəfə dağılışdı və Məlik Əhmədli də bu yerlərə yaxşı bələd olmadığı üçün, özü də bilmədən binanın arxa tərəfinə sarı getdi, o yerə ki, oradan elektrik qatarları keçirdi.

Srağagünün bütün təfərrüatı bundan ibarət idi, amma həmin ağlasığmaz görüş, həmin heyrətamiz hadisənin başlanğıcı hələ irəlidə idi.

Ibrahimgilin binasının arxa tərəfindəki küçə tamam bom-boş idi və həmin küçənin aşağı hissəsində dəmir yolu gedirdi, elektrik qatarları buradan keçirdi. Məlik Əhmədli kepkasını gözünün üstünə çəkib boynunu bədəninə qısmışdı və çətinliklə nəfəs ala-ala üzü küləyə gedirdi.

Küçədən nə bir maşın keçirdi ki, saxlayasan, nə də bir adam gedirdi ki, heç olmasa, soruşasan ki, avtobus dayanacağı hansı tərəfdədi.

Məlik Əhmədli beləcə çətinliklə qarşıdakı tinə çatdı və birdən ona elə gəldi ki, dəmiryoluna gəlib çıxıb, amma sonra başa düşdü ki, tinin qabağındakı küçədən tramvay yolu keçir və elə bu vaxt, elə bil, sifarişlə (bəlkə elə doğrudan, sifarişlə idi?) tramvay gəlib düz tinin ucunda dayandı, qapısı açıldı və Məlik Əhmədli də tramvaya mindi.

Tramvayın hara getdiyini bilmirdi, amma, hər halda, şəhərə tərəf gedirdi və Məlik Əhmədli irəlidəki böyük küçələrdən birində düşüb beşinci mikrorayona gedən avtobusa, yaxud trolleybusa, uzaqbaşı taksiyə minə bilərdi.

Tramvayın içi bomboş idi, yalnız bircə sərnişin vaqonun yuxarı tərəfində pəncərənin yanında oturub şüşənin arxasından ora-bura baxırdı, sürücü qapısının pəncərəsindən isə tramvay sürücüsünün başının ardı görünürdü. Son on beş-iyirmi ildə tramvaya minmədiyi üçün və ümumiyyətlə, Bakının əsas hissələrində daha tramvay olmadığı üçün, Məlik Əhmədlinin, təbii ki, bilet vəsiqəsi yox idi və tramvayın içində də bilet almağın qaydasını və qiymətini bilmirdi.

Məlik Əhmədli o yeganə sərnişindən üç-dörd skamya aşağıda oturdu və fikirləşdi ki, uzaqbaşı bilet pulunu sürücüyə verəcək; yerində rahatlanıb dərindən nəfəs aldı, əlini plaşının yaxasından içəri salıb üstündən sinəsinin sol tərəfini ovxaladı – nəsə ürəyi sancırdı və bu sancı Məlik Əhmədlinin bütün bədənini qəribə bir qorxuya, vahiməyə bürüyürdü.

Bayaq küləyin birdən-birə qaldırıb divara çırpdığı, sonra da damların üstündən uçurduğu o brezent çadır Məlik Əhmədlinin yadına düşdü; yox, heç vaxt, hətta tarixə qədərki dövrdə də o cür kəpənək olmamışdı və heç vaxt da olmayacaqdı, çünki o cür ağır, o cür nəhəng, o cür kobud və eybəcər kəpənək ola bilməzdi.

Tramvayın həmin yeganə sərnişini gözlərini pəncərə şüşəsindən çəkib diqqətlə Məlik Əhmədliyə baxdı və Məlik Əhmədli bu adamın gözlərində çox dərin bir narahatlıq, nigarançılıq, qayğı oxudu və ümumiyyətlə, bu alçaqboylu, naziksümüklü adamın qəribə, hətta, nədənsə, qeyri-təbii bir görkəmi var idi; sifətinin quruluşu üçbucağa bənzəyirdi, çənəsi çox nazik, alnı isə geniş idi, saqqalının tükləri çox sıx olduğuna görə, tərtəmiz qırxılsa da, bütün sifətini, hətta boğazını da gömgöy göyərtmişdi; paltarı da qəribə idi, elə bil, bu sərnişin haçansa – qırxıncı-əllinci

illərdə – yuxuya getmişdi və indi, yəni 1986-cı ildə yuxudan ayılıb həmin köhnə dəbli makintoju, şərfi, qalstuku təzədən əyninə geymiş, boğazına bağlamışdı, tramvay vaqonunun zəif işığında da par-par parıldayan qara rezin qaloşu da ayaqqabısının üstündən ayağına keçirmişdi.

Həmin adamın səsində açıq-aşkar bir məzlumluq, ürkəklik var idi, lakin ən qəribəsi onun dediyi sözlər idi. Məlik Əhmədliyə baxdı, baxdı və birdən xalis bir qorxu ilə:

– Məndə işiniz olmasın!.. – dedi – Məndə işiniz olmasın!..

Məlik Əhmədli təəccüblə:

– Mənimləsiz? – soruşdu və tramvayda o tərəf-bu tərəfə baxdı ki, bəlkə, doğrudan da, kimsə başqa bir adam da var, amma, əlbəttə, tramvay əvvəlki kimi bomboş idi və Məlik Əhmədli: – Mənim sizinlə nə işim? – dedi.

O qəribə sərnişin:

– Yox! Yox!.. – dedi. – Hə. Ola bilər!.. Kimdir?.. Niyə?

Məlik Əhmədli belə başa düşdü ki, sərnişin bu dəfə də özü özü ilə danışır və fikirləşdi ki, görünür, bu adam nəsə ruhi xəstədir, amma bu zaman həmin sərnişinin birdən-birə onunla üzbəüz oturduğunu gördü. Sərnişin elə bil ki, durub onun yanına gəlmədi, yəni, bu, durmaq və gəlmək deyildi, eləcə birdən-birə öz yerində yox oldu və Məlik Əhmədli ilə üzbəüz oturdu.

Bu adam kim idi, gözbağlayıcı idi, sirk artisti idi, nə idi? Necə oldu bir göz qırpımında Məlik Əhmədliylə üzbəüz oturdu?

– Yox!.. Mən yanılmışam! Hə... Oldu! Siz insansız!

Bütün bu qəribəliklərə baxmayaraq, sərnişinin sözləri Məlik Əhmədliyə gülməli göründü və gülümsəyib:

– Bəs siz kimsiniz? – soruşdü.

Sərnişin elə bil ki, bu sualı eşitmədi və – Insansız!.. Insansız!.. – dedi. – Siz insansız!..

Sözləri elə tez-tez deyirdi ki, elə bil, harasa tələsirdi və eyni zamanda, kimdənsə çəkinirdi, sonra birdən-birə zəndlə Məlik Əhmədliyə baxdı və:

– Nə kəpənək? – soruşdu. – Xeyr!.. Xeyr!.. Mən kəpənək deyiləm!..

Məlik Əhmədli bu sözlərə lap mat qaldı, çünki bu dəm, ümumiyyətlə, kəpənəklər barədə fikirləşmirdi və bir də ki, axı, bu adam – ömründə görmədiyi, tanımadığı bu adam Məlik Əhmədli ilə kəpənəklərin yaxınlığını hardan bilirdi?

Bu qəribə sərnişin:

– Getməliyəm mən? – soruşdu – Necə bilirsiniz?.. Getməliyəm? Hə?..

Sərnişin elə tələsik danışırdı ki, Məlik Əhmədlinin fikirləşməyə, hətta təəccüblənməyə, heyrət etməyə, yaxud narazılığını bildirməyə vaxtı qalmırdı və bu dəfə də çiyinlərini çəkib:

– Bilmirəm... – dedi – Nə bilim? – Və hiss etdi ki, ürəyi şiddətlə vurmağa başlayır.

Sərnişin eyni tələsikliklə:

– Yaxşı! Yaxşı! – dedi. – Hə!.. Ola bilər!.. Onda deyin! Tez deyin!.. Vaxtım yoxdur!..

Məlik Əhmədli bütün bu əhvalatdan əməlli-başlı xoflana-xoflana və ürəyi də şiddətlə döyünə-döyünə:

– Nə deyim? – soruşdu və mindikləri tramvay vaqonunda sürücünün qapısına tərəf baxdı: qapının şüşəsində sürücünün başının ardı görünürdü və ətrafda hər şey öz həmişəki adiliyində idi.

Sərnişin:

– Deyin!.. Deyin!.. Mən tələsirəm!.. – dedi və onun bir az xırıltılı səsində bir tərəfdən hökm, bir tərəfdən də açıq-aşkar yalvarış hiss olunurdu. – Deyin!.. Bir... Hə? Yox!.. Yox! Iki... Iki arzunuzu deyin! Tez eləyin! Tələsirəm!.. Mən onları yerinə yetirməliyəm!.. Tez eləyin!..

Bəlkə Məlik Əhmədlinin özünün psixikası xarab olmuşdu və bütün bu oyun, bu qəribə görüş, bu qəribə sözlər, bu tələsiklik onun özünün xəstə təfəkkürünün məhsulu idi? Yox, axı, bu, real bir aləm idi, axı, bu tramvay da real idi, şüşədən başının ardı görünən o sürücü də real adamdır və Məlik Əhmədli hər şeyi dəqiq görür, heç bir duman yoxdur, naməlumluq yoxdur.

Get-gedə sərnişin daha artıq tələsirdi və sözləri də daha artıq bir sürətlə deyirdi.

– Deyin!.. Deyin!.. Iki arzunuzu deyin!.. Tez deyin!.. Tez! Mən tələsirəm, axı!.. Deyin!..

Məlik Əhmədli qarşısında oturmuş bu narahat sərnişinin ürkək-ürkək, hətta bir səksəkə içində baxan iri qara gözlərinə, enli alnına, nazik çənəsinə baxa-baxa başa düşdü ki, mütləq nəsə deməlidi və bu görüş adi görüş deyildi, bu sərnişin kim idi, bəlkə başqa bir planetdən uçub gəlmişdi, bəlkə cin idi, şeytan idi – Məlik Əhmədli bunu bilmirdi, amma burasını tam aydınlığı ilə hiss edirdi, duyurdu ki, onun payına dünyanın ən qəribə bir qisməti düşüb.

– Tez eləyin... Tələsirəm!.. Tez!.. Axı, mən sizin istəyinizi, iki istəyinizi, iki, iki istəyinizi yerinə yetirməliyəm!.. Tez deyin!. Istəyinizi! Istəyinizi deyin!..

Sərnişinin danışığının sürəti Məlik Əhmədliyə də sirayət etmişdi və bu sürətin müqabilində, doğrudan da, fikirləşməyə qətiyyən vaxt qalmırdı və bu zaman elə bil ki, gözəl Zəhra kəpənək, bayırın o küləyini yardı, hərdənbir zəng çalıb relslərin üstü ilə taqqataraq gedən bu tramvayın içinə girdi, lap gəlib Məlik Əhmədlinin həyəcandan titrəyən əlinin üstünə qondu. Məlik Əhmədli Zəhra kəpənəyin yüngüllüyünü hiss etdi, zərifliyini, incəliyini duydu və bu hiss, bu duyğu, elə bil ki, özü ilə bir sakitlik gətirdi.

– Tez eləyin!.. Tələsirəm axı!.. Tez eləyin!.. Deyin istəyinizi!.. Deyin!

Məlik Əhmədli ağzını açırdı desin ki, bir dənə də kəpənək kəşf etmək istəyirəm, amma bu zaman birdən-birə ürəyi bərk sancdı, sövq-təbii əlini ürəyinin üstünə qoydu və heç özü də gözləmədiyi halda:

– Çox yaşamaq istəyirəm... – dedi.

Sərnişin, elə bil, elektron maşın idi, tələsik:

– Neçə il? – soruşdu. – Dəqiq deyin! Dəqiq! Dəqiq! Deyin! Neçə il?

Məlik Əhmədli:

– Yüz... – dedi – Yox, min il... Min il yaşamaq istəyirəm...

Sərnişin:

– Bəs ikincisi? Bəs ikincisi? – soruşdu. – Tez eləyin!.. Ikincisini də deyin!.. Mənim vaxtım qurtarır!.. Ikinci istəyinizi deyin!.. Deyin!..

Məlik Əhmədli:

– Daha ikincisi yoxdur, – dedi və doğrudan da, onun başına heç bir fikir girmirdi.

– Olsun!.. Ikincisi də olsun!.. Ikinci istək də olmalıdır!.. Tez eləyin! Mən işimi-gücümü atıb ancaq sizinlə məşğul ola bilmərəm ki!.. Tez eləyin!.. Yox!.. Vaxt yoxdur!.. Mən getməliyəm!.. Ikincini sabah deyərsiz! Axşam saat doqquzda! Gözləyəcəyəm sizi!.. Birinci istəyiniz yerinə yetdi! Hə? Oldu! Yerinə yetdi!..

Sərnişin sürətlə bu sözləri deyib eyni sürətlə də ayağa durdu, yüngülcə – lap o Zəhra kəpənək kimi! – Məlik Əhmədliyə toxundu, sonra çətir kimi yuxarı qalxdı, əvvəlcə sol əli ilə tramvayın əltutanından yapışdı və Məlik Əhmədli açıq-aşkar bir dəqiqliklə gördü ki, sərnişinin ayaqları yerdən üzülüb, sonra Məlik Əhmədli gözlərini sərnişinin asılı ayaqlarından çəkib sifətinə baxmaq istəyəndə sərnişin artıq tramvayda yox idi.

Məlik Əhmədlini soyuq tər basmışdı, onun hissləri bu görüşü qəbul edirdi, ağlı, zəkası isə bunu heç cürə qəbul edə bilmirdi ki, bütün bunlar qarabasma deyil, həqiqətdir: bax, taqqataraq gedən bu tramvay kimi, bayırda əsən o külək kimi, tramvayın içində yanan bu zəif elektrik işığı kimi, səhərdən bəri yerində əyləşib tramvay sürən o sürücü kimi. Yox, axı, bu, normal ağla sığışan iş deyildi, axı, heç bir normal təfəkkür bu tramvay görüşünü qəbul edə bilməzdi və Məlik Əhmədli fikirləşdi ki, axı, dəlilər də özləri bilmirlər ki, dəlidirlər, axı, onlar da hər şeyi real hesab edirlər...

Məlik Əhmədli əli ilə alnının soyuq tərini sildi, sonra, elə bil, yuxudan oyanmaq üçün, özünü ayıltmaq üçün, alnını ovuşdurdu və bu zaman birdən-birə onun ürəyinin döyüntüsü kəsildi. Qolunun, qılçının, oynaqlarının ağrısı yox oldu, Məlik Əhmədliyə elə gəldi ki, elə bil, bədəninin qanı dəyişir və həmin təzə qanın istisini duydu, bu isti bütün bədəninə bir hərarət gətirdi, Məlik Əhmədli yerindən qalxıb hərəkət etmək, qaçmaq, tullanmaq istədi; neçə illər idi ki, beləcə rahat və sinədolusu nəfəs almamışdı, neçə illər idi ki, bütün bədənini beləcə qıvraq, beləcə yüngül hiss etməmişdi, ona elə gəldi ki, bədənində bir kəpənək yüngüllüyü var, hətta elə bil ki, özü öz cismində o gözəl Zəhra kəpənəyin yüngüllüyünü duydu.

O gecəyarısı, o boş tramvayın içində Məlik Əhmədli qəflətən başa düşdü ki, bütün bədəni birdən-birə cavanlaşıb, çünki bu günə qədər əbədi bir keçmişdə qalmış o uzaq illərdə – on yeddi-on səkkiz yaşlarında özünü necə hiss edirdisə, indi də özünü eləcə hiss edir. Bu duyğu da indicə baş vermiş görüş kimi, heyrətamiz, ağlasığmaz idi.

Həmin gecə Bakının nisbətən geniş küçələrindən birində tramvaydan düşəndən sonra heç bir trolleybusa, avtobusa, taksiyə minmədi və Abşeronda qopmuş bu şiddətli külək də Məlik Əhmədlinin həvəsini azaltmadı, əksinə, bu külək, elə bil ki, daha artıq bir şövq gətirdi və Məlik Əhmədli beşinci mikrorayona aparıb çıxaran uzaq bir yolu pay-piyada getməyə başladı, tramvay biletinin pulunu təkcə elə peysəri görünən o sürücüyə verməyi də yadından çıxardı.

O sürücü iş vaxtını qurtarıb öz evinə gedəcəkdi, həmişəki kimi yeyəcəkdi, yatacaqdı, bir sözlə, həmişəki kimi, nə işi vardısa, görəcəkdi, amma heç vaxt bilməyəcəkdi ki, haçansa onun sürdüyü tramvayda dünyanın ən möcüzəli bir görüşü baş verib.

Şiddətli külək əsən o payız gecəsi Bakının beşinci mikrorayona qalxan küçələri bomboş idi və həmin bomboş küçələrdən keçərək evinə gedən Məlik

Əhmədli dünyanın beləcə heyrətamiz, ağlasığmaz işinə indi tamam inanmışdı, min il yaşayacağını nəinki təfəkküründə dərk etmişdi, bunu cismən hiss edir, duyurdu və qırx yaşlı elmlər namizədi, öz sənətini ürəkdən sevən lepidopteroloq, dünya entomologiya elminə Zəhra kimi bir kəpənək bəxş etmiş Məlik Əhmədli burasını da çox gözəl başa düşürdü ki, bu min il əhvalatına heç kim heç vaxt inanmayacaq, bu bir sirr olub həmişə ürəyində qalacaq və yaxşı ki, indi küçələr beləcə bomboşdur, çünki Məlik Əhmədliyə elə gəlirdi ki, indi küçədə kimsə olsaydı, onu beləcə pay-piyada gedən görüb həmin sirdən xəbər tutardı. Bu sirr, elə bil ki, o dəm gizli bir xəzinə idi və həmin xəzinə, yalnız Məlik Əhmədliyə məxsus idi.

Məlik Əhmədli bir yeniyetmə çevikliyi ilə pilləkənləri birnəfəsə qalxıb evə girəndə uşaqlar çoxdan yatmışdı, Tahirə də əynində gecə köynəyi, yuxulu-yuxulu qapını açıb:

– Nə gec qayıtdın? – dedi. – O yazığı dəfn elədiz? – soruşdu və verdiyi suala cavab gözləməyib yataq otağına getdi, yerinə girdi və o saat da yatdı.

Məlik Əhmədli mətbəxə keçdi, mətbəx dolabının yuxarı gözündən hərdənbir evinə gələn qonaqlar üçün saxladığı siqaretdən birini götürdü, plaşını çıxarıb mətbəx kürsüsünün üstünə atdı, qaz plitəsinin yanındakı kibriti götürüb həyət eyvanına çıxdı, külək söndürməsin deyə, siqareti pencəyinin ətəkləri arasında yandırdı və dərin bir qullab vurub tüstünü ciyərlərinə çəkdi.

Əlbəttə, Tahirə indi ərinin beləcə yüngül pencəkdə eyvana çıxdığını, üstəlik də siqareti beləcə sümürüb tüstünü ciyərlərinə çəkdiyini görsəydi, az qalardı ürəyi getsin, özünü saxlaya bilməyib ağlaya-ağlaya çığır-bağır salardı: «– Uşaqlarımı yetim qoymaq istəyirsən mənim?!»

Tahirə nə biləydi, hardan ağlına gələydi...

Yeni tikilmiş mikrorayon binalarının pəncərələrinin, demək olar ki, hamısı sönmüşdü, camaat səhər tezdən durub işə gedəcəkdi və Məlik Əhmədli bu yatmış binalara baxa-baxa yer üzərindəki bütün insanların gündəlik həyatında, güzəranında indiyədək heç vaxt hiss etmədiyi bir tələsiklik duydu. Bəlkə də insanların çoxunun bu tələsiklikdən xəbəri yox idi, amma bu dəhşətli tələsiklik var idi və əslində, bax, elə bu dəmin özündə həmin tələsiklik bu yatmış binaların üstünü alıb pusquda dayanmışdı, elə bil ki, yırtıcı bir heyvan öz şikarını gözləyirdi, səhərin gözü açılan kimi hücum edəcəkdi, insanları yataqdan çıxarıb öz ritminə salacaqdı. Insan ömrü o qədər qısa idi ki, anadan olduğu dəqiqədən etibarən, tələsirdi və əslində, hər şeyi – paxıllığı da, namərdliyi də, xəsisliyi də, nankorluğu da, vəfasızlığı da – hər şeyi o tələsiklik əmələ gətirirdi, fikirləşmək və gözləmək üçün insanların vaxtı çatışmırdı.

Külək qıy çəkib vıyıldayırdı və bu külək vıyıltısı o dəm dünyanın əbədiliyindən və bu əbədiliyin özünün müqabilində belə, min ilin genişliyindən, müdrikliyindən, təmkinindən xəbər verirdi.

Məlik Əhmədli eyvandan içəri qayıtdı: belə bir gecədə yatmaq istəmirdi, amma bunu da istəmirdi ki, Tahirə oyanıb gəlib «–Niyə yatmırsan? – soruşsun. – Nə olub?» Tahirəyə nə cavab verəcəkdi? Belə bir gecədə yalan danışmaq istəmirdi, bəs həqiqəti necə deyəydi? Mətbəxin işığını söndürüb yataq otağına keçdi, səssizcə soyunub yerinə girdi; yeri soyuq idi, amma bu soyuqluğun özü də bir sağlamlıq ovqatı gətirirdi və həmin ovqat içində gözəl Zəhra kəpənək yenə də Məlik Əhmədlinin yadına düşdü, gülümsədi, bu min ildə hələ nə qədər gözəl kəpənəklər kəşf olunacaqdı...

Əlbəttə, nə Uzun Cəfərqulunun, nə professor Fazilzadənin, nə Musa Bağırlının, nə də Yazıq Ibrahimin bundan xəbəri var idi və onlardan heç kim və ümumiyyətlə, Yer üzündə heç kim bilmirdi ki, əslində, sabahdan canlı bir tarixlə, canlı bir gələcəklə ünsiyyətdə olacaqlar. Düzdü, bunu heç kim bilməyəcək, amma gələcəkdə – yüz ildən, iki yüz ildən, beş yüz ildən sonra – onu göstərib deyəcəklər ki, bax, bu cavan adam, bu böyük alim dünyanın ən böyük möcüzəsidir, onun beş yüz yaşı var! Yeddi yüz, səkkiz yüz yaşı var! Və elə bil, birdən-birə Məlik Əhmədlini o uzaq gələcəyin xofu basdı. O zaman heç kim olmayacaqdı, yəni yalnız gələcəyin insanları olacaqdı, amma nə Tahirə olacaqdı, nə uşaqlar olacaqdı...

Çarpayının soyuğu Məlik Əhmədlinin içinə sirayət etdi və bayaq qəbiristanlıqdakı kimi üşüdü, sonra yenə də Zəhra kəpənək onun gözlərinin qabağına gəldi: bu min ildə Zəhra kəpənəyin neçə milyon, ya bəlkə neçə milyard nəsli dünyaya gəlib gedəcəkdi, ya da bəlkə o gözəl Zəhra kəpənəyin nəsli tamam kəsiləcəkdi və həmin gecəyarısı beşinci mikrorayondakı evinin yataq otağında, öz çarpayısında uzanmış Məlik Əhmədli qəflətən, tamamilə, birdən-birə təsəvvüründə yaranmış bir mənzərəni, o mənzərə içində kiçicik bir hadisəni, elə bil ki, Zəhra kəpənəyin gözləri ilə gördü, Zəhra kəpənəyin duyğuları ilə hiss etdi.

... O gözəl kəpənək günəşin istisindən ləzzət ala-ala, çəməndəki sarı, bənövşəyi, narıncı, qəhvəyi, göyümtül güllərin, çiçəklərin, yamyaşıl otların rəngindən sevinə-sevinə uçub gələrək qırmızı bir lalənin zərif ləçəyinə qondu, qanadlarını yığdı, çəmənin səsinə qulaq asdı.

O gözəl kəpənək təkcə bülbülün, təkcə cırcıramanın yox, bütün xırda böcəklərin də, cücülərin də səsini, nəğməsini eşidirdi və elə bil ki, o çəmən nəğməsini təkcə quşlar, böcəklər, cücülər yox, güllər, çiçəklər də, otlar da oxuyurdu, elə bil, o yaz çağı çəmənin rənglərini eləcə güldürən günəş şüaları da həmin nəğməni oxuyurdu.

Iki ovçu gəlib o gözəl kəpənəyin yanında, çəməndə oturdu ki, bir az nəfəslərini dərsinlər və əlbəttə, o ovçuların kənardakı lalə ləçəyinə qonub qanadlarını yığmış o gözəl kəpənəkdən xəbəri olmadı.

Ovçulardan biri o birinə dedi:

– Belə rəvayət eləyirlər ki, dörd yüz il ömür sürmüş Musa peyğəmbər əleyhissəlam Turi-Sina dağının yaxınlığında bir daxmada yaşayırmış. Bir gün camaat Musaya tənə edir: «– Niyə özünə bir ev tikmirsən?» Musa əleyhissəlam belə cavab verir: «– Mənim nə ömrüm var ki, hələ özümə bir ev də tikim!..»

Ikinci ovçu ürəkdən gələn bir təəssüflə: – Elədir... – dedi. – Atalar yaxşı deyib, ömür bir iynədir, sapı çox qısa...

Ovçular ömrün qısalığı üçün ah çəkdi, sonra ayağa qalxdı və yollarına davam etdi.

Lalə ləçəyinə qonmuş o gözəl kəpənək ovçuların ardınca baxdı-baxdı və:

– Naşükür insanlar... – dedi.

O gözəl kəpənəyin cəmi üç günlük ömrü var idi, bu dünyada cəmi üç gün yaşayacaqdı və o üç günlük ömrün iki günü artıq həmin kəpənək üçün əbədi bir keçmişdə, əlçatmaz, ünyetməz bir uzaqlıqda qalmışdı...

...Külək yataq otağındakı pəncərənin şüşəsini titrədirdi, Tahirə də narahat idi, gah bu böyrü üstə, gah o böyrü üstə çönürdü və Məlik Əhmədli qaranlıqda ağ bənizi güclə sezilən Tahirəyə baxa-baxa fikirləşdi ki, minillik ömür müqabilində, bir göz

qırpımlıq vaxtdan sonra Tahirə dünyada olmayacaq, sonra Adil, Kamil, Aytən, Zəhra dünyadan köçəcək, sonra onların uşaqları, sonra o uşaqların uşaqları, sonra başqaları, başqaları, başqaları... Məlik Əhmədliyə elə gəldi ki, qaranlıq bir tunelə girib qaçır, qaçır, tuneldən çıxmaq istəyir, qaranlıq onu qovur, amma bu uzun tunel qurtarmır ki, qurtarmır və Məlik Əhmədlinin ürəyi darıxdı, nəfəsi tıncıxdı, uşaqları bir-bir, adbaad gözlərinin qabağına gətirəndə və fikirləşəndə ki, çox qısa bir müddətdən sonra – əlli ildən, altmış ildən, lap yüz ildən sonra Adil də, Kamil də, Aytən də, Zəhra da dünyada olmayacaq, amma o özü elə hey yaşayacaq, baba olacaq, ulu baba olacaq, sonra dünyadakı bir çox yad adamların, tanımadığı-bilmədiyi kəslərin canlı soy kökü olacaq, ürəyi bayaq tramvaydakından daha artıq bir sürətlə döyünməyə başladı və Məlik Əhmədli yerindən qalxıb soyuq çarpayısında oturdu.

Əminənin cənazəsinin üstündəki yaşıl ipək örtüyə sancılmış taxta sancaqlar Məlik Əhmədlinin gözlərinin qabağına gəldi və Məlik Əhmədli gözlərini yumub alnını ovuşdurdu, çünki ona elə gəldi ki, o özü də həmin taxta sancaqlar kimi bir şeydir, insanlar gəlib-gedəcək, çünki insanlar Əminə kimi gəldi-gedərdi, amma o həmin taxta sancaqlar kimi qalacaq, qalacaq...

Yazıq Ibrahim də bir gün bu dünyadan köçəcək, dovşanlarla kimsə – bir başqa alim məşğul olacaq, sonra o alim də köçəcək, Uzun Cəfərqulu da gedəcək, professor Fazilzadə də, hətta bu Musa Bağırlı da bu dünyadan gedəcək, Məlik Əhmədli isə qalacaq və haçansa yəqin bu adamları yadından da çıxaracaq, çünki bu qədər insanı axıra qədər yadda saxlamaq yəqin ki, mümkün deyil və yəqin ki, uşaqları da yaddan çıxaracaq, Kamili Aytənlə dəyişik salacaq, yaxud Zəhranı Adillə çaşdıracaq, çünki Adil də, Kamil də, Aytən də, Zəhra da uzaq, çox uzaq bir keçmişdə qalacaq... Suçlu bir hiss Məlik Əhmədlinin bütün içini ələ almışdı, elə bil, dəhşətli bir xəyanət işləmişdi.

Tahirə yenə yerində vurnuxdu, o tərəf-bu tərəfə çöndü və Məlik Əhmədli qaranlıq içində diqqətlə arvadına baxdı: Tahirə nəyin nigarançılığını çəkir, Tahirə niyə narahatdır, o ki, adi insandır, bir çatışmazlığı yoxdur, Tahirə hansı qayğıdan belə narahatdır?

Birdən-birə adi adamların bütün qayğıları, bütün narahatlığı Məlik Əhmədli üçün kiçik, əhəmiyyətsiz göründü, naşükürlüyün ifadəsi kimi göründü...

Bayaq tramvaydan düşəndən sonra beşinci mikrorayona tərəf getdiyi o bomboş küçələr yadına düşdü və Məlik Əhmədliyə elə gəldi ki, o bomboş küçələr, əslində, həmin minillik ömrün yoludur, eləcə bomboş, kimsəsiz, tənha...

Məlik Əhmədlinin ürəyi az qalırdı sinəsindən qopub çıxsın və o, daha yataq otağında dayana bilmədi, ehmallıca otaqdan çıxıb mətbəxə gəldi, mətbəx dolabının yuxarı gözündən yenə bir siqaret çıxarıb bayaqdan kürsünün üstündə atılıb qalmış plaşı elə gecə pijamasının üstündən əyninə geydi və həyət eyvanına çıxdı, siqareti plaşın ətəkləri arasında yandırıb eynilə Ibrahim kimi, həyəcandan titrəyən barmaqları arasına aldı və sümürdü.

Məlik Əhmədli o qədər həyəcanlanmışdı ki, onun bircə anın içində cavanlaşmış, sağlamlaşmış bədəni belə həmin həyəcana dözə bilmirdi.

Beşinci mikrorayon binalarının bütün pəncərələri qaranlıq idi və bu dəm o qaranlıq pəncərə şüşələrinin arxasında yatmış adamların heç birinin xəbəri yox idi ki, Məlik Əhmədlinin bir-bir o qaranlıq pəncərələri gəzən gözləri həsrətlə doludur.

Yenə o uzaq səhradakı tənha palma Məlik Əhmədlinin yadına düşdü və ona elə gəldi ki, o özü də yavaş-yavaş həmin uzaq və tənha palma ağacına çevrilir.

Bütün mikrorayonu bürümüş həmin gecə qaranlığı Məlik Əhmədlinin ürəyini daha artıq sıxdı, az qaldı onu lap uşaqlıq dövrlərindəki kimi, ağlamaq tutsun.

Həmin gecəni səhərə kimi yata bilmədi və əlbəttə, bu yuxusuz gecədən heç kimin xəbəri olmadı, amma, hər halda, Tahirə deyəsən, nəsə hiss etmişdi, səhər tezdən zəndlə ərinin sifətinə baxdı və:

– Sənə nə olub? – soruşdu.

Məlik Əhmədli:

– Heç nə, – dedi və çayla pendir-çörək yeyə-yeyə mətbəxin eyvana açılan qapısının şüşəsindən bayıra baxdı: külək gecəkinə nisbətən xeyli azalmışdı; sonra Zəhra ilə birlikdə həyətə düşdü, qarajdan gətirib qapının ağzında saxladığı «Jiquli»yə mindi, Zəhranı bağçaya apardı, sonra da instituta getdi, maşını institutun həyətində, Musa Bağırlının maşınının yanında saxladı (Musanın maşınının karbüratoru, görünür, gecəykən öz-özünə düzəlmişdi...).

Gecə külək Məlik Əhmədlinin işlədiyi laboratoriyanın pəncərəsinin gözlüyünü vurub açmışdı və ağ kağızlara (düzdü – o ağ kağızlar illərdən bəri saralmışdı) tikib laboratoriyanın divarlarından asılmış quru kəpənəkləri yerə tökmüşdü – quru kəpənəklərin bir qismi əzilmiş, bir qisminin qanadı sınmış, ayağı qopmuşdu.

Məlik Əhmədli, demək olar ki, bütün günü həmin qurudulmuş kəpənəklərin bərpası ilə məşğul oldu, sınmış qanadları, qopmuş qıçları mikroskop altında elə dəqiqliklə yapışdırıb bitişdirdi ki, küləyin bu bəd işindən, pis əməlindən xəbəri olmayan adam həmin quru kəpənəklərə baxanda heç nə hiss etməzdi.

Və bütün bu müddət ərzində, qəribə idi, elə bil ki, dünən Ibrahimgilin həyətində, yazıq Əminənin cənazəsi üstündə tarzən Abdullanın çaldığı o «Segah» uzaqlardan süzülüb gəlib laboratoriyada eşidilirdi. Məlik Əhmədli, əlbəttə, bilirdi ki, o «Segah» institutun həndəvərində çalınmır və güclə süzülüb gələn o tar səsi dünənki günün zəif əks-sədasıdı, Məlik Əhmədlinin özünün içindən axıb gəlir, elə bil, basma kağız mürəkkəbi, yox, mürəkkəbi yox, tərtəmiz şəffaf suyu özünə çəkən kimi, o «Segah» da Məlik Əhmədlinin bütün bədəninə, fikrinə-xəyalına hopmuşdu.

Iş vaxtı axıra çatanda Məlik Əhmədli də quru kəpənəkləri tamam bərpa edib qurtarmış, laboratoriyanın divarlarından asmışdı. Bu elə zərif bərpaçılıq işi idi ki, Məlik Əhmədli onu laboratoriyanın texniki işçilərinə etibar edə bilməzdi, buna görə də hər şeyi əvvəldən axıra kimi özü etdi.

Institutdan çıxıb «Jiquli»yə mindi. Musa Bağırlı artıq çıxıb getmişdi, maşını yox idi, əvvəlcə gedib Zəhranı bağçadan götürdü, evə apardı, oturub uşaqlarla birlikdə nahar elədi və Tahirə yenə də zəndlə ərinə baxıb:

– Sənə nə olub? – soruşdu.

– Heç nə.

Məlik Əhmədli evdən çıxanda özünü sakit hiss edirdi (hətta özü də beləcə sakitliyinə təəccüb edirdi), amma bu sakitliklə bərabər, onun ürəyində elə bir hiss vardı ki, elə bil, uzaq bir səfərə çıxır və o səfər dünyanın tanınmaz-bilinməz yerlərinədir.

Axşam saat doqquza işləmişdi və dünənki sərnişinlə görüş yerini müəyyən etməsələr də, Məlik Əhmədli özünə belə izah edə bilmədiyi bir sövq-təbiiliklə hiss

edirdi ki, görüş yeri dəmir yolunun qarşısındakı tinin ucunda, dünənki tramvay dayanacağındadır.

Həmin yeri maşınla tapmaq bir o qədər də asan olmadı, Məlik Əhmədli «Jiquli» ilə iki dəfə dövrə vurub Ibrahimgilin evinin qabağından ötdü, nəhayət, dünən gecə getdiyi küçəni tapdı və maşını həmin küçə ilə üzüyuxarı, tramvay dayanacağına tərəf sürdü.

Buralar, görünür, Bakının ən az adamlı yerlərindən biri idi və indi də, küləyin tamam zəifləməsinə baxmayaraq, bütün bu tərəflərdə heç kim yox idi. Məlik Əhmədli gəlib tramvay dayanacağına çatanda saat ona iki dəqiqə işləyirdi və hər şey çox gözlənilməz oldu, həm də bircə anın içində baş verdi: «Jiquli»nin qapısı açılmadı, amma dünənki sərnişin qabaq oturacaqda, Məlik Əhmədlinin yanında oturdu və həmin dəqiqə də o qədər tez-tələsik deyinməyə başladı ki, Məlik Əhmədlinin yenə də təəccüb etməyə, heyrətlənməyə vaxtı qalmadı:

– Niyə gecikirsiz, axı? Nə üçün?.. Tez eləyin!.. Mənim vaxtım yoxdur!.. Tez eləyin!.. Mən bütün vaxtımı sizə həsr edə bilmərəm ki!.. Hə!.. Bilmirəm!.. Ola bilər!.. Tez eləyin!.. Gözləyə bilmirəm mən!..

Sərnişinin üçbucağa oxşayan sifəti də, geyimi də, iri qara gözlərinin ifadəsi və işıltısı da – hər şey dünənki kimi idi, təkcə səsi, elə bil ki, daha artıq xırıldayırdı və burnunun ucundan da bir damla su sallanmışdı.

Sərnişin eyni tələsikliklə makintojunun cibindən kiçik «Biseptol» paketi çıxartdı, axırıncı həbi paketdən qoparıb tələsik uddu, burnunu çəkdi və:

– Deyin!.. – dedi. – Deyin istəyinizi!.. Mənim işlərim var axı!.. Yaxşı!.. Tez eləyin!.. Deyin!..

Məlik Əhmədli bütün gün ərzində – laboratoriyada qurumuş kəpənəkləri bərpa edərkən də, maşın sürərkən də, evdə nahar vaxtı da daima bu gecə görüşünü gözlərinin qabağına gətirmişdi və indi sərnişinə deyəcəyi sözləri, azı, min dəfə öz-özünə təkrar etmişdi:

– Mənim... Mənim ikinci istəyim odur ki,.... dünənki birinci istəyimi ləğv edəsiniz!

Araya dərin bir sükut çökdü və həmin sükut içində soyuqlamış sərnişinin tez-tez burnunu çəkməyi eşidilirdi; Məlik Əhmədlinin ürəyi yenə də şiddətlə döyünürdü və o sərnişin də indi dünyanın ən məzlum adamına oxşayırdı; bir-iki dəfə öskürdü, burnunu çəkdi, elə bil, tamam özünü itirmişdi, bilmirdi nə eləsin, sonra o sərnişinin yadına düşdü ki, tələsir.

– Yaxşı!.. Oldu!.. Oldu!.. – dedi. – Mən getdim!.. Işim çoxdur!.. Işim çoxdur!.. Insandan baş açmaq çətin məsələdir!.. – Sərnişin bu dəfə, elə bil ki, özü özü ilə danışırdı. – Çox çətindi!.. Çox!.. Çox!.. Gəl, baş aç də!.. Özün gəl!.. Özün gəl, baş aç!.. Mən deyirəm!.. Həmişə deyirəm!.. Deyirlər ki, belə... – Və o sərnişin dünən tramvayda olduğu kimi, yüngülcə Məlik Əhmədliyə toxundu, sonra bayaq maşına girdiyi kimi yox, soyuq dəymiş adi adamlar kimi burnunu çəkə-çəkə, öskürə-öskürə «Jiquli»nin qapısını açdı, maşından düşdü, yorğun addımlarla tramvay yolu boyunca uzaqlaşıb gözdən itdi və o sərnişin uzaqlaşdıqca, qaranlıqda gözdən itdikcə Məlik Əhmədli bütün bədənində bir dəyişmə hiss edirdi, elə bil, qanını dəyişirdilər və bu dəyişməni duyduqca, Məlik Əhmədlinin ürəyinin döyüntüsü azaldı, tamam kəsdi, bütün bədəninə bir rahatlıq gəldi, sonra əlinin, ayağının oynaqlarındakı o gözəl, o

əziz, o sevimli ağrılar geri qayıtdı və Məlik Əhmədli burasını da hiss etdi ki, ürəyi bir balaca sancdı.

O dəm Məlik Əhmədlinin bütün varlığında həmişə ürək sancısına da, oynaqlarındakı o ağrıya da çox səmimi, hətta çox ərkyana bir minnətdarlıq var idi...

Və bu zaman Məlik Əhmədli qabaq oturacaqda qalmış boş «Biseptol» paketini gördü, qaldırıb baxdı: işlənib qurtarmış adi dərman paketi idi, «Biseptol-480».

...Tahirə bu dəfə tamam rahat yatmışdı.

Məlik Əhmədli də dünyanın xoşbəxt adamlarından biri idi.

O, çarpayısında uzanıb əllərini başının altında çarpazlamışdı və gözlərinin qabağına gələn həmin nar qırmızısı, xəzan sarısı dünyanın ən gözəl kəpənəklərinin rənginə bənzəyirdi.

Məlik Əhmədli iki günün küləyindən sonra o gecə yarısı Bakıya yağan payız yağışının qoxusunu hiss edə-edə fikirləşdi ki, çox-çox əsrlər bundan əvvəl qədim filosof, əslində, dünyanın ən sadə və ən müdrik sözlərini deyib:

... Hər şey keçib gedir.

Və bu ağlasığmaz, bu heyrətamiz əhvalat da artıq keçmişin xatirəsi idi. İllər keçəcəkdi, bu xatirə də tamam keçmişlərdən uzun-uzun illərin arxasında qalacaqdı və Məlik Əhmədlinin yadigar saxladığı o «Biseptol» paketi həmişə bu xatirənin həqiqiliyini, heç olmasa, özü üçün sübut edəcəkdi...

...Hər şey keçib gedir...

Muxtar Xudavəndə gözləmə otağının qapısını açıb özündən son dərəcə razı halda yuxarıdan aşağı tələbəyə baxdı və:

– Keçin içəri... – dedi. – Kişiynən danışdım. Humanist bir insandır, o boyda vücudu var, deyim sənə, amma ürəyi yuxadan da nazikdir!.. Boyun oldu ki, kömək eləyəcək! Elə onun bu humanizmini də, deyim sənə, oçerkin bir epizodu eləyəcəyəm. Rus demişkən, net xuda, bez dobra! Elə yaxşı oldu! Deyim sənə, yaxşı epizod olacaq! Sözümü yerə salmadı! Amma, deyim sənə, onun bu hərəkəti boynuma elə minnət qoyur ki, ömrüm boyu bu minnətin altından çıxa bilməyəcəyəm! – Bu son sözləri deyəndə Muxtar Xudavəndə, nədənsə, tələbə Murad İldırımlıya yox, Xosrov müəllimə baxdı. – Gedin! Gözləyir sizi, gedin yanına! Xudahafiz, mən tələsirəm...

Tələbə ilə Xosrov müəllim gözləmə otağından girib, o gözəl və cavan katibə qızın və qızarıb şişmiş gözlərini eləcə çap elədiyi kağıza dikmiş makinaçı qadının yanından ötüb, içi pambıqla doldurulmuş qəhvəyi meşin qapını açdılar, tələbə irəlidə, Xosrov müəllim arxada müdirin kabinetinə addımladılar.

Tülkü Gəldi Qəbiristanlığının müdiri mizin arxasında oturub mətbəə iyi verən təzə qəzetləri oxuyurdu və içəri girənləri görüb:

– Hə, sizsiz? – soruşdu. – Mən də deyirəm, görəsən, bunnar kimdi belə? – Sonra çeşməyinin arxasından baxan boz gözlərini zəndlə tələbəyə zillədi. – Nə oldu, sovet qanunlarını gördün?

Tələbə cavab vermədi. Müdirin boz gözləri gülümsədi:

– Day bir də qanunbazlıq eləməyəcəksən ki?

Tələbə cavab vermədi.

– Hə!.. Bax, başuva dönüm sənin, sovet qanunundan dəm vurmağın axırı dünənki kimi olur! Gördün ki?! Qanun, bax, bu qəzetlərdə yazılan döyül e, başuva

dönüm! Qanun – adamdır! Bax, mənəm qanun! – Əbdül Qafarzadə sağ əlinin uzun barmağını öz sinəsinə tuşladı və bu adamdan çıxmayan bir açıqlıqla təkrar etdi:

– Mənəm qanun! – Sonra Xosrov müəllimə baxdı. – Bu kimdi belə dedin?

Əlbəttə, nə Əbdül Qafarzadənin ağlına gələrdi ki, indi sükut içində qarşısında dayanmış və gözləri indi nəsə xəstə bir işıltıyla işıldayan bu arıq və uzun kişi vaxtıyla – çox-çox illər bundan əvvəl Xıdırla bir məktəbdə işləmişdi və Xıdırla birlikdə həbs olunmuşdu; nə də Xosrov müəllimin ağlına gələrdi ki, boz gözləri ilə çeşməyinin arxasından diqqətlə ona baxan bu adam bədən tərbiyəsi müəllimi həmin Xıdır Qafarzadənin doğma qardaşıdır – onların ikisi də bunu bilmirdi.

Əbdül Qafarzadə dünənki kimi soruşdu:

– Atondu?

Tələbə yenə cavab vermədi.

Və bu dəfə dünyanın ən gözlənilməz bir hadisəsi baş verdi: Xosrov müəllim yaşına və cansızlığına yaraşmayan bir cəldliklə, heyvani bir ehtirasla Əbdül Qafarzadənin üstünə atıldı və hər iki əlinin arıq və uzun barmaqları ilə kişinin yoğun boynundan yapışıb var gücü ilə boğmağa başladı, boğduqca da gicgahlarının, arıq boğazının damarları şişə-şişə qışqırmağa başladı:

– Sənsən! Bütün müsibətləri başımıza açan sənsən! Məni öldürən sənsən! O tonqalı sən qalamışdın! Sən taunsan! Taun! Taun! Taun!..

Əbdül Qafarzadə xırıldaya-xırıldaya Xosrov müəllimin barmaqlarından yapışdı, dartıb boğazından qoparmaq istədi, Xosrov müəllimin isə barmaqları qopmaq bilmirdi, Xosrov müəllim var gücü ilə sıxırdı və var gücü ilə də qışqırırdı:

– Taun! Taun! Taun!..

Səs-küyə makinaçı qadın, katibə qız qaçıb kabinetə girdilər və ikisi də çığır-bağır sala-sala, yumruqları ilə qara plaşın içindəki sür-sümüyü döyəcləməyə başladı, amma Xosrov müəllimin taxta barmaqları Əbdül Qafarzadənin yoğun boğazından qopmurdu.

– Taunsan sən! Taun! Tanıdım mən səni! Taun! Taun! Taunsan sən!..

Bütün bu gözlənilməz hadisə o qədər qəflətən baş verdi ki, tələbə yerində quruyub nə edəcəyini və nə deyəcəyini bilmirdi. Makinaçı qadın üzünü tələbəyə tutub çığırdı:

– Nə dayanmısan balqabaq kimi?! Gəl kömək elə də! Görmürsən öldürür?!

Tələbə də Xosrov müəllimin qara plaşından yapışıb dartmağa başladı. Xosrov müəllim isə qopmurdu.

– Taun! Taun! Taun!..

Nəhayət, Əbdül Qafarzadə ayağa qalxa bildi, sağ əlinin pəncəsi ilə Xosrov müəllimin sinəsinə zərbə endirdi və o zərbə elə güclü oldu ki, taxta barmaqlar Əbdül Qafarzadənin boğazından qopdu və Xosrov müəllim səndirləyə-səndirləyə dal-dala getdi, kürəyi zərblə divara dəydi.

Əbdül Qafarzadə:

– Əclaf! – dedi. – Ninarmalnı! – Sonra sol əli ilə qıpqırmızı qızarmış boğazını ovxaladı.

Xosrov müəllimin qızdırmalı adamlar kimi işıldayan gözləri böyüyüb az qalmışdı hədəqəsindən çıxsın və dayanmaq bilmədən var gücü ilə qışqırırdı:

– Taun! Taun! Taun!.. – Və beləcə qışqıra-qışqıra da kabinetdən gözləmə otağına, gözləmə otağından Qəbiristanlıq İdarəsinin həyətinə çıxdı. – Taun! Taun! Taun!.. – qışqıra-qışqıra baş alıb getdi.

Qarovulçu Əflatun Qəbiristanlıq İdarəsinin darvazası qabağında ayaq üstə dayana bilməyən üç nəfər – iki kişi və bir qadın – alkoqoliki söyə-söyə, üzlərinə tüpürə-tüpürə içəri buraxmırdı, bu tərəflərdən qovurdu (bunlar həmin iki kişi və həmin qadın idi ki, iki gün bundan əvvəl Dar dalanda Gicbəsərlə görüşmüşdülər və indi fəhmləri onları dartıb Tülkü Gəldi Qəbiristanlığına gətirmişdi). Qarovulçu Əflatun üzünü alkoqoliklərdən çəkib, « – Taun! Taun! Taun!» – deyə qışqıra-qışqıra darvazanın bala qapısından adlayıb küçəyə çıxan uzun və arıq kişiyə baxdı, bu işə çox təəccüb etdi, sonra yenə alkoqolikləri söyməyə başladı.

Xosrov müəllim eləcə:

– Taun! Taun! Taun! – deyə qışqıra-qışqıra gedirdi. Tələbə də Xosrov müəllimin ardınça qaça-qaça Qəbiristanlıq İdarəsinin həyətindən çıxdı və hələ bundan sonra da bir müddət Xosrov müəllimin get-gedə uzaqlaşan səsi eşidildi:

– Taun!.. Taun!.. Taun!..

Küçədən ötənlər, dayanacaqlarda toplaşıb troleybus, avtobus gözləyənlər – kimi təəccüblə, kimi maraqla, kimi də ləzzətlə gülümsəyə-gülümsəyə iti addımlarla qışqıra-qışqıra gedən bu köhnə qara plaşlı, uzun və arıq adama, onun ardınca qaçan gödəkboy, yöndəmsiz oğlana baxırdı və yəqin hamı fikirləşirdi ki, Bakının küçələrində yenə də dəliyə rast gəliblər...

... o gecə yarısı o tonqal isə eləcə yanırdı...

... o tonqal yanırdı, yanırdı...

... o qurbağalar da eləcə quruldayırdı...

Əbdül Qafarzadə isə hələ də öz kabinetində ayaq üstə dayanıb qızarmış və o taxta barmaqların yeri ağrıyan boğazını ovxalaya-ovxalaya, boz gözlərindən dəhşətli bir qəzəb yağa yağa:

– Əclaf! – deyirdi. – Eybi yox!.. O Muxtar Xudavəndənin, oğraşın dalına bir paz soxdurum ki, özü də afərin desin! Neqodyay!

Bədurə xanım tələsik gözləmə otağından bir stəkan soyuq su gətirdi və Əbdül Qafarzadə hirslə stəkanı arvadın əlindən alıb iri qurtumlarla içməyə başladı və birdən-birə bərkdən öskürdü. Su ağzından sıçrayıb ətrafa yayıldı, öskürəyi get-gedə artdı, Əbdül Qafarzadə az qalırdı boğulsun, dizləri titrədi və taqətsiz halda özünü güclə kürsünün üstünə salıb oturdu və bu zaman ağzından qan açıldı, xırıldaya-xırıldaya öskürdükcə qan yaxasına, mizin üstünə töküldü, mizin üstündəki təzə qəzetlər də qıpqırmızı qızardı. Bədurə xanım bərkdən qışqırdı: «Vaxsey!.. Kişi qan qusur!..

## 16

## MÜRŞÜD GÜLCAHANI

Ömründə mənə zəng eləyən deyil, o gün gördüm ki, zəng eləyib: «– Nə var, nə yox, ay Mürşüd məllim? Heç görükmürsən...» Guya ki, məni görməkdən ötrü gözünün ucu axır... «– Sağlığın. – dedim. – iş-güc qoyur ki...» « – Əşşi, – dedi, – bəsdi bu qədər yazdın-pozdun da, başuva dönüm sənin!.. Hara baxırsan, maşallah, elə sənin kitablarındı... Fəxrimizsən də!.. Amma bir az istirahət elə, ay Mürşüd,

canına bax!» Gərək mütləq bir işarə vursun, heç olmasa, bir balaca sancsın, yoxsa Əbdül Qafarzadə olmaz axı... Bizim nəşriyyatın müdiri Islamzadə ki, var, bunun dostudu, özü də tamahkarın, əliəyrinin biridir, lakin iyirmi ildir o boyda nəşriyyata rəhbərlik eləyir. Əvvəllər heç beş ildə bir dəfə mənim kitabımı plana salmırdı, sarı, seyrək dişlərinin arasından tüpürcək sıçrada-sıçrada: « – Yaxşı deyil! – deyirdi. – Özün nəşriyyatda redaktor işləyirsən. Sonra deyəcəklər ki, özünüz özünüzü çap eləyirsiniz. Yazıların da, bilirsən də, camaatı cəlb eləmir, alan olmur. – Lap elə üzümə beləcə deyirdi vicdansız. – Çıxanda da gözlərinə döndüyüm tənqidçilər başlayırlar bizi tənqid eləməyə ki, istedadlar qalıb bir tərəfdə, nəşriyyatlar Mürşüd Gülcahaninin romanını çap eləyir... Incimə e, sən də kommunistsən, mən də. Sənnən bir kommunist kimi danışıram!» Yalançının atasına lənət! Səndən kommunist olar, ay alçaq?! Əxlaq pozğunusan, bu, day, bütün Bakıya məlumdur, rüşvətxorsan, rüşvətlə kitab buraxırsan, bunu da ki, Allaha şükür, Bakıda bilməyən yoxdur! Lakin nə edəsən, deyəcəkdim bunları üzünə, heç olmasa, yenə beş ildən-bir kitabımı buraxırdı, vicdansız onu da buraxmayacaqdı, özümü də nəşriyyatda pisikdirəcəkdi. Bir qırmızı sifəti var ki, nə abır-həya bilir, nə yaşa baxır. Bir dəfə düz gözlərimin içinə dedi: « – Bilirsən nə var, Mürşüd Gülcahani, istəyirsən sənin kitabını buraxım, onda nəşriyyatdan işdən çıx, bir də buralara gəlmə!» Lakin, elə ki, bununla, bu Əbdül Qafarzadəylə qohum oldum (Allah kəssin belə qohumluğu!), o boyda Islamzadə ki, böyük-böyük yazıçılar əlindən qan ağlayırdı (elə indi də ağlayır!), çönüb oldu başqa adam, hər il kitabımı salır plana. Indi bəs nə olub, ay vicdansız, bəs niyə qorxmursan ki, deyərlər özünüz özünüzü çap eləyirsiniz? Hə? Noldu bəs sənin kommunistliyin, ay riyakar?! Işə bax də, nəşriyyat müdiri hara, qəbiristanlıq müdiri hara, lakin vicdanım haqqı, elə ki, o Ömər binəva Əbdül Qafarzadənin bu atbalaxanım qızına rast gəldi, elə ki, bununla qohum olduq, gördüm ki, o Islamzadə ilə bu Qafarzadə canbir qəlbdirlər, çünki ikisi də bir yuvanın quşudur. Özü də dünyanın işinə bax ki, Islamzadə Qafarzadəyə yaltaqlanır, öz nazirindən elə çəkinmir ki, Qafarzadədən çəkinir. Hərdən görürsən ki, çağırdı məni, Islamzadəni deyirəm, yalandan hal-əhval tutdu, bilirəm axı, fırıldaqdı, gözləyirəm görüm sözünün canı nədi, o da keçir mətləbə, qızımı institutda filan müəllim kəsib, daha mənim üzüm gəlmir (səndə üz varıydı ki, gəlməsin?!), sən Allah, Mürşüd müəllim (əvvəllər mənə müəllim-zad deməzdi, elə-eləcə Mürşüd deyərdi, vicdansız), de Əbdül qardaşımıza, qızı tapşırsın. Mən də gəlib deyirəm. Neyləyim. Neyləyim, özümü alçaldıram, lakin əlac nədir, zəmanə pis zəmanədir, mənim kimi adamı, mənim kimi yazıçını belələrinə möhtac eləyir. Bizdə adını cavan yazıçı qoymuş sırtığın biri var, adı Səlim Bədbindir (bir adam ki, təxəllüsünü «Bədbin» qoysun, daha ondan nə gözləyəsən?), utanıb-qızarmır, üzümə hırıldaya-hırıldaya deyir ki, Mürşüd müəllim, Azərbaycanda ən böyük vəzifə nazir-zad deyil, hamısı boş şeydir, ən böyük vəzifə Əbdül Qafarzadənin qohumu olmaqdı. Nə deyəsən bu vicdansıza? Eh, deyirəm, çölüm yandırır, demirəm, içim. Viranə qalsın belə vəzifə! Mən boyda adamın gedib oğlumun – yeganə ovladımın evində bir stəkan çay içməyə ixtiyarı yoxdur. Gedib otururam, o saat bunun o atbalaxanım qızı: « – Tixo, – deyir. – Abdulçik zanimaetsə!» Özü də yanımızda oturub başlayır kitab oxumağa. Kitab da bir kitab ola, dərd yarıdı! Hamısı cuhudların yazdıqlarıdı... Ömər yazıq cıqqırığını çıxartmağa qorxur, məlul-məlul mənə baxır, mən də ona, sonra da durub çıxıb gedirəm evimə. Uşağa da bunun adını qoyublar, hər dəfə «Abdulçik» eşidəndə,

vicdan haqqı, elə bil, başıma bir vedrə qaynar su tökürlər. Kimə deyəsən?.. Iş o yerə çatıb ki, heç uşaq da məni vecinə almır, məni görəndə heç oturduğu yerdən tərpənmir də, lakin elə ki, bunu görür: «–Dedulya!» – deyib cumur üstünə. Uşaqda nə təqsir var?.. Bir dəfə uşağın saqqızını oğurladım, aldım qucağıma, oturduq pəncərənin qabağında. Axşam idi, göydə ulduzlar bərq vururdu. Mənim daxili aləmimdə lirik hisslər baş qaldırdı. Uşağa da istədim romantika aşılayım. Dedim: « – Bax, balası, o ulduzları görürsən? O ulduzlardan hansını istəyirsən, göydən götürüm, verim sənə!.. Olsun sənin ulduzun!..» Uşaq ağzını açmağa macal tapmamış, o saat ifritə anası çımxırdı: « – Yaxşı olardı ki, Mürşüd əmi, siz özünüz hökumətdən bir ulduz alıb taxaydınız döşünüzə! Nəvəniz də fəxr eləyərdi ki, babası başqa yazıçılar kimi, geroydur! Heç Allahın medalı da yoxunuzdur! Ona görə də heç kim tanımır sizi!» Uşağın əlindən dartıb götürüb apardı o biri otağa. Ifritədir də, ifritə!.. Əbdül Qafarzadənin qızı nə bilir ki, romantika nədir?! Ikinci budur ki, düz demir, dörd dənə medalım var, bir dəfə də Azərbaycan SSR Ali Soveti Rəyasət heyətinin Fəxri Fərmanını almışam. Üçüncüsü də, indi mənim kimi adamlara, mənim kimi sənətkarlara qiymət qoyan kimdir? Brejnev deyiləm ki, əlimi salım torbaya, ulduz çıxarıb taxım döşümə, ay ifritə! Nə gedib Moskvada oturub redaktorları qonaq edirəm, nə burdan onlara başqaları kimi ərməğanlar göndərirəm, nə də MK-da dostum, tanışım var! Öz vicdanımla və istedadımla yazıram! Lakin indi kimdi vicdana və istedada qiymət qoyan?! Bir ölkədə ki, Stalin boyda bir dahini gorbagor eləyələr, daha kimə nə deyəsən? O Stalin ki, bu ölkəni yaratdı! Bir də ki, niyə məni heç kim tanımır?! Özüm təvazökaram, lakin bunu Əbdül Qafarzadənin qızı hardan başa düşsün? Uşağın istedadını da Ömərdə görmür, atasında görür. Deyir, bu uşaq ki, çalğıya bu qədər meyl göstərir, guya, babasına, yəni Əbdül Qafarzadəyə çəkib, ona görə: «Moy papa oçen muzıkalnıy çelovek! Mı vse v neqo poşli!.. I Abdulçik toje!» Uşağın familini də, deyəsən, dəyişdirib Qafarzadə eləmək istəyir, Ömər bizdən gizlədir. Yazıq Ömər... Bu atbalaxanım, Öməri hər üzünə aldada bilər, bunlardan nə desən çıxar, bəlkə də elə aldadır... Görmürsən gözlərindən cin yağır? O gün o sırtıq Səlim Bədbin nəşriyyatda, camaatın içində mənə deyir: «– Mürşüd müəllim, gəlinivi gördüm...» Özü də çox mənalı-mənalı deyirdi. Mən də daha camaatın içində ucundan tutub, ucuzluğa getmədim. Soruşacağam harda gördün? Nə bilim nə deyəcək? Allah bilir, harda görüb, o ifritədən nə desən çıxar, atasının qızıdır! Soruşacağam sən hardan tanıyırsan mənim gəlinimi, nə bilim nə cavab verəcək?! Üstündən keçdim, guya, mənə heç nə demədi... Yazıq Ömər... Gül kimi tərtəmiz, başıaşağı, üzüyola, fağır uşaqdı, incə qəlblidi, düşüb bu canavarların cənginə... Bunların da, Əbdül Qafarzadəgili deyirəm, bir oğlu varıydı Orduxan adında. Cavan oğlanıydı, lakin arvadbazın biriydi. Işi-peşəsi camaatın arvadını əlindən almaq idi, camaatın arvadına sataşmaq idi. Əbdül Iraq konsulunun «Mersedes»ini mənim adıma alıb – beləcə mənim adımdan o qədər istifadə edir ki, heç özümün də xəbərim olmur – vermişdi oğluna, o da maşını Bakının küçələrində 100-lə sürürdü, özü də idmançı idi, voleyboldu – nədi, onnan oynayırdı. Əbdül onu yığma komandaya saldırmışdı, həftə səkkiz, mən doqquz – Türkiyədə idi, Braziliyada idi, Yaponiyada idi. Mən boyda yazıçı ömrümdə bircə dəfə Bolqarıstanda turist olmuşam, lakin bunun o Orduxan oğlu Hindistandan vurub ABŞ-dan çıxırdı. Bir həftənin içində qripdən getdi, çünki göydə Allah gördü bu ədalətsizliyi, atanın da, oğulun da pozğunluğunu, cəzalandırdı onları. Düzdür, mən

ateistəm, lakin görünür, hansı bir qüvvəsə var, cəzalandırır... Başımda onun ölməyi haqqında bir roman var, lap hazırdı, oturub qələmə almaq lazımdı, lakin qorxuram, yazaram, Əbdül də oxuyub başa düşə, ondan sonra di gəl də... Lakin daha oxuya bilməyəcək... Orduxan ölləndən sonra, Yeni il ərəfəsində ölmüşdü, o atbalaxanım qız, yəni mənim o gəlinim hər il Yeni ildə yazıq Öməri məcbur eləyir ki, yeddi gün səhərdən axşamacan pianinoda ölü havaları çalsın. Kimə deyəsən?.. Nə isə... Hə, o gün zəng eləyib deyir ki, «–Hara baxırsan, sənin kitablarındı». Yəni ki, mənə görə nəşr eləyirlər sənin kitablarını. Mən də yaxşı cavab verdim, belə lap möhkəm cavab verdim, özümün də xoşuma gəldi, dedim: «–Yazıçının gərək kitabı olsun də!» Güldü, lakin budəfəki gülməyində nəsə bir sınıqlıq var idi, yazıçıyam axı, o saat tutdum. «– Mürşüd, – dedi, – axı, sənə bir işim düşüb...» Qulaqlarıma inanmadım, yəni bunun da mənə işi düşə bilər?.. Bu qədər müddətdə birinci dəfəydi mənə belə söz deyirdi... Fikirləşdim ki, yəqin indi bu da bir fırıldaqdı. «– Buyur» – dedim. « – O sənin bir dostun var e, professor...» «– Hansı professor?» – soruşdum. «– Əşşi, Səmədbəylidi, Əhmədbəylidi, nədi?» «– Mürsəlbəylini deyirsən bəlkə?» «– Hə, – dedi. – Mürsəlbəyli. Istəyirəm bir səninlə gedək, özümü ona göstərim». At kimi sağlam adamdı, toyuğun budunu sümüyüylə bir yerdə yeyir, buna nə olub belə? « – Sən hara, həkim hara, ay Əbdül?» – dedim. Güldü, lakin yenə də sınıq güldü – yazıçıyam də!.. « – Yox, – dedi, – elə, bir şey yoxdu. Dünən həkim Bronşteynin yanına getmişdim, məsləhət gördü ki, özümü bir yaxşı mütəxəssisə göstərim...» Şahların saray həkimi olan kimi, həkim Bronşteyn də bunların ev həkimidi. Haray-həşirçinin biridi. Öməgilə də on beş gündə bir dəfə gəlib o baxır. Tanıyıram, tərifləyirlər, nədi, nədi, yəhudidi... Yəhudi ki, oldu, deməli, yaxşı həkimdi... Azərbaycanlı psixologiyasıdı də... Lakin sən bu Əbdülün öz canından qorxmağına bax də, at kimi də sağlamdı!.. Altı ildi arvadı ölür, heç vecinə deyil, lakin həkim Bronşteyn ki, özünə bir söz deyib, düşüb əl-ayağa... « – Gedək də, – dedim, – nə böyük işdi... Mən də deyirəm görəsən nə olub? Vallah, qorxutdun məni, ay Əbdül...» Neyləyim, mən də məcburam ki, belə danışım də... Mürsəlbəyli bizim kəndlidi, özü də demaqoqun biridi, elə demaqoqluqla da gəlib o mərtəbəyə çatıb. Danışığını-zadını da bilən deyil, naqqalın biridi. Bir-iki ay bundan qabaq küçədə rastlaşmışıq, mənə baxıb gülür: «– Mürşüd, – deyir. – qırx ildi canımı qoymuşam elmin yolunda, mən də professoram: sənin oğlun da...» Yəni sataşır ki, Əbdül Qafarzadənin sayəsində Ömər olub konservatoriyada professor... Sonra da, guya ki, zarafat eləyir, lakin, əslində, ürəyindəkiləri deyir: « – O qudavın deyirlər o qədər pulu var! Bir az da versin sənə də, ay Mürşüd!.. Özünə bir şlyapa alasan, qırx ildi elə bu əzik şlyapada gəzirsən.» Mən də onun o zarafatına guya ki, zarafatla cavab verdim: «– Əşşi, quda olanda nə olar, xəsisin biridi!» O da güldü, mən də, lakin mənim o zarafatım da, əslində, zarafat deyildi, həqiqət idi. Bu Əbdül Qafarzadə ki, var, xəsisin biridi. Uşaqlara ev almaqla, maşın almaqla deyil ki, xəsislik yaman şeydi, lap kiçik bir işdə də görürsən ki, özünü göstərir. Yazıçıyam axı, mənim gözümdən şey yayınar? Bunun o üzdəniraq idarəsində bir makinaçı var, Bədurə, çox diqqətlə, səliqəli yazır. Çoxdan tanıyıram onu, əllinci illərdə redaksiyada işləyirdi, bütün Bakı onun gözəlliyindən danışırdı. Bu Əbdül onu tovlayıb öz yanına apardı, aşnası elədi, o səfeh arvad da bədbəxt oldu, ərə getmədi, tək-tənha qaldı... Şüursuz həyatın axırı belədi də... Nə isə, deyirəm Əbdülə ki, Bədurə yaxşı çap eləyir, təzə romanımı istəyirəm verəm ki, makinada o yazsın. Deyir ki, yox, mənə görə səndən pul almaz,

yaxşı deyil, qoy çax-çuxunu eləyib özünü dolandırsın. Deyir: «– Apar başqa makinaçıya ver romanını, pulun yoxdu? Bir elə kitabın çıxır, yoxundu pul, mən verim!» Sən ki, belə pul paylayansan, elə o Bədurənin özünü dolandır də. Sıxıb, sıxıb şirəsini çıxarmısan (onda bir gözəllik, bir bədən varıydı ki, gecə adamın yuxusuna girirdi), indi qocalıb heydən düşüb, belə ki, səxavətlisən, ay vicdansız, dolandır özün də, onu. Nə olacaq, məndən pul almayanda kasıb düşəcək Bədurə? Tək adamdı də, pul nəyinə lazımdı onun? Əbdül elə bilir ki, arvadbazlığından Qaratelin xəbəri yoxdu, hər şey gizlin qalır, day demir ki, ətdən olan divara etibar yoxdu. Nə eləyirsə, Bədurə hamısını bir-bir zəng çalıb Qaratelə danışır. Bu Əbdül Qafarzadə camaata ağıl dərsi verir, lakin özünün heç ağlına da gəlmir ki, Bədurədən əl çəkdiyi, Bədurədən bıqdığı vaxtdan bəri, həmin Bədurə ilə Qaratel cici-bacıdırlar, həftə səkkiz, mən doqquz, zəngləşib dərdləşirlər, telefonda ağlayırlar... Bir dəfə Ədilə (mənim arvadım) özü bunun şahidi olub... Qaratelin özü də elə az aşın duzu deyildi, oğlu öləndən sonra düşdü. Düzdü, mən dəqiq bir şey bilmirəm, lakin belə bir hadisə olmuşdu: Ömərgilin toyuna o şair Ərəstun Bozdağlını da çağırmışdım. Düzdü, bekara adamdı, özündən də müştəbehdir, lakin camaatın arasında tanınır də. Ərəstun Bozdağlı da həmişəki kimi, boğazının yoğun yerinə salıb toyda məhəbbət haqqında uzun bir şer oxudu. Toydan sonra bir dəfə nəşriyyatda ona rast gəldim, kefli idi, mənə dedi ki, ustad, oğlunun qayınanası yaman şorgözdü... «– Toydan iki gün sonra, – dedi. – Telefonumu tapıb, mənə zəng eləyib şer istəyirdi... Oğluvun qayınanası olanda, nolar, ustad, nənəm yaşındadı. Ona məhəbbət şeri düşmür, ustad, incimə məndən!.. Ərəstun Bozdağlı qaynar bulaqdı, amma təzə-tər çiçəklər üçün, ustad!..» Adını şair qoyub, özü heyvandı də... Nə isə... Hə, Əbdül xahiş elədi ki, bir yerdə gedək Mürsəlbəylinin yanına. Görüşüb getdik. Bunu, bu Əbdülü, ömrümdə belə təlaş içində görməmişdim, can doğrudan da, şirin şeydi də, sarısını udmuşdu. Mürsəlbəyli də, arsızın biridi axı, bizi gülə-gülə qarşıladı. O vaxt Ömərin elçiliyinə gedəndə bu Mürsəlbəylini də tapıb aparmışdım ki, hörmətli olsun, odur ki, tanış idilər, görüşdülər, hal-əhval tutdular. Mürsəlbəyli iki daşın arasında mənə sataşdı: «– Mürşüd Gülcahani də ki, maşallah, bir-birinin dalınca romanlar yazır. Kişiyə ikinci dıxaniye gəlib!» Ürəyimdə: «– Sən nə bilirsən, ay bisavad, – dedim. – Roman nədir, zad nədir? Əsər oxuyansan sən? Əsər başa düşənsən?» Ürəyimdə dedim, üzünə vurmadım, lakin elə üzünə də möhkəm dedim. «– Sizinçün yazıram də...» – dedim, yəni ki, oxu, adam ol, professor olmaqnan deyil. Əbdül o qədər canının hayında idi ki, bu söhbətə qarışmadı, yaman boz gözləri var, canavar gözünə oxşayır, lakin Mürsəlbəylinin yanında o canavar gözlərində bir məlulluq vardı, bir təlaş vardı ki, ateist olsam da, doğrusu, Allaha pis getməsin, mənim ürəyimdə intiqamıydı-nəyidi, bir hiss yarandı, heç özüm də bilmirəm necə yarandı... Nə isə... Mürsəlbəyli porsuğa oxşayır, düşdü qabağa, bu Əbdül də taqətsiz dəvə kimi düşdü onun dalınca, getdilər yapon aparatlarında müayinə keçirməyə. Mən də oturdum Mürsəlbəylinin kabinetində, başladım onları gözləməyə. İndi belə qorxuya düşmüşdü, lakin oğlu ölən günü gözündən bir damcı da yaş axmadı, zalım, adam deyil ki, canavardı də, canavar. Gözlərini görmürsən?! Lakin bir hadisə yadıma düşür, mən yazıçıyam axı, Əbdül olanda nolar, gərək gördüyümü deyim. O vaxt ki, bunun oğlu ölmüşdü, cənazəni hələ basdırmamışdılar, indiki kimi yadımdadı, yaman yağış yağırdı. Bu da bütün günü oturmuşdu oğlunun cənazəsinin yanında, heç kimə fikir vermirdi, bir kəlmə də dinib-danışmırdı. Gecənin bir aləmi birdən-birə ayağa qalxıb otaqdan

çıxdı. Xeyli keçdi, gəlmədi. Mən elə başa düşdüm ki, gedib yatıb – bundan nə desən gözləmək olar, oğlunun cənazəsini qoyub gedib yatar. Gecənin yarısıydı, tualetə getmişdim, arakəsməyə çıxanda bir də gördüm ki, qapı açıldı, bu girdi içəri. Doğrusu, onu görəndə qorxdum. Təpədən dırnağacan suyun, palçığın içində idi, sifəti də elə bil ki, meyit sifətiydi. Yazıçıyam də, ona baxan kimi, hər şeyi başa düşdüm, başa düşdüm ki, özünü öldürməyə gedibmiş, bunu onun sifətindən oxudum, lakin qeyrəti çatmayıb, öldürə bilməyib özünü... Əbdül Qafarzadə olanda nə olar, yazığım gəldi ona. Gedib ürək-dirək vermək istədim, istədim ki, özünü bir az toxdatsın, lakin birdən-birə it kimi üstümə hürdü. Mənə elə qışqırdı ki, altı ildi keçib, lakin indi də yadıma düşəndə tüklərim biz-biz olur. Təhqir elədi məni. Lakin neyləyəsən, uddum... Səhəri özümü o yerə qoydum ki, elə bil, heç nə olmayıb. Mən neyləyim ki, Islamzadə kimiləri üçün sənətin heç bir əhəmiyyəti yoxdur. Mənim kitablarımı bu Əbdül Qafarzadəyə görə nəşr eləyir, yoxsa eləməz, mən də məcburam udum da bütün təhqirləri, neyləyim... Mənim başım çox çəkib. Redaksiyalarda məni çox incidiblər, çünki indi əsl sənətkarın qədrini bilən, əsl sənətkara qiymət verən yoxdur. Lotu-potunun işi keçir indi. Az qala, sovet hökumətinin əleyhinə əsərlər yazırlar, həyatımıza qara yaxırlar, mənfi qəhrəmanlar yaradırlar, müsbət qəhrəmanlar qalır bir tərəfdə, bunların da həmin əsərlərini çap eləyirlər, əvvəlcə jurnallar buraxır, sonra kitabları çıxır, bir sözlə, hərc-mərclikdir. Indi müsbət qəhrəmanlardan əsər yazan yazıçının özünə mənfi qəhrəman kimi baxırlar! Stalinin vaxtında belə şeylər ola bilərdi? Adamın atasını yandırardılar. O gün bizdə işləyən o cavan yazıçı, sırtıq ki, deyirəm, Səlim Bədbin, camaatın içində bağıra-bağıra: «– Bizim yazıçıların çoxu, – deyir. – kapitalist ölkələrində olsaydılar, acından ölərdilər. Kimdi onları çap eləyən? Mərkəzi Komitəyə şikayət yaza bilməyəcəkdilər ki, əsərimizi çap eləmirlər... Özlərinə tanış-biliş axtarmayacaqdılar ki, bezdarnı əsərlərini çap elətdirsinlər, sonra da tökülüb qalsın mağazalarda, axırda spisat eləyib yandırsınlar. Bu cür ziyankarlığa ancaq Sovet hökuməti dözür. Kapitalist deyir ki, çap eləmirəm, vəssalam, sən yazıçı döyülsən! Lap istəyirsən kiminsə qohumu yox, lap Allahın bacısı oğlu ol! Sən mənə ziyan vurursan, mən səni niyə çap eləyim?» Bu sözləri deyir, vicdansız, özü də mənə baxır. Istədim deyəm ki, ay alçaq, sən bizim hökumətin qeyrətini çəkirsən? Yazdıqlarının hamısı rüşvətxorlardan, əliəyrilərdən, mənfilərdəndi! Lakin bir söz demədim. Axı, nə mənası var? Doğrusu budur ki, Stalindən sonra sovet sənətinin atasını yandırıblar. O kişinin vaxtında belələrinin ixtiyarı nə idi, cınqırıqlarını çəksinlər? Vallah, başlarına bir oyun açardılar ki, anadan əmdikləri süd burunlarından gələrdi! Mir Cəfər Bağırov bilirsən neyləyərdi bunları? Baş barmağıyla, bunları taxtabiti kimi elə sıxardı ki, heç yerlərində izləri də qalmazdı. Lakin indi nə eləyəsən? Biri sovet adamına qara yaxır, onu rüşvətxor kimi göstərir, olmazın çirkabına baş vurur, yazdığını nəinki çap eləyirlər, hətta tərifləyib göyə qaldırırlar, ən dəhşətlisi də budur ki, iş o yerə çatıb ki, bəzən hökumət özü bunlara mükafat da verir!.. Əsl sovet mükafatları Stalin mükafatlarıydı ki, adamın döşündə bərq vururdu!.. Mən də alacaqdım də, lap az qalmışdı, lakin mənimki həmişə gətirmir!.. ««Şən həyat» kolxozunda» romanımı onda yazmışdım. Mir Cəfər Bağırov o romanın adını məruzəsində qeyd elədi; dedi ki, bizim sovet ədəbiyyatına həyatımızın işıqlı cəhətlərini vəsf edən bu cür əsərlər lazımdır! Bütün mətbuat mənim romanımdan yazırdı. Iki ilin içində üç dəfə çap elədilər, dərsliyə ondan parçalar saldılar, rus dilinə tərcümə olunub. Moskvada nəşr edildi, erməni dilinə

tərcümə edildi, Stalin mükafatına təqdim edildi... Lakin mənim baxtımdan Stalin öldü... Mir Cəfər Bağırovu da Stalin öləndən sonra, əvvəlcə Siyasi Büroya namizəd seçdilər, üç-dörd ay keçəndən sonra da işdən çıxartdılar, tutdular, məhkəmə elədilər, güllələdilər. O boyda kişini!.. Mənim mükafatım da çıxıb getdi işinin dalınca... O cür romanı o vaxtdan bəri bir dəfə də olsun təzədən nəşr eləmədilər. Bu hələ bir yana, üstünə də düşdülər ki, ««Şən həyat» kolxozunda» romanı konfliktsizlik nəzəriyyəsinin bariz nümunəsidir... Mənimki əvvəldən gətirmir... Dünya dəyişib... Dəyişib deyəndə xaraba qalıb... görmürsən, ruslar o boyda Semyon Babayevskinin indi heç adını da çəkmirlər?.. Indi antisovetçiklər moddadı, bir azdan əsl kommunistləri tutub güllələyəcəklər... Nə isə, bu elə bir dərddi ki, deməklə qurtaran deyil. Xalqın sözü var: biri soruşur: «– O hünərli atlara nə oldu, hanı onlar?»; cavab verirlər: «– Igid kişilər o hünərli atları çapıb getdilər!..» Stalin elə bir adam idi ki, ona hər şey yaraşırdı, cəmi iki dənə qəhrəman ulduzu var idi döşündə, amma adam baxanda elə bilirdi ki, göyün üzündə nə qədər ulduz var, hamısı onun döşündədi. Brejnev indi döşünü qursağına qədər orden-medalla doldurub, beş dənə qəhrəmanlıq ulduzu taxıb, daha sinəsində bir sıraya sığışmır, iki sıra düzüb, müharibədə polkovnikin biriydi, indi özünə «Qələbə» ordeni verib, marşal olub (ay Allah, dünyanın işlərinə bax də, vallah, doğrudan da Stalinin ölən günləridir!), yəqin generalissmus da olacaq, lakin nə olsun e, nə olsun? Iosif Vissarionoviç bığının bir tükünü tərpətsəydi, Brejnev kimisinin mini yox olardı! Camaat bilmir bunu? Lap yaxşı bilir, xalq sevir Stalini, həmişə də sevəcək! Brejnevi kimdi ürəkdən istəyən, bütün təriflərin hamısı elə-belə, sözdü! Nə etmək olar, mən də o gün partiya iclasında onu o ki, var, təriflədim... Sülh uğrunda sarsılmaz mübariz, zəmanəmizin böyük dövlət xadimi, Leninçi rəhbərlik stilinin bariz nümayəndəsi!.. Neyləyim? Yorğana bürün, ellə sürün!.. Hətta dedim ki, təbiət özü rəmzi eynilik yaradıb: Lenin də İliç idi, Brejnev də İliçdir! Düzdür, mən bu sözləri dedim, lakin kim bilmir ki, Brejnev təsadüfi adamdı?.. Xruşşovu ki demirəm, lənətə gəlmiş, aləmi batırdı getdi! Antisovetçikin biri idi, partiyanı ləğv eləmək istəyirdi! Görmədin, BMT-də ayaqqabısını çıxarıb xitabət kürsüsünü döyəclədi?! Gör kimlər gəldi tutdu Stalinin yerini?! Görməli günlərimiz varıymış!.. Gədə-güdə zəmanəsidi indi!.. Ode, Ərəstun Bozdağlı kimisinə fəxri ad verirlər, «Əməkdar incəsənət xadimi» olur, amma mən öz romanımı nəşr elətdirməkdən ötrü Əbdülə dayı deyirəm... Nə isə... Bir saatdan çox oturub gözlədim Mürsəlbəyliynən Əbdülü, axırı ki, gəlib çıxdılar. Əbdülün sifəti ağappaq ağarmışdı, görürdüm ki, ürəyi də tıp-tıp içindədi. – «Axı, məndə nə var, professor?» – soruşdu, özü də elə soruşdu, elə bil, dünyada bundan fağır adam yoxdu. Mürsəlbəyli yoğun qarnını qabağa verib: «– Sənin kimi kişidə nə ola bilər?!» – dedi, elə də bərkdən güldü ki, elə bil, zalım oğlu, «Məşədi Ibad»a baxır, Məşədi Ibadı da rəhmətlik Mirzəağa oynayır... Əbdülün sifətinin rəngi göz-görəti dəyişməyə başladı, gözlərindəki o təşviş də yavaş-yavaş yayındı. «– Yəni heç bir şey yoxdu məndə?» Mürsəlbəyli: «– Heç bir şey! – dedi. – Bütün için şüşə kimi tərtəmizdi! Nümunəvi!» «– Bir dərman-zad lazım deyil? Heç nə atmayım?» Mürsəlbəyli gödək qolunu (bu gödək qollarıyla, bu gödək barmaqlarıynan necə cərrahlıq eləyir, ay canım?..) irəli uzadıb, ətli əlini tərpədə-tərpədə: «– Heç bir dərman lazım deyil!» – dedi. «– Bəs, yeməyim-içməyim necə?» «–Ürəyin nə istəyir, ye, ürəyin nə istəyir, iç!» Mürsəlbəyli bu sözləri deyəndə, Əbdül mənə baxdı, onun o boz gözlərində bir təntənə varıydı: yəni ki, hə, Mürşüd Gülcahani, görürsən də, mən neyləyim axı, sən

otuz ildi yazvasan, gərək hər gün yemək-içməyini, pəhrizini gözləyəsən, lakin mənim kefim nə istəyir, onu da indiyə qədər necəydisə, eləcə də yeyib-içəçəyəm. Nə eləyəsən, mədəm də məni bu cür harın adamların yanında xəcil eləyir... Əbdül yekə əlini şalvarının cibinə soxub üç dənə – yazıçıyam axı, mənim gözümdən heç nə yayınmaz, – o saat saydım – üç dənə şax-şax yüzlük çıxarıb Mürsəlbəylinin xalatının cibinə basdı. O üç yüz manat mənim düz iki aylıq maaşımdı, vergiləri çıxandan sonra, əlimə gələn puldu, düz ikicə ayımın zəhmət haqqıdı. On illərlə mən o maaşa baxmışam, bununla qohum olana qədər, o əclaf Islamzadə mənim kitablarımı nəşr eləməyə başlayana qədər. O vaxtlar yavanlıq olmadığı üçün, o qədər çörəklə turşu-şoraba yedim ki, axırda mədəm də oldu beləcə yara. Mürsəlbəyli yalandan: « – Bay!.. Bu nəyə lazımdı?..» – dedi. Elə dedi ki, elə bil, üzr istəyirəm, əxlaqsız arvad təzə kişi ilə yaxınlıqdan əvvəl naz eləyir. Heç olmasa, məndən də utanmır e, vicdansız!.. Ay canım, gör gəlib nə vəziyyətə düşmüşük də... Professora bax də, professora!.. Bircə saatın içində mənim iki aylıq maşımı, cibinə basır, üstündən bir əxlaqsızcasına naz da eləyir!.. Əbdül də: «– Sənin üçün halaldır, professor!» – dedi. Işə bax, gör halallıqdan kim danışır də!.. Mənim iki aylıq maaşımı, elə bil, tumdu, çırtlayır, özü də halallıqdan dəm vurur!.. Bizim nəşriyyatda işləyən o sırtıq gədənin, o Səlim Bədbinin sözü olmasın, vallah, billah, Sovet hökumətidi ki, dözür bu zırıltıya! Nə isə, Mürsəlbəylidən ayrıldıq, xəstəxanadan çıxdıq. «– Əşşi, – dedim, – sən də yaman vasvasıymışsan e!..» «– Day demə!..» – dedi və güldü, həmişəki gülüşüylə güldü, daha sınıqlıq-zad yoxuydu bu gülüşdə «– Yaxşı, Gülcahani, xudahafiz! Get təzə romanını yaz...» Elə bil, bayaq mənə zəng eləyib təlaş içində bura gələn adam deyildi. Bağda ərik var idi, salam-məleyk var idi, bağda ərik qurtardı, salam-məleyk qurtardı!.. Ayrıldıq, o getdi qəbiristanlığa, mən də getdim nəşriyyata. Böyük adamlardan kimsə deyib ki, adamın xoşbəxt olmağı üçün iki şərt vacibdir: bir işə gedəndə həvəslə getsin, bir də evə qayıdanda həvəslə qayıtsın. Lakin mənim, doğrusu, nəşriyyatdan lap zəhləm gedir (otuz ildən artıqdır, orada redaktor işləyirəm), Ədilə də ki, pis adam deyil, lakin elə hey deyinir, deyinir, deyinir... Otuz beş ildir ki, deyinir... Faytonçu Əliməmmədin qızıdı də.... Mən obyektiv adamam, qayınatam olanda nə olar, o rəhmətlik faytonçu Əliməmməd də ətiacının biri idi... Nə isə... Axşam nəsə gözlənilməz bir hadisə baş verdi (kimin ağlına gələrdi?): bir də gördüm ki, telefon zəng çaldı, dəstəyi götürdüm, gördüm ki, Mürsəlbəylidi. «– Sənə vacib sözüm var. – dedi. – gedirəm bulvara hava almağa. Sən də gəl «Kukla teatrı»nın qabağına». «– Xeyir ola?» – soruşdum. «– Gələrsən, eşidərsən». – dedi. Dəstəyi də asdı. Geyinib getdim, görüşdük. «– Bilirsən nə var, Mürşüd? – dedi. – Sənin qudanın işləri xarabdı». «– Necə yəni xarabdı?» – soruşdum. «– Qudan xərçəngdi!» – dedi. Doğrusu, məhəttəl qaldım. «– Bəs, günorta dedin heç nəyi yoxdu?» – soruşdum. «– Nə deyəydim bəs? – dedi. – Adını da yazıçı qoymusan!.. Deyəydim ki, Əbdül Qafarzadə, xərçəngsən, cəmi də bir ay-iki ay ömrün qalıb?» «– Bəlkə səhv eləyirsən?» «– Nə səhv, a kişi? Yaponların aparatına söz yoxdu! Ağ ciyərini xərçəng basıb, hər tərəfə metastaz verib. Xərçəngin ən pisindəndi». «– Axı, sir-sifətində bir dəyişiklik yoxdu, qıvraqdı!..» «– Bir azdan ağrısı başlayacaq, heç bir əlacı yoxdu, cərrahiyyə-zad kömək eləməz. Yazıq əzabla öləcək!» Fikirləşdim ki, Mürsəlbəyli indi çıxarıb üç yüz manatı verəcək ki, apar qaytar özünə. Lakin nə üç yüz manat? Mənimlə ağızucu sağollaşıb, çıxıb getdi dəniz kənarında hava almağa. Belə-belə işlər... Ömərə xəbər verərəm, çatdırar Əbdülün

arvadına, qızına, çatdırmaz, öz işləridi... Mənim nə borcuma?.. Tərs kimi, əlimdəki roman da yarımçıqdı... Nikbin, işgüzar, yenilikçi bir kolxoz sədrinin fəaliyyətindən bəhs edir. Kolxoza sadə ad qoymuşam, indi təmtəraqlı adlar keçmir: «Göytəpə kolxozu» Bu kolxozda 1400 hektar pambıq becərirlər. Qərara alıblar ki, bunun 90 faizini maşınlarla toplasınlar. Bitkilərin yarpağını rayonda ilk dəfə yerüstü aparatların qüvvəsiylə tökürlər. Buna görə də 9 ədəd OVX-14 markalı aqreqat hazırlayıblar, nə avadanlıq lazımdı, alıblar, dərman tədarük ediblər. Təkcə «Göytəpə kolxozu»nda yox, bütün rayonda pambıq yığımına ciddi hazırlıq işləri gedir. Pambıqyığan maşınları təmir eləyib qurtarıblar. Çoxlu təzə maşın alıblar, ümumi sayı 880-dir. Pambıq məhsulunun 70 min tonunu maşınlarla yığmağı qərara alıblar. Bir sözlə, qiyamət bir əsər olacaq. Axı, mən müasir yazıçıyam – ictimai problemlər mənasında. Doğrusu, hələ indiyə qədər bu kolxoz sədri kimi sanballı müsbət qəhrəman surəti yaratmamışam, hətta bəzi səhvləri də olacaq... Lakin bu Əbdül öləndən sonra, Islamzadə o romanı nəşr edəcək? Mənimki, deyirəm də, bünövrədən gətirməyib, gətirməyəcək də... Işə bir bax, ay canım, Əbdül Qafarzadə də ölə bilərmiş... Vallah, ateistəm, düzdü, lakin görünür, nəsə bir qüvvə var ki, belə cəzalandırır də... Ədiləgilin dədə-baba evi Bakının yuxarı məhəllələrindən birinin həyətində idi. O həyətdə Molla Əsədullla adında bir dələduz yaşayırdı. Indi də hərdən görürəm onu, fırıldağın biridi. Gününü Tülkü Gəldi Qəbiristanlığında keçirir. Birdən yadıma düşdü... Bax də, Əbdül Qafarzadə öləcək, o Molla Əsədulla da, olsun ki, gəlib onun üstündə yasin oxuyacaq, Allahdan təvəqqe edəcək ki, onu behiştə göndərsin. Dünyadı də, behiştə getmək istəyənə bax, təvəqqe eləyənə bax... O qəbiristanlıqda bir fotoqraf var, Əbülfəzdi -nədi adı, tanıyıram, qabaqlar redaksiyalarda işləyirdi, avaranın biridi!.. Qəbiristanlıqda şəkil çəkib, ölü yiyələrinə sırıyır. Əbdül Qafarzadənin də dəfn mərasimində şəkillər çəkəcək yəqin, sonra da satacaq Ömərə... Yazıq Ömər, Qafarzadə öləndən sonra da bunların əsarətindən qurtarmayacaq... Orda-burda da pul gizlədib yəqin, qoca tülküdü, onlar kimə qalacaq?

## 17

## KAK DELA?

Xədicə arvadı Tülkü Gəldi Qəbiristanlığında yox, Bakıdan xeyli aralıdakı Təzə qəbiristanlıqda dəfn elədilər və çörəkçi Ağabalanın arvadı birinci dəfəydi ki, Təzə qəbiristanlığı görürdü, yana-yana:

– Vay, vay, vay!.. – dedi. – Ağəz, bura lap mikrorayondu ki!

Hələ illərin istisinə-soyuğuna düşməmiş və ölçüləri də, quruluşları da bir-birinə bənzəyən qəbir daşları göz işlədikcə bütün bu ətrafı bürümüşdü və bu az müddətdə Bakıdan xeyli aralıdakı o Təzə qəbiristanlıq elə böyümüşdü ki, dünyanın heç bir şəhəri o cürə sürətlə böyüyə bilməzdi. Buradakı qəbir daşlarının o eyniliyində, qəbir yerlərinin eyni ölçüdə xırda bostan sahələri kimi, yan-yana düzülüşündə bir yetimlik, kimsəsizlik var idi və çörəkçi Ağabalanın arvadı özünü saxlaya bilməyib ağlamsındı:

– Yazıq Xədicə xala...

Bu vaxt maraqlı bir hadisə baş verdi: iki gündən bəri ağlayan, yazıq Xədicə arvadın meyitini köhnə qəbiristanlıqda – məhəllə camaatının dədə-babasının dəfn olunduğu Tülkü Gəldi Qəbiristanlığında torpağa tapşırmaq istəyən, Təzə qəbiristanlıq söhbətini yaxına buraxmayan, qoca mömin arvadın ruhuna yaraşdırmayan məhəllə arvadları birdən-birə çörəkçi Ağabalanın arvadının üstünə çımxırmağa başladılar:

– A-a-a... Nolub e, bura?..

– Nöşün pis deyirsən, ağəz, qəbirsannıqdı də!..

– Burda ki, bu qədər məxluq basdırıblar, adam döyüllərdi begəm?..

Əlbəttə, bir halda ki, Tülkü Gəldi Qəbiristanlığında yer tapılmamışdı, bir halda ki, Xədicə arvadı gətirib burada dəfn eləyirdilər, daha bu mərasimi isbatdan çıxarmaq lazım deyildi, olacağa çarə yox idi, məhəllənin gücü çatmamışdı ki, arvadı aparıb dədə-baba qəbiristanlığında torpağa tapşırsınlar, daha üstəlik, yanıqsılanmaq lazım deyildi. Məhəllə camaatı – kişilər də, arvadlar da daha nə kirayənişin tələbəyə, nə də bu keçmiş rus dili müəlliminə yarıtmadıqlarına görə, söz verib, amma yerinə yetirməməyi – Tülkü Gəldi Qəbiristanlığında yer almağı bacarmadıqlarına görə acıqla baxmırdılar, daha nəzərləri ilə məzəmmət etmirdilər. Onsuz da son vaxtlar illər ötdükcə, dünya dəyişdikcə məhəllə istəsə də, istəməsə də, bunu üzə vursa da, vurmasa, da, öz acizliyi ilə barışırdı. Dünya get-gedə elə bir kola çevrilirdi ki, məhəllə daha o kola girə bilmirdi, olsa-olsa, çörəkçi Ağabalanın əsgərlikdən təzə qayıtmış oğlu kimi, hədə-qorxu ilə kifayətlənirdi. Indi hər şeyi pul həll edirdi, məhəllənin isə pulu yox idi, məhəllə kasıb idi; indi hər şeyi tanışlıq, tapşırmaq həll edirdi, məhəllənin isə elə bir adamı yox idi, ən böyük vəzifə sahibi Molla Əsədullanın qardaşı oğlu idi ki, o da 8-ci kilometr qəsəbəsində notarius işləyirdi və Xədicə arvadın yasına da heç gəlməmişdi... Dünya dəyişirdi... Daha doğrusu, dünya dəyişmişdi və o aprel axşamı ki, Xədicə arvadı gətirib Təzə qəbiristanlıqda dəfn eləyirdilər, olsun ki, məhəllə sövq-təbii hiss etdi ki, bundan sonra daha ölülərinin üzü bu tərəfədir – bu Təzə qəbiristanlıq tərəfə...

Molla Əsədulla da arvadların arasından ötüb təzə qazılmış qəbrə tərəf gedə-gedə:

– Əslində, – dedi, – müsəlmançılıqda qəbirin üstü gərək torpaqla bərabər olsun, qəbir gərək torpağa qarışsın... Müsəlman qəbri gərək torpaqdan seçilməsin... O təmtəraq ki, indi eləyirlər, o, sonraların işidi, əvvəllər belə şeylər olmayıb!.. Müqəddəs bir şəxs ölərdi, yaxud ki, bir alimi-üləma köçərdi dünyadan, onda məqbərə tikərdilər, vəssalam!.. Indi müqəddəslik yoxdu ki, day!.. Kimin pulu var, məqbərə də onunkidi!..

Tələbə fikirləşirdi ki, bəs, Molla Əsədullanın özünün necə, qəbrinin üstündə məqbərə tikəcəkdilər? Hər halda, o yazıq Xədicə arvadın qəbri, əlbəttə, torpaqdan seçilməyəcəkdi...

Xosrov müəllim əllərini qara plaşının ciblərinə soxub yeni qazılmış qəbrin aşağı tərəfində məhəllə kişilərinin arasında dayanmışdı və hələlik içi boş qəbrə baxırdı, sonra gözlərini qaldırıb camaatın başı üstündən Təzə qəbiristanlığa baxdı və birdən-birə iki-üç il bundan əvvəl – təxminən 1978 – 1979-cu illərdə gördüyü və o vaxtdan bəri yadından çıxmayan bir yuxunu xatırladı: onda N. S. Xruşşovu yuxuda görmüşdü. Xruşşov əyninə yaxası naxışlı Ukrayna köynəyi geyib iki əliylə də tutduğu nəlbəkidən xortuldada-xortuldada çay içirdi. «– Zdravstvuyte, Nikita Serqeeviç!..» «– A-a-a!.. Xosrov muallim... Kak dela?» «– Niçeqo... A kak vaşi dela?» «– Toje niçeqo...»

Xədicə arvadı basdırdıqları o aprel axşamı Xosrov müəllimə elə gəldi ki, N. S. Xruşşov da Bakıdan xeyli aralıdakı bu Təzə qəbiristanlıqda dəfn olunub və bir-birinə bənzəyən o qəbirlərdən biri də N. S. Xruşşovundur.

Təzə qəbir daşlarının eyniliyi, təmizliyi yenə də birdən-birə ağ xalatları Xosrov müəllimin yadına saldı, ağ xalatlar isə öz növbəsində professor Lev Aleksandroviç Zilberi gözlərinin qabağına gətirdi və Xosrov müəllimə elə gəldi ki, professor Zilber də bu Təzə qəbiristanlıqda dəfn olunub...

Əlbəttə, xüsusən, son vaxtlar Xosrov müəllim nə qədər öz dünyasına qapılsa da və bəzən oradan çox çətinliklə ayrılsa da, başa düşürdü ki, Xruşşov da, professor Zilber də burada dəfn olunmamışlar və yəqin ki, haçansa – üç gündən sonramı, iki ildən sonramı, o özü, yəni Xosrov müəllim burada dəfn olunacaq (hərgah morqda sahibsiz qalmasa və sümükləri çıxarılıb təbabəti öyrənən gələcək həkimlər üçün dərs vəsaitinə çevrilməsə; çox güman ki, elə məhz belə də olacaqdı, çünki bu yer üzündə Xosrov müəllimin özündən savayı heç kimi yox idi).

Xosrov müəllim öləcəkdi və mənalımı, mənasızmı (çox güman ki, mənasız...), uzun bir ömür sona yetəcəkdi və hərgah bu qəbiristanlıqda dəfn olunacaqdısa, o zaman onun da qəbir daşı bu saysız-hesabsız qəbir daşları kimi, dünyanın yetimliyindən, əlacsızlığından xəbər verəcəkdi... Amma o biri dünyada Xosrov müəllimin ruhu mütləq altı yaşlı Cəfərlə, dörd yaşlı Aslanla, iki yaşlı Azərlə görüşəcəkdi, çünki başqa cürə ola bilməzdi, hərgah o dünyadakı o görüş də olmayacaqdısa, hərgah o dünya da yox idisə, hərgah cənnət və cəhənnəm də boş bir əfsanə idisə və heç kim cəhənnəm odunda yanıb öz cəzasını almayacaqdısa, onda yaşayışın mənası nə idi və Xosrov müəllim səksən illik bir ömrün əzablarına nə üçün dözmüşdü, bu ömür nə üçün bu qədər uzanmışdı?

Molla Əsədulla qəbrin baş tərəfində dayanıb Quran oxuyurdu və molla oxuduqca tələbə Murad İldırımlı bir-bir ətrafdakı məhəllə kişilərinə baxırdı, bu adamların çoxunu sifətdən tanıyırdı, amma bir qismini də tanımırdı və o dəm tələbəyə elə gəlirdi ki, Məlik Əhmədli də bu adamların arasındadı, elə bil ki, Məlik Əhmədli doğrudan da, həyatda var idi və doğrudan da o qəribə sərnişinlə görüşmüşdü və elə bil ki, bu Təzə qəbiristanlıqda o Zəhra kəpənək kimi çoxlu kəpənəklər uçuşmuşdu, indi gizlənmişdilər, gözləyirdilər ki, bu adamlar buradan getsin, təzədən uçuşmağa başlasınlar...

...Yazıq Xədicə arvadı Təzə qəbiristanlıqda torpağa tapşırıb axşam qaranlığı geri qayıdandan sonra, məhəllə kişiləri həyətdə ehsan süfrəsinin arxasında oturub arvadların bişirdiyi bozbaşı yedikləri vaxt Balaniyazın gözləri yenə də həyətin kənar-bucaqlarında gəzirdi, amma tələbə Murad İldırımlıya elə gəldi ki, Xədicə arvadın oğlu bu dəfə siçan axtarmir, yox, pul, qızıl axtarır, bilmək istəyir ki, Xədicə arvad varidatını harada gizlədib?..

Elə ki, məhəllənin yeniyetmələri bozbaş kasalarını, pendirin, göyərtinin, yuxanın, çörəyin qalanını yığışdırdı, süfrəyə qənd, arvadların çaldığı halva düzdü, çay gətirməyə başladı, Balaniyaz birdən-birə ayağa qalxdı, həmişə nəsə axtaran iti gözlərinin güclə seziləcək işarəsi ilə Murad İldırımlını çağırdı, onda tələbə başa düşdü ki, nəsə bəd bir xəbər eşidəcək. Tələbə də qalxıb Balaniyazın arxasınca həyətin yuxarı başına, ayaqyolunun kənarındakı o damcılayan kranta tərəf getdi və orada üz-üzə dayandılar. Balaniyaz yenə də qarşısındakı bu gödəkboy kirayənişinə yox, həyətin künc-bucağına baxa-baxa:

– Sən... – dedi, – sən day özüvə başqa yer tap!.. Sabahdan çıx burdan! Satıciyəm buranı! Əl-əlbət, uje dünən müştəri tapmışam!..

Balaniyaz dünən də siçan axtarmırmış, müştəri axtarırmış...

Sonra Balaniyaz həyətdəki süfrə arxasında oturub dinməzcə çay içən Xosrov müəllimə tərəf işarə etdi:

– Ona da sən de... De ki, sabahdan çıxsın burdan! – Balaniyaz birinci dəfə tələbənin gözlərinə baxdı. – Nolar sən deyəndə? Anam elə çox istəyirdi səni ki!.. Əl-əlbət, çox istəyirdi!..

Balaniyaz yazıq Xədicə arvadın o otaqlarının da, o balaca arakəsmənin, o balaca mətbəxin də bütün künc-bucağını axtaracaqdı, divarları qarış-qarış taqqıldadacaqdı, döşəmənin, tavanın köhnə taxtalarını qaldıracaqdı və anasının qızıllarını axtaracaqdı – hər halda, tələbəyə belə gəlirdi və hətta tələbə, elə bil ki, bunu artıq gözləriylə görürdü: Balaniyaz özü siçovul idi və o siçovul ora-bura qaça-qaça bütün buraları axtaracaqdı... Sonra da bu evi satacaqdı...

Tələbə Murad İldırımlının bu gecə yatmağa yeri var idi, sabah da Bayıldakı şəxsi maşın dayanacağında qalacaqdı, yəni iki gecəlik aqibəti məlum idi.

Bəs, Xosrov müəllim necə olacaqdı? O da bu gecə burada qalacaqdı. Bəs sabah?

Quran deyirdi: «Ey iman gətirənlər! Səbr və ibadət etməklə – Allahdan kömək diləyin. Çünki Allah səbr edənlərlədir, onların dostudur».

## 18

## INTIHAR

Axşam düşhadüş idi və o aprel axşamı kimsəsiz çimərlikdəki talvarların, uzun kətillərin qışdan sonra hələ də rəngini itirməmiş rəngbərəng taxtaları, dəmir dirəkləri, iri və rəngbərəng brezent çətirlər yağışın altında tamam islanmışdı, qərbə tərəf axan topa-topa yaz buludlarının arasından hərdən bu yerlərə gün işığı düşürdü və o zaman o rəngbərəng brezent də, talvarların və uzun kətillərin rəngbərəng dəmir dirəkləri, taxtaları da, elə bil, o gün işığına sevinib parıldayırdı; sahilə cuman dalğalar ağappaq köpüklənmişdi və Giçbəsər qara gözlərini dənizin və topa-topa axan buludların bozluğu içində o ağlığa dikmişdi, sahilə çırpılan o dalğalara baxırdı.

Sonra yağış birdən-birə başladığı kimi, birdən-birə də kəsdi və uzaqda güclə sezilən üfüq xəttindən buludların arası ilə yavaş-yavaş qövsi-qüzeh görünməyə başladı və o qövsi-qüzehin yaşıl, sarı, göy, qırmızı rəngi get-gedə lap aydınlaşdı. Çimərliyin düz qarşısında üfüq xəttindən qalxmış o qövsi-qüzeh buludların arası ilə dövrə vurub buralardan xeyli uzaqlarda yenə də üfüq xəttində qurtarırdı.

Bomboş çimərliyin yuxarı hissəsindəki qayalığın önündə dal ayaqları üstə çöməlib qabaq ayaqlarını qumluğa dirəmiş Gicbəsər gözlərini o ağappaq dalğalardan çəkdi və qövsi-qüzehə baxdı. Bir müddət beləcə davam etdi, sonra o yaşıl, sarı, göy, qırmızı yavaş-yavaş buludların arasında, elə bil, əriməyə başladı, bir azdan tamam yox oldu – qövsi-qüzeh də birdən-birə dövrə vurduğu kimi, birdən-birə də o kimsəsiz çimərliklə, o qayalarla, o ağappaq dalğalarla vidalaşdı. Qövsi-qüzeh özü ilə bu kimsəsiz sahilə bir sevinc gətirdi, özündən sonra isə bir qəmginlik, bir həzinlik yaydı getdi.

Dənizin o dalğaları həmin qəmginlik, həzinlik içində ağlığından, elə bil, buludlara verdi, buludlar da ağappaq ağardı və o ağ buludlar yavaş-yavaş seyrəlməyə başladı, qərb tərəfdə isə günəşin altında qırmızımtıl rəng aldı. Dəniz bomboş idi, buludların bir hissəsi qırmızımtıl, bir hissəsi isə ağ idi, o dalğaların da köpüyü ağappaq idi və Abşeron sahilindəki həmin aprel axşamı bütün bu rənglərin hamısında bir qüssə var idi.

Uzaqda bir-iki dəfə şimşək çaxdı, amma o şimşəyin səsi gəlib bu bomboş çimərliyə çatmadı. Gicbəsər yerində dikəldi. Kiçicik hərəkət belə, bu itin bütün bədəninə bir ağrı yayırdı, amma o ağrıya baxmayaraq Gicbəsər bir-iki addım irəlilədi, elə bil, itin qara gözləri də o qəfil qövsi-qüzeh kimi, bu dənizlə, bu bomboş çimərliklə, islanmış rəngbərəng çətirlərlə, talvarlarla, uzun kətillərlə vidalaşırdı; sonra Gicbəsər başını aşağı salıb geri döndü və asta addımlarla qayaların arasından keçib çimərlikdən uzaqlaşdı.

Çimərliyin də, qayalığın da ab-havasında təmizlik var idi, xüsusən, o yağışdan sonra təmizlik, elə bil, daha da artmışdı, irəlidən isə benzin iyi, dəmir iyi, mazut iyi gəlirdi, o benzin də, mazut da, dəmir də sürətdən, qəfil hücumlardan, həmlələrdən, zərbələrdən, təhlükədən xəbər verirdi və Gicbəsər də indi o təhlükəyə doğru gedirdi.

Gicbəsər qayalığın üst tərəfində, qumluqda ayaq saxladı; Tülkü Gəldi Qəbiristanlığından çıxdığı müddətdə o qədər zəifləmişdi ki, qayaların arasından bir az yoxuş qalxdığı üçün ləhləyirdi və qabırğaları sayılan arıq böyürləri havadan tez-tez dolub boşalırdı. It yan-yörəsini iylədi və kənardakı tənha akasiya ağacına tərəf baxdı: ağacın dibində iki körpə küçük bir-birinə ilişə-ilişə ora-bura vurnuxurdu və bu küçüklərin tükü də eynilə Gicbəsərinki kimi, qəhvəyi-qara idi.

Küçüklərin gözləri təzə açılmışdı və onlar Gicbəsəri əvvəlcə hiss edib, sonra görüb quma bata-bata, sürüşə-sürüşə bu böyük itin yanına qaçdılar, qıçlarına dırmaşmaq istədilər, qarnının altında vurnuxdular. Boynunun əzələləri çox ağrısa da, Gicbəsər başını qabaq ayaqlarının arasından aşağı əyib, qarnının altında vurnuxan küçüklərə baxdı, sonra başını qaldırıb gözlərini yavaş-yavaş uzaq işıqları görünən Bakı səmtinə dikdi və Gicbəsərin Tülkü Gəldi Qəbiristanlığı tərəflərə baxan gözlərində bir qüssə var idi (həsrət yox, qüssə).

Gicbəsər gözlərini Bakı səmtindən çəkdi və yenə də qabaq ayaqlarının arasından qarnının altında vurnuxan küçüklərə baxdı.

Küçüklərdən biri burnunu Gicbəsərin burnuna dirədi, ikinci küçük də vurnuxa-vurnuxa, özünə yer axtara-axtara nəhayət ki, burnunu Gicbəsərin burnuna dirədi və Gicbəsər bu iki küçüyün təmiz nəfəsini hiss etdi.

Küçüklər başdan-başa bir etibar, bir ümid içində idilər, əmcək axtarırdılar və altdan yuxarı Gicbəsərin qarnını iyləyə-iyləyə, bir-birlərinə ilişə-ilişə o tərəf-bu tərəfə vurnuxurdular.

Gicbəsər, əlbəttə, küçüklərin o etibarını, ümidini duyurdu.

Uzaqlarda yenə də səssiz şimşək çaxdı.

Gicbəsər ayaqüstə dayana bilmirdi, ya gərək yerə çömələydi, ya da uzanaydı, bu itin bədəni o qədər yaralı idi ki, ayaq üstə dayananda da ağrıyırdı, yeriyəndə də, amma Gicbəsər nə çöməldi, nə də uzandı, asta addımlarla irəliyə getməyə başladı.

Küçüklərin ikisi də Gicbəsərin ardınca getdi və bir az beləcə getdilər, sonra Gicbəsər addımlarını yeyinlətmək istədi, amma bacarmadı, küçüklər isə yaxınlaşırdı və bu zaman Gicbəsər bir anlığa dayanıb arxa ayaqları ilə küçüklərin üstünə qum sıçratdı. Küçüklər də dayanıb gözlərini yumdu və qum sifətlərinə dəydi, yaş burunlarında, dodaqlarında yapışıb qaldı; küçüklər başa düşdü ki, daha irəli, o böyük itin ardınca getmək lazım deyil.

Qarşıdakı qumsal dikdirin o tərəfindən dəmir yolu keçirdi və get-gedə dənizdən uzaqlaşan o dəmir yolunun sal dirəkləri mazuta bulaşmışdı, relslər yağlı idi və Gicbəsər eləcə asta addımlarla küçüklərdən uzaqlaşdı, o mazut iyinə, dəmir iyinə doğru getdi, bütün bədəni ağrıya-ağrıya, məftillərlə cızılmış sir-sifəti göynəyə-göynəyə dikdirin üstünə qalxdı və oradan ətrafa baxdı.

Bakı tərəfin işıqları yavaş-yavaş sayrışmağa başlamışdı və orada Gicbəsər üçün heç bir naməlumluq yox idi, bu itin o uzaq sayrışan işıqlara baxan qara gözlərində indi tamam bir biganəlik var idi; Tülkü Gəldi Qəbiristanlığı da o tərəflərdə idi və əlbəttə, Gicbəsər başını aşağı salıb, canını dişinə tutub birtəhər gedib yenidən Tülkü Gəldi Qəbiristanlığına çıxa bilərdi – üç günəmi, beş günəmi, hər halda, gedib ora çıxardı, amma it biganə gözlərini o uzaq işıqlardan çəkdi və akasiya ağacının altına qayıdıb orada əvvəlki tək vurnuxan o iki küçüyə baxdı. Küçüklər Gicbəsəri

görmürdülər və bir-birini iyləyə-iyləyə təzəcə gözlərini açdıqları bu dünyanı öyrənirdilər. Gicbəsərin qara gözlərinə yenə də birdən-birə dərin bir qüssə çökdü, daha doğrusu, gözlərindəki o qüssə (həmişəki qüssə!) daha da artdı və itin qılçaları titrədi, dörd ayağı üstə dura bilməyib dikdirin başında yerə çöməldi, elə bil ki, haçansa yekə, hərarətli bir əlin o küçükləri tumarlayacağını, sonra həmin hərarətin həmişəlik itib gedəcəyini, o küçüklərin dəmir tor çəpərlərin, daş hasarların ətrafında, asfalt yolların, küçələrin üstündə böyüyəcəyini əvvəlcədən hiss etdi, sonra o hisslər bir-birinə qarışdı və hər şeyi dəhşətli, dözülməz bir ağrı, dözülməz bir aclıq, dözülməz bir susuzluq əvəz etdi.

Akasiyanın altındakı küçüklər bir-birini iyləyə-iyləyə sərçə kimi civildəyirdilər və o civilti dənizdən gələn uğultu müqabilində o qədər zəif idi ki, dikdirin hər iki tərəfini – o qumluğu, qayalığı da, uzanıb gedən o yağlı-mazutlu dəmir yolunu da, elə bil, şəffaf bir duman kimi, yazıqlığa, acizliyə, ümidsizliyə bürüyürdü.

Qərb tərəfdə getdikcə qırmızısını tamam itirən buludların altında günəş batırdı, şərqdən isə ay çıxırdı və o aylı-günəşli aprel axşamı qumsal dikdirin başında çöməlmiş Gicbəsərin gözlərindəki qüssə, elə bil, bayaqkı o qövsi-qüzeh kimi əridi, gecə düşdükcə, o qara gözlərin də ifadəsi itdi, qaranlığa qarışdı.

Gicbəsər ayağa qalxdı, dikdirin üstündən sonuncu dəfə uzaqlarda sayrışan o Bakı işıqlarına tərəf baxdı və başını aşağı saldı, həmin uzaq işıqları da, o tənha akasiya ağacını da arxada qoydu, dikdirdən düşüb dəmir yoluna çıxdı, relslərin arasına girib eləcə astaca-astaca getməyə başladı.

Relslərin arası ilə yerimək çətin idi – relslərin bərkidildiyi mazutlu sal dirəklərin arası çınqılla doldurulmuşdu və hər dəfə dirəkdən çınqıla, çınqıldan isə təzədən dirəyin üstünə pəncəsini qoyduqda itin bütün əzələləri, yaralarının üstü qaysaq bağlamış dərisi dözülməz bir ağrı ilə ağrıyırdı, amma Gicbəsər relslərdən kənara çıxmırdı və başını aşağı salıb eləcə irəliləyirdi.

Gicbəsər relslərin titrəyişini hiss etdi, uzaqdan sürətlə gələn təkərlərin səsini relslərdən eşitdi və it başını daha da aşağı saldı, elə bil, hansı bir zərbədənsə sövq-təbii qorunmaq istəyirdi, amma relslərin arasından kənara çıxmadı, əksinə, bədəninin ağrısına baxmayaraq addımlarını gücü çatınca dəqiq atmağa, relslərin tən ortası ilə irəliləməyə başladı.

Arxadan gələn qatar sürətlə yaxınlaşırdı və Gicbəsər o sürəti indi daha cismani hiss edirdi, amma nə arxaya baxırdı, nə də relslərin arasından çıxırdı.

Qatarın sürəti təkcə relsləri yox, o sal şalban parçalarını da titrətməyə başlamışdı və Gicbəsərin ürəyi də eləcə bir sürətlə döyünürdü, amma it relslərin arasından kənara çıxmırdı.

Giçbəsər hiss edirdi ki, indicə dəhşətli bir zərbə alacaq və itin bütün fəhmi onu dartıb kənara atmaq istəyirdi, amma Gicbəsər bütün varlığını zorlayıb o fəhmini boğurdu, özünü o fəhminin ixtiyarına buraxmırdı.

It o sürəti lap yaxınlığında duydu, sonra lap bir qarışlığında hiss etdi və sonra hər şey bitdi.

Qatar sürətlə bu yerlərdən keçdi.

Başqa heç bir səs eşidilmədi, yalnız qatarın səsi bütün bu ətrafa yayıldı.

Sonra qatar uzaqlaşıb gözdən itdi.

Bu yerlərə sakitlik çökdü.

Günəş tamam batmışdı və qərbə axan buludların arasından hərdənbir ay görünürdü.

Gicbəsərin bir yığın qanlı sür-sümükdən və qəhvəyi-qara tüklərdən ibarət cəsədi relslərin arasında qalmışdı.

Uzaqlarda yenə səssiz bir şimşək çaxdı...

1984 – 1988.

# İLYAS ƏFƏNDİYEV:
# ŞƏXSİYYƏTİ VƏ SƏNƏTİ

***(Sənədli romandan fraqmentlər)***

## 1.

İlyas Əfəndiyev ən dəruni hisslər ilə Azərbaycana, Azərbaycanın içində – Qarabağa, Qarabağın içində isə – Füzuliyə, öz nəsil-nəcabətinə bağlı bir adam idi və onun, hərdən uşaqlıq illəri haqqında danışdığı xatirələr, o xatirələrdəki etnoqrafik detalların zənginliyi, müşahidələrin dərinliyi, çoxdan haqq dünyasına köçüb getmiş insanlara, o dövrün mənəvi dəyərlərinə ehtiramı, üç cümlə ilə uşaqlıq dövrünün koloritini, onu əhatə edən adamların xarakterini verə bilmək bacarığı adama elə təsir edirdi ki, elə bil, özün bütün vaxt, zaman qanunlarını pozub, onunla birlikdə onun o uşaqlıq dövrünə getmisən.

Mən deyə bilmərəm ki, İlyas Əfəndiyev keçmişlə yaşayırdı, çünki belə deyildi, bəlkə də, əksinə idi, o, gələcəklə yaşayan bir adam idi və onun yaradıcılığındakı daimi yenilik meyli də, şəxsiyyətindəki xüsusiyyət – həmişə təzəlik, yenilik sorağında olması da, güman ki, elə buradan gəlirdi, amma bir cəhət də həqiqət idi: keçmiş həmişə İlyas Əfəndiyevin içində idi, həmişə onunla birlikdə idi.

İlyas Əfəndiyevin «Geriyə baxma, qoca» və «Üçatılan» romanları, əslində, avtobioqrafik əsərlərdir və o romanlarda, eləcə də 80-ci illərin sonlarında, 90-cı illərin əvvəllərində yazdığı bir sıra xatirə-esselərdə, xüsusən, «Çovğunlu bir qış günündə», «Orfey quyudan çıxandan sonra nə gördü?..», «Axund Molla Şükürün cənnət bağı necə oldu?»da həyatının ilkin mərhələləri, soyu-kökü haqqında ətraflı yazıb və bu əsərlər yalnız onun özünün həyatının yox, ümumiyyətlə, xalqımızın yaxın keçmişdəki güzəranının, məişətinin, psixologiyasının, Qarabağ elatının etnoqrafik xüsusiyyətlərinin öyrənilməsi baxımından zəngin bir mənbədir.

Bizim görkəmli tənqidçimiz Yaşar Qarayev yazırdı: «Azərbaycan tarixi barədə klassik sənədlər – yeddi «Qarabağnamə» var. Bütünlükdə, İlyas Əfəndiyevin yaradıcılığını mən səkkizinci «Qarabağnamə» hesab edirəm».

İlyas Əfəndiyevin ulu babası Xoca Əhməd Əfəndi XVIII yüzilin sonlarında Ərzurumun Kars mahalından gəlib Qarabağda, indiki Füzuli (o zamankı Qarabulaq, sonralar isə, orada öldürülmüş çar palkovniki Koryaginin şərəfinə «Qaryagin» adlandırılıb) rayonunun Saracıq deyilən obasında yurd salıb, orada evlənib, görkəmli din xadimi, islamşünas alim kimi məşhurlaşıb və onun nəsli «Əfəndi uşağı» kimi hörmət və nüfuz qazanıb.

«Əfəndi uşağı» Xoca Əhməd Əfəndidən gələn dini ənənələri davam etdirib və o nəslin nümayəndələri bütün Arazboyu Qarabağın tanınmış, savadlı və nüfuzlu din xadimləri olublar.

Ancaq təxminin yüz ildən sonra – XIX əsrin sonlarında «Əfəndi uşağı» nəslinin bu ənənəsi pozulub: Xoca Əhməd Əfəndinin nəticəsi Hacı Axund Molla Ağaməhəmmədin böyük oğlu Məhəmməd, həmin ənənəyə uyğun, nəsillikcə din xadimi olmaq əvəzinə, ilkin dini təhsilini başa vurduqdan sonra, ticarətə meyl edib və gənc yaşlarından etibarən, bacarıqlı, işgüzar, geniş əlaqələrə malik, ziyalı bir tacir kimi bütün Füzuli və ümumiyyətlə, Qarabağ camaatının hörmətini qazanıb. O, həm də igid, qabağından yeməyən, sərt xarakterə malik, at çapan, nişan vuran bir adam idi.

İlyas Əfəndiyev 1993-cü ildə uşaqlıq çağlarını xatırlayaraq yazırdı: «Mənim dünyada fərəhləndiyim, fəxr etdiyim iki şey var idi: bunun biri Göydəmir atımızın Füzulidə, Şuşada heç bir cıdırda məğlub olmaması, ikincisi, atamın tapanca ilə

sərrast nişan vurması idi. Novruz bayramında atamın, dostları ilə mərcləşib neçə metr hündürlüyə atılan almanı, yumurtanı havada necə vurduğunu çox görmüşdüm».

Tacir Məhəmmədin Füzulidə müxtəlif mallar satılan doqquz dükanı, Şuşada, Ağdamda, Bərdədə, Yevlaxda, Tərtərdə, Ağcəbədidə qumaş dükanları, Bakıda, Həştərxanda, Vladiqafqazda, Tehranda, Təbrizdə şərikləri var idi və Füzulidə tikilən ilk ikimərtəbəli böyük daş bina da onunku idi. Bolşeviklər gələndə soldatlar o binada yerləşdirilmişdi və sonralar bu barədə İlyas Əfəndiyev yazırdı: «On birinci ordu Azərbaycanı istila edəndə atamın mağazaları, bütün var-yoxu əlindən çıxmışdı. Biz qorxub Qaryagin şəhərindən kəndə qaçmışdıq. Evlərimiz xalça-gəbəylə, mebellə dolu qalmışdı. On birinci ordunun bir batalyonu bizim evlərdə yerləşmişdi. Aralıq düzələndə, biz şəhərə – öz evimizə qayıdanda gördük ki, var-yoxumuzdan heç nə qalmayıb. Əsgərlər atamın Peterburqdan gətirdiyi mebelləri sındırıb taxtalarını ocaqda yandırmış, məxmərlərini də atlarına çul etmişdilər».

Məhəmmədin elə gənc yaşlarında da ailə qurduğu Bilqeyis xanım isə, əsli-nəcabəti ilə bütün Qarabağda məşhur olan Bayram bəyin qızı idi və o, «Əfəndi uşağı»ndan fərqli olaraq, tamam dünyəvi bir nəslin nümayəndəsi idi. Orasını da deyim ki, bu iki müxtəlif təmayüllü nəslin qohumluğunun da maraqlı bir tarixçəsi var idi: gənc Məhəmməd, 16 yaşlı Bilqeyis xanımı qaçırmışdı və yeniyetməlik vaxtlarımda babamla nənəmin bu tarixçəsi Romeo və Cülyettanın hisslər aləmindən xəbər verən çox romantik bir əhvalat kimi mənə təsir edirdi...

1988-ci ildə çap etdirdiyi «Çovğunlu bir qış günündə» adlı sənədli hekayəsində İlyas Əfəndiyev, 1934-cü ildə Pedaqoji Institutun tələbəsi ikən, qış vaxtı ata-anasının, bacı-qardaşlarının öz evlərindən çıxarıldığını, çadır qurub suyun-palçığın içində həyətdə yaşadıqlarını, üstəlik, atasının da xəstə olduğunu eşidib Füzuliyə qayıtmasını təsvir edir və yazır ki, onu Horadiz stansiyasından evlərinə köhnə tanışları – Həbib kişi öz faytonunda aparır.

«Qədim Xorasan kürkünə bürünərək faytonun qozlasında əyləşmiş Həbib dayı keçən günlərdən, özünün cavan vaxtlarından danışırdı:

– O vaxt atan (tacir Məhəmməd– E.) cavan, gözəl bir oğlan idi. Bilqeyis xanımı götürüb mənim faytonumda Ağdama qaçıranda, Pirağbulaq dərəsində Qaçaq Xanmuradın (XX əsrin onuncu illərindlə bütün Qarabağ mahalında məşhur bir qaçaq olub– E.) dəstəsinə rast gəldik... Atanın kimlərdən olduğunu, kiminlə qaçdıqlarını mən danışandan sonra, qaçaq Xanmurad barmağındakı brilyant üzüyü çıxarıb Bilqeyis xanıma verib dedi:

– Bacı, bunu sənə boy görüncəyi verirəm.

Inqilabdan sonra tez-tez gəlib, evimizi axtarıb, bizdən əsassız olaraq qızıl, tapanca tələb eləyən başabəla inzibati işçilər anamın dədə-babadan qalma ziynət şeyləri ilə birlikdə, Xanmuradın bağışladığı o üzüyü də aparmışdılar.»

Şuşadakı rus gimnaziyasını bitirmiş Bayram bəy yalnız Füzuli tərəflərin deyil, bütün Qarabağın çox sayılan adamlarından biri idi və bu nüfuzuna, hörmət-izzətinə görə, Azərbaycan Xalq Cümhuriyyəti yarandıqda, onu Ağdam qəzasının rəisi (naçalniki) təyin edirlər.

Ağdam qəzası o zaman Gəncə quberniyasına daxil idi və Bayram bəylə qubernator Xudadat bəy arasında səmimi və məhrəm bir münasibət var idi. Yadıma gəlir, nənəm Bilqeyis xanım tez-tez xatırlayırdı ki, «Xudadat bəy dədəmə (yəni Bayram bəyə) demişdi ki, qoy Isfəndiyar bəy Şuşa realnı məktəbini bitirsin, onu

Parisə oxumağa göndərəcəyik, Teymur bəyi də Fransada diplomatiya məktəbinə göndərəcəyik.»

Isfəndiyar bəy – Bilqeyis xanımın kiçik qardaşı idi, amma tale ona başqa bir həyat yolu hazırlayıbmış: o, Şuşa realnı məktəbini qurtarandan sonra, XI rus-bolşevik ordusu Azərbaycanı istila etdi və gümüş xəncəri belinə bağlayıb köhlən atın belində həmişə cıdır yarışlarını udan, davranışı, geyim-kecimi, igidliyi ilə «plov yemirəm ki, bığım yağa batar» deyən, eyni zamanda, rus ədəbiyyatını dərindən bilən, ümumiyyətlə, dünya mədəniyyətinə yaxşı bələd olan Isfəndiyar bəyin başına dünyanın min bir müsibəti gəldi və onun ömrü 1956-cı ildə Bakının keçmiş Poluxin küçəsində, Axund hamamının yanındakı birmərtəbəli binanın ikiotaqlı darısqal mənzilində sona yetdi.

Teymuru isə – Bilqeyis xanımın dayısı oğlu Teymur bəy Bağdadbəyov idi və o yaraşıqlı, savadlı gəncə də diplomatlıq qismət olmadı – 1919-cu ildə erməni millətçiləri Şuşada xaincəsinə qətlə yetirdi və aradan nə qədər illər ötüb keçsə də, o qətlin ağrısı-acısı bizim evdəki xatirələrdən çəkilib getməmişdi...

İlyas Əfəndiyev bütün bunlar barədə Nigar Rəfibəylidən bəhs etdiyi «Şairənin qisməti» adlı essesində yazıb və ümumiyyətlə, İlyas Əfəndiyev, ömrünün sonuna qədər Bayram bəyi tez-tez və xüsusi bir hərarətlə xatırlayırdı.

Babası rəhmətə gedəndə (Əfəndiyevlər ailəsinə sonralar da çox zülm çəkdirmiş yerli bolşeviklər 1923-cü ildə onu zəhərləyib öldürmüşdülər) İlyas Əfəndiyevin doqquz yaşı var idi, amma onun Bayram bəylə bağlı xatirələri çox səlis və ən kiçik detallarına qədər təfərrüatlı idi, mən, hətta mat qalırdım ki, o yaşda uşaq bütün bunları necə yadında saxlayıb.

Orasını da deyim ki, İlyas Əfəndiyev 1971-ci ildə tamaşaya qoyulmuş «Mahnı dağlarda qaldı» dramında Böyük bəy adı ilə Bayram bəyin obrazını yaratmışdı və bu surətin xarakteristikası ilə bağlı hər gün tamaşanın quruluşçu rejissoru Əliheydər Ələkbərovla danışması ilə kifayətlənməyib, günorta teatrdakı məşqlərdən sonra, hər axşam da telefonla bu rolun ilk ifaçısı Ismayıl Dağıstanlıya zəng edirdi, rolu təhlil edirdi, nüanslarını çatdırırdı.

İlyas Əfəndiyevi narahat edən cəhət o idi ki, Böyük bəy – o dövrün ibarələri ilə desək, «sinfi düşmən» idi, amma müəllif onu ləyaqət, mərdlik, ağayanalıq, vətənpərvərlik, ailəcanlılıq timsalı kimi təsvir etmişdi və bütün bunları, necə deyərlər, akvarellə canlandırmaq lazım idi, çünki bu obraz və ümumiyyətlə, bu əsər, sovet yazıçısı tərəfindən, özü də dövrün hakim ideologiyası üçün çox mühüm olan bir mövzu ilə bağlı, gəmidə oturub gəmiçi ilə dava eləmək demək idi.

İlk dəfə 1971-ci ilin 12 fevralında göstərilən bu tamaşada Böyük bəyin (Bayram bəyin!) obrazı İlyas Əfəndiyevin düşündüyü kimi də alındı və o dövrün ədəbi təsnifatı ilə desəm, Böyük bəy Azərbaycan sovet teatr sənətinin tarixinə «müsbət» bəy kimi düşdü. Bura orasını da əlavə edim ki, tamaşanın müvəffəqiyyəti o qədər böyük oldu və tamaşaçılar da, nüfuzlu tənqidçilər də onu elə yüksək qiymətləndirdilər ki, əsər Dövlət Mükafatı aldı.

Sonralar mən «Mahnı dağlarda qaldı»nın əsasında «Mən hələ qayıdacağam» adlı kinossenari yazdım və rəhmətlik Kamil Rüstəmbəyov o ssenari əsasında eyniadlı film çəkdi və o film bir o qədər uğurlu alınmasa da, Həsənağa Turabovun ifasında Böyük bəy surəti filmdə də yaxşı çıxmışdı.

Amma mən, deyəsən, mövzumdan bir az uzaqlaşıram...

Məhəmmədlə Bilqeyis xanımın yeddi uşağı olur: ilk övlad İlyas, sonra Məhbub, Mustafa, Tofiq, Məhluqə, Arif, Nəzihə.

Və bolşeviklər gəldikdən sonra, bu ailənin başına gətirilən məşəqqət, onların düçar olduğu min bir əzab-əziyyət barədə İlyas Əfəndiyev yuxarıda adını çəkdiyim əsərlərində, müsahibələrində bəhs edib, amma o məşəqqətə, o əziyyətlərə baxmayaraq, o yeddi uşağın yeddisi də («səsi alınmış»– yəni hakimiyyət tərəfindən bütün vətəndaş hüquqlarından məhrum edilmiş keçmiş tacir Məhəmməd 1933-cü ildə 46 yaşında vəfat etmişdi, nənəm Bilqeyis xanımın sözü ilə desəm, «bolşeviklər kişini çərlədib öldürdülər») böyüyüb təhsil aldı və cəmiyyətdə öz nəsillərinə layiq yer tutdu. Burada Bilqeyis xanımın sərt (düzdü, bəzi məqamlarda çox kövrək olurdu), məğrur xarakteri böyük rol oynamışdı.

Təbiəti (və nəsli!) etibarilə zadəgan olan, mütaliəni çox sevən (axşamlar eynəyini taxıb həm əski – ərəb əlifbasında, həm də latın və kiril əlifbalarında kitablar oxuyurdu, ən çox sevdiyi romanlardan biri Mayn Ridin «Başsız atlı»sı, biri də Rəşad Nuri Güntəkinin «Çalı quşu» idi.) Bilqeyis xanım bütün canı ilə, qanı ilə sovet hökumətinə nifrət edirdi. Mənim bir çox təsirli uşaqlıq xatirələrim nənəmin Stalinə, başqa sovet rəhbərlərinə, komsomola, pionerə hədsiz kin-küdurəti ilə bağlıdır və çox zaman o, həmin nifrəti, kin-küdurəti gizlədə bilmirdi.

Heç vaxt yadımdan çıxmayacaq bir epizodu xatırlayıram: 7 saylı məktəbin 3-cü sinifində oxuyurdum və bir gün bizi təntənəli surətdə pionerə keçirdilər, boynumuza qırmızı qalstuk bağladılar və biz pioner andı içdik. Məktəbə gəlmiş bəzi valideynlər bu münasibətlə uşaqlarını öpür, bir-birini təbrik edirdilər. O zaman biz Mirzə Fətəli küçəsi [1] 117 ünvanında yaşayırdıq və mən də ilk dəfə boynuma bağlanmış o qırmızı ipək pioner qalstukunun sevinci ilə evə gəldim, şəstlə qapımızı döydüm. Qapını nənəm açdı və boynumdakı o ilk pioner qalstukunu görüb:

– O nədi elə, taxmısan boynuna?– çımxırdı.– Çıxart, tulla o tərəfə!..

İlyas Əfəndiyevin uşaqlıq yoldaşı, sonralar tarixçi olmuş Əhəd Bağırzadə 40-cı illərdə Azərbaycan KQB-sinin partiya təşkilatı katibi işləmişdi və İlyas Əfəndiyevə belə bir qəribə əhvalat danışmışdı: 40-cı illərin sonunda Moskvanın göstərişi ilə növbəti dəfə ifşa olunacağı nəzərdə tutulan «xalq düşmənləri»nin, yəni potensial repressiya qurbanlarının siyahısı tutulur və İlyas Əfəndiyevin də adı o siyahıda olur. Siyahını nəzərdən keçirən Mir Cəfər Bağırov öz əli ilə onun adını pozur və deyir:

– Bu cavan yazıçıda işiniz olmasın. Neftçilərin həyatından yaxşı pyes yazıb («Işıqlı yollar»ı nəzərdə tutur). Qoyun qalsın. Ancaq bunun anası Azərbaycanda sovet hökumətinin ən qatı düşmənidir.

Amma biz yenə Məhəmmədlə Bilqeyis xanımın övladlarına qayıdaq.

İlyas Əfəndiyevin özündən sonrakı qardaşı Mustafa Əfəndiyev (Məhəmməd ikinci oğluna babası Axund Hacı Molla Ağaməhəmmədin atası Xoca Mustafa Əfəndinin adını qoymuşdu) fin müharibəsində, sonra II Dünya müharibəsində iştirak etdi, ağır yaralandı, müharibədən sonra isə Moskvada M.Lomonosov adına Universitetin jurnalistika fakültəsini bitirdi, görkəmli tərcüməçi və naşir kimi tanındı, 1982-ci ildə 63 yaşında ikən vəfatına qədər uzun müddət Azərnəşrin direktoru oldu. Onun bir çox tərcümələri, o cümlədən, Lev Tolstoydan tərcümə etdiyi «Hacı Murad» bizim tərcümə ədəbiyyatımızın gözəl nümunələrindəndir.

Üçüncü qardaş Tofiq Əfəndiyev Xarici Dillər Institutunu bitirmişdi, tanınmış yazıçı, bir çox hekayə, povest və romanların, o cümlədən, məşhur «Prokuror» romanının müəllifi idi.

Məhbub xanım və Məhluqə xanım (şair Çingiz Əlioğlunun anası) – müəllimə idilər, Arif Əfəndiyev – hüquqşünas, Nəzihə xanım – həkimdir.

Orasını da deyim ki, ən kiçik bacısı Nəzihənin adını 17 yaşlı gənc ikən İlyas Əfəndiyev özü qoymuşdu və sonralar bu barədə yazırdı: «Bir aciz iynə ilə bir cəbəl nasıl qazılır?» misrası yadımda qalan şerin müəllifi gənc türk şairəsi Yişar Nəzihənin... şəklini məşhur türk ədəbiyyatşünası və şairi Ismayıl Hikmətin «Türk ədəbiyyatı» kitabında görmüşdüm... Mən təzə doğulan bacımın adını da Nəzihə qoymuşdum».

Yəqin, qəribə cəhətlərdən biri odur ki, İlyas Əfəndiyevin həm ata, həm ana tərəfdən nəslində ədəbiyyatçılar, ümumiyyətlə, sənət adamları olmamışdı (yalnız dayısı, yəni Bilqeyis xanımın böyük qardaşı Cəlil bəy Bağdadbəyov tanınmış teatr xadimi, bir sıra pyeslərin, eləcə də çox maraqlı xatirələrin müəllifi idi, amma bu, – artıq onuncu illərin və sonraların hadisəsi idi), ancaq bu yeni nəsildə İlyas Əfəndiyevdən başqa, qardaşları da, artıq yazdığım kimi, ədəbiyyatçı idi. Sonrakı nəsildə də mən, qardaşım, filologiya elmləri doktoru, professor Timuçin Əfəndiyev, bibim oğlu, şair Çingiz Əlioğlu...

**2.**

Qəribədir, İlyas Əfəndiyev uşaqlıq illərinə, soyuna-kökünə, iti hafizəsinin ötüb keçmiş günlərlə bağlı ömrünün son günlərinədək dəqiq təfərrüatlarıyla qoruyub saxladığı xatirələrə nə qədər bağlıydısa, bir o qədər də öz şəxsi arxivinə fikir verməyən, nəinki mətbuatda çap olunmuş əsərlərini, onun haqqında yazılmış məqalələri, hətta öz kitablarının belə, nüsxələrini özündə saxlamağa əhəmiyyət verməyən bir insan idi. Bizim tapıb, alıb gətirdliyimiz kitabları da, görürsən ki, hansısa oxucusuna, qələm yoldaşına, yanına gələn hansısa jurnalistə bağışlayırdı və təkrar nəşrləri hazırlayarkən, məcbur olurduq ki, əvvəlki nəşrləri kitabxanadan xahiş edib götürək, makinada üzünü çıxartdıraq.

O öz şöhrətinin, öz yaradıcılıq taleyinin rejissoru deyildi və təbiəti etibarilə həmin sənətkarlardan biri idi ki, sənətinin taleyini zamanın (tarixin!) öhdəsinə buraxmışdı, onun üçün mübahisəsiz (və qəbul etdiyi!) bir həqiqət ondan ibarət idi ki, sən nə edirsən, et, göyə çıx, yerə düş, nə yazmısansa, onu zaman süzgəcdən keçirəcək və kafi, ya qeyri-kafi qiymətini verəcək – nə bundan yuxarı olacaq, nə də bundan aşağı.

Və İlyas Əfəndiyev burasını da yaxşı bilirdi ki, sənəti süzgəcdən keçirəcək, çaf-çürük edəcək o qüvvə – zaman! tarix! – tamam amansız bir şeydir və heç bir şəxsi cidd-cəhdə baxmır.

Bu, əlbəttə, o demək deyildi ki, İlyas Əfəndiyev yaradıcılığına qarşı biganə idi, əksinə, «yaradıcılığın taleyi» – bu mövzu onu daima düşündürürdü, bəzən tərəddüdlərə, hətta müvəqqəti bir mənəvi böhrana da gətirib çıxarırdı.

Misal üçün, bir epizodu xatırlamaq istəyirəm, hərçənd bunu mən artıq hansı yazımdasa demişəm, amma indi də təkrar edirəm, çünki elə bilirəm ki, İlyas Əfəndiyevin yaradıcılıq psixologiyası, yazıçı xarakteri və ümumiyyətlə, təbiətinin xüsusiyyətləri barədə az şey demir.

Bir dəfə axşamçağı mən ona baş çəkməyə getmişdim və onu görən kimi hiss etdim ki, fikirlidir, düşüncələri haradasa, başqa sferalardadır.

Onun yaxşı kitabxanası var idi: müasir dünya ədəbiyyatı, klassiklər... və birdən İlyas Əfəndiyev iş otağında gəzişə-gəzişə kitab rəflərinin qarşısında dayandı və o kitabları göstərərək soruşdu:

– Bunlardan sonra bizim yazmağımızın bir mənası var?

«Bunlar» – Şekspir, Servantes, Molyer, Şiller, Höte, Lev Tolstoy, çox qiymətləndirdiyi Balzak, sevdiyi Flober...

O zaman mən İlyas Əfəndiyevə belə bir cavab verdim:

– Hər bir yazıçını öz xalqının taleyi, tarixi kontekstində qiymətləndirmək lazımdır. Hərənin öz yeri var. Yoxsa, hər şey, sənin şübhələndiyin kimi, mənasız olar.

Mən bu gün də güman edirəm ki, onda atama düz cavab verdim.

Amma bu cavab onun o dəmdəki hisslər aləminə nəsə bir təsir etdimi? – bunu deyə bilmərəm...

Elə bilirəm ki, bu epizod onun öz yaradıcılığına və ümumiyyətlə, yaradıcılıq məsələlərinə, sənətə tələbkarlığından, daxili mübahisələrindən, yalnız sənətin yox, həyatın mənası barədə düşüncələrindən xəbər verirdi.

Bəzən qəribə hadisələr olurdu.

14 sentyabr 1943-cü ildə – gənc bir yazıçı olarkən – «Ədəbiyyat qəzeti»ndə İlyas Əfəndiyevin «Tar çalındı» adlı bir hekayəsi çap olunub – bu tarixi mən sonralar dəqiqləşdirdim, o hekayəni isə, necə olmuşdusa, ikinci nüsxəsi qorunub saxlanmış – indiki kimi yadımdadır – sapsarı, qıraqları didilmiş köhnə makina yazısından oxumuşdum, sonralar elə o köhnə makina yazısının sayəsində İlyas Əfəndiyev onu 1959-cu ildə nəşr olunmuş bircildlik «Seçilmiş əsərlər»inə, eləcə də 1964-cü ildə nəşr olunmuş ikicildliyinin birinci cildinə daxil etmişdi.

60-cı illərin əvvəllərində, əgər, səhv etmirəmsə, 1966-cı ildə – onda mən aspiranturaya yenicə qəbul olunmuşdum – bizim gözəl yazıçımız Isa Hüseynovun «Saz» adlı povesti çap olundu və mən o povesti «Azərbaycan» jurnalında oxuyanda mat qaldım: eyni ilə İlyas Əfəndiyevin həmin hekayəsindəki süjet idi.

O süjet bundan ibarət idi ki, qoca yaxşı tar çalır, yeganə qızı atasının tar çalmağını çox sevir, qız könüllü müharibəyə gedir, bundan sonra qocanın tarı divardan asılı qalır, çünki o da tarı, əslində, qızı üçün çalırdı və bir gün cəbhədən qızın qara xəbəri gəlir, həmin gecə qoca uzun fasilədən sonra, tarı sinəsinə sıxıb çalır.

Gənc İlyas Əfəndiyevə xas olan lirik-romantik bir üslubda yazılmış bu əhvalat Isa Hüseynovun «Saz» povestində tar əvəzinə saz və qız əvəzinə oğlan olmaq etibarilə eynilə təkrar olunurdu.

Düzdü, «Saz»da qələmə alınan material da başqa idi, təhkiyə də başqa idi, amma fakt, fakt olaraq qalırdı, necə deyərlər, kor-kor, gör-gör və mən bir gənclik hikkəsi və təəssübkeşliyi ilə bunu İlyas Əfəndiyevə deyəndə, o, əvvəlcə povesti oxudu, sonra mənim:

– Heç olmasa, zəng elə Isaya, soruş ki, bu nə məsələdi belə? – deyə təhriklərimə gülümsəyə-gülümsəyə:

– Isa yaxşı yazıçıdı,– dedi.– Görmürsən, elə bu povesti də yaxşı yazıb. Yəqin haçansa, yeniyetməlik vaxtlarında-zadda hekayəni oxuyub, o vaxtdan fikrində qalıb, sonra da sövq-təbii ortaya çıxıb...

Bu barədə o, nə Isaya, nə də bir başqasına bir kəlmə dedi, hətta o hekayəni yeni kitablarına salmaq da istəmirdi və yalnız mənim təkidimlə həmin hekayə 1969-cu ildə nəşr olunan dördcildliyinin birinci cildində, 1981-ci ildə «Qırçı və qırmızı çiçək» hekayələr kitabında, 1984-cü ildə altıcildliyinin birinci cildində çap olundu və oxucular hazırkı nəşrin ilk cildində də həmin hekayəni – «Qoca tarını çaldı» – oxuya bilərlər.

Mən bu hadisəni ona görə xatırlamadım ki, sonradan-sonraya Isa Hüseynovu suçlayım, əksinə, mən Isa Hüseynovu, xüsusən, 60 – 70-ci illərin ən yaxşı Azərbaycan nasirlərindən biri hesab edirəm və yeri düşmüşkən deyim ki, İlyas Əfəndiyev hələ 1957-ci ildə Isa Hüseynovun hekayələri haqqında «Yoldaşlıq söhbəti» adlı ayrıca məqalə yazıb «Ədəbiyyat və incəsənət» qəzetinin 3 avqust sayında çap etdirmişdi. Bu hadisəni də yalnız ona görə xatırladım ki, İlyas Əfəndiyevin xasiyyəti haqqında, mənim fikrimcə, az şey demir...

### 3.

İlyas Əfəndiyev 80-ci illərin sonlarından etibarən mənim xahişimlə bir sıra xatirələr yazdı və elə bilirəm ki, o xatirə-esselərin onun yaradıcılığında xüsusi yeri var. Ona görə «mənim xahişimlə» deyirəm ki, İlyas Əfəndiyev ömrünün sonuncu günlərinə qədər daima yeni mövzular üzərində işləyirdi və onun xatirələr yazmağa, sadəcə olaraq, vaxtı yox idi. Bir də ki, xatirələr yazmağa o, bir az «yaradıcılığın sonu» kimi baxırdı və onun daimi işləyən bədii təfəkkürü, bədii fantaziyalar aləmi belə bir «yaradıcılıq sonu»nu heç vəchlə yaxına buraxmırdı.

Onun 1987-ci ildə Əli Vəliyev haqqında yazdığı xatirəsi belə başlayırdı:

«Mən keçmiş Qaryagin (indiki Füzuli) şəhərində coğrafiya müəllimi idim. Orada da yazmış olduğum «Kənddən məktublar» adlı hekayələr məcmuəmi 1938-ci ildə, məktəblilərin qış tətilində Bakıya gətirib Yazıçılar Ittifaqında nəsrə baxan mərhum yazıçımız Əbülhəsənə təqdim etdim. O mənim təhər-töhürümə, ayağımdakı uzunboğaz çəkmələrə baxaraq soruşdu:

– Nəçisən?

Nəçi olduğumu dedikdə, o:

– Əzzim, əzzim,– dedi,– coğrafiya müəllimi hara, yazıçılıq hara?»

Ədəbiyyat aləminə ilk adımını belə atan 25 yaşlı coğrafiya müəllimi İlyas Əfəndiyevin ilk kitabı – həmin «Kənddən məktublar» – 1939-cu ildə Azərbaycan Dövlət Nəşriyyatında çapdan çıxdığı vaxtdan etibarən, o – İlyas Əfəndiyev həmişə ədəbi tənqidin diqqət mərkəzində olub və bu uzun dövr ərzində onun yaradıcılığı haqqında yazılanlar həcm etibarilə, bəlkə də, onun özünün yazdıqlarından da çoxdur.

İlyas Əfəndiyev haqqında elə yalnız Azərbaycan mətbuatında yazılanları xronoloji bir ardıcıllıqla gözdən keçirdikdə, haqsız, vulqar – sosioloji tənqidlərlə də rastlaşırıq, haqlı iradlara da rast gəlirik, amma bir həqiqət gün işığı kimi aşkardır: bir küll halında ədəbi tənqid və ümumiyyətlə, ədəbi ictimaiyyət İlyas Əfəndiyev yaradıcılığını həmişə yüksək qiymətləndirmiş, onun XX əsr Azərbaycan

ədəbiyyatında tutduğu məxsusi yeri müəyyənləşdirməyə, yaradıcılığının poetikasını, «İlyas Əfəndiyev teatrı»nın bədii-estetik xüsusiyyətlərini açmağa çalışmışdır.

Səməd Vurğun, İlyas Əfəndiyevin sadə adamları «böyük məhəbbətlə və hərarətlə» təsvir etdiyini, «onların zəhmətini parlaq və real boyalarla» göstərdiyini deyirdi. Nazim Hikmət, İlyas Əfəndiyevin dramaturgiyasını yüksək qiymətləndirirdi və məqalələrindən birində belə maraqlı bir fikir söyləyirdi: «Süleyman Rüstəmin, Səməd Vurğunun, Rəsul Rzanın arasında kökün dərinliklərə yayılması, gövdənin birliyi, yekparəliyi nöqteyi-nəzərindən bir birlik, vahidlik, budaqların eyni kök üzünə ayrı-ayrı tərəflərdən uzanması nöqteyi-nəzərindən isə ayrılıq vardır. Bir-birinə həm oxşayırlar, həm oxşamırlar. Mirzə Ibrahimovla Mehdi Hüseynin nəsri haqqında da, ustad Cəfər Cabbarlının və İlyas Əfəndiyevin dramaturgiyası haqqında da eyni şeyi söyləmək mümkündür».

Məmməd Arif, İlyas Əfəndiyev haqqında bir sıra məxsusi məqalələr yazmışdı və onu «hər cür milli məhdudluqdan uzaq bir yazıçı» hesab edirdi, Mehdi Hüseyn, İlyas Əfəndiyevi «insan psixologiyasını təbii və sadə boyalarla göstərdiyi üçün» həmişə yüksək qiymətləndirirdi, hələ 1944-cü ildə, – o vaxt İlyas Əfəndiyev cəmi beş il idi ki, ədəbiyyata gəlmişdi – «Bir nasirimiz haqqında» adlı çox xeyirxah bir məqalə yazıb o zamanın ən nüfuzlu qəzetində – «Kommunist»də dərc etdirmişdi və özünə xas olan ədəbi intuisiya ilə Azərbaycan ədəbiyyatına yeni, heç kimə bənzəməyən bir istedadın gəldiyini göstərirdi. Eyni zamanda, aydın hiss olunur ki, Mehdi Hüseyn bu məqaləni «baş ideoloji tribunada» – «Kommunist» qəzetində dərc etdirməklə, həm də gənc yazıçını – İlyas Əfəndiyevi dövrün ideoloji hücumlarından qorumaq məqsədini də güdmüşdür.

Sonralar Mehdi Hüseyn, İlyas Əfəndiyevin «Işıqlı yollar», «Atayevlər ailəsi» və başqa əsərləri haqqında geniş və dövrün kontekstində prinsipial əhəmiyyətli resenziyalar yazmışdı, Azərbaycan ədəbiyyatının aktual problemlərinə həsr olunmuş bir çox məqalələrində İlyas Əfəndiyevin yaradıcılıq xüsusiyyətlərinin üzərində dayanmış, bu xüsusiyyətlərin ədəbiyyata gətirdiyi yeniliklərdən bəhs etmiş, lazım olan məqamlarda – belə məqamlar isə az olmamışdı – öz prinsipial sözünü demişdi.

Yeri düşmüşkən deyim ki, İlyas Əfəndiyev də Mehdi Hüseyn haqqında öz sözünü həmişə demişdir. Hələ 1946-cı ildə «Fəryad» haqqında mülahizələrim» adlı məqaləsini yazmışdı («Ədəbiyyat qəzeti», 3 iyul 1946), sonrakı illərdə də Mehdi Hüseynin yaradıcılığından, o cümlədən, kino yaradıcılığından ayrıca bəhs etmişdi və ümumiyyətlə, deməliyəm ki, həyatda da İlyas Əfəndiyevlə Mehdi Hüseyn çox yaxın dost idilər və mən gözümü açandan bu saf, necə deyərlər, «ürək dostluğunun» şahidi olmuşam və bir az sonra qısaca da olsa, bu barədə ayrıca yazacağam.

Onlar 1942-ci ildə – Mehdi Hüseyn artıq tanınmış və iti qələmi, ədəbi mübarizədə kompromissiz və impulsiv xarakteri ilə özünə nüfuz qazanmış bir yazıçı və ədəbiyyatşünas, İlyas Əfəndiyev isə üç il əvvəl ilk hekayələr kitabını nəşr etdirmiş gənc bir yazıçı – birlikdə ilk yazılarını – Natəvan haqqında dövrü üçün çox maraqlı və cəsarətli bir məqalə yazmışdılar. İlyas Əfəndiyev 1944-cü ilin 26 dekabrında Akademik Milli Dram Teatrımızda (o zaman Məşədi Əzizbəyov adına Dövlət Dram Teatrı adlanırdı) tamaşaya qoyulmuş ilk səhnə əsəri «Intizar»ı da öz hekayələri əsasında Mehdi Hüseynlə birlikdə yazmışdı, 1948-ci ildə onlar bir yerdə A.Ostrovskinin «Son qurban» komediyasını Azərbaycan dilinə çevirmişdilər.

Orası da mənim yadıma gəlir ki, həmin 40-cı illərin sonlarında – o zaman mən hələ heç məktəbə getmirdim – onlar birlikdə dublyaj üçün filmlərin mətnini tərcümə edirdilər və bəzən, həmin vaxt kino nazirinin müavini işləyən Imran Qasımov da onlarla birlikdə pulsuzluğun məcbur etdiyi belə bir müştərək «qonorar yaradıcılığına» qoşulurdu.

Ancaq Mehdi Hüseynlə İlyas Əfəndiyevin bu dostluğu «bir-birilərini təriflǝmək mənbəyi» deyildi, ədəbiyyatın, sənətin marağı İlyas Əfəndiyev üçün də, Mehdi Hüseyn üçün də son dərəcə vacib bir cəhət idi və mən dəfələrlə onların hansısa bir ədəbiyyat məsələsi ətrafında, hansısa bir əsərlə, o cümlədən, öz yazıları ilə bağlı necə qızğın, hətta müəyyən dövrlərdə bir-birindən inciyəcək dərəcədə kəskin mübahisələrinin şahidi olmuşam və onların ya bizdə, ya Mehdi Hüseyngildə bəzən gecənin yarısına kimi uzanan o ədəbi mübahisələri bu gün ən işıqlı xatirələr kimi tez-tez mənim yadıma düşür.

İlyas Əfəndiyev ömrünün sonuna kimi Mehdi Hüseyni böyük hərarətlə, onun vaxtsız ölümünü böyük bir ürək ağrısı ilə yada salırdı, onun haqqında «Yeri görünən adam» adlı xatirə-esse yazmışdı («Azərbaycan» jurnalı, 1988, 2.), ancaq bu, başqa bir mövzudur və sağlıq olsun, haçansa bu barədə yəqin mən də geniş yazacağam...

Indi isə yenə demək istədiyimə qayıdıram.

Mirzə Ibrahimov yazırdı:

«Azərbaycan ədəbiyyatı mənim nəzərimdə böyük və rəngarəng gülüstan isə, İlyas Əfəndiyevin yaradıcılığı bu gülüstanda öz gözəlliyi, ətri və təravəti ilə dərhal diqqəti cəlb edən cazibədar toplu və dolğun bir çiçəklikdir».

Süleyman Rəhimov özünəməxsus olan bir təhkiyə ilə:

«İlyas Əfndiyev yaradıcılığı Azərbaycan sovet ədəbiyyatının münbit zəminindən doğan, rişələnən, getdikcə köklənən qoşa qardaş kimi qoşalıqda yaradıcılıqdır. Bu yaradıcılıq istedadlı nasirlə mahir dramaturqu birləşdirib, birlikdə söykək-söykək qaldırır...» – yazırdı.

Mehdi Məmmədov göstərirdi ki, İlyas Əfəndiyev «mövzu seçməyi, məntiqli süjet qurmağı, dramatik vəziyyətlər, xarakterlər yaratmağı, öz fikirlərini bəyanat yolu ilə deyil, canlı hadisələrlə, yığcam dialoqlarda, əsl səhnə dili vasitəsilə ifadə etməyi gözəl bacarır.»

Ismayıl Dağıstanlı isə, 1974-cü ildə yazırdı ki, Akademik Milli Dram Teatrımızın «son otuz ildəki inkişafını İlyas Əfəndiyevsiz təsəvvür etmək mümkün deyil.»

Orasını da deyim ki, Ismayıl Dağıstanlının bu fikri söylədiyi vaxtdan sonrakı iyirmi iki il ərzində İlyas Əfəndiyevin həmin teatrın səhnəsində daha doqquz əsəri tamaşaya qoyulmuşdu...

Kamal Talıbzadə üçün «İlyas Əfəndiyev ən çox oxunan, sevilən, özü də heç kimə oxşamayan» bir yazıçıdır, bəstəkar Səid Rüstəmova görə, İlyas Əfəndiyev «bütün əsərlərində» «al-əlvan rənglər, naxışlar» görünən, «zəngin təfəkkürə, geniş müşahidə qabiliyyətinə malik» «bəstəkar qəlbli sənətkar» idi.

Bu sitatları gətirdikcə gətirmək mümkündür. Cəfər Cəfərov və Məmməd Cəfər, Əli Vəliyev və Osman Sarıvəlli, Cəfər Xəndan və Əli Sultanlı, Mehdi Məmmədov və Əkbər Ağayev, Firudin Köçərli və Əzizə Cəfərzadə, Abbas Zamanov və Orucəli Həsənov və bir çox başqaları kimi, tamamilə müxtəlif, bir-birindən fərqli qələm sahibləri, sonrakı ədəbi nəsillərin Bəxtiyar Vahabzadə və Ismayıl Şıxlı,

Bayram Bayramov və Bəkir Nəbiyev, Məsud Əlioğlu və Qulu Xəlilov, Cəlal Məmmədov və Əhəd Hüseynov kimi və bir çox başqa nümayəndələri, daha sonralar Xəlil Rza Ulutürk və Yaşar Qarayev, Seyfulla Əsədullayev və Təhsin Mütəllimov, Şamil Salmanov və Arif Səfiyev, Gülrux Əlibəyli və Inqilab Kərimov, Çingiz Hüseynov və Rüstəm Ibrahimbəyov, Islam Ibrahimov, Arif Hacıyev və Abbas Hacıyev, Ədilə Səfərova və Həsən Quliyev, daha da sonralar Aydın Məmmədov və Vilayət Quliyev, Kamil Vəliyev və İlham Rəhimli, Nizaməddin Şəmsizadə və Məryəm Əlizadə, Vaqif Yusifli və Akif Hüseynov, yenə də bir çox başqaları dəfələrlə İlyas Əfəndiyev yaradıcılığına müraciət etmiş və bu yaradıcılığı Azərbaycan xalqının XX əsrdəki tarixi və taleyi kontekstində yüksək qiymətləndirmişlər.

İlyas Əfəndiyevin sağlığında Yəhya Seyidov, Yaqub Ismayılov, Aida Salahova, Yaşar Qarayev onun haqqında beş elmi monoqrafiya yazıb nəşr etdirmiş, XX əsr Azərbaycan nəsri və dramaturgiyasının, Azərbaycan ədəbi dilinin, Azərbaycan teatr sənətinin inkişafında İlyas Əfəndiyev yaradıcılığının rolunu və bədii-estetik xüsusiyyətlərini təhlil və tədqiq etmişlər. (Yəhya Seyidov. İlyas Əfəndiyev, Bakı, «Azərnəşr», 1975; Aida Salahova. İlyas Əfəndiyevin yaradıcılığının poetikası, Bakı, «Yazıçı», 1984; Yaşar Qarayev. İlyas Əfəndiyev, Bakı, «Bilik», 1987; Yaqub Ismayılov. İlyas Əfəndiyevin yaradıcılıq yolu, Bakı, «Elm», 1991; Yaşar Qarayev. Xarı bülbülün nağılı, Bakı, «Azərnəşr», 1995.) Əmin Əfəndiyevin tərtib etdiyi geniş biblioqrafik göstərici nəşr edilmiş (İlyas Əfəndiyev, Biblioqrafik göstərici, Bakı, Azərnəşr, 1985.), İlyas Əfəndiyevin yaradıcılığı haqqında dissertasiyalar müdaifə olunmuşdur. (Avtoreferatlar: H.H.Nəsirov. İlyas Əfəndiyevin yaradıcılıq yolu, Bakı, 1967; B.A.Məmmədov. İlyas Əfəndiyevin dramaturgiyası, Bakı, 1974; I.B.Salmanov. Azərbaycan sovet ədəbiyyatında lirik-psixoloji dramların dil və üslub xüsusiyyətləri, İlyas Əfəndiyevin frazeologiyası əsasında, Bakı, 1983; M.Ə.Əlizadə. Lirik-psixoloji dramda qəhrəman problemi, İlyas Əfəndiyevin yaradıcılığı əsasında, Bakı, 1990 və s.)

Eyni zamanda, deməliyəm ki, İlyas Əfəndiyevin yaradıcılığından bəhs edən bu çoxsaylı məqalələr, istedadlı müəlliflərin ciddi tədqiqat əsərləri, təbii ki, Azərbaycan ədəbi tənqidinin və ədəbiyyatşünaslıq elminin inkişafında da az rol oynamamışdır.

Bəli, bütün bunlar belə idi.

Amma tamam səmimi deyirəm və istəyirəm ki, oxucular buna inansınlar: İlyas Əfəndiyevin, bəzən, özü haqqında yazılanları axıracan oxumağa hövsələsi çatmırdı və bu baxımdan onun üçün, bəlkə də, qat-qat artıq dərəcədə maraqlısı, bir insan və yazıçı kimi, onun hisslər aləmində daha artıq dərəcədə təsirlisi ard-arası kəsilmədən gələn oxucu məktubları idi. Yeni bir əsəri nəşr olunanda (misal üçün, «Söyüdlü arx» romanı), yaxud yeni bir əsəri tamaşaya qoyulanda (1964-cü ildə tamaşaya qoyulan «Sən həmişə mənimləsən»dən üzü bəri) isə poçtalyonlar hər gün onlarla, bəzən daha artıq oxucu məktubları gətirməkdən, o poçtalyonlardan birinin yadımda qalmış sözləri ilə desəm, onların «başmaqları yırtılırdı».

Bir də ki, tanınmaz-bilinməz adamların – oxucuların, tamaşaçıların (və xüsusən də qadınların!) – telefon zəngləri... Onların etibarla söylədikləri həyat tarixçələri... hisslərin etirafı... müşkül suallar... və bu suallara cavab axtarışları...

İlyas Əfəndiyevin xasiyyəti elə idi ki, bütün bunlarda onun üçün, hansısa bir iclasda, hansısa yüksək rütbəli bir çinovnikin, yaxud ədəbiyyat funksionerinin

deyəcəyi tərifli sözdən, müqayisə olunmayacaq dərəcədə artıq bir hərarət – bəlkə də, bu yerdə məhrəmlik sözünü işlətmək olar?– var idi.

İlyas Əfəndiyev heç bir bəhanəni, bəraəti, səbəbi yaxına buraxmadan, şüurlu surətdə öz yazı masasının arxasındakı kreslonu – özünün vəzifə kreslosu seçmişdi, onun iş kabineti mənzilindəki iş otağı idi və belə bir seçim onun təbiətinin, xarakterinin çox təbii bir cəhəti, xüsusiyyəti idi.

İlyas Əfəndiyevin ən yüksək vəzifəsi 1958-ci ildən 1961-ci ilin əvvəllərinə qədər işlədiyi Yazıçılar Ittifaqının məsul katibi vəzifəsi olmuşdu (o zaman Yazıçılar Ittifaqının rəhbərliyi sədrdən və məsul katibdən ibarət idi).

Yaxşı yadımdadı, bu vəzifəyə razılıq verməsi üçün, həmin ərəfədə Mehdi Hüseyn bir neçə gün axşamlar bizə gəlirdi, atamı dilə tuturdu, dost kimi xahiş edirdi, əsəbiləşib ədəbiyyat naminə tələb edirdi. O zaman Mehdi Hüseyn Yazıçılar Ittifaqının məsul katibi işləyirdi və bir-neçə gündən sonrakı plenumda Ittifaqın sədri seçilməli idi, İlyas Əfəndiyev isə, orada dramaturgiya üzrə məsləhətçi işləyirdi və Mehdi Hüseyn sidq-ürəkdən istəyirdi ki, o, məsul katib vəzifəsinə gəlsin.

İlyas Əfəndiyev isə razılıq vermirdi və onun təkrar-təkrar dediyi söz indiyəcən mənim qulağımdadır:

– Mehdi, hərə gərək öz işi ilə məşğul olsun də!.. Mənimki yazı-pozudu!..

Təbiətən əsəbi bir adam olan Mehdi Hüseyn o saat partləşib alışırdı:

– Bəs, mənə yazı-pozunun dəxli yoxdu?

İlyas Əfəndiyev:

– Sən başqa...– deyib gülürdü.

Həmin gecələrdən birində Mehdi Hüseynin vəfalı həyat yoldaşı və İlyas Əfəndiyevin də çox hörmət etdiyi Fatma xanımın (mən tez-tez onlarda olurdum və ona «Fatma xala» deyirdim) bir zəngindən və dediyi:

– İlyas, sən Allah, onu orada tək qoyma!– sözlərindən sonra məsul katib seçilməyinə razılıq verdi.

«O» – Mehdi Hüseyn.

«Ora» – Yazıçılar Ittifaqı.

Fatma xanımın o zəngindən bir gün sonra Mehdi Hüseyn «ora» sədr, İlyas Əfəndiyev isə məsul katib seçildi.

Ömrünün son illərində qələmə aldığı bir məqalədə İlyas Əfəndiyev katiblik fəaliyyətinə başlamasını belə xatırlayırdı:

«Bu yaxınlarda çox sevdiyim Amerika yazıçısı Mark Tvenin «Məni necə deputat seçdilər» adlı hekayəsini təzədən oxuyurdum. O hekayə vaxtilə mənə özümün Yazıçılar Ittifaqının necə katibi olduğumu xatırlatdı. Mən katib seçildiyimin lap ilk günü Ittifaqın çox hörmət etdiyimiz işlər müdiri poçtanı gətirib mənə təqdim etdi. Bir neçə məktub, teleqram və sairə verib, iki bağlı konverti saxladı. Mən dedim:

– Onları da açın, görək, nə var?

Işlər müdiri həmişəki kimi ciddi cavab verdi:

– Yoldaş İlyas, bu məktublar sizə aid deyil.

Mən təəccüblə soruşdum:

– Niyə?

– Çünki siz partiyaçı deyilsiniz!

– Deməli, bu məktubları ancaq partiyaçı katib oxuya bilər?

– Bəli!»

Beləcə fantasmoqorik iş günündən yeddi il sonra, 1965-ci ilin soyuq bir mart günündə Mehdi Hüseyn elə «oradaca» öz kabinetində haqq dünyasına köçdü...

İlyas Əfəndiyev isə bir müddət yeni vəzifəsində işləyəndən sonra, getməyi barədə söz saldı və 1960-cı ilin ortalarından etibarən işə çıxmadı. Sonralar İlyas Əfəndiyev ömründəki yeganə «vəzifədə» işləməyini belə xatırlayırdı:

«Ədəbi əsərlərin yüksək bədii keyfiyyəti, səmimiliyi uğrunda nələr etmək, qrafoman əsərlərlə necə mübarizə aparmaq haqqında, tarixi keçmişimizin bədii ədəbiyyatda əksi haqqında düşünürdüm. Lakin bütün bunlar barəsində tezliklə partiyaçı «yuxarı» ilə aramızda gizli konfliktlər başladı. Məsələn, mən «avtoritetli» müəllifin filan nəşriyyatda təzə çapdan çıxan filan «romanını» və ya «poemasını» oxuyub görürdüm ki, sünidir, quraşdırmadır. Fikirləşirdim ki, yazıçılar məclisində müzakirə eləyib, qüsurlarını göstərsək, başqalarına da görk olar. Müəllif yanıma gəlib, məmnun halda, əsərinin «yuxarıda» çox bəyənildiyini, yoldaş «rəhbərlərin» onu təbrik elədiyini söyləyirdi və bu söhbətdən çox keçməmiş görürdün ki, «Kommunist» qəzetində elə ağlasığmaz təriflərlə dolu bir məqalə çıxdı ki, adamın matı-qutu qurudu. Doğrusu, bu, mənim vəzifə borcuma toxunduğu və özümü, bir növ, təhqir olunmuş hiss elədiyim üçün, redaktora zəng eləyib soruşdum ki, siz özünüz o əsəri oxumusunuz?

Redaktor:

– Vallah, doğrusu, özüm oxumağa vaxt tapa bilməmişəm, gecə-gündüz rəsmi materiallarla məşğulam. Ancaq «yuxarıda» oxuyublar. Çox xoşlarına gəlib,– deyirdi.

... Bir gün öz-özümə haqq-hesab verdim ki... məndən Ittifaqa nə xeyir dəyib və özüm nə yazmışam? Baxıb gördüm ki, bu sualların cavabı çox yarıtmazdır. Ona görə də, günlərin birində papağımı götürüb, heç kəsə heç nə demədən çıxıb getdim».

Və həmin gündən sonra İlyas Əfəndiyev Yazıçılar Ittifaqında işə çıxmadı.

O, əslində, mehriban adam idi (düzdü, özü bunu büruzə vermirdi və ümumiyyətlə, İlyas Əfəndiyev hisslərin ifadəsi baxımından, əgər belə demək mümkünsə, qapalı adam idi, kimisə öz hisslər aləminə yaxınlaşdırmaqla arası yox idi, o aləm yalnız onun özünə məxsus idi), amma hərdən möhkəm sərtliyi də var idi və bir dəfə axşam eləcə bir sərtliklə telefonla Mehdi Hüseynə dediyi sözlər həmişəlik mənim yaddaşıma hopub:

– Bilirsən nə var, Mehdi? Birtərəfli dostluq olmaz! Mən ömrümün üç ilini «orada» çürütdüm! Daha bəsdir! Indi sən də yaxşı dost ol, get, yuxarıda mənim məsələmi həll elə! Mən işə çıxmayacağam!

«Yuxarı» – yəni ki, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi və orada da İlyas Əfəndiyevin getməyinə razılıq vermirdilər, yəqin o «gizli konfliktin» aşkar olmasına ehtiyac yox imiş... Söhbət, əlbəttə, Mərkəzi Komitədə işləyən ayrı-ayrı adamlardan yox, Sistemdən gedir.

Yaxşı yadımdadır, bir gün Mərkəzi Komitənin ideoloji işlər üzrə katibi və İlyas Əfəndiyevin də xətrini istəyən Nazim Hacıyev evimizə telefon açdı, İlyas Əfəndiyevlə xeyli söhbət etdi, onu yola gətirmək, hətta şirnikləndirmək («Ittifaqın məsul katibini deputat verəcəyik!») istədi, amma bir şey çıxmadı.

Mehdi Hüseyn ilə o zaman Mərkəzi Komitənin birinci katibi işləyən Vəli Axundovun hələ xeyli əvvəllərdən yaxın münasibətləri var idi və mən atamla Mehdi

Hüseynin oğlu Əlinin ad günlərinə gedəndə, Vəli Axundov da həyat yoldaşı Sara xanımla həmişə onlarda olardı.

Bunu ona görə xatırlayıram ki, Nazim Hacıyevin zəngindən bir neçə gün sonra, çox güman, Mehdi Hüseynin təhriki ilə Vəli Axundov evə telefon açıb İlyas Əfəndiyevlə söhbət etdi, işdən çıxmaq istəməyinin səbəbini soruşdu. İlyas Əfəndiyev:

– Ancaq bir səbəb var: yaradıcılıqla məşğul olmaq istəyirəm,– dedi, amma çox da qəti dedi.

Bundan sonra, yalnız 1961-ci ilin ortalarında, təxminən doqquz ay işə çıxmayandan sonra İlyas Əfəndiyevi vəzifəsindən azad etdilər və o yerə, İlyas Əfəndiyevin Mehdi Hüseynə tövsiyəsi ilə, rəhmətlik Imran Qasımov seçildi və bir azdan, həqiqətən də, Azərbaycan SSR Ali Sovetinin deputatı «seçildi» (Mehdi Hüseyn isə SSRI Ali Sovetinin deputatı idi).

Orasını da deyim ki, xeyirxah bir insan, dostların, tanışların, lap uzaqdan-uzağa tanıdıqlarının belə, hər mənada «təcili yardımı» olan Imran Qasımovla da İlyas Əfəndiyev lap gənclik çağlarından istiqanlı bir münasibətdə idi və həmişə cavanlıqda tez-tez Imrangilə getməklərini, Imranın atası Həşim kişinin baməzə işlərini xüsusi bir şövq ilə danışırdı.

Tale belə gətirdi ki, mən 1975-ci ildə, 32 yaşında ikən – o zaman Nizami adına Ədəbiyyat Institutunda baş elmi işçi vəzifəsində işləyirdim – Yazıçılar Ittifaqının katibi seçildim və SSRI respublikalarındakı Yazıçılar Ittifaqlarının ən gənc katibi oldum, özüm də vaxtilə İlyas Əfəndiyevin oturduğu kabinetdə oturdum.

Bu, elə bil ki, bu hərdən İlyas Əfəndiyevə həyatın qəribə işlərindən biri kimi görünürdü və hərdən də mənə deyirdi:

– Vallah, sən gül kimi Akademiyadan nahaq «ora» getdin. Səhərdən axşamacan intriqalar, o, bundan deyir, bu, ondan deyir, boş-boş da iclaslar!..– Sonra gülümsəyib deyirdi: – Düzdü e, Akademiyada da boş iclaslar az olmur...

Həmin 1961-ci ildən 1996-cı ilin 3 oktyabrına – ömrünün son gününə qədər İlyas Əfəndiyev heç yerdə işləmədi və onun ən çox xoşlamadığı, ürəyini darıxdıran şey – iclas idi və demək olar ki, heç bir iclasa getmirdi, çox nadir hallarda, xüsusi bir səbəb olanda gedirdi.

Bəxtiyar Vahabzadənin müşahidəsi dəqiqdir:

«İlyas Əfəndiyev həmişə yazıb-yaratmışdır. Onun gurultulu məclislər, təntənəli yığıncaqlarla arası yox idi. Onun «sakit» fəaliyyəti həmişə oxucu və tamaşaçılar üçün partlayış və güclü sevinc gətirmişdir».

İlyas Əfəndiyev yalnız Azərbaycanın yox, Sovet Ittifaqının barmaqla sayılacaq çox az yazıçılarından biri idi ki, Kommunist Partiyasının üzvü deyildi.

Düzdü, İlyas Əfəndiyev SSRI-nin demək olar ki, mülki şəxslərə verilən bütün ordenlərini – Lenin, Oktyabr Inqilabı, Qırmızı Əmək Bayrağı, Şərəf Nişanı – almışdı, xalq yazıçısı, əməkdar incəsənət xadimi, Dövlət mükafatı laureatı idi, amma bunların bir çoxu onun özü üçün də gözlənilməz olmuşdu. Xasiyyətində təbii bir qürur olan İlyas Əfəndiyev, bu mükafatlara qarşı, həqiqətən, biganə idi.

Indi çoxları belə deyir: guya, sovet mükafatlarına, ümumiyyətlə, bütün mükafatlara qarşı biganədirlər, onlar üçün əsas mükafat xalqın məhəbbətidir və s. və i.a.

Mən 70-80-ci illərdə, dediyim kimi, Yazıçılar Ittifaqının katibi işləmişəm, sonra da başqa vəzifələrdə olmuşam və bu «biganələrin» həmin mükafatları almaq üçün hansı dəridən-qabıqdan çıxdıqları, bəzilərinin hansı şərəfsizliyə belə getdikləri mənim gözlərimin qabağındadı...

Ancaq mən mövzumdan uzaqlaşmayım.

Bir dəfə söhbət düşəndə İlyas Əfəndiyev mənə dedi:

– Bəyəm, Füzuliyə Lenin ordeni verməmişdilər?

Amma elə bilirəm ki, mənim ona verdiyim cavabda da bir az həqiqət var:

– Füzulinin dövründə Lenin ordeni yox idi. Olsaydı, verərdilər...

Bəlkə də yanılırdım? Bilmirəm...

Yeri düşmüşkən, bir hadisəni də qeyd etmək istəyirəm.

1984-cü ildə İlyas Əfəndiyevin 70 yaşı tamam olurdu və həmin ərəfədə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi rəhmətlik Kamran Bağırov məni yanına dəvət etdi (bu da qəribə bir ənənəyə çevrilmişdi ki, lap cavan yaşlarımdan etibarən, «yuxarılar» atamla bağlı bir məsələ olanda, onun özünü yox, məni dəvət edirdi, sözlərini mənə deyirdilər). Kamran Bağırov, açıq-aşkar hiss olunan bir təəssüf hissi ilə və tamam səmimi şəkildə mənə dedi ki, çox çalışmasına baxmayaraq, Sov.IKP Mərkəzi Komitəsi İlyas Əfəndiyevə Sosialist Əməyi Qəhrəmanı adının verilməsinə razı olmur.

– Mən bu məsələdən ötrü Qorbaçovun yanınacan gedib çıxdım (o zaman Baş katib xəstə Çernenko, Qorbaçov isə faktiki ikinci katib idi– E.). Dedi ki, 70 yaşına qədər heç Sov.IKP-yə üzv də olmayan bir yazıçıya biz Sosialist Əməyi Qəhrəmanı adını necə verək?– Mədəni bir adam olan Kamran Bağırov az qala üzrxahlıq edirdi...

Doğrusu, bu söhbət mənim üçün gözlənilməz oldu, çünki o vaxta qədər bu barədə bir söz eşitməmişdim, Yazıçılar Ittifaqı da həmişə belə vaxtlarda olduğu kimi, Mərkəzi Komitəyə heç bir təqdimat yazmamışdı və axşam İlyas Əfəndiyevin yanına gedib bu əhvalatı ona danışanda, bərkdən şaqqanaq çəkib güldü:

– Bəlkə ərizə verib Kommunist Partiyasına girim?

İlyas Əfəndiyevin indiyəcən mənim qulağımda olan o şaqqanağı, o dəm, Çernenkoya da, o ada da, Kommunist Partiyasına da sidq-ürəkdən gələn bir lağın, iztehzanın ifadəsi idi və həmin axşam biz yaxşıca konyak içib ədəbiyyatdan, sənətdən, necə deyərlər, Irandan, Turandan xeyli söhbət etdik.

70 illiyində isə Lenin ordeni aldı.

Ancaq yalnız bir orden – Azərbaycanın «Şöhrət» ordeni onu, həqiqətən, sevindirmişdi. Bəlkə də «sevindirmişdi» sözünü bu yerdə mən bir o qədər də dəqiq işlətmirəm, «fərəhlənirdi» demək daha düz olardı, həm də, əslində, Azərbaycan üçün fərəhlənirdi, Azərbaycanın müstəqilliyinə görə, Azərbaycan dövlətinin öz ordeni olduğuna görə.

İlyas Əfəndiyev müstəqil Azərbaycanın dövlət ordenini alan ilk yazıçı, ümumiyyətlə, ilk mədəniyyət xadimi idi və bu yerdə mən ən səmimi surətdə Heydər Əliyevin adını çəkmək istəyirəm.

Heydər Əliyev həmişə İlyas Əfəndiyevə qarşı diqqətli olmuşdu və hələ 1980-ci ildə deyirdi:

«İlyas Əfəndiyevin əsərləri həm səlis, gözəl bədii dilinə, həm dərin məzmununa görə, həm də yüksək sənətkarlığına görə fərqlənir, oxucuya böyük estetik təsir bağışlayır. Onun kitablarında həm körpüsalanların çətin işi, həm

neftçilərin qəhrəman əməyi, həm müasir kəndin həyatı, həm də Azərbaycan ziyalıları arasında mənəvi-psixoloji proseslər inandırıcı şəkildə və dərindən əks etdirilmişdir. Öz yaradıcılığında yazıçı, cəmiyyətimizin mənəvi təşəkkülünü və inkişafını diqqətlə izləyir, onun mənasını açıb göstərir, bugünkü həyatımız üçün də, gələcək həyat üçün də nümunə olan adamların parlaq obrazlarını yaradır. O öz sənətkarlığı ilə zəhmətkeşlərin mənəvi tərbiyəsində fəal iştirak edir».

Və İlyas Əfəndiyev də həmişə Heydər Əliyevə böyük hörmətlə yanaşırdı.

İlyas Əfəndiyev vəfat etdiyi gün Heydər Əliyev Sərəncam verərək Baş nazirin birinci müavini Abbas Abbasovun sədrliyi ilə Rəfael Allahverdiyev (Bakı şəhər Icra Hamiyyətinin sədri), Ağa Bala Hacıyev (Nazirlər Kabineti Işlər idarəsinin müdiri), Ismayıl Sadıqov (Nazirlər Kabineti Elm, Mədəniyyət və Təhsil şöbəsinin müdiri), Polad Bülbüloğlu (Mədəniyyət naziri), Anar Rzayev (Yazıçılar Birliyinin sədri) və Çingiz Abdullayevdən (Yazıçılar Birliyinin katibi) ibarət «İlyas Əfəndiyevin dəfnini təşkil etmək üçün Hökumət Komissiyası» yaratdı və səhərisi gün – 4 oktyabrda Şəhriyar adına Mədəniyyət Mərkəzində İlyas Əfəndiyevlə son vida mərasimi keçirildi.

O mərasimdə iştirak edən Heydər Əliyev mənə başsağlığı verərkən bu sözləri də dedi:

– Xalqımız böyük sənətkarını itirdi...

Akademik Dövlət Milli Dram Teatrının təmiri çox uzandığına görə, İlyas Əfəndiyev özü həmin teatrın səhnəsində tamaşaya qoyulan on doqquzuncu əsərini – «Hökmdar və qızı» tamaşasını görə bilmədi. İlk tamaşa onun vəfatından düz qırx dörd gün sonra – 1996-cı ilin 17 noyabrında böyük müvəffəqiyyətlə göstərildi (o vaxtdan da bu günə kimi səhnədədir!) və 1997-ci il sentyabrın 20-də Heydər Əliyev gəlib o tamaşaya baxdı, əsəri çox yüksək qiymətləndirdi, tamaşadan sonra yaradıcı heyətlə görüşərək dedi:

«– Şübhəsiz ki, biz bu gün, ilk növbədə, əsərin müəllifinin – böyük yazıçımız, dramaturqumuz İlyas Əfəndiyevin xidmətlərini qeyd etməliyik...

İlyas Əfəndiyev Azərbaycan teatrına çox böyük töfhələr veribdir, böyük xidmətlər göstəribdir, çox dəyərli əsərlər yaradıbdır. İlyas Əfəndiyevin yaradıcılığı başqa cəhətlərlə yanaşı, bir də ona görə əhəmiyyətlidir ki, o öz əsərlərində həm Azərbaycan xalqının tarixinin çox mühüm səhifələrini ədəbiyyat, teatr vasitəsilə bugünkü nəsillərə çatdırıbdır, həm də öz əsərlərində müasir həyatımızın müsbət və mənfi cəhətlərini çox gözəl təsvir edibdir. Beləliklə, xalqımızı həm tarixə hörmət bəsləməyə sövq etmişdir və bu barədə xidmətlər göstərmişdir, tarixi bilmək üçün xalqımıza yardım etmişdir, eyni zamanda, yaşadığımız zamanda mənəviyyat, əxlaq, insanlıq, vətənə və millətə sədaqət ruhunu aşılamışdır. Hesab edirəm ki, xalqımız bu məsələlərdən çox bəhrələnmişdir.

Ona görə də mən bu gün İlyas Əfəndiyevin bütün yaradıcılığını, onun yazdığı əsərləri böyük minnətdarlıq hissi ilə xatırlayıram. Hesab edirəm ki, o, xalqımız qarşısında öz borcunu, daha doğrusu, öz missiyasını şərəflə yerinə yetirmişdir, xalqımıza, mədəniyyətimizə, teatrımıza, ədəbiyyatımıza çox böyük irs, böyük sərvətlər qoyub getmişdir. Güman edirəm ki, bunu xalqımız heç vaxt unutmayacaqdır. Şübhəsiz ki, biz İlyas Əfəndiyevin xatirəsini əbədiləşdirmək üçün, qərarlar da qəbul edəcəyik, şəxsən mən bunu edəcəyəm, çünki o buna layiqdir. Belə əsərlərlə o, onsuz da özünü xalqın qəlbində yaşadacaqdır.

Onun son əsəri – bu gün sizin təqdim etdiyiniz əsər həyatımız üçün çox əhəmiyyətlidir. Bu gün salonda üç saatdan artıq vaxt çox tez gəlib keçdi. Yeni tamaşa o qədər maraqlı, məzmunlu, mənalı idi, həm də siz hamınız o dərəcədə gözəl ifa etdiniz, salonda oturanlara bu əsəri gözəl çatdırdınız,– o cümlədən mənə də, – heç hiss etmədim ki, nə qədər vaxt keçibdir. Bu da ona görədir ki, birincisi – əsərin həsr olunduğu mövzu çox aktualdır, çox vacib bir mövzudur. Bu əsərlə İlyas Əfəndiyev yeni bir xidmət edibdir, bizim tariximizin o dövrünü açıb xalqımıza göstəribdir...» («Azərbaycan» qəzeti, 23 sentyabr 1997.)

Mən, yenə də bayaqkı mövzuma qayıdıram.

Yadıma gəlir, «Körpüsalanlar» povestini İlyas Əfəndiyev 1959-cu ilin sonunda yazıb bitirmişdi və unudulmaz Sona xanımın – mən gözümü açandan Yazıçılar Ittifaqında işləyən və İlyas Əfəndiyevin ərəb əlifbası ilə xəttini oxuyan yeganə makinaçının çap etdiyi əlyazmanın ilk oxucusu mən oldum. O zaman 10-cu sinifdə oxuyurdum və «Körpüsalanlar»ın romantikası, o əsərdəki lirika, psixoloji məqamlar mənə çox təsir etmişdi, hətta o qədər təsir etmişdi ki, bunu atamdan gizlətməyə çalışırdım...

İlyas Əfəndiyev «Körpüsalanlar»ı da, başqa əsərləri kimi, əvvəlcə «Azərbaycan» jurnalına vermək istəyirdi.

Ancaq hər şey başqa cür oldu.

O zaman ən nüfuzlu qəzet Azərbaycan Kommunist Partiyasının orqanı olan «Kommunist» qəzeti idi və o qəzetin redaktoru rəhmətlik Israfil Nəzərov həmin ərəfədə İlyas Əfəndiyevdən qəzet üçün bir yazı istədi. İlyas Əfəndiyev isə ayrıca bir yazı yazmağa vaxtı və həvəsi olmadığı üçün, «Körpüsalanlar»dan kiçik bir parça seçib ona göndərdi (orası da yadımdadı ki, həmin parçanı mən aparıb Israfil Nəzərovun katibəsinə verdim).

Bir gündən sonra, Israfil Nəzərov dedi ki, parça çox xoşuna gəlib və povestin hamısını oxumaq istəyir. İlyas Əfəndiyev əsəri ona göndərdi və təxminən on-on beş gündən sonra Israfil Nəzərov İlyas Əfəndiyevə telefon açdı, dedi ki, bütün redaksiya heyəti povesti oxuyub, çox xoşlarına gəlib və qərara alıblar ki, əsəri nömrədən nömrəyə əvvəldən axıracan çap etsinlər.

Bu, o zaman üçün çox əlamətdar bir hadisə idi, çünki «Kommunist» qəzeti o vaxta qədər belə böyük əsər dərc etməmişdi, belə bir ənənə yox idi.

Beləliklə, 1960-ci ilin 7 sentyabrından başlayaraq, «Körpüsalanlar» «Kommunist» qəzetində çap olunmağa başladı və oxucular arasında geniş əks-səda doğurdu.

İlyas Əfəndiyev Füzulidə coğrafiya müəllimi işləyəndə, onunla birlikdə Qulam adlı bir müəllim də eyni məktəbdə dərs deyib və onlar yaxın dost olublar. Sonra rayonun «təşəbbüskar bolşevikləri» Qulam müəllimi «xalq düşməni» kimi ifşa edir və onu Sibirə göndərirlər. Mən uşaq vaxtı evimizdə Qulam müəllim haqqında çox eşitmişdim: «Görəsən, başına nə iş gəldi? Sağdı? Yoxsa güllələyiblər?» – nənəmin, atamın, Qulam müəllimin şagirdi olmuş kiçik bibim Nəzihənin o pıçıltısını, elə bil, indi də eləcə eşidirəm. 1956-cı ilin mənim üçün tamam heyrətamiz bir günündə Sibirdən sağ-salamat qayıtmış Qulam müəllim birdən-birə bizim qapımızı döydü...

Deyəsən, qələm məni yenə başqa istiqamətə aparır...

Uzun sözün qısası, Sibirdə sağlamlığını tamam itirmiş, çox zəifləmiş Qulam müəllim uzun müddət özünə bab bir iş tapa bilmədi, atam o zaman Mədəniyyət

naziri işləyən Məmməd Qurbanovdan xahiş etdi, Qulam müəllim nəsə bir işə düzəldi, amma orada da çox işləyə bilmədi, axırda Bakıdakı qəzet köşklərindən birində satıcı işləməyə başladı və o rəhmətlik həmişəki kimi, həmin 1961-ci ilin sentyabr ayında da fasilə vaxtı tez-tez bizə gəlirdi və Bilqeyis xanımın açdığı balaca nahar süfrəsinin arxasında oturub «Körpüsalanlar»a qədər köşkdə yatıb qalan «Kommunist» qəzetinin səhər-səhər yarım saatın içində satılıb qurtardığını, camaatın isə, elə hey «Kommunist» qəzeti istədiklərini xüsusi bir ləzzətlə danışırdı.

Ancaq on üç nömrədən sonra, əsər yarıya çatmış, sentyabrın 21-də qəzet birdən-birə elan dərc etdi ki, povestin çapını dayandırır.

Bu – İlyas Əfəndiyev üçün həm gözlənilməz oldu, həm də əsərin beləcə yarımçıq qalması, təbiidir ki, ona ağır təsir etdi.

Sonra məlum oldu ki, povestin çapı Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Bürosunun tapşırığı ilə dayandırılıb və bu hadisə Israfil Nəzərovun özünü də çox pərt edib. Orasını da deyim ki, İlyas Əfəndiyevlə Israfil Nəzərovun cavan yaşlarından etibarən istiqanlı münasibətləri var idi.

Yadıma gəlir, həmin sentyabr axşamlarından birində Israfil Nəzərov, İlyas Əfəndiyevə ürək-dirək vermək üçün bizə gəldi, oturub bir az yeyib-içdilər və iş elə gətirdi, söhbət elə alındı ki, İlyas Əfəndiyev özü Israfil Nəzərova ürək-dirək verməyə başladı...

Bir müddət keçdikdən sonra, Azərbaycan mətbuatında «Körpüsalanlar»a qarşı Stalinin ölümündən sonra Azərbaycan ədəbi həyatında misli görünməmiş bir cəhalət hücumu kompaniyası və həmin kompaniyanın yaratdığı ajiotaj başladı: əsərin bədii-estetik cəhətləri qaldı bir tərəfdə və Stalin dövrünə məxsus bir vulqar-sosioloji cəbhədən, sovet cəmiyyətinin mənəvi qələbələr əldə etdiyi bir zamanda bu povestdə «əxlaq normaları pozulur», «müasir əxlaq normasından kənara çıxan sərbəst hərəkətlərə» yol verilir, «Səriyyə Qəribcanla hadisələrin əvvəlindən sonuna qədər açıq-saçıq bir şəkildə, təsəvvürə sığışmayan (!– E.) bir tərzdə davranır» (Səriyyə haqlıdırmı? «Ədəbiyyat və Incəsənət» qəzeti, 17 iyun 1961; «Sevil»dən «Saçlı»ya», «Azərbaycan jurnalı, 1962. və s.) deyə, povest nadan mülahizələrlə «ifşa» edilirdi, hətta iş o yerə gəlib çıxmışdı ki, misal üçün, «Azərbaycan qadını» jurnalı «Körpüsalanlar»ı «ifşa» edən xüsusi rubrika açmışdı və nömrədən-nömrəyə təşkil etdiyi «hiddətlənmiş oxucu məktubları» çap edirdi.

Müharibədən sonrakı dövr Azərbaycan ədəbi tənqidini və ümumiyyətlə, ictimai fikrini tədqiq edərkən, elə bilirəm ki, həmin illərdə ortaya çıxmış «Səriyyə məsələsi» xüsusi əhəmiyyət kəsb edir və ən başlıcası isə, bir tərəfdən vulqar-sosioloji təfəkkür tərzində, digər tərəfdən isə, yalançı xəlqilik konsepsiyasının süqutu üçün dönüş mərhələsi təşkil edir.

«Körpüsalanlar» və bu povestin qəhrəmanı Səriyyə obrazı həm bədii-estetik cəhətdən, həm də mövzu baxımından Azərbaycan nəsrində tamam yeni bir hadisə idi və özü ilə keyfiyyət dəyişikliyi gətirdi, ədəbi mərhələyə çevrildi, eyni zamanda, ədəbi tənqiddə həmin dediyim dönüş mərhələsinin yaranmasına səbəb oldu.

İlyas Əfəndiyev yaradıcılığının ən səriştəli tədqiqatçılarından biri, bizim gözəl tənqidçimiz Yaşar Qarayev yazırdı: «Söyüdlü arx» (1958), «Körpüsalanlar» (1960), «Dağlar arxasında üç dost» (1963) – bu əsərlərdə ifadə olunan yenilik, hər şeydən əvvəl, müəllifin «müsbət qəhrəman» və «mənəvi gözəllik» anlayışını o illərin stereotip ölçü, qəlib və normalarından fərqləndirən cəhətlərdən idi. Belə ki, müəllif

bilavasitə mövcud ədəbi ənənədən yox, həyatdan, ictimai və mənəvi-əxlaqi inkişafda yeni mərhələnin formalaşdırdığı nəslin üzərində müşahidələrdən çıxış edərək, müasir insan, məişət və əxlaq haqqında öz anlayışlarını irəli sürürdü.» («Xarı bülbülün nağılı», Bakı, 1995, səh. 19.)

Mən «Körpüsalanlar»a qarşı həmin qaragüruh hücumunun təfərrüatına varmaq istəmirəm, onsuz da, aradan keçən bu qırx il hər şeyi yerbəyer etdi, bu gün oxucular ən müxtəlif dillərdə «Körpüsalanlar»ı oxuyurlar, onun haqqında o vaxt Azərbaycan mətbuatını dolduran o cahil və nadan mülahizələr isə, indi yalnız acı təbəssüm doğurur,– bundan artıq deyil.

Maraqlananlar isə, o dövrün mətbuatına baxa bilərlər və mən özüm də vaxtilə ədəbiyyatımız üçün bu prinsipial məsələ ilə bağlı ətraflı yazmışam. (Ədəbi tənqid və xarakter məsələsi, ADU-nun elmi əsərləri, Dil və ədəbiyyat seriyası, 1968, 2; Tənqid və ədəbiyyatımızın problemləri. Bakı, 1981, səh. 174 – 189.)

Yuxarıda dediyim ədəbi tənqiddəki həmin «dönüş mərhələsi»nin prinsipial xarakterini göstərən cəhətlərdən biri bu idi ki, Məmməd Arif (Keçən ilin nəsri haqqında qeydlər. «Ədəbiyyat və incəsənət» qəzeti, 25 mart 1961), Məmməd Cəfər (Həyatın romantikası. Bakı, 1968, səh.149) və başqaları kimi nüfuzlu qələm sahibləri «Körpüsalanlar»a qarşı nadan hücumlara tutarlı çavablar verdilər.

Yalnız bir misal gətirmək istəyirəm: Cəfər Cəfərov Azərbaycan yazıçılarının IV qurultayında «Ədəbi tənqid haqqında» söylədiyi məruzəsində, bu tənqidçiyə xas olan bir açıqlıqla deyirdi: «Körpüsalanlar» povesti ilə əlaqədar olaraq özünü göstərən avamlıqlara yol verilməməli, vaxtilə Mustafa Quliyevin dediyi «müsəlman tənqidinin» qalıqları ilə mübarizə edilməlidir». (Əsərləri. Iki cilddə, 2-ci cild, Bakı, 1968, səh. 388-389.)

Mən «Körpüsalanlar»a qarşı bu qaraguruh hücumunu ona görə xatırladım ki, İlyas Əfəndiyev belə gərgin bir vaxtda da o yazılara xüsusi əhəmiyyət vermirdi və onun üçün yenə də oxucuların məktubları qat-qat artıq dərəcədə maraqlı idi. Oxucular isə, «Körpüsalanlar»la bağlı ard-arası kəsilmədən məktublar yazırdı və qəribə bir ehtirasla Səriyyəni müdafiə edirdi.

Əlbəttə, onlar «Azərbaycan qadını» jurnalının «təşkil etdiyi» oxucular deyildi...

Bu sətirləri yazarkən, kiçik bir hadisə də yadıma düşdü.

O zaman mən gənc idim, universitetin ilk kurslarında oxuyurdum və atamdan fərqli olaraq, o qaragüruh hücumu mənə çox təsir edirdi. «Azərbaycan qadını» jurnalında çap olunan və Səriyyə surətini «ifşa» edən məktublardan birinin müəllifinin müəllimə olduğu göstərilirdi. Mən soraqlaşıb o müəllimənin dərs dediyi məktəbə telefonla zəng etdim və məlum oldu ki, həmin məktəbdə o adda müəllimə işləmir. Bunu atama danışdım və dedim ki, bu məsələni açmaq lazımdı, qoy redaksiya cavab versin ki, bu müəlliməni haradan tapıb, niyə belə təxribatlarla məşğuldu?

İlyas Əfəndiyev gülə-gülə:

– Əşşi, sənin də işin qurtarıb də!..– dedi və bununla elə mən özüm də sakitləşdim (sonralar da onun məni beləcə «sakitləşdirmələri» çox olub...).

O dövrün kontekstində mənim üçün çox maraqlı görünən və ədəbi tənqiddəki bayaq dediyim həmin «dönüş mərhələsi» baxımından əhəmiyyətli olan bir məsələni də qeyd etmək istəyirəm: «Körpüsalanlar»a qarşı Azərbaycan KP MK Bürosunun

təzyiqi ilə «Kommunist» qəzetindəki dərcin dayandırılmasından sonra başlayan hücum kompaniyası ictimaiyyətdə elə bir ajiotaj yaratdı, elə bir çaxnaşma saldı, oxucuların, aparıcı tənqidçilərin bu əsəri müdafiəsi elə bir müstəviyə gəlib çıxdı ki, sözün əsl mənasında, ədəbi-ideoloji bumeranqa çevrildi və o «ifşa» məqalələri Azərbaycan KP MK-nın 29 avqust 1962-ci il tarixli plenumunda, eləcə də Yazıçılar Ittifaqı partiya təşkilatının yığıncağında çox ciddi tənqid olundu. (Bax: «Ədəbiyyat və Incəsənət» qəzeti, 1 sentyabr 1962-ci il; «Ədəbiyyat və Incəsənət» qəzeti, 15 sentyabr 1962.)

İlyas Əfəndiyev üçün bu – oxucularının qələbəsi idi.

Mənim üçün qiymətli cəhətlərdən biri odur ki, İlyas Əfəndiyevin vəfatından keçən bu beş ildə, onun haqqında sağlığında olduğundan daha artıq yazılıb.

Yalnız elə onun xatirəsinə həsr edilmiş «Sən həmişə bizimləsən» kitabına (Bakı, «Gənclik», 1999.) ədəbiyyatımızın, mədəniyyətimizin ağbirçək və ağsaqqalları Mirvarid Dilbazidən, Tofiq Quliyevdən, Qılman İlkindən, Əzizə Cəfərzadədən, Leyla Bədirbəylidən, Əziz Mirəhmədovdan, Kamal Talıbzadədən, Süleyman Ələsgərovdan, Bəxtiyar Vahabzadədən, Tahir Salahovdan, Fərəməz Maqsudovdan, Nəbi Xəzridən, Hüseyn Abbaszadədən, Qabildən, Ələviyyə Babayevadan və başqalarından tutmuş, Yazıçılar Ittifaqının sürücüsü Kərbəlayi Əliyə qədər 70-dən çox müəllifin ən səmimi hisslərinin ifadəsi olan məqalələri, esseləri, şerləri, çıxışları toplanmışdır və mən bu sətirləri yazarkən də onların hamısına minnətdarlıq hissi yaşayıram, eləcə də fürsətdən istifadə edib o kitabı tərtib etmiş qələm dostlarım Dilsuzun və Abid Tahirlinin zəhmətini, İlyas Əfəndiyev şəxsiyyətinə və yaradıcılığına çox istiqanlı münasibətlərini xüsusi qeyd edirəm.

İlyas Əfəndiyevin vəfatından sonra yazılmış o esselərdən, məqalələrdən, xatirələrdən bəzi kiçik fraqmentləri oxuculara təqdim etmək istəyirəm.

«İlyas Əfəndiyevin dili başdan-başa musiqidir» – deyən və uzun illər boyu onunla, necə deyərlər, «az-az görüşən, tez-tez yada düşən» dost olan bəstəkar Tofiq Quliyev:

«İlyas Əfəndiyev qüdrətli sənətkar idi.

İlyas Əfəndiyev qayğıkeş ata idi.

İlyas Əfəndiyev gözəl baba idi.

İlyas Əfəndiyev yaxşı dost id\elə gəldi ki, İlyas müəllim gələcəkdən – iyirmi birinci, iyirmi beşinci, bəlkə də otuzuncu əsrdən gəlmiş bir insandır.

Biz – yeni-yeni nəsillər onun öz əsrində (yəni bütün əsrlərdə!) onunla həmişə yenidən görüşəcəyik...».

Polad Bülbüloğlu:

«Nə İlyas müəllimin dəfnində, nə də teatrın açılışında mən böyük ağsaqqalımıza demək istədiyim sözləri deyə bilmədim. Kövrək hisslər məni bürüdü. Gözlərim doldu. Sözlər qırıq-qırıq oldu. Amma indi, elə həmin ovqatla demək istədiklərimi ağ vərəqələrə köçürə bilirəm:

– Irəliyə baxın, əziz İlyas müəllim! Və inanın ki, nə qədər səhnəmiz var, o heç vaxt Nərminsiz, Kamransız, Nargiləsiz, Natəvansız – qəribə talelər yaşayan, mahnıları ulu dağlarda qalan insanlarsız olmayacaq. Xoşbəxt ruhunuz həmişə səhnəmizin divarları arasında, başımızın üstündə olacaq!

Rahat yatın, ustad!

Siz həmişə bizimlə olacaqsınız!».

Həsənağa Turabov:

«Azərbaycan milli teatr sənəti möhtəşəm bir binadır. Bu sənət sarayı «Axundov teatrı» təməli üzərində yüksəlirsə, onun özünəməxsus mərtəbələrini «Mirzə Cəlil teatrı», «Hüseyn Cavid teatrı», «Cəfər Cabbarlı teatrı» təşkil etməkdədir. Aydın məsələdir ki, milli dramaturgiyamızdakı imzalar çoxdur, amma müəllifin adı yalnız o zaman müstəqil teatr lövhəsinə yazılır ki, yazar öz taleyini məhz teatrla bağlasın, Belinskinin təbirincə desək, «teatrda doğulsun və teatrda da ölsün». Burada fiziki ölüm yeni – mənəvi, bədii, sənət həyatına keçid kimi anlaşılır və hər hansı sənətçidən ötrü bundan xoşbəxt tale yoxdur...

İlyas Əfəndiyev ömrü boyu bu xoşbəxtliyə doğru getməkdəydi və sonuncu niyyəti onu arzuladığı mənzilə çatdırdı.

Çünki Azərbaycan milli teatr sənətinin ulu binasının ən incə, lirik, həssas və qeyrətli mərtəbəsi artıq «İlyas Əfəndiyev teatrına» məxsusdur...».

Vaqif Bayatlı Önər:

«Əziz İlyas müəllim! Siz çiyinlərinizi, ürəyinizi, həyatınızı verib Azərbaycanı XXI yüzilliyin astanasına gətirib çıxardınız...».

Bəlkə də sitatları həddən arıq gətirdim, amma buna məni o yazıların (həm də yalnız sitat gətirdiklərimin yox, hamısının!) səmimiliyi, orada ifadə olunan hissiyyatın saflığı sövq etdi, çünki o səmimilik də, o hissiyyat saflığı (və zənginliyi!) də İlyas Əfəndiyevin özünün təbiətinə çox xas olan bir cəhət idi və başqalarında da həmin səmimiyyəti, həmin hissiyyatı yüksək qiymətləndirirdi.

Mən İlyas Əfəndiyev haqqındakı xatirələrdən, məqalələrdən bu kiçik parçaları ağ kağıza köçürürəm və qoca Abbas Tufarqanlının fikrimin dərinlərində həmişəlik ilişib qalmış iki misrasını eşidirəm:

*Bu dünya karvansaradı,*
*Hər gələn qonar, əylənməz...*

O xatirələr, məqalələr, esselər müəlliflərinin də bir işıqlı qismi bu gün artıq haqq dünyasındadı...

Vəfatından sonra İlyas Əfəndiyevdən bəhs edən böyük albom nəşr olundu (Bakı, «Işıq», 1996), Əmin Əfəndiyev «İlyas Əfəndiyevin yaradıcılığı» mövzusunda doktorluq dissertasiyası müdafiə etdi və həmin dissertasiya əsasında yazılmış eyniadlı monoqrafiyası (Bakı, «Elm», 2000), eləcə də onun hazırladığı «İlyas Əfəndiyev. Biblioqrafik göstərici» kitabı (Bakı, «Çinar-Çap», 2002) çapdan çıxdı və yeri düşmüşkən, mən, İlyas Əfəndiyevin ədəbi irsinin öyrənilməsində və xüsusən də toplanmasında bu tədqiqatçının xidmətlərini xüsusi qeyd etmək istəyirəm.

Səidə Şahbazovanın «İlyas Əfəndiyevin tarixi dramları» monoqrafiyası (Bakı, «Ağrıdağ», 2002.) nəşr olundu.

Bu müddət ərzində İlyas Əfəndiyevin özünün əsərləri müxtəlif teatrlarda tamaşaya qoyuldu, ömrünün son illərində yazdığı əsərlərdən ibarət «Sən ey böyük Yaradan» adlı kitabı nəşr olundu (Bakı, «Şərq-Qərb», 1997), vaxtilə yazılmış, tamaşaya qoyulmuş bir sıra əsərləri ilk dəfə dərc edildi və o tamaşalar da, o kitab da, o əsərlər də mətbuatda geniş işıqlandırıldı, böyük uğur qazandı...

Mühüm hadisələrdən biri də o oldu ki, İlyas Əfəndiyevin yeddi cilddən ibarət «Seçilmiş əsərlər»i latın qrafikası ilə nəşr edildi. Bu nəşri hazırlamaq üçün İlyas Əfəndiyev yaradıcılığına yaxından bələd olan, bu yaradıcılığı yüksək

qiymətləndirən, İlyas Əfəndiyevin şəxsiyyətinə dərin hörmət bəsləyən Ağamusa Axundov, Anar, Vaqif Bayatlı Önər, Bəxtiyar Vahabzadə, Bəkir Nəbiyev, Dilsuz Mustafayev, Əmin Əfəndiyev, Əziz Mirəhmədov, Həsənağa Turabov, İlham Rəhimli, Kamal Talıbzadə, Timuçin Əfəndiyev, Vilayət Quliyev, Yaqub Ismayılov və Yaşar Qarayevdən ibarət Redaksiya heyəti yarandı, mən Baş redaktor oldum və çox gərgin hazırlıq işindən sonra, yeddi cildliyi nəşr etdik (Bakı, «Çinar-Çap», 2002).

İlyas Əfəndiyevin sağlığında Azərbaycan dilində dörd dəfə «Seçilmiş əsərlər»i nəşr olunmuşdu: bir cildliyi (Bakı, «Azərnəşr», 1959), iki cildliyi (Bakı, «Azərnəşr», 1-ci cild – 1964, 2-ci cild – 1965), dörd cildliyi (Bakı, «Azərnəşr», 1-ci cild – 1969, 2-ci cild – 1970, 3-4-cü cildlər – 1973) və nəhayət, altı cildliyi (Bakı, «Yazıçı», 1984).

Təxminən 250 çap vərəqi həcmində olan yeddi cildlikdə İlyas Əfəndiyevin əsas əsərləri, o cümlədən, indiyədək heç bir kitabına düşməyən hekayələri, pyesləri və başqa yazıları toplanmışdır və bu nəşrin ciddi uğurlarından biri də odur ki, İlyas Əfəndiyevin ədəbiyyat, sənət haqqında məqalələri ilk dəfə bir yerə toplanaraq 35 çap vərəqi həcmində ayrıca bir cild kimi (sonuncu – 7-ci cild) nəşr olundu.

İlyas Əfəndiyev yalnız bir yazıçı kimi yox, eyni zamanda, dövrün vulqar-sosioloji doqmalarına heç vəchlə yaxın durmayan və əsərin bədii-estetik cəhətlərini əsas götürən tənqidçi kimi də Azərbaycan ədəbi prosesində aktiv iştirak edirdi və onun yeddi cildlik «Seçilmiş əsərlər»i əyani şəkildə göstərdi ki, İlyas Əfəndiyev yalnız milli bədii ədəbiyyatın deyil, ictimai fikrimizin də inkişafında mühüm xidmətlərə malikdir.

Yeddicildliyi oxucular (yeni bir epoxa oxucuları!), böyük maraqla qarşıladı, ədəbi tənqid bu nəşri yüksək qiymətləndirdi və bir daha məlum oldu ki, yaradıcılığının böyük əksəriyyəti sovet dövrünə düşən İlyas Əfəndiyev böyük sovet yazıçısı yox, böyük Azərbaycan yazıçısıdır, onun istisnasız olaraq, bütün hekayələri, romanları, povestləri və pyesləri, hətta məqalələri sistemə, ideologiyaya yox, ədəbiyyata məxsusdur.

İlyas Əfəndiyev bədii əsərləri ilə ideologiyaya yox, ədəbiyyata xidmət etmişdir.

Bu sözlərin həqiqət olduğunu, burada qətiyyən heç bir mübaliğəyə yol verilmədiyini, elə bilirəm ki, həmin yeddicildlik yaxşı təsdiq edir, İlyas Əfəndiyevin bəyəndiyi bədii surətlərdən birinin – Şərifin dediyi kimi, «subutalnı, dokumentalnı».

Bir kitabı da ayrıca qeyd etmək istəyirəm: İlyas Əfəndiyev vəfat etdikdən sonra, mətbuatda onun haqqında çox yazılar çap olundu və mən hər gün sübh tezdən öz yazı-pozu işlərimi onunla başladım ki, İlyas Əfəndiyev haqqında mətbuatda dərc edilmiş həmin yazılardan səciyyəvi hesab etdiyim kiçik hissələri (bəzən yalnız bircə cümləni...) olduğu kimi kompütərə köçürdüm və beləliklə, İlyas Əfəndiyev haqqında, mənim düşüncəmə görə, maraqlı bir kitab yarandı.

Salnamə səciyyəli bu kitab – «Sənətkarın ikinci ömrü. (İlyas Əfəndiyev. Beş ilin salnaməsi)» onun vəfatının beşinci ildönümündə nəşr olundu (Bakı, «Çinar-Çap», 2002).

Həmin kitaba mən belə bir kiçicik ön söz yazmışdım:

«1996-cı il.

3 oktyabr. Cümə axşamı.

Saat 13.45.

İlyas Əfəndiyevin dünyasını dəyişdiyi il, gün, saat, dəqiqə...

Bu tarixdən sonra İlyas Əfəndiyevin – yazıçının, mütəfəkkirin, vətəndaşın – ikinci ömrü (sənət ömrü! yaradıcılıq ömrü! əməllər ömrü!) başlanır...

Bu ömrün – sənətkarın ikinci ömrünün – müddəti (davamlığı, uzunluğu) insan ömrünün çərçivəsi ilə müqayisəyə belə gəlmir və sənətkarın bu dünyada qoyub getdiyi Sözün əhəmiyyəti, əslində, o ikinci ömrün zaman vahidinə çevrilir...

İlyas Əfəndiyev ömrü davam edir...

İlyas Əfəndiyev haqq dünyasına köçdüyü bu beş ildə – 1996-cı ilin oktyabrından 2001-ci ilin oktyabrınacan – sənət adamları, yazıçılar, alimlər, jurnalistlər, adi oxucular mətbuat səhifələrində onun haqqında məxsusi qələmə alınmış bir çox xatirələrdən, məqalələrdən başqa, müxtəlif mövzulu yazılarında, müsahibələrində də tez-tez onu nisgil dolu bir səmimiyyətlə xatırlamış, İlyas Əfəndiyevin şəxsiyyəti və yaradıcılığı haqqında, bu yaradıcılığın XX əsr Azərbaycan ədəbiyyatının inkişafındakı rolu barədə ürəkdolusu bir hərarətlə söz demiş, onunla bağlı tarixi faktlara diqqət yetirmiş, müxtəlif məlumatlar vermişlər.

Mətbuatdakı, nəşr olunan kitablardakı həmin yazıların, məlumatların hamısını izləmək praktiki cəhətdən mümkün deyil.

Bu beş ildə İlyas Əfəndiyev yaradıcılığı haqqında nəşr olunmuş monoqrafiyaları, «Sən həmişə bizimləsən» adlı xatirələr kitabını, onun şəxsiyyətindən və yaradıcılığından bəhs edən məqalələri, xatirələri, deyilən fikirləri, mülahizələri, açıqlanan faktları bir yerə toplasan, neçə cilddən ibarət bir nəşr ola bilər.

Mən, salnamə xarakterli bu kitabda, həmin yazılardan elə kiçicik hissələr seçib oxucuya təqdim etməyə çalışdım ki, mövzunun ehtiva dairəsi imkan daxilində əhatəli olsun, İlyas Əfəndiyevin şəxsiyyəti və yaradıcılığı, eləcə də, onun müasir Azərbaycan ictimai fikrindəki yeri barədə dəqiq təsəvvür yaratsın.

Yazılardan seçdiyim nümunələrdə, mən, təbii ki, müəlliflərin üslubuna toxunmamışam. Həmin nümunələr mətbuatda necə getmişdirsə, bu kitabda da eləcə verilmişdir.

1 noyabr 2001-ci il.

Bu kitabı da oxucular hərarətlə qarşıladı.

Bəli, bu müddət ərzində mətbuat İlyas Əfəndiyevdən çox yazdı...

Onu xatırladılar, onu alqışladılar, ona məşhur pyesinin adına uyğun, «sən həmişə bizimləsən» dedilər...

Və yeganə çatışmayan cəhət isə o oldu ki, daha onun özünə oxucu məktubları yazılmadı, onun iş kabinetində onun özünə ünvanlanmış telefon zəngləri daha səslənmədi...

**4.**

Bu gün mənim üçün əlamətdar görünən bir cəhət də odur ki, İlyas Əfəndiyevin dostları da, eyni zamanda, onun oxucuları idi və onların həm İlyas Əfəndiyevin şəxsiyyətinə, həm də yaradıcılığına böyük hörmət və məhəbbətləri var idi. Əslində bu, eyni zamanda, ədəbiyyatla, sənətlə bağlı mövqelərin, zövqlərin, istəklərin birliyi idi.

Onun dostları elə də çox deyildi (Molla Cumanın məşhur misrası, elə bilirəm ki, burada yerinə düşür: «Dərdi qanan ya bir ola, ya iki...»), amma düşməni isə, ümumiyyətlə, yox idi. Paxıllıq edən, ədəbi qısqanclıq hissini boğa bilməyən, gözü götürməyən, əlbəttə, var idi, amma – düşməni – yox idi və elə bilirəm ki, yazıçılar aləmindəki, – xüsusən, 40 – 50 – 60-cı illərdə – intriqalar burulğanını nəzərə alsaq və bura onu da əlavə etsək ki, dövrün, hakim ideologiyanın, sistemin yaratdığı ab-hava həmin «intriqalar burulğanının» daha da qızışması üçün gözəl münbit zəmin, əlverişli şərait yaradırdı, bu fakt, yəni İlyas Əfəndiyev «düşmənsizliyi» onun şəxsiyyəti haqqında az söz demir.

Bununla əlaqədar orasını da xüsusi qeyd etmək istəyirəm ki, İlyas Əfəndiyev ötkəm adam idi, sözü şax üzə deyən və heç kimdən çəkinməyən, öz sərbəstliyini, ləyaqətini qiymətləndirməyi və qorumağı bacaran bir şəxsiyyət idi.

Yenə Bəxtiyar Vahabzadədən bir sitat gətirmək istəyirəm, çünki İlyas Əfəndiyevlə bağlı bu da dəqiq bir müşahidədir: İlyas Əfəndiyev «hər adamla ünsiyyət bağlamaz, onun öz ətrafı, öz həmsöhbətləri olardı. O, istedadsız, sırtıq, mütaliəsiz, dayaz adamlardan qaçardı. Amma istedadlı, mütaliəli və ziyalı adamlarla... söhbətdən ləzzət alardı. Çünki özü daxilən ziyalı adam idi. Dərin mütaliəsi var idi. Mən cəsarətlə deyə bilərəm ki, yazıçılar içərisində Qərb və rus ədəbiyyatını onun qədər dərindən bilən qələm sahiblərini barmaqla saymaq olar».

Mən, indi əlçatmaz, ünyetməz bir uzaqlıqda qalmış 60-cı illərin ikinci yarısında namizədlik dissertasiyası yazırdım və o zaman M.F.Axundov adına Dövlət kitabxanasında həmin 30-40-50-ci illərin bütün respublika mətbuatını səhifə-səhifə vərəqləmişdim: bir çox görkəmli yazıçı və şairlərimizdən fərqli olaraq, İlyas Əfəndiyevin kimisə «ifşa» etməsinə, sonralar peşmançılığını çəkəcəyi, cürbəcür bəraət bəhanələri gətirməyə məcbur olacağı hansısa bir «ifşa» məktubuna (o zamanın geniş yayılmış «ədəbi janrına»!) imza atmasına rast gəlməmişəm, çünki belə hadisə olmayıb.

O dövrün ədəbi-ictimai həyatını öyrənənlər bu faktın nə demək olduğunu daha yaxşı qiymətləndirə bilərlər (və qiymətləndirirlər!).

Amma onu «ifşa» edən yazılar var...

İlyas Əfəndiyevin uşaqlıq dostlarından mən, ancaq heykəltəraş Cəlal Qaryağdını və tarixçi, professor Əhəd Bağırzadəni tanıyırdım və onlar sonralar da hərdənbir əlaqə saxlayırdılar, bəzən görüşürdülər, bəzən də uzun illər görüşmürdülər. Buna görə də İlyas Əfəndiyev vəfat edəndə və Cəlal Qaryağdı başsağlığı verməyə gələndə (Əhəd Bağırzadə isə daha əvvəl vəfat etmişdi), məni qucaqlayıb uşaq kimi ağlaması və:

– İlyasın ölümü mənim belimi sındırdı,– deməsi, bu sözləri dedirdən kədərin təbiiliyi, doğrusu, mənim üçün bir az gözlənilməz oldu və hətta mən, nədənsə, elə bil ki, onun qarşısında özümü bir az günahkar hiss etdim.

Beş ildən sonra, 2001-ci ildə Cəlal Qaryağdı da rəhmətə getdi və bu sözləri yazarkən bu uşaqlıq dostlarının haqq dünyasındakı ruhları qarşısında indi özümü bir balaca rahat hiss edirəm: Cəlal müəllim uzun illərdən bəri üzərində işlədiyi Cəfər Cabbarlı heykəlini bitirmişdi və o heykəl Xızıda ucaldılmalı idi, ancaq bunun üçün vəsait çatışmırdı. Mən BMT-nin Azərbaycandakı nümayəndəliyini bu işə cəlb edə bildim və o heykəlin açılış mərasimində onunla birlikdə iştirak etdim. İndi Cəlal Qaryağdının əsl sənətkarlıqla yaratdığı o heykəl Cəfərin ana yurdunda ucalmaqdadı.

İlyas Əfəndiyevin daima xatırladığı ən yaxın uşaqlıq və yeniyetməlik dostu haqqında da yazmaq istəyirəm: Məhəmməd adlı o oğlanla Füzulidə bir məktəbdə oxuyublar, Məhəmməd iki sinif irəlidə imiş və təxminən 16-17 yaşları olanda – 30-31-ci illərdə – yeni hakimiyyəti, yerli bolşeviklərin rəhbərliyini və əməllərini heç cürə qəbul etmədikləri üçün, İlyasla Məhəmməd qərar veriblər ki, Irana qaçıb, oradan Türkiyəyə gedib Azərbaycan uğrunda mübarizə aparacaqlar, həmfikirlərini başlarına toplayıb yenidən Azərbaycana qayıdacaqlar. Nəhayət, bir gün sözləşirlər ki, səhər tezdən görüşüb Arazı keçsinlər. Sübh tezdən sözləşdikləri yerdə görüşürlər.

İlyas Əfəndiyev deyirdi: «Çayı keçməyə hazırlaşırdıq ki, birdən-birə anam, atam, balaca qardaşlarım, bacılarım yadıma düşdü. Fikirləşdim ki, bunları burda qoyub gedirəm, axırları necə olacaq? Bolşeviklər atama, anama, bütün ailəmizə zülm edirdilər, fikirləşdim ki, bu zülmə necə tab gətirəcəklər? Bunlar bu vəziyyətdə qalır burda, mən Türkiyədə necə rahat yaşaya bilərəm? Məhəmmədə dedim ki, yox, mən getmirəm. Nə qədər elədisə də, getmədim. Məhəmmədlə vidalaşdıq, onu ötürdüm, üzüb Arazı keçdi, mən geri qayıtdım».

İlyas Əfəndiyev, dediyim kimi, Məhəmmədi tez-tez xatırlayırdı, onun çox ağıllı və bacarıqlı olduğunu deyirdi və şübhə etmirdi ki, əgər, salamat qalıbsa, hörmətli bir adam olub.

Sonralar mən Türkiyə səfərlərim zamanı həmişə bu adamı axtarırdım, onun haqqında soraqlaşırdım və nəhayət 90-cı illərin əvvəllərində Türkiyədə yaşayan mühacirlərimizin köməkliyi ilə onun kimliyini müəyyənləşdirə bildim: mühacirətdəki Azərbaycan milli azadlıq hərəkatının görkəmli xadimlərindən biri – Məmməd Azər Aran.

52-53 illik xəbərsizlikdən sonra gələn bu soraq İlyas Əfəndiyevi çox sevindirdi və ona çox da təsir etdi. Atam, Məmməd Azər Arana məktub yazdı və mən o məktubu ünvanına çatdıra bildim. Mənə deyilənə görə, Məmməd Azər Aran da bu məktuba çox sevinib, sovet rejimindən İlyas Əfəndiyevlə birlikdə qaçmaq istədiklərini təfərrüatı ilə xatırlayıb, ancaq çox da təəssüf ki, o zaman o, artıq ağır Parkenson xəstəliyinə tutulmuşdu və azacıq sonra da vəfat etdi.

Mən onun vəfat etdiyini atama demədim və məktubuna cavabın gəlməməyinə belə bir bəhanə gətirdim ki, ağır xəstədir, deyir, belə bir vəziyyətdə mən İlyasa cavab yazmaq istəmirəm, sağalan kimi Bakıya gedib özüm İlyasla görüşəcəyəm. İlyas Əfəndiyev sidq-ürəkdən gələn bir pərişanlıqla:

– Bəs həkimləri nə deyir?– soruşurdu.

Mən də:

– Deyirlər sağalacaq,– deyirdim.

Sonra İlyas Əfəndiyev özü vəfat etdi...

Türk Kültur Dərgisi «Azərbaycan» 1996-cı il oktyabr nömrəsində yazırdı:

«Bakıdan aldığımız acı xəbər Azərbaycan Kültur Dərnəyi Yönetimi və mənsublarını acılara boğdu.

Azərbaycan Cümhuriyyətinin olduğu qədər, Türk Dünyasının da ən böyük dram yazarlarından biri olan İlyas Əfəndiyev Bakıda Tanrının rəhmətinə qovuşdu.

İlyas Əfəndiyev 72 illik kommunist rus işğalı dönəmində Kommunist partiyasına üzv olmağı rədd edən görkəmli şəxsiyyətlərdən biri idi. O, sovet ordusunun Azərbaycanı işğal etdiyini, Azərbaycan xalqının bir müstəmləkə həyatı yaşadığını gördükdən sonra, mühacirətdə Müsavat Partiyasının rəhbəri olmuş

Məmməd Azər Aranla birlikdə Türkiyəyə qaçmağa qərar vermişdir. Lakin son anda atası onun qaçmasına mane olmuşdur».

Bu hadisənin əslində necə olduğunu mən yazdım. «Azərbaycan» dərgisi isə, İlyas Əfəndiyevin xatirəsinə həsr olunmuş həmin yazıda Məmməd Azər Aran haqqında da məlumat verir: «Məmməd Azər Aran Irandan keçməklə Türkiyəyə gəlmiş, Hərbi tibb fakültəsinə daxil olmuş və buranı bitirdikən sonra türk ordusunda hərbi həkim kimi xidmət etmişdir. Əsəb xəstəlikləri üzrə mütəxəssis olan Məmməd Azər Aran polkovnik rütbəsinə kimi yüksəlmişdir. O, Türkiyəyə gəldikdən sonra, Müsavat Partiyası sıralarına üzv yazılmış və Məhəmməd Əmin Rəsulzadənin ən mötəbər silahdaşlarından biri olmuşdur. Məmməd Azər Aran, Kərim Odər rəhmətə getdikdən sonra Müsavat Partiyasına rəhbərlik etmişdir».

Orası da yadıma gəlir ki, 60-cı illərin əvvəllərində Türkiyəyə getməyə hazırlaşan Mehdi Hüseyn bir axşam bizə gəlmişdi. O zaman Türkiyəyə getmək, az qala, aya uçmaq kimi bir şey idi, amma atam üçün də, Mehdi Hüseyn üçün də, aya uçmaqdan daha maraqlı və daha arzulanan bir səfər idi. Onda Mehdi Hüseyn zarafatla atama dedi:

– Bəlkə orada sənin o Məhəmmədini də tapdım...

İlyas Əfəndiyev:

– Sən elə özün sağ-salamat qayıt gəl, bəsdi,– dedi.– O boyda Türkiyədə sən Məhəmmədi haradan tapacaqsan?

Sən demə, «o boyda Türkiyədə» Məhəmmədi tapmaq mümkün imiş...

Mən artıq yazdım ki, atamın Mehdi Hüseynlə xüsusi dostluğu var idi (mən ona «Mehdi əmi» deyirdim) və İlyas Əfəndiyev sonralar yazdığı xatirəsində 1939-cu ildə Yazıçılar Ittifaqında, elə indiki «Xaqani» 25-dəki binada onunla ilk görüşlərini xatırlayaraq belə yazırdı:

«Mehdi o zaman tanınmış, məşhur yazıçı idi. Mən onun məqalələrini çox oxumuşdum və etiraf eləyim ki, onu (xüsusən, Cəfər Cabbarlı haqqındakı məlum məqalələrinə görə) quru, amansız bir adam kimi təsəvvür edirdim, hətta şəklini qəzetlərdə görəndə onun sərt ifadəli simasına baxıb fikirləşirdim ki, «görəsən bu adam heç gülümsəyirmi»?

Indisə o, açıq, səmimi ifadə ilə gülümsəyən iri qara gözlərilə, şən zarafatıyla birdən-birə mənə başqa cür təsir bağışladı və onda heç bir xudbinlik, yekəxanalıq əlaməti hiss eləməməyim mənə xoş gəldi. Insanın istər müsbət və istərsə də mənfi hərəkətlərində elə anlar, elə çalarlar olur ki, onlar heç bir zaman unudulmur... Və sanki həmin adamın ruhi aləminə pəncərə açır.

Mehdi Hüseynlə gələcəyin iyirmi beş illik dostluğuna çevriləcək ilk tanıqşlığımız belə oldu».

İlyas Əfəndiyev həmin xatirəsini belə bitirirdi:

«Heyf ki, ədəbiyyatımızın bu unudulmaz xadimi çox yaşamadı. O, bir anın içində qartal kimi uçub əbədiyyətə getdi.

Rəyasət heyətinin iclasında idik. Yazıçılar qurultayına hazırlıq işlərini müzakirə edirdik. Mehdi sədr stolu arxasında ayaq üstə dayanaraq papiros çəkə-çəkə çıxış eləyən hansı yazıçını isə dinləyirdi. Birdən stula əyləşərək başını mizə əyib hərəkətsiz dayandı və Hüseyn Abbaszadə dəhşətlə səsləndi:

– Mehdi getdi ki!

Mən hər dəfə Mehdinin dəniz kənarındakı evinin qabağından keçəndə onun yazda-yayda əyləşib söhbət elədiyimiz balkonuna baxıram və o balkon mənə o qədər kədərli, o qədər kimsəsiz, o qədər yazıq görünür ki, elə bil Mehdi ilə orada keçirdiyimiz vaxtlardan yüz il keçir... Min il keçir...»

İlyas Əfəndiyevin bu cümlələri yazdığı 1988-ci ildə «o vaxtdan» düz iyirmi üç il keçirdi...

Onun üçün dost ayrılığının yüz ilə, min ilə bərabər cəmi iyirmi üç ili...

İlyas Əfəndiyev hərdən söhbət əsnasında bir anlıq fikrə gedib, elə bil ki, özü özündən soruşurdu:

– Mehdinin vəfatından neçə il keçib?

– Beş il...– deyirdim.

Sonra on il.. On beş il... Iyirmi il...

Və hər dəfə də İlyas Əfəndiyev aradan keçən bu illərin sürətinə heyrət edirdi...

... İllər eyni sürətlə ötüb gedir...

Və illərin bu ildırım sürətini mən indi Fəxri Xiyabana – İlyas Əfəndiyevin məzarını ziyarətə gedəndə, lap çox, hətta elə bil ki, cismimlə hiss edirəm.

Nə tez gəlib keçdi bu bir il... Bu iki il... Üç il... Dörd il... Beş, altı, yeddi, səkkiz il...

Və o Fəxri Xiyabanda İlyas Əfəndiyevlə Mehdi Hüseyn qonşudu.

Onların arasında təkcə Abdulla Şaiqin məzarıdı və İlyas Əfəndiyev həyatda da Abdulla Şaiqlə qonşu yaşamışdı – «Hüsü Hacıyev» 19 saylı binada eyni blokda: Abdulla Şaiq ikinci mərtəbədə, İlyas Əfəndiyev üçüncü mərtəbədə və fikirləşirəm, nə yaxşı ki, İlyas Əfəndiyev də, Mehdi Hüseyn də Abdulla Şaiqə sidq-ürəkdən gələn bir ehtiram bəsləyirdilər.

İlyas Əfəndiyev 1971-ci ildə Abdulla Şaiq haqqında «Unudulmaz yazıçı, böyük humanist» adlı bir esse yazmışdı (Bax: «Kommunist» qəzeti, 5 may 1971), bir ildən sonra yenə həmin essenin üzərinə qayıtdı (adətən, heç vaxt haçansa yazdığını təzədən işləməzdi, heç təzədən oxumazdı da), onu tamam yenidən işləyib, əlavələr edib çap etdirdi («Böyük humanist», «Azərbaycan» jurnalı, [1]3, 1972).

O essedə İlyas Əfəndiyev yazırdı:

«Vəfatından bir qədər əvvəl bir dəfə mən küçədə təsadüfən ona rast gəldim. Salamdan sonra:

– Necəsiz, Şaiq müəllim?– deyə soruşdum.

O özünəməxsus bir mülayimliklə gülümsəyərək:

– Qocalıqla, xəstəliklərlə mübarizə aparıram,– dedi.

Mən:

– Həmişə qalib olun,– dedim,– görünüşünüz yaxşıdır.

– Təki olsun,– deyə zarafatla cavab verib öz xatirələrini yazmaqda olduğunu söylədi.

Mən onun arıq, nurlu çöhrəsinə baxaraq hiss edirdim ki, yarım əsrdən artıq öz xalqı üçün böyük işlər görmüş bu şərəfli insan yenə nə isə, xeyirli bir iş görmək, oxucularına lazımlı bir söz demək istəyir. Onun artıq geridə qalmış ləyaqətli ömrünün bir daha geriyə qayıtmayacağı məni kədərləndirirdi.»

Həmin «şərəfli insan», «ləyaqətli ömür» sahibi indi İlyas Əfəndiyevlə Mehdi Hüseynin arasında, onlarla eləcə kədərli bir qonşuluqdadı...

Heç nə geriyə qayıtmayacaq...

...İlyas Əfəndiyevin yaxın dostlarından biri də Adil Isgəndərov idi.

«Intizar»dan sonra İlyas Əfəndiyev ilk müstəqil pyesini – «Işıqlı yollar»ı yazmışdı və 1947-ci ildə Akademik Milli Dram Teatrında səhnəyə qoyulmuş bu tamaşanın quruluşçu rejissoru Adil Isgəndərov idi, bir il sonra, 1948-ci ildə Adil Isgəndərov həmin teatrda «Bahar suları»na quruluş verdi və ümumiyyətlə, İlyas Əfəndiyev həmişə deyirdi ki, məni teatra Adil gətirdi. İlyas Əfəndiyev yazırdı:

«Mən neftçilərin həyatından yazacağım pyesin (söhbət «Işıqlı yollar»dan gedir.– E.) süjetini təxmini olaraq Adilə nağıl elədim. O diqqətlə qulaq asıb, öz qeydlərini, arzularını da dedi. Mən birinci dəfəydi ki, Adil Isgəndərovla müstəqil yaradıcılıq işinə başlayırdım. Mənim düşündüyüm, qısa ştrixlərlə təsvir elədiyim surətləri onun dərhal necə aydın duyduğunu, hətta bəzən onun necə vəcdə gəldiyini hiss edirdim. Və bu cəhət, yaradıcılıqda təbiətən vasvası olan məni ruhlandırdı. Mən onun necə gözəl tamaşalar verdiyini görmüşdüm. Buna görə də, indi fikirlərimin onu necə maraqlandırdığını hiss etməyim mənim dramaturgiya sahəsində özümə inamımı artırırdı».

Görünür, onların gələcək dostluğunun da bünövrəsində bir-birilərini beləcə «dərhal» anlamaq dayanırdı və bu dostluq zamanın sınağından çıxmış bir dostluq idi.

Iş belə gətirmişdi ki, Adil Isgəndərov «Bahar suları»ndan sonra İlyas Əfəndiyevin başqa bir əsərinə quruluş verməmişdi. 1948-ci ildən sonra «Atayevlər ailəsi» pyesini 1954-cü ildə Adil Isgəndərovun razılığı ilə o zaman yeni fəaliyyətə başlamış Tofiq Kazımov tamaşaya qoymuşdu, onillik fasilədən sonra «Sən həmişə mənimləsən» yazılanda isə, Adil Isgəndərov artıq çox haqsız bir surətdə teatrdan uzaqlaşdırılmışdı.

Ancaq Adil Isgəndərov teatrda olanda da, olmayanda da, İlyas Əfəndiyevin Sona xanımın makinasından çıxmış yeni əsərlərinin əlyazmalarının ilk oxucularından biri olurdu. Və vacib deyildi ki, pyes olsun,– İlyas Əfəndiyev yeni hekayələrini, povest və romanlarını da hələ çapdan əvvəl oxuyub fikir deməsi üçün Adil Isgəndərova verirdi və Adil müəllim də o əlyazmalarını həmişə maraqla qarşılayırdı, onları çox ciddi oxuyurdu, axşam bizdə çay içə-içə fikrini deyirdi, qeydlərini bildirirdi və belə bir ənənə yaranmışdı ki, sonra da köhnə «Inturist»in restoranına gedirdilər. İlyas Əfəndiyev evdən çıxanda deyirdi:

– Bax, Adil, bu dəfə hesabı mən verəcəyəm!

Adil Isgəndərov:

– Hələ bir gedək, qadam...– deyirdi.

Mən də maraqlanırdım ki, görəsən, restoranda hesabı kim verəcək və gecə, ya səhəri gün atamdan soruşanda, gülümsəyə-gülümsəyə başını bulayırdı:

– Adil...

Adil Isgəndərov İlyas Əfəndiyevin 60-70-ci illərdə yazdığı yeni pyeslərini oxuyurdu, amma həmin əsərlərin tamaşalarına getmirdi, çünki uzun illər boyu, necə deyərlər, canını qoyduğu teatra daha ayaq basmırdı və onun teatrdan beləcə uzaqlaşdırılmasını, teatra getməməyini, xüsusən, ilk vaxtlarda, atam çox ürəyinə salırdı.

Bir çox illərdən sonra İlyas Əfəndiyev «Sənətkarın taleyi» adlı essesində yazırdı:

«Bir dəfə ona dedim:

– Adil, bəlkə, bir neçə yazıçı, yuxarı təşkilatlardan xahiş eləyək, səni qaytarsınlar teatra?..

Dərindən nəfəs alıb:

– Yox,– dedi.– Işləyə bilmərəm, ürəyim sınıb...

Mən də kədərlə hiss elədim ki, Adil haqlıdır... Işləyə bilməz.

Taleyin qəribə işləri olur...

Bəzən bizlərdən birimiz ürəyimizdən şikayət eləyəndə Adil zarafatyana deyərdi ki:

– Qadam, ürək adamın harasında olur?..

Özü isə heç gözlənilmədən ürəyindən öldü...».

Mən indi bu sətirləri oxuyuram, bu sözlərin deyildiyi, bu ovqatın yaşandığı günlər, illər gözlərimin qabağına gəlir və elə bil, İlyas Əfəndiyevlə bir yerdə fikirləşirəm ki, əlbəttə, ürək neyləsin?..

İlyas Əfəndiyevin Tofiq Kazımovla da hələ 50-ci illərin əvvəllərindən etibarən yaxın dostluqları var idi və bu dostluq da bir tərəfdən, təbii ki, şəxsi hisslərin ifadəsi idi, digər tərəfdən isə bədii-estetik əqidə, ədəbi məfkurə dostluğu idi.

Tofiq Kazımov «Atayevlər ailəsi»nə verdiyi quruluşdan düz on il sonra, 1964-cü ildə «Sən həmişə mənimləsən» pyesini tamaşaya qoydu və o tamaşa Azərbaycan teatrının tarixində prinsipial əhəmiyyətli mühüm hadisəyə çevrildi.

Bundan sonra Tofiq Kazımov 1968-ci ildə «Unuda bilmirəm»i, 1969-cu ildə «Məhv olmuş gündəliklər»i, 1975-ci ildə isə «Bağlardan gələn səs»i Akademik Milli Dram Teatrının səhnəsində tamaşaya qoydu.

Bu tamaşalar haqqında, onların Azərbaycan teatr sənətinin inkişafındakı rolu barədə müxtəlif teatrşünaslar nəslinin Cəfər Cəfərov və Yaşar Qarayevdən tutmuş Məryəm Əlizadə və İlham Rəhimliyə qədər, demək olar ki, bütün səriştəli nümayəndələri çox yazıblar və indiki kontekstdə mənim üçün vacib cəhət odur ki, təkrar edirəm, İlyas Əfəndiyev ilə Tofiq Kazımovun dostluğu şəxsi dostluq ilə sənət dostluğunun birliyi idi.

Sultan Hacıbəyovla dost idilər və bu dostluğun isə bünövrəsi uzaq keçmişlərə gedib çıxırdı: Sultan Hacıbəyovun anası Zəhra xanımla İlyas Əfəndiyevin anası Bilqeyis xanım gənclik rəfiqələri idi və mənim onların söhbətinə qulaq asmağa xüsusi azarım var idi: tez-tez xatırlayırdılar ki, yayda Şuşada Üzeyir Hacıbəyovun anası Şirin xanıma necə gedib baş çəkirdilər, Cıdır düzündə, Ərimgəldidə necə gəzməyə çıxırdılar, Şuşadan kəsə Molla Nəsrəddin yolu ilə faytonla Qaryaginə (indiki Füzuliyə) necə gedirdilər və o rəhmətliklər o söhbəti elə canlı aparırdılar, elə şövqlə danışırdılar ki, elə bil, o faytonda elə mən özüm də o kəsə Molla Nəsrəddin yolu ilə üzüaşağı Füzuliyə tərəf düşürdüm, mən özüm də onlarla bir yerdə gedib Üzeyir bəyin qoca anası Şirin xanımı yoluxurdum, Cıdır düzündə, Ərimgəldidə onlarla bir yerdə gəzirdim.

Sonralar İlyas Əfəndiyev Şuşanın o səfalı və unudulmaz yerləri barədə yazırdı:

«Yay zamanı aran Qarabağın – Yevlağın, Bərdənin, Tərtərin, Ağdamın, Ağcəbədinin, Füzulinin, Cəbrayılın, Beyləqanın camaatı Şuşaya yaylağa gedərdilər. Bu əhalinin Şuşada iki məşhur gəzmək yeri var idi. Biri cənub hündürlüyündəki məşhur Cıdır düzü, digəri Ağdama gedən yolun üstündəki Ərimgəldi idi. Axşamçağı camaatın yarısı Cıdır düzünə, yarısı da Ərimgəldiyə gəzintiyə çıxardı. Arvadlar Şuşadan Ağdama gedən yola baxıb, Arandan gələcək ərlərinin yolunu

gözləyirdilər... Ərlər də cümə axşamları dal-dala düzülmüş faytonlarda, ucaboylu qaçağan Qarabağ atlarında dolayı yolla Şuşaya qalxardılar. Özləri ilə Arandan təzə dəymiş yemiş, qarpız, üzüm gətirərdilər. Cümə günü evlərdən qalxan kabab iyi şəhərə yayılardı. Axşam çağları Xanın (Xan Şuşinskinin– E.) dəstəsi Cıdır düzündə, Bahadurun, Qaçaybalanın dəstələri də Ərimgəldidə çalıb-oxuyurdular. Biz uşaqlar həmişə anamızla Cıdır düzünə gəzməyə çıxırdıq» .

Sultan Hacıbəyovun əsərləri arasında İlyas Əfəndiyevin ən çox xoşuna gələni «Karvan» simfonik mənzərəsi idi, deyirdi:

– Soltan (onu belə çağırırdı, «Sultan» yox), hər dəfə sənin «Karvan»ına qulaq asanda, mənə elə gəlir ki, ömrümdə görmədiyim səhraları görürəm, dəvə karvanlarını görürəm, o karvanla addımlayan, o dəvələrin üstündə oturan adamları görürəm... Hətta onların nə hiss elədiklərini hiss edirəm...

1967-ci ildə səhnəyə qoyulmuş «Mənim günahım» tamaşasının da musiqisini İlyas Əfəndiyevin istəyi ilə Sultan Hacıbəyov yazmışdı: «– Bu pyesə sənin musiqin lazımdı!».

Ümumiyyətlə, deməliyəm ki, İlyas Əfəndiyev musiqiyə çox həssas adam idi və «Tofiq Kazımovu xatırlayarkən...» adlı essesində yazırdı ki, «Pyeslərimin ilk işığı fikrimə həmişə hansı mahnıyla, muğamlasa daxil olmuşdur. «Sən həmişə mənimləsən»də «Qaragilə» mahnısı, «Mahnı dağlarda qaldı»da «Aman ovçu, vurma məni» mahnısı... və s. «Məhv olmuş gündəliklər» pyesi mənim fikrimə «Pəncərədən daş gəlir...» mahnısıyla daxil olmuşdu.

Və yəqin bu da o səbəblərdən biri idi ki, İlyas Əfəndiyevin bir sıra bəstəkarlarla yaxın, məhrəmanə münasibəti var idi. Mən artıq Tofiq Quliyev haqqında dedim. Eləcə də Fikrət Əmirov, Səid Rüstəmov, Niyazi, Əfrasiyab Bədəlbəyli, Süleyman Ələsgərov onun tez-tez görüşdüyü, zəngləşdiyi, hal-əhval tutduğu adamlar sırasında idi və bu bəstəkarlarla onu, eyni zamanda, birgə yaradıcılıq işi də birləşdirirdi.

Fikrət Əmirov hələ 1947-ci ildə «Işıqlı yollar» tamaşasının musiqisini yazmışdı və çox-çox sonralar da cavanlıq dövrlərindəki həmin birgə yaradıcılıq işlərini xüsusi bir hərarətlə xatırlayırdı: « – İlyas, yadındadı də...».

40-cı illərin sonları, 50-ci illərin əvvəllərində İlyas Əfəndiyevlə Fikrət Əmirov yay aylarını bir yerdə Şuşaya, yazıçıların oradakı məşhur Yaradıcılıq Evinə gedirdilər və biz iyul, avqust aylarını orada qonşu olurduq.

Fikrət Əmirovla birlikdə Isa bulağında, Daşaltında, Səkili bulaqda, Turşsuda keçirdiyimiz ailəvi məclislər, o məclislərdə Şuşa xanəndələrinin, yeniyetmələrin oxumaqları, «Qarabağ şikəstəsi», «Şuşanın dağları», «Qaçaq Nəbi», «Tel nazik, bel nazik», «Irəvanda xal qalmadı» mahnıları, o zaman müharibədən qayıtdıqdan sonra universiteti yenicə bitirmiş cavan bir tarixçi olan rəhmətlik Firudin Şuşinskinin də o şikəstəyə, o mahnılara qulaq asa-asa həvəsə gəlib tın-tın səsiylə pəsdən gözəl zümzümə eləməyi mənim heç vaxt yadımdan çıxmayacaq uşaqlıq xatirələrimdəndir.

Yeri düşmüşkən deyim ki, Şuşadakı həmin Yaradıcılıq Evi yay aylarında həqiqi mənada bir ədəbiyyat, ümumiyyətlə, mədəniyyət ocağına çevrilirdi və oranın təkrarsız ab-havasını, orada Süleyman Rəhimovla, Fikrət Əmirovla, Bayram Bayramovla, Cəfər Xəndanla, Balaş Azəroğluyla, Qasım Qasımzadəylə, Cahanbaxışla, gənc Əliağa Kürçaylı və Məsud Əlioğluyla, o illərdə yüksək vəzifələrdə işləyən, sonralar isə Nazirlər Sovetinin, Respublika Ali Soveti Rəyasət

Heyətinin sədri olmuş Məmməd Isgəndərovla gözəl qonşuluğumuzu, onlarla söz-söhbətini İlyas Əfəndiyev, xüsusən 90-cı illərdə – ömrünün son illərində tez-tez xatırlayırdı.

«Işıqlı yollar»dan düz on yeddi il sonra, 1964-cü ildə «Sən həmişə mənimləsən»in də musiqisini İlyas Əfəndiyevin təklifi ilə Fikrət Əmirov bəstələmişdi.

Əfrasiyab Bədəlbəyli 1944-cü ildə «Intizar» tamaşasının, Səid Rüstəmov 1948-ci ildə «Bahar suları»nın, Niyazi 1954-cü ildə «Atayevlər ailəsi»nin, Tofiq Quliyev «Sən həmişə mənimləsən»in Rus Dram Teatrındakı tamaşasına, Süleyman Ələsgərov 1971-ci ildə «Mahnı dağlarda qaldı»nın musiqisini bəstələmişdilər. Sonrakı nəsil nümayəndələrindən Arif Məlikov, Vasif Adıgözəlov, Emin Sabitoğlu, Cavanşir Quliyev kimi bəstəkarlar da İlyas Əfəndiyevin tamaşaya qoyulmuş pyeslərinə musiqi yazmışdılar.

Tofiq Quliyev İlyas Əfəndiyev haqqındakı həmin yazısında belə bir fikir söyləyirdi: «İlyas Əfəndiyevin əsərlərinin dili başdan-başa musiqidir və mən musiqiyə musiqi yazmağı heç cürə dərk edə bilmirdim...»

Maestro Niyazi isə hər dəfə məni görəndə:

– İlyasa de ki,– deyirdi,– heç Həcərin plovu da Bilqeyis xanımın plovuna çata bilmir!

Qara Qarayevlə də ilıq münasibətləri var idi, həmişə bayramlarda, yeni əsərləri meydana çıxanda zəngləşirdilər və bu münasibətlərin əsasında, gənclik illərindən etibarən, hər ikisinin Imran Qasımovla dostluğu dururdu.

1968-ci ildə, Qara Qarayevin 50 illik yubileyi zamanı İlyas Əfəndiyev yazırdı:

«Bütün böyük sənətkarlar kimi, Qara Qarayev insan qəlbinin, insan ruhunun indiyə qədər nüfuz edilməyən dərinliklərinə gedir, bu vaxtadək duyulmayan sirlərini tərənnüm edir. Buna görə də, bəstəkarın əsərlərində fəlsəfi axtarışlarla, kəşflərlə müasirlik birləşib qüdrətli bir gözəlliklə səslənir. O, Heminquey kimi fikrinin yalnız müəyyən hissəsini açıq ifadə edir. Qalan böyük hissəsini duyub dərk etməyi dinləyicinin öhdəsinə buraxır. Böyük və dərin fikir sahibi olan sənətkarlarda həmişə belə olmuşdur. Bethovendə, Şekspirdə də belə olmuşdur...».

Orası da heç yadımdan çıxmır ki, 1974-cü ilin küləkli-yağışlı bir noyabr gecəsinin yarısı tez-tez arası kəsilən uzun telefon zənglərindən və bizim də bu zənglə bağlı nigarançılığımızdan sonra, Qara Qarayev, səhv etmirəmsə, Vyanadan bizə telefon açıb İlyas Əfəndiyevi 60 illiyi münasibətilə təbrik etmişdi. (Atam ona, Imran Qasımovdan gələn gənclik illərinin deyim ənənəsi ilə, «Karik», o isə, atama elə həmin ənənə ilə «İlyuşa» deyirdi.)

Iki böyük xanəndə də vardı ki, İlyas Əfəndiyev onların həm şəxsiyyətinə hörmət edirdi, həm də sənətlərini yüksək qiymətləndirirdi: Xan Şuşinski və Ağabala Abdullayev.

Xan Şuşinskinin İlyas Əfəndiyevin atası ilə dostluğu var idi, Şuşadan Füzuliyə (Qaryaginə) enəndə ona çox qonaq olmuşdu, günlərlə evlərində qalmışdı və mən, hayıf ki, bu dostluğun tarixini bilmirəm, amma lap uşaq çağlarımdan həmişə bunun şahidi olmuşam ki, İlyas Əfəndiyev ilə Xan Şuşinski həmişə çox mehriban görüşüblər, məhrəm adamlar kimi hal-əhval tutublar.

Orası da yaxşı yadımdadır ki, bir gözəl yaz günü, axşamçağı – universitetdə oxuduğum illər idi – «Hüsü Hacıyev» küçəsinə çıxan eyvanımızda oturub atamla

söhbət edirdik və birdən gördük ki, Xan Şuşinski başında buxara papağı, əynində boz qabardin yaz paltosu qəlyanını tüstülədə-tüstülədə küçə ilə gedir. Atam elə üçüncü mərtəbənin eyvanından Xan Şuşinskini səslədi və onu evə dəvət etdi və İlyas Əfəndiyevin dəvəti o qədər sidq-ürəkdən idi ki, Xan əmi yolunu dəyişib həyətimizə gəldi, mən blokun ağzına çıxıb onu qarşıladım və evə gəldik.

Bu hadisədən 43-44 il keçib, amma hər dəfə mən Xanın səsini eşidəndə, onu televizorda görəndə həmin yaz axşamı Xan əmi ilə birlikdə elə o eyvandaca oturub çay içməyimiz, Xan Şuşinski ilə atamın söhbətləri bütün təfərrüatlarına qədər yadıma düşür, hətta onun çəkdiyi qəlyanın gözəl tənbəki qoxusunu da, elə bil, yaxınlığımda hiss edirəm.

«Hüsü Hacıyev» maşınların çox gəlib-getdiyi, səsli-küylü bir küçədir, amma qəribədir, elə o zaman da, üstündən bu qədər illər keçəndən sonra da, yaz axşamındakı o eyvan söhbəti, elə bil, başdan-başa bir Şuşa ab-havasına bürünmüşdü, elə bil, Şuşa dağlarının, Şuşa meşələrinin ətri-havası uçub gəlib bizim üçüncü mərtəbədəki o eyvanımıza qonmuşdu.

İlyas Əfəndiyev Ağabala Abdullayevin də səsini, avazını, xüsusən, onun «Zabul»unu çox bəyənirdi və bir insan kimi də onu tez-tez xatırlayırdı.

80-ci illərin sonlarında, 90-cı illərdə İlyas Əfəndiyev bir silsilə esse-xatirələr yazdı və onun 15 dekabr 1991-ci il tarixi ilə yazdığı «Orfey quyudan çıxandan sonra nə gördü...» adlı essesində belə bir epizod var:

«... «yeni iqtisadi siyasət» sayəsindəki yalançı azadlıqdan istifadə eləyən atam təsərrüfatını yoluna qoyaraq bağımızda dərin su quyusu qazdırırdı. Quyunun ağzı üçün mədəndən iri daş gətirib ortasını dəldirmişdi.

Su quyusunu iki adam qazardı: biri düsərlə qazıb torpağı torbaya doldurar, yuxarıda – quyunun başında da duran adam onu çəkib kənara boşaldardı.

Yaz vaxtı idi. Anamla atam ikinci mərtəbənin balkonunda əyləşib çay içirdilər. Onların yanında iri dibçəkdə gur çiçək açmış oliandr gülü var idi. O zaman bizim yerlərdə oliandr gülü olmazdı. Gülü atam hardansa gətirtmişdi, yəqin ona görə o gül indi də yaddaşımıda qalıb. Cavan, gözəl bir qadın olan anamın əynindəki mavi atlas paltarının rəngi ilə o oliandrın təravətli çəhrayı rəngi bir-birinə qəribə, zərif ahəng verirdi.

Aşağıda – bağçada qazılmaqda olan quyunun başında orta yaşlı bir kişi dayanıb, qazılan torpağı çəkib kənara tökürdü.

Birdən sanki qeybdən gələn səs kimi, bir muğam eşidildi. Kimsə gənc və olduqca şirin, həzin bir ahənglə oxuyurdu. Şerə, musiqiyə qarşı çox həssas bir qadın olan anam təəccüblə atama baxaraq soruşdu:

– Harda oxuyurlar bunu?

Atam xoş ifadə ilə:

– Quyunun içində! – dedi və quyunun başında dayanıb torpaq çəkən kişiyə işarə ilə əlavə etdi: – O kankanın oğludur. Quyunu o qazır.

Mən də anam kimi musiqiyə çox həssas uşaq olduğumdan o muğama heyranlıqla qulaq asırdım.

Mən o on altı-on yeddi yaşında sağlam, qaraqaş, qaragöz oğlanı, o gənc kankanı hər gün gəlib quyuya girəndə görürdüm.

Anam dedi:

– Gözəl səsi var. Nə əcəb xanəndə olmaq istəmir?

Atam:

– Bunlar Cənubi Azərbaycandan gəliblər, – dedi. – Mən də kişidən soruşdum ki, oğlunun belə səsi var, nə əcəb ustad xanəndənin birinə qoşmursan? Kişi dedi ki, əvvəl öz sənətimi öyrədirəm, sonra özü bilər.

O gecə uzun zaman gözümə yuxu getmədi. O yaz gecəsinin səssizliyi içində quyunun qaranlıq dibindən gələn o səsi sanki mən hey eşidirdim... Bəzən Arazın o tayından gələn və bu cür qəribə bir yanğı ilə oxuyan o gənc xəyalımda dönüb zülmət dünyasına düşmüş Məlikməmməd olurdu. Bəzən də anamın nağıl elədiyi «Yusif və Züleyxa» dastanının quyuya atılmış Yusifi olurdu. Qəribədir ki, mən onu oxuduğu muğam ilə birlikdə adi, yəni bu işıqlı dünyada təsəvvür eləyə bilmirdim... Elə bil ki, o məhz qaranlıq quyuda, o zülmət dünyasında hansı kədərli hekayəti isə oxumaq üçün yaranmışdı...

– Çox təsirli səsi var... – deyən anam soruşdu: – Adı nədi o oğlanın?

Atam dedi:

– Deyəsən Ağabaladı...».

İlyas Əfəndiyev Ağabalanı ilk dəfə belə görmüşdü. Son dəfə isə onu altmışıncı illərin axırında gördü. O zaman biz Füzulidəki Kürdmahmudlu kəndinə toya getmişdik və o toyu Ağabala Abdullayev aparırdı. Yadımdadı, atam musiqiçilərin ayrıca mizi arxasında oturmuş Ağabala Abdullayevə baxa-baxa qüssə ilə:

– Ağabala qocalıb...– dedi.

İlyas Əfəndiyevin yaxın dostlarından biri də fizika-riyaziyyat elmləri doktoru, professor Əmir Həbibzadə idi. Əmir müəllim başqa sahə ilə məşğul olsa da, daxili aləmi etibarilə sənət adamı idi, zəngin hissiyyatı, gözəl zövqü var idi, yaxşı geyinirdi və İlyas Əfəndiyev də səliqə və zövq ilə, həmişə yeni dəbdə geyinməyi xoşladığı üçün, kastyum atrezlərini Əmir müəllimlə birlikdə alardılar, Əmir müəllim yaxşı dərzilər tapardı və atam da Sadıqovdan xəlvət, bəzən kastyumlarını o dərzilərə tikdirərdi.

Tağı Sadıqov Bakının məşhur dərzilərindən biri idi və yadıma gəlir, bütün Sovet Ittifaqında Lenin ordeni almış yeganə dərzi də o idi. İlyas Əfəndiyev uzun illər boyu kastyumlarını Sadıqova tikdirərdi, amma hərdən, Sadıqov inciməsin deyə, gizlincə, Əmir müəllimin tapıb tərifədiyi dərzilərə də sifariş verirdi.

Bizim, Sultan Hacıbəyovun və Əmir müəllimin 50-ci illərin sonlarında, 60-cı illərdə, 70-ci illərin lap əvvəllərində yayda yığışıb ailəvi surətdə maşınla Kislovodska getməyimiz, orada bütün yay aylarını Iosif Samoyloviç Bass adlı çox koloritli və qılıqlı bir yəhudinin müdir olduğu pansionatda qalmağımız mənim ən unudulmaz yeniyetməlik və gənclik xatirələrimdən biridir.

1960-ci illərin sonlarında mən «Beş qəpiklik motosikl» adlı bir hekayə yazmışdım və o hekayədə Kislovodskdakı həmin pansionatı təsvir etmişdim, hətta o hekayədə belə bir iki misra da var idi:

*Köhnə hamam, köhnə tas,*
*Köhnə pansionat, köhnə Bass!..*

Bu hekayə məşhur rus tənqidçisi Iqor Zolotusskinin tərcüməsində 1971-ci ilin yayında «Drujba narodov» jurnalında çap olunmuşdu (bu, mənim Moskva mətbuatında çap edilən ilk yazım idi) və o vaxt Moskvada olan Anar jurnaldan bir nüsxə alıb Kislovodskda mənə göndərmişdi.

Yaxşı yadımdadı, bir tərəfdən, əlbəttə, İlyas Əfəndiyev üçün xoş idi ki, «Drujba narodov» kimi nüfuzlu bir jurnalda mənim hekayəm dərc edilib, amma o biri tərəfdən də bir az narahat oldu ki, Iosif oxuyar, pərt olar...

O iki misranın rusca tərcüməsi belə idi:

*Tot je qolos, tot je bas,*
*V pansionate tot je Bass...*

Amma Iosif Samoyloviç pərt olmadı, daha doğrusu, bilmədi ki, pərt olsun, ya olmasın. Əmir müəllimlə Sultan Hacıbəyov illərdən bəri ikisinin arasında bütün incəliklərinə qədər formalaşmış bir yumorla (və zahirən çox ciddi şəkildə!) həmin jurnalı təntənəli surətdə Iosif Samoyloviçə göstərib, adı tarixə düşdüyü üçün onu təbrik etdilər...

İlyas Əfəndiyevin qardaşı, yazıçı Tofiq Əfəndiyev də, bacısı, həkim Nəzihə xanım həyat yoldaşı, həkim Üzeyir Məmmədovla və uşaqlarla birlikdə, bəstəkar Səid Rüstəmov da, Nazim Hacıyevin böyük qardaşı professor Ağa Hacıyev də, köhnə zadəgan nəsilli və çox da koloritli bir adam olan və İlyas Əfəndiyevin xətrini çox istəyən skripkaçı Davud Qədimov (atam ona «Dodik» deyirdi, mədəniyyət işçilərinin arasında isə «Davud Balayeviç» kimi məşhur idi), Qarabağ xanlarının nəslindən olan, dirijor Əli Cavanşir (ona da «Alik» deyirdilər) yayda ailələri ilə gəlib orada qalırdılar və Kislovodskdakı o pansionat ədəbi-mədəni klub kimi bir yerə çevrilmişdi. Qara Qarayev də, Imran Qasımov da, Nazim Hacıyev də hərdənbir o «kluba» baş çəkərdi, orada qalardı...

Mənim üçün olduqca xoş bir hadisədir ki, yaşı 85-i keçmiş Əmir müəllim bu gün də sağ-salamatdır, Bakı Universitetində dərs deyir, eləcə səliqə-səhmanla, eləcə zövq ilə geyinir və mən sidq-ürəkdən arzu edirəm ki, Əmir müəllim 100-ü də beləcə keçsin, ondan o tərəflərə də getsin.

Əmir müəllim 85 illiyi münasibətilə nəşr olunmuş kitabda yazır ki, «Azərbaycanda iki görkəmli şəxslə – sənət dahisi ilə dostluq etmişəm. Biri xalq yazıçısı İlyas Əfəndiyev, o biri isə bəstəkar Sultan Hacıbəyovdur. Bunların hər ikisi vasitəsilə mən digər sənət xadimləri ilə – bəstəkarlarla, rəssamlarla, yazıçılarla tanış olmuşam və onlarla tez-tez ünsiyyətdə olmuşam... Adam gözəl, klassik musiqi əsərlərinə qulaq asarkən çox yüksək mənəvi zövq alır və bu cür musiqiyə dəfələrlə qulaq asmaq istəyir. Lakin bu əsərlərin bəzi hissələrini nə zümzümə edə, nə də fortepianoda çala bilirsən. Mən, dostum İlyas Əfəndiyevin bir çox əsərlərini oxumaqla bərabər, dram əsərlərinə qulaq asmışam və sevmişəm. Lakin bu əsərlərə lazımi qiymət verməyə mənim gücüm çatmır...»

Əmir müəllim hər dəfə məni görəndə daha özünü saxlaya bilməyib doluxsunur:

– İlyassız da dünya olar?.. Sultan hardadı indi?.. – deyir...

Və Əmir müəllim bu gün də İlyas Əfəndiyevin tamaşalarına gedir, onu oxuyur, onun haqqında yazılanları izləyir, xüsusi bir həvəs və təəssübkeşliklə onun maraqlarını güdür – dostluq davam edir...

Cəfər Cəfərov yadıma düşür...

İlyas Əfəndiyev Cəfər Cəfərovu bir insan kimi də, teatrşünas-tənqidçi kimi də yüksək qiymətləndirirdi və xüsusən 60-cı illərdə onlar çox yaxınlaşmışdılar. Həmin 60-cı illərdə Cəfər Cəfərov tez-tez bizə gələrdi, baməzə bir adam olan memar

Qəzənfər Əlizadəni də hərdən özü ilə birlikdə gətirərdi və o teatr söhbətləri, o zarafatlar dövrün ideoloji mühiti ilə heç vəchlə bir araya sığmırdı və yəqin o söhbətlərin, o zarafatların gözəlliyi də elə onda idi.

Cəfər Cəfərov Bakıda anadan olub, Bakıda böyümüşdü, şəhər adamı idi və İlyas Əfəndiyev zarafatla: «Əbülhəsən demiş, əzzim, əzzim, həyatı öyrənmək lazımdır!» deyərək onu tez-tez rayonlara, xüsusən, Qarabağ tərəflərə aparırdı və mənim də onlarla birlikdə getdiyimiz o səfərlərdən biri həmişəlik olaraq xatirəmə hopub qalıb.

60-cı illərin ortaları idi, mən universiteti yenicə bitirib aspiranturaya girmişdim və biz bir gözəl payız günü Cəfər Cəfərovu da götürüb Sabirabada, İlyas Əfəndiyevin dostu həkim-yazıçı Əli Ağabəyligilə getdik. Maşını Timuçin sürürdü və bütün yol boyu Cəfər müəllimlə atam cürbəcür məzəli əhvalatları xatırlayıb gülürdülər, bir sözlə, kefləri kök idi.

Sabirabadda doktor (Əli Ağabəylini belə çağırırdıq) bərə kirayələmişdi və Kürlə Arazın qovuşağında lap astadan o bərə ilə üzə-üzə gözəl və xudmani bir məclis keçirdik. Gün batabatda idi və o Qovuşaq deyilən yerə birdən-birə elə bir payız gözəlliyi çökdü ki, istər-istəməz hamımız susub suyun xəfifcə şırıltısı içində xəzan yarpaqlarının sarısına, batan günəşin qırmızısına, səmanın getdikcə tündləşən gömgöylüyünə bürünmüş o mənzərəyə baxırdıq və birdən Cəfər müəllim bayaqkı o şadyanalıqla, zarafatlarla heç cürə uyuşmayan kədərli bir səslə:

– Hayıf!..– dedi.– Ömrümüzün çox vaxtını hədərə sərf elədik...– Sonra atama baxdı.– Səni demirəm, İlyas, özümü deyirəm... Sən elə cavanlıqdan yazıb-pozursan... Amma mənim indiki ağlım olsaydı, hər şeyi atıb, indiyə qədər çox şey yazardım... Həyatdı də...

İlyas Əfəndiyev:

– Sən də az yazmamısan...– dedi və bu, əlbəttə, yalnız Cəfər müəllimin könlünü almaq üçün deyilən sözlər deyildi, həqiqət idi.

Amma o kədərin akvareli Qovuşaqdakı o payız axşamından tamam çəkilib yox olmadı...

Cəfər Cəfərov bir müddət Mərkəzi Komitədə şöbə müdirinin müavini vəzifəsində işləmişdi və güman ki, onun o payız axşamı səsindəki o kədər də, onun üçün həmin illərdə itirilmiş günlərin yaratdığı daxili ab-havanın ifadəsi idi.

Sonradan iş belə gətirdi ki, həmin payız axşamından bir-iki il sonra, 1967-ci ildə Cəfər Cəfərov yenidən Mərkəzi Komitəyə qayıdası oldu və bu dəfə ideoloji katib vəzifəsinə...

Nə etmək olar, Cəfər müəllimin o payız axşamı dediyi kimi, həyatdı də...

Cəfər Cəfərov İlyas Əfəndiyevin dramaturgiyası barədə yüksək fikirdə idi. Vaxtilə «Bahar suları» haqqında da, «Atayevlər ailəsi» barədə də yazmışdı, amma 1964-cü ildə onun «Sən həmişə mənimləsən»in tamaşası haqqında yazdığı «Təklik faciədir» məqaləsi, ədəbi prosesdə həqiqi mənada səs saldı və mən deyə bilərəm ki, o pyes dramaturgiyamızın, o tamaşa teatr sənətimizin inkişafında hansı rolu oynamışdısa, o məqalə də Azərbaycan teatr tənqidinin inkişafında o rolu oynadı.

Unudulmaz Əli Vəliyev yadıma düşür...

İlyas Əfəndiyevin Əli Vəliyevlə xüsusi məhrəmanə münasibətləri var idi və Əli müəllim rəhmətə gedəndən sonra, ən hərarətli hisslərlə tez-tez onu xatırlayırdı, bu vicdanlı, təmiz adamın baməzə əhvalatlarını yadına salırdı, bizə də danışıb

ürəkdən gülürdü və deyirdi ki, yazmağı bacarasan, Əli özü gözəl bir əsərin, «Don Kixot» səviyyəli bir əsərin qəhrəmanının prototipi ola bilər.

«Dostumuzu xatırlayarkən» adlı essesində İlyas Əfəndiyev 30-cu illərin sonlarını, 40-cı illərin əvvəllərini xatırlayıb yazırdı:

«Doğrusu, o zaman biz gənc yazıçılar özümüzdən yaşlı şairlərdən, yazıçılardan həmişə iki adamın – Səməd Vurğunla Əli Vəliyevin köməyinə güvənirdik. Çətinliyə düşəndə onlara müraciət edərdik. Əli bizim nöqsanlarımıza qarşı nə qədər sərt idisə, xahişimizə qarşı da o qədər qayğıkeş idi. Səməddə də, Əlidə də bizim ata-babalarımızdan, xalqdan gələn bir mərdanəlik var idi».

Mən bu yerdə Sabirabadda yaşayan və artıq adını çəkdiyim həkim-yazıçı Əli Ağabəylini də xatırlamaq istəyirəm. Əli bəy Tibb Institutunda (indiki Tibb Universitetində) Mehdi Hüseynin həyat yoldaşı Fatma xanımla bir yerdə oxumuşdu və onu atamla Mehdi Hüseyn tanış etmişdi. O tanışlıqdan sonra Əli Ağabəyli ömrünün sonuna kimi İlyas Əfəndiyevin və ümumiyyətlə, bizim evin, ailənin sadiq və etibarlı bir dostuna çevrildi.

Əli Ağabəyli çox koloritli, mədəni və çox da mütaliəli bir adam, yaxşı şahmatçı və böyük kitab həvəskarı idi. Moskvada yeni və maraqlı nə kitab çıxırdısa, o saat xəbər tuturdu və o kitabı əldə edirdi. İlyas Əfəndiyev üçün isə mütaliə, dediyim kimi, klassikləri oxumaq da, müasir dünya ədəbiyyatındakı maraqlı hadisələrin içində olmaq da, gündəlik həyatının yemək kimi, içmək kimi atributlarından biri idi.

Əli Ağabəyli, İlyas Əfəndiyevlə, onun ətrafı ilə elə qaynayıb-qarışmışdı ki, o da Kislovodskdakı o pansionat-klubun daimi yay üzvlərindən birinə çevrilmişdi...

İlyas Əfəndiyev Mir Mehdi Seyidzadə ilə həm uzun müddət qonşu oldu, həm də çox duzlu zarafatları var idi və İlyas Əfəndiyev hər dəfə «Hüsü Hacıyev» küçəsindəki məşhur Yazıçılar Binasının balkonunda Ağanı (Mir Mehdiyə belə deyirdilər) görəndə, onun öz sözləri ilə:

– Ey zalım, necəsən?– deyirdi.– Təzə qəzəl zühur eləyib, yoxsa, yox?

Və belə balkon görüşləri və zarafatları çox zaman ya Ağa əmigildə (mən də ona belə müraciət edirdim), ya da bizdə gözəl ekspromt bir məclislə qurtarırdı, illah da ki, Ağa əmi yeni bir qəzəl yazmışdısa, o məclislər lap aləm olurdu.

Ağa deyirdi:

– Ey zalım! Klassiklər yüz gözələ cəmi bir qəzəl yazırdı, mən isə, bir gözələ yüz qəzəl yazıram!

İlyas Əfəndiyev 40-cı illərdə Kinostudiyada ssenari şöbəsinin müdiri işləmişdi və elə o vaxtlardan da Lətif Səfərovla, Muxtar Dadaşovla yaxın münasibətləri var idi. Lətif Səfərov hərdən-bir axşamlar bizə gələrdi («Körpüsalanlar»a film çəkmək istəyirdi) və həmin axşamlardan birində, faciəli ölümündən – intiharından təxminən bir həftə-on gün əvvəl, içi araqla dolu qədəhi başına çəkib İlyas Əfəndiyevə dediyi sözlər heç vaxt mənim yadımdan çıxmır:

– Tofiqə gözəl mahnılar yazdırdım, Rəşidi də saxladım gələcək nəsillərə. Elə bu – mənim bəsimdi!

Lətif Səfərov «Bəxtiyar» filminin quruluşçu rejissoru idi və söhbət Tofiq Quliyevin o film üçün bəstələdiyi mahnılardan, Rəşid Behbudovun da baş rolda o mahnıları ifa etməsindən gedirdi.

Indi – rəhmətlik Lətif Səfərovun dediyi həmin «gələcək nəsillər»in yetişdiyi, bir-birini əvəz etdiyi bir vaxtda, mən hər dəfə Rəşidin ifasında o mahnıları eşidəndə, televizorda o filmdən fraqmentləri görəndə, bizim evdəki o axşamı xatırlayıram...

Mən bu mövzunu qurtarmağa çətinlik çəkirəm, çünki hər dəfə son nöqtəni qoymaq istəyəndə yeni bir işıqlı sima gözlərimin qarşısında canlanır və mən onun barəsində, onunla İlyas Əfəndiyevin münasibətləri barədə, bu münasibətlərin də, öz növbəsində, sənət aləminin, Azərbaycan ədəbi-mədəni mühitinin bir hissəsi, bir parçası olması haqqında yazmaya bilmirəm, yazmasam, elə bil ki, onların ruhu qarşısında, nəsə, bir günah işlədirəm...

Onların hamısı yazılmalıdı.

Sağlıq olsun...

## 5.

Artıq dediyim kimi, İlyas Əfəndiyev ədəbiyyata 1939-cu ildə «Kənddən məktublar» kitabındakı hekayələrlə gəldi və vəfatından sonra nəşr olunmuş «Sən ey böyük Yaradan» kitabındakı hekayə və kiçik povestlər isə onun son əsərləri oldu.

Bu 57 yaradıcılıq ili ərzində İlyas Əfəndiyev altı roman («Söyüdlü arx» – 1958; «Körpüsalanlar» – 1960; «Dağlar arxasında üç dost» – 1963; «Sarıköynəklə Valehin nağılı» – 1976; «Geriyə baxma, qoca» – 1980; «Üçatılan» – 1981; bu romanların bəzisi povest kimi də təqdim olunub), beş povest («Kənddən məktublar» – 1939; «Aydınlıq gecələr» – 1941; «Torpağın sahibi» – 1952; «Qaçaq Süleymanın ölümü» – 1993; «Xan qızı Gülsənubərlə tarzən Sadıqcanın nağılı» – 1996), böyüklü-kiçikli qırx yeddi hekayə, bir çox oçerklər və xatirələr yazmışdır və bu nəsr yaradıcılığı onun yaradıcı fəaliyyətinin daimi tərkib hissəsi olmuşdur, İlyas Əfəndiyev nəsri və İlyas Əfəndiyev dramaturgiyası daima bir-birini əvəz və davam etdirmişdir.

Orası da maraqlıdır ki, İlyas Əfəndiyev heç bir nəsr əsərini səhnələşdirməmişdir və o, bunu, ümumiyyətlə, qəbul etmirdi, «Pyes lap başlanğıcdan səhnə üçün düşünülməli, səhnə üçün yazılmalıdır!» – deyirdi, yazıçının öz romanını, povestini, hekayəsini səhnələşdirməsi barədə isə, yəqin bir az da hissə qapılaraq: «Aşığın sözü qurtaranda, sazım, dınqıl-dınqıl deyər!»– deyirdi.

İlyas Əfəndiyevin hekayələri haqqında və bu hekayələrin Azərbaycan hekayəçiliyinin və ümumiyyətlə, Azərbaycan nəsrinin, Azərbaycan bədii dilinin inkişafında, janrın poetikası baxımından estetik rəngarəngliklərin əldə edilməsindəki rolu barədə çox yazılıb və bu da çox maraqlı və yəqin ki, əlamətdar bir faktdır: onun o ilk hekayələr kitabının – «Kənddən məktublar»ın düz 63 il (!) bundan əvvəlki rezonansı bu gün də hələ unudulmayıb.

Oxucuların İlyas Əfəndiyevin hekayələrinə marağı ilə bağlı uzaq keçmişdə qalmış bir epizodu xatırlayıram.

1954-cü ilin yayında – o zaman mən beşinci sinifə keçmişdim – biz Şuşadakı Yaradıcılıq Evinə getmişdik və həmin yay İlyas Əfəndiyevin yeni yazdığı «Su dəyirmanı» hekayəsi radio ilə verildi, hekayə böyük olduğu üçün, üç gün dalbadal oxundu.

Şuşanın Bazar başı deyilən mərkəzində, taxta elektrik dirəyinin (şalbanın) başında gur səsi aləmi bürüyən bir radio aparatı var idi və o hekayə oxunan həmin üç gündə Bakıdan, ətraf rayonlardan Şuşaya istirahətə gələnlərin, Şuşa cavanlarının

necə geyinib-kecinib Bazar başına yığışaraq hansı bir maraqla o radioya qulaq asmaları, Bazar başını bürümüş o gözəl hiss-həyəcan, Şuşadakı o «radio bayramı» və mənim də o adamların arasında daxili bir qürur və çox ciddi bir görkəmlə gözümü o radio aparatına zilləməyim tez-tez mənim yadıma düşür və elə bil, o hissləri yenidən yaşayıram....

Mən «radio bayramı» dedim, bəlkə də Şuşadakı «hekayə bayramı» demək daha düz olardı...

Və İlyas Əfəndiyev 1958-ci ildə ilk romanını – «Söyüdlü arx»ı yazanda, bu, ədəbi ictimaiyyətdə, bir növ, «sürpriz» kimi bir şey oldu, çünki o, artıq 20 il idi bir hekayəçi və dramaturq kimi tanınırdı, amma bu roman da ilk dəfə «Azərbaycan» jurnalının həmin ildəki 10 və 11-ci saylarında dərc olunan kimi, həm ədəbi tənqiddə, həm də oxucuların arasında böyük rezonans doğurdu.

Yadıma gəlir, jurnal romanın çapını təzəcə bitirmişdi ki, «Azərbaycan gəncləri» qəzetində Xəlil Rzanın, bu şairə xas olan bir emosionallıqla yazdığı «Söyüdlü arx» romanının qəhrəmanı Nuriyyəyə açıq məktub»u dərc olundu (11 yanvar 1959), sonra Süleyman Rəhimovun «Ədəbiyyat və incəsənət» qəzetində «Söyüdlü arx» barəsində» adlı iki böyük məqaləsi çıxdı, bundan sonra məqalələr bir-birini əvəz etdi və o dövrün mətbuatını nəzərdən keçirən olsa, bunun şahidi ola bilər ki, «Söyüdlü arx» Azərbaycan ədəbi tənqidində, o vaxta qədər olmayan bir bədii-estetik təlatüm yaratdı.

Bunu mən ona görə xüsusi qeyd edirəm ki, o vaxta qədər Azərbaycan ictimai fikrindəki «ədəbi təlatümlər» ideoloji xarakter daşıyırdı, bədiiyyat, poetika, estetik xüsusiyyətlər ədəbi tənqiddə ideoloji aktuallıqdan sonra gələn və haqqında ötəri bəhs olunan (ya da heç bəhs olunmayan!) ikinci dərəcəli əhəmiyyətə malik cəhətlər idi...

Çox keçmədi ki, «Söyüdlü arx» Tamara Kalyaginanın tərcüməsində Moskvada, «Drujba narodov» jurnalında (1960, [1] 12) dərc edildi, elə həmin 60-cı illərin əvvəllərində çex, slovak, gürcü, erməni, qırğız, eston, Ukrayna, latış dillərində nəşr olundu, sonra başqa dillərə çevrildi.

«Söyüdlü arx»ın oxucular tərəfindən, xüsusən, gənc qızlar, gəlinlər tərəfindən necə qarşılanması ilə bağlı, yalnız bir faktı (belə faktlar isə, olduqca çox idi!) misal gətirsəm, elə bilirəm ki, bu günün oxucusunda 50-ci illər oxucusunun «Söyüdlü arx»la bağlı hiss-həyəcanlarının koloriti haqqında təsəvvür yarana bilər: Bakıdakı 190 saylı məktəbin tanınmış ədəbiyyat müəllimi Sürəyya Mirabdullayeva bu romanı birinci cümləsindən tutmuş sonuncu cümləsinə qədər əzbər bilirdi (!).

«Körpüsalanlar»la bağlı mən artıq yazdım və İlyas Əfəndiyevin sonrakı romanlarının da ədəbi taleyi beləcə uğurlu oldu, amma «uğurlu oldu» o demək deyildi ki, hər şey hamar gedirdi, heç bir maneə yox idi və s.

Yox, belə deyildi.

Yenə bir hadisə yadıma düşür.

«Sarıköynəklə Valehin nağılı» romanının çapından sonra, oxucuların böyük marağını, tənqidçilərin istəyini nəzərə alaraq, Yazıçılar Ittifaqı, bu romanın da, İlyas Əfəndiyevin başqa romanları və ümumiyyətlə, başqa əsərləri kimi, sovet ideoloji tələbləri baxımından ögeyliyinə baxmayaraq, Mərkəzi Komitədən də heç bir icazə almadan, məşhur Natəvan adına klubda romanın geniş müzakirəsini keçirdi və «Ədəbiyyat və Incəsənət» qəzeti bu müzakirəni geniş də işıqlandırdı (14 may 1977).

Və birdən-birə Mərkəzi Komitənin yüksək rütbəli çinovnikləri (xüsusən, mədəniyyət şöbəsinin müdiri) böyük bir cidd-cəhd və kin-küdurətlə Yazıçılar Ittifaqından izahat tələb etməyə başladı ki, kimdən icazə alıblar və nə üçün bu romanın müzakirəsini keçiriblər, «Ədəbiyyat və Incəsənət» qəzetindən də başqa bir izahat tələb etdilər ki, nə üçün bu müzakirənin materiallarını dərc edib?

O zaman mən Yazıçılar Ittifaqının katibi işləyirdim və o «MK tələbi»nin bütün təfərrüatı mənim yaxşı yadımdadır. Imran Qasımovu tez-tez MK-ya çağırırdılar, izahat tələb edirdilər, MK-nın ideoloji katibi, bilmirəm, romanı oxumuşdu, ya yox, amma Imran Qasımova: «– Bu roman inkişaf etmiş sosializm cəmiyyətinə (o zaman belə bir termin dəbdə idi– E.) yad bir əsərdir» – deyirdi, Imran Qasımov isə, heç bir izahat verməyəcəklərini bildirir və romanı müdafiə edirdi.

Nəhayət, rəhmətlik Imran Qasımov, görəndə ki, Yazıçılar Ittifaqından da, «Ədəbiyyat və Incəsənət» qəzetindən də əl çəkmirlər, təlimat almış peşəkar «keçi suyu bulandırma mütəxəssisləri» artıq fəaliyyətə başlayıb və məsələ «Sarıköynəklə Valehin nağılı»na qarşı əməlli-başlı bir ideoloji «ifşa» kompaniyası ərəfəsinə gəlib çatıb, MK-nın o zamankı birinci katibi Heydər Əliyevin yanına getdi, məsələdən onu agah etdi və Heydər Əliyevin də elə Imranın yanındaca selektorun düymələrini basıb hadisəyə çox kəskin reaksiya verməsi ilə, həmin «izahat» tələbləri yox oldu...

Bununla bağlı bir maraqlı (və səciyyəvi!) epizod da yadıma düşür. Elə o günlərdən birində mən nə üçünsə MK-ya getmişdim və arakəsmədə mədəniyyət şöbəsinin müdiri ilə rastlaşdım. Məni sidq-ürəkdən qucaqlayıb rusca: «– Sağ olsun Heydər Əliyeviç!– dedi.– Filankəsi (MK-nın ideoloji katibinin adını çəkdi) yaxşı yerində oturtdu! İlyas müəllimə mənim təbrikimi çatdır!» Halbuki, həmin yoldaş Filankəsin qulağını elə bu adamın özü doldurmuşdu və «Sarıköynəklə Valehin nağılı» ətrafında yaranmış o hay-küyün də səbəbkarı elə o özü idi. Bu adam 1968-ci ildə İlyas Əfəndiyevin «Unuda bilmirəm» pyesinin tamaşasını da «millətçilik» təbliğ etdiyinə görə qadağan etmək istəyirdi və mən irəlidə bu barədə yazacağam.

Bu gün bütün bunları xoş bir əhvalla xatırlamaq da, eləcə bir əhvalla oxumaq da mümkündür, çünki bu gün bunların hamısı artıq tarixin səhifələridir, o vaxt isə həmin bu tarixin yarandığı günlər idi və əhvalı pozurdu, qanı qaraldırdı, əsəbləri gərginləşdirirdi, bir sözlə, həyatı zəhərləyirdi...

Amma o vaxt da həyat davam edirdi...

Və İlyas Əfəndiyev həmişəki səliqə-səhmanıyla öz yazı mizinin arxasında idi.

«Xan qızı Gülsənubərlə tarzən Sadıqcanın nağılı» adlı povestini o, yuxarıda göstərdiyim kimi, 1996-cı ilin 28 mayında bitirdi və bir gənclik həvəsi, şövqü ilə, həmişə müəllifinə xas olmuş lirik-romantik üslubda qələmə alınmış bu kiçik psixoloji povest İlyas Əfəndiyevin yazdığı sonuncu bədii əsərdir.

İlyas Əfəndiyev nəsrlə ədəbiyyata gəldi, nəsrlə də getdi...

O, 1983-cü ildə yazdığı «Duyğuların estafeti» adlı essedə uşaqlıq çağlarını xatırlayır, nənəsinin ona danışdığı bir əhvalatı uşaqlıq dostu Əhəd Bağırzadəyə danışmasını və həmin əhvalatın onlara necə təsir etməsini yazırdı:

«Mən bu əhvalatı qoca nənəmdən eşitmişdim. Nənəm Sadıqcanı (söhbət Azərbaycan ifaçılıq sənətinin klassiki, məşhur tarzən Sadıqcandan gedir– E.) görmüşdü. Deyirdi, olduqca gözəl, yaraşıqlı bir oğlan idi. Sadıqcan tar çalanda güllüklərdə bülbüllər susub ona qulaq asarmışlar. Xanlıqdan gözəl, zərif bir qız Sadıqcana aşiq olubmuş. Lakin Sadıqcan evli olduğu üçün onun sevgisinə cavab

verə bilməyib, aldatmaq da istəməyib. Qız isə, bu sevgidən dərdə düşüb, vərəm olub. Biz bir tərəfdən qızın halına acıyır, bir tərəfdən də Sadıqcanın kişi hərəkətini, arvadına, ailəsinə sədaqətini hiss edib mütəəssir olurduq. Sanki heç özümüz də hiss etmədən insanların gözəl rəftarları, hissləri bizi ucaldırdı, bizə səbəbini, mahiyyətini dərk etmədiyimiz şairanə bir ilham verirdi. Biz tanıyıb-tanımadığımız bütün yaxşı insanları sevməyə, özümüz də onlar üçün fədakarlıqlar etmyə hazır idik. Indi bu sətirləri yazarkən də mənə elə gəlir ki, bütün uşaqlar göz açıb ilk dəfə dünya ilə tanış olmağa başlayanda, o hisslərlə yaşayırlar».

Və daha səkkiz ildən sonra, İlyas Əfəndiyev 70 il içində gəzdirdiyi o «mütəəssirliyi», o hissləri kağıza köçürür... «Xan qızı Gülsənubərlə tarzən Sadıqcanın nağılı» povestini yazır. Bu povest İlyas Əfəndiyevin sonuncu bədii əsəridir və onu 1996-cı il mayın 28-də bitirib. 82 yaşında yazdığı bu son povest gənclik ehtirası, şövqü, hisslər aləminin zənginliyi, romantik duyğular baxımından onun ən maraqlı yazılarından biridir.

Sadıqcanın nəvəsi Aybəniz xanım, o zaman Xarici işlər naziri vəzifəsində işləyən Həsən Həsənovun həyat yoldaşıdır və mən «Xan qızı Gülsənubərlə tarzən Sadıqcanın nağılı»nı oxuyandan sonra, əlyazmanı Həsən Həsənova da verdim ki, oxusunlar. Səhəri gün Həsən Həsənov mənə telefon açdı və:

– Heç vaxt inanmaq olmaz ki, bu hissləri 82 yaşlı bir yazıçı ifadə edib,– dedi.– İlyas müəllimin adı olmasaydı, mən elə bilərdim ki, bu gözəl povesti 30 yaşlı bir gənc yazıb.

«Xan qızı Gülsənubərlə tarzən Sadıqcanın nağılı» faktı mənim üçün ona görə əlamətdardır ki, İlyas Əfəndiyevin ən kiçik uşaqlıq çağları ilə, ömrünün, hətta 80-ni keçən sonrası arasında da bir harmoniya, hissiyyat dəyişməzliyi və zənginliyi var idi və o bir uşaq kimi həyata hansı hissiyyatla gəlmişdisə, elə həmin hissiyyatlarla da həyatdan köçdü.

**6.**

Teatr İlyas Əfəndiyev üçün gündəlik həyatının nəfəs almaq, su içmək, yemək kimi tamam təbii, mübahisəsiz bir atributu idi və onun həyatının xüsusən son 32 ili («Sən həmişə mənimləsən»dən sonra) ən sıxı surətdə teatrla bağlı keçmişdir.

Bu yerdə «teatr» məfhumu yalnız İlyas Əfəndiyevin tamaşalarından ibarət deyil, onun ehtiva dairəsi çox genişdir: bura Akademik Milli Dram Teatrının qapıçısı ilə hal-əhval tutmaqdan, yaradıcı heyətin, bütün işçilərin dərdindən-sərindən xəbərdar olmaqdan, onların ailə-məişət problemləri ilə bağlı xahişlərinə çarə qılmaqdan tutmuş, teatrın bədii-estetik simasının müəyyənləşdirilməsinə, gənc istedadların səhnəyə gətirilməsinə, yeni-yeni aktyor nəslinin yetişdirilməsinə qədər – hər şey onunla bağlı o «teatr» məfhumunun içində idi.

Mən yuxarıda qeyd elədim ki, İlyas Əfəndiyev öz şəxsi arxivinə fikir verən adam deyildi, bəzən özü haqqında yazılan məqalələri belə, axıracan oxumağa hövsələsi çatmırdı, amma Akademik Milli Dram Teatrına bir əsər verdikdən sonra, onun mizarxası oxunuşundan tutmuş, bütün məşqlərində iştirak edirdi, hətta 80-90-cı illərdə hərdən nasaz olanda da məşqlərə gedirdi və biz buna etiraz etmirdik, çünki o məşqlərdən sonra özünü daha yaxşı hiss edirdi, ovqatı dəyişirdi, bəlkə özü də bunun fərqində deyildi, amma teatr ona açıq-aşkar müsbət emosiyalar verirdi və bu müsbət emosiyaların yalnız gözəl mənəvi deyil, cismani təsiri də açıq-aşkar idi.

İlyas Əfəndiyev teatra necə bağlıydısa, teatr da eləcə ona bağlı idi.

Aktrisa Şəfiqə Məmmədova:

«Bu gün teatra onu yalnız və yalnız İlyas müəllim kimi sevə bilən, onu İlyas müəllim kimi duya və qiymətləndirə bilən bir sənət bilicisi, sənət fədaisi gərəkdir. İlyas müəllim səviyyəsində və masştabında bir sənətkarın teatrla birgə işi, sənət ünsiyyəti böyük nəticələr verdi ki, bu, göz qabağındadır. Özünü bütünlüklə teatra həsr edən bu böyük sənətkara mənim mənsub olduğum sənətkarlar nəsli də çox borcludur».

Rejissor Mərahim Fərzəlibəyov:

«Onun nüfuzu, istedadı, qələminin qüdrəti qarşısında hamı baş əyirdi, bir sözünü iki edən yox idi. O, bəyəndiyi rejissoru hər hansı incəsənət müəssəsindən çağırıb tamaşasının səhnə təcəssümünü verdirə bilərdi... İlyas Əfəndiyev dramaturgiyası məni bir rejissor kimi yetişdirdi. Mən hər gün İlyas Əfəndiyev dramaturgiyası ilə ünsiyyətdəyəm. Teatrda quruluşunu verdiyim tamaşalar səhnədə olan günlərdə tamaşalarla, yerdə qalan günlərdə pyesləri ilə ünsiyyətdə oluram. Bu zaman İlyas müəllimin müqəddəs ruhi varlığı ilə hər gün dialoqa girir, xəyalən onunla söhbətləşir, məsləhətləşir, əsərlərini müzakirə edirəm. İlyas Əfəndiyevin nəfəsi teatrımızın hər daşına hopmuşdur. Mən onu hər gün tamaşa salonunda hiss edirəm. Mən onu qrim, məşq otaqlarında görürəm. Teatrın hər qarışı, hər bir işığı İlyas Əfəndiyevlə bağlıdır.»

Artist Səyavuş Aslan:

«Mən bir sənətkar kimi teatr sənətində başqalaşmağımın, az-çox nəyəsə nail olmağımın səbəbini o qüdrətli sənətkarın öyüd-nəsihətlərində görürəm».

Artist Əlabbas Qədirov:

«Şəxsən mən 30 ilə yaxın yaradıcılığımda az-çox nəyə nail ola bilmişəmsə, bunun üçün İlyas Əfəndiyevə, böyük dramaturq və gözəl insana minnətdaram».

Artist Fuad Poladov:

«Əgər, teatrımızın yaşlı nəslinə mənsub olan aktyorlar söhbətlərində bir aktyor kimi yetişmələrində müasirləri Cəfər Cabbarlının və onun dramaturgiyasının böyük rolundan fəxrlə danışırdılarsa, biz də, yəni altmışıncı illərdə səhnəyə gəlmiş gənclər, cəsarətlə deyə bilərik ki, səhnəyə gəlişimizdə, bir aktyor kimi püxtələşməyimizdə müasirimiz İlyas Əfəndiyevin və onun zəngin dramaturgiyasının müstəsna rolu olmuşdur».

Aktrisa Bəsti Cəfərova:

«Onun teatr sənətinə ülvi, təmiz, yüksək məhəbbəti, sənətkarlara münasibəti, tamaşa üzərində aktyorlarla işləmək bacarığı, tamaşa hazırlanıb istehsalata buraxılandan sonra da tamaşanın qayğısını çəkməyi, tamaşa ilə bağlı hər bir məsələ ilə maraqlanması, sənətdə heç bir kompromisə getməməsi bizə həmişə dərs idi».

Aktrisa Firəngiz Mütəllimova:

«Həyatda kimə və nəyə görə yaşamağımın səbəbini dərk etdiyimə və bir də Vətənimə, xalqıma olan sonsuz sevgimə görə tək bir insana – unudulmaz İlyas Əfəndiyevə borcluyam».

Aktrisa Kübra Əliyeva:

«Mənə hər dəfə sual verirlər: «– Kübra xanım, bu sənətə gəlməkdə sənə kim kömək edib, müəllimin, rejissorun kim olub?

Hər yerdə, hər zaman və ömrümün sonuna qədər cavabım budur:

– İlyas Əfəndiyev! İlyas Əfəndiyev! İlyas Əfəndiyev!».

Mən bu mülahizələri oxuyuram və fikirləşirəm ki, İlyas Əfəndiyevin teatrla belə bir qarşılıqlı bağlılığının, onun, hələ gənc yaşlarından etibarən, bir yazıçı kimi daima dramaturgiyaya meyl etməsinin, «İlyas Əfəndiyev teatrı»nın Azərbaycan mədəniyyətində yeni keyfiyyətli bədii-estetik bir hadisə kimi meydana çıxmasının, görünür, lap uşaq çağlarından bir işıq kimi içinə dolmuş teatr təəssüratının rolu böyük olmuşdur.

İlyas Əfəndiyev uşaq ikən, Füzulidə, onun özünün sözləri ilə desəm, «kiçik, amma maraqlı, sevincli bir dram dərnəyi var idi» və bu dərnəyi yoxsullaşmış zadəganlardan olan Şamxal bəy Vəzirov təşkil etmişdi. Balaca İlyas o dərnəyin ifasında «Məşədi Ibad»a, «Arşın mal alan»a, «Laçın yuvası»na, «Dağılan tifaq»a, «Zorən təbib»ə, «Müfəttiş»ə baxmışdı və bu tamaşalar, şübhəsiz ki, təbiətən çox təəssüratlı bir uşaq olan İlyasa çox da təsir etmişdi.

O kiçik dərnəyin fəaliyyət göstərdiyi klub, az bir zaman içində, İlyas Əfəndiyevin sonralar yazdığı kimi, «şəhər əhalisinin yeganə sevinc yeri oldu. Gənc artistlərin hərəsinin parlaq bir yaradıcılıq xüsusiyyəti meydana çıxırdı: paxlava-peşmət satan Mehdi kişinin oğlu Mürşüd Həşimli şəhərin məşhur tragiki olub, Oqtay Eloğlu, Aydın, Əmiraslan bəy rollarını xüsusi məharətlə oynayırdı. Evlərdə günəmuzd iş görən, xeyirdə-şərdə fəal iştirak edən Xeyransa xalanın oğlu Təhməz, məsələn, «Hacı Qara»da Kərəməli, «Məşədi Ibad»da Hambal rollarını oynamaqla şöhrət qazanmışdı. Aşpaz Məmmədəli əminin oğlu Səfər komik rollarda səhnəyə çıxanda tamaşaçılar gülməkdən qəşş edirdilər. Truppanın rejissoru olan Cəmil Vəzirov (Şamxal bəyin kiçik qardaşı– E.) özü Məcnun, Kərəm, Aşıq Qərib kimi rolları məharətlə oynayırdı... Hamı yeni tamaşaların afişalarını böyük həvəslə oxuyurdu, izləyirdi. Rəngli qələmlərlə çəkilmiş afişaların başında həmişə yazılardı: «Həyat müvəqqəti, sənət daimidir».

İlyas Əfəndiyev bu həvəskar artistləri, onların göstərdiyi o tamaşaları ömrünün sonuna kimi tez-tez yada salırdı və bu zaman açıq-aşkar hiss olunurdu ki, o, həmin cavan artistlərin göstərdiyi tamaşaların əhvali-ruhiyyəsini yenidən yaşayır, yetmiş il əvvəl olduğu kimi, yenə də həmin təəssüratın sirri-sehri və sevinci içindədir.

O da mənim yaxşı yadımdadır ki, 48-49-cu illərdə – onda mənim 5-6 yaşım vardı – yayda, Füzulidə, İlyas Əfəndiyev hansı bir həvəslə məni o teatra aparırdı və artıq tanınmış yazıçı olsa da, Akademik Milli Dram Teatrının səhnəsində böyük aktyorların ifasında üç əsəri tamaşaya qoyulsa da, Füzuli klubunun binasında hansı bir maraqla «Əsli və Kərəm»ə tamaşa edirdi.

İlyas Əfəndiyevin uşaqlıq dövründə gördüyü və dediyim kimi, sonralar tez-tez xatırladığı həvəskar teatr fədailərinin böyük əksəriyyəti repressiyaların qurbanı olmuş, güllələnmiş, Sibir çöllərinin gedib-qayıtmazlarında itib-batmışdı, salamat qalanlar isə müharibədən qayıtmamışdı və həmin 48-49-cu illərdə o «köhnə qvardiya»dan yanlız Mürşüd Haşımlı – artıq professional əməkdar artist 20-25 il əvvəllərdə olduğu kimi, Qara Keşişi oynayırdı.

Əlbəttə, İlyas Əfəndiyevin teatrla bağlılığı öz başlanğıcını Füzulidəki o kiçik dram dərnəyindən götürmüşdü, amma, eyni zamanda, mən düşünürəm ki, «İlyas Əfəndiyev teatrı»nı yaradan bədii-estetik xüsusiyyətlərin də bünövrəsi elə o dərnəyin sənət ehtirasında, daimi yenilik axtarışlarında, eksperimentlərdən çəkinməməsində qoyulmuşdur.

«İlyas Əfəndiyev teatrı» uzun fasilədən sonra, Azərbaycan teatrına insani hiss-həyəcanların bədii ifadəsini gətirdi və yalnız gətirmədi, onları ön plana çəkdi, hər cürə ideoloji şüarçılığı insan psixologiyasının lirik təqdimatı ilə əvəz etdi, sovet dövründəki hakim ideologiyanın yaratdığı sosializm realizmi estetik təmayülünün ziddinə olaraq yaxşıya şirə qatmadı və pisi də gizlətmədi, həyatı bünün mürəkkəbliyi, ziddiyyəti ilə səhnəyə çıxartdı və parlaq istedada malik aktyor nəsillərini yetişdirdi.

Azərbaycan teatrının 37-ci ilin cəhənnəmindən (İlyas Əfəndiyev bu «teatr cəhənnəmini» «Sevgililərin cəhənnəmdə vüsalı» faciəsində təsvir edib) salamat qurtarmış Azərbaycan səhnəsinin, deməк olar ki, bütün böyük aktyorları, yaşlı nəslin nümayəndələri İlyas Əfəndiyevin əsərlərində oynamışlar və yəqin ki, oxucular üçün maraqlı olacağını düşünüb, mən, aşağıdakı siyahını tərtib etdim:

Mirzəağa Əliyev – Zeyniş («Intizar»), Babadayı («Işıqlı yollar»), Sidqi Ruhulla – Alxasbəy («Intizar»), Ağasadıq Gəraybəyli – Alxasbəy («Intizar»), Vasilyev («Işıqlı yollar»), Nəcəf («Bahar suları»), Qoca knyaz («Xurşid banu Natəvan»), Əli Qurbanov – Fərrux Haşımzadə («Intizar»), Babadayı («Işıqlı yollar»), Qalmağal Mədəd («Bahar suları»), Mustafa Mərdanov – Cəfər («Intizar»), Kərim («Işıqlı yollar»), Sadıq Sadıqov («Atayevlər ailəsi»), Əjdər Sultanov – Tofiq («Intizar»), Zəfər («Bahar suları»), Xosrov Atayev («Atayevlər ailəsi»), Ismayıl Osmanlı – Fərrux Haşımzadə («Intizar»), Kefli Bəşir («Bahar suları»), Səxavət («Mənim günahım»), Məmmədəli Vəlixanlı – Zeyniş («Intizar»), Hökumə Qurbanova – Sürəyya («Intizar»), Gülara («Işıqlı yollar»), Şəfəq («Bahar suları»), Lətifə («Atayevlər ailəsi»), Möhsün Sənani – Cəfərqulu («Işıqlı yollar»), Xan Murad («Bahar suları»), Q.Topuriya – Göhər xanım («Intizar»), Süleyman Tağızadə – Qambay («Intizar»), Ismayıl Dağıstanlı – Qambay («Intizar»), Elmar («Işıqlı yollar»), Tahir («Mənim günahım»), Böyük bəy («Mahnı dağlarda qaldı»), Ələsgər Ələkbərov – Alxan («Bahar suları»), Sona Hacıyeva – Gülyaz («Intizar»), Səadət (Bahar suları»), Əli Zeynalov – Səlim («Işıqlı yollar»), İldırım Atayev («Atayevlər ailəsi»), Həsənzadə («Sən həmişə mənimləsən»), Sahib («Mənim günahım»), Leyla Bədirbəyli – Lalə («Işıqlı yollar»), Mehriban («Atayevlər ailəsi»), Nurcahan («Mənim günahım»), Fəxrəndə xanım («Mahnı dağlarda qaldı»), Barat Şəkinskaya – Turac («Bahar suları»), Dilşad («Atayevlər ailəsi»), Mirvari Novruzova – Gülyaz («Intizar»), Turac («Bahar suları»), Gözəl («Mənim günahım»), Yeva Olenskaya – Narıngül («Bahar suları»), Əminə Sultanova – Göhər xala («Intizar), Ballı xala («Bahar suları»), Məlik Dadaşov – Ziya Şahsuvarov («Atayevlər ailəsi»), Həsənağa Salayev – Laçın («Işıqlı yollar»), Ağahüseyn Cavadov – Usta Fayiz («Işıqlı yollar»), Almurad («Mənim günahım»), Sofa Bəsirzadə – Reyhan («Atayevlər ailəsi»), Səadət xanım («Unuda bilmirəm»), Cəvahir xanım («Büllur sarayda»), Məmmədrza Şeyxzamanov – Mövsümzadə («Unuda bilmirəm»), Barsuq («Qəribə oğlan»), Həsənalı («Mahnı dağlarda qaldı»), Əliağa Ağayev – Dadaş («Qəribə oğlan»), Nəcibə Məlikova – Məlahət («Qəribə oğlan»), Qönçə («Büllur sarayda») və başqa sənətkarlar.

Və aktyor oyunu baxımından belə bir zəngin təcrübəyə malik «İlyas Əfəndiyev teatrı», yuxarıda yazdığım kimi, yeni sənətkarlar nəsli yetişdirdi.

Ədəbi tənqidin də, bu sənətkarların özlərinin də dəfələrlə yazdıqları, dedikləri kimi, 60-cı illərdə və sonralar sənətə gəlmiş Həsənağa Turabov, Amalya Pənahova,

Şəfiqə Məmmədova, Əlabbas Qədirov, Kamal Xudaverdiyev, Hamlet Xanızadə, Səməndər Rzayev, Hamlet Qurbanov, Səyavuş Aslan, Mikayıl Mirzə, Səfurə Ibrahimova, Vəfa Fətullayeva, Fuad Poladov, Yaşar Nuri, Bəsti Cəfərova, Rəfael Dadaşov, Firəngiz Mütəllimova, Nurəddin Mehdixanlı, Ramiz Məlikov və başqa istedadlı aktyorlarımızın yetişməsində, onların sənətinin formalaşmasında, eləcə də Azərbaycan teatr rejissorluğunun, teatr tərtibatının, teatr musiqisinin inkişafında «İlyas Əfəndiyev teatrı»nın böyük, bir çox məqamlarda isə həlledici rolu olmuşdur.

Və bu proses bu gün də davam edir.

Vaqif Yusifli 2002-ci ildə yazır: «Bu gün belə bir etiraf bəlkə daha ucadan səslənməlidir: İlyas Əfəndiyev Cəfər Cabbarlıdan sonra Azərbaycan dramaturgiyasına yeni bir üslub və nəfəs gətirdi, onun pyesləri uzun illər teatrımızın repertuar siyasətində mühüm rol oynadı. «İlyas Əfəndiyev teatr məktəbi» öz missiyasını indi də davam etdirir: lirik-psixoloji üslub tərzi, həyatın, gerçəkliyin zərif, incə hisslərlə təqdimi, gözəlliyin, həyat poeziyasının bədii-estetik təsdiqi İlyas Əfəndiyevdən sonra da davam edir. «İlyas Əfəndiyev teatr məktəbi» məkanında formalaşan rejissorlar, onun pyeslərinin «qəhrəmanı» olan aktyorlar indi də o böyük sənətkarı minnətdarlıqla xatırlayırlar».

Bu yerdə mən, bir unikal faktı xatırlamaq istəyirəm: İlyas Əfəndiyevin təkcə bir teatrın – Akademik Milli Dram Teatrının səhnəsində 19 pyesi tamaşaya qoyulmuşdur və bu, müasir dünya teatr tarixində analoqu olmayan bir hadisədir.

Həmin tamaşalar bunlardır:

«Intizar» (Mehdi Hüseynlə birlikdə yazılıb) – ilk tamaşası 26 dekabr 1944-cü ildə oynanılıb. Quruluşçu rejissoru Səftər Turabov, quruluşçu rəssamı Nüsrət Fətullayev, bəstəkarı Əfrasiyab Bədəlbəyli idi.

«Işıqlı yollar» – ilk tamaşası 19 iyul 1947-ci ildə oynanılıb. Quruluşçu rejissoru Adil Isgəndərov, quruluşçu rəssamı Nüsrət Fətullayev, geyim eskizlərinin müəllifi Bədurə Əfqanlı, bəstəkarı Fikrət Əmirov idi.

«Bahar suları» – ilk tamaşası 11 dekabr 1948-ci ildə oynanılıb. Quruluşçu rejissoru Adil Isgəndərov, quruluşçu rəssamı Nüsrət Fətullayev, geyim eskizlərinin müəllifi Bədurə Əfqanlı, bəstəkarı Səid Rüstəmov idi.

«Atayevlər ailəsi» – (ilk tamaşası 9 oktyabr 1954-cü ildə oynanılıb). Quruluşçu rejissoru Tofiq Kazımov, quruluşçu rəssamı Sadıq Şərifzadə, bəstəkarı Niyazi idi. (Həmin tamaşa yenidən bərpa olundu və 4 dekabr 1960-cı ildə ilk tamaşası göstərildi.)

«Sən həmişə mənimləsən» – 14 noyabr 1964-cü ildə oynanıldı. Quruluşçu rejissoru Tofiq Kazımov, quruluşçu rəssamı Elçin Aslanov, bəstəkarı Fikrət Əmirov idi.

«Mənim günahım» – ilk tamaşası 5 may 1967-ci ildə oynanıldı. Quruluşçu rejissoru Əşrəf Quliyev, quruluşçu rəssamı Böyükağa Mirzəzadə, bəstəkarı Sultan Hacıbəyov idi.

«Unuda bilmirəm» – ilk tamaşası 1 noyabr 1968-ci ildə oynanıldı. Quruluşçu rejissoru – Tofiq Kazımov, quruluşçu rəssamı Sənan Qurbanov, bəstəkarı Emin Sabitoğlu idi.

«Məhv olmuş gündəliklər» – ilk tamaşası 29 noyabr 1969-cu ildə oynanıldı. Quruluşçu rejissoru Tofiq Kazımov, quruluşçu rəssamı Sənan Qurbanov, bəstəkarı Emin Sabitoğlu idi.

«Mahnı dağlarda qaldı» – ilk tamaşası 12 fevral 1971-cti ildə oynanılıb. Quruluşçu rejissoru Əliheydər Ələkbərov, quruluşçu rəssamı Nüsrət Fətullayev, bəstəkarı Süleyman Ələsgərov idi.

«Qəribə oğlan» – ilk tamaşası 17 fevral 1973-cü ildə oynanılıb. Quruluşçu rejissoru Ağakişi Kazımov, quruluşçu rəssamı Nüsrət Fətullayev, bəstəkarı Emin Sabitoğlu idi.

«Bağlardan gələn səs» – ilk tamaşası 1 oktyabr 1975-ci ildə oynanılıb. Quruluşçu rejissoru Tofiq Kazımov, quruluşçu rəssamı Solmaz Haqverdiyeva, bəstəkarı Emin Sabitoğlu idi.

«Xurşid banu Natəvan» – ilk tamaşası 11 sentyabr 1981-ci ildə oynanılıb. Quruluşçu rejissoru Mərahim Fərzəlibəyov, quruluşçu rəssamı Elçin Aslanov, bəstəkarı Arif Məlikov idi.

«Büllur sarayda» – ilk tamaşası 17 sentyabr 1983-cü ildə oynanılıb. Quruluşçu rejissoru Ağakişi Kazımov, quruluşçu rəssamı Tahir Tahirov, bəstəkarı Oqtay Kazımov idi.

«Şeyx Məhəmməd Xiyabani» – ilk tamaşası 20 dekabr 1986-cı ildə oynanılıb. Quruluşçu rejissoru Mərahim Fərzəlibəyov, quruluşçu rəssamı Solmaz Haqverdiyeva, musiqisi isə seçmə tərtibatlı idi.

«Bizim qəribə taleyimiz» – ilk tamaşası 9 aprel 1988-ci ildə oynanılıb. Quruluşçu rejissoru Mərahim Fərzəlibəyov, quruluşçu rəssamı Solmaz Haqverdiyeva, bəstəkarı Emin Sabitoğlu idi.

«Sevgililərin cəhənnəmdə vüsalı» – ilk tamaşası 21 aprel 1989-cu ildə oynanılıb. Quruluşçu rejissoru Mərahim Fərzəlibəyov, quruluşçu rəssamı Rasim Nəzirov, bəstəkarı Cavanşir Quliyev idi.

«Tənha iydə ağacı» – Akademik Milli Dram Teatrı təmirdə olduğu üçün, ilk tamaşa 6 mart 1991-ci ildə Respublika Sarayında oynanılıb. Quruluşçu rejissoru Mərahim Fərzəlibəyov, quruluşçu rəssamı Rafiz Ismayılov, bəstəkarı Cavanşir Quliyev.

«Dəlilər və ağıllılar» – Akademik Milli Dram Teatrının təmiri uzandığı üçün, ilk tamaşa 9 noyabr 1992-ci ildə Azərbaycan Dövlət Rus Dram Teatrının səhnəsində oynanılıb. Quruluşçu rejissoru Mərahim Fərzəlibəyov, quruluşçu rəssamı Rafiq Abdullayev, bəstəkarı Vasif Adıgözəlov idi. Bu tamaşa İlyas Əfəndiyevin özünün gördüyü sonuncu premyera idi.

«Hökmdar və qızı» – altı il çəkən təmirdən sonra Akademik Milli Dram Teatrı 1996-1997-ci il teatr mövsümünü ilk tamaşası 17 noyabr 1996-cı ildə oynanılan bu əsərlə açdı. Quruluşçu rejissoru Mərahim Fərzəlibəyov, quruluşçu rəssamı Ismayıl Məmmədov, musiqisinin tərtibatında isə Vasif Adıgözəlovun və Polad Bülbüloğlunun əsərlərindən istifadə olunmuşdu.

Sonuncu tamaşa göstərilərkən, artıq İlyas Əfəndiyevin vəfatından 44 gün keçmişdi...

Bu tamaşaların, demək olar ki, hamısı tamaşaçılar tərəfindən böyük maraq və hərarətlə qarşılanıb və orasını da deyim ki, İlyas Əfəndiyevin tamaşaları, demək olar ki, həmişə anşlaqla gedirdi.

Akademik Milli Dram Teatrının arxivində qorunub saxlanmış məlumatlar əsasında İlyas Əfəndiyevin həmin teatrdakı tamaşalarının sayı barədə bəzi rəqəmləri oxuculara təqdim etmək istəyirəm:

«Unuda bilmirəm» – 424 dəfə (müxtəlif bölgələrə qastrollarla birlikdə 500-dən çox);

«Büllur sarayda» – 304 dəfə (qastrollarla bərabər 400-dən çox);

«Qəribə oğlan» – 285 dəfə (qastrollarla bərabər 300-dən çox);

«Sən həmişə mənimləsən» – 143 dəfə (qastrollarla birlikdə 250-dən çox);

«Xurşid banu Natəvan» – 106 dəfə (qastrollarla birlikdə 150-dən çox);

«Bizim qəribə taleyimiz» – 103 dəfə (qastrollarla birlikdə 140-dan çox);

«Dəlilər və ağıllılar» – 103 dəfə (qastrollarla birlikdə 130-dan çox)

Və s.

Bu tamaşaların səhnə ömrünə nəzər salaq:

«Unuda bilmirəm» – 1 noyabr 1968-ci ildə tamaşaya qoyulub, son tamaşası isə 4 iyul 1985-ci ildə göstərilib. 17 il fasiləsiz repertuarda olub.

«Qəribə oğlan» – 8 aprel 1973-cü ildə tamaşaya qoyulub, son tamaşası 8 yanvar 1988-ci ildə göstərilib. 15 il fasiləsiz repertuarda olub.

«Mahnı dağlarda qaldı» – 12 fevral 1972-ci ildə tamaşaya qoyulub, son tamaşası isə 23 sentyabr 1983-cü ildə göstərilib. 13 il fasiləsiz repertuarda olub.

Və s., onun 3-4 ildən az repertuarda olan tamaşası, demək olar ki, yoxdur.

Bir neçə il bundan əvvəl, «İlyas Əfəndiyev teatrı»nın istedadlı tədqiqatçılarından biri olan İlham Rəhimli yazırdı: «Azərbaycan teatrının 123 illik tarixində ona xidmət edən yüzlərlə milli dramaturqlarımız olub. Ancaq onların arasında öz teatrını yaradan, öz səhnə estetikasını müəyyənləşdirən, öz poetika göstəricilərini müəyyənləşdirən dramaturqlar çox azdır: Mirzə Fətəli, Mirzə Cəlil, Cəfər Cabbarlı, Əbdürrəhim bəy, Hüseyn Cavid... Bu siyahıda İlyas Əfəndiyevin adı ən ləyaqətli yerlərdən birini tutur. «İlyas Əfəndiyev teatrı» son otuz ilin milli səhnə fəaliyyətinin tənzimləyicisi, mənəvi-əxlaqi problemlərin bədii təcəssümçüsü, yeni teatr poetikasının müəyyənləşdiricisi, təzə aktyor nəslinin formalaşdırıcısı olub.»

İlyas Əfəndiyev və teatr mövzusu ilə bağlı bu kiçik qeydləri bitirmək istərkən bir epizod yadıma düşdü. Təxminən iki il bundan əvvəl, soyuq bir qış axşamı Akademik Milli Dram Teatrının o zamankı direktoru və bədii rəhbəri Həsənağa Turabovun iş kabinetində idim. Rəhmətlik Eldəniz Zeynalov kabinetə girdi və məni görəndə özünü saxlaya bilməyib qucaqladı və dolmuş bir halda:

– İlyas müəllimdən sonra, teatr yetim qalıb!.. Hamımız yetim qalmışıq!..– dedi.

Mən bu kiçik (amma heç vaxt mənim yadımdan çıxmayacaq!) epizodu ona görə xatırladım ki, əgər səhv etmirəmsə, Eldəniz Zeynalov İlyas Əfəndiyevin yalnız bir əsərinin – «Dəlilər və ağıllılar» – tamaşasında epizodik Ağadadaş Nəcəfov rolunda Hacı Ismayılovun dublyoru olub və o da İlyas Əfəndiyevsiz teatrda özünü yetim hiss edirdi...

Və nəhayət «İlyas Əfəndiyev və teatr» mövzusu ilə bağlı bir faktı da demək istəyirəm, çünki bu fakt da İlyas Əfəndiyevin şəxsiyyəti, xasiyyəti, düşüncənin hansı sferalarında yaşaması barədə az söz demir: o, Azərbaycan Teatr Xadimləri Ittifaqının üzvü deyildi...

Və həmin Ittifaqa üzv olmaq üçün İlyas Əfəndiyevdən zəmanət almaq istəyən cavan (və qeyri-cavan!) dramaturqlar, ümumiyyətlə, teatr sənəti ilə bağlı olan adamlar bu faktı biləndə mat qalırdılar...

## 7.

Oxucuların yaxşı tanıdığı nasir İlyas Əfəndiyevlə, dramaturq İlyas Əfəndiyevlə bərabər, uzun onilliklər boyu tənqidçi İlyas Əfəndiyev də daima Söz demiş, Sözün təəssübünü çəkmişdir.

Doğrusunu deyim ki, İlyas Əfəndiyevin məqalələrini müxtəlif illərdə ayrı-ayrılıqda oxusam da, onun «Seçilmiş əsərlər»inin yeni nəşrini çapa hazırlayarkən, həmin məqalələri bir yerdə, bir toplu şəklində oxuduqda, mən maraqlı bir faktla qarşılaşdım: söhbət ədəbiyyatın aktual problemləri ilə bağlı və ardıcıl surətdə məqalələr yazan yazıçı İlyas Əfəndiyevdən yox, professional nasir, professional dramaturq kimi, professional da tənqidçi İlyas Əfəndiyevdən gedir.

Bu məqalələrin elmi-nəzəri səviyyəsi, bədii-estetik maraqları güdmək ehtirası, mövzu genişliyi, təhlil obyekti seçilən əsərlərin janr müxtəlifliyi bu fikri söyləməyə əsas verir və bu mənada İlyas Əfəndiyev XX əsrdə bizim yazıçı-tənqidçi müştərəkliyini qələmində üzvi şəkildə birləşdirən sənətkarlarımızdan biridir.

İlyas Əfəndiyevin məqalələrini xronoloji ardıcıllıqla oxuduqda, professionallığa aparan elmi-nəzəri xəttin necə formalaşmasının, necə sabitləşməsinin əyani şahidi oluruq.

Onun ilk məqaləsi – «Bataqlıq soldatları» adlı film haqqında Ə.Bəbirlə birlikdə yazdığı resenziya «Yeni yol» qəzetinin 14 dekabr 1938-ci il sayında çap olunub və həmin məqalə, ümumiyyətlə, İlyas Əfəndiyevin mətbuatda çıxmış ilk yazısıdır.

Orası da, yəqin, maraqlı (və əlamətdar!) bir cəhətdir ki, bu ilk yazıdan sonra, İlyas Əfəndiyevin «Ədəbiyyat qəzeti»ndə dərc olunmuş ilk müstəqil məqaləsi Milli Dram Teatrımızın səhnəsində tamaşaya qoyulmuş «Müsibəti-Fəxrəddin» tamaşası haqqında resenziyadır; bu mənada maraqlıdır ki, gənc yazıçı ilk müstəqil tənqidi fikrini gələcək yaradıcılıq həyatının (və ümumiyyətlə, həyatının) 1944-cü ildə «Intizar»ın tamaşasından sonrakı 52 ili ilə ən sıxı surətdə bağlı olacaq bir sənət ocağı haqqında söyləmişdir.

Bu məqaləni mən 60-cı illərin ikinci yarısında mətbuatı araşdırarkən tapıb oxumuşdum və 30 ildən sonra – vəfatından bir-iki il əvvəl mən, «Müsibəti Fəxrəddin» tamaşası haqqında yazılmış bu ilk müstəqil məqaləsini İlyas Əfəndiyevin yadına saldım və soruşdum ki, necə oldu, bu ilk məqalə o teatrdan bəhs etdi?

İlyas Əfəndiyev:

– Yəqin təhtəlşüur olub... – dedi.

Və biz fikir versək, görərik ki, Akademik Milli Dram Teatrının, qismən də başqa teatrların tamaşaları haqqında, daha geniş götürsək isə, ümumiyyətlə, teatr, dramaturgiya və kino problematikası İlyas Əfəndiyevin ədəbi tənqidində çox mühüm yer tutur.

Yəqin bu da təsadüfi deyil ki, Azərbaycan yazıçılarının II Qurultayına (1954) və III Qurultayına (1958) dramaturgiya haqqında məruzələri İlyas Əfəndiyev etmişdir və onun, həmin məruzələrin əsasında yazdığı «Müasir dramaturgiyamız», «Son illərdəki dramaturgiyamız haqqında», eləcə də «Cavan dramaturqlar» və s. kimi sanballı məqalələri, «Yağışdan çıxdıq, yağmura düşdük»dən, yaxud «Kəndçi qızı»ndan tutmuş, «Antoni və Kleopatra», yaxud «Fırtına»yacan bir çox tamaşalar

haqqında geniş və ciddi resenziyaları, teatr xadimləri barədə esseləri bir tərəfdən Azərbaycan teatr sənətinin, digər tərəfdən isə Azərbaycan sənətşünaslığının inkişafında, yüksək bədii-estetik meyarların formalaşmasında az rol oynamamışdır.

Ancaq eyni zamanda, Azərbaycan nəsri və poeziyası da, İlyas Əfəndiyev ədəbi tənqidinin əsas mövzuları idi və bu yerdə söhbət yalnız həmin məqalələrin kəmiyyət göstəricilərindən getmir – bu, öz yerində (onun 150-yə qədər məqaləsi və sırf ədəbiyyat və sənət problemlərindən bəhs edən 40-a yaxın müsahibəsi çap olunmuşdur), söhbət, bəlkə də, daha artıq dərəcədə ondan gedir ki, bütün bu janrlar İlyas Əfəndiyev üçün ədəbiyyat haqqında, sənət haqqında, daha geniş götürsək, mədəniyyət və mənəviyyat haqqında fikirlərini söyləmək üçün eyni dərəcədə münbit zəmin yaradırdı.

Tənqidçi Şamil Salmanov yazır: «Hər bir böyük yazıçı kimi, İlyas Əfəndiyev də öz dövrünün ədəbi prosesinə, ədəbi düşüncəsinə qüvvətli təsir göstərmiş sənətkarlardandır.»

Bu fikrə yalnız onu əlavə etmək olar ki, həmin «qüvvətli təsir»də İlyas Əfəndiyevin qələmi sırf tənqidçi qələmi kimi də ciddi rol oynamışdır.

İlyas Əfəndiyevin bədiiliyə münasibəti və bu münasibətdən doğan estetik tələbatı hələ gənc yaşlarından etibarən dəqiq və aydın idi.

O, 1945-ci ildə, müharibənin yenicə bitdiyi günlərdə «Ədəbiyyat qəzeti»ndə çap etdirdiyi «Yüksək sənət uğrunda» adlı məqaləsində dövrün (hakim və qorxunc sovet – Stalin ideologiyasının!) ən çox təbliğ etdiyi və bir çox istedadsız «yazı-pozuçuların», sırf bədii-estetik tələblər qarşısında polad qalxanına, zirehli əbasına çevrilmiş müqəvva «müsbət qəhrəman»la bağlı yazırdı:

«Həyatda tez-tez, bəlkə də, hər gün təsadüf etdiyimiz adamı biz, təəssüf ki, hekayə və romanlarımızda ya heç görmürük və ya görsək də, sevə bilmirik. Çünki müəllif onu hadisələrin təbii gedişində deyil, havadan asılı vəziyyətdə saxlamağa, qəsdən «yaxşı» göstərməyə çalışır, başını tumarlayır, yerli-yersiz ona «hakimanə sözlər» dedirtməyə cəhd edir. Bu «hakimanə sözlər» neçə yüz il bundan qabaq dəfələrlə deyilmişdir. Müəllif insanın mürəkkəb daxili aləmini, onun saysız-hesabsız ziddiyyətlərini unudaraq, qəhrəmanın hər bir hərəkətini «yaxşılıq», «əlalıq» kimi qələmə verir. Yazıq adam, Balaşın ölü paltarı geymiş atasının vəziyyətinə düşür, quruyub qalır, boynunu belə tərpədə bilmir. Sonra müəllif, metaldan qayrılmış mexaniki adamı radio ilə idarə etdikləri kimi, öz qəhrəmanını başlayır hərəkət etdirməyə: «Sağa dön! Filankəsə bax! Burada əxlaq barəsində nitq irad et!» Nəticədə belə olur ki, oxucu müəllifin hamıya çoxdan məlum olan çeynənmiş sözlərini «mexaniki qəhrəmanın» ağzından eşidərkən əsnəməyə başlayır və axırda yadında heç nə qalmır.

O yerdə ki, oxucular qeyd etməyə başlayır ki, sən filan sözü qəhrəmanına qəsdən dedirdirsən, çünki sənə belə lazımdır, orada artıq sənət öz təsir gücünü itirməyə başlayır. Flober bu məsələ haqqında yazır: «Mən elə güman edirəm ki, romançı heç bir münasibətlə öz fikrini açıqdan-açığa qeyd etməməlidir».

Bir daha yada salaq ki, ən qəti (və qatı!) surətdə sosializm realizmi ədəbi prinsiplərinin əleyhinə deyilən, hakim ideologiyanın heç cürə qəbul etmədiyi və buna görə də, əslində, yasaqda saxladığı «insanın mürəkkəb daxili aləmini, onun saysız-hesabsız (!– E.) ziddiyyətlərini» bədii ədəbiyyatda görmək istəyən bu fikirlər, 1945-ci ildə, yəni «radio ilə idarə edilən» həmin «mexaniki adam»ın ədəbiyyatda

hegemonluq etdiyi, yüksək qiymətləndirildiyi, dərsliklərə salındığı, müəlliflərinin mükafatlandırıldığı, «canlı klassik» elan edildiyi bir vaxtda söylənib...

Və bu xətt – ədəbiyyata, sənətə belə bir psixoloji-estetik meyarlarla yanaşmaq – İlyas Əfəndiyev estetikasının əsas müddəalarından biri və bəlkə də, başlıcası idi və illər ötdükcə bu xətt onun özünün bədii yaradıcılığında da, onun ədəbi tənqidində də açıq-aşkar aparıcı magistrala çevrilmişdi.

Mən artıq yazmışam ki, mütaliə İlyas Əfəndiyevin gündəlik həyatının çox mühüm və dəyişməz bir hissəsi idi və onun bədii-estetik zövqünün formalaşmasında, şübhəsiz ki, mühüm də rol oynamışdı.

İlyas Əfəndiyevin mütaliəsi azad, sərbəst və eyni dərəcədə də özünəməxsus bir mütaliə idi, yəni bu mənada ki, xoşuna gəlməyən əsəri, kim nə qədər tərifləyir, təri̇fləsin, özünü məcbur edib axıra qədər oxumazdı, yaxud rus klassik ədəbiyyatını, xüsusən, Lev Tolstoyu və Anton Çexovu mükəmməl bilirdi və yüksək qiymətləndirirdi, amma müasir rus ədəbiyyatını izləmirdi, çünki ümumiyyətlə, sovet ədəbiyyatı onun üçün maraqlı deyildi, hərçənd «Sakit Don»u və ümumiyyətlə, Şoloxovu, Fadeyevin «Tar-mar»ını, Katayevin son povestlərini, Trifonovu, Belovu, Rasputini yüksək qiymətləndirirdi, Aleksey Tolstoyu və Konstantin Fedini istedadlı yazıçılar hesab edirdi.

Ən çox sevdiyi yazıçılardan biri, bəlkə də birincisi Stendal idi, Balzakı, Floberi, Dikkensi, XX əsr yazıçılarından Stefan Sveyqi, Folkneri, Heminqueyi, Remarkı, Apdaykı çox bəyənirdi. Şekspiri, Lope de Veqanı, Molyeri, Qaldonini, Bomarşeni, Şilleri tez-tez xatırlayırdı, onların əsərlərindən misallar çəkirdi.

XX əsr dramaturgiyasında Pirandellonu, Şounu, O'Keysini, O'Nili, Artur Milleri, Anuyu, Piter Ustinovu, Eduardo de Flipponu maraqla oxuyurdu. Rus dramaturgiyasında Çexovun pyeslərini böyük hadisə hesab edirdi, Ostrovskinin, Qorkinin isə dramaturgiyasını qəbul etmirdi. Lev Tolstoyu, dediyim kimi, çox yüksək qiymətləndirirdi, amma «Canlı meyit»i tamamlanmamış, üzərində işlənməmiş pyes hesab edirdi və Protasov xarakterindəki qeyri-dəqiqliyi Lev Tolstoy qələminə layiq bilmirdi. Rus sovet dramaturqlarından yalnız Rozov onun üçün maraqlı idi, bir də ki, son dövrlərdə Vampilovun pyeslərini həvəslə oxuyurdu və deyirdi ki, bu dramaturq, Çexovdan sonrakı rus dramaturgiyasında maraqlı (və faciəvi!) hadisədir.

Çox sevdiyi kitablar «Don Kixot» və «Robinzon Kruzo» idi və bu kitabları yeniyetmə çağlarında oxuduğuna baxmayaraq, bütün epizodlar, təfərrüatlarına kimi, yadında idi. Ümumiyyətlə, onun oxucu yaddaşı, həqiqi mənada, heyrətamiz bir şey idi.

1988-ci ildə yazdığı bir essedə belə bir hadisəni xatırlayırdı:

«Bir dəfə Lev Tolstoy barədə söhbət edirdik. Mehdi (söhbət Mehdi Hüseyndən gedir. – E.) Tolstoyun bir-iki ştrixlə obrazın portretini oxucunun gözü qarşısında necə canlandırdığından danışırdı. Andrey Balkonskinin arvadı Lizanın təsvirindən danışanda, onun üst dodağının alt dodağından bir qədər uzun olduğunu söylədikdə mən dedim:

– Əksinə, üst dodağı alt dodağından qısa təsvir edilmişdir.

Mehdi dərhal hirslənib:

– Gəl, mərcləşək!– dedi.

Dedim:

– Mərcləşək!
– Bir «Inturist» qonaqlığından?!
Dedim:
– Oldu!
Mehdi «Hərb və sülh» romanının birinci cildini götürüb həmin yeri açdı və məlum oldu ki, mən deyən kimidir. Mehdinin əməlli-başlı pərt olduğunu görüb dedim:
– Yəqin sən çoxdan oxumusan, Mehdi, amma mən bu yaxınlarda oxumuşam. Ona görə də yadımda qalıb.
Həqiqətdə isə, mən o romanı yalnız bir dəfə, özü də hələ yazıçı olmayanda – Füzulidə oxumuşdum. Hafizəm çox yaxşı olduğundan, «Hərb və sülh»ü çox sevdiyimdən detalların yadımda qalması təəccüblü deyildi.
Fatma xanım bərkdən gülüb:
– A kişi,– dedi,– uduzdun, apar uşaqların qonaqlığını ver».
40-50-ci illərdə, hətta 70-80-ci illərdə də ədəbi dairələrdə yalançı bir şüar hökm sürürdü: «Həyatı öyrənmək lazımdır!» və bu zaman həmin «Həyat» məfhumu, əslində, kolxozdan, sovxozdan, fabrikdən, zavoddan, bir sözlə, istehsalatdan ibarət idi.
Bu şüarın əks qütbündə isə, bu gün nə qədər qəribə səslənsə də, kitab dayanırdı, yəni, filankəs həyatı (yəni, neft, yaxud metal istehsalını, baramaçılığı, camışçılığı, yaxud qaynaqçı peşəsini və s.) bilmir, kitabdan gəlir...
İlyas Əfəndiyev söhbətlərində tez-tez bu mövzuya toxunurdu:
– Həyat ilə kitabı qarşı-qarşıya qoymaqdan da əbləh bir şey tapmaq mümkün deyil!– deyirdi.– Onda Qraf Tolstoy, ya lord Bayron gərək əllərinə qələm almayaydılar... Özləri kitab oxumur, çünki kitaba yad adamlardı, ona görə də ortaya belə şüarlar atırlar!..
Bir də İlyas Əfəndiyev deyirdi:
– Həyatı öyrənmək lazım deyil, həyatı hiss etmək lazımdı!
İlyas Əfəndiyev heç vaxt redaksiyaların sifarişi, yaxud kiminsə xahişi ilə məqalə yazmırdı, o, ədəbi tənqiddə də tamam sərbəst, azad bir adam idi və onun qələmə aldığı mövzunu, onun hissiyyatı, zövqü, sənət düşüncələri diqtə edirdi, o, həvəsi olmasa, qələmini nəyi isə yazmağa məcbur edən adam deyildi.
Artıq çox uzaqlarda qalmış bir epizodu da xatırlamaqla bu barədə söhbətimi yekunlaşdırmaq istəyirəm.
Mən 1969-cu ildə, 26 yaşımda namizədlik dissertasiyası müdafiə etdim və o müdafiə çox uğurlu keçdi, rəhmətlik Abbas Zamanov, opponentim olan Mehdi Məmmədov, Məmməd Hüseyn Təhmasib, Mirəli Seyidov, başqaları təklif etdilər ki, mənə birdən-birə doktorluq adı verilsin. O zamanın qaydasına görə dissertasiyanın avtoreferatını, sənədləri təsdiq olunmaqdan ötrü Moskvaya, Ümumittifaq Attestasiya Komissiyasına göndərdim. O materialların ardınca Moskvaya təcili anonim bir məktub göndərmişdilər ki, Elçinin dissertasiyasını özü yox, atası İlyas Əfəndiyev yazıb.
Bu hadisə İlyas Əfəndiyevi qəzəbləndirmək əvəzinə, ona ləzzət eləmişdi və gülə-gülə deyirdi:
– Əşşi, mənim dissertasiya yazmaq həvəsim olsaydı, indiyə qədər elə oturub özüm üçün yazardım də!..

## 8.

Mən artıq qeyd etdim ki, İlyas Əfəndiyev ömrü boyu vəzifəni, iclasları, bürokratik aparatı, sovet ədəbi-ictimai həyatının cürbəcür «seçkili» orqanlarını heç vəchlə yaxına buraxmayan bir adam idi (yalnız cavan çağlarından etibarən, həmişə Azərbaycan Yazıçılar Ittifaqı Rəyasət Heyətinin, bir də ki, Akademik Milli Dram Teatrı Bədii Şurasının üzvü olmuşdu, vəssalam!), onda, bütün bunlara qarşı təbii bir allergiya var idi, amma eyni zamanda o, (və bu, xüsusən, sovet gerçəklikləri kontekstində qəribə görünürdü) dünəninə, bugününə və sabahına görə hər an xalqının təəssübünü çəkməyə hazır olan (və çəkən!) bir ictimai xadim idi, oxucular da, ictimai mühit də onu ictimai xadim kimi də qəbul edir və ona hörmət bəsləyirdilər.

Unudulmaz maestro Tofiq Quliyev hələ İlyas Əfəndiyevin sağlığında ikən yazırdı:

«Mənim əziz dostum İlyas Əfəndiyev böyük dramaturq və nasirdir, onun müasir Azərbaycan ədəbiyyatının və teatr sənətinin inkişafında müstəsna xidmətləri var, o ən çox oxunan, sevilən Azərbaycan yazıçılarından biridir... Bir cəhəti də qeyd etmək istəyirəm: İlyas Əfəndiyev canı ilə, qanı ilə ədəbiyyata, sənətə bağlılığı ilə bərabər, həm də görkəmli ictimai xadimdir.»

Doğrudan, qəribədir, Sovet Ittifaqında yaşayasan, heç zaman deputat seçilməyəsən, nəinki heç vaxt partiyanın rəhbər orqanlarında, ümumiyyətlə, heç Kommunist Partiyasının sıravi üzvü də olmayasan və səni ictimai xadim kimi də qəbul etsinlər – SSRI-də çətin analoqu tapılan bir hadisədir.

Şəxsən mənim üçün, burada bir sirri-xuda yoxdur: İlyas Əfəndiyevin ictimai xadimliyi də onun qələminin bəhrəsi idi. Onun ictimai xadimliyini «yüksək» tribunalarda boğazdan yuxarı bir səmimiyyətlə söylənən «atəşin» çıxışlar yox, təyinatlı deputat fəaliyyəti, icazəsi verilmiş təşəbbüskarlıq, tapşırılmış bəyanatlar, çağırışlar yox, qələminin vətəndaş ehtirası müəyyən edirdi.

İlyas Əfəndiyev hələ Sovet Ittifaqı vaxtında həmin vətəndaş ehtirası ilə yazırdı: «Axı, biz, tribunalarda «vicdan, vicdan!» deyə bağıraraq, Didrodan, Aristoteldən sitatlar gətirən, əslində, pabmıqla baş kəsən, hər hökumət, partiya başçısının vaxtında bir dona girən, bu gün tərifədiyi «rəhbəri» sabah bağıra-bağıra pisləyən buqələmunları çox görmüşük».

Həmin buqələmun ictimai xadimlər həmişə həm yazıçı İlyas Əfəndiyevin, həm də ictimai xadim İlyas Əfəndiyevin qələminin hədəfi idi.

1991-ci ilin yanvarında – hələ sovet imperiyasının şərəfsizcəsinə süqutundan əvvəl, İlyas Əfəndiyev «Mənliyimiz və mədəniyyətimiz» adlı məqaləsində yazırdı:

«Son yetmiş ildə Stalin repressiyası insanlarda bütün müqədds ideyalara inamı məhv etdi. Iş o dərəcəyə çatdı ki, hətta genlərin təsirinə, kibernetikaya inanmaq qadağan edildi. Stalinin zorla yaratdığı kollektivləşmə, yalançı beynəlmiləlçilik, kobud ateizm adamlarda paxıllıq, ikiüzlülük, közü öz qabağına eşmək, yaltaqlıq, satqınlıq kimi keyfiyyətləri sürətlə artırdı. Qardaş qardaşa, ata oğula inanmadı. Beləliklə, dəmir hasara alınmış sovet cəmiyyətində insanın daxili-ülvi mədəniyyətini cəhənnəm adamının soyuq amansızlığı əvəz etdi. Cəmiyyətin insani müvazinəti pozuldu.»

İlyas Əfəndiyevin ictimai xadimliyi, öz imkanları daxilində, amma ehtirasla güddüyü həmin «insani müvazinəti pozulmuş cəmiyyətdə» doğma xalqının marağı idi.

Mən heç vəchlə istəməzdim ki, oxucu, mənim nəyisə ideallaşdırmaq meylimdən şübhələnsin (onsuz da belə bir «ideallaşdırmanın» heç bir perspektivi, deməli, heç bir mənası yoxdur, İlyas Əfəndiyev demişkən, saf-çürüyü – tarix aparır və tarixin işinə də qarışmaq lazım deyil, çünki mümkün deyil!).

Bəli, İlyas Əfəndiyevin də elə publisist yazılarına, ciddi məqalələrində elə abzaslara rast gəlmək mümkündür ki, orada hakim ideologiyanın tələb etdiyi tərənnümlər, xeyli dərəcədə az da olsa, təkrar olunur, ancaq bu, onun yaradıcılığının və vətəndaş mövqeyinin fonunda, bəlkə də, çox birbaşa deyirəm, açıq-aşkar bir komfulyaj rolu oynayır və bunu görmək üçün xüsusi cidd-cəhd də lazım deyil.

Sovet Ittifaqında yaşamayan, sovet gerçəkliyini gözü ilə görməyən və o mühitdə yaradıcılıqla məşğul olmayan bir kəs bəlkə də, belə bir komfulyajı qəbul edə bilməz, çünki bunu başa düşmək, hiss eləmək çətin məsələdir.

Bir epizod yadıma düşür.

2001-ci ilin yanvarında, Nyu-Yorkda, BMT-nin fəaliyyətini işıqlandıran və ədəbiyyatdan da yaxşı xəbərdar olan jurnalist Con Lafeytlə söhbət əsnasında bu mövzu gəlib ortaya çıxdı və o, açıqca mənə dedi:

– Bilirsiz, cənab Elçin, mən belə bir komfulyajı heç cürə qəbul edə bilmərəm. Çünki mənim gözümün qabağına Bulqakov gəlir. Mənim üçün «Ustad və Marqarita» nümunəsi var!

O zaman mən:

– Əzizim, Con!– dedim,– onda gedin, elə həmin Bulqakovun Koba haqqında yazdığı pyesi oxuyun...

Bununla mən, təbii ki, həmin «ədəbi komfulyaja» bəraət qazandırmaq məqsədi güdmürəm, sadəcə olaraq, izah etmək istəyirəm ki, «sovet ədəbi komfulyajı» bir sıra həqiqi sənətkarlar üçün paravoz rolu oynayırdı, sistemə yad, ögey, hətta qərəzli əsərləri öz ardınca çəkib apara bilirdi...

İlyas Əfəndiyevin vətəndaş mövqeyi və fəaliyyəti ilə bağlı yalnız bir nümunənin üzərində qısaca dayanmaq istəyirəm: Cənub mövzusu.

Hələ 1983-cü ildə, uşaqlıq dostu, Füzulidə bir məktəbdə oxuduqları Əhəd Bağırzadə haqqında yazdığı bir essedə, İlyas Əfəndiyev həmin uşaqlıq illərini keçirdiyi yerləri xatırlayır və yazırdı:

«Şəhərin (Füzuli nəzərdə tutulur. – E.) bir kilometr şimalında Hacılı arxı keçirdi. Əslində bu, arx deyildi, qış-yay axan balaca bir çay idi. Hacılı arxından yüz əlli-iki yüz metr şimalda, yazda daşıb göylə gedən gurultulu Quruçay, ondan da bir qədər şimalda, dolana-dolana Kondələnçay axırdı. Quruçayla Köndələnçayın arasında kəsik konus şəklində «Qara köpək» adlanan bir təpə ucalır. Onun üstündən baxanda Arazın o tayında gümüşü bir duman altında uzaq bir əfsanə kimi Savalan dağı görünür. Biz bilirdik ki, Savalan dağının ucaldığı o yerlərdə də azərbaycanlılar yaşayır. Lakin heç bir əlaqəmiz, gediş-gəlişimiz olmadığından oradakı həyat bizə, ancaq nağıllardan bəlli idi».

İllər keçdikcə o nağıl aləmi İlyas Əfəndiyevin düşüncəsində sərt bir reallığa çevrilir və onun üçün Vətən – bölünməz idi, Vətən – yalnız Arazboyu Qarabağ

deyildi, Vətən – yalınız SSRI-nin tərkibindəki Sovet Azərbaycanı deyildi, Vətən – şimallı-cənublu, şərqli-qərbli Azərbaycan idi.

1968-ci ildə İlyas Əfəndiyevin «Unuda bilmirəm» əsəri tamaşaya qoyuldu və «Sən həmişə mənimləsən»dən sonra ikinci böyük uğur qazandı.

«Sən həmişə mənimləsən»lə Azərbaycan teatrına gələn və bundan sonra İlyas Əfəndiyevin on bir əsərində baş rolları ifa edən Amalya Pənahova yazır: – «Unuda bilmirəm» tamaşasında Nərmin surəti ilə düz 500 dəfə səhnəyə çıxmışam və hər dəfə də böyük şövqlə. Bu tamaşayla teatra axın-axın tamaşaçı gəldi.»

Və o «axın-axın» tamaşaçı, şübhəsiz ki, 40-cı illərin sonlarından etibarən, Cənub mövzusunun get-gedə artan bir sərtliklə Azərbaycan ədəbiyyatında, ümumiyyətlə, Azərbaycan ictimai fikrində qadağan olunduğu bir zamanda, Azərbaycan səhnəsində ilk dəfə özünün bədii ifadəsini tapmış bu mövzunu da alqışlayırdı.

Bu tamaşaya ictimai baxış keçirilən 1968-ci ilin o küləkli-çiskinli payız günü mənim yaxşı yadımdadır. Tofiq Kazımovun yaratdıtı yaradıcı heyət – qocaman Məmmədrza Şeyxzamanovla (Mövsümzadə), Sofa Bəsirzadə ilə (Səadət xanım), Muxtar Avşarovla (Kərəm dayı) birlikdə, gənc Həsənağa Turabovun (Kamran), Amalya Pənahovanın (Nərmin), Hamlet Qurbanovun (Cəmil) oyunu, gənc Solmaz Haqverdiyevanın tərtibatı və Emin Sabitoğlunun musiqisi müasir həyatın bir parçasını səhnədə elə bir sənətkarlıqla, şövqlə, həvəslə yaratdılar ki, elə bil, o saatlarda Cənub özü bir Savalan əzəməti ilə, eyni zamanda, o boyda da bir nisgil ilə Akademik Milli Dram Teatrının səhnəsindən görünürdü – vaxtilə Füzulidə, Qaraköpək təpənin üstündən Arazın o tayında «gümüşü bir duman altında» görünən kimi görünürdü, amma daha nağıl aləmində yox, səhnə, sənət gerçəkliyində.

Ictimai baxışa toplanmış tamaşaçılar – teatr xadimləri, sənətşünaslar, yazıçılar (yadıma gələnlər: Abbas Zamanov, Məmmədağa Şirəliyev, Mirzəağa Quluzadə, Bayram Bayramov, Kamal Talıbzadə, Hüseyn Abbaszadə, Qasım Qasımzadə, Ədilə Əliyeva, Cabir Səfərov, gənc Yaşar Qarayev və b.) tamaşadan sonra ayağa qalxıb uzun müddət ifaçıları alqışladılar və hər şey... əməlli-başlı bir dava-dalaşla qurtardı: ictimai baxışda iştirak edən Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin yüksək vəzifəli bir funksioneri tamaşanı... qadağan etdi:

– Bu cür zəhərli millətçiliyi (azərbaycanca yaxşı bilmədiyi üçün, rusca danışırdı və onun rusca dediyi o ifadə o vaxtdan da yaddaşıma həkk olub qalıb: «otravlennıy nasionalizm»), belə bir pantürkizmi səhnəyə çıxarmaq olmaz!

Çox ciddi bir deyişmə oldu.

Tofiq Kazımov danışan adam deyildi və o, ürəyində nələr çəkirdi – Allah bilir. İlyas Əfəndiyev isə, tamam özündən çıxıb – mən onu çox az vaxtlar bu cür əsəbiləşən görmüşdüm – camaatın içində o adama – yarımrəhbər (rəhbərcik!) partiya işçisinə – necə deyərlər, dişinin dibindən çıxanı dedi və mən o deyilənləri yenidən xatırlamaq, eləcə də o adamın 34 ildən və dünya tamam dəyişəndən (onun da bu dəyişikliyə uyğun «başqalaşdığından»!) sonra adını çəkmək istəmirəm. Təkcə onu deyim ki, qızarıb pörtmüş həmin yüksək vəzifəli partiya funksioneri sürətlə tamaşa salonundan çıxa-çıxa:

– Görərsiz, İlyas müəllim!– dedi.

İlyas Əfəndiyev də:

– Sənin kimilərini mən çox görmüşəm!– deyə onun ardınca qışqırdı və zaldan çıxıb birbaşa direktorun kabinetinə getdi.

Teatrın direktoru rəhmətlik Əliheydər Ələkbərov da, həmişəki kimi, o yüksək vəzifəli partiya funksionerini ötürmək əvəzinə, İlyas Əfəndiyevin ardınca, öz kabinetinə tərəf getdi və uzun müştüyünə taxdığı siqareti dilxor-dilxor çəkə-çəkə Tofiq Kazımov da, başqa teatr işçiləri də onların ardınca getdi.

Cavan bir aspirant olan mən də Əliheydər Ələkbərovun kabinetinə getdim.

İlyas Əfəndiyev direktorun kabinetindən telefonla o zaman Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin ideoloji işlər üzrə katibi işləyən Cəfər Cəfərova zəng elədi və əsəbi halda:

– Cəfər, səninlə danışan «otyavlennıy nasionalist»dir! – dedi, sonra da indicə baş verənləri çox hiddətlə söylədi.

Atamın xasiyyətinə yaxşı bələd olan Cəfər Cəfərov onu yanına dəvət etdi və İlyas Əfəndiyev, Allah bilir, axırıncı dəfə nə vaxt olduğu Mərkəzi Komitənin (indiki Nazirlər Kabinetinin) yerləşdiyi binaya getdi.

Axşam o, evə qayıdanda məlum oldu ki, Cəfər müəllimin kabinetində həmin partiya funksionerinin iştirakı ilə çox gərgin söhbət keçib (o israr edirmiş ki, «Unuda bilmirəm» başdan-başa millətçilikdən ibarətdir və bu tamaşa Sovet Ittifaqı ilə başqa dövlətlər – yəni  Iran – arasında gərginliyə səbəb ola bilər; həm də şikayətlənib ki, İlyas Əfəndiyev onu o qədər camaatın arasında təhqir edib) və son qərar bu olub ki, katib özü gedib tamaşaya baxsın.

Səhərisi gün Cəfər Cəfərov tamaşaya baxdı, əsəri də, yaradıcı heyətin işini də çox bəyəndi, mərdi-mərdanə fikrini açıq dedi və üç-dörd gündən sonra – noyabrın 1-də – «Unuda bilmirəm»in çox uğurlu premyerası oldu və ağzınacan tamaşaçılarla dolu olan zal uzun müddət ayaq üstə artistləri alqışladı, İlyas Əfəndiyevi də, Tofiq Kazımovu, Emini, Solmazı da səhnəyə dəvət etdi.

Aradan bu qədər illər keçib, amma «Unuda bilmirəm»in o ilk tamaşasında oynayan artistlər bu gün də o premyeranın uğurundan ağız dolusu danışırlar.

«Unuda bilmirəm» tamaşası – eyni bir tamaşa – yuxarıda yazdığım kimi, düz 17 il repertuarda qaldı, 500 dəfədən artıq göstərildi və bu rəqəmlər bizim teatr tariximizdə, şübhəsiz, unikal bir hadisədir.

İlyas Əfəndiyev üçün, əlbəttə, xoş idi ki, tamaşa belə böyük bir uğur qazandı, amma o biri tərəfdən də:

– Təki bu premyera Cəfərə baha başa gəlməsin! – deyə narahatlıq keçirirdi...

«Unuda bilmirəm»dən sonra Cənub mövzusu İlyas Əfəndiyev dramaturgiyasında aparıcı xətlərdən birini təşkil edirdi və onun Azərbaycanın Bütövlüyü, Azərbaycanın müstəqilliyi barədəki fikirləri 1986-cı ildə tamaşaya qoyulmuş «Şeyx Xiyabani» əsərində, özünün, o zaman üçün təəccüblü görünəcək dərəcədə cəsarətli bədii ifadəsini tapdı.

İlyas Əfəndiyevin bədii əsərlərdəki cəsarəti – daima yeniliyə meyli, yeni mövzular qaldırması, psixoloji dərinlərə varmaq ehtirası onun istedadına, həyatdakı cəsarəti isə – xarakterinin xüsusiyyətlərinə söykənirdi.

1982-ci ilin payızında Azərbaycan ictimai həyatında, ümumiyyətlə, Sovet Azərbaycanının tarixində, o vaxta qədər heç bir başqa sovet respublikalarında analoqu olmayan bir hadisə baş verdi: Hüseyn Cavidin cənazəsi Sibir çöllərində

axtarıldı, tapıldı, Bakıya gətirildi və bu münasibətlə Elmlər Akademiyasının binasında matəm mərasimi keçirildi.

Həmin gecə, saat 2-dən keçmiş, o zaman Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin ideoloji işlər üzrə gənc, enerjili və açıq-aşkar bir milli təəssübkeşlik mövqeyində dayanan katibi Həsən Həsənov telefonla mənə evə zəng elədi. Onun sözlərini o gecə necə qeyd etmişəmsə, eləcə də, olduğu kimi, bu yazıya köçürürəm:

– Elçin, salam. Sənə Heydər Əliyevin tapşırığı ilə zəng eləyirəm. Indicə büronun iclası qurtarıb. Hüseyn Cavidlə bağlı sənədlərə baxırdıq. Başdan-başa danoslardır, qələm yoldaşlarının yazdığı ifşalardır. Onu müdafiə eləyən yeganə məktubu İlyas Əfəndiyev yazıb. Yazıb ki, «Cavidi azad etmək lazımdır, çünki xalq, onsuz da, onu sevir, onu unutmayıb, ürəyində gizlin saxlayıb, onu oradan çıxarmaq mümkün deyil. Cavid azad olunsa, respublikada vətənpərvərlik ruhu da yüksələr.» Heydər Əliyev tapşırdı ki, bizim təşəkkürümüzü İlyas müəllimə çatdırım.

Səhərisi gün mən bu telefon zəngini atama danışanda, yadına saldı ki, müharibə təzə başlayan vaxt Mərkəzi Komitəyə belə bir məktub yazmışdı...

Stalin zamanı absurd hadisələr çox olub: bəzən Sistemin qulları tutulub antisistemçilər kimi güllələnirdi, bəzən də belə məktublar nəzərdən qaçırdı...

Bir də ki, kim bilir, o məktub hansı əllərə düşüb, hansı hissləri yaradıb, bəlkə də, bilərəkdən görünməz bir küncə atılıb...

İlyas Əfəndiyevin həyatında ağrılı-acılı hadisələr də az olmayıb, fərəhli, sevincli hadisələr də.

Onun həyatındakı ən sevincli-fərəhli hadisələrdən biri, birincisi – Azərbaycanın müstəqilliyi idi və mən çox şükürlər edirəm ki, tale bu müstəqilliyi görməyi ona qismət etdi.

Onun həyatındakı ən ağrılı-acılı hadisələrdən biri isə – Qarabağın istilası və dağıdılması oldu və mənim üçün gün işığı kimi aydın bir həqiqətdir ki, Qarabağ sarsıntısı olmasaydı, İlyas Əfəndiyev daha artıq yaşayardı...

## 9.

İlyas Əfəndiyev yumoru sevən və hiss edən, duzlu (amma həddini aşmayan!) zarafatı xoşlayan və qiymətləndirməyi bacaran, təbiəti etibarilə canlı, sükunətdən darıxan, rəsmiyyəti, xüsusən də «partiya rəsmiyyətini» heç cürə qəbul etməyən, quru, emosiyasız insanlarla ünsiyyətdən darıxan (və qaçan!) bir adam idi.

Yəqin elə təbiətinin bu cəhətlərinə görə də o, ədəbiyyatda, sənətdə satiranı (ölçü hissini aşmamaq, lağlağılığa varmamaq şərtilə!), yumoru duyur və qiymətləndirirdi.

Mən indi bu sətirləri yazanda fikirləşirəm ki, qəribədir, onun yumor hissinin bu dərəcədə zəngin olmasına baxmayaraq, demək olar ki, satirik əsər yazmırdı. Yalnız bir komediya – «Qəribə oğlan» – yazmışdı, bir də ki, «Yaylaq qonşumuz» hekayəsini satirik əsər hesab etmək olardı, vəssalam. Hətta bu əsərlərdə də onun qələmi imkan tapan kimi, lirik psixologizmə qaçırdı...

Həyatda o, lirik-romantik söhbətləri heç xoşlamazdı, yəqin ona görə ki, lirika, romantika onun daxilində idi və daxilindəki həmin hissiyyat o qədər şəxsi idi ki, onu başqa bir kimsənin müdaxiləsinə yaxın buraxmaq olmazdı (və buraxmırdı!), bu – başqalarının gözü qabağında soyunmaq kimi bir şey idi. Görünür, İlyas

Əfəndiyevin təbiətindəki şuxluq onun daxilindəki həmin lirikanın, romantikanın libası, geyimi idi.

O, özü satira yazmırdı, amma, dediyim kimi, ədəbiyyatda satiraya heç vəchlə biganə deyildi. Misal üçün, onun çox sevdiyi və çox da yüksək qiymətləndirdiyi Azərbaycan şairi – Sabir idi. Yaxud «Ölülər»i, ümumiyyətlə, dünya dramaturgiyasında şedevrlərdən biri hesab edirdi, xüsusən, Şeyx Nəsrullah ilə Şeyx Əhmədin dialoqları onun çox xoşuna gəlirdi. Sobakeviç isə rus nəsrində onun bəyəndiyi surətlərdən biri idi, xüsusən, Sobakeviçin osetrinanı yediyi qonaqlıq səhnəsini tez-tez xatırlayıb gülürdü.

Çexovun hekayələrini də bəyənirdi, Çexov çinovniklərini rus nəsrinin zirvələrindən biri hesab edirdi, amma orasını da deyim ki, Çexovun dramaturgiyasını, onun satirasından daha yüksək qiymətləndirirdi, gurultulu epitetləri xoşlamasa da, Çexov dramaturgiyasına «dahiyanə dramaturgiya» deyirdi.

«O olmasın, bu olsun»dakı tiplər qalereyası – Məşədi Ibadın özü, Hambal, Qəzetçi Rza, Qoçu Əsgər, Intellegent Həsən, Sənəm, eləcə də M.F.Axundovun Hacı Qarası, Dərviş Məstəli şahı, Müsyö Jordanı İlyas Əfəndiyev üçün yalnız Azərbaycan yox, dünya komedioqrafiyasının klassik surətləri idi.

Söhbət əsnasında dəfələrlə ondan eşitdiyim sözlər yadıma düşür. Deyirdi:

– Üzeyir bəy heç musiqi yazmasaydı, təkcə elə «Məşədi Ibad»la, «Arşın mal alan»ın mətninə görə Azərbaycan ədəbiyyatının parlaq simalarından biri kimi tarixə düşəcəkdi.

Üzeyir bəyin və Mirzə Cəlilin satirik publisistikasını olduqca yüksək qiymətləndirirdi, eləcə də Mirzə Cəlilin «Quzu», «Hamballar», «Usta Zeynal» kimi hekayələri, Haqverdiyevin «Maralları»ndakı personajlar (bu personajlara münasibətdə, əlbəttə, bir Şuşa sevgisi də şübhəsiz idi) tez-tez onun yadına düşürdü.

Cəfər Cabbarlının yumorunu, Ocaqqulu, Oddamdı, Atakişi və Babakişi, Şərif kimi qəhrəmanlarının koloritini çox qiymətləndirirdi və həmişə də təəssüf edirdi ki, Cəfər Cabbarlı komediya yazmayıb. Hərdən mənə deyirdi:

– Səni inandırıram ki, Cəfər qalsaydı, yaxşı komediyalar yazacaqdı...

Görünür, bu fikirdə belə bir düşüncənin də ifadəsi var idi ki, illər ötdükcə sovet gerçəkliyi Cabbarlını inqilabi romantikadan ayırıb satiraya sövq edəcəkdi... Amma bu sözü də ondan bir neçə dəfə eşitmişəm ki, əgər Cəfər Cabbarlı sağ olsaydı, 37-də onu da aparacaqdılar...

– Cəfərin inqilabi romantikası inqlabın əjdahasına çevrilib onun özünü də məhv edəcəkdi...– deyirdi.

Ümumiyyətlə, İlyas Əfəndiyev Cəfər Cabbarlı istedadını böyük vergi hesab edirdi və qəribədir ki, həyatda heç vaxt Cabbarlını görməsə də (Cabbarlı vəfat edəndə İlyas Əfəndiyev 20 yaşlı əyalət müəllimi idi), onun şəxsiyyətinə də çox hörmət edir, Cabbarlıya doğma, hətta məhrəm bir münasibət bəsləyirdi. Görünür, bu yerdə, İlyas Əfəndiyevin gənc yaşlarında Aydının, Oqtay Eloğlunun romantikası ilə təması da öz işini görmüşdü.

O, Molyeri də çox bəyənirdi və Molyerin komediyalarını Şekspirin komediyalarından üstün tuturdu, baxmayaraq ki, Şekspiri son dərəcə böyük bir düha hesab edirdi.

Bir dəfə, yadıma gəlir, vəfatından bir il əvvəl – 1995-ci ilin yayında Zuğulbada, onun çox xoşladığı evkalipt ağacının altında oturub növbəti «gecə söhbəti» edirdik və söz dramaturgiyadan düşəndə İlyas Əfəndiyev dedi:

– Şekspir bizim bu dünyaya sığışmır. Mənə elə gəlir ki, Şekspir başqa bir sivilizasiyadan bizim yer kürəsinə gəlib...– Sonra da gülüb: – Bəlkə də, azıb, gəlib... – dedi.

Amma buna baxmayaraq, o, sırf komiklik baxımından Molyerin komediyalarını daha artıq bəyənirdi və burası da yaxşı yadımdadır ki, 1990-cı ildə mən Molyerin «Jorj Danden» və «Skapenin kələkləri» komediyalarını Azərbaycan dilinə tərcümə etmişdim və İlyas Əfəndiyev bunu biləndə, həmin tərcümələri məndən aldı, qrankaların kənarında qeydlər edə-edə (ümumiyyətlə, mənim yazılarımı həmişə əlində karandaşla oxuyurdu, sonra da qeydlərini deyirdi) oxudu. Ən maraqlısı isə bu oldu ki, həmin tərcümələrdən sonra Molyerin rus dilindəki üçcildliyini götürüb birinci səhifədən sonuncu səhifəyədək təzədən oxudu.

– Şekspirin komediyaları ağırdı,– deyirdi.– Molyer isə ağır deyil, tərtəmiz çay, su kimi axıb gedir...

Bomarşenin komediyaları da onun xoşuna gəlirdi, Bröxtin «Üçqəpiklik opera»sını, yadıma gəlir, dəfələrlə oxumuşdu və ümumiyyətlə, Bröxtin dramaturgiyasını yüksək qiymətləndirirdi. Şounun komediyaları, xüsusən «Piqmolion» da onun bəyəndiyi əsərlərdən idi.

Ostrovskinin komediyalarını isə heç bəyənmirdi, amma «Müfəttiş»i təkcə rus yox, dünya dramaturgiyasında hadisə hesab edirdi. Ümumiyyətlə, Qoqol onun üçün böyük yazıçılardan biri idi və həmişə də təəssüf edirdi ki, bu yazıçı bu qədər az yaşayıb.

Mən uşaq vaxtı, 40-cı illərin sonu, 50-nin əvvəllərində tez-tez İlyas Əfəndiyevlə birlikdə o zaman Məşədi Əzizbəyov adına olan Akademik Teatrımızın tamaşalarına gedirdim və səhv etmirəmsə, 1952-ci ildə (onda mən 7 saylı məktəbin üçüncü sinifində oxuyurdum) orada Mehdi Məmmədovun quruluşunda «Müfəttiş» tamaşaya qoyulmuşdu. İlyas Əfəndiyev (mən də onunla birlikdə) azı on dəfə o tamaşaya baxmışdı.

Biz teatrın direktorunun (Adil Isgəndərovun) lojasında otururduq. Xlestakovun rolunu Fateh Fətullayev ifa edirdi, gənc Məlik Dadaşov da onun dublyoru idi. Osipi isə Mirzağa Əliyev oynayırdı və Osip divana yıxılıb ayaqlarını yuxarı qaldıraraq, acından qarnını tutub: «– Vay, qarnım!»– deyə qışqıranda İlyas Əfəndiyevin necə ürəkdən gülməyi indi də gözümün qabağındadı. Bəzən tamaşa gedəndə atam Adil Isgəndərovun kabinetində olurdu, amma Osipin həmin səhnəsində mütləq lojaya gəlib baxırdı və bir az zarafatla Adil Isgəndərova deyirdi:

– Ədil Rzayeviç, deyirlər ki, Mehdi quru adamdı... Quru adamın belə tamaşaları olar?

Adil Isgəndərov ciddi görkəmlə:

– Olar, qadam,– deyirdi.– Olar...

İlyas Əfəndiyev şaqqanaq çəkib gülürdü, hətta bəzən elə gülürdü ki, parterdə oturan tamaşaçılar başlarını qaldırıb lojaya baxırdı və həmin anlarda mən utanıb özümü kənara çəkirdim ki, məni görən olmasın.

Gözəl günlər idi...

Haldoninin «Mehmanxana sahibəsi» tamaşası yadıma gəlir və o tamaşaya da, səhv etmirəmsə, rəhmətlik Mehdi Məmmədov quruluş vermişdi. O tamaşada Mirandolinanı Barat Şəkinskaya, Kavaler Ripafrattanı Möhsün Sənani, Markiz Forlipopolini Mustafa Mərdanov, Qraf Albofioritanı isə Ağasadıq Gəraybəyli oynayırdı və bu korifeylərin oyununun da İlyas Əfəndiyevin ürəyinə necə yağ kimi yayıldığının mən dəfələrlə şahidi olmuşdum.

Sonrakı illərdə – gərək ki, 1955-ci il idi – yenə Mehdi Məmmədov «Hacı Qəmbər»i tamaşaya qoymuşdu və İlyas Əfəndiyevin (mən də həmişəki kimi, onun yanında!) premyeradan sonra baş rolun ifaçısı Məmmədəli Vəlixanlının qrim otağına gedib onu necə sidq-ürəkdən gələn bir hərarətlə təbrik etməsi də mənim teatrla (və atamla!) bağlı gözəl xatirələrimdən biridir.

Bizim komik aktyorlardan yuxarıda adlarını çəkdiyim Ağasadıq Gəraybəylinin, Mustafa Mərdanovun, Möhsün Sənaninin, eləcə də Məmmədəli Vəlixanlının (xüsusən, onun Ocaqqulusunu və «Lənkəran xanının vəziri»ndəki Vəzirini), Ağahüseyn Cavadovun, Ismayıl Osmanlının, Lütfəli Abdullayevin, Məcid Şamxalovun, Füzuli teatrının aktyoru (və ömrünün sonuna kimi bizə gəlib-gedən) Mürşüd Həşimlinin sənətini, Barat Şəkinskayanın, Mirvari Novruzovanın, Məlik Dadaşovun komik istedadını (məsələn, onun Şeyx Nəsrullahını), Ağadadaş Qurbanovun Mirzə Səmənderini, Ələsgər Ələkbərovun Salamovunu, Əminə Sultanovanın Mariya Timofeyevnasını atam böyük sənətkarlıq nümunəsi hesab edirdi.

Sonrakı aktyorlar nəslinə mənsub olan Səyavuş Aslanın istedadı barədə həmişə ağızdolusu danışırdı və «Hökmdar və qızı»nın məşqlərində satirik planda işlənmiş erməni Vanya rolunu ifa edən Səyavuşun oyunundan çox razı idi. Yeri düşmüşkən deyim ki, Səyavuşun tərəf-müqabili kimi Haykanuş rolunun ifaçısı Kübra Əliyeva da İlyas Əfəndiyevin qiymətləndirdiyi aktrisalardan idi.

Çox təəssüflər ki, İlyas Əfəndiyev «Hökmdar və qızı»nın premyerasını görə bilmədi. 1996-cı il oktyabrın 3-də İlyas Əfəndiyev vəfat etdi, iki aydan sonra, dekabrın 15-də isə «Hökmdar və qızı»nın ilk tamaşası göstərildi və zalda oturub Səyavuşla Kübra xanımın gözəl ifasına tamaşa edə-edə, tamaşaçıların gülüşünü, alqışlarını eşidə-eşidə mənə elə gəlirdi ki, İlyas Əfəndiyev də hardasa, başımızın üstündən səhnəyə baxır və bu artistlərin oyunundan xoşu gəlir...

Amma mən yenə keçmişlərə qayıtmaq istəyirəm.

1954-cü ildə Tofiq Kazımov «Atayevlər ailəsi»ni tamaşaya qoymuşdu və mən də İlyas Əfəndiyevlə birlikdə hər axşam o tamaşaya gedirdim. Tamaşada yozumu satirik planda verilmiş Sadıq surətinin ifasında Mustafa Mərdanov ilə Məmmədəli Vəlixanlı bir-birinə dublyor idi. Hərdən tamaşadan sonra İlyas Əfəndiyev Tofiq Kazımovu və Niyazini (tamaşanın musiqisini o bəstələmişdi) köhnə «Inturist»də restorana dəvət edirdi və süfrə arxasındakı söhbət əsnasında Tofiq Kazımov şikayətlənirdi:

– Əşşi, qalmışam Mustafa ilə Vəlixanlının arasında. O deyir bu gün mən oynayacağam, bu deyir, yox, mən oynayacağam...

İlyas Əfəndiyev gülüb:

– Tofiq,– deyirdi.– Məni bu işə qatma. Mustafa da böyük sənətkardı, Vəlixanlı da!

Orası da indi gözəl bir xatirə kimi yadıma düşür ki, həmin «Inturist» məclislərindən sonra, Niyazi bəzən təkid edirdi ki, bizə gedəcəyik! İlyas Əfəndiyev də, rəhmətlik Tofiq Kazımov da nə qədər edirdisə ki, indicə süfrənin arxasından qalxmışıq, gecdir, mümkün olmurdu, təzədən Niyazigilə gedirdilər (mən – 5-ci sinif şagirdi də onlarla! onlar yeyib-içib söhbətləşirdi, mən də onlara qulaq asırdım) və məlum olurdu ki, Həcər xanım (maestronun vəfalı həyat yoldaşı) plov bişirib Niyazini gözləyir. Onların Niyazigildəki məzəli söhbətləri, oradakı o duzlu ab-hava da heç vaxt mənim yadımdan çıxmayacaq.

Mən lap uşaqlıq çağlarımdan İlyas Əfəndiyevin həyatının sonuna qədər, onun Mehdi Hüseynlə, Əli Vəliyevlə, Adil Isgəndərovla, Süleyman Rüstəmlə, Mir Mehdi Seyidzadə (ona «Ağa» deyirdilər) ilə, professor Əmir Həbibzadə ilə, bəstəkar Sultan Hacıbəyovla, atamın, Əmir müəllimin, xüsusən, Sultanın dostu, musiqiçi, Mədəniyyət Nazirliyinin işçisi, çox koloritli bir adam olan rəhmətlik Davud Balayeviç Qədimovla (ona «Dodik» deyirdilər), həkim-yazıçı Əli Ağabəyli ilə, başqaları ilə duzlu-məzəli söhbətlərinin, zarafatlarının şahidi olmuşam.

Fikirləşirəm ki, o zarafatların, məzəli əhvalatların bir qismi ilə, eləcə də həm İlyas Əfəndiyevdən eşitdiyim, həm də başqalarının mənə danışdığı bəzi hadisələrlə oxucuları tanış etsəm, bu, bir insan, şəxsiyyət kimi, İlyas Əfəndiyevin xarakterini duymağa kömək edər.

Eyni zamanda, güman edirəm ki, bu yumoristik hadisələr, epizodlar, mükalimələr dövrün yazıçılar mühitini hiss etmək baxımından da maraqlıdır.

Orasını da deyim ki, bu zarafatlar yalnız və yalnız təmiz hisslərin, gözəl münasibətlərin, qarşılıqlı hörmət və istəyin məhrəmanə ifadəsidir və mənim də bu epizodları qələmə almağım onlarda adı çəkilən Əli Vəliyev və Xan Şuşinskinin, Mehdi Hüseyn və Ağasadıq Gəraybəylinin, Süleyman Rəhimov və Mir Cəlalın, Əbülhəsən və Mirzə Ibrahimovun, Adil Isgəndərov və Mir Mehdi Seyidzadənin, Məmməd Əkbər və Zeynal Xəlilin, Əliağa Kürçaylı və Cabbar Məcnunbəyovun, Islam Səfərli və Salam Qədirzadənin, Firudin Şuşinski və Tələt Əyyubovun, başqalarının ruhuna ehtiramımın ifadəsidir.

Elə bütün bu mülahizələri nəzərə alaraq da, mən həmin məzəli əhvalatların bəzisi ilə bu kitabın oxucularını tanış etmək istəyirəm.

## ÇƏTİN VƏZİYYƏT

Əllinci illərin əvvəllərində İlyas Əfəndiyev Azərbaycan Yazıçılır Ittifaqında məsləhətçi işləyirdi. Bir nəfər ədəbiyyat xəstəsi (zorən təbib!) qoltuğundakı yekə bir qovluq ilə həftə səkkiz, mən doqquz, İlyas müəllimin yanına gəlir, kolxozdakı əmək qəhrəmanlarının şanlı fəaliyyətindən, camışçılıq sahəsində dövlət planını artıqlaması ilə yerinə yetirməklərindən bəhs edən povestini ona oxumaq istəyir.

İlyas Əfəndiyev də hər dəfə bir bəhanə ilə onu başından edir. Axırda daha mümkün olmur və günlərin bir gözəl yaz günündə həmin ədəbiyyat xəstəsi Yazıçılar Ittifaqındakı məsləhətçilər otağında İlyas müəllimlə üzbəüz oturub o böyük və danq-danq danqıldayan povesti ona oxumağa başlayır.

O, yazısını oxuduqca İlyas Əfəndiyev Yazıçılar Ittifaqının geniş şüşəbəndindən görünən o gözəl yaz gününə baxır, kim bilir, nə fikirləşir, nələri xatırlayır, kimləri düşünür...

Bizim o zorən təbib isə böyük bir həvəslə povesti oxuyub qurtarır və intizarla İlyas Əfəndiyevə baxır.

İlyas Əfəndiyev soruşur:

– Nə oldu?

– Qurtardım də, İlyas müəllim...

– Hə?

– Bəli! Indi fikrinizi bilmək istəyirəm!

Bir müddət sükut çökür.

Sonra İlyas Əfəndiyev deyir:

– Onda sən bir qısaca bunun süjetini danış görüm...

## BƏS, NİYƏ TƏRİFLƏMİRSƏN?

«Hüsü Hacıyev» küçəsindəki 19 saylı binada (öz ənənələri, şuxluğu, zarafatı olan və min təəssüf ki, artıq bir çox məşhur sakinlərini itirmiş Yazıçılar Evində) üçüncü mərtəbədə yaşayan İlyas Əfəndiyev bir gün eyvana çıxır və görür ki, ondan aşağı mərtəbədə yaşayan Salam Qədirzadə də eyvandadır, balaca samovarına (bu da o gözəl binada bir məşhur samovar idi!) köz salır.

– Salam, salam!

– Salam, İlyas müəllim!

– Nə var, nə yox?

– Sağlığınız, İlyas müəllim.

– Bugünkü «Ədəbiyyat qəzeti»ndə mənim hekayəmi oxudun?

– Bəli, İlyas müəllim.

– Onda, bəs, səhərdən niyə tərifləmirsən?!

## «NAM SALAT VMESTE!»

1942-ci ilin yayında, müharibənin çətin vaxtında Mir Cəfər Bağırov Əli Vəliyevi, Zeynal Xəlili, Azərbaycan KP MK-nın məsul işçisi Kərimov familyalı bir nəfəri və o zaman cavan bir yazıçı olan İlyas Əfəndiyevi MK-ya çağırır və şəxsi tövsiyələri ilə onları əsgərlərlə görüş keçirmək üçün, Naxçıvanda yerləşən 402-ci Azərbaycan diviziyasına ezam edir.

Bu kiçik dəstənin rəhbəri Əli Vəliyev idi və səfər bitdikdən sonra bu barədə bilavasitə M.C.Bağırovun özünə məlumat verməli idi.

Onlar Əli Vəliyevin ciddi nəzarəti altında isti Naxçıvanda gündə bir neçə dəfə əsgərlərlə görüş keçirirlər: Əli Vəliyev məclisi aparırdı, İlyas Əfəndiyev «Azərbaycan ədəbiyyatı Böyük Vətən Müharibəsi günlərində» mövzusunda məruzə edir, hekayəsini oxuyurdu, Zeynal Xəlil də şerlərini oxuyurdu və günorta da gəlib zabitlərin yemək otağında nahar edirdilər.

Birinci gün nahar vaxtı xörəkpaylayan rus qızı onlardan soruşur:

– Salat vam otdelno prinesti, ili vmeste?

Səmimi bir adam olan Əli Vəliyev dərhal:

– Salat vmeste! – deyir.

O qorxulu illərin rəsmi məsuliyyət hissi Əli Vəliyevdə çox güclü idi və Əli müəllim Naxçıvanda səfər yoldaşlarına nəfəslərini dərməyə də imkan vermirdi: dördü də bir yerdə görüşə gedir, bir yerdə nahar edir, dördü də mehmanxanadakı böyük bir otaqda bir vaxtda yatırdı.

Havalar həddən artıq isti keçirdi və eləcə isti günlərdən birində günorta görüşdən qayıdarkən naharqabağı Əli Vəliyev deyir:

– Ürəyim yaman gilənar istəyir!..
Günlərinin yeknəsəqliyindən canı darıxan İlyas Əfəndiyev deyir:
– Əli, icazə ver, mən gedim şəhər bazarından gilənar alım gətirim.
– Nahara gecikməzsən ki?
– Yox!
– Onda get, amma tez gəl ki, nahara gecikməyək!
27 yaşlı İlyas Əfəndiyev qarnizondan çıxıb şəhərə gedir və bazarın girəcəyindəki kiçik kababxanadan tar səsi eşidir. Içəri girib görür ki, qarabəniz arıq bir tarzən tarı sinəsinə sıxıb, gözlərini yumub, necə deyərlər, ürəyinin mizrabıyla «Segah» çalır və o «Segah» neçə gündən bəri birinci dəfə azadlığa çıxmış İlyas Əfəndiyevi necə tutursa (bəlkə elə həmin təəssüratla da bir müddətdən sonra, məşhur «Qoca tarını çaldı» hekayəsini yazır...), kababxanada əyləşib yüz qram konyak, bir az da yemək sifariş edir.
Tarzən çalır, İlyas Əfəndiyev qulaq asır, bircə Allah bilir ki, o anlarda nə hisslər keçirir, dünyanın hansı işlərini fikirləşir, təzədən yüz qram konyak gəlir və bu münvalla vaxt keçir, qaş qaralır, bazar bağlanır və axşam İlyas Əfəndiyev boş qarnizona qayıdanda görür ki, Əli Vəliyev, sağ tərəfində də Zeynal Xəlillə Kərimov, sükut içində həyətdəki skamyada oturublar və Əli Vəliyev qəzəblə gözlərini zilləyib naməlum bir nöqtəyə.
İlyas Əfəndiyev yavaşca gəlib oturur Əli Vəliyevin sol tərəfində və ömründə dilinə içki dəyməmiş Əli Vəliyev çönüb onu yanında görəndə, belə bir gözlənilməzlikdən:
– Boy!..– deyir, sonra burnunu tutub: – Püf!..– eləyir.– Dədəmin goruna and olsun, bunu Bağırova xəbər verməsəm, məndən pis adam yoxdu! – Hirslə ayağa qalxır. – Kərimov, dur!
Bundan sonra Əli Vəliyev İlyas Əfəndiyevi danışdırmır. Günorta nahar zamanı Əli Vəliyev uzun barmağını İlyas Əfəndiyevə tuşlayıb xörəkpaylayan qıza:
– Yemu salat otdelno!– deyir.
Qorxuya düşən Kərimov tez-tez İlyas Əfəndiyevin qulağına pıçıldayır: «– Başımıza oyun açdın! Sən heç, Bağırov mənim dədəmi yandıracaq! Deyəcək ki, bəs, sən hara baxırdın?! Səni onlarla bir yerdə nəyə göndərmişdim?!»
Iki gün beləcə davam edir, üçüncü gün günorta hərbçilərlə görüş zamanı İlyas Əfəndiyev məruzəsindən sonra, hekayə oxumaq əvəzinə, insani hisslərdən danışmağa başlayır, Əli Vəliyevin komandir Aslan Novruzovun müharibədə həlak olmasını təsvir edən hekayəsi üzərində dayanır.
Müharibədən əvvəl Incəsənət Idarəsində sədr müavini işləmiş, cavan, yaraşıqlı bir oğlan olan Aslan Novruzovu İlyas Əfəndiyev də yaxşı tanıyırmış və onun ölümü barədə həmin görüşdə çox təsirli danışır, deyir ki, Əli müəllimin bu hekayəni yazması onun bir insan kimi, daxili kövrəkliyinin nümunəsi, həyatdan cavan getmiş bir adam qarşısında mənəvi borcunun ifadəsidir...
Görüş qurtaran kimi, bu çıxışdan çox təsirlənmiş Əli Vəliyev üzünü İlyas Əfəndiyevə tutur:
– İlyas, gedək! Naharın vaxtıdı!
Onlar yeməkxanaya gələndə Əli Vəliyev xörəkpaylayan qıza deyir:
– Nam salat vmeste!
Kərimov, nəhayət ki, rahat nəfəs alır.

## MƏMMƏD ƏKBƏR TƏƏSSÜF EDİR

1950-ci illərin ortalarında bir yaz axşamı İlyas Əfəndiyev Cənubi Sovet Meydanındakı evinə tərəf gedirmiş və küçədə yazıçı-jurnalist və gözəl insan Məmməd Əkbərlə rastlaşır.

– Nə var, nə yox, Məmməd Əkbər? Necəsən?

Məmməd Əkbər:

– Eh, necə olacağam, ay İlyas?– deyir.– Heç olmasa, Allahın Əfqanıstanına padşah da olmadıq!

## HAMAM ƏHVALATI

Görkəmli yazıçımız Əbülhəsən sağlam, gumrah, sifəti qırmızı rəngli bir adam idi, özü də keçmiş «Kommunist» (indiki Istiqlaliyyət) küçəsində yaşayırdı.

Bir gün İlyas Əfəndiyev həmin «Kommunist» küçəsi ilə gedəndə Xan Şuşinski ilə rastlaşır. Xan Şuşinski İlyas Əfəndiyevin dayısı, görkəmli teatr xadimi Cəlil bəy Bağdadbəyovla yaxın dost olmuşdular və o, İlyas Əfəndiyevin də xətrini çox istəyirdi. Xoş-beşdən sonra Xan Şuşinski deyir:

– İlyas, sizin o möhtərəm Əbülhəsən var e, çox təmizkar kişidi!

– Elədi, Xan əmi! Bəs, sən nədən bildin?

– Hər dəfə filarmoniyaya gedəndə bu Qəminis küçəsində onnan rastlaşıram, sifətinnən görürəm ki, kişi hamamdan gəlir!..

## POÇT ƏHVALATI

1939-cu ildə Füzuli rayonunda müəllim işləyən 25 yaşlı gənc İlyas Əfəndiyev təzəcə yazıb bitirdiyi, sonralar isə Azərbaycan ədəbiyyatının məşhur faktlarından birinə çevrilən və müəllifinə böyük şöhrət qazandıran «Kənddən məktublar» silsilə hekayələrini fikir öyrənmək üçün Bakıya gətirir, həyatında ilk dəfə Yazıçılar Ittifaqına gedir.

O zaman görkəmli yazıçımız Əbülhəsən Yazıçılar Ittifaqında nəsr üzrə məsləhətçi işləyirdi və Əbülhəsən müəllim otağa daxil olmuş bu cavan oğlana baxıb soruşur:

– Nə istəyirsən?

İlyas Əfəndiyev deyir:

– Mən... «Kənddən məktublar»... yazmışam...

Yazmaq həvəskarlarının əlindən zinhara gəlmiş Əbülhəsən müəllim:

– Əzzim, əzzim,– deyir,– bura Yazıçılar Ittifaqıdır, poçt idarəsi deyil! Məktub yazmısan, apar at poçta!

... Sonralar elə həmin Əbülhəsən müəllimin özünün də yaxından köməkliyi ilə «Kənddən məktublar» kitab halında nəşr olundu və böyük müvəffəqiyyət qazandı.

## İLYAS ƏFƏNDİYEV QRAFOMANDAN YAXASINI NECƏ QURTARDI VƏ NƏBİ XƏZRİNİ NECƏ İŞƏ SALDI

Əllinci illərdə İlyas Əfəndiyev, Osman Sarıvəlli, Zeynal Xəlil və Nəbi Xəzri Yazıçılar Ittifaqında məsləhətçi işləyirdilər.

İlyas Əfəndiyev dramaturgiya üzrə, Nəbi Xəzri isə poeziya üzrə məsləhətçi idi və ikisi də Yazıçılar Ittifaqının məşhur «məsləhətçilər otağında» otururdu.

Bir gün bir «şer bülbülü» içəri girib İlyas Əfəndiyevin başının üstünü alır.

– İlyas müəllim, bir dənə əla drama yazmışam, on pərdəsi var! Indi oxuyacağam sizə!

İlyas Əfəndiyev soruşur:

– Nə yazmısan?

– On pərdəli drama! Içində əla şerlər də var!

– Deyirsən əla şerlərdi də?

– Bəli!

– Onda keç Nəbi Xəzrinin yanına, başla ona oxumağa. Şerə o baxır!

## SÖZ BIR OLAR!

Müharibədən əvvəlki illərdə Füzuli rayonundan Bakıya gəlmiş cavan bir oğlan olan İlyas Əfəndiyev 1945-ci ildə bir müddət «Kommunist» qəzetində oçerk yazan vəzifəsində işləyir. Qəzetin Baş redaktoru isə Əli Vəliyev idi.

Bir gün Əli Vəliyev tapşırır ki, İlyas neftçilərin həyatından təcili bir oçerk yazsın. İlyas Əfəndiyev oçerki yazır, amma həmin vaxt Əli Vəliyev xəstələndiyi üçün, işə çıxmır və redaksiyaya zəng çalıb xahiş edir ki, İlyas onların evinə gəlib oçerki ona oxusun.

İlyas Əfəndiyev Əli Vəliyevin xətrini çox istəyirdi və kişinin xahişinə əməl edib onlara gedir, görür ki, Əli Vəliyev yorğan-döşəkdə uzanıb, istəkli həyat yoldaşı Qumru xanım da oturub onun yanında.

İlyas Əfəndiyev oçerki oxumağa başlayır və qurtaranda sükut çökür, sonra Qumru xanım ərinə:

– Alı, – deyir, – maşallah, nə qəşəng yazıb e!..

Sonra yenə sükut çökür və bu dəfə sükutu Əli Vəliyev özü pozub İlyas Əfəndiyevdən soruşur:

– Bə nə gözləyirsən?

İlyas Əfəndiyev:

– Gözləyirəm ki, fikrini deyəsən də!– deyir.

Əli Vəliyev:

– Boy!..– deyə sidq-ürəkdən təəccüb edir və yekə əlini Qumru xanıma tərəf uzadır.– Dedi də!..– Sonra əlavə edir: – Tez apar redaksiyaya, göndərsinlər nabora!

## MOTOR QAYIŞININ ƏHVALATI

Altmışıncı illərin lap əvvəllərində İlyas Əfəndiyev yazıçı Qılman İlkini də qonaq götürür və özünün «Volqa» maşınında Masallıya, orada həkim işləyən bacısı Nəzihə xanımgilə gedirlər.

Maşını İlyas Əfəndiyevin o zaman onuncu sinifdə oxuyan oğlu Timuçin sürürdü.

Birdən yolda maşının motorunun qayışı qırılır və Timuçin yol kənarında dayanıb qırılmış qayışı ötüb keçən maşınlara göstərir ki, kimsə dayanıb yardım eləsin.

Bir müddət keçir, maşın dayanmır, hamısı ötüb keçir və gözləməkdən təngə gəlmiş İlyas Əfəndiyev maşından düşüb Timuçinə deyir:

– Sən çəkil, özüm saxladacağam.

İlyas Əfəndiyev əlini qaldırdığı elə birinci maşın onların yanında dayanır və sürücü pəncərədən boynunu uzadıb hörmətlə:

– İlyas müəllim, nə lazımdı?– soruşur və ehtiyat kəməri olmadığı üçün, təəssüflə üzrxahlıq edib gedir.

Ikinci maşının sürücüsü də İlyas müəllimi tanıyıb maşını onların yanında saxlayır və pul almadan ehtiyat kəməri onlara verib gedir.

Kefi kökələn İlyas Əfəndiyev Timuçinə deyir:

– Gördün maşını necə saxlayarlar?!

– Mən də İlyas Əfəndiyev olsaydım, saxlayardılar!– deyə Timuçin cavab verir.

## İLYAS ƏFƏNDİYEVİN ANASI BİLQEYİS XANIM FİRUDIN ŞUŞINSKİYƏ TƏSİR EDƏ BİLMƏDİ

Görkəmli sənətşünas, çox koloritli bir adam olan Firudin Şuşinski İlyas Əfəndiyev yaradıcılığının pərəstişkarı idi. Hələ qırxıncı illərin sonu, əllinci illərin əvvəllərindən etibarən o İlyas Əfəndiyevin «Mirzə Fətəli» küçəsindəki mənzilinə gedib-gələrdi, Qarabağın tarixi ilə bağlı yeni nə fakt tapsaydı, o saat gəlib İlyas Əfəndiyevgildə danışardı, gözəl Şuşa mühiti ilə, oranın Qəssab Abış, yaxud Hambal Əsgər xan kimi məşhur qəhrəman-personajları ilə bağlı yeni nə məzəli əhvalat eşitsəydi (ya da bu əhvalatları özü quraşdırsaydı!), ilkin olaraq gəlib İlyas müəllimgildə söyləyərdi.

İlyas Əfəndiyevin Şuşa ilə çox bağlı olan anası Bilqeyis xanım da Firudin Şuşinskinin xətrini istəyirdi, hərdən şüyüdplov, yaxud zoğallı çəkmə bişirəndə xüsusi sifariş göndərtdirib Firudini də yeməyə dəvət edirdi, oturub onunla ləzzətlə söhbətləşirdi, amma hərdən də Firudinin şuşalılara xas olan bir şuxluq və məzə ilə kimlərəsə söz qoşması, kimlərisə bəzəməsindən, bu cürə zarafatlarından narazı qalırdı, Firudini məzəmmət edirdi.

Bir gün Bilqeyis xanım belə məqamlardan birində Firudinə dedi:

– Ay Firudin, adam gərək elə eləsin ki, bu dünyadan köçəndən sonra da onu xoşluqla xatırlasınlar, inciklikIə yox.

Firudin Şuşinski isə:

– Bilqeyis xanım, – dedi. – Mən öləndən sonra, götürüb lap Xəznə qayasından (Şuşanın Cıdır düzü ilə üzbəüz) üzüaşağı tullasınlar, bunun mənə nə dəxli?

## KOLXOZ ATININ NİGARANÇILIĞI

1965-ci ilin iyun ayında İlyas Əfəndiyev Gəncənin o zamankı I katibi Tofiq Bağırovun dəvətilə Gəncəbasara istirahət səfərinə çıxmışdı və həmin vaxt Musiqili Komediya Teatrı da Gəncədə qastrolda idi.

Hər gün səhər yeməyinə oturarkən İlyas Əfəndiyev Lütfəli Abdullayevi də qonaq evinə dəvət edirdi və Lütfəli də hər dəfə gülməli əhvalatlar danışıb əhli-masanın ürəyini açırdı.

Onun danışdığı əhvalatlardan biri İlyas Əfəndiyevin çox xoşuna gəlmişdi və sonrakı illərdə tez-tez o əhvalatı xatırlayıb gülürdü. Elçin də həmin əhvalatı «Poçt şöbəsində xəyal» pyesinə salmışdı.

Lütfəli Abdullayev danışırdı:

« – Mir Cəfərin vaxtıydı, bir gün məni Mərkəzi Komitəyə çağırdılar. Gəlib gördüm ki, xeyli adam toplanıb, yazıçı qalmayıb, bəstəkar, rəssam qalmayıb, hamı burdadı. Məlum oldu ki, «Pravda» qəzetinə respublikada abunə yazılışı pis gedir və Mir Cəfər Bağırovun şəxsi tapşırığı ilə bizi ikinəfərlik, üçnəfərlik briqadalara bölüb göndərirlər rayonlara ki, təbliğat aparaq, camaat «Pravda»ya yazılsın. Mən də, respublikanın bir məsul partiya işçisinin rəhbərliyi ilə düşdük Gədəbəy rayonuna. Rayonu kənd-kənd gəzib təbliğat aparırdıq ki, zəhmətkeşlər «Pravda» qəzetinə abunə yazılsın. Bu məsul partiya işçisi gecə bilmirdi, gündüz bilmirdi, danışmaqdan səsi batmışdı, nə özü bir saat oturub yemək yeyirdi, nə də mənə aman verirdi, elə hey deyirdi ki, yoldaş Bağırov bizə məsuliyyətli vəzifə etibar edib, gərək yerinə yetirib bu böyük etimadı doğruldaq. Gədəbəyin ucqar dağ kəndlərinə maşın yolu yox idi, bu məsul partiya işçisi sifariş elədi, kolxozdan bizimçün at göndərdilər, hərəmiz birinə minib yol yoldaşlarımızla üz tutduq o ucqar kəndlərə ki, «Pravda»nı təbliğ edək. Daşlı-çınqıllı dağ cığırıyla qalxırdıq, birdən necə oldusa, o məsul partiya işçisinin mindiyi atın ayağı altından çınqıl qaçdı, at büdrədi, sonra böyrü üstə aşıb belindəki kişiylə bərabər, bir xeyli kəllə-mayallaq gedib düşdü balaca bir yarğanın dibinə. Kişi qanın içində özündən getmişdi, bir təhər onu qucağımıza götürüb yuxarı qaldırdıq, güc-bəla özümüzü yaxın bir kəndə çatdırdıq, hay saldıq, hərbi texnika gəldi, məsul partiya işçisini apardıq rayon xəstəxanasına, Bakıdan həkimlər gəldi, iki gün-iki gecə onun başının üstündə dayandım, yazıq özünə gəlmirdi, elə hey zarıyırdı, mən də qorxudan sarımı udmuşdum ki, bu bədbəxt öləcək, cavabdehi mən olacam. Axır ki, üçüncü gün səhər saat beşdə, bu məsul partiya işçisi gözünü açdı, əvvəlcə bir-bir həkimlərə baxdı, sonra gözlərini mənə zillədi, birtəhər ağzını açıb:

– Lütfəli... – dedi.

– Can! – dedim.

– Lütfəli, – dedi.– O kolxoz atının vəziyyəti necədi?».

## ELƏ BİL ÖZ MALINDI!

1954-cü ildə Moskvada SSRI Yazıçılarının II qurultayı keçirilirdi. Müxbirlər qurultay iştirakçılarından müsahibələr alırdı, mətbuat uzun müddətdən sonra keçirilən bu qurultayı geniş işıqlandırırdı və bütün Moskva bu qurultayın ab-havasında idi.

Səmimi və özünəməxsus bir insan olan Əbülhəsəndən xahiş edirlər ki, radio ilə çıxış etsin və o da gecəni hazırlaşıb səhər çıxış edir.

O biri gün səhər Süleyman Rüstəm tənbəllik etmir, radionun mühasibatına gedir və deputat nişanı olan sinəsini kassanın pəncərəsinə söykəyib:

– Mən qurultay nümayəndəsi yazıçı Əbülhəsənəm!– deyir.– Sənədim yadımdan çıxıb mehmanxanada qalıb. Xahiş edirəm dünənki çıxışıma görə qonorarımı verəsiniz.

Kassir qadın deputat nişanına baxa-baxa ürək eləmir ki, qurultay nümayəndəsini incik salsın və kitab-dəftərə baxıb Əbülhəsənin qonorarını Süleyman Rüstəmə verir.

Axşam qurultayın növbəti iclası qurtarandan sonra, Süleyman Rüstəm İlyas Əfəndiyevi, Mehdi Hüseyni və pul xərcləməyə bir o qədər də həvəskar olmayan Əbülhəsəni yaşadıqları «Moskva» mehmanxanasının üçüncü mərtəbəsindəki restorana qonaq dəvət edir.

Əbülhəsən mizin üstünə düzülmüş gözəl təamlara baxa-baxa:

– Əzzim, əzzim!..– deyir.– Bu Süleyman Rüstəm çox əliaçıq adamdı! Gözəl məclis düzəldib!

Süleyman Rüstəm:

– Əbülhəsən,– deyir.– Öz malın kimi ye, iç!

Cani-dildən yeyib-içməyə başlayan Əbülhəsən yalnız gecənin yarısınacan çəkən o gözəl məclis qurtarandan sonra başa düşür ki, əslində məclisi... o özü verib.

## İLYAS ƏFƏNDİYEV PAPİROS ÇƏKİR

Qırxıncı illərdə bir gün gənc İlyas Əfəndiyev Yazıçılar Ittifaqında Məmməd Səid Ordubadi ilə rastlaşır. O zaman İlyas Əfəndiyev bərk papiros çəkirdi və yenə də əlində papiros var imiş. M.S.Ordubadi soruşur:

– İlyas, nə çəkirsən elə?

– «Belomor kanal», mirzə.

– O neçəyədi elə?

İlyas Əfəndiyev bir qutu «Belomor kanal»ın qiymətini deyir.

M.S.Ordubadi:

– Ba-a!.. – deyə təəccüblənir.– Bəs Maqsud üç dəfə bundan çox pul verib papiros alır!

– Yəqin o bahalı papiros çəkir də.

– Niyə bə o eləsin çəkir, sən beləsin?

İlyas Əfəndiyev:

– Çünki,– deyir.– O Məmməd Səid Ordubadinin oğludur, mən isə səsi alınmış, evindən çıxarılıb didərgin salınmış, çərləyib ölmüş bir kişinin oğluyam!

Stalinizmin tüğyan elədiyi o dövrdə M.C.Bağırovun yaxın dostu olan M.S.Ordubadiyə belə bir söz demək zarafat deyildi...

## MİR CƏLAL MÜƏLLİMİN SUALI

Əllinci illərin əvvəllərində bir axşam İlyas Əfəndiyevlə Mir Cəlal dənizkənarı bulvarda rastlaşırlar. Hal-əhval tuta-tuta bir az gəzişirlər.

O zaman «Mirzə Fətəli» küçəsindəki 110 saylı həyət evində, ikiotaqlı mənzildə yaşayan İlyas Əfəndiyev ev şəraitindən gileylənir. Xeyirxah bir adam olan və səhərdən axşama kimi elmi işlə, tədrislə, yaradıcılıqla başı qarışmış Mir Cəlal müəllimin dünyanın əbləh işlərindən bir o qədər də xəbəri yox idi.

Diqqətlə İlyas Əfəndiyevə qulaq asan Mir Cəlal müəllim birdən dayanıb dəniz sahilində tikilib qurtarmaqda olan böyük bir binanı göstərir:

– Ay İlyas, bax, bu bina sənin xoşuna gəlmir?

İlyas Əfəndiyev həmin binaya baxıb:

– Niyə xoşuma gəlmir, Mir Cəlal?– deyir.– Lap yaxşı xoşuma gəlir!

Mir Cəlal müəllim sidq-ürəkdən təəccüb edərək soruşur:

– Qardaş, bəs, niyə demirsən ordan sənə bir yaxşı mənzil versinlər?!

... Sonralar İlyas Əfəndiyev bu söhbəti xoş bir xatirə kimi tez-tez yadına salardı...

## ƏLİAĞA KÜRÇAYLININ BAZARLIĞI VƏ İLYAS ƏFƏNDİYEVİN ONU SORĞU-SUALA TUTMASI

## I

Yazıçıların «Hüsü Hacıyev» küçəsindəki beşmərtəbəli məşhur binaları 60–70-ci illərdə əslində Bakının duzlu-məzəli bir ziyalı ocağı idi.

Bir gözəl günlü-işıqlı bazar günü səhər Əliağa Kürçaylı bazarlıq eləyib evə qayıdırmış və həyətə girəndə üçüncü mərtəbədəki eyvanında dayanmış İlyas Əfəndiyev onu çağırır:

– Əliağa, həmişə bazarlıqda!

– Çox sağ olun, İlyas müəllim!

– Əliağa, yaxşıca bir toğlu əti almısanmı?

– Bəli, İlyas müəllim!

– Nəlikdi?

– Bozbaşlıq.

– Bəs, bozbaş üçün yaxşı soğan necə?

– Onu da almışam.

Dördüncü mərtəbədəki eyvanında dayanıb bu söhbətə qulaq asan Mir Mehdi Seyidzadə yuxarıdan qışqırır:

– Ey zalım, mən dünən soğan almışam, bal kimi çıxıb!

İlyas Əfəndiyev eləcə Əliağa Kürçaylıya müraciətlə:

– Əliağa,– deyir, – çayı balla içərlər, bozbaşı soğanla bişirərlər!

## II

Bir gün yenə səhər tezdən Əliağa Kürçaylı bazarlıq eləyib evə qayıdırmış və yenə də üçüncü mərtəbədəki eyvanında dayanmış İlyas Əfəndiyev onu səsləyir:

– Əliağa, həmişə bazarlıqda!

– Çox sağ olun, İlyas müəllim!

– Yaxşı nə almısan?

– Hinduşka almışam, İlyas müəllim.

– Çolpadı?

– Bəli.

– Neçə kilo olar?

– Iki-üç kilo.

Dördüncü mərtəbədəki eyvanında dayanıb bu söhbətə qulaq asan Mir Mehdi Seyidzadə deyir:

– Ey zalım, mən srağagün hinduşka almışdım, on kilo!

İlyas Əfəndiyev yenə də eləcə, Əliağa Kürçaylıya müraciətlə:

– Əliağa,– deyir, – on kilo dana olar. Yeməli hinduşka elə iki-üç kilo olar.

## HAYIF SƏNƏ, OSETRİNA!

Bir gün axşam Mehdi Hüseynlə İlyas Əfəndiyev, həmişəki kimi, zəngləşib, dəniz kənarında gəzməyə çıxırlar.

Gəzişə-gəzişə söhbət zamanı Mehdi Hüseyn yazıçılıq iddiası ilə yerə-göyə sığmayan bir nəfər haqqında deyir:

– Dünən axşam qapının zəngi basılır, açıb görürəm ki, filankəsdir. Bir əlində qalın bir qovluq, o biri əlində də yekə bir osetrina. Qovluğu uzadır ki, təzə əsərimdi, xahiş edirəm, oxuyub fikrinizi deyəsiz. Dedim, mənim indi əsər oxumağa vaxtım yoxdu! Suyu süzülə-süzülə çıxıb getdi.

İlyas Əfəndiyev soruşur:

– Bəs osetrina nə oldu?

Mehdi:

– Onu da verdim qoltuğuna!– deyir.

İlyas Əfəndiyev:

– Nahaq!– deyir.– Gərək deyəydin, osetrinanı bizə gətirəydi!

## TOLSTOY KƏŞFİ

İlyas Əfəndiyev ilə Zeynal Xəlil Hüsü Hacıyev küçəsindəki Yazıçılar evinin üçüncü mərtəbəsində üzbəüz qonşu olurdular. 50-ci illərin ortalarında ikisi də Yazıçılar Ittifaqında məsləhətçi işləyirdi.

Bir gün təsadüf elə gətirib ki, ikisi də eyni vaxtda evdən çıxıb, piyada işə yollanırlar.

İlyas Əfəndiyev fikirli imiş və onun söhbətə həvəsi olmadığını görən Zeynal Xəlil də yol boyu susur.

Eləcə sükut içində bir xeyli gedib Yazıçılar Ittifaqı ilə üzbəüz, keçmiş 26-lar bağına çatanda, görünür, daha bu sükuta dözməyən Zeynal Xəlil, yəqin, başqa bir söz tapmadığı üçün:

– Balam, bu Tolstoy çox böyük yazıçıdır!– deyir.

## BƏS, SÜLEYMAN RÜSTƏM NİYƏ BOYNUNA ALMIR?

Bir gün söhbət əsnasında İlyas Əfəndiyev Əbülhəsənə deyir:

– Əbülhəsən, sən xəsissən də! Niyə boynuna almırsan?

Həmin gün gecə saat 2-də İlyas Əfəndiyevin evində telefon zəng çalır. İlyas Əfəndiyev bu gecə zənginin nigarançılığı içində tələsik telefonun dəstəyini götürür.

– Əzzim, əzzim, mənəm, Əbülhəsəndi. Yaxşı, mən boynuma alıram ki, xəsisəm! Bəs, Süleyman Rüstəm niyə boynuna almır ki, xəsisdi?!

## İLYAS ƏFƏNDİYEVİN EHTİYATSIZLIĞI

1960-cı illərdə İlyas Əfəndiyevin yeznəsi Üzeyir Məmmədov Masallı rayonunun Baş həkimi işləyirdi və İlyas Əfəndiyev tez-tez dostlarını onlara qonaq aparırdı.

Bir yaz günü də İlyas Əfəndiyev Süleyman Rüstəmlə Masallıya gedir və bacısıgildə gözəl bir süfrə arxasında oturub yeyib-içirlər.

Televizorda muğamat konserti göstərilir və İlyas Əfəndiyev müğəninin oxuduğu hansısa bir qəzələ qulaq asa-asa deyir:

– Ə, belə də bekara sözlər olar?

Süleyman Rüstəm qızara-qızara:

– Əşşi, cavan vaxtlarımda yazmışam...– deyir.

## ADIL İSGƏNDƏROV YENƏ İNFARKT OLUB

İlyas Əfəndiyevlə Adil Isgəndərov sözləşirlər ki, sabah səhər teatrda görüşsünlər.

İlyas Əfəndiyev sözləşdikləri vaxtda teatra gedir və görür ki, dəqiq adam olan Adil Isgəndərov hələ gəlməyib.

Bir müddət keçir və nəhayət Adil Isgəndərov gəlib çıxır.

İlyas Əfəndiyev:

– Ədil, səndən çıxmayan iş, hardaydın?– soruşur.

Adil Isgəndərov üzrhahlıq edir:

– Qadam, sən Allah, bağışla, bir az gecikdim. Səhər yuxudan duranda yenə infarkt olmuşdum!..

## CABBAR MƏCNUNBƏYOV VƏ ƏLİ VƏLİYEV DASTANI

1940-cı il idi, gənc yazıçı İlyas Əfəndiyev Füzulidən Bakıya təzə gəlmişdi və yenicə nəşr olunmuş ilk hekayələr kitabı «Kənddən məktublar»dan sonra dərhal məşhurlaşmışdı.

Bir payız axşamı İlyas Əfəndiyev hansı yazısına görə isə, qonarar alır və Abdulla Faruqla Əlirza Abdullayevi köhnə «Inturist»in restoranına dəvət edir.

Restoranda yeyib-içirlər, məclis qızışır və necə olursa yanaşı mizin arxasında əyləşmiş adamlarla sözləşib dalaşırlar.

Onların bu hərəkəti Yazıçılar Ittifaqının Rəyasət Heyətində müzakirə edilir və Rəyasət Heyətinin üzvləri belə qərara gəlirlər ki, bu cavan yazıçılara töhmət versinlər. Bu vaxt Əli Vəliyev təklif edir ki, Cabbar Məcnunbəyovu isə Yazıçılar Ittifaqından çıxarsınlar. Hamı təəccüb edir:

– Əli, axı, Cabbar Məcnunbəyov Soçidə istirahət edir, bunlarla olmayıb, onu niyə Ittifaqdan çıxaraq?

Əli Vəliyev deyir:

– Bəli, Cabbar Məcnunbəyov Soçidədir. Bəli, bunlarla olmayıb. Amma Cabbar Məcnunbəyov Bakıda olsaydı, şübhəsiz ki, bunlarla bir yerdə restorana gedəcəkdi, bunlardan da çox içəcəkdi və özünü də bunlardan pis aparacaqdı!

Axırda restoranda şuluqluq edənlərə töhmət verirlər, Cabbar Məcnunbəyovu isə Əli Vəliyevin təkidi ilə Yazıçılar Ittifaqının üzvlüyündən azad edirlər.

## KİM KİMƏ BORCLUDUR?

Gözəl yaz günlərindən birində İlyas Əfəndiyev oğlu Timuçinin sürdüyü maşına minib Qubaya gedir və orada rastına çıxan Yusif Həsənbəyi də özü ilə götürür, gedirlər Qəşrəşdə kabab yeməyə.

Təbiətin bu məhrəm guşəsində bir xeyli oturub yeyib-içirlər və axırda İlyas Əfəndiyev məşhur kababxana müdiri Babanı çağırıb soruşur:

– Baba, nə qədər borcumuz var?

Baba deyir:

– İlyas müəllim, sizin mənə borcunuz yoxdu. Əksinə, mən sizə borcluyam.

İlyas Əfəndiyev Babanı başa düşmür:

– Necə yəni sən mənə borclusan?

Məlum olur ki, Babanın digər müştəriləri İlyas Əfəndiyevi görüb tanıyırlar və bir-bir Babanı çağırıb İlyas Əfəndiyevin hesabını ödəyirlər. Baba nə qədər and-aman edir ki, hesab verilib, mümkün olmur.

Baba:

– İlyas müəllim,– deyir,– nə qədər eləmişəm, olmayıb, düz dörd dəfə sizin hesabınızı veriblər. Biri heç, qalan üçünü mən sizə borcluyam.

İlyas Əfəndiyev:

– Onda, halal xoşun olsun!– deyir. – Borclu borclunun sağlığını istər!– Və Qəşrəşdəki o gözəl günü beləcə başa vururlar.

## MİR MEHDİ SEYİDZADƏNİN TƏRCÜMƏÇİLİYİ

Mir Mehdi Seyidzadə bir ara rus və fars dillərindən, Xəyyam və Sədidən, Puşkin və Nekrasovdan tərcümələr edirdi. Bir gün İlyas Əfəndiyev ona deyir:

– Ağa, yaman tərcüməyə girişmisən ha!..

Mir Mehdi Seyidzadə:

– Ey zalım!– deyir.– Bəs neyləyim?

*Otururam hər cümə,*
*Eyləyirəm tərcümə,*
*Bəlkə köməklik edə*
*Xırda-xuruş xərcimə!..*

## «POSPELOV POSPEL...»

Bir gün Mir Mehdi Seyidzadə İlyas Əfəndiyevə deyir:

– Ey zalım! Sabah günorta saat 12-də radio ilə mənim təzə qəzəllərimi oxuyacaqlar, qulaq as, gör nə qiyamət eləmişəm!

Sabahkı gün saat 12 olur, amma radio ilə Mir Mehdi Seyidzadənin qəzəlləri əvəzinə, diktor o zaman Sovet Ittifaqı Kommunist Partiyasının katiblərindən biri olan Pospelovun hansı iclasdasa söylədiyi uzun bir məruzəni oxuyur.

Həmişəki kimi axşam İlyas Əfəndiyev üçüncü mərtəbədə sağ tərəfdəki həyət balkonuna çıxır, Mir Mehdi Seyidzadə də dördüncü mərtəbədə sol tərəfdəki həyət balkonuna və İlyas Əfəndiyev onu səsləyir:

– Ağa, qəzəlləri vermədilər...

Mir Mehdi Seyidzadə:

– Ey zalım!– deyir.– Neyləyim?

*Pospelov pospel,*
*Mir Mexdi ne uspel!..*

## MİR MEHDİ SEYIDZADƏ RESTORANA LİFTLƏ GEDİR

Bir gün İlyas Əfəndiyev, Mehdi Hüseyn, Adil Isgəndərov və Mir Mehdi Seyidzadə «Köhnə Avropa» mehmanxanasında ikinci mərtəbədəki restorana gedirlər.

Mir Mehdi Seyidzadə birinci mərtəbədə dayanıb lifti gözləyir.

İlyas Əfəndiyev deyir:
– Ağa, gəl pilləkənlə qalx də, restoran ikinci mərtəbədədir. Lifti niyə gözləyirsən?
Mir Mehdi Seyidzadə:
– Ey zalım!– deyir.– Niyə özüm qalxım?

*Minirəm liftə,*
*Qalxıram müftə!..*

## MİR MEHDİ SEYİDZADƏ VƏ İSLAM SƏFƏRLİ

Mir Mehdi Seyidzadə ilə Islam Səfərli yaxın dost idilər və aralarında məhrəmanə zarafatları var idi.
Bir axşam Mir Mehdi Seyidzadə eyni blokda yaşadıqları İlyas Əfəndiyevgilə gəlir.
İlyas Əfəndiyev zarafatla soruşur:
– Ağa, nə əcəb təksən, bəs Islam Səfərli hanı?
Mir Mehdi Seyidzadə:
– Ey zalım!– deyir.– Görürsən də!

*Islam Səfərli*
*Çıxmadı fərli!*

## AĞASADIQ GƏRAYBƏYLI ATASINI ARZULAYIR

İlyas Əfəndiyevin Akademik Milli Dram Teatrında tamaşaya qoyulmuş «Xurşid Banu Natəvan» əsərində yaşı 90-nı keçmiş böyük aktyor Ağasadıq Gəraybəyli Qoca knyaz rolunu ifa edirdi.
Əvvəlki tamaşalar kimi, növbəti tamaşa da çox müvəffəqiyyətlə keçir və tamaşaçılar qocaman sənətkarın ifasını da uzun müddət alqışlayırlar.
Tamaşadan sonra İlyas Əfəndiyev teatrın bədii rəhbəri və direktoru Həsənağa Turabovla birlikdə Ağasadıq Gəraybəylinin qrim otağına gedib onu təbrik etmək istəyir, amma qocaman aktyoru bir az mütəəssir görür və:
– Nə olub, Ağasadıq?– soruşur.– Gözümə birtəhər dəyirsən.
Ağasadıq Gəraybəyli əməlli-başlı kövrəlir və:
– İlyas, kaş atam sağ olaydı,– deyir.– Mənim bu müvəffəqiyyətimi görəydi!

## QABİLİN SAĞLIĞI

1974-cü ildə İlyas Əfəndiyevin anadan olmasının 60 illiyi münasibətilə köhnə «Inturist»in restoranındakı ziyafətdə kefi bir az kök olan Qabil sağlıq söyləmək üçün ayağa qalxır, qolunu yuxarı qaldırıb diqqətlə saatına baxır və deyir:
– Əziz dostlar! Bu saat, bu dəqiqə bütün Azərbaycanda İlyas Əfəndiyevdən böyük dramaturq yoxdur!
Belə bir sağlıqdan pərt olan Mirzə Ibrahimov deyir:
– Qabil, istedadları saata baxıb təyin etməzlər!

Məclis davam edir. Qırx dəqiqədən sonra, Qabil ayağa qalxır, yenə biləyini gözünün qabağına gətirib diqqətlə saatına baxır və deyir:

– Əziz dostlar! Aradan düz qırx dəqiqə keçib. Mən yenə təkrar edirəm: bu saat, bu dəqiqə bütün Azərbaycanda İlyas Əfəndiyevdən böyük dramaturq yoxdur!

Mirzə müəllim lap əsəbiləşir və ziyafətdə iştirak edən Azərbaycan Nazirlər Soveti sədrinin müavini Kamran Hüseynov onu məzəmmət edir:

– Ay Mirzə, Qabildi, görürsən ki, bir az da vurub... Bu saat İlyasa möhürlü vəsiqə vermədi ki!..

Qabil deyir:

– Kamran müəllim, möhürlü vəsiqəni İlyas Əfəndiyevə Qabil yox, Allah özü artıq verib!..

## EVLƏNƏNDƏ, GƏRƏK QIZ YAŞAYAN MƏNZİLİN MƏRTƏBƏSİNƏ BAXASAN

Bürkülü bir sentyabr axşamı Süleyman Rüstəm, Süleyman Rəhimov, Rəsul Rza və İlyas Əfəndiyev gənc yazıçı Əfqan Əsgərovun elçiliyinə gedirlər.

Elçiliyə getdikləri mənzil beşmərtəbəli bir binanın beşinci mərtəbəsində imiş və lift olmadığı üçün həmin bürküdə tər-qan içində piyada pilləkənləri qalxan Süleyman Rəhimov orta mərtəbələrdən birində ayaq saxlayıb deyir:

– A kişi, adam da beşinci mərtəbədən qız alar?

## TƏLƏT ƏYYUBOVUN HİKKƏSİ VƏ ƏLİ VƏLİYEVİN QƏZƏBİ

Azərbaycan yazıçılarının arasında ən hündür boylulardan biri Əli Vəliyev, ən gödək boylulardan biri isə Tələt Əyyubov idi.

Bir gün Əli Vəliyev, Mehdi Hüseyn, İlyas Əfəndiyev, Imran Qasımov, Zeynal Xəlil və Əhməd Cəmil Yazıçılar Ittifaqında, sədrin otağında oturub söhbət edirlər.

Moskva səfərindən təzə qayıtmış Mehdi Hüseyn səfərlə bağlı nəsə deyir və İlyas Əfəndiyev bərkdən gülür. Elə bu dəm Tələt Əyyubov içəri girir və Mehdinin nəsə dediyini, İlyas Əfəndiyevin də bərkdən güldüyünü görüb pərt olur.

– Niyə mənə gülürsüz?– soruşur.

Mehdi Hüseyn deyir:

– Tələt, sənə gülmürük. Başqa söhbət var idi.

Tələt:

– Xeyr, siz mənə gülürdüz!– deyir.

İlyas Əfəndiyev:

– A kişi, deyirik ki, sənə gülmürdük də!..

Tələt sakit olmur:

– Xeyr, siz mənə gülürdüz!

Bu vaxt  Əli Vəliyev birdən ayağa qalxıb düz Tələt Əyyubovun qabağına yeriyir və yuxarıdan aşağı Tələtə baxaraq:

– Nədi, sənə gülmək olmaz? – soruşur.– Lap yaxşı edirdik sənə gülürdük!

Tələt Əyyubov aşağıdan yuxarı Əli Vəliyevə baxır və daha bir söz demədən otaqdan çıxır.

## ƏLİ VƏLİYEV VƏ DƏLLƏK ƏHVALATI

Əli Vəliyev hündür boylu, cüssəli, uzunsifət bir adam idi. Şəxsiyyəti də olduqca səmimi idi, düzlüyü və dəqiqliyi çox sevirdi, özü də həyatı boyu buna riayət edirdi.

İlyas Əfəndiyev də, Əli Vəliyev də bir müddət indiki Istiqlaliyyət küçəsində, Əlyazmaları Institutu ilə üzbəüz eyni dəlləkxanaya, eyni dəlləyə gedirdilər.

Bir gün İlyas Əfəndiyevin saçını qırxan dəllək şikayət edir:

– Əli müəllimdən narazıyam...

– Niyə?

– Üzünü qırxıram, mənə 25 qəpik verir...

İlyas Əfəndiyev divardan asılmış preyskurantı göstərir:

– Bilirsən, Əli Vəliyev çox düz adamdı. Orda yazıblar ki, üz qırxmaq 25 qəpikdir, o da sənə 25 qəpik verir.

Dəllək:

– Orası elədi e, İlyas müəllim...– deyir.– Ancaq Əli müəllimin sifəti, maşallah, üç kişi sifəti boydadı...

## MƏRAHİM FƏRZƏLİBƏYOV ÖZÜNƏ ŞƏR ATIR

İlyas Əfəndiyev təbiətən bir az vasvası adam idi.

Bir gün Akademik Milli Dram Teatrında «Hökmdar və qızı» tamaşasının məşqləri gedir və İlyas Əfəndiyev də həmişəki kimi, «öz»» lojasında (birinci mərtəbənin birinci sağ lojası) oturub məşqi izləyir. Quruluşçu rejissor Mərahim Fərzəlibəyov isə parterdə orturub məşqə rəhbərlik edir.

Tamaşanın Sisiyanov ilə Lisaneviç səhnəsində nə isə İlyas Əfəndiyevin xoşuna gəlmir və o, iradını demək üçün rejissoru çağırır:

– Mərahim!

– Bəli, İlyas müəllim.

– Gəl bura!

Mərahim Fərzəlibəyovun İlyas Əfəndiyevə böyük hörməti var idi, eyni zamanda İlyas Əfəndiyevdən çəkinirdi. Bu dəfə də hiss edir ki, İlyas Əfəndiyev, deyəsən, əsəbiləşib, ona görə də lojanın qapısını açır, amma içəri girmir.

– Eşidirəm, İlyas müəllim.

İlyas Əfəndiyev hirsli-hirsli:

– Içəri gir!– deyir.

İlyas Əfəndiyevin vasvasılığını bilən Mərahim:

– Yox, içəri girmək olmaz, İlyas müəllim,– deyir.

İlyas Əfəndiyev təəccüblə:

– Niyə?– soruşur.

Mərahim deyir:

– İlyas müəllim, qotur tutmuşam, bütün günü qaşınıram. Gecə də vannada yatmışam ki, evdəkilərə keçməsin...

İlyas Əfəndiyev tələsik:

– Onda, get, get yerinə, – deyir. – Get!.. Sonra danışarıq...

## REDAKTƏ YOX, KORREKTƏ!

İlyas Əfəndiyev ərəb əlifbası ilə yalnız ibtidai siniflərdə təhsil almışdı, amma sonradan əlifbamız iki dəfə (kirildən latına keçməyimizi də saysaq, üç dəfə!) dəyişsə də, İlyas Əfəndiyev ömrünün sonuna kimi bütün əsərlərini ərəb qrafikası ilə yazdı və onun xəttini Yazıçılar Ittifaqının makinaçısı, yazıçıların çox hörmət bəslədiyi, rəhmətlik Sona xanım Sadıqovadan başqa heç bir makinaçı oxuya bilmirdi. Əlli ildən artıq idi ki, İlyas Əfəndiyevin əlyazmalarını (bütün romanlarını, pyeslərini, hekayələrini!) Sona xanım makinada çap edirdi.

1980-ci illərin sonu, 90-cı illərin əvvəllərində Sona xanım artıq yaşlaşmışdı, tez-tez xəstələnirdi, İlyas Əfəndiyev də məcbur olurdu ki, kiçik yazıları kiril əlifbası ilə yazsın və həmin yazıları makinadan çıxarmaq üçün «Vətən» Cəmiyyətinin çox savadlı və səliqəli makinaçısı Sara xanıma verirdi.

Bir dəfə Sara xanım görür ki, İlyas Əfəndiyevin verdiyi mətndə bir söz «qofta» kimi oxunur və müəllifin yazı-pozu işlərində çox ciddi olduğunu bildiyi üçün İlyas Əfəndiyevə telefon açır:

– İlyas müəllim, mətndə bir söz «qofta» kimi oxunur, amma mən elə bilirəm ki, «kofta»dır. Icazə verirsiz redaktə edim?

İlyas Əfəndiyev:

– Sara,– deyir.– Redaktə yox, korrektə edə bilərsən!

## ƏLİ VƏLİYEVİN ÜRƏYİ GENİŞDİR

Yazıçılar Ittifaqının Rəyasət Heyəti bir dəstə gənc yazıçının Ittifaqa qəbul olunması məsələsinə baxır. Əli Vəliyev birinci ayağa qalxıb söz alır və özünə xas olan bir qətiliklə təkid edir ki, bu gənclərin hamısı Yazıçılar Ittifaqına qəbul olunsun.

Əli Vəliyev yerinə əyləşəndə onunla yanaşı oturmuş İlyas Əfəndiyev yavaşca soruşur:

– Əli, bunların hamısını tanıyırsan, əsərlərini oxumusan?

Əli Vəliyev də yavaşdan:

– Yox,– deyir.– Bunların birini mənə tapşırıblar, amma adı, famili yadımdan çıxıb. Ona görə də, cavandılar, qoy, elə hamısını götürsünlər Ittifaqa. Sən də hamısına səs ver!

## QARYAGINDƏ (FÜZULİDƏ) YÜZLƏRLƏ BOLŞEVİK OLUB?

1980-ci ildə, Kommunist Partiyasının 26-cı qurultayı qurtarandan bir-iki gün sonra İlyas Əfəndiyevlə Cəmil Əlibəyov görüşür. Hal-əhvaldan sonra İlyas Əfəndiyev soruşur:

– Cəmil, gözümə birtəhər dəyirsən, nə olub?

Cəmil Əlibəyov deyir:

– İlyas müəllim, hansı bir namərdsə 26-cı qurultaya məndən onanim məktub yazıb.

– Nə yazıb?

– Yazıb ki, Əlibəyova kinostudiyanın direktoru kimi bir vəzifə tapşırıbsız, amma onun atası Ədil bəy Qaryagində yüzlərlə bolşeviki qanına qəltan eləyib.

İlyas Əfəndiyev gülür:

– Cəmil, Ədil bəyin yaxşı güllə atmağını mən rəhmətlik atamdan eşitmişəm. Amma Qaryagində yüzlərlə bolşevik hardaydı ki, Ədil bəy də onları bir-bir tutub qanına qəltan eləsin?

## 10

İlyas Əfəndiyev 82 il yaşadı.

Əlbəttə, az deyil.

O, bu dünyadakı missiyasını yerinə yetirdi və getdi.

Ancaq bir epizod həmişə mənim fikrimdədir.

İlyas Əfəndiyev mistik, sirli əhvalatlarla, anomal hadisələrlə, o cümlədən, Uçan Naməlum Obyektlərlə çox maraqlanırdı.

1996-cı ilin – ömrünün sonuncu ilinin bir yay axşamı, Zuğulbada, bağda, onun çox xoşladığı boylu-buxunlu evkalipt ağacının altında oturub söhbət edirdik və o söhbət fırlanıb gəlib Uçan Naməlum Obyektlərin üstünə çıxdı.

İlyas Əfəndiyev yarızarafat, yarıciddi:

– Onları çox görmək istəyirəm!– dedi.

Mən:

– Neynirsən onları?– soruşdum.

İlyas Əfəndiyev bir az rişxəndli, bir az da kədərli, qayğılı gözləri ilə göyə baxıb:

– Onlara deyəsi bir-iki sözüm var! – dedi.

Bəli, İlyas Əfəndiyev bu dünyada 82 il yaşadı və çox Söz dedi.

Amma, bununla belə, İlyas Əfəndiyev bu dünyada deyə bilmədiyi o «bir-iki» Sözü də həmişəlik özü ilə apardı...

O «bir-iki» Sözü daha heç kim deməyəcək...

2002.

## MÜNDƏRİCAT

**ROMANLAR**

Ölüm hökmü ………………………………………..4
İlyas Əfəndiyev: şəxsiyyəti və sənəti ……………267

ELÇİN
(ƏFƏNDİYEV ELÇİN İLYAS oğlu)

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

*(10 cilddə)*

5-ci cild


| | |
|---|---|
| NƏŞRİYYAT REDAKTORU | *Akif Dənzizadə,* |
| RƏSSAMI | *İlqar Tofiqoğlu,* |
| BƏDİİ REDAKTORU | *İlham Niftəliyev,* |
| TEXNIKI REDAKTORU | *Denis Izuf,* |
| KORREKTORLAR | *Rəfiqə Qəmbərqızı,*<br>*Fəridə Ələsgərli,*<br>*Gülarə Qədirova,* |
| OPERATORLAR | *Aygün Əmirli,*<br>*Elnurə Abuşeva,*<br>*Ramilə Əliyeva,* |
| ÇAPA MƏSUL | *Sərraf Mürsəlov,*<br>*Anar Abdullayev,*<br>*Azər Yunusov.* |

*Çapa imzalanmış 29.09.2005,*
*formatı 60x90 1/16,*
*31 ç.v.*
*ofset kağızı [1]1, tayms qarnituru,*
*sifariş 01/05,*
*sayı 1000.*

*Kitab*
***«ÇİNAR-ÇAP»***
*nəşriyyatında nəşrə hazırlanmış*
*və*
*ofset üsulu ilə çap olunmuşdur.*
*Tel.: 4989555, 4937255, 4902757*